**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

# DÜNYA İQTİSADİYYATININ TARİXİ

**(DƏRSLİK)**

*Dünya iqtisadiyyatinin tarixi*

*Azərbaycan Respublikası təhsil nazirinin 19.05.2010-cu il tarixli 605 saylı əmrinə əsasən qrif verilmişdir.*

**Bakı - 2010**

downloaded from KitabYurdu.org

Dərslik Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq iqtisadi münasibətlər" kafedrasında hazırlanmışdır.

**Müəlliflər**

**Ş.H.Hacıyev** i.e.d., professor

**Ə.İ.Bayramov** i.e.d., professor

**Elmi redaktor:**
**H.F.Cəfərov**
t.e.d., professor

**Rəyçilər:**
**R.Həsənov** – İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun direktoru i.e.d., prof.

**F.Ə.Rəhimli** – "Beynəlxalq iqtisadi münasibətlər" kafedrasının dosenti, i.e.n.

**Hacıyev Ş.H., Bayramov Ə.İ. Dünya iqtisadiyyatının tarixi. Bakı: "İqtisad Universiteti", 2010. - ........ səh.**

Dərslikdə dünya iqtisadiyyatının genezisi, qərarlaşması və inkişafı mərhələləri sistemli şəkildə əhatə edilməklə qlobal inkişaf prosesinin problemlər və hadisələr çoxluğu, ələlxüsus xüsusi əhəmiyyət kəsb edənlərin hər biri ayrı-ayrılıqda şərh olunur. Qlobal iqtisadi sistemin formalaşmasının daxili məntiqi və onun müxtəlif tarixi dövrlərdə yaranmış iqtisadi situasiyalarda təzahür formaları ilə bağlı olan problemlərə ümumdünya tarixi-iqtisadi prosesin "çoxölçülü" məntiqindən yararlanmaqla münasibət bildirilir.

Dərslik iqtisad, tarix, hüquq, politologiya və sosiologiya ixtisasları üzrə təhsil alan tələbələr, magistrlər və doktorantlar üçün nəzərdə tutulmuşdur.

© Hacıyev Ş.H., Bayramov Ə.İ. - 2010
© İqtisad Universiteti – 2010

downloaded from KitabYurdu.org

## *G İ R İ Ş*

Tarixi-iqtisadi prosesin, yaxud tarixdə baş vermiş iqtisadi hadisə və proseslərin araşdırılması keçmiş-indi-gələcək zaman oxu boyunca müəyyən ardıcıllıq və nizamla gedən transformasiyanın daxili məntiqi və təbiətinin dərk ediməsində xüsusi önəm daşıyır. Tarixi-iqtisadiyyat istiqamətli elmlər sırasında əlahiddə yer tutan "Dünya iqtisadiyyatının tarixi" fənnini öyrənmədən iqtisadi proseslərin mahiyyətini anlamaq, hər bir konkret tarixi epoxada bu və ya digər dövlətlərin (xalqların) iqtisadi inkişafının səbəblərini üzə çıxarmaq, ümumiyyətlə bir iqtisadçı-mütəxəssis kimi formalaşmaq son dərəcə müşkül işdir. Tarixi-iqtisadi yönümlü bilik:

- İlkin təsərrüfat formalarından tutmuş müasir mürəkkəb konfiqurasiyalı sistemli yaranışlara qədər olan iqtisadi təkamül prosesini anlamağa;
- Mühüm sosial-iqtisadi hadisə və prosesləri müqayisə və inkişaf prosesində görməyə;
- Bu və ya digər tarixi epoxalarda formalaşmış mülkiyyət formalarının, istehsal münasibətlərinin, iqtisadi kateqoriyaların, təsərrüfat mexanizmlərinin keçici xarakter daşıdığını, dəyişkənliyini, yeniləşmə zəruriliyini dərk etməyə;
- İqtisadi inkişafın çoxvariantlılığını, vahid inkişaf reseptinin yaxud modelinin olmadığını, prosesə təsir göstərən amillər çoxluğunun müxtəlifliyini anlamağa imkan verir.

Dünya iqtisadiyyatının tarixinin öyrənilməsini zəruri edən mühüm məqamlardan biri də onun böyük praktiki əhəmiyyət daşımasıdır. Belə ki, iqtisadi siyasətin istiqamətlərini, yaxud inkişafın fəlsəfi əsaslarını formalaşdırarkən keçmişdə baş verənlərin dərindən öyrənilməsi, tarixi təcrübənin sistemləşdirilməsi və s. əsas şərtlərdən biridir.

Təqdim etdiyimiz dərslikdə yalnız real tarixi-iqtisadi hadisə və problemlərə diqqət yetirilir.

Dünya iqtisadiyyatının genezisi, qərarlaşması və inkişafı prosesinin problemlər və hadisələr çoxluğu, ələlxüsus xüsusi əhəmiyyət kəsb edənlərin hər biri ayrı-ayrılıqda şərh olunur. Dərsliyin əsas ana xəttini "çılpaq" xronoloji dövrlənmələr deyil, qlobal iqtisadi sistemin formalaşmasının daxili məntiqi və onun müxtəlif tarixi dövrlərdə yaranmış iqtisadi situasiyalarda təzahür formaları təşkil edir.

Tarix – prosesdir! Onun iqtisadi, sosial, siyasi, mədəni və s. və i.a. tipli tərkib ünsürlərinin "davranış tərzindən" asılı olmayaraq, "proses" kimi heç bir xarakter dəyişikliyinə məruz qalmır.

downloaded from KitabYurdu.org

Məlumdur ki, bununla əksər tədqiqatçılar razılaşsalar da, onun mahiyyəti prizmasından yekdil fikirdə deyillər:

1) Tarix – yüksələn xətlə gedən inkişaf prosesidir, tərəqqidir.
2) Tarix – sadəcə olaraq inkişafdır.
3) Tarix – ancaq dəyişmədir.

Sonuncu baxış tarixi heç də həmişə proses kimi səciyyələndirmir. Tarix – bir-biri ilə əlaqədə olmayan çox sayda müxtəlif təsadüflərin qaydasız yığınıdır.

İstənilən halda, tarixi prosesin mahiyyətini anlamaq üçün inkişaf edənin "nə", yaxud "kim" olduğunu, başqa sözlə, prosesin subyektini müəyyənləşdirmək zəruridir.

Həmçinin, qeyd edilməlidir ki, tarixin subyekti elə tədqiq edilən obyektin özüdür. Yəni, tarixi prosesdə tədqiqat nöqteyi-nəzərindən subyekt – obyekt eyniyyəti mövcuddur.

Məhz bu prizmadan, dünya iqtisadiyyatının tarixində ən azı üç böyük problem mövcuddur:

1) Tarixi-iqtisadi prosesin dərkedilməsi və interpretasiyası problemi.
2) Tarixi-iqtisadi prosesin əsasları və hərəkətverici qüvvələrinin müəyyənləşdirilməsi problemi.
3) Tarixi-iqtisadi prosesin xronoloji dövrlənməsi problemi.

Müasir tarixi-iqtisadi ədəbiyyatda, o cümlədən retrospektiv müstəvidə sadalanan problemlərə yanaşma tərzləri ifrat çoxluğu, ziddiyyətliliyi və bir çox hallarda tarixi gerçəkliyə adekvat olmamaları ilə səciyyələnir. Əgər nəzərə alsaq ki, tarixi-iqtisadi prosesin hərəkətverici qüvvələri ilə tarixi-iqtisadi prosesin düzgün dərkedilməsində mühüm rol oynayan səbəbiyyət, determinizm, təsadüf və zərurət, imkan və gerçəklik, müəyyənlik və qeyri-müəyyənlik, azadlıq və s. Problemlər sıx bağlılıqdadır, onda metodoloji müəyyənliyin və gerçəkliyə adekvatlığın müstəsna rol oynadığını anlaya bilərik.

Dərsliyin ənənəvi qaydada tərtib edilmiş dərsliklərə verilən tələblərə o qədər də uyğun gəlmədiyinin fərqindəyik. Ənənəviçilik dərslikdə ümumqəbul edilmiş elmi həqiqətlərin əks olunmasını, onların mübahisəsizliyi və alternativsizliyini başlıca tələb kimi ortaya qoyur. Əlbəttə, bu cür yanaşmanı qəbul etməmək mümkünsüzdür.

Amma təəssüf ki, " dünya iqtisdiyyatının tarixi"ndə (eləcə də, əksər ictimai-humanitar elmlərdə) bir elm kimi hamı tərəfindən birmənalı olaraq qəbul edilən "həqiqətlər" yoxdur.

Bunun yerinə bir-birini inkar edən "həqiqətlər" bolluğu mövcuddur. Elmin bugünkü metodoloji arsenalı çərçivəsində bu "həqiqətlər"dən

downloaded from KitabYurdu.org

hansının yeganə düzgün "həqiqət" olduğunu müəyyənləşdirmək mümkünsüz görünür. Buna görə də, tələbələri "həqiqət" adı altında təqdim edilən biristiqamətli yanılma çərçivəsinə salmaqdansa, bütövlükdə mövcud olan çoxluğun panoramını verməyi daha məqsədəuyğun hesab edirik. Bununla belə, bir çox məsələlərdə konkret müəllif mövqeyi də sərgilənir.

Dərsliyin tərtibi metodikası ənənəvi yanaşmadan həm məzmun, əhatə dairəsi, həm də mahiyyətcə fərqlidir. Fərqlilik – real gerçəkliyin ifrat müxtəlifliyindən və ümumdünya tarixi-iqtisadi prosesin "çoxölçülü" məntiqindən qaynaqlanmaqla aşağıdakıları ehtiva edir:

- Tarixi-xronoloji müstəvidə, eləcə də müasir dövrdə baş verən hadisə və proseslərin real məzmununa tam şəkildə adekvat olan, hamı tərəfindən qəbul edilən vahid sinkretik nəzəriyyənin yoxluğu;
- Metodoloji baxışlarda ifrat müxtəliflik;
- İqtisadi-tarixi proses və hadisələrdə həqiqətin aşkarlanması kriterilərinin mübahisəliliyi və ziddiyyətliliyi;
- İqtisadi məzmun daşıyan tarixi faktların interpretasiyasında subyektivizmin həlledici rol oynaması; Faktların gerçəklik dərəcəsini yoxlamaq imkanlarının ifrat məhdudluğu, yaxud mümkünsüzlüyü.

Dərsliyin konkret strukturuna gəldikdə isə, qeyd etməliyik ki, ilkin başlanğıc, yaxud biliklərin strukturlaşdırılması prizmasından fərqli yanaşma ortalığa qoyulmuşdur.

Dünya iqtisdiyyatının bir sistem kimi yaranması və inkişafından çıxış etməklə tarixi-iqtisadi prosesin xronoloji dövrlənməsində əsas kriteri kimi kardinal dəyişikliklərlə sonuclanan keyfiyyət aspektləri götürülmüşdür. "Kardinal dəyişiklik" ifadəsi təkcə iqtisadi sferada deyil, bütünlükdə cəmiyyətin (qlobal sosium) yeni keyfiyyət mərhələsinə keçid anlamını daşıyır. İctimai həyatın bütün sferalarında adekvat dəyişikliklərə səbəb olan yeniləşmə prosesi 4 böyük (mahiyyətcə) xronoloji dövrdə qruplaşdırılmışdır:

1) "Mənimsəmə" iqtisadiyyatı.
2) "İstehsal" iqtisadiyyatı.
3) "Xidmət" iqtisadiyyatı.
4) "İnformasiya" iqtisadiyyatı.

Fikrimizcə, qeyd edlən ardıcıllıqla verilən dövrlənmə:

Tarixi-iqtisadi prosesin interpretasiyasında hər hansı br nəzəri-metodoloji çərçivədə "qapanmaq" məcburiyyətini aradan qaldırır. Tarixi həqiqətin aşkarlanması nöqteyi-nəzərindən qeyd edilən qənaət əslində elmi

downloaded from KitabYurdu.org

tədqiqat prosesinin “azadlığı”na nailolma anlamını daşıyır. Həqiqətən də, mövcud nəzəri-metodoloji və konseptual yanaşmalarda yer alan yanılmalardan istifadə edilməsi ən yaxşı halda nəzəri yanılmanın gerçəkliyə transferindən başqa bir şey olmayacaqdır.

Tarixi-iqtisadi prosesin ən kiçik nüanslarını belə nəzərə almaq imkanı yaradır.

Dünya iqtisadiyyatının bir sistem kimi genezisi və inkişafında bu və ya digər dərəcədə rol oynayan amillər çoxluğunun konseptual ümumiləşdirilməsinə imkan verir.

Dərsliyin birinci bölməsi “Girişə sözardı”... adı altında verilmişdir. Girişdə tezis şəklində ifadə etdiklərimizin tarix fəlsəfəsində tarixin nəzəri dərki ilə bağlı mövcud olan problemlərə müəyyən aydınlıq gətirilməsi zəruriliyi məhz bu bölmədə öz əksini tapmışdır.

İkinci bölmə dünya iqtisadiyyatının tarixinin həm elm, həm də fənn kimi mahiyyət və məzmun açıqlamasına, eləcə də ümumdünya tarixi-iqtisadi prosesin dövrlənməsi probleminə həsr edilmiş nəzəri baxışların müqayisəli təhlilinə, hər bir konkret konseptual yanaşmanın üstün və naqis cəhətlərinin müəyyənləşdirilməsinə həsr edilmişdir. Sonrakı bölmələr birbaşa dünya iqtisadiyyatının genezisi, qərarlaşması və inkişafı prosesinin məntiqi ardıcıllıqla düzülüşünü özündə əks etdirir.

“Dünya iqtisadiyyatının genezisinəqədərki dövr” – III bölmə ən qədim və qədim dövrləri, “mənimsəmə” və “istehsal” iqtisadiyyatlarını, erkən və klassik orta əsrlərə qədər davam edən planetar dəyişikliklər prosesini əhatə edir.

IV bölmə - “Dünya iqtisadiyyatının genezisi dövrü” son orta əsrlərdən etibarən böyük əhəmiyyət daşıyan hadisə və prosesləri, real bazarın, müstəmləkə sisteminin formalaşması, Böyük coğrafi kəşflərin sosial-iqtisadi nəticələri, ilkin kapital yığımını, sənaye inqilabını və s. ehtiva etmişdir.

Sonrakı iki bölmə dünya iqtisadiyyatının qərarlaşması və inkişafı dövrlərinə həsr edilmişdir.(“Xidmət” və “informasiya” iqtisadiyyatı).

Dərsliyin əsas aparıcı xətlərindən biri dünyanın Şərq-Qərb bölümündə nəzərdən keçirilməsi və hər biri üçün tipik olan ayrı-ayrı ölkələrin (hər iki regionda aparıcı rol oynayan) iqtisadi sistemlərinin təkamülü xüsusiyyətlərinin aşkara çıxarılmasından keçir.

Dərslik müasir dünya iqtisadiyyatının inkişaf paradiqmasının tənqidi və onun yeniləşməsi zəruriliyinin əsaslandırılması, konkret konseptual baxışların ortalığa qoyulması ilə tamamlanır.

downloaded from KitabYurdu.org

Dərslik iqtisad, hüquq, sosiologiya, politologiya və tarix ixtisası üzrə təhsil alan tələbələr, magistrlər və doktorantlar üçün nəzərdə tutulmuşdur. Eyni zamanda, dərslik geniş oxucu kütləsi üçün də əhəmiyyət kəsb edir.

"Dünya iqtisadiyyatının tarixi" dərsliyi respublikada ilk dəfədir ki, işıq üzü görür. Dərslik haqqında konstruktiv fikir və tövsiyələrini bildirəcək hörmətli oxuculara bəri başdan dərin minnətdarlığımızı bildiririk.

***Müəlliflər***

downloaded from KitabYurdu.org

# I BÖLMƏ

# GİRİŞƏ SÖZARDI

## I fəsil. Tarix fəlsəfəsi: problemlər, mülahizələr

Tarix fəlsəfəsi – elmin (tarix elminin) mühüm istiqamətlərindən biri olmaqla ilk dəfə Avropada, intibah dövründə diqqət mərkəzinə gəlmişdir.

"Tarix fəlsəfəsi" terminini elmi dövriyyəyə Volter daxil etmişdir. "Təsvirçi" tarixlə, yəni yalnız faktların aşkarlanması ilə məşğul olan tarixlə tarixi prosesin nəzəri konstruksiyası arasında fərqin ilk dəfə ciddi şəkildə əsaslandırılmasına J.J.Russonun əsərlərində rast gəlinir. Ona qədərki dövrdə D.Vuko "yeni elmlə (tarix fəlsəfəsi)" əldə edilən "əbədi ideal tarix" və ayrı-ayrı xalqların empirik tarixi anlamında fərqin mövcudluğunu göstərmişdir.

Sistemlilik prizmasından tarixi materialist baxışın əsas müəllifi K.Marks olmuşdur. XX əsrdə tarix fəlsəfəsinin inkişafı N.Berdyayev, K.Yaspers, R.Aronun əsərlərində geniş vüsət almışdır. Tarix fəlsəfəsinin interpretasiyaları sırasında U.Rostou və A.Toynbinin konsepsiyaları daha populyar mövqe tutur.

P.Qardiner[1] tarix fəlsəfəsinin mahiyyət açıqlanmasına özünəxas tərzdə yanaşmışdır. Bu anlamda o, iki məsələni fərqləndirməyi təklif edirdi: "Tarix daxili" və "Tarix haqqında". Onun fikrincə, tarixçilər birinci, filosoflar isə ikinci suala cavab verirlər.

Tarix fəlsəfəsi Qərb ölkələrində kifayət qədər populyardır. E.Karr[2] yazırdı ki, tarixin fəlsəfəsinə fikir verməyən tarixçilər.... "....bizim həyətyanı bağçalarımızda cənnət yaratmağa" çalışanlardır.

Müasir tarix fəlsəfəsi – fəlsəfi biliyin nisbi müstəqil sahəsi olmaqla, cəmiyyətin inkişafının təbiətdən fərqli keyfiyyət özünəməxsusluğunu öyrənir.

Tarix fəlsəfəsi 4 əsas problemlə məşğuldur:

1. Tarixin mənası və istiqaməti.
2. Cəmiyyətin tipologiyasına metodoloji yanaşmalar.
3. Tarixin dövrlənməsi kriteriləri.
4. Tarixi prosesin tərəqqi (inkişaf) kriteriləri.

---

[1] Gardiner P. The nature of Historical Explanation. London., 1965.,

[2] Карр. Э. История и факты //Современные тенденции в буржуазной философии и методологии истории. Ч. 1 и 2.. М., 1969.- С.24.

downloaded from KitabYurdu.org

Tarix fəlsəfəsinin bir elm sahəsi kimi geniş vüsət almasına baxmayaraq, sadalanan problemin heç biri üzrə vahid yanaşma yoxdur. Qeyd edilən yönümdə irəli sürülmüş baxışlar o qədər polyardır ki, onlar arasında hansısa bir kəsişmə nöqtəsi tapmaq prinsipial olaraq mümkün deyildir. Belə ki, filosofların bir qrupu tarixin mənasının olduğunu əsaslandırmağa çalışır, digər qrup isə ümumiyyətlə, inkar mövqeyində dayanır. Yaxud, bəzi müəlliflər tarixi qanunları qəbul edir, digərləri isə bunu nonsens adlandırırlar.

Ziddiyyətli situasiya artıq elə bir səviyyəyə çatmışdır ki, hətta "tarixi prosesin hərəkətverici qüvvəsi nədir" - sualına belə ən müxtəlif cavablar verilir.

"Dünya iqtisadiyyatının tarixi" kursu üçün müəyyən əhəmiyyət kəsb etdiklərini nəzərə alaraq yuxarıda sadalanan problemlər üzrə bu günə qədər formalaşmış yanaşmaların panoramını verməyi məqsədəuyğun hesab edirik.

## § 1.1. Tarixi prosesin mənası varmı?

Bəri başdan qeyd edək ki, cəmiyyətin haradan gəlib hara getdiyini, yaxud tarixi prosesin istiqamətini (yönümlülüyünü) xüsusi araşdırmağa ehtiyac yoxdur. O mənada ki, yönümlülük sabit deyil, dinamikdir, dəyişkəndir və hər bir tarixi dövrdə o dövrün gerçəkliklərindən çıxış etməklə formalaşır. Yəni, birdəfəlik həll edilən, birdəfəlik müəyyənləşdirilən deyildir.

1. Antik fəlsəfədə problemə ikili baxış mövcud olmuşdur:
   - Sivilizasiya inkişaf etdikdə cəmiyyət "çürüyür". Tarixi proses "qızıl əsrindən " "gümüş əsrinə", oradan isə "dəmir əsrinə" keçir.
   - "Dövriyyə nəzəriyyəsi"nin ilkin variantı Heraklit tərəfindən irəli sürülmüşdür . Tarixi proses əbədi alov kimidir – gah sönür, gah da yeni güvvə ilə yenidən alovlanır. "Dövriyyə nəzəriyyəsi"nin müəllifləri sırasında Aristoteli, D.Vukonu, O.Şpenqleri, A.Toynbini və digərlərini göstərmək olar.
2. Tarixi – inkişaf kimi, cəmiyyətin ibtidaidən aliyə, ibtidai həyat tərzindən daha təkmil səviyyəyə yüksəlişi kimi şərh edən nəzəriyyələr (Kondorse, Tyurqo, İ.Kant, V.Hegel, K.Marks). Marksist yanaşma belə bir mövqedən çıxış edir ki, tarixin müəyyənləşmiş məqsədi və deməli, mənası var: məqsəd – "azadlığın hökmranlığına" nail olmaqdır ki, bu-

downloaded from KitabYurdu.org

nun üçün də xüsusi mülkiyyət aradan qaldırılmalı və sinifsiz cəmiyyət qurulmalıdır. A.Toynbi marksist ruhu... yəhudi ruhu adlandırır. Belə ki, ... Marks Yahvanın (yəhudi Allahı) yerinə “tarixi zərurət” ilahəsini, yəhudilərin yerinə - müasir proletariatı qoymuş, peyğəmbərin hakimiyyətini isə proletariat diktaturası kimi təsvir etmişdir.[3]

3. Ümumdünya tarixi prosesin vahidliyini irəli sürən yanaşmalar (A.Avqustin). Teoloji xarakter daşıyan baxışa görə tarix İsa peyğəmbərin dünyaya gəlməsindən başlanır və axirətlə başa çatacaqdır.
4. Tarixin mənasını təbii zərurətlə, yəni səbəb-nəticə əlaqələrinin daimi təkrarlanması ilə bağlayan yanaşmalar (D.Vuko).Vukonun fikrincə, bütün xalqlar eyni yolu keçirlər. Başqa sözlə, hər bir xalqa münasibətdə tarixi prosesin 3 epoxası olub: İlahi; qəhraəmanlıq; insanlıq; hansı ki, bəşəriyyətin uşaqlıq, gənclik və yetkinlik səviyyələrinə uyğundur. Və qeyd edilən dairə birdəfəlik qapanmır. Proses başa çatdıqdan sonra yeni proses başlanır – həmin mərhələlər yenidən keçilir.
5. İntibah dövründə (XVIII əsr) tarixin mənası insan zəkasının tərəqqisi ilə əlaqələndirilirdi. Buna adekvat olaraq bəşəriyyətin tarixi həmin tərəqqinin mərhələləri üzrə hərəkət kimi qəbul edilirdi. Cəmiyyətin tərəqqisi həqiqətə və xoşbəxtliyə doğru hərəkətdir (Kondore).
6. Tarixilik (историцизм) prinsipi (İ.Qerder, V.Hegel). Hegel iki əsas prinsipi qəbul edirdi:

- Tarixin substansionallığı; tarixin əsas substansiyası zəkadır və zəka – hüdudsuz gücə malikdir;
- Tarixi prosesin bütövlüyü (tamlığı) və məqsədəmüvafiqliyi; Ümumdünya tarixinin son məqsədi – ruhun öz azadlığını dərketməsidir.

Marksizmdə “tarixilik” (историзм) “tarixiçiliyə” (историцизм) çevrilir. Prinsipin real mahiyyəti kardinal şəkildə dəyişir və cəmiyyətin və tarixin materialist dərkinə yönəlir.

Qeyd etmək lazımdır ki, filosofların böyük əksəriyyəti “tarixilik” prinsipini ya qismən, ya da bütövlükdə inkar edirlər (P.Rikket, V.Vindelband, K.Yaspers və s.) K.Yaspers insanlar tərəfindən fəaliyyətin

---

[3] Toynbe A.J. A.Study of History. L., 1936, p. 178

downloaded from KitabYurdu.org

əsas oriyentləri keyfiyyətində irəli sürülən subyektiv xarici dəyərləri, yaxud məqsədləri aşağıdaki kimi sistemləşdirir:

1. Sivilizasiya və insanın humanistləşməsi; Məqsəd – özü tarixidir.
2. Azadlıq və azadlığın dərki:
3. İnsanın böyüklüyü, ruhi yaradıcılıq mədəniyyətin ictimai həyata gətirilməsi, dahinin yaradıcılığı;
4. Varlığın insanda aşkarlanması, ilahiyyatın aşkarlanması.

Yaspers qeyd edir ki, bu məqsədlər universaldır və hər bir tarixi epoxada həyata keçirilə bilər və qismən də keçirilir.[4] Bu aspektdən K.Popperin tənqidi daha səciyyəvidir. K.Popper tarixi prosesə marksist yanaşmanı qəti olaraq qəbul etməmişdir. O, tarixin obyektiv qanunlarının olmadığını və buna görə də sosial proqnozlaşdırmanın mümkünsüzlüyünü irəli sürürdü. "... Tarixi zərurətə inam keçmişin qalığıdır və bəşər tarixinin gedişini elmi metodlarla əvvəlcədən müəyyənləşdirmək mümkün deyildir."[5]

K.Popperin əsas arqumentləri aşağıdakılardan ibarətdir:

1. Bəşər tarixinin gedişi əhəmiyyətli dərəcədə insan biliklərinin artımından asılıdır;
2. Elmi biliyin artımının necə olacağını biz əvvəlcədən deyə bilmərik;
3. Deməli, biz bəşər tarixinin gedişini əvvəlcədən müəyyənləşdirə bilmərik;
4. Bu o deməkdir ki, biz nəzəri tarixin mümkünlüyünü inkar etməliyik.

Göründüyü kimi, K.Popper tarixi tərəqqini inkar edir. Tərəqqi – hansısa bir məqsədə doğru hərəkətdir, məqsəd – yalnız insana aiddir, tarix üçün bu, sadəcə olaraq mümkünsüzdür. Buna görə də, K.Popper hesab edirdi ki, yalnız insan inkişaf eləyə bilər. Beləliklə, K.Popper tarixin subyektiv məna daşıyıcısı olduğunu göstərir: "... Baxmayaraq ki, tarixin məqsədi yoxdur, biz ona öz məqsədlərimizi "yeridə" bilərik, eynilə, tarixin mənası yoxdur, biz onu mənalandıra bilərik "[6].

Tarixin mənası varmı? - sualına cavab olaraq N.İ.Konrad yazırdı ki, cavabın məzmunundan asılı olaraq: "… Tarix fəlsəfəsinin iki konsepsiyası meydana çıxır: Heç bir məna yoxdur, sadəcə olaraq eyni

---

[4] Ясперс К. Истоки истории и ее цель. Вып.2. М., 1994.- С.172.
[5] Поппер К.Р. Нищета историцизма// Вопросы философии.-1992. N4.С.49.
[6] Поппер К.Р. Открытое общество и его враги. М., 1992, Т.2, с.321

downloaded from KitabYurdu.org

şeyin fasiləsiz təkrarlanması mövcuddur. Məna var və tarix yüksələn xətlə gedən fasiləsiz hərəkətdir. Birinci konsepsiya – dövriyyə nəzəriyyəsi, ikinci isə - tərəqqi nəzəriyyəsidir. Və, hər iki nəzəriyyə tənqid olunur".[7]

Tarixi proses nəyin naminə baş verir - sualına XX əsr fəlsəfəsində dominant mövqeyə malik olan ekzistensializmin (Sartr, Kamyu, Kafka, Bovuar və s.) yanaşma tərzi də xüsusi orjinallığı ilə seçilmir. Onlar tarixin mənasını məqsədlə və insanın mövcudluğunun mənası ilə bağlayırlar. Məsələn, K.Yaspers insanın mahiyyətini azadlıqda görür. Hansı ki, insanın ruhani gücünün sərbəst realizəsində təzahür edir.

Beləliklə, müasir filosofların böyük əksəriyyəti hesab edir ki, tarixi prosesin məqsədi yoxdur və ola da bilməz.

Məqsədi – həm özü, həm də cəmiyyət qarşısında insan müəyyənləşdirir. Bu məqsədə adekvat olaraq tarixin mənası formalaşır.

Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, tarix fəlsəfəsinin ümumi problemlərinin həllində az ya çox dərəcədə inandırıcılığa nail olunması yalnız tarixin müəyyən bir konsepsiyası çərçivəsində mümkündür.Əks təqdirdə, yəni nəzəriyyədən kənar müstəvidə qeyd olunan problemlərin araşdırılması konkret elmi nəticələr verə bilməz. Məhz bu anlamda tarix fəlsəfəsi digər elmlərdən elə də fərqlənmir.

Ənənəvi olaraq tarix fəlsəfəsi tarixin mənası və yönümlülüyü aspektində zatən heç vaxt "susmamışdır". Belə qəbildən olan baxışların əsasında sadə bir ideya dayanır: Bəşəriyyətin mövcudluğu mənasız ola bilməz, onun konkret təyinatı və yönümlülüyü var; Bu anlamda da bəşəriyyətin təkamülü konkret məna ilə "yüklənmişdir".

Qeyd etmək lazımdır ki, "məna" konsepti tarixi prizmadan kifayət qədər dağınıq və haradasa anlaşılmaz bir haldadır. K.Levit[8] qeyd edir ki, "...Tarixin mənası anlayışı ilə digər ümumi problemlər arasında birbaşa bağlılıq vardır". "Məna" probleminin yalnış anlaşılması digər problemlərin də gerçək dərkolunmasını mümkünsüz edir.

Maraqlıdır ki, son dövrlərə qədər tarix fəlsəfəsi "məna" problemini əsas problem kimi həll etməyə çalışırdı. Lakin konkret nəticə əldə edə bilmədiyinə görə tarix fəlsfəsinin bir elm kimi prinsipcə mümkünsüzlüyü (müasir şəraitdə) qənaətinə gəlinməyə başlamışdı.

---

[7] Конрад Н.И. Запад и Восток. М., 1972, с.455
[8] Левит К. О смысле истории // Философия истории. Антология.М; 1995. –С.263

downloaded from KitabYurdu.org

P.Tillix[9] problemə münasibətdə daha dərin qatlara nüfuz etməyə çalışmış, mənanı təkcə ümumi problemlərlə deyil, həmçinin səbəbiyyət əlaqələrinin aşkarlanması müstəvisində tarixi faktların seçimi problemi ilə bağlayırdı. Onun fikrincə, tarixi prosesin interpretasiyası bir çox səviyyələrdən ibarətdir:

Göründüyü kimi, interpretasiya, məzmunu və səviyyəsindən asılı olmayaraq məna ilə birbaşa bağlılıqdadır.

Problemin mürəkkəbliyi həm də "məna" konseptinin özünün məna tutumu ilə bağlıdır. "Məna"nın ən çox istifadə olan iki izahı mövcuddur:

1. Linqvistik yanaşma: Mənanı ifadənin məzmunu anlamında şərh edir;
2. Teleoloji yanaşma: Hər hansı bir məqsədə "xidmət" edən fəaliyyətin xarakteristikası.

Qarşıya qoyulmuş məqsədəçatma istiqamətində həyata keçirilən fəlaiyyət "mənalı" fəaliyyətdir, əks-təqdirdə onun heç bir mənası yoxdur. Eyni zamanda, qeyd olunan prizmadan məqsədin dərk edilib-edilməməsinin heç bir əhəmiyyəti yoxdur. Beləliklə, məna = məqsəd eyniyyəti meydana çıxır. Yalnız məqsədli olanın mənası ola bilər. "... Təsadüfi deyildir ki, "məna" və "məqsəd", yaxud "məna" və "niyyət" bir-birini əvəz edə bilir ".[10]

"Tarixin mənası" haqqında danışarkən, birmənalı olaraq mənanın teleoloji məzmunu əsas götürülür. K.Levit yazır ki, tarixi fəaliyyətin yaxud hərəkətin son məqsədi haqqında o vaxt mühakimə yürütmək olar ki, gələcək məqsəd aydın dərkedilən hala gətirilsin.

---

[9] Тиллих П.История и Царство Божие // Философия истории. Антология. М., 1995.- С.235
[10] Левит К. О смысле истории// Философия истории. Антология. М.. 1995.- С.263

downloaded from KitabYurdu.org




***Şəkil 1.1. Tarixi prosesin interpretasiya səviyyələri***

"Tarixin mənası" haqqında danışarkən, birmənalı olaraq mənanın teleoloji məzmunu əsas götürülür. K.Levit yazır ki, tarixi fəaliyyətin, yaxud hərəkətin son məqsədi haqqında o vaxt mühakimə yürütmək olar ki, gələcək məqsəd aydın dərkedilən hala gətirilsin.

Əgər tarixi hərəkətin istiqaməti və gedişi radiusu müəyyən olunubsa, onun mənası ("tam" kimi götürülməklə) həmin hərəkətin sonundan çıxış etməklə şərh olunur. "Tam"ın mənası var, ona görə ki, onun müəyyən çıxış nöqtəsi və aydın dərk edilən sonu mövcuddur. Belə olan təqdirdə sualı başqa cür də qoymaq olar: tarixin məqsədi varmı? Ümumiyyətlə, nəinki tarixin, istənilən fəaliyyətin məqsədi öz-özlüyündə mental yaranış olmaqla, dəyərliliyin növ müxtəlifliyinə aiddir.

Bu prizmadan tarixin mənasını tarixi prosesin hansısa dəyərə istiqamətlənməsi kimi də başa düşmək olar. Aksiologiyada[11] dəyər əsasən iki yerə bölünür: Daxili (öz-özlüyündə dəyərli olan) və xarici (hansısa daxili dəyərin əldə olunmasına xidmət edən).

Məsələn, pul – öz-özlüyündə dəyərli deyildir. O, yalnız hansısa daxili dəyərə malik şeyi əldə etməyə imkan verən universal vasitə kimi dəyərə malikdir. Aydındır ki, yuxarıda qeyd etdiyimiz bölgü nisbi xarakter daşıyır və birmənalı olaraq kontekstdən asılı dəyişən kimi çıxış edir.

---
[11] Ивин А.А. Основания логики оценок. М., 1970

downloaded from KitabYurdu.org

Tarixin mənası probleminə yanaşmada dəyərin, yaxud məqsədin digər bir bölgüsü: obyektiv və subyektiv bölgü də mühüm əhəmiyyət kəsb edir.

Obyektiv dəyər, yaxud məqsəd: insanın fəaliyyəti, yaxud fəaliyyətsizliyindən asılı olmayaraq hadisələrin təbii gedişində həyata keçir; Subyektiv dəyər, yaxud məqsəd ilə elə hadisə və situasiyaları ehtiva edir ki, ona çatma yolunda insan düşünülmüş və aktiv fəaliyyət göstərir.

Sözügedən bölgülərə müvafiq olaraq tarixin mənası problemində 4 mümkün variant ortalığa çıxır:

1. Tarix məna yükü daşıyır, belə ki, o, müəyyən dəyərləri əldə etməyə imkan verən vasitə kmi çıxış edir. (Məsələn, azadlıq, rifah, şəxsiyyətin hərtərəfli inkişafı və s.). Bu dəyərlərin əldə edilməsi prosesi tarixi inkişafın nəticəsi olsa da, insanların planlarından, tarixi dərketmə qabiliyyətindən, şüurlu fəaliyyətindən asılı deyildir.
2. Tarixin mənası var, belə ki, onun mövcudluğunun hər anı da öz-özlüyündə dəyərlidir, eyni zamanda, tarixin daxili dəyərliliyi insanlardan (bu dəyərliliyi anlayıb-anlamamalarından asılı olmayaraq) qətiyyən asılı deyildir.
3. Tarix bəşəriyyətin formalaşdırdığı ideallara çatma vasitəsi kimi müəyyən məna daşıyır;
4. Tarixin mənası var, belə ki, o, pozitiv olaraq, öz-özlüyündə dəyərlidir və bu dəyər kənardan deyil, daxilindən qaynaqlanır (insanlar tərəfindən).

Beləliklə, göründüyü kimi, tarixin mənası varmı? - sualının daxili məntiqi və qoyuluşu dəyişir:

1. Tarix – öz-özlüyündə məna yükü daşıyır (1-ci və 2-ci yanaşmalar). Bu, insanlardan və ümumiyyətlə, bəşəriyyətdən asılı deyildir, yaxud həmin mənanın formalaşmasında nə ayrı-ayrı fərdlər, nə də bütövlükdə bəşəriyyət iştirak etmir. Tarixin gedişi əvvəlcədən müəyyənləşibdir.

2. Sonuncu iki yanaşmaya (3-cü və 4-cü yanaşmalar) görə isə tarixi mənalandıran insandır.

P.Tillix tarixin mənasını bütövlükdə varlığın mənası ilə bağlayır. “... Tarixi zaman – bütün digər zaman dəyişmələrini özündə ehtiva edən

downloaded from KitabYurdu.org

zaman olduğuna görə tarixin mənası... varlığın universal mənası kimi çıxış edir”[12].

Elə buradaca qeyd edək ki, Tillixin təsvir etdiyi əlaqə yalnız və yalnız o halda gerçək məzmun daşıya bilər ki, tarixə obyektiv “don” geydirilsin.

Dünya iqtisadiyyatının tarixi kursunun elmi statusunu müəyyənləşdirən arqumentlər sırasında istinad edilməsi zəruri və qaçılmaz olan əsas problem əks bağlılığın “necə”liyindən birbaşa asılılıqdadır. Başqa sözlə, iqtisad elminin tarixlə simbiozundan yaranmış elmi istiqamətlər, o cümlədən dünya iqtisadiyyatının tarixi çərçivəsində qarşılıqlı bağlılığın xarakteri əksər tarixi dönəmlərdə nəzər-diqqətdən kənarda qalmışdır. İqtisad elminin tarixə münasibəti necədir? - sualına əsaslandırılmış cavab (daha doğrusu - cavablar) verilmiş, lakin iqtisad elmi çərçivəsində tarixin mənası, əhəmiyyəti ilə bağlı məsələ açıq qalmışdır. İqtisad elminin qlobal böhranı fonunda qeyd edilən problem xüsusi əhəmiyyət kəsb edir. Yalnız son dövrlərdə bu məsələ diqqət mərkəzinə gəlmiş və kifayət qədər orijinal yanaşma formalaşdırılmışdır. İqtisadi təhlildə tarixi hadisələrin uçotunun mühümlüyünə istinadla irəli sürülmüş konsepsiya – inkişafın əvvəlki yolundan asılılıq konsepsiyası adlanır. Hal-hazırda sözügedən konsepsiya son dövrlərdə iqtisad elminin ortalığa qoyduğu neoevolyusionizm (yeni təkamül nəzəriyyəsi) çərçivəsində yer almaqdadır. İlkin olaraq P.Devid[13] göstərmişdir ki, tarixi və institusional amillərin təsiri altında, bazar üçün daha əlverişli alternativlərin olmasına baxmayaraq, qeyri-effektiv texnologiyaların bazar seçimi (təkamül prosesində) tamamilə mümkündür.

Sonrakı müddət ərzində həmin ideya B.Artur[14] tərəfindən daha ciddi riyazi formada inkişaf etdirilmişdir. Artur belə bir tezis irəli sürdü ki, tarix o halda mühüm əhəmiyyət kəsb edir ki, orada iqtisadiyyatın texnoloji inkişafı çox kiçik, elə bir əhəmiyyəti olmayan hadisələrdən asılı olur. Bu da istənilən etibarlılıq dərəcəsi ilə bazar bölgüsünü əvvəlcədən müəyyənləşdirməni (öngörməni) mümkünsüzləşdirir. Qeyd edilən tezisin daxili məntiqi ilə hərəkət etsək, onda belə alınır ki, iqtisadi gələcəyin öngörməsində həm nəzəri, həm də praktiki hədlər mövcuddur.Yəni, heç

---

[12] Тиллих П. История и Царство Божие// Философия истории. Антология. М., 1995.- С.236

[13] David P.A. Clio and the Economics of QWERTY// The American Review. VOL/75, N2, p.332-337

[14] Arthur W.B. İncreasing Returns and Path Dependence in the Economy. Ann Arbor: The University of Michiqan Press., 1994.

downloaded from KitabYurdu.org

bir halda elmi təfəkkürün, empirik təcrübənin hüdudsuzluğundan danışmaq mümkün deyildir. Konsepsiyada əvvəlki inkişaf yolundan asılılıq iki istiqamətdə nəzərdən keçirilir:

1. Pozitiv: Əvvəlki inkişaf yolundan asılı olan proseslər mənfi "yüklüdür" - əvvəl mövcud olmuş proseslərin istisnalar sinfinə aiddir. Bu halda sistemin inkişaf tarixi üçün ayrı-ayrı detallar heç bir əhəmiyyət kəsb etmir.
2. Neqativ: öz keçmişindən "təmizlənmək" qabiliyyəti olmayan proseslər nəticə etibarilə əvvəlki inkişaf yolundan asılılıq doğurur.

Yəni əvvəlki inkşaf yolundan asılılıq prosesinin "məzmun" dəqiqləşdirilməsi üçün təsadüfi proseslərin və dinamik sistemin xarakterik cəhətlərinin təhlili əsasında nəzəri-məhdudlaşdırıcı model qurulmalıdır.

Beləliklə, ilkin interpretasiya (Devid-Artur) çərçivəsində sözügedən konsepsiya: 1) tarixin əhəmiyyəti olduğunu təsbit edir; 2) qeyri-effektiv texnologiya və institutların seçiminin önlənməsi prizmasından iqtisadiyyatda "qapanma" effekti yarada biləcək hadisələrin əvvəlcədən müəyyənləşdirilməsinin qeyri-mümkünlüyünü ortalığa qoyur; 3) yanlış seçimdən qorunmanın mümkünlüyünü "əhəmiyyətsiz tarixi hadisələrlə" bağlayır (yəni, elə hadisələr ki, standart təhlil prosesində ümumiyyətlə nəzərə alınmır).

Bununla belə, əvvəlki inkişaf yolundan asılılıq konsepsiyasının digər interpretasiyaları da mövcuddur.

Neoklassizmə söykənən tədqiqatçılar (Leyboviç, Marqulis)[15] əvvəlki inkişaf yolundan asılılıq fenomeninin üç dərəcədən ibarət təsnifatını verirlər:

1. **Birinci dərəcə:** Seçilən yolun keyfiyyətinin qərar qəbul edildiyi anda müəyyənləşdirilməsi mümkün deyil (anlaşılmazdır). Yalnız sonralar anlaşılır ki, bəzi alternativ yollar daha çox fayda verə bilərdi.
2. **İkinci dərəcə**: İnformasiyanın natamamlığı ucbatından seçilmiş effektiv yol yaxud qəbul edilmiş effektiv qərar retrospektiv planda effektiv olmaya bilər.
3. **Üçüncü dərəcə:** İlkin şərtlərdə həssas asılılıq qeyri-effektiv nəticə ilə sonuclana bilər, lakin bu nəticə verilən şəraitdə

---

[15] Liebowitz S.J. Marqolis S.E. Path Dependence,Lock-in, and History/ Journal of Law, Economics and Organization VOL II N1. 1995, pp.205-226.

downloaded from KitabYurdu.org

düzəldilə biləndir. Başqa sözlə, daha yaxşı nəticə əldə etmək üçün uyğun gələn mexanizm var, amma bu nəticə əldə olunmayıbdır.

Sonuncu dərəcə o deməkdir ki, texnologiya və institutların seçimində, bu və ya digər səbəbdən, daha effektiv alternativlərin olmasına baxmayaraq, daha az effektiv olana üstünlük verilir.

Beləliklə, birinci dərəcə - sadəcə olaraq əlaqənin mövcudluğunu təsbit edir (qeyri-effektivlik haqqında heç bir nəticəyə gəlmir).

İkinci dərəcə - belə bir qeyd-şərtlə çıxış edir ki, zamanlararası effekt səhvləri artırır.

Üçüncü dərəcə - nəinki bunu (səhvləri artırmanı) təsdiq edir, eyni zamanda ondan qaçma imkanlarının olduğunu göstərir.

Konsepsiyanın xüsusi əhəmiyyəti ondan ibarətdir ki, "qeyri-effektiv" texnologiya və institutların seçilməsi ilə olan tarixi hadisələrin heç də hamısını neoklassik model və terminlərlə - bazarın fiaskosu, Pareto-optimumu və s. ifadə etmək olmaz.

Problemin qəlizliyi ondadır ki, əvvəlki inkişaf yolundan asılılığın yanlış interpretasiyası yanlış siyasətə gətirib çıxarır.

## § 1.2. Tarixi tərəqqi və tarixi qanunlar

Elmi fikrin təkamülü prosesində tarixi inkişafın gerçəkləşməsini təmin edən xüsusi qanunların mövcudluğu haqqında ilkin biliklər yeni dövrdə formalaşmağa başlamışdır. Bu dövrə qədər elmi dövriyyədə hakim mövqelərə yiyələnmiş dini konsepsiyaya xas olan teleoloji interpretasiya nomoloji yanaşma ilə - yəni tarixi hadisələrin universal qanunlar əsasında şərhini nəzərdə tutan konsepsiya ilə əvəzlənir. Sovet tədqiqatçıları da ciddi şəkildə "tarixin qanunlarını" axtarmaqla məşğul olmuşlar. M.A. Barq yazırdı ki: "...Tarixi tədqiqatlarda aparılan sintezin zirvəsi ictimai – tarixi qanunauyğunluqları formalaşdırmaqdan ibarətdir və ".... Hansısa lokal - tarixi epoxanın öyrəniməsində ümumdünya - tarixi kateqoriyadan uzaqlaşmaq üzə çıxarılan ictimai əlaqələrin siyasi-iqtisadi mahiyyətini müəyyənləşdirməkdə tam acizlik doğurur"[16]. Başqa sözlə, tarixin əsas məqsədi tarixi prosesin qanunauyğunluqlarını aşkarlamaqdır. Bununla belə, tarixin elmi statusunu əsaslandıra biləcək tarixi qanunların aşkarlanması prosesi ifrat bəsitlik və primitivliklə müşayiət olunurdu.

---

[16] Барг М.А. Понятие всемирно-исторического как познавательный принцип исторической науки. М; 1973. -С.6., 15-16.

downloaded from KitabYurdu.org

Bu prizmadan V.Vundt tərəfindən irəli sürülən inkişafın sosial qanunları səciyyəvi hal kimi nəzərdən keçirilə bilər. "... Sosial aspektdə eyni fəaliyyət göstərənlər qanununa uyğun olaraq hər bir konkret vəziyyət həmişə eyni vaxtda mövcud olan toplananlara şamil edilməklə birgə fəaliyyət göstərmək məqsədilə birləşirlər".[17] Bunun tarixə, tarixi inkişafa aidiyyəti aydın deyil. Yaxud, Vundtun digər qanununa – "sosial təzadlar qanununa" münasibətdə də eyni hal müşahidə edilir.

Tamamilə mümkündür ki, qeyd olunan dağınıq təsbitlərin əsasında hansısa psixoloji müşahidənin qənaətləri dayanır. Lakin bu təsbitlərin tarixi tətbiqi, yaxud tarixi interpretasiya üçün əhəmiyyətinin nədən ibarət olduğu anlaşılmır.

Tarixi qanunların aşkarlanması prosesində yanılmalar və səhv yanaşmalar kifayət qədər çox olmuşdur. Məsələn, K.Breyziqin[18] "dünya tarixinin qanunları" (cəmi – 20 qanun) bu qəbildən olanlar sırasındadır.

K.Breyziqə görə, tarixi inkişaf ardıcıl olaraq ailədən nəsilə, sonra dövlətə, xalqa və s. yönümündə baş verir.

Tarixi inkişaf qanunlarının aşkarlanmasını tarix elminin vəzifəsi hesab edənlərin və bu aspektə xüsusi diqqət yetirənlərin sırasında kifayət qədər məşhur tədqiqatçılar vardır (K.Marks, C.Mill, Q.Zimmel, M.Veber və s. və i.a.). Lakin XX əsrdən başlayaraq qeyd edilən istiqamətin prioritetliyini önə çəkənlərin sayı əhəmiyyətli dərəcədə azalmağa başladı.

Görkəmli tədqiqatçıların böyük əksəriyyəti "tarixin qanunlarının" olmasını şübhə altına alır və onun mümkünsüzlüyünü göstərirdilər. (Q.Rikkert, N.Kareev, R.Vipper, E.Tarle və s.).

Postpozitivizmin banisi K.Popper tarix elmləri və ümumiləşdirici (nəzəri) elmlər arasındaki fərqə istinadla tarixi qanunların mövcud olmadığını ortalığa qoymuşdur. O qeyd edirdi ki, nəzəri ümumiləşdirici elmlər universal hipotezlərin yoxlanılması, tətbiqi ümumiləşdirici elmlər – konkret hadisələrin öngörməsi ilə maraqlanır. Tarix elmləri konkret, spesifik hadisələr və onların interpretasiyası ilə məşğuldur. "... Bizim fikrimizcə, həqiqətən də heç bir tarixi qanun ola bilməz... Tarixin vəzifəsi ondan ibarətdir ki, ayrı-ayrı hadisələri təhlil etsin və onların səbəblərini göstərsin. Qanunlarla maraqlananlar isə nəzəri ümumiləşdirici elmlərə müraciət etməlidirlər."[19]

---

[17] Вундт В. Социальные законы// Философия истории. Антология, М; 1995.- С.146
[18] Брейзиг К. Законы мировой истории// Философия истории. Антология. М, 1995.- С. 153
[19] Поппер К. Открытое общество и его враги. Т.II, М.1993.с.305

downloaded from KitabYurdu.org

Bu qanunların yoxluğu həm də onunla əsaslandırıla bilər ki, əvvəla, tarixi tədqiqatın predmeti həmişə "yarımçıq" xarakter daşıyır, yəni "tükənən" deyil; ikincisi, tarixin hər hansı bir dövrünə yanaşmada vahid mövqe yoxdur.

Beləliklə, tarix ümumi ilə deyil, təkcə ilə, spesifik olanla məşğuldur. Yalnız tarix ayrıca götürülmüş hadisələrin (hadisənin) səbəbiyyətlə izahını verir. Nəzəri elmlərdə bu qəbildən olan səbəbiyyət izahı digər bir məqsədə - universal qanunların yoxlanılmasına xidmət edir.

Tarixi qanunların mövcudluğunu ehtiva edən konsepsiyanı K.Popper "tarixçilik"(историцизм) adlandırır. "... Tarixçilik metafizikası... insanı məsuliyyət yükündən azad edir".[20]

Yəni, əgər möhkəm inam varsa ki, (tarixi qanunlara istinadla) hansısa hadisələr mütləq baş verəcək, onda həmin hadisələrlə mübarizə aparmaq mənasızlaşır.

K.Popperin fikrincə, tarixçilik ssientizmin növ müxtəlifliyindən başqa bir şey deyildir. O mənada ki, tarixçilik də ssientizm kimi təbiətşünaslıq elmlərinin metodlarını ictimai elmlər sferasına "daşıyır".

Tarix – unikal hadisələrin növbələşməsini özündə ehtiva edir. Eyni hadisənin təkrar baş verməsi mümkünsüzdür və buna görə də tarixin qanunlarından danışmaq yersizdir. Qeyd edilən mövqe hələ XIX əsrin sonu – XX əsrin əvvəllərində formalaşmışdır.(Q.Rikkert, V.Vindelband, V.Diltey və s.).

K.Yaspers yazırdı ki, "… Əgər biz tarixin ümumi qanunlarını aşkarlayırıqsa, onda tarixin özü bizim şüurumuzdan kənarda qalır. Zira, tarix özünün individual simasında təkrarolunmazdır".[21]

Bununla belə, məlum həqiqətdir ki, tarixi inkişafın universal qanunların yoxluğu heç də o anlama gəlmir ki, tarixdə səbəbiyyət bağlılığı yoxdur və müəyyən təmayülləri, yaxud inkişaf yolunu müəyyənləşdirmək mümkünsüzdür. Tarixdə səbəbiyyət prinsipi fəaliyyət göstərir. Heç nə səbəbsiz baş verə bilməz. Lakin səbəbiyyət prinsipinin mövcudluğu heç də tarixi qanunların mövcudluğunu ehtiva etmir. Bu anlamda tarixi hadisələr arasında səbəbiyyət bağlılığının aşkarlanması tarix elminin əsas vəzifələrindən biridir.

---

[20] Поппер К. Открытое общество и его враги. Т.II, М.1993.- С.34
[21] Ясперс К.Истоки истории и ее цель. Вып.2. М., 1994.- С.150

downloaded from KitabYurdu.org

Digər tərəfdən, müəyyən zaman kəsiyində hər hansı bir cəmiyyətin inkişaf təmayüllərinin aşkarlanması da tarix elminin mühüm vəzifələri sırasındadır.

Elə buradaca, qeyd edək ki, bir çox hallarda təmayül = qanun eyniyyətinə rast gəlinir. Çılpaq yanılmadan başqa bir şey deyildir. Hər şeydən əvvəl, elmi qanun – universal təsbitdir, onun ümumi formasıdır. Təmayül isə universal yox, ekzistensialdır. Təmayül – müəyyən məkan və zaman çərçivəsində hansısa dəyişikliklərin istiqamətini ehtiva edir. Əgər, qanun həmişə və hər yerdə fəaliyyətdədirsə, təmayül konkret zaman kəsiyində mövcuddur və onun mövcudluğu hüdudsuz deyildir.

Bu baxımdan ən tipik yanılmalardan biri ondan ibarətdir ki, "indi" mövcud olan təmayülü gələcəyə və keçmişə aid edirlər.

Artıq elmə məlum olan tarixi proseslərin səbəbləri problemi – tarix fəlsəfəsində mərkəzi problemlərdən biri kimi çıxış edir. Daha konkret şəkildə ifadə etsək, söhbət determinizm və indeterminizm, yaxud qanunauyğunluq və təsadüfilik arasında seçimdən gedir. Məlumdur ki, intibah dövründə tarixi qanunauyğunluğun primatlığı tam şəkildə ortada idi. Sonrakı dövrlərdə determinist yanaşmanın məşhur tərəfdarları (A. de Tokvil, K.Marks, M.Veber və s.) təsadüfiliyi ümumiyyətlə tarixi təfəkkürün periferiyasına sıxışdırmağa çalışmış, onu elmi tarixin çərçivəsindən kənara çıxarmağa cəhd etmişlər. Son onilliklər ərizndə struktur tarix məktəbi də həmin istiqamətdə fəlaiyyət göstərmişdir. Bu məktəb belə bir qənaətdən çıxış edir ki, insan fəaliyyətinin "görünən" tarixinin əsasında latent tarixi proseslər (demoqrafik dəyişikliklər, iqtisadi strukturlar, dəyər yönlənməsi) dayanır və həqiqətən də, mühüm tarixi hadisələr təsadüfdən deyil, struktur transformasiyadan asılı olaraq baş vermişdir.

Qanunauyğunluğun hökmran mövqeləri (elmi fikirdə) "zəbt" etməsinə baxmayaraq, təsadüfilik heç vaxt tarixin sərhədlərindən kənara çıxmamışdır. Təsadüf – tarixi əsaslandırmanın üsulu kimi qalmaqdadır. Təsadüfilik problematikası müasir ənənəviçilərin əsərlərində yer almaqdadır. Tarixi ənənəviçilər sistemli tədqiqatların, təkamül sxemlərinin, abstraksiya və ümumiləşdirmələrin əleyhinədirlər.

Hər bir tarixi hadisənin unikallığını təsbit etməklə, onun, yəni tarixin interpretasiyasında təsadüfi olanın və gözlənilməzin əsas rol oynadığı qənaətindədirlər.

Ənənəviçilərin fikrincə, determinizm – tarixin əsas fiquru olan insanın azadlığını inkar edir.

downloaded from KitabYurdu.org

Digər, daha müasir arqument bundan ibarətdir ki, determinizm – tarixin nəzəriyyələşdirilməsi anlamındadır və nəzəriyyə tarixi digər ictimai elmlərdən asılı vəziyyətə salır.

Yekun olaraq, tarix – digər elmlərin (sosiologiya, sosial antropologiya, iqtisadiyyat və s.) nəzəri müddəalarinin aprobasiyası poliqonuna çevrilir. Yəni keçmiş haqqında biliyin müstəqil sferası kimi çıxış etmir. Ənənəviçilər – tarixi alternativlərin sonsuz axını kimi şərh edirlər.

Təsadüfiliyin tarixi prosesin arqumenti kimi modernləşdirilməsi cəhdləri də olmamış deyildir. Bu anlamda modernistlərə aksidental və antifaktiki tarix məktəblərini aid etmək olar.

Tədqiqatçıların bir qrupu (A.Teylor, A.Fletçer) öz vəzifələrini məlum tarixi hadisələrin səbəbləri haqqında sabit təsəvvürlərə yenidən baxmaqla, onların mütləq təsadüfi xarakter daşıdığını sübut etməkdə görürlər. Digər qrup (R.Foqel, S.Engerman və s.) tarixdə nəyin baş vermədiyini, yaxud həqiqətdə nəyin baş verdiyini istisna etməklə model formalaşdırmağa çalışırlar.

Tarixin, bir elm kimi proqnostik funksiyası da şübhə altına alınmışdır. Tarixi öngörmə əslində cəmiyyətin elmi idarəedilməsi anlayışı ilə eyni məzmun kəsb edir.

“... Müasir cəmiyyətin ümuminkişaf prosesini tam və rasional bilik səviyyəsində idarəetməyə çalışmaq – illiyuziyaya qapılmaq deməkdir”.[22]

Maraqlıdır ki, K.Marks tarixi prosesdə alternativ seçimlərin mümkünlüyünü istisna etməmişdir: “təsadüfləri” həm də, insanların xarakterinə aid edirdi.[23]

Həqiqətən də, tarixi öngörmənin dəqiqliyinə inanmaq mümkünsüzdür. Belə ki, əvvəla, insan səhv edə bilər; ikincisi, tarixin hərəkətverici qüvvəsi kimi təkcə iqtisadiyyat (əsasında texniki tərəqqi dayanan) deyil, həm də külli sayda amillər (siyasi, mədəni, ideoloji və s.) çıxış edirlər; üçüncüsü, insan – tarixi prosesdə yeganə imperativə tabe olan “kapillyar” deyildir.

R.Aron yazırdı ki, tarixi bilik “... Keçmişdə qalmış cəmiyyətlərin, epoxa və mədəniyyətlərin interpretasiyasında hamı tərəfindən qəbul edilə biləcək yeganə versiyanı ortalığa qoymaqda acizdir”.[24]

Beləliklə, universal xarakterli “tarix qanunları” olmayıb və yoxdur.

---

[22] Joffrin L. La gauche retrouvce. Paris, 1994.p.103
[23] Маркс К. Энгельс Ф. Соч. Т.33.- С.175
[24] Aron R. Dimensions de la conscience historique. Paris, 1961, p.14

downloaded from KitabYurdu.org

Tarix fəlsəfəsinin ortalığa qoyduğu ziddiyyətli məqamların və ifrat müxtəlifliyin mahiyyətini bir sıra amillərlə izah etmək olar.

Belə ki, tarix, yaxud tarix prosesi:

1. Müxtəlif sosial zamanlarda baş verir: Yəni zamanın "sosial" məzmunu müxtəlif dövrlərdə müxtəlif təzahür xüsusiyyətlərinə malikdir. Əgər, nəzərə alsaq ki, zamanın "yeganəliyi", yaxud vahid zaman deyilən şey yoxdur və müxtəlif dövrlərdə zamanın iqtisadiləşmə, siyasətləşmə və sosiallaşma dərəcəsi, eləcə də mahiyyəti arasında əsaslı fərqlər mövcuddur, onda "müxtəlif sosial zamanda" gedən tarixi proses məna tutumu baxımından fərqli hissələrə parçalanacaqdır;
2. Müxtəlif mədəniyyətlər, sivil dəyər öz mahiyyətlərinə adekvat olaraq tarixi prosesi "müxtəlif cür" məna ilə yükləyirlər;
3. Coğrafi mühitin müxtəlifliyi birmənalı olaraq fərqlilik doğurur;
4. Sosial-iqtisadi, texniki inkişaf (ayrı-ayrı cəmiyyətlərdə) səviyyəsinin fərqliliyi tarixi prosesin mahiyyət eyniliyini parçalayan amil kimi çıxış edir;
5. Müxtəlif cəmiyyətlərdə (yaxud ölkələrdə) hakim dəyər sistemi, din, ideologiya və s.-nin fərqliliyi mövcuddur.

Bununla belə, etiraf etmək lazımdır ki, tarixi tərəqqi bütövlükdə obyektiv xarakter daşıyır. Belə ki, insanın harada, nə vaxt və necə yaşamasından asılı olmayaraq, yaşamanın əsasını maddi tələbatların ödənilməsi təşkil edir. Yəni istənilən halda cəmiyyət (inkişaf səviyyəsindən asılı olmayaraq) maddi istehsal sferasına xüsusi diqqət yetirməlidir. İstehsalın təşkili və həyata keçirilməsi bir qayda olaraq, "irsi keçənlərə", yaxud "mirasa" (əvvəlki nəsillərdən qalan) əsaslanır. Yəni bizim qəbul edib-etməməyimizdən asılı olmayaraq, obyektivdir. Beləliklə, tarixi prosesin obyektivliyi 3 əsas sütun üzərində bərqərardır:

1) İnsaların həyat fəaliyyətinin, müəyyən maddi əsaslarının mövcudluğu;
2) Mənafelər;
3) Tələbat;

Müasir elmi fikirdə tarix fəlsəfəsi qarşısına qoyulan və həlli istənilən əsas problemi aşağıdaki kimi ifadə etmək olar:[25]

1. Çoxsaylı tarixi faktlar arasından əsas olanı (olanları) aşkara çıxarmaq və tarixi hadisələrin (sosial-iqtisadi sistemlərin) inkişaf təmayülləri və qanunauyğunluqlarını müəyyənləşdirmək;

[25] Социальная философия. М; 1996.- С.51

downloaded from KitabYurdu.org

2. Araşdırma prosesində obyektə müxtəlif istiqamətlərdən baxışı təmin etmək, nəzəri ehkamçılıqdan uzaqlaşmaq, idrakın müxtəlif modellərindən yararlanmaq.

## § 1.3. Tarixi inkişaf problemi

Tarixin mənası və qanunları prizmasından tarixi inkişaf problemi xüsusi diqqət tələb edir. Tərəqqi ideyası – dönmədən irəliləmək, ibtidaidən aliyə yüksəlmək, inkişafın daha yüksək pillələrinə keçmək anlamında ilk dəfə olaraq intibah dövründə formalaşmışdır. Sonrakı dövrlərdə tərəqqi ideyası tarixi dinamikanın determinasiyasını ehtiva edən ən ümumi qanun kimi çıxış etməyə başladı.

K.Dason qeyd eidrdi ki, tərəqqiyə (inkişafa) olan inam sözün müəyyən mənasında tarixin gedişi haqqında xristian təsəvvürün yeni interpretasiyasıdır. Yəni tərəqqiyə olan inam xalis rasional konstruksiya yox, ənənəvi xristian baxışlarının sekulyar versiyasıdır.

K.Marks, eləcə də V.Hegel yüksələn inkişafı bütün tarixi prosesin əsası kimi səciyyələndirirdilər. Tərəqqinin ümumdünya tarixi mərhələləri K.Marksda ictimai-iqtisadi formasiyalar formasında bölünmüşdür. Məhsuldar qüvvələrin inkişafı özünə uyğun gələn yeni istehsal münasibətləri doğurmaqla inkişafın yüksələn xətlə gedişini təmin edir. K.Marks kapitalizmin süqutunun labüdlüyü fikrini irəli sürmüş, lakin onu ümumiyyətlə, mədəniyyətin qürubu kimi səciyyələndirməmişdir. Sadəcə olaraq, o, labüd dünya inqilabında yeni, daha proqressiv (kapitalizmlə müqayisədə) epoxanı görürdü.

Tarix fəlsəfəsində tərəqqi ideyasının iki formasını fərqləndirirlər:

1. Sərhədsiz, hüdudsuz, sonsuz yüksələn xətlə inkişafa olan inam;
2. Yekun etibarilə yüksək səviyyəli cəmiyyətin formalaşması yönümlü inkişafa olan inam.

Tarixi tərəqqidə sonsuzluq V.Hegeldə, onun dialektik üçlüyündə (Tezis→ antitezis→ sintez ) öz əksini tapmışdır. Eyni zamanda, tərəqqidə hansısa yekunlaşma mərhələsinin yoxluğu yeni keynsçilərdə də müşahidə olunur. Bu yanaşmaya görə, gerçəklik → insanın mədəni fəaliyyətindən qaynaqlanan və heç vaxt bitməyən, yekunlaşmayan yaradıcılıq aktıdır. P.Tillixin fikrincə, tərəqqinin ikinci forması utopizmdir.

downloaded from KitabYurdu.org

"Utopizm – tərəqqinin forması olmaqla konkret məqsədə can atır: tarixin elə mərhələsinə yetişmək ki, burada həyatın qeyri-müəyyənliyinə qalib gəlmək mümkün olsun".[26]

XX əsrdə baş verən iki dünya müharibəsi, sosialist inqilabı və digər kataklizmlər tərəqqi ideyasının problematik xarakter daşıdığını üzə çıxardı. Tərəqqinin - ən ümumi tarixi qanun olmadığı dərk edilməyə başlandı.Tərəqqi – heç də sosial həyatın bütün aspektlərini əhatə etmir, hətta əhatə etdiyi sferalara münasibətdə birmənalılıq yoxdur.

".... Biz "*tərəqqiyə*" olan inamı itirmişik və hesab edirik ki, tərəqqi anlayışı yalançı anlayışdır. Bəşəriyyət... heç də fasiləsiz olaraq kamilləşmir, əksinə, o "*azmaqdadır*"(kursiv – Ş.H., Ə.B.) və hər bir epoxa hansısa inama söykənir, sonralar isə bu inamın yalan olduğu üzə çıxır".[27]

Y.Boxenski, ümumiyyətlə tərəqqini XIX əsrdən miras qalmış "... ən zərərli yanılmalardan biri"[28] hesab edir.

Xüsusi təfsilata varmadan da, aydındır ki, hər iki tədqiqatçı (Frank və Boxenski) ifrat dərəcədə skeptisizmə meyil edirlər.

Bəşəriyyətin təkamül tarixinə, hətta ötəri nəzər salındıqda belə, görməmək mümkün deyildir ki, tərəqqi – 3 səviyyəli konsept kimi mövcud olmuşdur: Bəzi sahələrdə tərəqqi açıq-aydın şəkildə müşahidə edilir, bəzilərində tənəzzüllə növbələşir, digər sahələrdə isə sadəcə olaraq, baş vermir, yaxud tarixi dövrün qısalığı ucbatından onu aşkarlamaq mümkün olmur. Eyni zamanda, qeyd etmək lazımdır ki, elm və texnikada (hansı ki, aydın şəkildə müşahidə olunur) baş verən tərəqqini ən ümumi tarixi qanun kimi deyil, uzunmüddətli təmayül keyfiyyətində qəbul etmək və nəzərə almaq lazımdır ki, sözügedən sferadakı tərəqqi bəşəriyyətin deyil, elmi biliklərin "vahidləşməsinə" yol açır.

Təbiidir ki, incəsənətdə, insanın təbiəti ilə bağlı məsələlərdə, sosial quruluşun formalarında və s. və i.a. tərəqqinin "gerçəkliyi" heç də birmənalı şəkildə qavranılmır. Beləliklə, tərəqqi – tarixin qanunu deyil (eləcə də, inkişaf – dünya iqtisadiyyatının).

Tərəqqi – harda baş verməsindən asılı olmayaraq, insan zəkası və fəaliyyətinin məhsuludur.

---

[26] Тиллих П. История и Царство Божие// Философия истории. Антология. М., 1995.- С.239-240

[27] Франо С.Л. Крушение кумиров// Сочинения. М., 1990.- С.141

[28] Бохеньский Ю. Сто суеверий. М., 1993. с.120

downloaded from KitabYurdu.org

## §1.4. Dünya tarixinin və bəşəriyyətin vahidliyi problemi

Tarixçilər "dünya tarixi" anlayışına iki müxtəlif yönümdə yanaşırlar:

1. Bəşər tarixi ümumi kosmik tarixin bir hissəsi olmaqla, həm təbiətin tarixini (canlı təbiət), həm də bəşər tarixini özündə ehtiva edir. Eyni zamanda, bəşər tarixi ilkin başlanğıcdan vahiddir və tamdır; O, kosmik tarixin üzvi, hətta zəruri bir hissəsidir.
2. Dünya tarixi – bəşəriyyətin qərarlaşan tarixidir. Bəşəriyyət, zaman keçdikcə vahidləşən tam kimi formalaşır. O, eyni zamanda, bəşəriyyətə aidiyyəti olan, onun tərkib ünsürləri kimi çıxış edən və bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan xalqların və cəmiyyətlərin tarixidir.

Birinci yanaşma – vahid dünya tarixi ideyası K.Marks və V.Hegel tərəfindən (bu ideya orta əsrlərdə meydana çıxmışdır) əsaslandırılmağa cəhd edilmişdir.

Hər bir tarixi epoxa, hər bir xalq vahid zəncirin halqaları kimi qəbul edilirdi. Bununla yanaşı, Hegel, eləcə də Marks bir çox epoxaları, mədəniyyətləri və s. tarix üçün heç bir əhəmiyyət daşımayan kimi prosesdən xaric edirdilər.

Ümumiyyətlə, yığcam şəkildə təsvir etdiyimiz yanaşma gələcəyə münasibət baxımından teoloji baxışlarla üst-üstə düşür. Belə ki, həm Marks-Hegel, həm də teoloji yanaşmaların daxili məntiqindən çıxış etsək, onda belə alınır ki, müəyyən dövrdən sonra vahid dünya tarixi özünün yekun nöqtəsinə çatacaq, yekunlaşacaq və fərqli zaman ölçüsünə keçməklə sözün müstəqim mənasında öz mahiyyətini (tarix kimi) itirəcəkdir.

İkinci yanaşma – dünya tarixinin tədricən, addım-addım bəşəri vahidliyə gətirəcəyi haqqındakı baxışlar real bazarın formalaşdığı dövrdə meydana çıxmışdır. Əslində, qeyd edilən baxışlar sistemi sırf iqtisadi məzmun daşıyır, yaxud dünya tarixinin iqtisadi interpretasiyası anlamında çıxış edir. Belə ki, sözügedən təsəvvürlərin ortalığa çıxmasını şərtləndirən əsas amillər sırasında insanların sayının sürətli artımı və qarşılıqlı əlaqələrin kəskin şəkildə genişlənməsi, ticarətin inkişafı, ayrı-ayrı regionların iqtisadi cəhətdən qarşılıqlı asılılığının güclənməsi və s. – iqtisadi məzmun daşıyanlar həlledici əhəmiyyət kəsb edir. Təbiidir ki, təsvir etdiyimiz yanaşma birinci yanaşmanı – bəşər tarixini ümumi

downloaded from KitabYurdu.org

kosmik tarixin tərkib hissəsi keyfiyyətində ortalığa qoyulmasını yabançı təbiətli yanaşma hesab edir.

K.Yaspers[29] hesab edir ki, tarixin formalaşmaqda olan vahidliyi biliklər vasitəsilə anlaşıla bilməz. O, insanın vahid bioloji mənşəyinə əsaslanmır. Yer səthinin vahidliyi və gerçək zamanın ümumiliyi vahidliyin xarici şərtləridir. Hamını əhatə edən vahid məqsəd yoxdur, dünyanın hüquqi qaydaları (nizamı) ideyası bütövlük baxımından tarixin mənası ilə əlaqəli deyildir, həm də bu məsələnin özü hələ öz həllini tapmamışdır. Vahidlik – ümuməhəmiyyətlilik, həqiqət nöqteyi-nəzərindən yanlız mühakimələrdə təzahür edir. Bununla belə, bəşəriyyətin eyniyyəti ideyası bu gün də gündəmdədir.

Ümumiyyətlə, vahidləşməni, ayrı-ayrı sosiumların (xalqların, millətlərin) vahid bəşəriyyətdə birləşdirilməsi, yaxud birləşməsinin Yaspersə görə bir çox əsasları mövcuddur:

- Pərakəndəlik, yaxud əhəmiyyətli dərəcədə olan təmərgüzləşməyə münasibətdə konstruktiv qaydalar kompleksinin üstünlüyünün dərk edilməsi;
- Vahidləşmənin təbii əsasları; yer kürəsinin "yeganəliyi", ümumi zaman sürəci, insanın bioloji təbiəti və yaranması;
- Vahidləşmə - bəşəriyyət üçün yeni, universal imkanlar yaradır;
- Tarixin özü vahidləşməyə təhrik edir və s.

Müasir dövrdə bəşəriyyətin vahidliyi haqqında fikir yürütmək olarmı?

Neoliberal modellə qloballaşmaqda olan dünyanın bugünündən çıxış etməklə suala təxminən belə cavab vermək mümkündür: Biz hələ başlanğıcdayıq (müəyyən şərtlərin dəyişməyəcəyi təqdirdə).

M.Müllerin[30] baxışlarında da Yasperslə oxşarlıq müşahidə olunmaqdadır. Nə tarix, nə də onun mənası birmənalı qiymətləndirilə bilməz. Y.Xabermas[31] isə, əksinə, hesab edir ki, tarixin universal vahidliyi gerçəklikdir.

Bəşəriyyətin vahidliyi və müvafiq olaraq dünya tarixinin başlanğıcı gedişi, gələcəyinə münasibətdə müşahidə edilən fikir müxtəlifliyi, bizim fikrimizcə, hələ uzun müddət davam edəcəkdir.

---

[29] Ясперс К.Истоки истории и ее цель. Вып.2.М., 1994.- С.173
[30] Мюллер М. Смысловые толкования истории. М., 1996.- С.281
[31] Хабермас Ю. О субъекте истории. с.288

downloaded from KitabYurdu.org

## § 1.5. Tarixi proses: yanaşma tərzi və subyekt müəyyənliyi problemi

Aydındır ki, tarixi proses kimi qəbul ediriksə, onda ən azı iki suala konkret cavab vermək lazım gələcəkdir:

1. Tarix, əgər prosesdirsə, onda inkişaf edən nədir, yaxud tarixi prosesin real məzmunu nədən ibarətdir?
2. Tarixi prosesdə subyekt keyfiyyətində çıxış edən nədir?

Bu suallara aydınlıq gətirmədən tarixi prosesin mahiyyətini anlamaq mümkünsüzdür (Şəkil 1.2.).




***Şəkil 1.2 Tarixi prosesin subyekti: ibtidaidən aliyə doğru***

Şəkildə göründüyü kimi, tarixi prosesin subyekt tərkibi sadədən mürəkkəbə, ibtidaidən aliyə doğru dəyişir.

“Sosiotarixi orqanizm” nəinki təkcə tarix, iqtisadiyyatın tarixi, ümumiyyətlə əksər ictimai elmlərin ilkin və ən mühüm kateqoriyasıdır.

downloaded from KitabYurdu.org




***Şəkil 1.3. Sosiotarixi orqanizmin əsas tipləri və növləri (formaları).***

Yeri gəlmişkən qeyd edək ki, L.Morqan cəmiyyətin iki əsas tipinin, yaxud onun ifadəsi ilə desək, iki "planın" olduğunu qeyd edirdi.[32]

1. Şəxsiyyətə və sırf şəxsi münasibətlərə əsaslanan; bunu Morqan "cəmiyyət" adlandırırdı.
2. Ərazi və xüsusi mülkiyyətə əsaslanan; bunu isə "dövlət" adlandırırdı.

Beləliklə, birinci tip – ibtidai icma dövrünə, ikinci tip isə sivilizasiyaya aid edilirdi.

Əslində, həm şəkildə (şəkil 1.3) verilən, həm də L.Morqan tərəfindən aparılan tipologiya şərti xarakter daşıyır. Belə ki, hər bir konkret cəmiyyət, əsasında nəyin dayanmasından asılı olmayaraq, bu və ya digər ərazi çərçivəsində mövcud olub. Bu mənada sosiotarixi

[32] Морган Л.Г. Древнее общество. Л., 1934.- С.7

downloaded from KitabYurdu.org

orqanizmlərin fərqləndirilməsində ərazi əlamətindən deyil, onların daxili-təşkilati prinsiplərindən çıxış etmək lazımdır. Məhz həmin prinsiplər əraziyə fərqli münasibətin sərgilənməsində əsas rol oynayırlar.

Y.Semyonov sosiotarixi orqanizmlər arasında sərhədlərin müəyyənləşdirilməsi probleminə yanaşmada iki əsas üsuldan bəhs edir:[33]

1. Geososiotarixi orqanizm (geososior) - ərazi ilə bağlıdır və "ölkə" anlamında səciyyələndirilir (məs: Azərbaycan, Fransa, Türkiyə və s.).

2. Demososiotarixi orqanizm (demososior) – daha qədim tarixə malikdir. Fərdlərin "ittifaqı" kimi səciyyələnir.

Geososior - ərazidən kənarda, demososior isə "şəxsi heyətdən" kənarda mövcud deyildir.

L.E.Qrinin fikrincə, tarixi prosesi heç bir halda ümumdünya tarixinin sinonimi kimi başa düşmək olmaz. Təbiidir ki, tarixi proses ümumdünya tarixinin konkret faktlarına əsaslanır, lakin əvvəla, proses və dəyişikliklər nöqteyi-nəzərindən faktların hamısı deyil, daha mühüm olanları seçilir; ikincisi, faktlar çoxluğunun qaydalaşdırılması və interpretasiyası tədqiq olunan zaman və məkan miqyasına, bütövlükdə bəşəriyyətin tarixi inkişaf məntiqi və təmayüllərinə, eləcə də inkişafın bugünkü yekunlarına adekvat olaraq həyata keçirilir. Başqa sözlə, tarixi proses nə müxtəlif xalqların, cəmiyyətlərin tarixinin mexaniki cəmi deyil, nə də həmin xalq və cəmiyyətlərin zamanca hərəkət, yaxud inkişaf prosesi anlamında çıxış etmir. Bu aspektdən bəşəriyyətin tarixi prosesi anlayışına hansısa həmişə mövcud olmuş real sistem kimi yanaşma birmənalı şəkildə qəbul edilə bilməz. Bu anlayışın ifadə etdikləri 1) Tədqiqatın müvafiq miqyasının seçilməsi və 2) Cəmiyyətin, sivilizasiyanın və s. tarixinin bütün dövrləri ərzində inkişafın qeyri-bərabər olmasının nəzərə alınmasından ibarətdir. Sırf metodoloji anlamda, bu o deməkdir ki, tarixi prosesin təhlilində (digər məsələlərlə yanaşma) mühüm əhəmiyyət kəsb edən məsələ inkişaf etmiş regionların geridə qalanlara təsiri modelidir;

3) Bir mərhələdən digərinə keçidin miqyası bütün planeti əhatə etmə dərəcəsinə qədər genişlənir; 4) Deməli, bəşəriyyətin tarixi prosesi – avtonom və təcrid olunmuş sosiumlardan sıx qarşılıqlı təsirdə olan sosiumlararası mürəkkəb sistemin formalaşması prosesidir; 5) Tarixi prosesin bugünkü mənası yalnız o halda dəyişə bilər ki, bəşəriyyət real fəaliyyətdə olan vahid subyektə çevrilsin.

---

[33] Ю.Семенов. Философия истории.М; «Старый сад», 1999.

downloaded from KitabYurdu.org

Yekunda L.Qrinin [34] belə bir qənaətə gəlir ki, müasir qloballaşma prosesi milli suverenliyi aradan qaldırmaqdadır və deməli, bütövlükdə bəşəriyyətin vahid real subyektə çevrilməsi gerçəkləşəcəkdir. Yəni tarixi proses sözün həqiqi mənasında ümumdünya tarixi prosesi mənasını əxz edəcəkdir.

Ümumdünya tarixi prosesin interpretasiyası iki əsas istiqamətdə aparılır:

1. Unitar-mərhələli yanaşma: xətti-mərhələli yanaşma bunun variantlarından biridir.
2. Plüralist-tsiklik yanaşma.

Bəşər tarixinin unitar (latınca unitas- vahid) – mərhələli konsepsiyası ilk dəfə olaraq İ.Florskinin (1130-1202) "Согласование Ветхого и Нового заветов"[35] əsərində öz əksini tapmışdı.İ.Florski bəşər tarixini (kifayət qədər abstrakt xarakter daşısa da) 3 mərhələyə bölürdü:

1. Adəmdən Xristosa qədər olan dövr: "Ata- Allahın" dövrü; maddi həyatın prioritetliyi, maddiyyata canatma, qanunlara tabeçiliyin qorxu üzərində bərqərar olması; insanlar, sözün tam mənasında, azad deyildirlər. Kölə tabeçiliyi (Allaha münasibətdə).
2. "Oğul-Allahın" dövrü: maddiyata canatma hələ də güclüdür, lakin mütləq mahiyyət daşımır; ruhi inkişaf cücərməyə başlayır. İnsan – hələ də azad deyil. Amma qorxu şüurlu davranış, intizamla əvəz olunur. Xristian kilsəsinin təşkili və inkişafı;
3. "Müqəddəs ruh" dövrü: Ruhun tam azadlığı; qorxu və intizam məhəbbətlə əvəz olunur. Əbədi ədalətin təntənəsi.

Maraqlıdır ki, o dövrün tanınmış simalarından biri olan F.Akvinski (1225-1274) bu yanaşmanın əleyhinə çıxmış və onu inkar etmişdir.

Unitar-mərhələli yanaşma çərçivəsində real şəkildə mövcud olanların sırası ayrı-ayrı sosiotarixi orqanizmlər və onların sistemləri ilə məhdudlaşmır. İnsan cəmiyyəti də (bütövlükdə bəşəriyyət) bütövlük və tamlıq keyfiyyətinə malikdir. Ayrı-ayrı sosiotarixi orqanizmlər və onların sistemli yaranışları birlikdə vahid ümumdünya tarixi prosesi formalaşdırırlar.

Tarixə plüralist (latınca: pluralis - çoxluq) – tsiklik yanaşmanın baniləri sırasında J.Qobino və Q.Rükket ön sırada gəlirlər. J.Qobino

---

[34] Гринин Л.Е.Глобализация и национальный суверенитет. История и современность.(1).М;2005.- С.6-31

[35] Антология средневековой мысли. Теология и философия европейского средневековья. Т.1., СПБ., 2001

downloaded from KitabYurdu.org

özünün “Опыт о неравенстве человеческих расс” (1853-1855) əsərində 10 sivilizasiyanı fərqləndirir (Hind, Misir, Assuriya, Ellin, Çin, İtalyan, Alman, Alleqan, Meksikan və And). Q.Rükkert isə “Учебник всемирной истории в органическом изложении” (1857) əsərində 5 ali “mədəni tip”lərdən bəhs edir: Alman-xristian (Qərbi Avropa), Şərqi-xristian (slavyan), Ərəb (islam), Hind və Çin.

Göstərir ki, hər bir mədəni-tarixi tipin öz tarixi var. Bəşər tarixi – vahid proses deyil, həmin mədəni-tarixi tiplərin paralel surətdə gedən inkişaf proseslərinin məcmusudur. Yəni tarixi inkişafda bir xətt yox, xətlər çoxluğu mövcuddur.

Bu mənada, bəşəriyyət – real deyil, fikri vahidlik xassəsi daşıyır. Bununla yanaşı, qeyd edir ki, inkişaf xətləri eynigüclü deyildir. Belə ki, Qərbi Avropa xətti (yeni dövrdə) üstün mövqedədir və ümumbəşəri ideyaya daha yaxındır. Buna görə də, (Rükkertin fikrincə) əksər qeyri-Avropa xalqları Qərbi Avropa mədəniyyətinə qovuşmalı, başqa sözlə, “avropalaşma” prosesi getməlidir.

Tarixdə “təkrarolunan” axtarışı inkişafın tsiklik konsepsiyasının yaranmasına gətirib çıxardı. Maraqlıdır ki, bu konsepsiya ilkin olaraq Şərqdə, böyük mütəfəkkir İbn Xaldun (1332-1406) tərəfindən formalaşdırılmışdır (“Müqəddimə” əsəri – 1375-1379-cu illər).

İbn Xaldun tsiklik inkişafın 5 fazasını göstərirdi:

1. Kənd yaşayış tərzi (köçərilik);
2. Şəhər yaşayışı;
3. İnkişaf; eyni zamanda – təmtəraga meyшlliyin, vergi yükünün artımı;
4. Hakim sülalənin “qocalması”;
5. Kənar müdaxilə və ərazinin zəbt edilməsi.

Onun fikrincə, hər bir hakim sülalənin orta hakimiyyət dövrü 120 ildən çox olmur.

Bu müddətdən sonra yeni gələn hakimiyyət də eyni aqibətlə üzləşir.

Hər bir tsikl köhnənin dayandığı yerdən öz hərəkətini davam etdirir. İbn Xaldunun baxışlarında bu məqam xüsusi əhəmiyyət kəsb edir. O mənada ki, tsiklik yanaşma müəyyən aspektlərdə plüralist yanaşmadan fərqli məzmun ortalığa qoyur. Konkret şəkildə ifadə etsək, İ.Xaldun tsikllərin vahid proses çərçivəsində əvəzlənməsini, onlar arasında genetik bağlılığın olduğunu göstərmişdir.

Plüralizm belə bir mövqedən çıxış edir ki, bəşər tarixi bir sıra avtonom hissələrə bölünür və bu hissələrin də özünəməxsus, mütləq mənada müstəqil tarixi var. Onların hər biri yaranır, inkişaf edir və

downloaded from KitabYurdu.org

süquta uğrayır. Məhv olanların yerinə yeniləri gəlir və eyni tsikl üzrə hərəkət edirlər. Və, buradan da çox uzağa gedən nəticələr hasil olur:

- Hər bir yeni tarixi yaranış hər şeyi əvvəldən başlayır, buna görə də tarixə prinsipcə hansısa bir yenilik gətirmək iqtidarında olmur;
- Bütün bu yaranışlar eyniqiymətlidir, ekvivalentdir;
- Onlardan heç biri inkişaf səviyyəsinə görə digərlərindən fərqlənmir, yəni nə aşağı, nə də yuxarı səviyyədə olmur.
- Bu yaranışlar müəyyən zaman çərçivəsində inkişaf edir, lakin bütövlükdə bəşəriyyətin təkamülü baş vermir;
- Tsiklik məzmunlu əbədi "dövriyyə" baş verir.

Beləliklə, bəşər tarixi həm məkan, həm də zamanca parçalanır, çoxlu sayda tarixi yaranışlara uyğun olaraq tarixin "çoxluğu" meydana çıxır. Bütövlükdə bəşər tarixi – çoxlu sayda ekvivalent proseslərin sonsuz təkrarlanmasının, çoxlu sayda tsiklərin məcmusu kimi anlaşılır. Plüralist-tsiklik yanaşmanın real məzmunu belədir.

Bu yanaşmanın məntiqi ilə davam etsək, onda belə alınır:

- İnsan cəmiyyəti bir bütöv, tam olaraq mövcud deyildir;
- Bəşəriyyət – çoxlu sayda və tam müstəqil olan ictimai vahidlərin cəmindən ibarətdir;
- Bəşər tarixi bu vahidlərin tarixinin məcmusudur;
- Bu hissələrin inkişaf prosesi vahid ümumdünya prosesini yaratmır;
- İnkişafın vahid prosesi kimi dünya tarixi yoxdur.... və aydın olur ki, insan cəmiyyətinin inkişaf mərhələləri, ümumdünya tarixi prosesin dövrlənməsi, epoxaları haqqında ümumiyyətlə, danışmağa dəyməz.

O.Şpenqler[36] yazırdı ki: "... "Bəşəriyyətin" – kəpənək növlərində olduğu kimi, nə məqsədi, ideyası, nə də planı yoxdur. "Bəşəriyyət"-zooloji anlayış yaxud boş sözdür".

Beləliklə, dünya tarixi vahid proses kimi mövcud deyildir. Deməli, bəşəriyyətin bütövlükdə inkişaf mərhələlərindən danışmaq mənasızlıqdır. Plüralist – tsiklik[37] yanaşma ümumdünya tarixi əhəmiyyət kəsb edən inkişaf mərhələlərini qəbul etmir.

---

[36] Шпенглер О. Закат Европы. Т.1.М., 1993.- С.151.
[37] Семенов Ю.И. Производство и общество // Социальная философия. Учебник., М; 2003.- С.147-160

downloaded from KitabYurdu.org

Sözügedən yanaşma Qərb tarixşünaslığında öz mövqelərini saxlamaqdadır (S.Xantinqton). Amma, bununla belə əvvəlki kimi populyar deyildir. Hal-hazırda, daha doğrusu, XX əsrin 50-60-cı illərindən başlayaraq (Etnoqrafiyada) unitar-mərhələli konsepsiyanı dirçəltməyə çalışırlar (Q.Lenski, O.Dunkan, C.Matras, T.Parsons və b.). Əslində, modernizmin ilkin nəzəriyyələri, industrial və postindustrial cəmiyyət nəzəriyyələri (R.Azon, D.Bell və b.), unitar-mərhələli konsepsiyadan çıxış etməklə formalaşdırılmışlar.

Son dövrlərdə Qərb tarixşünaslığı daha çox antiistorisizmə (tarixi aqnostizmə) meyl edirlər. Bu yanaşma yuxarıda təsvir etdiyimiz hər iki konsepsiyadan fərqlənir. Onun əsas mahiyyəti K.Popperin "Открытое общество и его враги" (1945) və "Нищета историцизма" əsərlərində öz əksini tapmışdır. K.Popper həm postivist O.Kontu, K.Marksı, O.Şpenqleri, A.Toynbini, həm də providensializmi (Avqustini) bu sıraya daxil edir.Ümumiyyətlə, tarixçilik (историцизм) müxtəlif istiqamətlərdə öz mövqelərini artıq çoxdan ortalığa qoymuşdur: teistik, spiritualist, naturalist, iqtisadi və s.

Tarixçiliyin tənqidinə K.Popper metodoloji nominalizmdən (mahiyyətcə- fenomenalizm) çıxış etməklə başlayır.

Ümuminin obyektiv varlığı yoxdur. Yalnız təkcə, yalnız hadisə mövcuddur.

Tarix – sadəcə olaraq, "hadisələrin ardıcıllığıdır". Vahid bəşər tarixi yoxdur. Yalnız sonsuz sayda tarixlər məcmusu mövcuddur. K.Popper tarixin elmi statusunu inkar edir. Hal-hazırda qeyd edilən yanaşma kifayət qədər populyarlaşmağa başlamışdır (F.Xayek, R.Nisbet, Ç.Tilli, R.Budon və əksər postmodernistlər).

downloaded from KitabYurdu.org

# II BÖLMƏ

# DÜNYA İQTİSADİYYATININ TARİXİ ELM KİMİ

## II FƏSIIL

## Tarix və iqtisad elmi: sintezin gerçək mahiyyəti

### §2.1. Təkamül və müasirlik

Tarixi-iqtisadiyyat elmi tarix və iqtisad elminin sintezindən formalaşmış müstəqil elm sahəsidir. Tarixi – iqtisadiyyat yönümlü ilk tədqiqat işlərinə XVI əsrin əvvəllərində təsadüf edilir. Bu baxımdan 1514-cü ildə Qilyam Byüd tərəfindən yazılmış "Assa[38] haqqında traktat" əsərini göstərmək olar. XVI-XVIII əsrlər Avropasında dünya iqtisadiyyatının genezisi ilə xüsusi olaraq aktuallaşan bır sıra məsələlərin (maliyyə, ticarət, aqrar sfera, sənaye və s.) tədqiqi zəruriliyi meydana çıxdı ki, bu da yekun etibarilə tarixi iqtisadiyyatın elm kimi formalaşması prosesini əhəmiyyətli dərəcədə stimullaşdırmışdır.

İqtisadi hadisə və proseslərin tarixi-xronoloji müstəvidə tədqiqinə həsr edilmiş iqtisadi-statistik məzmunlu araşdırmalar aparılmağa başlandı: U.Pettinin "Vergilər və rüsumlar haqqında traktat" (1662-ci il), A.Smitin "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" (1776), eləcə də XVIII əsr çoxsaylı fransız tədqiqatçılarının əsərlərini misal gətirmək olar.

Ümumiyyətlə, XVIII əsrdə iqtisadiyyatın və təsərrüfat həyatının tarixi yönümündə çox sayda araşdırmalar aparılmışdır.

Məhz bunu əsas tutaraq XVIII əsri tarixi iqtisadiyyat elminin yaranması əsri kimi də səciyyələndirirlər. XIX əsrin ortalarından etibarən tarixi-iqtisadiyyat müstəqil elm sahəsinə çevrilir. Elmin "müstəqillik" əldə etməsini bır sıra səbəblərlə izah etmək olar:

1. İqtisadi hadisə və proseslərin tədqiqində tarixi-genetik metodun tətbiqi; Başqa sözlə, tarixilik (историзм) prinsipinin birmənalı olaraq təsbiti (V.Hegel, K.Marks, F.Engels) və onun real gerçəkliyin bütün sferalarının, o cümlədən təbiətin, cəmiyyətin və təfəkkürün inkişaf proseslərinin araşdırılmasında mühüm

[38] Assa - Qədim Roma pulu;

downloaded from KitabYurdu.org

əhəmiyyət kəsb edən metod kimi tətbiqi tarixi-iqtisadiyyatın elmi statusunun formalaşmasında mühüm rol oynamışdır.

2. Klassik siyasi iqtisadın böhranı;
3. XIX əsrin ikinci yarısında Qərbin sürətli iqtisadi inkşaf yoluna qədəm qoyması;

Tarixi-iqtisadiyyat elminin inkişafında (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlləri) A.Toynbi, C.Eşli, K.Byüxer, M.Veber, V.Zombart və s. mütəfəkkirlər müstəsna rol oynamışlar.

XIX əsrin sonu XX əsrin əvvəllərində iqtisad elminin tarixi-iqtisadi yönümünün formalaşmasına institutsionalizmin qərarlaşması da müsbət təsir göstərmişdir. İnstitutsionistlər iqtisadi sistemə geniş kulturoloji spektrdən yanaşır və onu cəmiyyətin tarixi həyatının müəyyən pilləsi hesab edirdilər. Əsas diqqət mərkəzi institutların – iqtisadi fəaliyyətin təşkilinin real formaları, iqtisadi subyektlərin davranış normaları və motivləri – üzərinə düşürdü.

XX əsrin 20-30-cu illərində "Annallar" məktəbinin yaranması ilə təhlilin yeni metodları meydana çıxdı. M.Blok, L.Fevr və F.Brodelin əsas ideyasına görə iqtisadiyyatın tarixi-müxtəlif nöqteyi-nəzərlərdən yanaşılan insanların, hadisə, konyunktura və böhranların, ictimai strukturların qlobal tarixidir. "Annallar" tərəfindən irəli sürülən yanaşma tərzi xüsusi bir istiqamətin –"mentallığın tarixi"nin – yaranmasına gətirib çıxardı. Tarixi mənbələr ilkinliyin əslində alman tarixi məktəbinə (V.Roşer, V.Qilderbrand, K.Knis) məxsus olduğunu göstərir. Belə ki, məhz həmin məktəb tarixin siyasi iqtisada tətbiqinin zəruriliyini əsaslandırmağa çalışmışdır. Bunu da xalqların iqtisadi inkişaf qanunları haqqında təlim kimi qəbul edirdilər. Hər bir konkret dövlətin tarixi inkişaf təcrübəsinin ümumiləşdirilməsi qanun adlandırılırdı. İqtisadiyyatın tarixnin əsas təyinatı "nümayiş" etmə rolunda təcəssüm edirdi.

1960-cı illərdə A.Konrad və C.Meyer müasir nəzəri iqtisadi "əksfaktiki" ("alınmayan gələcək") modelləri ABŞ-ın cənubunda mövcud olan quldarlıq iqtisadiyyatının təhlilinə tətbiq etməklə kliometrikanın banisinə çevrildilər.

Bu məktəbin iki nümayəndəsi – R.Fogel və D.Nort 1993-cü ildə iqtisadiyyat üzrə Nobel mükafatına layiq görüldülər.

Tarixi-iqtisadiyyat elminin inkişafında iqtisadçı-tarixçilərin yaratdıqları beynəlxalq təşkilat mühüm rol oynamışdı.

1960-cı ildən sonra həmin təşkilat tərəfindən müntəzəm olaraq keçirilən iqtisadi tarix üzrə beynəlxalq konfrans elmin müasir problemlərini aşağıdakı kimi müəyyənləşdirmişdir:

downloaded from KitabYurdu.org

- İqtisadi artımın xüsusiyyətləri;
- Sənayeləşmə;
- Urbanizasiya;
- Demoqrafiya;
- Aqrar tarix;
- Kapitlizmin genezisi;
- Iqtisadiyyatın tarixinin metodologiyası və metodları.




downloaded from KitabYurdu.org

***Şəkil 2.1. Tarixi-iqtisadiyyat elminin tipologiyası.***

Elmin formalaşması və inkişafı prosesinə paralel olaraq kateqorial aparat təşəkkül tapmış, elmin predmeti, əhatə dairəsi və tədqiq sahəsi müəyyənləşmişdir. Son 2 əsr ərzində elmin adı bir neçə dəfə dəyişmişdir. İlkin olaraq "İqtisadi tarix" adlanmış və ayrı –ayrı ölkələrin iqtisadi tarixi kimi qəbul edilmişdir. ("İngiltərənin iqtisadi tarixi"). Tədricən tədqiqat oblastı genişlənməyə başlamış, daha iri regionların, məsələn, Avropanın iqtisadi tarixi, sonralar isə bütövlükdə dünya iqtisadiyyatının tarixi-xronoloji inkişaf prosesini əhatə etmiş və yekun olaraq "Dünya iqtisadiyyatının tarixi" adlanmışdı.

Ümumiyyətlə, tarixi-iqtisadiyyatın bir elm sferası kimi müasir tipologiyasını aşağıdakı əlamətlər üzrə vermək olar (şəkil 2.1).

## §2.2. Sintezin "qırılma" nöqtələri

Tarixilik (istorizm) rasionalizmə cavab reaksiyası kimi XVIII əsrin sonunda meydana gəlmişdir. Bu yanaşma çərçivəsində zəka-ənənələrin nüfuzu və ötən əsrlərin müdrikliyi ilə əvəzlənir. İlkin variantda mühafizəkar mövqedə dayanan tarixilik konsepsiyası sonralar siyasi yönümünü dəyişmiş, kapitalizmi və azad ticarəti əsas "şər" anlayışları kimi qəbul etmişdir.

Bəri başdan, qeyd etmək lazımdır ki, tarixiliyin tarixlə eyniləşdirilməsi yanlışlıqdır. Tarixilik – enistemoloji doktrina olmaqla keçmişə ona görə nəzər salır ki, gələcək haqqında fikir bildirsin. Eyni zamanda, bu konsepsiyanın bəzi tərəfdarları belə bir qənaətdədirlər ki, tarix – insan fəaliyyətinin öyrənilməsinin yeganə üsuludur və buna görə də insan fəaliyyətinin ümumi nəzəri elminə heç bir ehtiyac yoxdur. Digərləri tarixin elmi statusuna şübhə ilə yanaşır, nə qədər paradoksal səslənsə də, pozitivzm fəlsəfəsinin müddəalarından yararlanmaqla yeni elm formalaşdırmağa çağırırlar.

Yeni elm – tarixi təcrübəni araşdırmaqla tarixi təkamülün və "dinamik" dəyişikliklərin qanunlarını ortalığa qoymalıdır.

Ümumiyyətlə, tarixliyin əsas məqsədi rasionalizm fəlsəfəsi və iqtisad elminin birmənalı inkarına nail olmaqdan ibarətdir.

downloaded from KitabYurdu.org

Tarixiliyin əksər istiqamətləri, o cümlədən alman və Britaniya tarixi məktəbləri, amerikan institusionalizmi və s. iqtisad elmini – yumşaq şəkildə ifadə etsək – qəbul etmirlər.

Qarşılıqlı münasibətlərdə "qırılma" nöqtələrini (tarixçilərin mövqeyindən) aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. İqtisad elminin teoremləri – aprior mühakimənin məhsulu olduğuna görə məzmunsuzdur. Yalnız tarixi təcrübə real məzmunlu iqtisad elmini formalaşdıra bilər. Bununla belə, tarixilik konsepsiyası "unudur" ki, tarixi təcrübə həmişə çoxlu sayda elementlərin qarşılıqlı təsiri nəticəsində formalaşan mürəkkəb hadisələrin təcrübəsidir.

   Belə təcrübədən konkret "fakt" əldə etmək son dərəcə problematik bir məsələdir. İqtisadi müstəvidə faktlar – istisnasız olaraq – nəzəri "yüklü"dürlər. Bu mənada tarixi faktların interpretasiyası konkret teorem çərçivəsində mümkündür. Tarixi faktlar özləri-özlərini şəhr etmək iqtidarında deyildir. Başqa sözlə, iqtisad elmi və tarixilik arasındakı ziddiyyət faktlara münasibətdə deyil, onların interpretasiyasındadır.
2. İqtisadçıların iqtisadi qanun adlandırdıqları məfhum əslində prinsiplərdən başqa bir şey deyildir və epoxal keçidlərdə mütləq şəkildə dəyişilməyə məruz qalırlar. Başqa sözlə, bu prinsiplər yalnız kapitalizm üçün doğrudur, sosializmə keçidlə öz mahiyyətlərini dəyişirlər: xərclər və mənfəət kateqoriyaları kimi. Mənfəət xatirinə istehsal istehlak xatirinə istehsalla əvəz olunan kimi bu kateqoriyalar əhəmiyyətsizləşəcəklər.

   Bu tezisin də rasional elmi yozumu yoxdur. Belə ki, xərclər – hər hansı bir hadisənin özünəxas xüsusiyyətlərindən asılı olmayaraq, insan fəaliyyətinin istənilən növündə vaz keçilməz element kimi çıxış edir. Xərc - əslində əldə edilməsi istənilən şeyin dəyəridir. Yaxud həmin şeyin qiymətidir. Xərcsiz əldə olunan şey iqtisadi nemət hesab olunmur və bu anlamda da iqtisad elminin maraq dairəsindən kənardadır. Analoji olaraq mənfəətlə də bağlı yanaşmanın yalnışlığı üzə çıxarıla bilər. Mənfəət – şeyin yüksək dəyərliliyi ilə onun yaranması dəyərliliyi arasındaki fərqdir. Əks-situasiyada mənfəət itkilərlə əvəzlənir. Aydındır ki, istənilən iqtisadi fəaliyyət növü itkilərə istiqamətlənə bilməz – bu, sadəcə olaraq nonsensdir. Buna görə də, kapitalizmin hansı quruluşla əvəzlənəcəyindən (əvəzlənəcəkmi?), yüksək mənəvi-etik normaların, ədalət

downloaded from KitabYurdu.org

prinsipinin hansı miqyasda qərarlaşacağından asılı olmayaraq, xərclər və mənfəət kateqoriyaları mövcud olacaqdır.

3. İqtisad elminin əsas səhvi insanı yalnız maddi rifaha can atan eqoist kimi səciyyələndirməsidir.
4. Tarixiliyin fundamental tezisi ondan ibarətdir ki, təbiətşünaslıq elmləri, riyaziyyat və məntiq istisna olmaqla, tarixdən qeyri heç bir bilik mənbəyi yoxdur. Belə ki, insan fəaliyyəti sferasında qarşılıqlı əlaqələrin requlyarlığı və hadisələrin ardıcıllığı yoxdur. Deməli, iqtisad elminin mövcudluğu, eləcə də iqtisadi qanunların aşkarlanması mənasızdır. Yeganə gerçək metod – tarixi metoddur.
5. Həqiqi olan iqtisad elmi deyil, iqtisadi tarixdir. Bununla yanaşı, iqtisadi nəzəriyyə olmadan iqtisadi tarixin necə, hansı yolla interpretasiyasını vermək olar? Sualına susmaqla cavab verirlər.
6. Tarixi təcrübədən aposteriori olaraq qanunları formalaşdırmaq mümkündür ki, bunun da əsasında yeni elmlər – sosial fizika, yaxud institusional iqtisadiyyat yaranar.
7. Tarixçilər (periodalistlər) tarixi hadisələrin gedişini iqtisadi qanunların xarakteristikasından çıxış etməklə müxtəlif dövrlərə ayırırlar. Onların fikrincə, məhz bu qanunlar hər bir dövrün iqtisadi məzmununu formalaşdırır. Beləliklə, qapalı dairə alınır. İqtisadi tarixin dövrlənməsi üçün hər bir dövrdə fəaliyyətdə olan iqtisadi qanunları araşdırmaq lazım gəlir. Eyni zamanda, həmin qanunların aşkarlanması isə yalnız digər dövrlərdə baş verən hadisələri nəzərə almadan məhz həmin dövrün araşdırılması nəticəsində mümkündür. Tarixçilərin məntiqi ilə davam etsək, onda tarixin gedişi aşağıdakı məzmun kəsb edəcəkdir: iqtisadi təkamülün mərhələləri (müxtəlif tarixi dövrlər) bir-birini ardıcıl olaraq əvəz edir və hər bir mərhələdə özünəxas olan iqtisadi qanunlar sabit, dəyişməz qalır. Bir mərhələdən digərinə keçid haqqında isə heç nə deyilmir. Əgər nəzərə alsaq ki, dövrlənmə - "göz qırpımında" baş vermir, yəni müəyyən zaman intervalını əhatə edir, onda kifayət qədər maraqlı suallarla qarşılaşacağıq: Bu keçid dövründə nə baş verir, yaxud hansı iqtisadi qanun fəaliyyət göstərir?




downloaded from KitabYurdu.org

***Şəkil 2.2. Tarixi dövrlənmənin zaman "çəkisizliyi" – keçid dövrü***

Keçid dövrünün özünəxas olan qanunları varmı? Həmçinin, fərz etsək ki, iqtisadiyyatın qərarlaşması qanunları tarixi faktlardır və buna görə də tarixi hadisələrin dəyişməsinə uyğun olaraq, dəyişirlər, onda belə alınır ki, heç bir dəyişikliyə məruz qalmayan dövrlərin mövcudluğu haqqındakı təsbitlə ziddiyyət yaranacaqdır.

8. Sosial və iqtisadi təkamülün tarixi təmayülləri (ələlxüsus, yaxın keçmişdə) gələcəkdə də olacaqdır. Buna görə də, keçmişin öyrənilməsi gələcəkdə baş verəcək hadisələrin xarakterini indidən anlama imkanı verir. Qeyd edilən ehkamçı yanaşmaya bir neçə istiqamətdən baxmaq olar:

   – ".... Cari epoxa" konsepsiyasının yanlış dərki; Yaxın keçmişdə olanların mexaniki şəkildə cari duruma aid edilməsi yanlışlıqdır. Müəyyən zaman çərçivəsində hansısa dövrü "indi" kimi qəbul ediriksə, deməli, hansısa problemə münasibətdə bu dövr ərzində şərtlərin sabit qaldığını nəzərdə tuturuq. Buna görə

downloaded from KitabYurdu.org

də fəaliyyətin müxtəlif istiqamətlərində "indi"nin konsepsiyası müxtəlif cür təzahür edir[39]. Eyni zamanda, bu sabitliyin nə qədər sürəcəyi və gələcəyin hansı zaman intervalını əhatə etməyin lazım gəldiyi heç vaxt dəqiq müəyyən edilə bilməz. Bu aspektdə irəli sürülən fikirlərdə, deyimlərdə bir ehtimal elementi olmalıdır: Dünən vəziyyət belə idi, gözləyirik ki, hələ bir müddət həmin vəziyyətdə dəyişiklik baş verməyəcəkdir.

–Konkret iqtisadi siyasətin gələcəkdə nələrə gətirib çıxaracağını indidən qiymətləndirmək mümkün deyildir. Belə ki, söhbət istənilən halda keçmişdən gedir, yəni biz keçmişin tarixini araşdırırıq, "gələcəyin" yox! Bu baxımdan yalnız bir ehtimal irəli sürmək mümkündür ki, bugünkü şərtlər kompleksinin dəyişməyəcəyi, sabit qalacağı halda gələcəkdə olacağı gözlənilənlər bugünkü situasiyadan o qədər də fərqlənməyəcəkdir. Lakin əsas problem də məhz ondadır ki, bu şərtlərin dəyişməyəcəyini əvvəlcədən müəyyənləşdirmək mümkünsüzdür. Tarixilik (istorizm) – dəyişikliyin nə vaxt baş verəcəyini bilmir. O, yalnız keçmişdəki təmayüllərdən danışır. Bunun avtomatik olaraq gələcəyə aid edilməsi yalnışlıqdır. Fələsəfi fikir təmayülünün metafizik təsəvvürlərini bir tərəfə qoyaraq L.Mizes yazır ki, "... Biz başa düşməliyik ki, təmayüllər dəyişə bilərlər... keçmişdə dəyişənlər gələcəkdə də dəyişmə iqtidarındadırlar"[40].

Tərəqqi və tənəzzül konseptlərinə münasibətdə iqtisad elmi hər kəsin anlaya biləcəyi mövqedən çıxış edir. Bu problemə insan fəaliyyəti nöqteyi-nəzərindən yanaşılır. Tezisin mahiyyəti son dərəcə anlaşıqlıdır: Həyat şəraitinin yaxşılaşmasına yönələn hərəkət-tərəqqidir. Əlbəttə, unutmaq olmaz ki, proses – obyektiv olaraq dərkedilən, tərəqqi isə - subyekt qiymətləndirilən konseptlərdir.... Lakin iqtisadi nöqteyi-nəzərdən məsələnin başqa cür qoyuluşu da ola bilməz.

Tarixi hadisələrin qiymətləndirilməsində "tarixi hissin" qabarıq şəkildə ifadə edilməsinə (elmi tədqiqatda) canatma, sırf iqtisadi anlamda yanılmadan başqa bir şey deyildir. Başqa sözlə, tarixi hadisənin düzgün qiymətləndirilməsi yalnız və yalnız həmin hadisənin baş verdiyi tarixi situasiyadan çıxış etməklə ortalığa qoyula bilməz. Məsələn, Qədim Roma imperiyasında iqtisadi situasiyanı yaxşılaşdırmaq mümkün idimi? Yaxud

---

[39] Мизес Л. Человеческая деятельность. М., 1992.- С. 97

[40] Mises l. Planning form Freedom. South Holland, III., 1952., p.163-169.

downloaded from KitabYurdu.org

orta əsrlərdə Asiyada baş verən kütləvi yoxsulluq nədən qaynaqlanmışdır? - sualına həmin dövrün tarixi məzmununa istinadla cavab vermək kifayət qədər müşkül məsələdir. Amma iqtisad elminin gerçəkliyi şübhə doğurmayan müddəalarına əsasən hər iki hadisəni dəyərləndirmək mümkündür. Belə ki, əgər Roma imperatoru yüksək qiymət siyasətini yerinə yetirməsə, o cümlədən pulların xarab edilməsi ilə məşğul olmasaydı situasiya tamamilə başqa məzmun daşıyacaqdı. Yaxud Asiya hökmdarları hüquqi və konstitusion sistem tətbiq etməklə kapital yığımı prosesinə şərait yaratsaydılar, kütləvi yoxsulluğu önləmək mümkün ola bilərdi. Bununla yanaşı, tarixi hadisələrin iqtisadi məzmununun dəyərləndirilməsi, bir sistemli anlayış olmaq etibarilə kifayət qədər problematikdir. Məsələn, 1929-33-cü illər böhranının nəticələrinin aradan qaldırılması Keynsin nəzəriyyəsindən istifadə edilməklə baş tutduğunun gerçək həqiqət olduğunu birmənalı şəkildə söyləmək mümkün deyildir. Bu halda iqtisadi həqiqət öz "həqiqiliyini" təkrar verifikasiyada (falsifikasionizmə münasibətdə də analoji məzmun daşıyır) sübuta yetirməlidir. Lakin təkrar verifikasiyanın aparılması mümkünsüzdür. Belə ki, bunun üçün gərək həmin dövr bütün təfərrüatları ilə bərpa edilsin ki, bu da tamamilə qeyri-realdır.

Tarix və iqtisad elminin sintezinin "çat" verdiyi əsas məqamlardan biri tarixi təcrübəyə münasibət məsələsidir. Aydındır ki, tarixi təcrübəyə istinadla müxtəlif fəaliyyət üsullarının və eləcə də, ictimai institutların ortalığa qoyduğu nəticədən nəinki planetar miqyasda, hətta ayrıca götürülmüş bir region çərçivəsində qəbul edilə biləcək ümumi qaydalar, ümumi yanaşma tərzi formalaşdırmaq mümkün deyildir. Amma bu qənaət heç də o anlama gəlmir ki, tarix heç nəyi öyrətmir. Məsələnin qoyuluşu, sadəcə olaraq tarixi prosesin məzmun identikliyini yaradanlara münasibətdə qəlizləşir. Məsələn, tarix yox, iqtisad elmi xüsusi mülkiyyətin hansı rol oynadığını (sivilizasiyanın inkişafı prosesində) rasional şəkildə şərh etmək iqtidarındadır. Əlbəttə, əgər qeyd olunan məsələ "xalis" tarixi müstəviyə keçirilirsə (tarixilik konsepsiyası bu mövqedədir) onda, təbiidir ki, tarixdən heç bir örnək əldə edilə bilməz. Dünya iqtisadiyyatının tarixi rakursunda tarixi prosesin real məzmunu onun iqtisadi determinantları əsasında formalaşır. Yəni tarixin mənası (qeyd edilən aspektdən) iqtisadi mahiyyətdə olanların formalaşdırdığı məna kimi çıxış edir. Bu baxımdan tarixin mənasının anlaşılması bir proses olmaq etibarilə sonsuzluğa qədər uzana bilər. Belə ki, hər bir konkret tarixi situasiyada ötüb-keçənlərin qiymətləndirilməsi həmin situasiyanı "yaradan"ların subyektiv baxışlarına şamil edilir.

downloaded from KitabYurdu.org

Başqa ifadə ilə, anlamanın hermenevtik dairəsi formalaşır. Məna axtarışı prosesi dairəvi hərəkətdə olmaqla hər bir yeni tarixi dönəmdə fərqli mahiyyət kəsb edir. Məna dəyişkənliyi gələn tarixi dönəmlərin özünün məna tutumundan və bu mənanın xarakterindən asılı olaraq baş verir. Məsələn, 1917-ci il oktyabr çevrilişi nəinki ayrı-ayrı tarixi-iqtisadi hadisə və proseslərə, hətta bütövlükdə çevrilişə qədər mövcud olan iqtisadi sistemə "yararsız" damğası vurdu. Az sonra, 1991-ci ildə isə oktyabr çevrilişinin yaratdıqları inkar olundu...

Yaxud öz dövründə F.Listin əsərləri yumşaq şəkildə desək, qəbul olunmurdu. 2008-ci ilin qlobal iqtisadi böhranı həmin əsərləri (o cümlədən, marksizmi) yenidən gündəmə gətirdi. Göründüyü kimi, sırf tarixi anlamda məna sabitliyi yoxdur və ola da bilməz!

Tarix və iqtisad elminin sintezinin "çat" verən digər məqamlarından biri "tarixin təkrarlanması" tezisinə olan yanaşmadan qaynaqlanır. Adətən, "tarix təkrar olunmur" deyilir. Aydındır ki, fiziki və xronoloji aspektdən tarix təkrarlanmır. Amma bunun sosial, yaxud iqtisadi zamana aidiyyəti yoxdur. İqtisadi zaman təkrarlana bilmək xusisiyyətinə malikdir.

Eyni zamanda, göstərilən rakursdan bəzi tədqiqatçılar tarixin, ümumiyyətlə, olmadığını qeyd edirlər.

Tarix – hadisələrin ardıcıl gedişidir, əbədi təkrarlanmadır (F.Nitşe). Yəni, tarix – hadisələrin burulğanında "itir".

Tarix – insan fəaliyyətinin səlnaməsidir. Bu mənada tarixi proses ideyadan qaynaqlanmaqla öz yolunu davam etdirir. Məhz ideya müəyyən edir ki, mövcud situasiyanı daha da yaxşılaşdırmaq üçün nələri dəyişmək, yaxud əlavə etmək lazımdır. Tarixi hadisələrin öyrənilməsi məhz ideyadan başlamalıdır. Aydındır ki, sırf bu nöqteyi-nəzərdən tarix təkrarlana bilməz. Belə ki, hər bir tarixi hadisə - ideyanın (digər hadisələrdəki ideyadan fərqli) əsas məqsədinə doğru yönələn prosesin yaratdığı şeydir. Yəni hər bir ideya bir növ innovasiya xarakteri daşıyır.

İqtisadi sistem və onu formalaşdıran iqtisadi siyasət də ilkin olaraq ideyadan qaynaqlanır. Lakin sonrakı prosesdə həmin "ideya" maddiləşir, münasibətlər kompleksində "əriyir" və "yoxa çıxır". Tarixi hadisəni qiymətləndirən iqtisadçı artıq ideyanı deyil, həmin dövrdə formalaşmış iqtisadi sistemin məzmununu əsas götürür və .... yekun olaraq, həqiqətin aşkarlanması prosesində "obyektiv" yanılmalara yol verir. Eyni ilə, tarixi hadisələrin (müxtəlif sivilizasiyalarda baş verən) müqayisəsinin də mütləq anlamda qəbulu yalnışlıq hesab olunmalıdır. Hər şeydən öncə tarixi hadisənin səbəbiyyət müstəvisində "yaradıcı" mexanizmləri

downloaded from KitabYurdu.org

aşkarlanmalı, sonraki mərhələdə empirik səviyyə qiymətləndirilməli, mahiyyət üzrə konseptual ümumiləşdirmə aparılmalı, yalnız bundan sonra digər analoji hadisələrlə müqayisəsi həyata keçirilməlidir. Müqayisənin mahiyyət açıqlanmasından önə keçirilməsi dolaşıqlıq yaratmaqdan qeyri heç bir nəticə verə bilməz.

## §2.3. Metodoloji dilemmalar

Sübut etməyə ehtiyac yoxdur ki, hər bir elmin "elmlik" statusu ilə onun metodologiyası arasında çox ciddi səbəbiyyət bağlılığı mövcuddur. "Çox ciddi" ifadəsi qaçılmazlıq mənasındadır. Metodologiya – (yunan mənşəli metod və loqos – "elm") elmi idrakın quruluşu, metodları və üsulları haqqında fəlsəfi təlimdir. Əksər hallarda, metodologiyanı metodun ümumi nəzəriyyəsi də adlandırırlar.

Tarixi – iqtisadiyyatın (o cümlədən, dünya iqtisadiyyatının tarixi) elmi araşdırmalarında istifadə olunan və bu gün də qüvvədə olan metodologiyanın ümumi əsasları müxtəlifliyi ilə səciyyələnir. Yəni qeyd edilən elmi istiqamətin vahid metodoloji konsepsiyası yoxdur.

downloaded from KitabYurdu.org




***Şəkil 2.3. Tarixi-iqtisad elminin metodoloji arsenalı***

Göründüyü kimi, vahidlik yoxdur. Bir sıra metodların tətbiqi (məsələn, eksperiment) ümumiyyətlə mümkünsüzdür və s. Eyni zamanda dünya iqtisadiyyatının tarixi fənninin inteqrativ xarakter daşıması metodoloji aspektdə mövcud olan problemləri daha da mürəkkəbləşdirir. Bu mənada problemi aktuallaşdıran əsas səbəblər iki mənbədən qaynaqlanır:

1. Tarix və iqtisad elminin həm fəlsəfəsi, həm də metodologiyasının adekvat şəkildə inkişaf etməməsi, həqiqətin aşkarlanması kriteriyalərinin hamı tərəfindən qəbul edilə biləcək səviyyədə işlənib hazırlanmaması, hər iki elmin konseptual olaraq leviterizm mərəzindən hələ də xilas ola bilməməsi;
2. Hər iki elmə xas olan mücərrəd əqlinəticələr və müqəddəm şərtlərin inteqrativ bağlılıqda doğurduğu ziddiyyətli məqamlar, müxtəlif məzmunlu dilemma və dixotomiyaların meydana çıxması.

Tarixin metodologiyası (o cümlədən, fəlsəfəsi) materializm → idealizm, dualizm → monizm dilemmaları arasında savaş meydanını xatırladır.

Qeyd edilən müstəvidə diskussiyalar bu gün də davam etməkdədir.

downloaded from KitabYurdu.org

Q.Rikkert haqlı olaraq göstərirdi ki, tarixlə təbiətşünaslıq elmlərinin metodları arasında fərq qoymaq lazımdır. Belə ki, təbiətşünaslıq metodları qanunauyğunluqları müəyyənləşdirməyə yönəlirsə, tarixdə - fərdi və təkrarolunmazın dərkedilməsi əsas vəzifə kimi ortaya qoyulur.

C.Klark "obyektiv tarixi həqiqətin itirildiyindən"[41]danışırdı. Bu o deməkdir ki, tarix – sonsuz sayda mənalardan ibarətdir və onların hər biri ayrı-ayrılqda mötəbər hesab olunmalıdır.

A.Berqsonun intuitivizm fəlsəfəsinə istinad edənlər gerçəkliyin rasional inikasını tədqiqatçının intiutiv hissinə qarşı qoymağa çalışırdılar.

XIX əsrin sonu – XX əsrin əvvəllərində rus tədqiqatçıları (N.İ. Kareev, R.Y.Vipper və s.) materializm, idealizm və ümumiyyətlə hər cür ziddiyyətlərdən "yüksəkdə" durmağa cəhd etmişdilər. Məsələn, Kareev[42] tarix fəlsəfəsini tarixi biliklərin üçüncü – yüksək pilləsi hesab edirdi ("tədqiqat" → "quruluş" → "təfəkkür"). Həm də hesab edirdi ki, materialist və idealistlər, eləcə də dualizm → monizm arasındakı diskussiyaların heç bir əhəmiyyəti yoxdur. Belə ki, buradan çıxış yolu tapmaq mümkünsüzdür. O, eyni zamanda O.Kontun, Q.Spenserin və K.Marksın nəzəriyyələrini qəbul etmir, eklektik sintezin yeganə düzgün yanaşma olduğunu göstərirdi. R.Vipper də hesab edirdi ki, ayrı-ayrılıqda həm materialist, həm də idealist yanaşmalar "... natamamdır, kifayətedici deyil, birtərəflidir".[43]

L.Krasavin,[44] qərb tədqiqatçıları kimi, hesab edirdi ki, tarixin predmeti – "təkcədir", "fərdi-təkrarolunmazdır" və "sosial-psixolojidir" (insanların fəaliyyətində).

Qarşılıqlı uyğunsuzluq (yanaşma tərzlərində) tarixin elmi statusunu da müəyyən mənada şübhə altına salmışdır. Fransız tarixçisi Ş.Senobos yazırdı ki: "... tarix elm deyil: O, yalnız xüsusi dərketmə prosesidir."[45] F.Nitşe və O.Şpenqler tarixi "poeziya", "incəsənət əsəri" hesab edirdilər.[46] O.Şpenqler birmənalı olaraq göstərirdi ki, tarixi tarixçilər yaradır və bunu Qərb metodologiyasının əsas tezisi kimi səciyyələndirirdi. Fransız tarixçisi P.Veyn[47] hesab edirdi ki, tarixi – elm

---

[41] Карр Э. История и факты // Современные тенденции в буржуазной философии и методологии истории. Ч.1 и 2., М; 1969.- С.32
[42] Кареев Н. Теория исторического знания. СПБ, 1913.- С.10.
[43] Виппер Р. Кризис исторической науки. Казань, 1921.- С.13.
[44] Красавин Л.П. Введение в истории. Пг. 1920.- С.8.
[45] Сеньобос Ш. Исторический метод в применении к социальным наукам. М., 1902.,
[46] Шпенглер О. Закат Европы. Новосибирск., с.5, 1993.- с,160
[47] Veyne P. Comment on ecrit histoire. Paris., 1971., p.9-10.

downloaded from KitabYurdu.org

elan etmək, “olmaq” və “bilmək” fellərini dolaşıq salmaq kimi bir şeydir. Tarix – izahat vermir və onun metodu yoxdur. Eləcə də, postpozitivizmin banisi K.Popper özünün “Нищета историцизма” əsərində tarixin elmi statusunu inkar edir, ingilis filosofu və tarixşünası R.Kollinqvud tarixi prosesin tədqiqatında dialektikanın tətbiqini mümkünsüz hesab etmişdir və s.

Ümumiyyətlə, materializm → idealizm dilemmasi çərçivəsində gedən diskusiyalar bütövlükdə tarix fəlsəfəsinin eləcə də metodologiyanın inkişafında müsbət işarəli rol oynamışdır.

Sırf metodoloji nöqteyi-nəzərdən şübhə yoxdur ki, tarixi prosesdən səbəbiyyətin “qovalanması” labüd olaraq təsadüfiliyin mütləqləşməsinə gətirib çıxarır ki, bu da nəticədə sistemləşdirmə və ümumiləşdirmə aparmağı əhəmiyyətli dərəcədə çətinləşdirir. Tarixə - hadisələrin tənzimlənməyən axını kimi yanaşmaq onu adi xronikaya çevirir. Hal-hazırda, qərb tədqiqatçılarının əhəmiyyətli dərəcədə böyük hissəsi tarixin elmi statusunu qəbul edirlər.

A.Berr[48] yazır ki, “... Tarix – həqiqəti aşkarlamanın formalarından biridir”, buna görə də onu bellestristikaya aid etmək yalnışlıqdır. Eyni zamanda, hesab edilir ki, səbəbiyyət anlayışı tarixi şərhin əsas kateqoriyası deyildir.

Tarixi tədqiqatlarda (o cümlədən, iqtisadi aspektdə) metodoloji aydınlıq problemi XX əsrin sonlarına yaxın sürətlə aktuallaşmağa başlamış, axtarış prosesi ziddiyyətli təmayüllərin tam “əsarətinə” düşmüşdür. Tarixin əlahiddələşməsinə, tarixi biliklərin spesifikliyinin qabardılmasına, “antissientik” istiqamətin güclənməsinə, postmodernizmin ön plana çıxarılmasına və s. yönümlərdə edilən cəhdlər problemə yanaşmada arzuedilən nəticənin əldə olunmasına imkan yaratmamışdır.

Elmin subyektivist konsepsiyasının dirçəldilməsi, pozitivizmdən hermenevtikaya, kəmiyyət ölçülərindən keyfiyyət aspektlərinə keçid və s. problemdən çıxış yolları istiqamətində aparılan axtarış prosesinin müəyyən bir hissəsini təşkil edir.[49]

L.Repina qeyd edir ki, “... Ssientik və humanitar antitezisin, struktur və antropoloji yanaşmaların, makro və mikro tarixin, tarixi

[48] Gardiner P. The Nature of Historical Explanation. London., 1952, p.33.
[49] Репина Л.П. «Новая историческая школа» и социальная история. М; 1998.- С.27

downloaded from KitabYurdu.org

prosesə sistemli və dinamik proses kimi yanaşmanın aradan qaldırılması tələb olunur."[50]

Fransız tarixçi – metodoloqu M.Emarın fikrincə, bu gün tarix cəmiyyəti öyrənən digər elmlər, konsepsiyalar və hipotezlər üçün açıq olmalı, metodlar və ümumiyyətlə, problemlərin qoyuluş tərzi əhəmiyyətli dərəcədə yeniləşməlidir[51].

Iqtisad elminin metdologiyasi ilə bağlı da analoji situasiya müşahidə edilməkdədir. Dünya iqtisadiyyatında gedən qloballaşma prosesi iqtisadi mahiyyət daşiyan hadisələrin daxili təbiətində binar məntiqə sığmayan yeni keyfiyyət çalarları əmələ gətirmişdir. İqtisadi inkişafın paradiqmasının yeni tələblərə uyğun şəkildə formalaşdırıla bilməməsi iqtisad elminin mövqelərini əməlli-başlı sarsıtmış, hətta bəzi məqamlarda onun elmi statusu belə şübhə altına düşmüşdür. Böhranın təzahür formaları onun mahiyyətindən daha kəskin xarakter almışdır. XX əsrin sonu XXI əsrin əvvəllərində yaranmış situasiyanı bir sıra amillərlə izah etmək olar:

1. Sırf praktiki səciyyə daşıyan problemlərin həllində iqtisadçıların gücsüzlüyünü;
2. İqtisadi nəzəriyyənin real dünyadan təcridi;[52]
3. Pozitivizmdən gözlənilənlərin alına bilməməsi;
4. Tarixi və əxlaqi-etik dəyişənlərin nəzərə alınmasına nail ola bilməmək;
5. Ekoloji problemlər və gələcək nəsillərlə bağlı narahatçılığın kəskinləşməsi.

Bütün bunlar yekun olaraq, iqtisadi nəzəriyyənin metodoloji prinsiplərinə inamsız münasibətin ortaya çıxmasına, ümumiyyətlə, çıxılmazlıq sindromunun yaranmasına səbəb olmuşdur.

İqtisad elminin xeyli müddətdir ki, davam edən böhranı müxtəlif səpgili baxışların ortalığa çıxarmasına ( daha doğrusu - güclənməsinə) səbəb olmuşdur. D.Xausman iqtisadiyyatı əlahiddə elm kimi qəbul edir.[53]F. Mirovskinin fikrincə isə iqtisad elmi – dəqiq elm deyil və "....

---

[50] Yenə orada; c.43.

[51] Эмар М. Образование и научная работа в профессии историка: Современные подходы // Исторические записки. Вып. 1. (119). М., 1995.- С.15.

[52] Ананьин О.И. Одинцова М.И. Методология экономической науки: современные тенденции и проблемы// Истоки. Вып. Ч.М. 2000

[53] Hansman D.M. The inexact and separate science of economics. Cambridge University Press., 1992.

downloaded from KitabYurdu.org

işıqdan çox istilik buraxır."[54] Bir sıra tədqiqatçılar isə, ümumiyyətlə çox dərinə gedir və iqtisadiyyatı (neoklassik) elm hesab etmirlər.[55] Sözsüz ki, qeyd edilən yanaşmaların meydana çıxmasında neoklassizmin (meynstrim) və yeni klassik iqtisad nəzəriyyəsinin "rolu" danılmazdır.

Əslində, hər şey Valrasdan başlayır. XIX əsrin sonunda L.Valras siyasi iqtisadi sosial riyaziyyata "dəyişdi". O, təbiətşünaslığın metodlarından yararlanmaqla ümid edirdi ki, alınacaq normativ elmi nəticələr iqtisadçıların "obyektivliyini" tam şəkildə təmin edəcəkdir.

Problemin kökündə siyasi təsirin neytrallaşdırılması dayanırdı (İctimai seçimin iqtisadiyyatından). Bunun üçün isə yalnız bir tezisi: istənilən halda yeganə optimal həllini tapmağın mümkünlüyünü – sübut etmək tələb olunurdu. J.Sapir[56] bu anlamda qeyd edir ki, müasir meynstrimin (neoklassizm) antidemokratik "davranış"ları məhz Valrasdan qaynaqlanır.

Faydalılıq funksiyasının inteqrasiya imkanlarının (Q.Loran) təhlilinin nəticələri neoklassik iqtisadiyyatın Valras-Pareto "sübut"unun əsassız olduğunu üzə çıxardı. Sonuncular sübut edirdilər ki, tarazlıq – "təbii" yolla gəlinən situasiyadır.

Bu gün bütün çılpaqlığı ilə aydındır ki, ümumiqtisadi tarazlıq nəzəriyyəsinin həm keçmiş, indi, həm də gələcək zamanda təsvir etdiyi şey real iqtisadiyyatdan mahiyyətcə, kənardadır. Məsələn, bu nəzəriyyə tələb əyrisinin qabarıq olduğunu deyir. Əslində isə, bu istisnadan başqa bir şey deyildir. Ziddiyyətli, yaxud ziddiyyətlər məqamı da elə buradan başlayır. Belə ki, qeyd edilən müqəddəm şərtsiz hər hansı bir tarazlığın dayanıqlılığını nümayiş etdirmək yaxud yalnız bir tarazlıq mövcud deyiminin həqiqiliyini sübut etmək mümkünsüzdür. Digər tərəfdən, iqtisadi seçim – sözün geniş mənasında siyasi kontekst daşıyır.

İ.Stiqlisin[57] gerçəkliyə adekvat yanaşması çərçivəsində ümumi tarazlıq nəzəriyyəsinin bir çox müddəaları ümumiyyətlə mənasızlaşır. Məsələn, "işsizliyin təbii səviyyəsi" – mövcudluğu haqqında deyilənlər çılpaq yanılmadır. Yaxud azad ticarət və maliyyə liberallaşdırılması, eləcə də dövriyyədə olan pul kütləsinin azaldılması, yaxud infliyasiyanın

---

[54] Mirovski P. More heat than light. Cambridge University Press., 1989.
[55] Elchner A.W hy economics is not yet a science// New York., M.E. Sharpe, Armank, 1983, p.205-241.
[56] Sapir J. les economists contre la democrate. Paris, 2002
[57] Stiqlitz J.E. İnformation and the change in the paradigm in economics// American Economic Review. Vol.92, 2002, N3. p.460-501

downloaded from KitabYurdu.org

minimal səviyyədə saxlanılması ümumiyyətlə, məhvedici təsir göstərə bilər.

Müasir situasiyanın incələnməsi heç bir şübhə yeri qoymur ki, metodoloji kasadlığı, rasionalizm deyilən şeyin leviteral yozumunu iqtisad elminə də aid edək. Bugünkü iqtisadi fikirdə "meynstrim" kimi qəbul edilən neoklassizm çərçivəsində araşdırdığımız problemlə bağlı hər hansı bir istinad nöqtəsi tapmaq mümkün deyildir.

Neoklassik nəzəriyyə yalnız "indiki" zamanla məşğuldur. O, bazarın inkişafını deyil, konkret fəaliyyətini öyrənir. Yəni iqtisadi inkişaf strategiyasının təhlili və işlənməsində neoklassikanın arsenalından istifadə etmək mümkünsüzdür. Sözügedən nəzəriyyənin iqtisadi tarixə, yaxud inkişaf problemlərinə münasibətdə isə əsas diqqəti ya elmi-texniki tərəqqiyə, ya da son dövrlərdə insan kapitalına investisiya qoyuluşlarına yetirilir.

Neoklassizm üçün zaman amilinin heç bir əhəmiyyət yoxdur. Zamanla ilişkisi olmayan nəzəriyyə yalnız "xəyali", "dəyişim" nəzəriyyəsi ola bilər. Başqa deyimlə, neoklassizm bir "zamansız iqtisad" anlamını ortaya qoymaqdadır. Hətta, o dərəcədə ki səbəb-nəticə əlqaqələri arasında da zaman sürəcinin mövcudluğu nəzərə alınmır. Həm səbəb, həm də nəticə (bu nəzəriyyəyə görə) eyni vaxtda "peyda" olurlar. Bu cəhəti, əlbəttə, çox ciddi çatışmazlıq hesab etməklə yanaşı, qeyd olunmalıdır ki, zaman anlayışına yer verməyən nəzəriyyənin gerçək dünya ilə əlaqəsi qırılacaqdır.

Göründüyü kimi, metodologiya nöqteyi-nəzərindən maraqlı məsələlərdən biri "zaman" konseptinə yanaşma tərzi ilə bağlıdır.

Paradiqma dəyişkənliyi, bir nəzəriyyədən digərinə, Meyersonun dəqiq ifadəsilə "bir eyniyyətdən digər eyniyyətə" keçidlə real dünya "unudulur", "yaddan çıxır", bir sözlə, "itirilir". Dəyişiklikləri qiymətləndirərkən keçmişdə olanla gələcəkdə gözləniləni eyniyyətə gətirməklə dünyanın tarixi gedişini, ümumdünya tarixi prosesi dayandırmış oluruq. Nəticədə nə baş verir? Zaman – bu eyniyyətlər paradında "əriyir", "yoxa çıxır". Əgər, zaman – öz axarında müxtəlif məna yüklü dəyişiklikləri ehtiva etmirsə, deməli, o yoxdur. Zaman ayrı-ayrı fraqmentləri baxımından fərqlənmir və deməli, mövcud deyildir. Eyni proses məkanla da baş verir. Problemə yanaşmanın qeyd edilən tərzli məzmun daşıması təbii olaraq, mənasızlıqla yekunlaşacaqdır. Real dünyanın səbəblərini eyniyyətdə axtarmaq o deməkdir ki, reallıq zaman dəyişkənliyindən asılı olmayaraq əbədi bir dövretmə ilə həmişə özü yaxud onun son mənbəyi (öz-özü) ilə eyniyyətdə olacaqdır. Yəni reallıq

downloaded from KitabYurdu.org

dediyimiz şey fərqlənməyən tərkib ünsürlərindən formalaşmaqla keçmişdən gələcəyə doğru hərəkət edəcəkdir. Bu hal, əslində zamanın "dayanması" deməkdir. Məhz bu aspektdən tarixi prosesin unitar-mərhələli interpretasiyası özünün istənilən təzahür formasında zaman "tələsindən" çıxmaq iqtidarında deyildir.

## §2.4. İqtisadi fikirdə zaman problemi

İqtisadi zamanın, yaxud iqtisadi proseslərdə zamanın yeri və rolunun mahiyyət açıqlanmasına edilən cəhdlərə bir sıra iqtisadçı-mütəfəkkirlərin əsərlərində rast gəlmək mümkündür. Bunların arasında K.Marksın xüsusi yeri vardır. Belə ki, abstrakt əmək konseptinin məzmunundan çıxış edən K.Marksda iqtisadi zaman ictimai-zəruri iş vaxtı kimi təzahür edir. O, yeganə metodoloqdur ki, iqtisadi zamanın ölçü vahidini də müəyyənləşdirməyə cəhd etmiş və bunun sadəcə olaraq, pul olduğunu göstərmişdir. Lakin əgər K.Marks ictimai-zəruri iş vaxtının təqvim iş vaxtına reduksiyasının mümkünsüzlüyünü əsaslandıra bilsə idi, iqtisadi zamanın spesifikasının müəyyənləşdirilməsində heç bir problem qalmazdı. Təəssüf ki, bu baş vermədi və yekun olaraq hələ də fizikalizm tələsində qalmaqda davam edirik.

A.Marşall[58] zaman amilini «iqtisad elmində çoxlu sayda böyük çətinliklərin mənbəyi» hesab edirdi. Həmin çətinliklərin aradan qaldırılması üçün zaman sürəcini hissələrə parçalamaq (qısa, uzun, çox uzun və s.) zərurətini irəli sürmüş, yekun olaraq iqtisadi prosesin periodikliyi (tsikillik) ön plana çıxır və birbaşa tədqiqat obyektinə çevrilir. Bu problemlə, eyni zamanda, K.Viksel, N.Kondratyev, Y.Şumpeter, F.Fon Xayek və digərləri məşğul olmuşlar.

Tsikllərlə bağlı araşdırmalarda «yeni klassiklər» və «yeni keynsçilər» əhəmiyyətli nailiyyətlər ortalığa qoya bilmişlər.

C.M.Keynsin tədqiqatları isə zamanın qeyri-müəyyənlik və ehtimallıq aspektlərini üzə çıxarmağa imkan vermişdir. C.Hiks «iqtisadiyyatda zaman ilə bağlı bəzi məsələlər»[59] əsərində zaman amilinin iqtisadi təhlildə əvəzedilməz olduğunu əsaslandırmağa cəhd etmiş və «zaman daxilində iqtisadiyyat», «zaman xaricində iqtisadiyyat»

---

[58] Маршалл А. Принципы политической экономии. Т.1, М.,1983.- С.174

[59] J.R.Hiks Some Questions of time in Economics/ London, Lexington Books, 1976., p.139

downloaded from KitabYurdu.org

tipli deyimlərdən yararlanmışdır. Birinci halda söhbət «gerçək zaman»dan, ikinci halda isə «məntiqi zaman»dan gedir. Onun fikrincə, bu iki zaman anlayışı həm kapital, həm də bazar nəzəriyyəsi üçün xüsusi önəm daşıyır. Bu sıranı xeyli genişləndirmək də mümkündür. Bununla belə, mövcud baxışların (həm də retrospektiv anlamda) incələnməsi konkret bir qənaətə gəlməyə imkan verir: iqtisadi zamanın spesifikası problemi problem olaraq qalmaqdadır.

Problemin nüfuz dairəsi eyni zamanda mikrosəviyyədə formalaşan münasibətləri də ehtiva etməkdədir. Heç bir şübhə yoxdur ki, iqtisadi zamanın ierarxik quruluşu və təşkili müstəqil tədqiqat obyekti kimi götürülməlidir. Bu, əsasən onunla bağlıdır ki, müxtəlif səviyyələr arasında məqsəd razılaşdırılması mümkünsüzdür və qeyd olunan aspektin bütövlükdə iqtisadi sistem çərçivəsində müxtəlif zaman qatlarının meydana çıxaracağı qaçılmaz olacaqdır. Beləliklə, mikrosəviyyə müstəvisində müxtəlif sürətlilik yaranır və bu da yekun olaraq arzuedilən «gələcəyi» qurmaq imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır.

Bəzi müəlliflər[60] təsvir etdiyimiz yanaşmanın təzahür xüsusiyyətlərindən (mahiyyətindən deyil) çıxış etməklə zaman istiqamətinin üç variantını fərqləndirirlər:

1.Keçmişdən gələcəyə; inkişaf etmiş ölkələr çərçivəsində;

2.Gələcəkdən keçmişə; qeyri-sabitliyin ifrat təzahürü ilə qarşılaşmış ölkələrdə;

3.Tsikllik: ənənəvi cəmiyyətlərdə.

Göstərilən variantların ciddi elmi əsaslara söykəndiyini qəbul etmək mümkünsüzdür.

Eyni zamanda, əgər nəzərə alsaq ki, tsikllik iqtisadi prosesin daxili təbiətindən qaynaqlanan, onunla determinə olunmuş bir anlayışdır və inkişaf səviyyəsindən asılı olmayaraq əksər ölkələr üçün gerçək xarakterlidir, onda yuxarıda göstərilən bölgünün sistemli səciyyə daşımadığı və ümumiyyətlə, problemlə bağlı mahiyyət kənarlaşmasına istiqamətləndiyi üzə çıxacaqdır.

## §2.5. İqtisadi zamanın spesifikası: konseptual ümumiləşdirmə

Mövcud baxışların müqayisəli təhlili açıq-aydın şəkildə göstərir ki, problemin əsas ağırlıq mərkəzi iqtisadi zamanın spesifikasının

---

[60] Полещук В.И. Время в экономических системах // Сб. научн. трудов /под ред. В.С.Чуркова. М.: Изд. ЮРГУЭС, 2005

downloaded from KitabYurdu.org

müəyyənləşdirilməsi üzərinə düşür. Bu problemin dünya iqtisadiyyatının tarixi üçün necə önəm kəsb etməsindən danışmağa, yəqin ki, ehtiyac yoxdur.Məlumdur ki, A.Eynşteyn vahid dünya zamanının olmadığını sübuta yetirmişdir. Bununla belə əksər elmlərdə məhz bu zamanla bağlı yanaşmalar ortalığa qoyulur. Başqa sözlə, iqtisad elmi fizikadan götürülmüş anlayışları olduğu kimi tətbiq edir. Həm də, iqtisad elmi vahid dünya zamanı konsepsiyasını deyil, onun ideallaşmış variantını, yəni iqtisadiyyat üçün elə bir əhəmiyyət kəsb etməyən aspektləri sərf-nəzər etməklə tətbiq edir. Beləliklə, müasir dövrdə də iqtisad elminin istifadə etdiyi zaman fiziki zamandır. Ən azı ona görə ki, eyni ölçü vahidlərindən istifadə olunur. Eyni zamanda, qeyd edilməlidir ki, risk və qeyri-müəyyənliyin zamanla çox sıx bağlılığı mövcuddur. Ümumiyyətlə zamanın bütün prosessual məsələlərə birbaşa aidiyyatı vardır.

Beləliklə, iqtisadiyyatda ən qıt olan resurs zamandır. Gerçək zaman assimmetrik dəyişəndir. Zamanın yeganəliyi xassəsini əsas götürməklə iqtisadi proseslərin daxili məntiqini anlamaq müşkül məsələdir. İqtisadi zamanı təqvim zamanı ilə, yəni fiziki zamanla eyniləşdirmək naturalizmə yuvarlanmaq deməkdir. İqtisadiyyatda zaman ekzogen mahiyyət daşımaqla, iqtisadi proseslərin kəmiyyət ölçüsü anlamından daha geniş və əhəmiyyətli rola malikdir.

İqtisadi zamanın spesifikliyini qabardan əsas cəhət ondan ibarətdir ki, sırf iqtisadi anlamda gələcək «indinin» potensialından avtomatik olaraq formalaşmır. Həmçinin, əksər aksioloji elmlərdə olduğu kimi, iqtisadiyyatda da gələcəklə bağlı məsələlər xüsusi əhəmiyyət daşıyır. İqtisadiyyatda gələcəyi «qurmaq» lazımdır. İqtisadiyyatda – zaman sırası geriyə dönmə qabiliyyətinə malikdir (xüsusi xronologiya kimi nəzərdən keçirilə bilən tsikllərin fraktal xarakterindən söhbət gedir).

Fizikadan fərqli olaraq, iqtisadi zaman sırasında müşahidə edilən sinxronluq yaradılan sinxronluqdur. Onun spontan şəkildə meydana çıxma imkanı yoxdur. Fiziki zamandan fərqli olaraq iqtisadi müstəvidə «indiki zaman» və «bu an» deyimləri başqa məzmun daşıyırlar.

"İndiki zaman" formalaşmış münasibətlər sisteminin mental-dəyər tutumu baxımından sonsuz prosesin konkret intervalını özündə əks etdirən "zəmanə" anlamında dərk edilir.

Yuxarıda da qeyd etdiyimiz kimi, iqtisadiyyatda "zəmanənin" geriyə dönüşü mümkündür. Məhz buna görə də, məsələnin ümümkonseptual qoyuluşuna, yəni sonsuz proses dediyimiz zaman axıcılığının bütövlüyünə, dialektik nöqteyi-nəzərdən bölünməzliyinə və yeganəliyinə xələl gətirmədən iqtisadi anlamda dərkedilə bilən hala

downloaded from KitabYurdu.org

salınması zəruriliyi mövcuddur. Eyni zamanda məlumdur ki, “bu an” – ifrat sürətli axıcılığı ilə səciyyələnən zaman sırasının elementidir. “Bu an”- həmişə keçmişdir. Gələcəyə istiqamətlənən keçmiş. Gələcəyi formalaşdıran keçmiş. Gələcək “bu an”da intişar tapmağa başlayır. Yəni gələcək “bir ayağı” keçmişdə olan ifrat qısa zaman kəsiyinin bətnindən doğur. Problemin dərin qatlarına nüfüz etmədən də konkret məzmunlu konseptual ümumiləşdirmə aparmaq olar. Elmi abstraksiyanın (bunsuz keçinmək mümkün deyil) maksimumundan çıxış etməklə belə bir qənaətə gəlmək olar ki, “zəmanə”(iqtisadiyyatda) keçmiş → indi → gələcək zaman oxunun sosiallaşması, maddiləşməsi, ideologiyalaşması və ümumiyyətlə, konkret dəyərlərlə “yüklənməsi”nin məhsuludur. “Zəmanə”- həm fiziki, həm də sosial-iqtisadi anlamda keçmişin “qalıqlarını”, gələcəyin konturlarını və indiki zamanı bütün təfərrüatı ilə özündə birləşdirən gerçəklikdir. Bu gerçəklikdə, yaxud zəmanədə batıb qalma imkanı da var. Məsələn, Saxaradan (Böyük Səhradan) cənubda yerləşən Afrika ölkələri kimi. Bu ölkələrdə bizim dediyimiz anlamda zaman axıcılığı yoxdur. Zaman “dayanıbdır”.

Beləliklə, məcmu iqtisadi proseslərin zaman axıcılığı və onun meydana çıxardığı nəticələr öz mahiyyəti və əhəmiyyəti baxımından inkişaf probleminin özündən də mühüm məsələdir. Əgər nəzərə alsaq ki, müəyyən ekstremal situasiyalarda əldə olunmuş yüksək inkişaf səviyyəsi heç bir rol oynamaya bilər (məsələn, İslandiyanın bir ölkə olmaq etibarilə müflisləşməsi), onda akademik Ramiz Mehdiyevin gəldiyi nəticənin mühüm əhəmiyyət kəsb etdiyi üzə çıxacaqdır.

İnkişaf probleminə yanaşmada “səviyyə yoxsa sürət” dilemmasında prioritetliyin ikinciyə verilməsini zəruri hesab edən akademik R.Mehdiyev iqtisad elminin ən aktual problemlərindən birinin həllində müstəsna rol oynamaq iqtidarında olan konseptual yanaşma ortalığa qoymuşdur.

Qlobal maliyyə böhranının gedişində qeyd etdiyimiz yanaşmanın sırf praktiki məzmun kəsb etdiyini adi gözlə müşahidə etmək olar. Bununla belə, sözügedən dilemmanın fərqli müstəvidə “davranış tərzinin” necə olacağı sualı da mövcuddur. Başqa sözlə, müasir “oyun qaydaları” çərçivəsində həlledici mövqenin sürətə xas olduğu empirik səviyyədə öz təsdiqini tapmış, lakin kardinal dəyişikliklərin baş verdiyi, yaxud keyfiyyətcə yeni dünya düzəninə keçirildiyi, neoliberalizmin əhatə dairəsinin təhlükəsizlik limitinə qədər daraldıldığı halda sözügedən yanaşma öz aktuallığını saxlayacaqmı? Axı, dünyanın yeni iqtisadi düzənə keçidi “xalis” şəkildə baş verə bilməz. İqtisadiyyatda həyata

downloaded from KitabYurdu.org

keçirilən sistem dəyişikliyi ictimai həyatın bütün sferalarında: siyasətdə, ideologiyada, sosial-mənəvi sahələrdə və s. və i.a adekvat yeniləşmə ilə müşayiət olunur, yaxud olunmalıdır. İqtisadi anlamda "zəmanənin" məzmun dəyişikliyi yekun etibarilə bütövlükdə cəmiyyətin təşkili və idarəolunması sisteminin həmin istiqamətdə yeniləşməsini tələb edir və s.

Problemə yanaşmada dərketmə diskomfortunu aradan qaldıra biləcək adekvat dialektik formaların tapılmasına və ümumiyyətlə, problemin fəlsəfi müstəvidə konseptual qiymətləndirilməsinə böyük ehtiyac vardır.

Beləliklə, metodoloji yeniləşmənin qaçılmaz olduğu göz qabağındadır. Qeyd edilən yönümlü dəyişikliklər, ələlxüsus metodiki aparatın yeniləşməsinə bir tərəfdən ümumelmi kateqoriyaların tarix elminin müvafiq aparatına daxil edilməsi, digər tərəfdən tarixi mənbələrin təhlilində istifadə olunan riyazi metodların və tarixi proseslərin riyazi modelləşdirilməsinin təkmilləşdirilməsi yönümündə aparılır.[61] Son dövrlərdə riyazi statistikanın daha mürəkkəb metodlarına müraciət edilməsi artıq bir təmayül halına gəlmişdir.

Söhbət, hər şeydən əvvəl, qeyri-xətti dinamikanın (ələlxüsus, xaos nəzəriyyəsinin) metodlarından istifadədən, mürəkkəb proseslərin modelləşdirilməsi və empirik xarakterli dinamik sırada xaosun aşkarlanmasından gedir.

Bir sözlə, O.Meduşevskinin dəqiq ifadəsi ilə desək, "...Ən aktual problem... metod problemidir, peşəkarlıq problemidir, elmlərarası inteqrasiya ( metodoloji – Ş.H., Ə.B )" problemdir.[62]

---

[61] Ковальченко И.Д. Методы исторического исследования. М; 1987.- С.198-199.

[62] Медушевская О.М. Профессионализм гуманитарного образования в условиях междисциплинарности // Проблемы источниковедения и историографии. М.2000. С. 350.

downloaded from KitabYurdu.org

# III FƏSİL

# DÜNYA İQTİSADİYYATININ TARİXİ FƏNN KİMİ

## § 3.1. Təkamül və müasirlik

Tarixi mənbələr göstərir ki, artıq XIX əsrin sonlarından etibarən tarixi-iqtisadiyyat "iqtisadi tarix" adı altında tədris proqramlarına daxil edilmişdir. Tarixi məlumatlara görə "iqtisadi tarix" fənni ilk dəfə 1881-1882-ci illərdə Oksfordda A.Toynbi tərəfindən tədris edilmişdi.

Paralel olaraq Bazel Universitetində K.Blüxer həmin fənn üzrə mühazirələr oxumuşdu.

XIX əsrin sonu XX əsrin əvvəllərində iqtisadi tarix əksər universitetlərin tədris planına daxil edilmişdir. İlk "İqtisadi tarix" kafedrası XX əsrin əvvəllərində ABŞ-ın Harvard Universitetində (U.Eşli), 1910-cu ildə isə Mançester Universitetində yaradılmışdı.

"İqtisadi tarix" fənninin tədrisi İngiltərədə və Fransada xüsusilə geniş yayılmışdı.

Tədricən bütün Avropa ölkələrində bu fənnin öyrənilməsinə başlandı: 1950-ci illərdə İtaliyanın 46 universiteti "İqtisadi tarixi" tədris proqramlarına daxil etmişdirlərsə, onların sayı 1980-ci illərdə 87-ə çatmışdı.

Hal-hazırda əksər Qərb ölkələrində iqtisadi tarix iqtisad, siyasət, hüquq və tarix ixtisasları üzrə məcburi fənn kimi tədris olunur. Bu sırada yalnız ABŞ-da fərqli yanaşma ortalığa qoyulmuşdur:İqtisadiyyatın ifrat "riyaziləşdirilməsi" nəticəsində iqtisadi tarix iqtisadi nəzəriyyəyə birləşdirilmişdir.

## § 3.2. Fənnin məzmunu

### §3.2.1. Predmet

Bəri başdan qeyd edək ki, dünya iqtisadiyyatının tarixi çərçivəsində predmet müəyyənləşməsində ilkin olaraq "iqtisadi tarix" və "iqtisadiyyatın tarixi" fərqliliyindən doğan "tələ"dən yan keçmək imkanlarına baxılmalı və tarixi-iqtisadi prosesin subyekti (obyekti) ilə bağlı konseptual dəqiqləşdirmə aparmağa ehtiyac vardır.

downloaded from KitabYurdu.org

Tarix elminin idraki imkanlarının təkamülündən çıxış etməklə tarixi-iqtisadi prosesin dərkedilməsi səviyyələrini aşağıdakı ardıcıllıqla vermək olar (şəkil 3.1).




***Şəkil 3.1. Tarixi-iqtisadi prosesin mahiyyət açıqlanmasının təkamülü***

"Tarix-hekayə" ("narrativ") XIX əsr tarixinin prioritet forması olmuşdu. Tədqiqatçılar bu və ya digər hadisələrin başvermə səbəblərinə elə də əhəmiyyət vermirdilər.[63]

Fransız tarixşünası F.Füre hesab edirdi ki, məhz "tərəqqinin ümumi böhranı" və "qlobal və xətti" tarix konsepsiyasına uyğun olaraq "tarix-hekayə" "tarix-problemlə" əvəz olunmuşdu.[64]

Ümumiyytələ, tarixşünaslığın əsas istiqamətləri XX əsrdə 3 mərhələdən keçmişdir:

---

[63] Harriet Gilliam. The Dialektics of Realizm and İdealizm in modern Historiqraphic Theory// "H.T" VOL. XV. N3, 1976, p.251

[64] Furet F. Latelier de İhistoire. Paris, 1982, p.76-77

downloaded from KitabYurdu.org

1. XIX əsrin sonu – XX əsrin ortalarına qədər ümumsosial-iqtisadi təmayülü ilə xarakterizə olunan "humanitar tarix" üstünlüyə malik olmuşdu.
2. XX əsrin ortalarından etibarən əksər ictimai elmlərin tədqiqat aparatı və nəzəri modelləri ilə zənginləşən fənlərarası analitik elm kimi "Yeni sosial tarix" önə çıxmışdır. Onun əsas diqqət mərkəzində "cəmiyyətdə olan insan"[65] dayanırdı.
3. Ən yeni mərhələ: tarixin metodologiyası və əsasən "artımın böhranı" tədqiqatın mərkəzi elementinə çevrilmişdir.[66]

Şübhə yoxdur ki, tarixi-iqtisadi prosesin nəzəri ümumiləşdirilməsinə nail olmadan "dünya iqtisadiyyatının tarixi" fənni çərçivəsində idrak prosesinin başa çatdığından danışmağa dəyməz. Fənnin sintez xarakteri tarix elmi ilə bağlı olan əsas problemlərdən birini – nəzəri tarixə biganə münasibəti olduğu kimi tarixi-iqtisadi proseslərə yanaşmada da saxlayır, yaxud saxlamaq məcburiyyətindədir.

Nəzəri tarixə olan biganə münasibəti bir sıra amillərlə izah etmək olar:

1. "Tarix-hekayə" (narrativ) uzun dövr ərzində tarix elminin mahiyyətini əks etdirmişdir.
2. Nəzəri tarixin mövcudluğunun inkarı;
3. Uzun dövr ərzində tarixi materializmin yeganə mütləq həqiqət statusunda qəbulu.
4. Tarix haqqında və tarixlə bağlı tarixi gerçəkliyə adekvat olmayan konsepsiyaların, baxış bucaqlarının ortalığa qoyulması.

Beləliklə, tarixi-iqtisadi proseslərin interpretasiyasında istər-istəməz iqtisad elminin metodoloji arsenalı yeganə istinad nöqtəsinə çevrilir ki, yekunda da metodoloji müxtəlifliyə adekvat olaraq müxtəlif nəzəri-ümumiləşdirmələr meydana çıxır.

Predmet müəyyənliyi nöqteyi-nəzərindən digər məsələ tarixi-iqtisadi prosesin subyekti (obyekti) ilə bağlı konseptual dəqiqləşdirmələrlə bağlıdır. Bu problem "Dünya iqtisadiyyatının tarixi" fənni prizmasından xüsusi önəm kəsb edir. Məhz bu aspektdə ortalığa qoyulan yanılmalar (subyektin yanlış seçimi) tarixi-iqtisadi prosesin dövrlənməsində ifrat müxtəliflik yaratmışdır. Elə buradaca qeyd edək ki,

---

[65] Репина Л.П. «Новая историческая школа» и социальная история. М; 1998.- С.9
[66] Гуревич А.Я. О кризисе современной исторической науки// Вопросы истории. 1991.- N2-3.- С. 35

downloaded from KitabYurdu.org

tarixdə subyekt-obyekt eyniliyi mövcuddur. Yəni tarixi-iqtisadi prosesin subyekti elə öyrənilən obyektin özüdür.

Tarix və dünya iqtisadiyyatının tarixi bölümündə prosesin subyektlərini aşağıdakı kimi sıralamaq olar (şəkil 3.2).




***Şəkil 3.2. Konkret elmi istiqamət prizmasından tarixi prosesin subyektləri (obyektləri)***

Dünya iqtisadiyyatının tarixi fənninin predmeti, məhz şəkildə verilən ardıcıllığı özündə ehtiva edir.

Müxtəlif məktəblər və istiqamətlər arasında gedən diskussiyaların nəticəsində "iqtisadiyyatın tarixi" fənninin predmeti aşağıdakı redaktədə formalaşdırılmışdır:

**"İqtisadiyyatın tarixi" fənni** – iqtisadi proseslərin, strukturların, institutların, təsərrüfat fəaliyyətinin, hadisələrin və nəzəriyyələrin inkişafını öyrənir.

Bu yanaşma çərçivəsində iqtisadiyyatın strukturu mühüm anlayışlardan biri kimi ortalığa qoyulur.

Bununla belə, tərifin kumulyativ xarakter daşıdığı açıq-aydın şəkildə görünməkdədir. Məhz bu cür yanaşmanın qəbuledilməzliyindən

downloaded from KitabYurdu.org

çıxış edən bəzi tədqiqatçılar "iqtisadi tarix" və "iqtisadiyyatın tarixi"nin predmet fərqliliyindən bəhs edirlər:

1. İqtisadi tarix: cəmiyyətin "iqtisadi hərəkətini", dəyişmələrin xüsusiyyətləri və qanunauyğunluqlarını və bunun ictimai həyatın bütün hadisələri ilə əlaqəsini öyrənir.
2. "İqtisadiyyatın tarixi" (yaxud "tarixi-iqtisadiyyat") isə istehsal üsullarının, təsərrüfat mexanizmlərinin və iqtisadi institutların təkamülünü öyrənir.[67]

Məsələ burasındadır ki, digər tərəf əsas ağırlıq mərkəzinin, məhz "iqtisadi tarixin" üzərinə düşdüyünü qeyd edirlər.

İqtisadi tarix – müstəqil elmdir!

İqtisadi nəzəriyyə ilə bərabər baza xarakterli iqtisad elmidir. Nəzəri konsepsiyaların gerçəklik dərəcəsini əks etdirən tarixi material (faktlar) iqtisadi qanunların və hadisələrin zaman və məkanca fərqli xüsusiyyətlərini üzə çıxarır. İstənilən iqtisadi hadisənin tarixi kökü vardır. Bu aspekt yeni iqtisadi sistemin formalaşdırılmasında mütləq nəzərə alınmalıdır.Qeyd olunur ki, iqtisadi tarix təkcə keçmişin iqtisadi təcrübəsini aşkarlamaqla deyil, həmçinin proqnostik funksiyanı həyata keçirir.

Beləliklə, konkret rasional yozuma söykənmədən dilemma ortalığa qoyulur: "iqtisadi tarix", yoxsa "iqtisadiyyatın tarixi"?

Seçimin sırf terminoloji müstəviyə keçirilməsi və bu aspektdən konkret yanaşmanın sərgilənməsi, fikrimizcə, məsələyə birtərəfli baxış səciyyəsi daşıyacaqdır.

Məsələ burasındadır ki, hal-hazırda hər iki termin elmi dövriyyədə işlədilməkdədir. Bir sıra tədqiqatçılar hesab edirlər ki, "iqtisadi tarix" – tarix elminə, "iqtisdiyyatın tarixi" isə iqtisad elminə aiddir. Tarixçilər birmənalı olaraq birinci variantı məqbul sayırlar.

Hətta hesab olunur ki, qeyd edilən yönümdə yazılmış dərsliklər – adlarından asılı olaraq ("iqtisadi tarix", "iqtisadiyyatın tarixi") – məzmunca fərqlənməlidirlər.

Belə ki, birinci halda ("iqtisadi tarix"), yəni tarixçilər üçün tərtib edilmiş dərslik daha çox "tarixi" səciyyə daşımalıdır.

Başqa sözlə, iqtisadi hadisə və proseslərin təsviri və interpretasiyası tarixi kontekstin daha dərin qatlarına nüfuz etməklə həyata keçirilməlidir.

---

[67] Вопросы истории народного хозяйства и экономической мысли. Вып.1. – М.; 1989.

downloaded from KitabYurdu.org

İkinci halda isə, yəni "iqtisadiyyatın tarixində" əsas aksent iqtisad elminin kateqoriya və konsepsiyalarının üzərinə düşməlidir.

V.Bovıkin belə bir qənaət ortalığa qoymuşdur ki: ".... Tarix və iqtisadi tarix, eləcə də iqtisadi tarix və iqtisad elmi arasında sərhədlərin dəqiq müəyyənləşdirilməsinin zəruriliyinə şübhə ilə yanaşıram".[68]

Bizim məsələyə yanaşma tərzimiz tarixi-iqtisadiyyat elminin tipologiyasında ifadə etdiyimiz (şəkil 2.1) yanaşmaya söykənir. Başqa sözlə, "iqtisadi tarix" və "iqtisadiyyatın tarixi":

1.Eyni anlayışlar deyildir.

2.Predmet fərqliliyi mövcuddur.

3."İqtisadi tarixi" – "hissəni" (əsasən), "İqtisadiyyatın tarixi" "tamı", "bütövü" öyrənir. Təbii ki, bu aspektdən hansısa Çin səddi çəkməyə də ehtiyac yoxdur. Lakin, hər halda bu anlayışların eyniləşdirilməsi də yolverilməzdir.

"Dünya iqtisadiyyatının tarixi" fənninin predmet müəyyənləşməsi isə daha konkret məzmun daşıyır.

Hər şeydən əvvəl, qeyd edək ki, yuxarıda apardığımız fərqləndirməyə uyğun olaraq "Dünya iqtisadiyyatının tarixi" və "Dünyanın iqtisadi tarixi" anlayışları da identik mahiyyət daşımır. "Dünyanın iqtisadi tarixi" həmin "iqtisadi tarix"in miqyas genişlənməsindən başqa bir şey deyildir.

"Dünya iqtisadiyyatının tarixi" – qlobal iqtisadi sistemin genezisi, qərarlaşması və inkişafı prosesini tarixi-xronoloji prizmadan öyrənən müstəqil elm sahəsidir.

Yəni predmetin əhatə dairəsi sistemli yaranışın konkret sərhədlərindən kənara çıxmır, parçalanmır, eləcə də ayrı-ayrı iqtisadi proseslərin, institutların əlahiddələşmiş şəkildə retrospektiv təhlili ilə məşğul deyildir.

Dünya iqtisadiyyatın tarixinin tədqiqat sahəsi iki anlayışın dialektik bağlılığından formalaşır:

1. İqtisadiyyatın strukturu: bir-biri ilə qarşılıqlı bağlılıqda olan və ictimai təsərrüfat sistemini formalaşdıran makroiqtisadi elementlərin məcmusu.

2. Cəmiyyətin təsərrüfat mədəniyyəti: iqtisadiyyatın struktur elementləri arasında şaquli və üfüqi əlaqələri, monolitliyi formalaşdıran mental yaranış.

---

[68] Бовыкин В.И Миланский Конгресс экономической истории и наша историко-экономическая наука// Экономическая история. Обозрение. Вып. 1. М., 1996.- С.9

downloaded from KitabYurdu.org

Hər iki anlayışın qarşılıqlı bağlılığını sxematik formada aşağıdakı kimi ifadə etmək olar (şəkil 3.3).




***Şəkil 3.3. Cəmiyyətin təsərrüfat tipinin sadələşdirilmiş blok-sxemi***

downloaded from KitabYurdu.org

### § 3.2.2. Vəzifələr

“Dünya iqtisadiyyatının tarixi” elminin əsas vəzifəsi dünya iqtisadiyyatının genezisi, qərarlaşması və inkişafında bu və ya digər formada iştirak edən, konkret amillər kimi təsir göstərən və yekunda ümumplanetar səviyyəli sistemli yaranışın meydana çıxmasına səbəb olan “hər şeyi” araşdırmaq, öyrənmək və ümumiləşdirməkdən ibarətdir:

– İstehsalın (bölgünün, mübadilə və istehlakın) mahiyyəti, struktur və formalarının təkamülü prosesinin öyrənilməsi;
–Konkret tarixi dövrlərdə iri region, yaxud aparıcı ölkələr bölümündə iqtisadi sistemin qərarlaşması və dəyişməsi dinamikasının araşdırılması;
–İqtisadi sistemlərin alternativ inkişaf variantlarının tədqiqi və aşkara çıxarılması;
–Təsərrüfat fəaliyyəti təcrübəsinin toplanması və konseptual ümumiləşdirilməsi;
–Dünya iqtisadiyyatının gələcək inkişaf yolları üzrə tövsiyələrin hazırlanması.

### § 3.2.3. Funksiyalar

A.Toynbi özünün “XVIII əsrdə İngiltərədə sənaye inqilabı” əsərində yazırdı ki, tarixi-iqtisadiyyat elmi iqtisadi inkişafın fəlsəfəsi kimi çıxış etmək iqtidarındadır. C.N.Keyns isə “Siyasi iqtisadın predmeti və metodu”(1891) əsərində siyasi iqtisadla iqtisadiyyatın tarixi arasındakı münasibətlərə xüsusi diqqət yetirmiş və bu fənnin 3 əsas funksiyasını fərqləndirmişdir:

1. İqtisadi nəzəriyyənin tarixi “nümayişi”.

2. İqtisadi nəzəriyyənin tarixi tənqidi, yaxud tarixi müstəvidə yoxlanılması.

3. Yeni iqtisadi nəzəriyyənin tarixinin əsaslandırılması.

Müasir dövrdə “dünya iqtisadiyyatının tarixi” fənninin əsas funksiyalarına aşağıdakılar aid edilir:

1. Bəşəriyyətin təsərrüfat təcrübəsi üzrə məlumatlarının yığılması, öyrənilməsi və ümumiləşdirilməsi; bu baxımdan iqtisadiyyatının tarixi professional “yaddaşın” formalaşmasında müstəsna rol oynayır (“Yaddaş” funksiyası).

downloaded from KitabYurdu.org

2. Dünya iqtisadiyyatının tarixindən götürülən konkret faktlar və nümunələr əsas iqtisadi terminlərin məzmununun mənimsənilməsində bir növ "hazırlıq" mərhələsi kimi çıxış edir ("Hazırlıq" funksiyası).

3. Dünyagörüşü funksiyası ümumbəşəri iqtisadi təkamülün elmi mənzərəsini verməklə iqtisadi təfəkkürə tarixilik (историзм), miqyaslılıq kimi mühüm anlayışları, inkişafın çoxvariantlılığını aşılayır;

4. İqtisadi təfəkkürdə realizmin formalaşdırılması funksiyası: başqa sözlə, tarixi-xronoloji inkişaf prosesinin təkcə pozitiv deyil, həm də neqativ aspektlərini üzə çıxarır;

Metodoloji funksiya aşağıdakıları ehtiva edir:

- iqtisadi nəzəriyyənin ayrı-ayrı müddəaları (qanunları) iqtisadiyyatın tarixindən götürülmüş faktlarla təsbit edilir;
- iqtisadiyyatın tarixi siyasi-iqtisadi təhlilin düzgünlüyünü, elmiliyini yoxlayır (Tənqidi funksiya);
- yeni iqtisadi nəzəriyyənin elmi əsaslandırılması funksiyası;

6. Fundamental funksiya; dünya iqtisadiyyatının təkamülü qanunauyğunluqlarının nəzəri ümumiləşdirilməsi;

7. Mədəni funksiya: dünya iqtisadiyyatı, yaxud regional iqtisadi sistemlərdə mədəni xüsusiyyətlərin qorunub saxlanılması və inkişafı;

8. İdrak funksiyası: dünya iqtisadiyyatının inkişaf qanuna-uyğunluqları və bütövlükdə inkişaf prosesi haqqında təsəvvür forma-laşdırılması;

9. Mental funksiya: təsərrüfat fəaliyyətinin forma və metodlarında mənəviyyatla bağlı ünsürlərin təhlili;

10. Proqnostik funksiya: əldə edilmiş tarixi-empirik məlumatlara istinadla dünya iqtisadiyyatının gələcəyi haqqında fikirlərin irəli sürülməsi.

Funksiyaların kompleks şəkildə realizasiyası dünya iqtisadiyyatının tarixinin digər elmlər arasında yeri və rolunu müəyyən etməyə imkan verir. Bu aspektdən

qeyd etmək lazımdır ki, "Dünya iqtisadiyyatının tarixi" əksər ictimai-humanitar elmlərlə sıx bağlılıqda olmaqla iqtisad elmləri sistemində "iqtisadi nəzəriyyə" və "iqtisadi fikir tarixi" fənləri ilə yanaşı fundamental elm sahəsidir.

### § 3.2.4. Metodika aparatı

Müasir dövrdə "Dünya iqtisadiyyatının tarixi" üzrə aparılan tədqiqatlarda əsasən aşağıdakı metodlar tətbiq olunur:

downloaded from KitabYurdu.org

1. Xronoloji: iqtisadi-tarixi materialın xronoloji ardıcıllıqla şərhi;

2. Sinxron: ölkə və kontinentlərin təsərrüfat həyatında baş verən tarixi-iqtisadi hadisələrin eyni vaxt ərzində öyrənilməsi;

3. Dixron: dövrlənmə metodu;

4. Tarixi modelləşdirmə.

Ümumiyyətlə, iqtisadi-tarixi araşdırmalarda istifadə olunan metodlar kompleksini iki qrupa ayırmaq olar:

**Ənənəvi metodlar:**

- tarixi (tarixi-genetik) metod: Tədqiq edilən obyektin təkamülü və genezisi proseslərinin və faktların ardıcıl təhlilinə əsaslanır. Tədqiq edilən reallığın təsvirində konkretliliyi təmin etməklə hadisələrarası səbəb-nəticə əlaqələrini üzə çıxarmağa imkan verir;
- Sistemli-struktur metod: Tam və onun hissələrinin qarşılıqlı əlaqədə olan sistem kimi öyrənilməsi;
- Tarixi-müqayisə metodu: iqtisadi-tarixi tədqiqatın obyektlərinin zaman və məkanca müqayisəsinə əsaslanır.

Bu metodla iqtisadiyyat tarixində ümumi, xüsusi və təkcəni, ayrı-ayrı ölkələrin inkişaf yolları, variantları və modellərini müəyyənləşdirmək, iqtisadi-tarixi prosesin təsnifatı və tipologiyasını vermək mümkündür.

- Tarixi-tipoloji metod: İqtisadi həyatın müxtəlif hadisələrinin eynicinsli xassə və cəhətlərinə əsaslanır. Bu metodla əsas əlamətlər üzrə eynicinsli olan obyektlər fərqləndirilir.

Tarixi-iqtisadi tədqiqatlarda tipologiya mühüm əhəmiyyət kəsb edir.

Tipologiya – elmi idrakın metodu kimi ümumiləşdirmə modeli vasitəsilə obyektlər sistemi və onların müxtəlif qruplarının bölgüsünə əsaslanır.

Tipologiyanın tətbiqində əsas məqsəd təsərrüfat çoxluğunun adekvat şəkildə təsviridir.

Ən geniş yayılmış tipologiya aşağıdakı əlamətlərin məcmusuna əsaslanır:

- Texnoloji: Əmək alətləri və texnologiyaların inkişaf səviyyəsi;
- İqtisadi: Mülkiyyət münasibətləri sistemi, istehsalçı ilə istehlakçının əlaqə formaları;
- Sosiomədəni, o cümlədən təsərrüfat mədəniyyəti;
- İnstitusional: istehsalın təşkilində dövlətin və digər ictimai institutların rolu.

downloaded from KitabYurdu.org

Məhz bu cür yanaşma nəticəsində iqtisadi inkişafın milli və regional xüsusiyyətlərini nəzərə almaqla tarixi aspektdə təsərrüfat tiplərinin makromodelini formalaşdırmaq imkanı yaranır.

Yeni metodlar:

- Kəmiyyət (riyazi) metodları: İqtisadi-tarixi inkişafın amilləri, təmayülləri və qanunauyğunluqlarının aşkarlanmasında, hadisə və proseslərin tipoloji təsnifatının aparılmasında, sistemdaxili və sistemlərarası qarşılıqlı əlaqələrin təhlilində tətbiq edilir. Bu prosesdə riyazi üsullardan – qruplaşdırma, dispersiya, korrelyasiya, reqressiya, faktorlu təhlil və s. geniş istifadə olunur.
- Sosioloji tədqiqatlar və sosial-psixoloji metodlar: Xüsusi əhəmiyyət kəsb edir. Belə ki, tarixi və iqtisadi proseslərdə xalq kütlələrinin birbaşa təsirinin xarakterini öyrənir.

"Dünya iqtisadiyyatının tarixi" informasiya mənbələri kimi, bir qayda olaraq aşağıdakılardan istifadə edir:

Arxeoloji qazıntılar: Dünya iqtisadiyyatının ayrı-ayrı inkişaf mərhələlərinə aid real maddi faktların ("sübutların") əldə olunmasına imkan verir.

Demoqrafiya: tarixin müxtəlif dövrlərində əhalinin uçotunun nəticələrini tədqiq etmək imkanı yaradır;

Mətnlərin öyrənilməsi: keçmişə aid qanun mətnləri, tarixçi-iqtisadçıların əsərləri və s.

downloaded from KitabYurdu.org

# IV FƏSİL

# ÜMUMDÜNYA TARİXİ-İQTİSADİ PROSESİN DÖVRLƏNMƏSİ: NƏZƏRİ BAXIŞLARIN XÜLASƏSİ

## § 4.1. Tarixi dövrlənmənin əsas paradiqmaları

Tarixi prosesin dövrlənməsi tarixin, o cümlədən tarixi-iqtisadiyyatın tədqiqi baxımından mühüm əhəmiyyət kəsb edir. Heç bir şübhə yoxdur ki, dövrlənmə - tarixi prosesin tədqiqinin ən effektiv metodlarındandır.

Tarixin dövrlənməsi – sistemləşdirilmənin xüsusi növü kimi tarixi prosesin şərti olaraq müəyyən xronoloji dövrlərə bölünməsidir.

Bəşər tarixinin ən uzun sürən dövrü - ən qədim dünya dövrüdür. Bütün insanlar [69] bu dövrdə eyniyyətdə olmuşlar. Yəni Yer Kürəsində canlı həyatın yaranmasından (təqribən 3 mlrd. il əvvəl), insanın meydana gəldiyi dövrdən (təqribən 3 mln. il əvvəl) ibtidai icmanın formalaşdığı və onun dağılmağa başladığı dövrə qədər insanların nəinki yaşayış, hətta təfəkkür tərzi də eyni olmuşdur. Bu nöqtəyə qədər tarixi prosesə münasibətdə irad tutulası elə bir şey yoxdur. Lakin maraqlı hadisələr məhz bu dövrdən sonra başlanır... Tarixi prosesin həm zaman, həm də məkanca prinsipial şəkildə fərqli məzmun daşıdığı üzə çıxır. Sanki “tarixi proses” dediyimiz şey hər iki istiqamətdə (məkan və zaman) avtonom intervallara parçalanır. Bu hal həm mövcudluq, həm də inkişaf prizmasından gerçək məzmun daşıyır. Fikrimizcə, tarixi prosesin vahidliyi (yeganəliyi) deyilən şey sadəcə olaraq, nonsensdir. O, məzmun və keyfiyyətcə müxtəlifdir, heterogendir. Əks təqdirdə, biz “zamansız”, yaxud “məkansız” tarixi prosesdən bəhs etməliyik. “Zamansız” tarix müasir tarix elminin “nailiyyəti” də hesab oluna bilər. Məhz bu aspektdən biz, K.Popperlə tamamilə şərikik ki, nəzəri tarix – mümkünsüz olan bir şeydir. Məhz buna görə də, tarixi prosesin dövrlənməsi problemin yalnız və yalnız kriterilərə bağlamaq, əsas çətinliyin sistemli yekun verə biləcək kriteri axtarışında olduğunu ön plana çıxarmaq əslində problemin “çıxılmaza” salınması deməkdir.

Teoloji paradiqmanın əsas məsələsi – insanın yer həyatının məzmunu və mənasıdır. Dini nöqteyi – nəzərə görə tarixin mənası

---

[69] Burada “xalq”lar termini yerinə düşmür. Belə ki, o dövrdə “xalq” yox idi. Sadəcə insan sürüsü, sonraki mərhələdə ibtidai icma mövcud olmuşdur.

downloaded from KitabYurdu.org

bəşəriyyətin dönmədən, tədricən Allaha qovuşması, mütləq həqiqəti dərk etməsindədir. Tarixi prosesin məzmunu insanın azadlığını, onun dərrakəsi tarix qurucusu olmasını ehtiva edir. İnsan tarixi – Adəm və Həvvanın cənnətdən çıxarılmasından başlanır. Tarixin sonu – qeybdə olandır və onu yalnız Allah bilir.

***Cədvəl 4.1***

***Tarixi dövrlənmənin əsas paradiqmaları***

| ***Nəzəriyyənin adı*** | ***Müəllifi, yaranma tarixi*** | ***Dövrlənmə kriteriləri*** | ***Əsas anlayışlar*** |
|---|---|---|---|
| 1.Dini (Teoloji) | Xristian konsepsiyasının müəllifi Evsey Pamfil 311-ci il. Son variant Avqustin (354-430-cu illər) | İlahi öngörmə | Провиденсиализм (lat-провидение). Tarixin ilahi iradənin təzahürü aspektində dini dərki; əvvəlcədən hazırlanmış və insanın xilasına yönəlinən ilahi planın həyata keçməsi |
| 2. Formasiyalı | XIX əsrin 40-60-cı illəri K.Marks (V.Lenin və s.) Sovet alimləri: 1930-1980-ci illər | Sosial-iqtisadi | İctimai-iqtisadi formasi-ya: cəmiyyətin tarixi tipi, istehsal üsulu; Bazis, üstqurum |
| 3. Sivilizasiyalı | XIX əsrin sonu – XX əsrin əvvəlləri N.Danilevski, O.Şpenqler, A.Toynbi. | Sosial-mədəni | Sivilizasiya – universal tərifi yoxdur. Seçilən kri-teridən asılı olaraq tərif verilir. Əsas əlamətləri: mövcudluğun zaman sürəci; geniş əraziləri əhatə etməsi; çoxlu sayda insanları əhatə etməsi; unikallığı |
| 4. Passionar | L.Qumilyov 1939-cu il. Elmi dövriyyəyə 1970-ci illərdən etibarən daxil edilib. | Etnosun inkişaf dinamikası | Etnos – vahid davranış stereotipləri olan, digər-lərinə qarşı duran, daxili struktura malik insan qru-pu. Passionarlıq– ayrı-ayrı fərdlərin yüksək səviyyəli məqsədyönlülüyü (real, yaxud illüziya olmasının fərqi yoxdur), bu yolda öz həyatını belə qurban verməyə hazır olması və digərlərini öz entuziazmı ilə arxasınca aparması |

downloaded from KitabYurdu.org

Formasiyalı (rasionalist paradiqma) və sivilizasiyalı paradiqmaların gerçək məzmunu növbəti paraqraflarda şərh olunur.

Tarixi prosesin dövrlənməsinin orijinal versiyası L.Qumilyov tərəfindən irəli sürülmüşdür. Onun nəzəri baxışlarının əsasında etnos anlayışının ümumiləşdirilmiş və modernləşdirilmiş mənası dayanır. Etnos, L.Qumilyovun fikrincə, insan orqanizminə xas olan inkişaf fazalarını - yaranma, artım, qocalıq, ölüm – eyni ardıcıllıqla keçir. Etnosda əsas hərəkətverici qüvvə passionarlıqdır. Passionarlığın səviyyəsi etnosun inkişaf mərhələlərini müəyyən edir. Həmin mərhələləri L.Qumilyov orta hesabla, 1000 il götürür. ”Ölən ” etnosun yerinə yenisi gəlir. Etnoslar – superetnoslar yaradırlar ki, onların qarşılıqlı təsiri məhz tarixi prosesi doğurur. Kifayət qədər gözəgəlimli bir quruluş alınır. Amma, etnosun ilkin passionarlığı necə alınır? sualının rasional yozumu qaneedici deyildir. Müəllif bunu, yəni ilkin passionarlığı hansısa kosmik şüalanma ilə izah edir?! Məhz bu aspekt L.Qumilyovun yanaşma tərzinə bir mübhəmlilik xassəsi gətirir.

## § 4.2. Tarixəqədərki tarix: dövrlənmə problemi

Tarixin dövrlənməsi problemi ilə bağlı maraqlı məqamlardan biri prosesin tam şəkildə əhatə olunmamasıdır. Əksər yanaşmalar çıxış nöqtəsi kimi homo sapiensin meydana gəldiyi tarixi əsas götürürlər. Həqiqətən də, nədən proses ilkin başlanğıcı (2.5 mln il əvvəl), yəni qominid, hətta protoqominidləri əhatə etmir?[70] Əlbəttə, sözügedən zamanın dövrlənməsi o qədər şərti olacaqdır ki, (real faktların olmaması ucbatından), onun hər hansı bir məna yükü daşıması mümkünsüzdür. Eyni zamanda dövrlənmənin əsasları konseptual və formal eyniyyətdə olmaq məcburiyyətindədir. Bu anlamda elə bir kriteri müəyyənləşdirmək mümkün deyildir ki, “ağıllı insana” qədərki dövrü əhatə edə bilsin. Həmçinin, insanın yaranması prosesinin (antropogenez) əsas hərəkətverici qüvvəsi daha çox bioloji xarakter daşımışdır. Sosial amilin rolu isə kifayət qədər cüzi olmuşdur. Eyni zamanda, digər bir problem homo sapiensin yarandığı tarixlə bağlıdır. Bir qayda olaraq 40-45 min il

---

[70] Гринченко С.Н Системная память живого (как основа его мегаэволюции и периодической структуры).М.: ИПИРАН.,Мир,2004.

downloaded from KitabYurdu.org

əvvəlki tarix əsas götürülür. Bəzi tədqiqatlarda [71] "ağıllı " insanın 100-200 min il əvvəl meydana gəldiyi göstərilsə də, 40-45 minillik tarix dəyişməz qalmaqdadır.

Məhz həmin dövrdən etibarən müasir mədəni insan tipindən, ələlxüsus dilin meydana gəlməsindən və ümumiyyətlə, sözün həqiqi mənasında, sosial təkamüldən danışmaq mümkündür.

## § 4.3. Tarixi dövrlənmə problemi fəlsəfi müstəvidə

Təbiidir ki, sırf xronoloji aspektdən tarixi prosesin dövrlənməsini, ayrı-ayrı epoxalara ayrılmasını ifadə etmək elə də müşkül məsələ deyildir. Məsələn, qədim dünya → orta əsrlər→ yeni dövr → ən yeni dövr tipli təsnifatın aparılması üçün hansısa bir sistemli araşdırmalara ehtiyac yoxdur. Həm də, nəzərə almaq lazımdır ki, sonuncu dövrü çıxmaqla əsrlər boyu qəbul edilmiş üçlük öz həyat qabiliyyətini saxlamaq imkanında olmuşdur. O.Şpenqlerin "mistik üçlük"[72] adlandırdığı təsnifat tarixi baxımından əksər filosoflar tərəfindən (İ.Kant, V.Hegel, K.Marks, M.Veber, Xaydeqqer və s.) qəbul edilmiş və bu gün də dövriyyədə qalmaqda davam edir.

Bununla belə, məhz XX əsrdə tarixin dövrlənməsi üzrə müxtəlif yanaşmalar meydana çıxmışdır. Aydındir ki, müxtəliflik dövrlənmənin kriterisinə münasibətdə yaranmışdır. Belə ki, tədqiqatçılardan bir qrupu (U.Rostou, D.Bell, O.Toffler) əsas kriteri kimi əmək alətlərini, T.Maltus əhalinin artımını, Ş.Monteskye coğrafi mühiti və s.götürmüşlər.

Tarixi dövrlənmə probleminə münasibətdə fəlsəfi fikrin polyarlığı daha qabarıq şəkildə nəzərə çarpır:

I. **Dövrlənmənin əsas kriterisi azadlıqdır**, onun instinktdən uzaqlaşma dərəcəsidir (İ.Fixte). "...Insan nəslinin yerdəki həyatının məqsədi – azadlıqdır və bütün münasibətlərin ağılla qurulmasından ibarətdir"[73]. İ.Fixte 5 epoxanı fərqləndirir:

---

[71] Клима В. Период человека разумного современного вида до начала производства пищи производящего хозяйства: Общий обзор. История человечества.М, ЮНЕСКО, 2003

[72] Шпенглер О. Закат Европы. Новосибирск, 1993, с.6

[73] И.Г.Фихте. Основные черты современной эпохи // Мир философии: Книга для чтения. Ч.2. М.1991.- С.445

downloaded from KitabYurdu.org

1. Məcburiyyət olmadan insani münasibətlərin formalaşması epoxası; Başqa sözlə, bütün münasibətlər kompleksi "ağıllı" instinkt üzərində qərarlaşır;
2. İnstinktin zəiflənməsi, "seçilmişlər" tərəfindən hamı üçün məcburi olan "xarici avtoritetə" çevrilməsi epoxası;
3. Həmin avtoritetin və onunla birlikdə bu vaxta qədər yeganə formada olan ağlın (zəkanın) inkarı epoxası;
4. Zəkanın elm formasında ümumbəşəri miqyasda yayılması epoxası;
5. Elmin incəsənətlə birləşməsi; onun vasitəsilə həyatın elmə uyğun şəkildə dəyişdirilməsi epoxası.

II. **Tarix – bir epoxadan digərinə keçiddir** (K.Yaspers). Ekzistensializmə görə "insan varlığının tarixi substansiyası" - ənənədir. Bəşəri vahidlik mövcuddur. Həmin bu vahidliyin məzmununu izah etmək üçün K.Yaspers "əsas (осевой) epoxa" (b.e.ə. I minilliyin ortaları) anlayışını elmi dövriyyəyə daxil edir. Onun fikrincə, məhz həmin dövrdə insan tarixi özünün məxsusi strukturunu əldə etmişdir. Hər bir tarixi epoxa digərindən özünün spesifik tarixi situasiyası ilə fərqlənir. Eyni zamanda, qeyd edilir ki, oxşar tarixi situasiyaların yaranması da mümkündür. Məsələn, müasir insan tipinin formalaşdığı dövrdə Çində, Hindistanda, Fələstində oxşar tarixi situasiyalar mövcud olmuşdur. Məhz həmin dövr dünya sivilizasiyasının "əsas epoxası" adlanır.

III. **Tarix – istehsal üsülunun, yaxud formasiyaların dəyişməsidir** (K.Marks). "Formasiya" termini geoloji anlayışdır. Marksist yanaşma ilk dəfə onun (F.Engelslə birlikdə) yazdığı " Alman ideologiyası" əsərində ( 1845 – 1846 ) formalaşmışdır. Sözügedən əsərdə cəmiyyətin strukturu aşağıdakı kimi verilmişdir :
Məhsuldar qüvvələr→istehsal münasibətləri→siyasi üstqurum→ictimai süurun formaları.

Eyni zamanda, tarixin dövrlənməsi probleminə də toxunulmuşdur. Həmçinin, hökmran olan mülkiyyət formalarının ardıcıl şəkildə bir-birini əvəz etməsi – insan cəmiyyətinin tarixi inkişafının əsas mərhələləri hesab olunurdu:

1. Tayfa;

downloaded from KitabYurdu.org

2. Antik;
3. Feodal;
4. Burjua;
5. Ümummülkiyyətin kommunizm forması.

## § 4.4. Tarixi dövrlənmənin marksist nəzəriyyəsi

Tarixi dövrlənmənin bitkin marksist baxışı XIX əsrin 50-ci illərində K.Marksın yazdığı "Siyasi iqtisadın tənqidi" əsərində yer almaqdadır. "İctimai – iqdisadi formasiya" termini ilk dəfə olaraq K.Marksın "Siyasi iqtisadın tənqidinə dair" (1859) əsərinin ön sözündə ifadə olunmuşdur. K.Marks hər şeydən əvvəl, iqtisadi bazisin (istehsal münasibətləri) mülkiyyət münasibətlərinin müəyyənləşməsində əsas rol oynadığını qeyd etmişdir. Bazis – özünə adekvat olan üstqurumu (siyasi) müəyyən edir. Üstqurumun əsas elementi – dövlətdir.

***Cədvəl 4.1***

***İctimai-iqtisadi formasiyanın strukturu***

| *Məhsuldar qüvvələr* | *İstehsal münasibətləri* | *Üstqurum* | *Formasiyanın elementləri* |
|---|---|---|---|
| Əmək cismi;<br>Əmək aləti;<br>İnsan – maddi nemətlərin istehsalçısı (işçi qüvvəsi) | İstehsal vasitələri, bölgü, mübadilə və maddi nemətlərin istehlakı üzərində mülkiyyətlə bağlı sosial – iqtisadi münasibətlər | - Təşkilat və idarələr;<br>- Siyasi (dövlət, partiya);<br>- Mədəni – maarif;<br>- Dini;<br>- İctimai şüur və onun formaları;<br>- İdeoloji, siyasi, hüquqi və dini münasibətlər | Sinfi struktur;<br>İnsan birliklərinin tarixi formaları (nəsil, tayfa, xalq, millət).<br>Məişətin tarixi formaları.<br>Təbiətşünaslıq və texniki biliklər |

Beləliklə, marksist nəzəriyyə cəmiyyətin strukturuna bir sistem kimi baxmaq imkanı verir. Bu nəzəriyyəyə görə mərhələlər, bir tərəfdən istənilən xalq üçün qaçılmazdır, digər tərəfdən hər bir cəmiyyət hər bir mərhələdə uyğun struktura malik olacaqdır.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, 5 ictimai – iqtisadi formasiya sxemi nə K.Marks, nə də F.Engels tərəfindən irəli

downloaded from KitabYurdu.org

sürülməmişdir. K.Marksın əsərlərində tarixin dövrələnməsi başqa müstəvidə verilmişdir[74] (şəkil 4.2).

Şəkildən görüldüyü kimi , K.Marks tarixi prosesin dövrlənməsinə yanaşmada onun adı ilə təqdim edilən sxemdən fərqli mövqe sərgiləmiş və eyni zamanda, heç bir əsərində gəldiyi qənaətin ümumdünya miqyasında mütləq həqiqət olduğunu göstərməmişdir.

Bununla əlaqədar olaraq "Asiya istehsal üsulu" ilə bağlı aparılan diskussiyalar SSRİ – nin süqutuna qədər davam etmiş və yekunda "Asiya istehsal üsulundan" danışanların ("yaradıcı marksistlər") məğlubiyyəti ilə başa çatmış, 5 hissəli formasiya sxemi (Stalin – Engels) təsbit olunmuşdur. Bununla belə, formasiyaların sayı ilə bağlı fərqli yanaşmalar davam etməkdə idi. Yeni formasiya sxemləri meydana çıxmağa başlamışdı. Belə ki, bir qrup tədqiqatçılar[75] 6 formasiyanın (ibtidai icma və quldarlıq formasiyaları arasında "Asiya istehsal üsulu"nun olması), digər qrup[76] isə 4 formasiyanın (quldarlıq və feodalizmin yerinə "böyük feodal formasiyası"), yaxud vahid kapitalizməqədərki formasiyanın[77], bəziləri 3,8 və hətta 11 formasiyanın olduğunu göstərirdilər.

---

[74] Ю.М.Бородай , В.Ж.Келле , Е.Г.Плимак. Наследие К.Маркса и некоторые методологические проблемы исследования докапиталистических обществ и генезиса капитализма. М.,Мысль , 1972.- С.13 – 169

[75] Ю.И.Семенов. Философия истории. М., Старый сад , 1999

[76] Ю.М.Кобищанов. Теория большой феодальной формации // Вопросы истории. 1992.- № 4 – 5.- С.57 – 72

[77] В.П.Илющечкин Теория стадийного развития общества (История и проблемы) М.,Восточная литература, 1996

downloaded from KitabYurdu.org




***Şəkil 4.2. Tarixi dövrlənmənin "həqiqi" marksist yozumu***

Eyni zamanda, ictimai-iqtisadi formasiyalar sxemi çərçivəsində birxətli yanaşmanın çoxxətliliklə [78] əvəzlənməsi cəhdləri də olmuşdur. Çoxxətliliyin istinad nöqtəsi kimi Qərb və qeyri-qərb cəmiyyətlərinin fərqli inkişaf yoluna malikliyi çıxış edirdi.

Bir sıra tədqiqatçılar [79] K.Marksın tarixi proses konsepsiyasına söykənməklə çox xətlilik və mərhələlilik prinsiplərini birləşdirməyə

[78] Л.С.Васильев. Генеральное очертание исторического процесса. Философия и общество. М., 1997-1998
[79] Бородай Ю.М., Келле В.Ж., Плимак Е.Г. Наследие К.Маркса и проблемы теории общественно – экономической формации , М.:Мысль, 1975

downloaded from KitabYurdu.org

çalışır, həmçinin kapitalizməqədərki mərhələdə 2-ci meqaformasiyanı[80] inkişafın mümkün modelləri qismində ortalığa qoyurlar.

1990-cı ildən sonrakı dövrdə 5 formasiyalı sxemin tam inkarı yönümündə bəyanatlar səslənməyə başladı. Marksist sxemin ən qatı tərəfdarları belə yanaşmanın yanlış olduğunu etiraf etdilər. Məsələn, İ.Dyakonov[81] tarixi inkişafın 8 fazasının olduğu qənaətini ortalığa qoydu: ibtidai, ibtidai-icma, ilkin qədim dövr,imperiya qədim dövrü, orta əsrlər, mütləq postorta əsrlər, kapitalizm, postkapitalizm.

Bir sözlə, tənqid hədəfinə tuş gələn təkcə tarixi prosesin marksist yozumu deyil, bütövlükdə paradiqmanın "nüvəsi – ictimai – iqtisadi formasiyalar anlayışı idi.

Bu aspektdən bu gün də birmənali cavablandırılmayan suallar öz aktuallığını saxlamaqdadır :

1) Formasiya nədir: cəmiyyətin tipi, inkişaf mərhələsi, yoxsa konkret – tarixi epoxa?
2) Onun əsas mahiyyətini nə təşkil edir: dar mənada yalnız iqtisadi münasibətlər, yoxsa bütövlükdə ictimai münasibətlər sistemi (geniş anlamda)?
3) Formasiya – gerçəklikdir, yoxsa nəzəri abstraksiya?
4) Formasiya çoxukladlı ola bilərmi, yoxsa yalnız bir istehsal üsülundan ibarətdir.

İstənilən halda marksist yozumun əsas nöqsanı bütün ictimai-iqtisadi formasiyalara – klassik bütövlük anlamında – eyni status verilməsidir.

Tarixi dövrlənmənin marksist yozumu – ictimai-iqtisadi formasiyalar nəzəriyyəsi – əksər filosoflar tərəfindən Qərbi Avropa fenomeni kimi qəbul edilir. Bu nəzəriyyə, artıq göstərdiyimiz kimi, müasir şəraitdə real gerçəkliklə bağlı çoxlu sayda problemlərə adekvat cavab vermə imkanında deyildir, başqa sözlə evristik funksiyası "işləmir".

K.Marksın "Alman ideologiyası" əsərində "antik istehsal üsulu" anlayışı öz əksini tapmışdır. Bu, yəni "antik istehsal üsulu" quldarlıq formasiyasınamı aiddir? Yaxud "Asiya istehsal üsulu" antik, yaxud feodalizm formasiyasına daxildirmi? Yoxsa altıncı formasiya kimi qəbul

---

[80] Павленко Ю.В. История мировой цивилизации. Философский анализ. Киев: Феникс, 2002

[81] Дьяконов И.М. Пути истории : от древнейшего человека до наших дней. М., Восточная литература, 1994

downloaded from KitabYurdu.org

edilməlidir? Yaxud, sosializm – ayrıca bir formasiya ola bilməzmi? Kommunizm – utopiya deyilmi?

M.Çeşkovun[82] fikrincə, formasiya nəzəriyyəsi ilkin başlanğıcda sübutolunmayan "həqiqətlərdən" qaynaqlanan müddəalara istinad edir: Tərəqqi – hərəkətin əsas forması, formasiyalılıq: tərəqqini hərəkətə gətirən əsas üsul kimi qəbul olunur; Formasiyalılıq – ciddi şəkildə ardıcıl düzülmüş (ardıcıl dəyişən) mərhələlikdir; istehsal münasibətləri – cəmiyyətin bazisidir; "Sinif" – cəmiyyətin əsas vahidi və tarixin subyektidir. Yuxarıda sadalanan nəzəri müddəaların heç biri mübahisəsiz deyildir. İctimai-iqtisadi formasiyalar nəzəriyyəsi XIX əsrin ortalarına xas olan nəzəri müddəalara söykənir. Buna görə də, bir çox ziddiyyətləri şərh etməkdə acizdir:

- İnkişaf etmiş regionlarla yanaşı iqtisadi gerilikIə üzləşən zonaların, staqnasiyanın mövcudluğu;
- Dövlətin, bu və ya digər formada, ictimai istehsal münasibətlərinin mühüm amilinə çevrilməsi;
- Siniflərin mahiyyət dəyişkənliyi və modifikasiyası;
- Ümumbəşəri dəyərlərin sinfi dəyərlərdən üstün tutan dəyərlərin yeni iyerarxiyasının yaranması və s.

Bununla belə, ədalət naminə qeyd etməliyik ki, K.Marksın özü ictimai-iqtisadi formasiyalar nəzəriyyəsinin bütün cəmiyyətləri, bütövlükdə planeti əhatə etdiyi iddiasında olmamışdır. Onun elmi baxışlarının "qloballaşması" sonrakı dövrlərdə - marksist şərhçilər tərəfindən həyata keçrilmişdir.

Müasir dövrdə formasiya tipli metodologiyanın tərəfdarlarına az da olsa rast gəlmək mümkündür. Bir sıra tədqiqatçılar "köhnəlmiş" formasiyalı yanaşmanı sivilizasiyalı yanaşma ilə əvəz etməyə, digərləri onların sintezinə nail olmağa, bəziləri [83] isə ümumiyyətlə, "köhnəyə" qayıdışa – birxəttli formasiya sxeminin yerinə A.Ferqyüsson – L.Morqan – F.Engelsin "vəhşilik → barbarlıq→sivilizasiya" konstruksiyasına üstünlük verməyə çağırırlar.

---

[82] Чешков М. Понимание целостности мира: в поисках неформационной парадигмы // Мировая Экономика и международные отношения.- 1990.- № 5.- С. 33-48

[83] Мартынов А.И. Модель цивилизационного развития в степной Евразии. Кемерово: КемГУ, 2003.- С.7-15

downloaded from KitabYurdu.org

## § 4.5. Tarixi dövrlənmə: Sivilizasiya nəzəriyyəsi

Xətti-mərhələli nəzəriyyələrdən fərqli olaraq sivilizasiyalı yanaşma tarixi prosesə fərqli müstəvidə baxır, diaxron "şaqulilik" "üfüqi" ölçmə ilə əvəzlənir.

XIX əsrin sonu XX əsrin əvvələrində tarixi prosesin dərkedilməsi yönümündə yeni kulturoloji yanaşma meydana gəldi. N.Danilevski, O.Şpenqler, sonralar isə A.Toynbi ictimai həyatın sivil strukturu ideyasını irəli sürdülər. Bu yanaşmaya görə, ictimai həyatın əsasını az və ya çox dərəcədə bir-birindən təcrid olunmuş "mədəni-tarixi tiplər" (Danilevski), yaxud öz inkişafında bir sıra ardıcıl mərhələlərdən (yaranma; yetkinlik; qocalıq; tənəzzül) keçən "sivilizasiya" təşkil edir.

Kulturoloji yanaşma çərçivəsində fərqli baxışların olmasına baxmayaraq, onların hamısı üçün xarakterik olan cəhətlərə aşağıdakıları aid etmək olar:

1. Avropa mərkəzçiliyi;
2. Cəmiyyətin tərəqqisinin birxətli sxemi;
3. Lokallıq və müxtəlif keyfiyyətliliklə xarakterizə olunan çoxlu sayda mədəniyyət və sivilizasiyaların mövcudluğu haqqında gəlinən qənaət;
4. Tarixi prosesdə bütün mədəniyyət tiplərinin eyni əhəmiyyət daşımasının təsbiti.

Qeyd etmək lazımdır ki, bu günə qədər "sivilizasiya" anlayışının məzmunu ilə bağlı yekdil yanaşma yoxdur. "Fəlsəfi ensiklopedik lüğət"də[84] 3 tərif verilir:

1. Sivilizasiya – mədəniyyətin sinonimidir; Marksist fəlsəfədə bu anlayış həm də maddi mədəniyyəti ehtiva edir.
2. Sivilizasiya – maddi və mənəvi mədəniyyətin, ictimai inkişafın pilləsi, səviyyəsindədir;
3. İctimai inkişafın barbarlıqdan sonra gələn pilləsidir (L.Morqan, F.Engels).

XX əsr fəlsəfəsi yuxarıda sadalananlara daha 4 tərif əlavə etmişdir :

1) Sivilizasiya – xalqlar və regionlarda mədəniyyətin inkişafının müəyyən pilləsidir (A.Toynbi, P.Sorokin).
2) Əksər xalqlar üçün ümumi xarakter daşıyan bütün mədəniyyətlərin dəyərliliyidr (K.Yaspers).

---

[84] Философский энциклопедический словарь.М., 1989.- С.733

downloaded from KitabYurdu.org

3) Bu və ya digər xalqın, yaxud regionun mədəni inkişafının son anı – "qürubu"dur (O.Şpenqler).
4) İnsanın maddi fəaliyyətinin, əmək vasitələrinin, texnologiyaların, iqtisadi münasibətlərin, təşkilatların yüksək səviyyəsidir (N.Berdyayev, S.Bulqakov).

Müasir sosial fəlsəfə sivilizasiyanı insanlar və xalqların irimiqyaslı sosio – mədəni ümumiliyi kimi səciyyələndirir. Sivilizasiya nəzəriyyəsi tarixi inkişafın mexanizmlərinin, onun gedişi prosesi və xüsusiyyətlərinin aşkarlanması yönümündə bir çox üstünlüklərə malikdir. Bu nəzəriyyədə ictimai tərəqqinin fasiləsizliyinə,təkamüllüyünə xüsusi diqqət yetirilir.

Sivilizasiyalı yanaşma tarixi gerçəkliyi olduğu kimi görməyə imkan verir. Başqa sözlə, hansısa kriteriyə cavab verməyən variantlar prosesdən sərf-nəzər olunmur. Məsələn, bu yanaşmadan istifadə etməklə müasir Şərq və Qərb sivilizasiyaları arasında mövcud olan sosio – mədəni fərqlilikləri aşkarlayırlar :

1) Şəxsiyyət və cəmiyyətin əlaqəsinin xarakteri; Şərq sivilizasiyası cəmiyyətə, Qərb isə - şəxsiyyətə, onun individualizminə, ayrıca götürülmüş fərdi maraqların cəmiyyətinin mənafelərindən üstün tutulmasına yönəlmişdir.
2) İnsanın sosial – psixoloji quruluşu; Qərbdə insan mövcudluqla əksər hallarda razılaşmır, onu daha da yaxşılaşdırmağa çalışır. Şərqdə isə keçmiş və indi balans halındadır, ata – babalardan qalma adət-ənənələrə əməl etmək zəruri hesab olunur.
3) Sosio-mədəni həyatın inkişaf xarakteri: Qərb həyat tərzi bir qayda olaraq, sıçrayışla dəyişir. Şərqdə isə dəyişmə təkamüllə, ruhi dəyərlərə istinadla baş verir və sabitliyi, dayanıqlığı ilə səciyyələnir.

Ümumiyyətlə, marksizmdən fərqli olaraq (şəxsiyyətin rolu tam inkar edilir) sivilizasiya nəzəriyyəsi tarixi prosesə yanaşmada şəxsiyyətə xüsusi önəm verir : Tarixdə elə dövrlər olur ki, hansısa tarixi problemin həllində bir nəfərin qəbul etdiyi qərar bütün yerdə qalan amillərin hamısından daha böyük əhəmiyyət kəsb edir.

İctimai – iqtisadi formasiya və sivilizasiya nəzəriyyələrinin qarşılıqlı müqayisəsini aşağıdakı şəkildən əyani şəkildə görmək olar.

Sivilizasiyalı yanaşmanın tarixi dövrlənmə metodu kimi üstün cəhətlərinə aşağıdakıları aid etmək olar :

1. Tarixin "bəşəriləşdirilməsi". İnsan – tarixin əvvəli və sonudur;

downloaded from KitabYurdu.org

2. Universalizm – onun prinsipləri istənilən ölkə, yaxud ölkələr qrupu üçün keçərlidir.
3. Tarixi çoxvariantlı və çoxxətli proses kimi nəzərdən keçirir.

**Bəşəriyyətin inkişaf tarixinə yanaşma**

| Formasiyalı baxış | Sivilizasiyalı baxış |
|---|---|
| - Əsas olan maddi-nemətlər istehsalıdır;<br>- Cəmiyyətin tarixi istehsal üsulunun inkişaf tarixidir;<br>- İnkişaf tarixi eynitipli əlamətlərə görə konkret sosial-iqtisadi formasiyalara bölünür;<br>- Tarixi proses qanunauyğun olaraq bir formasiyanın digərini əvəz etməsi prosesidir.<br>- Hər bir formasiyanın öz xüsusi sivilizasiyası var;<br>- Hər bir xalqın inkişafı “ümumi” olan əsasında gedir və ona çoxlu sayda amillər təsir göstərir. | 1) Əsas olan sivilizasiyaların yaranması, inkişafı və məhvində ümumi qanunauyğunluqların yoxluğudur;<br>2) İstehsal üsuluna görə xalqların inkişaf tarixinin tipologiyası rədd edilir;<br>3) Ayrı-ayrı xalqların inkişafında özünəməxsusluq ön plana çıxarılır;<br>4) Çoxlu sayda sivilizasiyaların olduğu təsbit edilir. |

***Şəkil 4.3. Ümumbəşəri inkişafa formasiyalı və sivilizasiyalı baxışların müqayisəsi***

4. Tarixi prosesin dərkedilməsində mənəvi – intellektual amillərə (din, mədəniyyət, mentalitet) xüsusi önən verilir;

Bununla belə, göstərmək lazımdır ki, sivilizasiya nəzəriyyəsi də nöqsan və çatışmazlıqlardan xali deyildir.

1. Universalizm – həm də nöqsanlara aiddir. Belə ki, bu prinsiplər əsasən “qlobal səviyyədə” tətbiq olunur. Konkret problemlərin həlli isə fərqli metodika əsasında aparılır;
2. Sivilizasiyaların tipologiya kriterilərinin amorfluğu; Bu məqsədlə həm iqtisadi, siyasi, həm də dini və mədəni

downloaded from KitabYurdu.org

kriterilərdən (ayrı-ayrı sivilizasiyalara yanaşmada) ayrı – ayrılıqda yararlanılır;

3. Bu yanaşma çərçivəsində metodoloji müstəvidə anlama metodikasının zəifliyi göz önündədir;
4. Sivilizasiyalar arası əlaqə nəzərə alınmır;
5. Təkrarlanma fenomeninə heç bir şərh verilmir;
6. Mentalitetin nəzərdən keçirilməsində böyük çətinliklər yaranır. Bəşəriyyətin ruhi-mənəvi və intellektual strukturları mühüm əhəmiyyət kəsb edir, lakin onların göstəriciləri (indikatorlar) ifrat dərəcədə yayğındır.

Beləliklə, tarixi dövrlənmənin fəlsəfi yozumu istənilən halda əvvəllər qeyd etdiyimiz xronoloji çərcivədən kənara çıxmır (qədim dünya; orta əsrlər; yeni və ən yeni dövr). Bu dövrlərin hər biri üçün adekvat olan təsərrüfat tipi, mədəniyyəti və s. mövcud olmuşdur. Maraqlıdır ki, müasir tarixçilərin bir çoxu sözügedən dövrlənmə ilə razılaşmırlar.

Məsələn, fransız tarixşünası J.Le Qoff yazır ki : “... Bu gün mən xronoloji çərcivənin genişləndirilməsində israr edirəm...”uzun” orta əsrlər... əslində XVIII əsrə qədər “uzanmış”, fransız inqilabı və XIX əsr sənaye çevrilişi, XX əsrin böyük dəyişiklikləri nəticəsində “tükənməyə” doğru yönəlmişdir... Biz ortaəsrlərin sonuncu maddi və intellektual qalıqları içərisində yaşayırıq.”[85]

Bu gün Qərb ölkələrinin universitetlərində tədris olunan dərsliklərdə müasir fəlsəfi fikrin tarixi dövrlərin “irilənməsinə” yönəlik dövretmə nəzəriyyəsi yer almaqdadır:

1. Ənənəvi cəmiyyət (kapitalizməqədərki);
2. Kapitalizm (ilkin, keçid forması da daxil olmaqla XVII – XVIII əsrlər Avropası) industrial cəmiyyəti (XIX əsrin ortaları) əhatə edir;
3. Postindustrial cəmiyyət (XX əsrin 60-cı illərindən sonrakı dövr).

Beləliklə, fəlsəfi yanaşmaya görə, bəşəriyyət sanki sivilizasiyanın üç “dalğasını” keçir. Ənənəvi cəmiyyətdə kənd təsərrüfatı, industrial cəmiyyətdə sənaye və postindustrial cəmiyyətdə xidmət sferası əsas rol oynayır.

“İndustrial cəmiyyət” termini O.Kont və Q.Spenser, “Postindustrial cəmiyyət” termini isə D.Bell tərəfindən elmi leksikona daxil edilmişdir.

---

[85] Ле Гофф Ж. Цивилизация средневекового Запада. М., 1992.- С.5 – 6

downloaded from KitabYurdu.org

D.Bell – bu cəmiyyətləri "əsas instituta" görə fərqləndirir. İndustrial cəmiyyətdə "əsas institut" kimi xüsusi mülkiyyət, postindustrial cəmiyyətdə isə yaradıcı bilik çıxış edir.

Müasir tarix fəlsəfəsinin əsas problemləri və ümumiyyətlə tarixi prosesin məzmunu çərçivəsində müxtəlif səpgili mühakimələri ehtiva edən konsepsiyalar sırasında A.Toynbinin "Lokal sivilizasiyalar" nəzəriyyəsini, P.Sorokinin konsepsiyasını (tarix – azsaylı əsas cəmiyyət tiplərinin növbələşməsidir) və K.Yaspersin "Xətti tarix" nəzəriyyəsini xüsusi olaraq vurğulamaq lazımdır. Dünya iqtisadiyyatının tarixi prizmasından A.Toynbinin baxışlar sistemini daha önəmli hesab etmək olar.

A.Toynbinin lokal sivilizasiyalar nəzəriyyəsi mədəni tsikllər nəzəriyyəsinin variant müxtəlifliyi içərisində xüsusi yer tutur. Əsas ideya ondan ibarətdir ki, tarix bir-biri ilə zəif qarşılıqlı əlaqədə olan çoxlu sayda sivilizasiyalardan ibarətdir. Sivilizasiyalar tipik canlı orqanizm kimi yaranışdan məhv olmaya qədər inkişaf yolu keçirlər.

Öz məzmunu və əhatə dairəsi baxımından A.Toynbinin sivilizasiya nəzəriyyəsi O.Şpenqlerin xəttinin davamı kimi daha çox lokal sivilizasiya nəzəriyyələrinin klassik variantı kimi başa düşülür. Toynbiyə görə, tarix – insanın və bəşəriyyətin mövcudluğu naminə ilahinin yaratdığıdır. Tarixin əsasında dünya qanunu – ilahi hikmətlə bəşəriyyətin qarşılıqlı təsiri dayanır. Tarixi anlamaqla, insan özü – özünü və eləcə də, özündə olanı – ilahi qanun və ali təyinatı dərk edir. Təzahür xüsusiyyətləri, yaxud xarici – səthi görünüşdə tarix çoxmənalı görünsə də, gerçəkliyin dərin qatlarında mahiyyətcə biristiqamətlidir və insanın özünü realizasiya vasitəsi ilə Allaha qovuşmasıdır.

A.Toynbinin[86] nəzəriyyəsində mərkəzi məsələ müxtəlif əlamətlər toplusu ilə xarakterizə olunan sivilizasiya və qapalı cəmiyyət anlayışıdır. Sivilizasiyanın təsnifatında istifadə olunan kriterilər dəyişkəndir, lakin bunlardan ikisi həmişə sabit qalır:

1. Din və onun təşkili forması;
2. Ərazi əlaməti.

Bu kriterilərə adekvat olaraq tədqiqatçı 21 sivilizasiyanı (Misir, And, Çin, munoy, Şumer, Maya, Hind, Ellin, Qərb, Provoslav, Uzaq Şərq, İran, Ərəb, Hind, Meksikan, Yukatan və Babilistan) fərqləndirir ki, bunlardan da 14-ü "ölü" sivilizasiyalardır. Bununla yanaşı, A.Toynbi 4 "doğulmamış" (məsələn, skandinaviya), eləcə də "ləngiyən" (yəni

---

[86] Тоунби А. Постижение истории. Сборник ,М., 1996.- С.64

downloaded from KitabYurdu.org

"doğulmuş", lakin inkişaf etməmişdir: məsələn, polinezey, eskimos, köçəri, spartan və s.) sivilizasiyaları fərqləndirir. Onun fikrincə, primitiv cəmiyyətlərdən fərqli olaraq, "ləngiyən" sivilizasiyalar "tarixi olmayan xalqlar"a əyani misaldır. Sivilizasiyanın genezisini nə irqi amillə, nə də coğrafi mühitlə izah etmək olmaz. Sivilizasiya o vaxt inkişaf edir ki, bunun üçün "neytral" situasiya formalaşsın, yəni nə çox yaxşı, nə də çox pis olmasın və cəmiyyətdə kütləni arxasınca apara biləcək yaradıcı azlıq mövcud olsun. Müvəffəqiyyətlə inkişaf edən sivilizasiyalar 4 mərhələdən keçir: yaranma, artım, durğunluq və süqut.

Göründüyü kimi, A.Toynbinin mövqeyi mədəni plüralizm kimi xarakterizə oluna bilər. Yəni bəşər tarixi diskret sosial təşkil olma vahidlərinin (sivilizasiyalar) məcmusudur. Bunların hər birinin özünəməxsus dəyərlər sistemi və unikal inkişaf yolu vardır (bax: cədvəl 4.4).

***Cədvəl 4.4***

***Sivilizasiyaların (S.Xantinqtonun təsnifatında) Qlobal məcmu məhsulda xüsusi çəkisinin dinamikası ( % )***

| Siviliza-siyalar | 1950 | 1970 | 1980 | 1992[87] | 2000 | 2005 | 2008 | 2009 | 2009 1950 -ci-nis-bətən (+;-) |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1. Qərb | 64.1 | 53.4 | 48.6 | 48.8 | 46.3 | 49.5 | 50.1 | 46.2 | -17.9 |
| 2.Pravoslav | 16.0 | 17.4 | 16.4 | 6.2 | 1.4 | 2.7 | 4.3 | 3.4 | -12.6 |
| 3. Çin | 3.3 | 4.8 | 6.4 | 10.0 | 4.9 | 6.1 | 8.1 | 8.5 | +5.2 |
| 4. İslam | 2.9 | 4.6 | 6.3 | 11.9 | 2.5 | 4.7 | 6.6 | 5.9 | +3.0 |
| 5. İndus | 3.8 | 3.0 | 2.7 | 3.5 | 1.1 | 1.4 | 1.7 | 1.8 | -1.8 |
| 6. Yapon | 3.1 | 7.8 | 8.5 | 8.0 | 11.1 | 7.9 | 7.1 | 7.2 | +4.1 |
| 7. Latın Amerikası | 5.6 | 6.2 | 7.7 | 8.3 | 3.0 | 3.3 | 4.4 | 4.4 | -1.2 |

***Qeyd: Cədvəl 1992-ci ilə qədər BVF-nın, 2000-ci ildən 2009-cu ilə qədər elmi araşdırmalar əsasında tərtib edilmişdir.***

S.Xanqinqton sivilizasiya nəzəriyyəsi çərçivəsində 8 müasir sivilizasiyanı fərqləndirir :

1. Qərb;
2. Latın Amerikası;

---

[87] Экономическая энциклопедия. М., Экономика , 1999 , с.946

downloaded from KitabYurdu.org

3 İslam;
4 Çin;
5 İndus;
6 Pravoslav;
7 Buddist;
8 Yapon.

Lokal sivilizasiya nəzəriyyəsinin əsas zəif cəhətlərinə aşağıdakıları aid etmək olar:

1) Sivilizasiyaların müəyyənləşdirilməsinin obyektiv kriterilərinin axtarışı hələ də, nəticəsizdir. Buna görə də, müxtəlif yanaşmalarda onların sayı kəskin şəkildə fərqlənir.[88] Bu aspekt bir sıra "qurama" hallara da (xalqın xüsusi sivilizasiyasının olması kimi) gətirib çıxara bilir.
2) Sivilizasiyanın canlı orqanizmlə eyniləşdirilməsi yanılmadan başqa bir şey deyildir. Sivilizasiyaların mövcudluq dövrü müxtəlifdir, ayrı-ayrı fazalar isə dəfələrlə təkrar oluna bilir.
3) Ayrı-ayrı sivilizasiyaların yaranması və süqutu səbəbləri müxtəlifdir.
4) Sivilizasiyanın unikallığı qlobal səviyyəli proseslərin (məsələn, qloballaşma) genişlənməsinə zidd deyildir.

Qeyd etmək lazımdır ki, müasir dövr sivilizasiya nəzəriyyəsinin böhranı dövrüdür. Bununla belə, Avropa mərkəzçiliyinə alternativ olaraq sivilizasiya nəzəriyyəsi bir çox inkişaf etməkdə olan və postsosialist ölkələrində aktiv şəkildə araşdırılmaqdadır. İş o yeri gəlib çatıb ki, artıq az qala hər bir etnik qrupa fərqli sivilizasiya aid edilir. İ.Vallerstaynın[89] vurğuladığı kimi, sivilizasiyalı yanaşma "zəiflərin ideologiyasıdır", etnik millətçiliyin dünyanın güc mərkəzlərinə etirazı formasıdır.Qərb ölkələrinin müasir tədqiqatçıları əsas ağırlıq mərkəzini sivilizasiyaların müqayisəli tədqiqinə yönəldirlər. Bu aspektdən sivilizasiyanın genetik "ağacı" qurulur[90], 23 əsas sivilizasiyanın zaman – məkan fərqliliklərini nəzərə alan sxem tərtib edilməyə çalışır[91] və s.

---

[88]Р.Уэскотт. Исчисление цивилизаций. М.: Время мира 2., 2001.-С. 328-344
[89] İ.Wallerstein The politic of the World – System. Paris. Maison d science d I'Homme., 1984
[90] Хорд Д. Условия исторического сравнения эпох и регионов. М., Время мира 2., 2001.-С.91-101
[91] Ито Ш. Схема для сравнительного исследования цивилизаций М., Время мира 2. 2001.-С.345-350

downloaded from KitabYurdu.org

Hal-hazırda mövcud yanaşmaların ifrat kənar mövqeləri və ziddiyyətlərindən yaxa qurtarmaq məqsədilə tarixi-iqtisadi prosesin dövrlənməsi probleminin təhlilində tsikl yanaşmasından da istifadə olunur. İqtisadiyyatın tarixində iqtisadi tsikllər nəzəriyyəsinə uyğun olaraq 4 əsas növ fərqləndirilir:

1. Onillik dəyişmə amplitudalı ortamüddətli tsikl;

2. Yarıməsrlik (Kondratyev tsikli): İnsan nəslinin, texnoloji ukladın, əsas fondların, eləcə də iqtisadi və sosial-siyasi münasibətlərin dəyişməsi ilə əlaqədar olan tsikl;

3. Əsrlik – dünya sivilizasiyalarının dövri dəyişməsini əks etdirən tsikl;

4. Minillik – bır sıra "qohum" sivilizasiyaları əhatə edən super tsikl.

Nəticədə, iqtisadiyyatın tarixinin dövrlənməsi daha ciddi forma almaqla 7 sivilizasiya və 3 super tsikli əhatə edir (cədvəl 4.5).

Cədvəldən göründüyü kimi, hər bir növbəti tsikl əvvəlkindən 1.5 dəfə qısadır. Buna əsaslanmaqla yeni postindustrial sivilizasiyanın, postindustrial supertsiklin təxmini zaman çərçivəsini müəyyənləşdirirlər (XXX əsrin ortalarına qədər).

***Cədvəl 4.5***

***Tarixi-iqtisadi prosesin tsiklik dövrlənməsi***

| Supertsikl | Sivilizasiyalar | Zaman sərhədləri |
|---|---|---|
| Qədim dünya | 1. Neolit dövrü<br>2. Şərqi-quldarlıq dövrü<br>3.Antik dövr | 7-4 min il b.e.ə.<br>3-1 minilliyin birinci yarısı (b.e.ə.)<br>b.e.ə. 7 əsr – b.e. 5-ci əsri |
| İndustrial era | 1. İlkin feodalizm dövrü<br>2. İndustrializməqədərki dövr<br>3.İndustrial dövr | 6-13-cü əsrlər<br>18 əsr<br>XVIII əsrin 60-cı illəri-XX əsrin 70-ci illəri |
| Postindustrial era | 1. Postindustrial dövr | XX əsrin 80-ci illəri – XXII əsrin 10-cu illəri |

downloaded from KitabYurdu.org

Tarixi prosesə yanaşmada diametral əks mövqelərin, müxtəlifliklərin aradan qaldırılması istiqamətində fəlsəfi fikrin axtarışları bu gün də davam etməkdədir. Məsələn, rus filosofu A.Kovalyev[92] mövcud nöqteyi-nəzərləri birləşdirmək yolu ilə yeni konsepsiya formalaşdırmışdır. Bu konsepsiyada "ictimai həyatın istehsal üsulu" insan potensialının, sosial şəraitin və təbii mühitin məcmusu kimi götürülmüşdür.

Onun fikrincə, formalaşdırdığı yanaşma Toynbinin sivilizasiya, K.Marksın formasiya nəzəriyyələrini, Maltusun baxışlarını və coğrafi yönümlü nöqteyi-nəzərləri özündə birləşdirir və tarixi prosesin vahid konsepsiyası keyfiyyətində çıxış edir. Kovalyev qeyd edir ki, bu günə qədər mövcud olan konsepsiyalar insana münasibətdə ekzogen xarakter daşıyan "nələrisə" ictimai proseslərin əsası kimi səciyyələndirmişlər. Başqa sözlə, yaşı müəyyən etmək üçün insanın vəziyyətini deyil, onun geyindiyi paltarı kriteri olaraq qəbul etmişlər. Yəni cəmiyyətə - müəyyən keyfiyyət səviyyəsində olan bütöv təbii-sosial orqanizm kimi deyil, fərdlərin məcmusu və xarici amillərdən asılı olaraq qurulan ictimai münasibətlər, ümumilik kimi baxmışlar.

## § 4.6. Tarixi dövrlənmə: Modernizm nəzəriyyəsi

Modernizm nəzəriyyəsinin seçilən kriteriyalardan asılı olaraq (hansı sosial gücün həlledici amil olması, hansı sosial-tarixi məsələlərin həll edilməsi və s.) bir çox versiyaları mövcuddur:

1. M.Veber versiyası: mədəniyyətin rasionallaşdırılmasından çıxış edir. Modernləşmə həm istehsal sferasını, həm də ruhi sferanı əhatə edir;
2. Q.Zimmel versiyası: modernləşmə - mədəniyyətin abstraksiyasına yönəlmiş prosesdir;
3. U.Tennis versiyası: modernləşmə - "icma"dan "cəmiyyətə" keçid prosesidir;
4. U.Dyükqeym versiyası: modernləşmə - "mexaniki həmrəyılikdən" "üzvi həmrəyliyə" keçiddir.

Modernləşmə nəzəriyyəsinin müxtəlif versiyalarından bir çoxu inkişaf, ələlxüsus Qərbi Avropa ölkələrinə xas olan norma və

---

[92] Ковалев А. Еще раз о формационном и цивилизационном подходе// Общественные науки и современность. 1996.- С 97-102

downloaded from KitabYurdu.org

qaydalardan çıxış edirlər. Başqa sözlə, modernləşmənin xarakteri və dərəcəsi ABŞ, Almaniya və s. ölkələrə yönəlik qiymətləndirilir. Yəni modernləşmənin "qərbləşmə", "avropalaşma" anlamında interpretasiyası üstünlük təşkil edir.

Keçid dövrləri: ənənəvidən industriala və ondan da postindustrial cəmiyyətə keçid prosesi ictimai modernləşmə dövrləri hesab olunur. Bir qayda olaraq "ilkin" və "ikinci" modernləşməni fərqləndirirlər: "ilkin" modernləşmə - ənənəvi cəmiyyətdən industrializmə keçidi, yəni faktiki olaraq kapitalist sisteminin genezisini ehtiva edir. "İkinci" modernləşmə isə daha "yetkin" səviyyəyə çatma anlamında işlədilir.

Tarixi prosesin industrializməqədərki və industrial dövrlərə bölünməsi ideyası modernləşmə konsepsiyasının qaynaqlandığı əsas mənbədir.

Modernləşmə[93] (müasirləşmə) – soail-iqtisadi, mədəni və siyasi dəyişikliklərin yolu ilə ənənəvi cəmiyyətin industrial cəmiyyətə keçidi, liberal-demokratik institutların, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşması, ənənəvi dəyərlərə (milli, dini və s.) deyil, rasionalizmə istinadla yeni insan tipinin, bazar iqtisadiyyatına, dinamik proseslərə, fərdiyyətçiliyə yönəlik yeni davranış modelinin yaradılması prosesidir.

Modernist yanaşma tarixi dövrlənmədə 4 mərhələni fərqləndirir:

1. ibtidai (tarixəqədərki) dövr;
2. industrializmə qədərki dövr;
3. industrial dövr;
4. postindustrial dövr.

Bir mərhələdən digərinə keçid (modernist baxışlarda) inqilablarla əlaqələndirilir. Yəni mərhələlərə müvafiq olaraq 3 inqilabdan söhbət gedir: Aqrar (neolit), industrial və informasiya inqilabları.

Eyni zamanda modernləşmənin bir neçə "dalğası"da fərqləndirilir:

1. Birinci dalğa Qərbi Avropanı əhatə edir (XVI – XIX əsrlər) ;
2. İkinci dalğa Şərqi və Cənubi Avropada, Rusiya, Yaponiya və Türkiyədə baş vermişdir;
3. Üçüncü dalğa müasir Asiya, Afrika və Latın Amerikasını əhatə etmişdir.

Eyni zamanda, modernləşmə prosesinin kəskin fərqlilikləri (ölkələrə münasibətdə) də diqqət mərkəzindədir. Belə ki, ölkələrin böyük bir hissəsi hələ də müasir dünyanın periferiyasında qalmaqdadırlar. Bəziləri (Hindistan, Braziliya, Argentina və s.) müəyyən nailiyyətlər əldə

[93] Вебер М. Избранные сочинения. М.: Прогресс, 1990

downloaded from KitabYurdu.org

edə bilmişlər. Yalnız çox azsaylı ölkələr ( "Asiya pələngləri" ) ciddi uğur qazanmağa müvəffəq olmuşlar.

Hal-hazırda da sırf elmi, bir sıra ölkələrdə isə - praktiki baxımdan modernləşmə ayrıca götürülmüş bir nəzəriyyə kimi öz aktuallığını saxlamaqdadır. Bununla belə, sözügedən konsepsiyanın kifayət qədər ciddi problemləri də mövcuddur :

1. industrializməqədərki dövr üçün (qeyri-Avropa cəmiyyətləri də daxildir) modernist konsepsiya ciddi metodoloji məhdudiyyətlərlə üzləşir. Ona görə, bu konsepsiya birmənalı olaraq, kapitalizmin iqtisadi və siyasi prinsiplərinin mütləqləşdirilməsinə istinad edir.
2. modernləşmə - bir proses olmaq etibarı ilə avtomatik şəkildə getmir. Bir çox hallarda birbaşa təsirə yönəlmiş məqsədlərin realizasiyası keçid dövrünü (ənənəvidən →müasirliyə) yaşayan cəmiyyətin mental – dəyər, yaxud arxaik xüsusiyyətləri ilə təhrif olunur.
3. iqtisadi modernləşmənin mütləq siyasi modernləşmə ilə uzlaşması prinsipinə ehtiyatlı yanaşma zəruriliyinin mövcudluğu.
4. tarixi prosesin xətti müstəvidə götürülməsi – modernizmin sırf metodoloji anlamda ən ciddi nöqsanı kimi qəbul edilməlidir.

Əksər keçid iqtisadiyyatlı ölkələrdə modernist baxışlar öz populyarlığını saxlamaqdadır. Aparılan tədqiqatların böyük əksəriyyəti modernizmin metodoloji konstruksiyasına söykənir. Məsələn, bu yönümdə elmi tədqiqat aparan N.Rozov tarixi dövrlənmənin 4 əsas iqtisadi mərhələsini fərqləndirir :

1. "Mənimsəmə" təsərrüfatlı cəmiyyət;
2. Aqrar – sənətkarlıq texnologiyalı cəmiyyət;
3. İndustrial cəmiyyət;
4. Servis texnologiyalı ("xidmət" təsərrüfatlı – Ş.H., Ə.B.) cəmiyyət.

Bu mərhələlərə müvafiq olaraq cəmiyyətin inkişafının 5 fazası təsnifləşdirilir : 1) İbtidai icma; 2) Barbarlıq; 3) İlkin qədim dövr; 4) Yetkin qədim dövr – orta əsrlər; 5) Yeni dövr – müasir mərhələ.

Modernizm konsepsiyası çərçivəsində tarixi prosesin 4 mərhələli sxeminin daha adekvat olduğunu qeyd edən tədqiqatçılar dövrlənmənin baza prinsipi kimi yeni anlayışdan-istehsal məhsulları prinsipindən çıxış edirlər:

downloaded from KitabYurdu.org

1. Ovçuluq – yığım;
2. Aqrar – sənətkar;
3. Sənaye;
4. Elmi – informasiya;

İstehsal prinsiplərinin sərhədləri kimi istehsal inqilabları – aqrar, sənaye və elmi – informasiya – götürülür. Bu yanaşma əsasında E.Qrinin[94] tarixi prosesin iri dövrlərini fərqləndirir. Və, həmin dövrləri "formasiya" adlandırır. Bu cür yanaşmanın marksist bölgü ilə əlaqəsi yoxdur. E.Qrinin özünün formalaşdırdığı "tarixi prosesin formasiyaları" konsepsiyasına istinad edir.

## § 4.7. Tarixi dövrlənmə: dünya-sistem yanaşması

***Sosial elmlər sferasında əldə edilən əhəmiyyətli nailiyyətlərin səbəbi toplanan faktların çoxluğunda deyil, gerçək həqiqət kimi qəbul edilən özünü aldatmanın aradan qaldırılmasındadır.***
***T.Şanin[95]***

Qeyd edilən yanaşma dünya tarixinin mərhələli interpretasiyası ilə müxtəlif lokal sistemlərin məcmusunun metodoloji sintezinə əsaslanır.

Dünya - sistem yanaşmasının əsasında Brodelin müxtəlif tipli zaman çoxluğu nəzəriyyəsi, onların müxtəlif məkan səviyyələri və miqyasları ilə qarşılıqlı əlaqəsi dayanır. F.Brodelin irəli sürdüyü alternativ yanaşmada bir-biri ilə qarşılıqlı bağlılıqda olan iki yeni zaman (temporallıq) tipi əks olunmuşdur: dayanıqlı strukturların ləng dəyişən temporallığı və həmin strukturların daxilində konyunktur tərəddüdlərin tsikliyi[96]. Bu bölgüyə əsaslanmaqla İ.Vallerstayn iki zaman tipini fərqləndirir:

1. Struktur zaman: ləng gedən və uzunmüddətli trendləri özündə birləşdirən "böyük uzunluqda" zaman kəsiyi;

---

[94] Гринин Л.Е. Периодизация истории: Теоретико – математический анализ, М.:Комкнига //URSS.,2006.- С.53 – 79
[95] Неформальная экономика. Россия и мир/ под.ред.Т.Шанина – М.: Логос,1999.- С. 576
[96] Wallerstein I. Unthinking Social Science. The Limits of Nineteenth-Century Paradigms. Cambridge: Polity Press, 1991, p. 223

downloaded from KitabYurdu.org

2. Tsiklik zaman: daha sürətli konyunktur ritmlərini əhatə edən zaman kəsiyi.

Brodelin məntiqi ilə hərəkət edərək, zamanın iki tipologiyasına: 1) kəmiyyət ölçülü zaman – zaman kəsiyinin uzunluq dərəcəsi; 2) keyfiyyət ölçülü zaman – substansional mahiyyət üzrə - istinadla Vallerstayn[97] belə bir qənaətə gəlir ki, zaman kəsiklərinin uzunluq (davamlılıq) dərəcəsinə uyğun məkan paralelliyi mövcuddur və buna görə də, "zaman və məkan ayrı-ayrı kateqoriyalar deyil,vahiddirlər və onu "zaman-məkan" kimi ifadə edəcəyəm".

Tarixi zaman problematikasına yeni məna verməklə sosial elmlərin (XIX əsr) artıq "köhnəlmiş cəmiyyət" və eləcə də "milli dövlət" anlayışları yerinə təhlilin yeni vahidi – "tarixi sistem" anlayışı elmi dövriyyəyə daxil edilir. Vallerstaynın fikrincə, sistem – fəaliyyət və inkişaf nöqteyi-nəzərindən öz məntiqinə söykənir. O, müəyyən "istehsal üsulu" üzərində qərarlaşır. "İstehsal üsulu" - əmək prosesinin təşkilinin xüsusi forması olmaqla, əmək bölgüsü vasitəsilə sistemin bütövlükdə təkrar istehsalını həyata keçirir. Bu artıq keyfiyyətcə yeni obyekt olmaqla (təhlilin obyekti) "zaman və məkan" strukturuna uyğun gəlir.

Dünya – sistem yanaşmasında tarixi sistemin mahiyyət açıqlanması aşağıdakıları ehtiva edir:

1. Nisbi avtonomlular, yəni onların fəaliyyət parametrləri daxili proseslərin təsiri ilə müəyyənləşir;
2. Tarixi sistemlərin əvvəli və sonu vardır. Yəni konkret zaman sərhədləri daxilindədirlər;
3. Nəhayət, tarixi sistemlər konkret məkan sərhədləri daxilindədirlər. Amma bu sərhədlər tarixi mövcudluq dövrü ərzində dəyişə bilər.

Dünya sistem yanaşması sosial elmlərin ənənəvi anlayışlarından olan xətti təkamüldən (o cümlədən, tərəqqi) də imtina edir. Tərəqqi anlayışı dəyişikliklərin daimi və birmənalı yönümlülüyünü ehtiva edir. Amma, tarixi faktlar sübut edir ki, sosial proseslərdə geriyə dönə, ləngiyə və nəhayət, dayana bilir. İ.Vallerstaynın fikrincə, tarixi təkamül əgər, həqiqətən də birölçülü məntiqlə determinə (sistemli inkişaf məntiqi) olunmuşdursa da, bu determinliyin intensivliyi qeyri-bərabərdir və o, tədricən "güclənir", eləcə də labüd olaraq tükənir və hadisələrin istənilən istiqamətdə inkişafı üçün bütöv bir imkanlar spektrinə yol açır.

---

[97] Yenə orada. p.139

downloaded from KitabYurdu.org

Tarixi sistemin tənəzzül dövrünə qədəm qoyduğu (bu adətən bir dəfə - dövrün sonunda baş verir) andan etibarən hər şey baş verə bilər, yaxud minimal səviyyədə cəhdlər kifayətdir ki, geniş spektrli alternativlər meydana gəlsin.

Dünya-sistem yanaşmasının orijinallığı ondadır ki, bu konsepsiya sosial, iqtisadi və siyasi proseslərin təhlilində prinsipcə yeni tədqiqat perspektivlərini ortaya qoyur. Harada ki, dünya sistemli və struktur bütövlük, tamlıq kimi çıxış edir, ayrı-ayrı milli sosium və dövlətlərin inkişaf trayektoriyasını dünya-sisteminin inkişaf qanunları çərçivəsində müəyyənləşdirməyə imkan verir.

Eyni zamanda , ədalət naminə qeyd olunmalıdır ki, dünya-sistem yanaşması bir neçə nəzəri baxışların sintezi kimi yaranmışdır:

1. F.Brodelin "geotarix" nəzəriyyəsi və "Annallar" məktəbinin nəzəri irsi;
2. A.Framun versiyasında "asılılıq" nəzəriyyəsi (marksist imperializm nəzəriyyələrinə qədər gedib çıxır);
3. Qeyri-ortodoksal iqtisadi nəzəriyyələr (iqtisadi tsikllər konsepsiyası da daxil olmaqla). Xüsusilə, K.Polaninin, Y.Şumpeterin və N.Kondratyevin elmi baxışları.

Vallerstaynda təhlilin əsas anlayışı olan "tarixi sistem" mahiyyətcə yekcins deyildir və forma müxtəlifliyinə malikdir (şəkil 4.3).




***Şəkil 4.3. Tarixi sistemlərin forma müxtəlifliyinin Vallerstayn versiyası***

downloaded from KitabYurdu.org

Əslində, dünya-sistem yanaşmasında xüsusi mövqeyə malik olan "dünya-sistemləri" anlayışı F.Brodelin "dünya-iqtisadiyyatları" konsepsiyasından götürülmüşdür. F.Brodel "dünya-iqtisadiyyatları" anlayışının mahiyyətini aşağıdakı kimi ifadə etmişdir: "Dünya-iqtisadiyyatları. Planetin iqtisadi cəhətdən müstəqil olan və daxili əlaqələri, mübadilə proseslərinin üzvi vahidlik keyfiyyəti verdiyi, özünüsaxlaya bilmə qabiliyyətinə malik hissəsidir"[98].

Onun fikrincə, "dünya- iqtisadiyyatları" siyasi, mədəni və dini sərhədlərin fövqündə mövcud olmaqla konkret xarakterik cəhətləri ilə səciyyələnir:

1. Onlar müəyyən coğrafi məkanda formalaşırlar ki, bu məkanın sərhədləri zaman keçdikcə dəyişə bilir;
2. Bu sistemlərdə hansısa qütb, ağırlıq mərkəzi, yaxud iqtisadi "paytaxt" həmişə mövcud olur;
3. Bu mərkəz ətrafında təmərgüzləşmə zonaları yaranır: mərkəzin (yaxud "nüvə"nin) ətrafında yarıməyalət tipli "orta zona", sonra uzaq və yaxın əyalət və nəhayət, xarici məkan mövcud olur. Məsələn, dayanıqlı "dünya-iqtisadiyyatlarına" klassik nümunə kimi Aralıq dənizi zonasını, Hindistanı, Çini və Rusiyanı göstərmək olar.

İ.Vallerstayn sözügedən yanaşmadan çıxış etməklə "dünya-sistemləri" anlayışına daha geniş aspektdə baxmağı təklif edir.

O, "dünya-iqtisadiyyatlarına" "dünya-imperiyaları" anlayışı ilə birlikdə "dünya-sistemlərinin" yalnız bir variantı kimi yanaşmağı məqsədəuyğun hesab edir (cədvəl 4.5).

Tarixi dövrlənmənin, eləcə də istehsal üsullarının təsnifatının əsas kriteriləri kimi bölgü çıxış edir. Cədvəldən göründüyü kimi, 3 sosial sistem və 3 istehsal üsulu fərqləndirilir:

1. Qarşılıqlı mübadilə münasibətlərinə əsaslanan mini-sistem;
2. Dünya-imperiya sistemi-mahiyyətcə, A.Toynbinin "sivilizasiyası".
3. Əmtəə-pul münasibətlərinə əsaslanan kapitalist dünya sistemləri (dünya-iqtisadiyyatları).

Tarixi sistemlərin birinci variantı – mini-sistemlər: məkanca kiçik, nisbi qısamüddətli və mədəni yekcinsliyi ilə səciyyələnən lokal yaranışlardır. İnkişafın əsas məntiqi müxtəlif nemətlərin qarşılıqlı

[98] Бродель Ф. Материальная цивилизация, экономика, капитализм.XV-XVII вв. Т3.М.: Прогресс, 1992.- С.14.

downloaded from KitabYurdu.org

mübadiləsinə söykənir. Mini-sistemlər – "mənimsəmə" iqtisadiyyatının lokal yaranışları olmaqla, qeyri-sabitliyi ilə səciyyələnir və onların süqutu əsasən ya ekoloji fəlakətlər, ya da demoqrafik artımla determinə olunur.

***Cədvəl 4.5***

***Tarixi sistemlərin tipologiyasının İ.Vallerstayn versiyası***

| Tarixi sistemlərin tipi | İnteqrasiya üsulu | Mübadilənin tipi |
|---|---|---|
| Mini-sistemlər | Ənənəvi (nəsil, adət-ənənə və s. əsasında formalaşmış münasibətlər) | Qarşılıqlı mübadilə |
| Dünya – imperiyaları | Hərbi-siyasi | Yenidən bölgü |
| Dünya - iqtisadiyyatları | İqtisadi | Bazar mübadiləsi |

"İstehsal" iqtisadiyyatına keçidlə əlaqədar olaraq daha geniş zaman və məkan sərhədləri daxilində daha dayanıqlı dünya sistemləri yaranmağa başlamışdır. "Dünya-imperiyaları" tipli (mədəni müxtəlifliyi ilə xarakterizə olan siyasi-hərbi) yaranışlar meydana gəldi. Elə buradaca qeyd etmək lazımdır ki, Vallerstaynın "dünya-imperiyaları" Asiya istehsal üsulunun müxtəlif səpgili "genişləndirilmiş" versiyalarına yaxın anlam kəsb edir.

"Dünya-imperiyaları " və "dünya-iqtisadiyyatları" tarixi proses ərzində bir-birinin alternativi kimi çıxış etməklə, tsiklik xarakter daşımışdır.

Əgər kapitalizməqədərki "dünya-iqtisadiyyatları", onlarla paralel şəkildə mövcud olan "dünya-imperiyaları" tərəfindən (nəticə etibarı ilə) "udulurdusa", XVI əsrdən (1450 il) başlayaraq müxtəlif konyunktur səbəblərə görə əvvəlki dövrlərdən dayanıqlılığı ilə fərqlənən lokal dünya-iqtisadiyyatları formalaşmağa başladı. Məhz Qərbi Avropada formalaşan həmin lokal yaranışlar kapitalizmin inkişaf çərçivəsi rolunu oynamışdılar.

Kapitalizmin genezisinə yanaşmada İ.Vallerstayn tam fərqli mövqedən çıxış edir. Onun fikrincə, bu prosesdə heç bir "sivilizasiya"nın rolu olmamış və ümumiyyətlə, kapitalizmin genezisinin Avropa cəmiyyətində inkişafın daxili immanent "məntiqi" ilə heç bir əlaqəsi yoxdur.

downloaded from KitabYurdu.org

"Qərb, kapitalizm və müasir dünya-sistemləri"[99] əsərində İ.Vallerstayn qeyd edir ki, kapitalizmin yaranması təsadüfi amillərdən qaynaqlanır.

Materiklərarası ticarətin (Böyük İpək Yolu) böhranı və bu böhranın gerçəkləşməsində müstəsna rol oynayan "monqol həlqəsinin" aradan çıxması (XIV-XV əsrlər), eyni zamanda "Qara ölüm" (vəba epidemiyası) Qərbi Avropada sistemli böhrana (senyor təsərrüfatının, feodal dövlətinin və katolik kilsənin böhranı) gətirib çıxardı.

Beləliklə, İ.Vallerstayn belə bir nəticəyə gəlir ki, kapitalizmin yaranması səbəbləri Avropa strukturlarının inkişafının daxili məntiqi ilə deyil, ümumdünya xarakterli geosiyasi və geoiqtisadi dəyişikliklərlə (gözlənilmədən Qabsburq dünya-imperiyalarının zəifləməsinə səbəb olmuş dəyişikliklər) determinə olunur, yəni ekzogen xarakterlidir.

Dünya kapitalist sisteminin formalaşmasında İ.Vallerstayn 3 əsas mərhələni fərqləndirir:

- "Uzun" XVI əsrin (1640) sonunda İngiltərə və Şimali Fransa "nüvə"ni, Aralıq dənizi zonası (İspaniya, Portuqaliya, İtaliya, Cənubi Fransa) "yarıməyaləti", Şərqi Avropa və Latın Amerikası "əyaləti" formalaşdırmışlar;
- 1640-1760-cı illərdə dünya kapitalist sistemi sabit artım dövrünə qədəm qoyur: ABŞ-ın Şimali, Rusiya və İsveç "yarıməyaləti", ABŞ-ın Cənubi və Kəraib hövzəsi "əyaləti" genişləndirmiş, kapitalist sisteminə daxil olmayan ərazilər isə onun xarici zonasını təşkil etmişdir;
- XVIII əsrin sonu XX əsrin başlanğıcında – (bu dövrü Vallerstayn "... Kapitalist dünya – iqtisadiyyatlarının böyük müdaxiləsinin ikinci erası" adlandırır) ABŞ, Böyük Britaniya, Fransa və Almaniyadan ibarət dayanıqlı "nüvə", Şərqi və Cənubi Avropa, Rusiya, Yaponiya və Latın Amerikasının bəzi inkişaf etmiş ölkələrindən ibarət "yarıməyalət" və müstəmləkə, yarımmüstəmləkə (Asiya, Afrika və Latın Amerikası) ölkələrindən ibarət "əyalət" meydana çıxmışdır.

Dünya-sistem yanaşması konsepsiyası kapitalist dünya-iqtisadiyyatlarının əsas xarakterik cəhətlərinə aşağıdakıları aid edir:

---

[99] Wallerstein I. The West, Capitalizm, and the Modern World-System, Review, Vol. XV, N4. (Fall 1992) p. 516-619

downloaded from KitabYurdu.org

1. Sistemin əsas hərəkətverici qüvvəsi kimi fasiləsiz kapital yiğimi prosesi;
2. Mərkəz və əyalət arasında gərginlik yaradan "əsas" (осевое) əmək bölgüsünün tətbiqi; Sistemdaxili qeyri-bərabər mübadilə məkan formalarında meydana çıxır;
3. Sistemin strukturunda yarıməyalətin mövcudluğu;
4. Muzdlu əməklə yanaşı, müxtəlif formalı muzdlu olmayan əməyin əhəmiyyətli rolu;
5. Kapitalist dünya-iqtisadiyyatlarının sərhədlərinin suveren ölkələrin dövlətlərarası sərhədləri ilə üst-üstə düşməsi;
6. Kapitalist dünya-iqtisadiyyatlarının XIX əsrdə deyil, daha erkən – "uzun XIV əsrdə" meydana gəlməsi;
7. Kapitalist dünya-iqtisadiyyatlarının əvvəlcə dünyanın bir hissəsində (Şimal-Qərbi Avropa) yaranması, sonrakı dövrlərdə isə xüsusi "inkorporasiya " prosesi vasitəsilə bütün dünyaya yayılması;
8. Sistemdə hegemon dövlət, yaxud dövlətlərin mövcudluğunun qaçılmalığı; Bu hegemonluq nisbətən qısamüddətli olur və yerdəyişmələrə məruz qalır;
9. Dövlətin, etnik qrup və ailələrin ikinci dərəcəliliyi, hansı ki, daima yaradılır və yenidən yaradılırlar;
10. İrqçiliyin fundamental əhəmiyyət kəsb etməsi;
11. Kapitalist dünya-iqtisadiyyatlarını eyni zamanda həm gücləndirən, həm də dağıdan antisistem hərəkətlərinin meydana çıxması;
12. Sistemin daxili ziddiyyətlərini özündə "üyüdən" tsiklik ritmlər və əsrlik trendlərin struktur modeli (sistemin "sistem böhranının" əsas səbəbi).

Müasir dövrdə kapitalist dünya-sistemi (dünya-iqtisadiyyatları) 3 hissədən ibarət olmaqla fəaliyyətdədir:

1. "Nüvə" – yüksək inkişaf etmiş ölkələr;
2. "Yarıməyalət" – postsosialist ölkələri və qismən inkişaf etməkdə olan ölkələr;
3. "Əyalət" – üçüncü dünya ölkələri.

Müasir kapitalist dünya-sistemi "nüvə" və "əyalət" arasında qeyri-ekvivalent əmək bölgüsünə əsaslanır. "Yarıməyalət" – dinamikdir, bir çox hallarda innovativ dəyişikliklərin mənbəyi kimi çıxış edir və sistemdaxili müstəvidə "amortızator" rolunu oyanayır. Müasir dünya

downloaded from KitabYurdu.org

sistemlərində iqtisadi prosesin dinamikası başlıca olaraq geosiyasi proseslərdən, iqtisadi trend və tsikllərdən asılıdır.

Dünya-sistem təhlilində prinsipial yenilik ondan ibarətdir ki, əsas vurğu ekzogen amillərin üzərinə keçirilir. Hər bir cəmiyyətin, yaxud dövlətin inkişafına qlobal kontekstdən baxmadan sosial-siyasi və iqtisadi dəyişikliklərin gerçək mahiyyətini anlamaq mümkün deyildir. Yalnız özünə xas olan, təkamülün immanent məntiqinə uyğun gələn ayrı-ayrı avtonom və ya təcrid olunmuş nə dövlət, nə də hər hansı bir siyasi, mədəni yaranış yoxdur və ola da bilməz.

Dünya-sistem yanaşmasının əsas istiqamətləri cədvəl 4.6-da öz əksini tapmışdır.

***Cədvəl 4.6***

***İ.Vallerstaynın hegemonluq tsikləri konsepsiyası***

| Hegemonluq | Dünya "Otuzillik müharibələr" | Yenidən strukturlaşma razılaşmaları | Dominantlıq dövrü | Tənəzzül və yeni rəqiblər |
|---|---|---|---|---|
| Hollandiya | 30 illik müharibə (Qabsburq dünya-imperiyaları ilə) | Vestfal müqaviləsi 1648 | 1620-1650 | 1650-1672, Böyük Britaniya və Fransa |
| Böyük Britaniya | Napoleon müharibələri (Napoleonun dünya-imperiyası ilə) 1792-1815 | Vyana konfransı, 1815 | 1815-1873 | 1873-1896, ABŞ və Almaniya. |
| ABŞ | Birinci və İkinci Dünya müharibələri (2-ci və 3-cü reyxin dünya-imperiyaları ilə) 1914-1918, 1939-1945 | Yalta konfransı 1945 | 1945-1967 | 1967 - ?, Aİ və Yaponiya, Çin |

downloaded from KitabYurdu.org

***Cədvəl 4. 7***

***"Uzun yüzillik" tsiklləri və C.Arriqanın[100] "yığımın sistem tsiklləri" (YST) arasında qarşılıqlı əlaqə modeli***

| *Hegemonluq* | *Hollandiya* | *Böyük Britaniya* | *ABŞ* |
|---|---|---|---|
| Cari "Uzun yüzilliyin" başlanğıcı (əvvəlki hegemonluğun "siqnal böhranı") | *1560* | *1740* | *1870* |
| Cari YST-in (yığımın sistem tsiklləri) başlanğıcı (əvvəlki hegemonluq və "uzun yüzilliyin" "sonuncu böhranı"). | *1630* | *1780* | *1930* |
| Hegemonluğun "siqnal böhranı", cari YST rejimin yönüm dəyişkənliyi (növbəti "uzun yüzilliyin" başlanğıcı) | *1740* | *1870* | *1974* |
| Hegemonluğun "sonuncu böhranı". (cari "uzun yüzilliyin" və cari YST-in sonu) | *1780* | *1930* | *?* |

***Cədvəl 4. 8***

***Müasir kapitalist dünya-iqtisadiyyatlarında "hegemonluq tsiklləri", əsrlik trendlər və tsikllik ritmlərin qarşılıqlı əlaqəsi***

| **F.Brodelin əsrlik trendləri** | **Birinci əsrlik trend 1507/10-1733/43** | **İkinci əsrlik trend 1733/43 - 1896** | **Üçüncü əsrlik trend 1896-2050 (?)** |
|---|---|---|---|
| "Uzun yüzillik" | 1560/80-1780/92 | 1740-1930/45 | 1870/97-? |

[100] Arrighi G. The long Twentieth Century: Money, Power, and the Origins of Our Times London; Verso, 1994.

downloaded from KitabYurdu.org

| YST (yığımın sistem tsiklləri) | 1630/40-1780/92 | 1780/92-1930/45 | 1930/45-? |
|---|---|---|---|
| Hegemonluğun yüksəlişi və tənəzzülü | Hollandiya | Böyük Britaniya | ABŞ |
| Əsas rəqib | İberiya-Avropa. Qabsburq imperiyası | Fransa | Almaniya |
| A' faza K-1 | 1580-1609 | 1740-1763 | 1897-1913/20 |
| B' faza K-1 | 1609-1640 | 1763-1792 | 1913/20-1945 |
| Struktur dominantlıq | Vestfal sülhü 1648 | Vyana konfransı 1815 | Yalta və BMT 1945/47 |
| $A^2$ faza K-2 | 1640-1660 | 1792-1817 | 1945-1973 |
| $B^2$ faza K-2 | 1660-1688 | 1817-1851 | 1973-2000/05 |
| Yeni rəqiblər | Böyük Britaniya, Fransa | ABŞ və Almaniya | Yaponiya və Aİ |
| $A^3$ faza K-3 | 1688-1713 | 1851-1873 | 2000/05 – 2025/30 |
| $B^3$ faza K-3 | 1713-1740 | 1873-1897 | 2025/30 – 2050/55 |

**Qeyd: A' fazası – yüksələn hegemonluq və əsas iddiaçılar arasında kəskin konfliktlər dövrü.**

**B' fazası – hegemonluq uğrunda qələbə əldə edilməsi; yeni hegemon digər dövlətləri ötüb keçir.**

**$A^2$ fazası – Yetkin (və strukturca möhkəm) hegemonluq dövrü;**

**$B^2$ faza – Hegemonluğun tədrici tənəzzülü, hegemonluğa yeni iddiaçıların meydana çıxması dövrü;**

downloaded from KitabYurdu.org

***Cədvəl 4.9***

***Hegemonluq tsikllərinin dinamikası və dünya qaydasının əsas modellərinin transformasiyası***

| | **Böyük Britaniya** | **ABŞ** | **Yaponiya / Çin yaxud Aİ / Rusiya** |
|---|---|---|---|
| Hegemonluq uğrunda qlobal "Otuzillik" müharibə və İttifaq formulu | Böyük Britaniya + Hollandiya; Fransa 1801-1815 | ABŞ+Böyük Britaniya; Almaniya 1914-1945 | (Yaponiya/ Çin + ABŞ). (Aİ/Rusiya) 2050/55-2100/05 |
| Beynəlxalq rejimin yenidən strukturlaşması | Vyana konfransı 1815 | Yalta və BMT 1945/47 | 2100/05 |
| Dünya dövləti | 1815-1848 | 1946-1973 | 2100/05-2150/55 |
| Hegemonluğun keçişi (delegitimizasiya) | 1848-1873 | 1973-2000/05 | 2150/55 -2175/80 |
| Beynəlxalq rejimin parçalanması | 1873-1913/20 | 2000/05-2050/55 | 2175/80-2200/05 |

İ.Vallerstayn müasir dünya sistemin 2000-2025/30 perspektiv inkişaf xüsusiyyətlərini aşağıdaki kimi qruplaşdırır:

1. Dövlətlərin daxili qaydaları qoruyub-saxlamaları əhəmiyyətli dərəcədə çətinləşəcəkdir. Eyni zamanda milli dövlətlərin dünya sistemində rolu zəifləyəcək, hətta onlardan bir çoxu tarix səhnəsindən silinəcəkdir. Kapitalist dünya-iqtisadiyyatı sisteminin nüvəsini təşkil edən inkişaf etmiş ölkələrdə sosial hüzursuzluq normaya çevriləcək və çox güman ki, vətəndaş müharibələri baş verəcəkdir.

Artıq bu gün belə sözügedən ölkələr rifah və təhlükəsizliyin zəruri səviyyəsini təmin etməkdə çətinlik çəkirlər.[101]

2. Müasir dünya-sistemin dövlətlərarası strukturu daha zəif tənzimlənəcək, BMT-nin rolu durmadan aşağı düşəcəkdir.

---

[101] Wallerstein I "Capitalist Civilization", Chinese University Bulletin? Supplement 23; 1992., p.25.

downloaded from KitabYurdu.org

3. Dövlətçilik institutunun, eləcə də müasir dövlətlərarası sistemin effektivliyi azalacaq ki, bu da müxtəlif formalı partikulyar, qrup identikliyinin (etnik, dini, nəsil, yaxud gender və s.) yüksəlişinə səbəb olacaqdır. Mümkündür ki, sözügedən partikulyarizm milli dövlətlərdə "ümumvətəndaşlıq" identifikasiyası çərçivəsində inteqrasiya olunaraq (ola bilsin ki) dövlətin funksiyalarını həyata keçirsin, yəni vətəndaşın təhlükəsizliyini, qayda-qanuna riayət olunmasına nəzarəti təmin etsin.

Paradoks ondadır ki, partikulyarizm – demokratikləşmənin simptomlarından biri kimi "... Milli dövlətlərin ləğvinə" yardım etsin. Belə ki, "... Liberal islahatlar həqiqətdə ilğımdır, zira real olaraq dövlətlərin "universalizminə" deyil, daha zəif təbəqələrin sıxışdırılması, yaxud "unudulmasına" gətirib çıxarmışdır"[102].

4. Nəinki Cənub ölkələrində və Şimalda lokal müharibələr və müxtəlif "azlıqların" toqquşması olacaq, eləcə də Cənubun Şimala qarşı "kiçik" müharibələri də realdır (Fars köfrəsindəki müharibə ilk simptom hesab edilə bilər).

5. Xaos situasiyasını daha da dərinləşdirən amillərdən biri kimi XIV yüzilliyin ortalarında baş vermiş "Qara ölüm" tipli yeni qlobal epidemiyalar çıxış edəcəkdir.

İ.Vallerstaynın fikrincə, tarixi sistemin "keçid" dövrünə qədəm qoyduğu zaman biz köməyə "utopik utopiya" elmini çağırmalı və əsl tarixi alternativləri müəyyənləşdirməliyik.

Özünün "Kapitalist sivilizasiyası" əsərində İ.Vallerstayn qlobal səviyyədə hadisələrin inkişafının üç ssenarisini göstərir:

1. Neofedalizmə keçid; Yalnız üfüqi əlaqələr sistemi olan avtoritar regionların "mozaikası" yaranır;
2. Demokratik faşizm: Dünya iki kastaya bölünür: a) Dünya əhalisinin təxminən 20%-ni əhatə edən yüksək təbəqə - kifayət qədər yüksək səviyyəli eqalitar bölgü sisteminə əsaslanacaq; b) Aşağı təbəqə - əhalinin yerdə qalan 80 %-i: Siyasi, sosial və iqtisadi hüquqlardan məhrum olan zəhmətkeşlər; Hitlerin "yeni qaydası" qeyd edilən sistemə çox yaxındır;
3. Yüksək eqalitar dünya qaydasına keçid – Çox utopik səslənir, lakin bu ssenarini inkar etmək də düzgün olmazdı. Bu ssenarinin reallaşması üçün istehlak xərclərinin əhəmiyyətli dərəcədə məhdudlaşması labüddür. Lakin bu yoxsulluğun

[102] Wallerstein I. The Essential Wallerstein. N.Y. The New Press, 2000, p.451

downloaded from KitabYurdu.org

sosiallaşdırılması anlamını verməməlidir. Ona görə ki, bu halda ssenarinin reallaşması siyasi cəhətdən mümkünsüzləşəcəkdir.

İ.Vallerstayn dünyanın gələcəyinə (2050-2075-ci illər) münasibətdə belə bir yekun nəticəyə gəlir ki: "... Biz yalnız bəzi şeylərə münasibətdə əmin ola bilərik. Biz kapitalist dünya-iqtisadiyyatında deyil, hansısa yeni qayda, yaxud qaydalarda, hansısa yeni tarixi sistem, yaxud sistemlərdə yaşayacağıq. Lakin bu daha yaxşı dünya, daha yaxşı sabitlik, yaxud daha yaxşı legitimlik olacaqmı (əvvəlkilərlə müqayisədə - Ş.H., Ə.B.), yaxud ondan da pis variantla rastlaşacağıq? Həm bu, həm də o biri naməlumdur və bizdən asılıdır".[103]

F.Brodel və ələlxüsus İ.Vallerstaynın dünya-sistem yanaşmasının əsas qiymətli cəhəti ondan ibarətdir ki, başlıca vurğu sosiorlararası "üfüqi" əlaqələrin üzərinə düşür. Onlar sübuta yetirmişlər ki, ən azı yeni dövrdə eyni sosior sistemə daxil olan heç bir konkret cəmiyyətin sistemdaxili üfüqi əlaqələri nəzərə alınmadan inkişaf tarixi dərkedilə bilməz və s.

Bununla yanaşı, dünya-sistem yanaşması da konkret nöqsanlardan xali deyildir: "Üfüqi" əlaqələrin mütləqləşdirilməsi; Bu hal özünü əsasən bütövlükdə sistemin rolunun ifrat şəkildə artırılmasında, onun tərkib ünsürlərinin – ayrı-ayrı sosiotarixi orqanizmlərin nisbi müstəqilliyinin lazımi səviyyədə qiymətləndirilməməsində təzahür etdirir. "Üfüqi" əlaqələrin mütləqləşdirilməsi labüd olaraq ayrı-ayrı konkret cəmiyyətlərin mövcudluğunun, eləcə də mərhələlərarası – "şaquli" əlaqələrin inkarına gətirib çıxarmışdır. İ.Vallerstayn ümumiyyətlə, tarixin xətti-mərhələli anlanmasının həm marksist, həm də modernist interpretasiyalarını tam şəkildə inkar etmişdir, və tam məntiqi olaraq inkişaf anlayışından (eləcə də tərəqqi) əl çəkməyi tövsiyyə etmişdir.

Bu yanaşma çərçivəsində əsas məsələlərdən biri bəşər tarixində mövcud olmuş dünya-sistemlərin sayı ilə bağlıdır. Vallerstayna görə, əsl dünya-sistemi kapitlizmlə bağlıdır. Digər mövqeyə[104] görə (J.Abu-Loxyd) ilk dünya-sistemi hələ XIII əsrdə formalaşmış və 5 müstəqil "nüvə"dən ibarət olmuşdur.

1. Qərbi Avropa;
2. Ərəb dünyası;
3. Hind okeanı zonası;

---

[103] Wallerstein I. The Esential Wallerstein. N 4. The New Press., 2000., p.453

[104] Абу Лохуд Дж. Переструктурируя миросистему, предшествующую Новому времени. Время мира 2. М; 2001.- С.449-461

downloaded from KitabYurdu.org

4. Çin;
5. Böyük çöl (monqollar tərəfindən vahid makrosiyasi məkanda yaradılan birlik);

A.Frankın[105] fikrincə isə, dünya-sistemi cəmi birdir və 500 il yox, 5000 il bundan qabaq yaranmışdır. Çıxış nöqtəsi kimi ilkin sivilizasiyanın yaranması tarixi götürülür.

Dünya-sistemlərin inkişafı və süqutuna (iqtisadi tsikllərdən çıxış etməklə) xüsusi diqqət yetirilir. Onun fikrincə, industrializmə qədərki epoxada tsikllərin uzunluğu 200-500 il arasında dəyişirdi. O, Qillslə bir yerdə, 4 böyük tsikli fərqləndirir:

1. Klassik dövrə qədərki (b.e.ə. 1700-100/50 illər)
2. Klassik dövr (b.e.ə. 100/50 – b.e. 200-500-cü illər)
3. Orta əsrlər (200/500 – 1450/1500)
4. Müasir (XVI əsrdən etibarən)

Eyni zamanda hər tsikli iki alttsiklə bölür: yüksəliş (A) və tənəzzül (B); K.Çeyz-Dann və T.Xollun[106] "dünya-sistemlərin" tarixi inkişaf konsepsiyası əsaslandırma tipi nöqteyi-nəzərindən hal-hazırda üstün mövqeyə malikdir. Bu konsepsiya "istehsal üsulu" terminini "yığım üsulu" termini ilə əvəz etməyi təklif edir. Yığım üsulunun isə 3 növü fərqləndirilir:

1. Qohumluq əlaqələrinə əsaslanan (ovçuların, balıqçıların sinifsiz və dövlətsiz əlaqələr sistemi) yığım;
2. Töycüyə əsaslanan (ilkin dövlətlər, ilkin imperiyalar, çoxlu mərkəzləri olan dünya-sistemləri və s.) yığım;
3. Kapitalist yığımı;

Dünya-sistemləri arasında qarşlıqlı əlaqə 4 şəbəkədən ibarət olmaqla formalaşır:

1. Böyükhəcmli mallar şəbəkəsi;
2. Elitar mallar şəbəkəsi;
3. Siyasi və hərbi şəbəkə;
4. İnformasiya şəbəkəsi.

Elitar mallar və informasiya şəbəkələri daha geniş yayılmış şəbəkələrdir.

---

[105] Gills B., Frank A.G. World System Cycles, Crises and Hegemonal Shifts. 1700 Bc to Ad 1700. Review 15/14; 1992., p.621-687

[106] Чейз-Данн К., Холл Т. Два, три, много миросистем.. Время мира 2. М., 2001.-С. 424-448

downloaded from KitabYurdu.org

Hansı şəbəkənin dünya-sistem dinamikasında önəmli yer tutması məsələsi bu gün də açıq qalmaqdadır. Bir sıra tədqiqatçıların [107] fikrincə, Vallerstayn tərəfindən böyükhəcmli mallar şəbəkəsinə üstünlük verilməsi yalnışlıqdır. Əslində, qədim dövrlərdə də belə sivilizasiyalar arasında əlaqələr olmuşdur.

Məhz bu yolla texnoloji yeniliklər, ideoloji sistemlər, elitar mallar və s. dünyaya yayılmışdır. Bu nöqteyi-nəzərdən vahid dünya-sistemin formalaşması tarixini industrial epoxa ilə məhdudlaşdıra bilmərik. Onun yaranması qlobal hadisə olmaq etibarı ilə bir neçə min il əvvələ gedib çıxır.

Yekun olaraq, qeyd edək ki, hal-hazırda irimiqyaslı tarixi proseslərin interpretasiyasında dünya-sistem yanaşması ən perspektivli metodologiya kimi qəbul edilir.

## § 4.8. Tarixi dövrlənmə: Neoevolyusionizm (Yeni təkamül nəzəriyyəsi)

Neoevolyusionizmin marksizm və modernizm nəzəriyyələri ilə əsas kəsişmə nöqtəsi bir xətlilik prinsipindən çıxış etməsidir. Bu nəzəriyyəyə görə sosial təkamül ardıcıl diferensasiya və inteqrasiya vasitəsilə nisbi qeyri-müəyyənlik və daxili əlaqələri olmayan homogenlikdən nisbi müəyyən və daxili əlaqəli formalaşmış heterogenliyə keçiddir.[108] İlk olaraq L.Uayt mədəni təkamüldə iki mərhələ: "primitiv" cəmiyyət və sivilizasiya, həmçinin mərhələli keçidin realizasiyasında 3 inqilabı – aqrar, yanacaq və "nüvə yanacağı" - fərqləndirmişdir. XX əsrin 60-cı illərində bir qrup antropoloq[109] tərəfindən tarixi dövrlənməyə yanaşmanın daha geniş yayılmış sxemi ortalığa qoyuldu.

Bu yanaşmaya görə insan birliklərinin ilkin forması "lokal qruplar" olmuşdur. Bu birliklərin eqalitar (bərabər) ictimai struktura malik olmuş "istehsal" iqtisadiyyatına (əkinçilik və maldarlıq) keçidlə bağlı icma və qəbilələr yaranmış, icmalararası liderlik institutu meydana çıxmışdır. Növbəti mərhələdə (вождество) sosial təbəqələşmə getmiş, əsas insan

---

[107] Коротаев А.В., Малков А.С., Халтурина Д.А. Законы истории: Математическое моделирование развития Мир-системы. Демография, Экономика, Культура. М.: Комкнига / URSS., 2007

[108] Carneiro R. Chiefdom-Level Warfare as Exemplified in Fiji and the Causa vallery, Cambridge, UK; 1990,
p.190-211

[109] Салинз М. Экономика каменного века. М.: ОГИ, 1999.

downloaded from KitabYurdu.org

kütləsi idarəetmə sferasından kənarlaşdırılmışdır. Sonrakı mərhələdə dövlət meydana gəlmişdir. Qeyd edilən konseptual baxış dəfələrlə təftiş edilmiş və onun məzmununda müəyyən dəyişikliklər aparılmışdır. Məsələn, bir qrup tədqiqatçı[110] qəbilənin təkamülün mərhələsi olmasını şübhə ilə qarşılamış, digərləri[111] industrializməqədəri epoxanın dövləti ilə "industrial" dövləti (dövlət-millət) ayırmağın zəruriliyi fikrini irəli sürmüşdür və s. Çox vaxt birincini "arxaik", yaxud "ilkin" dövlət adlandırırlar. M.Fridin konsepsiyasında sosial təkamülün 4 səviyyəsi fərqləndirilir: eqalitar, təbəqələşmə, təbəqələşmiş cəmiyyət, dövlət. R.Adams[112] isə hakimiyyətin formalarının təkamülü prosesinə enerji üzərində nəzarətin artımı aspektində yanaşmış və sosial inteqrasiyanın 6 səviyyəsini göstərmişdir:

1) Lokal qruplar; 2) Əyalət (вождество); 3) Ştat/ krallıq; 4) Milli səviyyə; 5)Beynəlmilləşmə səviyyəsi; 6) Dünya səviyyəsi.

Hər bir səviyyə iki paralel axına bölünür – mərkəzləşdirilmiş və razılaşdırılmış vahidlər. Mərkəzləşdirilmiş vahidlər M.Calinzin inteqrasiya səviyyələri ilə üst-üstə düşür. Razılaşdırılmış vahidlərə isə qəbilədən tutmuş BMT-ə qədər inteqrativ formalar aid edilir. Ümumiyyətlə, Klassenin bir fikri ilə razılaşmaq olar ki, sosial təkamül – cəmiyyətin bir struktur vəziyyətdən digərinə keçidinin keyfiyyətcə yenidən təşkilidir. Müasir neoevolyusionizm özünün klassik variantından fərqli olaraq sosiomədəni təkamülün çoxxətliliyi ideyasına qəbuledilməz bir şey kimi baxmır.

## §4.9. Tarixi dövrlənmə: çoxxətli nəzəriyyələr

Bu nəzəriyyələr tarixi prosesin xətti interpretasiyası ilə diskret (sivilizasiyalı yanaşma) şərhi arasında orta mövqe tutur.[113] Daha konkret şəkildə, bu o deməkdir ki, çoxxətli nəzəriyyələr eyni vaxt ərzində bir neçə müstəvidə dünya tarixinin müxtəlif məzmunlu "ölçülməsi" ilə məşğul olur.

---

[110] Earle T. Chiefdams in Archaelogical and Ethnohistorical Perspective. Annual Review of Anthropology, 1987. p.279-308

[111] Классен Х.Й.М. Проблемы, парадоксы и перспективы эволюционизма. Альтернативные пути к цивилизации. М; Логос, 2000.- С. 6-23

[112] Adams R. Energy and Structure. A Theory of Social Poüer. Austin, TX; University of texas press; 1975

[113] Павленко Ю.В. Альтернативные подходы к осмыслению истории и проблема их синтеза. Философия и общество 3. Киев., 1997.- С. 93-130

downloaded from KitabYurdu.org

Həmin müxtəliflik "tamamlama" prinsipinə uyğun şəkildə ümumiləşdirilir və öyrənilən konkret hadisənin ümumdünya tarixi prosesində yeri və rolu haqqında yekun təsəvvür yaradılır. Çoxxətli yanaşma ideyasına ilk dəfə Ş.Monteskye müraciət etmiş, lakin ilk konseptual baxış K.Marksın iqtisadi əlyazmalarında (1857-1861) ortalığa qoyulmuşdur. Ümumiyyətlə, ilkin nəzəri ümumiləşdirmə K.Marks və F.Engelsin Asiya istehsal üsulu ilə bağlı formalaşdırdıqları mövqedə öz əksini tapmışdır.

K.Marks kapitalizməqədərki dövrü (sözügedən əsərində) üç mərhələyə: Asiya, antik və alman-bölmüşdür ki, hər bir mərhələni də dövlətçiliyə keçidin müstəqil modeli kimi qəbul etmək olar. İkinci ideya F.Engelsin "Anti-Dürinq" əsərində formalaşdırılmışdır ki, burada da dövlətin təşəkkülünün iki yolundan bəhs olunur:

Şərq və antik. Yanaşma çoxluğu içərisində ən geniş yayılmışlardan biri K.Vittfoqelin ikixətli nəzəriyyəsidir. Bu yanaşma birmənalı olaraq Şərq→Qərb fərqliliyinə söykənir. "Asiya istehsal üsulunun" digər tərəfdarları da bu mövqeni dəstəkləmişlər.[114] XX əsrin sonlarına yaxın siyasi antropologiyadan yararlanan tədqiqatçılar, hətta "Asiya" yerinə "dövlət istehsal üsulu" termini işlətməyi məqsədəuyğun hesab etməyə başladılar. Antik model isə daha çox "xüsusi mülkiyyət istehsal üsulu" kimi qəbul edilirdi. Eyni zamanda, Asiya, antik və alman modellərinin vahidliyin hissələri və tarixi inkişafın mütəqil xətləri kimi interpretasiyasına söykənməklə daha mürəkkəb modellər formalaşdırılmağa başlandı. Fursovun[115] fikrincə, ümumdünya tarixi proses iki müstəvidə gedir: Asiya modeli (dalana aparıb çıxarır və sistem fərd üzərində hökmran mövqedə olur) və Qərb modeli (tərəqqiyə aparan yol). M.Qodelyerin[116] mövqeyi isə belədir ki, həm Asiya, həm də antik modellər çıxılmazlıq yaradır (dalana aparır), belə ki, müvafiq olaraq yalnız asiya və yalnız quldarlıq istehsal üsulları ilə nəticələnirlər. Yalnız alman modeli feodalizmə və məntiqi bağlılıqla kapitalizmə gətirib çıxarır. O qeyd edir ki, hətta Yaponiya kapitalizmi Qərbdən "idxal" edibdir. K.Melloti[117] isə təkamül variantlarının sayını 5-ə çatdırır:

---

[114] Текен Ф.К теории общественных формаций. М.: Прогресс, 1975.

[115] Фурсов А.И. Восток, Запад, капитализм. Капитализм на Востоке во второй половине XX века. М; Восточная литература.- С. 16-131

[116] Godelier M. La notion de "production asiatique" et les schemas Marxistes devolution des societes. Paris; 1969., p.7-100

[117] Melotti K.D. Mark and the Third World. London; Macmillan., 1977

downloaded from KitabYurdu.org

bürokratik sosializmə aparan "rus" yolu və yapon kapitalizmini formalaşdıran arxaik alman modeli.

Eyni zamanda, Qərb və Şərq arasındaki fərqliliyin heç də əsas rol oynamadığı fikrində olan tədqiqatçılar isə "Monteskye qanununa" əsaslanmaqla göstərirlər ki, cəmiyyətin ölçüsü ilə (iriliyi, yaxud kiçikliyi) siyasi rejimin tipi arasında korrelyasiya əlaqəsi mövcuddur. Bu anlamda ki, kiçik cəmiyyətlərə republika, orta səviyyəli cəmiyyətlərə - monarxiya, böyük cəmiyyətlərə isə - despotizm xasdır.

Bu yönündə aparılan tədqiqatların əsas obyekti kimi dağlı xalqların tarixi inkişaf prosesi çıxış edir. Yanaşmanın xüsusi olaraq vurğuladığı məqam sosial təkamülün ikixətli olduğunu qabartmaqla bağlıdır. Yəni iyerarxik strukturla yanaşı idarəetmənin, yaxud cəmiyyətin qeyri-iyerarxik struktura malikliyi də tarixi fakt kimi ortalığa qoyulur. Bir sıra tədqiqatçılar[118] qeyd edilənləri iyerarxiya→heterarxiya, şəbəkə →korporativ strategiya tipli dixotomiyalar kimi nəzərdən keçirirlər.

Çoxxətli yanaşmanın bu gün üçün kifayət qədər önəmli xarakter daşıyan müddəalarından biri qədim yunan və Roma cəmiyyətlərinin dövləti olmayan cəmiyyətlər kimi səciyyələndirilmələridir.

Bu məntiqlə yanaşsaq onda belə alınır ki, polis (şəhər) dövlət deyil, buna görə də dövlətsiz cəmiyyəti ibtidai icma dövrünə aid etmək yanlışlıqdır. Deməli, sivilizasiyanın mövcudluğu öz-özlüyündə dövlətin mövcudluğu anlamına gəlmir. Tezisin empirik təsdiqi isə yalnız köçəri-maldar tayfalarının tarixində yer almaqdadır.

### § 4.10. Tarixi dövrlənmədə müxtəlif konsepsiyaların xülasəsi

Tarixi prosesin ilk ciddi dövrlənməsi məhz L.Morqanın (1818-1881) konsepsiyasında öz əksini tapmışdır. Yanaşmanın əsas nöqsan cəhəti kimi, dövrlənmə kriterisinin yalnız texniki, istehsal amilləri ilə məhdudlaşdırılmasında, bütövlükdə iqtisadiyyatın prosesdən sərf-nəzər edilməsindədir (şəkil 4.4).

V.Oyken (1891-1950) tarixi dövrlənmədə əsas kriteri kimi təsərrüfatın idarəedilməsi formasını götürməyi təklif edirdi. Bu yanaşma öz məntiqi köklərini "Təsərrüfatın ideal tipləri" konsepsiyasından götürmüşdür. İdarəetmə baxımından V.Oyken iki növü fərqləndirir:

[118] Bondarenko D.M. Homoarchy: A principle of Cultures Organizatiom. The 13-th – 19-th Centuries Benin Kingdom as a Nonstate Supercamplex Society. M., KomKniqa/ URSS., 2006.

downloaded from KitabYurdu.org

1. Mərkəzləşdirilmiş idarəetmə təsərrüfatı (totalitarizm).
2. Bazar təsərrüfatı;

Neoliberallar birinci növə aşağıdakıları aid edirlər:

1. İcma;
2. Quldarlıq;
3. Qədim Misir və Roma təsərrüfatları;
4. Feodalizm;
5. Nasist kapitalist təsərrüfatı;
6. Sosializm.

Yanaşma tərzinə görə sadalananlar birmənalı olaraq mərkəzləşdirilmiş idarəetmə təsərrüfatına (totalitarizm, kollektivizm, qapalı cəmiyyət, məcburi təsərrüfat qaydaları və s.) aiddir.

V.Oyken, eyni zamanda mərkəzləşdirilmiş idarəetmə təsərrüfatın mülkiyyətə münasibətdə də (xüsusi mülkiyyət, kollektiv mülkiyyət) təsnifləşdirirdi.

Sosial-bazar təsərrüfatını liberallar ideal tip hesab edirlər. Neoliberalizmin əsas ideoloqlarından biri – V.Repke (1899-1967) həmin təsərrüfata xas olan əsas cəhətləri aşağıdaki kimi sıralayır:

1. Personalizm (kollektivizmin əksinə olaraq);
2. Azadlıq (hakimiyyətin təmərgüzləşməsinin əksinə olaraq);
3. Qeyri-mərkəzçilik (mərkəzçiliyin əksinə olaraq);
4. İradəvi hərəkət (təşkilatlanmanın əksinə olaraq).

Qeyd edilən yanaşmanın əsas nöqsan cəhətləri ondan ibarətdir ki, əvvəla, təhlilin obyekti kimi real deyil, "ideal" təsərrüfat tipləri çıxış edir; ikincisi, bir qrup hadisənin qanunauyğunluğu olduğu kimi digər qrupa şamil edilir. Yəni söhbət, sözün həqiqi mənasında, primitiv sofizmə əsaslanmaqdan gedir.

Alman tarixi məktəbinin parlaq nümayəndələrindən biri olan F.List sahə əlamətinə əsaslanmaqla tarixi dövrlənmənin 5 mərhələsini fərqləndirir:

1. Vəhşilik;
2. Maldarlıq;
3. Əkinçilik;
4. Əkinçilik-manufaktura;
5. Əkinçilk-manufaktura-kommersiya.

P.Maslovun tarixi yanaşmasında əsas çıxış nöqtəsi kimi bir mərhələdən digərinə keçiddə ekstensiv inkişafın gələcək imkanlarının yoxluğu götürülür.

downloaded from KitabYurdu.org




***Şəkil 4.4. Tarixi dövrlənmənin L.Morqan təsnifatı***

Yəni keçid – birbaşa ekstensiv inkişafın potensialından asılıdır və bu nöqteyi-nəzərdən də 5 mərhələni fərqləndirmək olar:

1. Qapalı (təcrid olunmuş) cəmiyyət;
2. Geniş təsərrüfat (sənətkarlığın ilkin yaranışı);
3. Rayon təsərrüfatı (şəhər və kənd arasında mübadilənin genişlənməsi).
4. Milli təsərrüfat (manufakturaların meydana gəlməsi);
5. Dünya təsərrüfatı (fabrikin hökmranlığı).

downloaded from KitabYurdu.org

K.Bulüherdən sonra marksist ictimai-iqtisadi formasiyalar nəzəriyyəsinə ikinci etiraz U.Rostoudan (1916) gəldi. O, "İqtisadi artımın mərhələləri. Qeyri-kommunist manifesti" (1960) əsərində marksist sxemə qarşı çıxan U.Rostou əsas kriteri kimi istehsalın və adambaşına gəlirlərin əldə edilmiş səviyyəsindən çıxış etməklə cəmiyyətin inkişaf tarixini 5 mərhələyə bölmüşdür.




***Şəkil 4.5. Cəmiyyətin inkişaf mərhələlərinin U.Rostou təsnifatı***

U.Rostou sonuncu mərhələlərin əsas əlamətləri sırasına tikintidə (şəhərətrafı, yol və s.) sıçrayış, avtomobil sənayesinin və bütövlükdə xidmət sferasının güclü inkişaf tempini daxil edir.

Ümumiyyətlə, U.Rostou ənənəvi və müasir cəmiyyət arasındakı fərqi əhalinin artımı və kapital qoyuluşunun səviyyəsi arasındakı nisbətlə izah edir.

Yəni, əgər əhalinin artımına münasibətdə kapital qoyuluşunun səviyyəsi aşağıdırsa, onda söhbət ənənəvi cəmiyyətdən gedir və s. Bu

downloaded from KitabYurdu.org

baxımdan, eləcə də tarixi prosesin əvvəlki dövrlənməsindən çıxış etməklə "ənənəvi cəmiyyət" anlayışını dərk etmək mümkündür. Lakin Rostounun sonrakı mərhələləri yeniləşmənin birtərəfli şərhindən başqa bir şey deyildir.

"İqtisadi artımın mərhələləri" nəzəriyyəsi mahiyyətcə ümumdünya tarixinin ənənəvi, industrial və postindustrial cəmiyyətlərə bölgüsünə yaxındır.

Bu dövrlənmədə əmək vasitələrinin inkişafı əsas kriteri kimi götürülmüşdür. Yəni hər iki halda bütöv sosiotarixi və sosiomədəni orqanizm kimi cəmiyyətin təkamül prosesinin sistemli qiymətləndirilməsinə rast gəlmirik.

Daha konkret formada U.Rostounun "İqtisadi artımın mərhələləri" nəzəriyyəsinin əsas nöqsan cəhətlərinə aşağıdakıları da aid edə bilərik:

1. İbtidai dövrə ümumiyyətlə, baxılmır. Yəni nəzəriyyə tarixi prosesi bütövlükdə deyil, yalnız son 250 illik dövrü əhatə edir.
2. Yuxarıda da qeyd etdiyimiz kimi, ictimai tərəqqinin mürəkkəb konstruksiyası birölçülü texniki determinizm prinsipinə aid edilir.
3. İqtisadi artıma sırf mexanistik yanaşma sərgilənir.

A.Frank[119] modernləşmənin xətti-mərhələli konsepsiyasını kəskin şəkildə tənqid etməklə U.Rostounun "İqtisadi artım mərhələləri" nəzəriyyəsini ümumiyyətlə, inkar edir. Onun fikrincə, Rostounun sözügedən nəzəriyyəsi iqtisadi cəhətdən geri qalmış ölkələrin nə keçmişi, nə də "indisi" ilə heç cür səsləşmir.

Yuxarıda da qeyd etdiyimiz kimi, U.Rostou üçün "ənənəvi cəmiyyət = iqtisadi cəhətdən geri qalmış ölkə" eyniyyət təşkil edir. İqtisadi gerilik – birinci mərhələdir və bundan sonra inkişaf başlayır. Lakin tarixi faktlar bu yanaşmanın gerçəkliyə adekvat olmadığını ortalığa qoyur. Məsələn, Latın Amerikasında iqtisadi gerilik 400 ildir davam edir, amma inkişaf təmayüllərini heç "üfüqdə" də görmək mümkün deyildir.

Bu gün dünyada elə bir cəmiyyət tapmaq mümkün deyildir ki, "ənənəvi"liyə uyğun gəlsin. Onlar, eyni zamanda Rostounun ikinci mərhələsinə - keçid mərhələsinə də uyğun gəlmirlər.

Gerilik – nə ilkin, nə də ənənəvi vəziyyət deyil. Gerilik – inkişaf etmiş ölkələrin istismarının nəticəsidir.

---

[119] Frank A.G. Sosiology of Development and Underdevelopment of Sosiology// N.Y.1969

downloaded from KitabYurdu.org

Frank Rostou yanaşmasının digər bir cəhətini də diqqət mərkəzinə çıxarır. Belə ki, sözügedən nəzəriyyədə inkişaf etmiş ölkələr sanki bütün dünyadan təcrid olunmuş yolla gediblər və gedirlər. Əslində isə, bu ölkələrin inkişafı qalan dünyanın geriliyindən qaynaqlanır.

İ.Vallerstayn U.Rostounu İngiltərə modelini qlobal miqyasda yeganə düzgün olan kimi təqdim etməkdə günahlandırır. Bütün ölkələr məhz həmin model çərçivəsində inkişaf etməlidirlər. "... Lakin təhlil etmək lazımdır ki, bir mərhələdən digərinə keçid necə baş verir, nədən bəzi millətlər digərləri ilə müqayisədə, ləng hərəkət edirlər və nəhayət, nə etmək lazımdır ki, "artım" prosesi sürətlənsin?"[120]

Amerikan sosioloqu Daniel Bell (1919) marksist və "industrial cəmiyyət" konsepsiyalarının yalnız "bir ox" ətradında firlandıqlarını (marksizm – iqtisadiyyat; "industrial cəmiyyət" – texnoloji, yaxud texniki dəyişikliklər "oxu") tənqid edərək, "Postindustrial cəmiyyət" nəzəriyyəsini irəli sürür.

Tarixi dövrlənməyə yanaşmada əsas kriteri kimi texniki-iqtisadi, mədəni və siyasi sferalardakı dəyişikliklərə söykənir. O, cəmiyyətə texnologiya və biliklər prizmasından baxır. Bu prizmadan yanaşmaqla amerikan cəmiyyətinin "postindustrial" olmasının 5 əlamətini göstərir:

1. Əmtəə istehsalından xidmət istehsalına keçid;
2. Peşəkar mütəxəssislər və texniki işçilərin xüsusi çəkisinin böyüklüyü;
3. Nəzəri biliyin aparıcı rolu;
4. Texniki-iqtisadi mühitin texnologiyalar üzərində nəzarətə istiqamətlənməsi;
5. Yeni intellektual texnologiyalar əsasında qərarların qəbulunun təminatı;

Ədalət naminə qeyd etmək lazımdır ki, D.Bell kifayət qədər pozitiv olan məqamları görə bilmişdir:

1. Elmin artan rolu;
2. Elmin insan fəaliyyətinin mühüm sferasına çevrilməsi;
3. Məşğulluq sferasında proqressiv dəyişikliklər;
4. Kooperasiya olunmuş əməyin rolunun artması və s.

***Cədvəl 4.10***

[120] Wallerstein I. The Present State of the Debate on World İntequality // Montreal, 1975, p.14.

downloaded from KitabYurdu.org

***Texnoloji amilə əsasən cəmiyyətin tarixi tipləri***

| Cəmiyyətin sosial təşkili tipləri | Hakim olduğu ölkələr | Xarakteri | Həyat fəaliyyətinin əsas istinad nöqtəsi |
|---|---|---|---|
| 1.İndustrializmə qədərki tip | Afrika, Latın Amerikası, Cənubi Asiya | Əkinçilik, heyvandarlıq, balıqçılıq, dağ-mədən, meşə sənayesi. | İnsan → təbiət münasibətləri |
| 2. İndustrial tip | Şimali Amerika, Avropa, keçmiş sovet respublikaları, Yaponiya | Kütləvi istehlak malları istehsalı | İnsan → yeniləşmiş təbiət münasibətləri |
| 3. Postindustrial tip | ABŞ, Yaponiya (yeni başlayır) | Xidmət istehsalı. İnformasiyanın əldə edilməsi, emalı, saxlanması və istifadəsinə yönəlik əmək məsrəfləri | "İnsan→insan" münasibətləri |

D.Bellin konsepsiyası "xidmət" iqtisadiyyatın məzmun açıqlanması baxımından təqdirəlayiqdir (baxmayaraq ki, tarixi aspektdə elə bir əhəmiyyətli rol oynamır). "Xidmət" iqtisadiyyatının ilkin parametrlərindən biri iqtisadi məşğul əhalinin sahələr üzrə strukturudur. Belə ki, Afrikada məşğul əhalinin 2/3 hissəsi kənd təsərrüfatında çalışır. ABŞ-da bu göstərici 3%-dən də azdır.

ABŞ əhalisinin 1/3 hissəsi sənayedə, 2/3 hissəsi xidmət sferasında çalışır. Kəskin fərqlərin yaranması elmi-texniki tərəqqi ilə bağlıdır. İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatında əmək məhsuldarlığı inkişaf etməkdə olan ölkələrin analoji göstəricisindən 15 dəfə yüksəkdir.

Postindustrial ölkələr üçün insan fəaliyyətinin bütün sferalarında elm və texnikanın nailiyyətlərindən geniş istifadə ilə yanaşı, fundamental elmlərin inkişafına istinadla daha təkmil texnologiyaların tətbiqi də xasdır.

Əsas nöqsan cəhət kimi isə onu göstərmək olar ki, D.Bell yalnız texniki-iqtisadi təmayüllərin təhlili əsasında ictimai inkişaf nəzəriyyəsi qurmağın mümkünlüyünü sübut etməyə çalışırdı.

downloaded from KitabYurdu.org

Fərqli yanaşmalardan biri – amerikan sosioloqu və iqtisadçısı D.Helbreytin "Yeni industrial cəmiyyət" nəzəriyyəsidir (şəkil 4.6). Bu nəzəriyyə XX əsrin sonuna yaxın olan zaman üçün tarixin dövrlənməsini əhatə edir. D.Helbreyt marksist yanaşmanın əksinə olaraq kapitalist istehsalının əsas qanununu – maksimum mənfəətə yönəllik fəaliyyəti inkar edir. O hesab edir ki, müasir korporasiyaların birinci və əsas məqsədi texnostrukturun maksimal artım tempi və mənfəətin qarant səviyyəsidir.




***Şəkil 4.6. Tarixi dövrlənmənin D.Helbreyt versiyası***

Bu qəbildən olan digər nəzəriyyə fransız sosioloqu R.Aron tərəfindən irəli sürülmüşdür. Onun "Vahid industrial cəmiyyət" nəzəriyyəsi 5 əsas xarakterik cəhəti ilə səiyyələnir (şəkil.4.7).

downloaded from KitabYurdu.org




***Şəkil 4.7. Tarixi dövrlənmənin R.Aron versiyası***

Maraq doğuran yanaşmalardan biri də E.Tofferin (1928) "Superindustrializm" nəzəriyyəsidir. "Üçüncü dalğa"(N.Y. 1980 – ingilis dilində) əsərində E.Toffer tarixi dövrlənmədə əsas kriteri kimi "dəyişiklik dalğalarının" ardıcıl növbələşməsini götürmşdür (şəkil 4.8).

downloaded from KitabYurdu.org

**Tarixin dövrlənməsi**

**Dəyişiklik dalğaları**

| Sivilizasiyanın aqrar dalğası; b.e.ə. 10 minillik | Planetar dəyişiklik dalğası, yaxud sivilizasiyanın industrial dalğası. Avropa – XVIII əsr (sənaye inqilabı) | Sivilizasiyanın super indus-trial dalğası; XX əsrin 60-cı illəri |
|---|---|---|

**ƏSAS ƏLAMƏTLƏR**

- Bərpa edilən enerji mənbələrinə əsaslanmaqla həyatın yeni obrazının yaradılması;
- Standartlaşdırılmış kütləvi istehsaldan – zavod konveyerlərindən imtina;
- Məktəb, korporasiya və s. yönümdə yeniləşmə.

***Şəkil 4.8. Tarixi dövrlənmənin E.Toffer təsnifatı***

İndustrializmin böhranından çıxış etməklə "Super-industrializm" nəzəriyyəsini irəli sürən E.Tofflerin yanaşma tərzindəki zəif məqamları əksər tənqidçilər (azsaylı olsalar da) sosial dəyişikliklərin elm və texnikadakı dəyişikliklərə bağlamasında görürlər.

"İndustrial" və "postindustrial" nəzəriyyələrin fərqli xüsusiyyətlərinə baxmayaraq, onların hamısı modernləşmə prosesini aşağıdaki sosial dəyişikliklərlə bağlayırlar:

1. Yerli bazarların dünya bazarlarına qovuşması;
2. Qeyri-iqtisadi məcburetmənin ləğvi;
3. Sosial proseslərin dinamikliyinin kəskin artımı;

downloaded from KitabYurdu.org

4. Əməyin peşəkarlaşması;
5. İstehsalçı və istehlakçı rolların bölünməsi və s.

Qilderbrant[121] – Blüxerin[122] 3 mərhələli modeli:

Alman alimləri (XIX əsr) təsərrüfatın tarixini 3 mərhələyə bölmüşlər. Bölgü yaxud dövrlənmə əmtəənin (məhsulun) istehsalçıdan istehlakçıya çatdırılması yolunun uzunluğu prinsipə söykənir:

- "Təbii", natural (yaxud ev) təsərrüfatı: ən qədim dövrdən XII əsrin ortalarına qədər davam etmişdir. Məhsulun çatdırılma yolunun uzunluğu bir mildən çox deyil (tarladan, yaxud bostandan dəyirmana və oradan da istehlakçıya).
- "Pul"(yaxud şəhər) təsərrüfatı: XII əsrin ortalarından XVIII əsrin sonuna qədər davam etmişdir. Məhsulun istehlakçıya çatdırılma yolunun uzunluğu bir neçə mildən 10 və daha çox milə qədərdir (Tarladan yaxud sənətkarın emalatxanasından şəhər bazarları, yaxud yarmarkalar vasitəsi ilə tacirlər tərəfindən istehlakçıya çatdırılma:)
- "Kredit" (yaxud xalq) təsərrüfatı: XIX əsrdən başlanır. Məhsulun çatdırılma yolunun uzunluğu yüz, min və daha çox mildir.

Tarixi-xronoloji yanaşma: Aralıq dənizi regionu xalqlarının tarixinə münasibətdə istifadə olunan ənənəvi yanaşmadır: 7 dövr fərqləndirilir:

1. Qədim dövr – XXXIII – VIII (b.e.ə.). Əmək bölgüsü; əsas sosial institutlar – ailə, icma, mülkiyət, hüquq, dövlət, din yaranmışdır;
2. Antik dövr – b.e.ə. VII əsrdən b.e. V əsrinə qədər olan dövr: Sənətkarlıq, ticarət, xüsusi mülkiyyət (torpaq üzərində) və qullar meydana gəlmişdir.
3. Orta əsrlər – VI-XV əsrlər: Müstəqil şəhərlər yarandı, Avropanın əsas millətləri formalaşdı;
4. İntibah dövrü – XV əsrin ortalarından XVII əsrin ortalarına qədərki dövr. İlkin kapital yığımı və böyük coğrafi kəşflər dövrü.

---

[121] Б.Гильдербранд. Политическая экономия настоящего и будущего. СПБ. 1860.- С. 61-72

[122] К. Вюхер. Возникновение народного хозяйства. Директмедиа Паблишинг; 1907

downloaded from KitabYurdu.org

5. Maarifçilik dövrü – XVII əsrin ortalarından XVIII əsrin sonuna qədərkı dövr. Dünyanın ərazicə bölünməsi baş verdi.
6. Azad rəqabət dövrü – XVIII əsrin sonu XIX əsrin ikinci yarısına qədərki dövr. Sənaye inqilabı.
7. İnhisar rəqabəti dövrü – XIX əsrin sonu XX əsrin 40-50-ci illərinə qədərki dövr. Kapitalın təmərgüzləşməsi və dünyanın iqtisadi cəhətdən bölgüsü müstəvisində aparılan mübarizə böhranlara və müharibələrə yol açdı.
8. Sosial (bazar) təsərrüfat dövrü – XX əsrin ortalarından başlanır və hal-hazırda da davam etməkdədir. Ən çox inkişaf etmiş ölkələr sabitliyə nail olmuş, yeni orta təbəqə və istehlak cəmiyyəti formalaşmışdır.

Ənənəvi yanaşmalardan biri də ibtidai dövrdən sonrakı inkişaf prosesini üç əsas epoxaya bölünməsidir:

1.Qədim aqrar cəmiyyət;
2.Orta əsrlərin aqrar-industrial cəmiyyəti;
3.Müasir industrial cəmiyyət.

Bu epoxaların hər birində bir, yaxud bir neçə sivilizaiya mövcud ola bilər. Bu anlamda sivilizasiya – eyni zamanda həm hərəkətdə olan, həm də sabit qalan yaranışdır.

Uzun minilliklər boyu mövcud olmuş aqrar cəmiyyətin forma müxtəlifliyinə baxmayaraq, ümumi səciyyə daşıyan müəyyən xarakterik cəhətləri olmuşdur.

Məhz bu cəmiyyətdə (bəşər tarixində ilk dəfə olaraq) nəzəri təfəkkür formalaşmağa başlamış, "görünən" və real dünya arasında fərqliliklər meydana çıxmış, dövlət yaranmışdır və s. Aqrar cəmiyyətin əksər sakinləri qapalı icmalarda yaşayan kənd təsərrüfatı işçiləri olmuşlar. Hakim (idarəedən) sinif əhalinin əsas kütləsindən ayrılır, ağalıq→tabeçilik prinsipinə istinadla ideoloji baxışlar formalaşır. Hakim sinfin özü də tərkib etibarilə yekcins deyildir – bir neçə təbəqəyə bölünmüşdür (hərbiçilər, ruhanilər, inzibatçılar və s.)

Həmçinin, aqrar cəmiyyət – müasir terminologiyadan istifadə etsək makrososial sabitliyi ilə seçilirdi. Dövlət tərəfindən bərabərsizliyin qanuniləşdirilməsi, ona təbiilik görüntüsü verilməsi, labüdlüyü hər vəchlə təsbit olunurdu. Cəmiyyətin milli əlamətlərə görə bölgüsü yox idi.

downloaded from KitabYurdu.org

Orta əsrlərin aqrar-industrial cəmiyyəti hər şeydən əvvəl, şəhərlərdə təmərgüzləşən sənətkarlar təbəqəsinin artımı, pərakəndə halda mövcud olan aqrar icmalar arasında ticarət və kommunikasiyaların kəskin inkişafı və monoteist dinlərin hökmran mövqelərə keçməsi ilə səciyyələnir.

Bütün aqrar-industrial cəmiyyətlərdə mərkəzləşdirilmiş dövlətlər yaranır. Bununla yanaşı, yuxarıda qeyd etdiyimiz "makro-sosial" sabitlik laxlamağa başlayır.

Ticarət və kooperasiyanın artımı ilə əlaqədar əmək bölgüsü sürətlə mürəkkəbləşir. Məhz aqrar-industrial cəmiyyət dövründə təbəqələşmənin daha da dərinləşməsi baş verir: Həkimlər, alimlər, qanunvericilər, teoloqlar və s. formalaşır.

Bəzi tədqiqatlarda orta əsrlər cəmiyyətini birmənalı olaraq aqrar cəmiyyətlərə aid edirlər ki, bu da tarixi prosesin real dərki nöqteyi-nəzərindən problemli situasiyalar doğurur. Məsələn, belə olan təqdirdə qədim Misir cəmiyyəti ilə Maya cəmiyyəti arasında bütün fərqliliklər silinir. Əslində isə, aqrar və aqrar-industrial cəmiyyətlər arasında həm struktur, ideoloji, həm də təfəkkür tərzi və maddi həyatın quruluşu (yaşam tərzi) prizmasından prinsipial fərqlər mövcuddur. Orta əsrlər cəmiyyətini birmənalı olaraq aqrar cəmiyyətlərə aidetmənin əsas səbəblərindən biri həmin dövrə məxsus tarixi mənbələrdə hakim sinifə həddən artıq yer ayrılması ilə şərtlənir. Belə təsəvvür yaranır ki, əslində elə bir əhəmiyyətli dəyişiklik baş verməmişdir. Aqrar və aqrar-industrial cəmiyyətlər arasında struktur fərqliliyi göstərmək üçün J.Qurviç[123] ən azı beş "cəmiyyətin", beş müxtəlif iyerarxiyanın mövcud olduğunu qeyd edirdi.

1. Ən qədim cəmiyyət – "senyer" cəmiyyəti;
2. Teokratik cəmiyyət;
3. "Ərazi" dövlət ətrafında formalaşan "gənc" cəmiyyət;
4. Feodal cəmiyyəti;
5. Şəhər cəmiyyəti.

Artıq X əsrdə, Qurviçin göstərdiyi kimi, şəhərlər – xüsusi dövlətlər, xüsusi cəmiyyətlər, xüsusi sivilizasiya və iqtisadiyyatlar kimi çıxış edirdilər.

Ümumiyyətlə, əgər son orta əsrlər aqrar-industrial epoxa hesab edilməsə idi, onda çox qısa tarixi dövr ərzində aqrar cəmiyyətin kapitalist cəmiyyəti ilə əvəzlənməsinin rasional yozumunu tapmaq müşkülə çevrilərdi.

---

[123] Gourvitch G. Determinismes sociauxet liberte humanaivie. Paris, 1963, p.261

downloaded from KitabYurdu.org

İndustrial cəmiyyətə keçid tarixən XVIII əsrdə başa çatmışdır. Bu cəmiyyətin əsas xarakterik cəhətləri aşağıdakılardan ibarətdir:

1. Əvvəlki epoxalardan fərqli olaraq kənd təsərrüfatı və sənaye istehsalının sürətli artımı;
2. Elm və texnikanın, o cümlədən kommunikasiyanın güclü inkişafı;
3. Əhalinin sürətli artımı;
4. Həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsi;
5. Mürəkkəb əmək bölgüsü və beynəlxalq əmək bölgüsünün sistemləşməsi;
6. Mərkəzləşdirilmiş dövlət;
7. Əhalinin üfüqi təbəqələşməsində kəskin fəsadların "yumşaldılması", şaquli təbəqələşmənin artımı (cəmiyyətin millətlərə, regionlara və s. bölgüsü).

Kapitalizm iqtisadiyyatın yeni tipi ilə yanaşı, yeni həyat tərzi və yeni təfəkkür tipi yaratdı. M.Veber hesab edirdi ki, bu – protestantizmin yaranması ilə bağlıdır (kapitalizm XVI əsrdə formalaşmağa başlamışdır). V.Zombart[124] kapitalizmin başlanğıcını XV əsr Florensiyası ilə bağlayırdı. O.Koks isə ümumiyyətlə XI əsr Venesiyasını önə çəkirdi. Kapitalizmin yaranması tarixi ilə əlaqədar mövcud olan fərqliliklər onunla izah oluna bilər ki, əvvəla, orta əsrlər cəmiyyəti birmənalı olaraq, aqrar cəmiyyət kimi qəbul edilirdi, ikincisi, kapitalizm – tərəqqinin yekun mərhələsi keyfiyyətində səciyyələndirilirdi.

F.Brodel yazırdı ki, kapitalizm tarixi təkamülün son sözü deyil, "... Onun süqutu,... mutasiyası heç də mümkün olmayanlar sırasında deyildir".[125]

Müasir industrial cəmiyyətin qərarlaşması prosesini Brodel 3 dövrə ayırır:

1. Kapitalizməqədərki dövr (XIV-XVIII);
2. İndustrial kapitalizm dövrü ( XVIII-XX);
3. Postindustrial kapitalizm dövrü (XX əsrdən başlayaq).

---

[124] В.Зомбарт. Буржуа: Этюды по истории духовного развития современного экономического человека. М.: Наука.- 1999.

[125] Бродель Ф. Материальная цивилизация, экономика и капитализм. XV-XVIII вв. 1986, Т.1. Структуры повседневности: возможное и невозможное. С.34

downloaded from KitabYurdu.org

Kapitalizməqədərki dövrdə formalaşmaqda olan yeni münasibətlər kompleksi dayanıqlı deyildir. Əslində, kapitalizmin XIX əsrdə tam şəkildə qərarlaşması prosesinin 3 əsas şərtini ön plana çıxarır:

1. Həyat qabiliyyətli və tərəqqiyə istiqamətlənmiş bazar iqtisadiyyatının yaranması; O qeyd edir ki, ilkin dövrlərdə bazar iqtisadiyyatı hər yerdə eyni məzmun daşıyırdı. "...Lakin belə formada mövcud olan bazar iqtisadiyyatı kapitalist inkişaf prosesinin zəruri, amma kafi şərti deyildi".[126]

2. Cəmiyyət kapitalizmin inkişafına dəstək verməli idi. Sözügedən "dəstək" təbii ki, minlərlə amili əhatə edir. Brodelin fikrincə isə, bu daha çox siyasi, "tarixi" səciyyə daşımalıdır (nəinki iqtisadi və sosial).

3. Son nəticədə dünya bazarının mövcudluğu zəruri amil keyfiyyətində çıxış edir.

Qeyd etmək olar ki, Rusiyada ikinci, Çində isə həm ikinci, həm də üçüncüsü şərtlər olmayıb.

Postindustrial epoxa əvvəlki dövrlərdən hər şeydən əvvəl radikal xarakterli dəyişiklikləri ilə fərqlənir. XX əsr bu anlamda – bəşər tarixində xüsusi yer tutur. Məsələn, məhz XX əsrdə (əsasən əsrin ortalarından başlayaraq) iqtisadi inkişaf sıçrayış xarakteri almışdır.

Hal-hazırda bəşəriyyətin istehlak etdiyi məmulatların 90%-i məhz bu dövrdə yaradılmışdır. 1950-2000-ci illər ərzində sənaye istehsalı 50 dəfə, təbii qazdan istifadə 30 dəfə artmışdır. 600 mln-dan çox minik maşınları istifadəyə verilmiş, 4000 süni peyk buraxılmışdır. 1980-2000-ci illərdə istifadə olunan mineral ehtiyatlar bəşəriyyətin bütün tarixi boyu istifadə etdiklərindən çoxdur.

Müasir postindustrial cəmiyyət ifrat dərəcədə mürəkkəb, çoxlaylı və dinamik surətdə dəyişən sosial sistemdir. Bu cəmiyyətin ən ümumi cəhətlərinə aşağıdakıları aid etmək olar:

1. Qlobal səviyyədə hamı üçün keçərli olan vahid məqsəd yoxdur; Məqsəd spontan şəkildə formalaşır;
2. İctimai proseslər vahid mərkəzdən tənzimlənmir;
3. Cəmiyyət daxili koordinasiya universal davranış qaydalarına əməl etməklə formalaşır; Yəni koordinasiya – nə hansısa vahid məqsədlə tənzimlənmir, nə də vahid mərkəzdən formalaşmır.

---

[126] Бродель Ф. Материальная цивилизация, экономика и капитализм. XV-XVIII вв. 1986, Т.2. Игры обмена., с.609

downloaded from KitabYurdu.org

4. Cəmiyyətin iqtisadi əsasını xüsusi mülkiyyət və sahibkarlıq (özəl), bazar sistemi və rəqabət təşkil edir.
5. Fərdlər avtonomdur, qanunla mühafizə edilən şəxsi həyata malikdir, qərar qəbulunda müstəqildirlər;
6. Fərdlər bütün fundamental azadlıqlara malikdirlər;
7. Çoxpartiyalı cəmiyyətdir; partiyaların heç birinin hakimiyyət səlahiyyətləri yoxdur;
8. Dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının rəhbərləri ümumxalq səsverməsi ilə təyinat alırlar;
9. Hakimiyyətin 3 qanadı var: qanunverici, icra və məhkəmə (bunların hər biri müstəqildir).

Müasir fəlsəfi fikirdə F.Brodelin təsvir etdiyimiz yanaşması birmənalı qarşılanmır. Əsas iradlar sırasına aşağıdakıları aid etmək olar:

1. Tarixin Brodel tərəfindən aparılan dövrlənməsi səthi və kobuddur. Onun, yəni bölgünün əsasında yalnız bir kriteri - artımın səviyyəsi dayanır ;
2. Bu baxımdan industrial cəmiyyətlə postindustrial cəmiyyət arasındakı fərqlilik birmənalı olaraq iqtisadi artımın səviyyəsinə ürcah edilir.
3. Lakin son 3 əsrdə inkişaf etmiş cəmiyyətlərə münasibətdə bu kriteri ikincidərəcəli əhəmiyyət daşıyır. Ön plana isə mədəniyyət çıxır. Əsas diqqət son 300 illik tarixə yönəldilir. Minilliklər boyu davam etmiş epoxa isə industrializməqədərki dövr kimi ümumiləşdirilir.

Tənqidçilər belə bir qənaətə gəlirlər ki, postindustrial cəmiyyət – müstəqil tarixi epoxa deyil, o, yalnız industrial epoxanın müasir mərhələsidir və daxili eyniyyətə malikdir.

Ümumdünya tarixinin əsas mərhələlərinin elmi fikirdə qəbul edilmiş təsnifatlarından biri də qlobal – mərhələli inkişaf konsepsiyası çərçivəsndə öz əksini tapmışdır (şəkil 4.9).

downloaded from KitabYurdu.org




***Şəkil 4.9. Bəşəriyyətin inkişafının əsas mərhələləri.***

## § 4.11. Tarixi dövrlənmə: texnoloji-amil nəzəriyyələri

Dünya iqtisadiyyatının tarixi dövrlənməsi kriterilərini üç böyük qrupa ayırmaq olar:

1. İnkişafın hərəkətverici qüvvələri;
2. Mərhələli dövrlənmənin keyfiyyəti parametrləri
3. Eyni zamanda, yalnız bir elementə, yaxud kriteri (texnoloji, yaxud təbiət xarakterli) əsaslanmaqla, onu inkişafın universal xarakterli hərəkətverici qüvvəsi kimi götürməklə formalaşdırılan texnoloji-amil nəzəriyyələri.

downloaded from KitabYurdu.org

Məlumdur ki, əksər mürəkkəb sistemlər kimi iqtisadiyyat da daha mürəkkəb məzmunlu qanunauyğunluqlarla səciyyələnir ki, bu da bir yox, inkişaf amillərinin kompleksini tədqiqatın obyektinə çevirməyi tələb edir. Bununla yanaşı, o da etiraf olunmalıdır ki, texnoloji – amil konsepsiyaları inkişafın ümumi mənzərəsinin yaradılması prosesində əhəmiyyətli rol oynayırlar. Bu qəbildən olan konsepsiyalara ilk versiya kimi L.Morqanın texnoloji innovasiyalara – odun əldə olunması, ox və kamanın icadı və s. əsaslanmaqla apardığı dövrlənməni göstərmək olar. Xalis texnoloji yanaşmalar çərçivəsində energetika nəzəriyyələri – bəşəriyyətin iqtisadi inkişafını enerjinin yeni formalarının (od, buxar, elektrik, enerji, atom-nüvə enerjisi) mənimsənilməsi ilə bağlayan yanaşmalar da mövcuddur.

Təbii amillər nəzəriyyəsinin müxtəlif modifikasiyaları mövcuddur. Bu nəzəriyyələr iqtisadi sistemlərin genezisi və təkamülünü təbii-iqlim resursları ilə əlaqələndirirlər.

Millətin texnoloji və mədəni inkişafı onun coğrafi mövqeyi, iqlim xüsusiyyətləri və hətta ərazinin relyefi ilə bağlanır.

T.Maltusdan başlayaraq çoxlu sayda tədqiqatçılar iqtisadi inkişafı demoqrafik amillərlə izah etməyə çalışırlar.

Bu qəbildən olan yanaşmalarda əhali məskunlaşması iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi hesab olunur. Həqiqətən də, kiçik İngiltərə XVI-XVII əsrlərdə güclü demoqrafik sıçrayışla az qala dünyanın yarısına nəzarət etmək imkanı əldə etdi. Halbuki, XV əsrdə təkcə Parisin əhalisi bütün İngiltərənin əhalisindən çox idi.

Demoqrafik yanaşma ilə sıx bağlılıqda olan aqrar texnologiyaların təkmilləşməsinin və müvafiq sürətdə ərzaq resurslarının artımına yönəlik interpretasiyalar da mövcuddur.

Bir sıra konsepsiyalar isə ön plana kommunikasiya-informasiya amillərini çıxarırlar.

Məsələn, L.Meçnikov inkişafın əsas amili keyfiyyətində su yollarının götürülməsini tövsiyə edir. O, bu amilə əsaslanmaqla bəşəriyyətin tarixini 3 dövrə bölür:

1. "Çay" dövrü (ənənəvi təsnifatda Qədim dünyaya uyğun gəlir);
2. "Dəniz" dövrü (Orta əsrlər);
3. "Okean" dövrü (Yeni və Ən yeni dövr).

Tədricən rabitə texnologiyaları ön plana çıxarılır. Nəqliyyat-kommunikasiya texnologiyalarının təkamül zənciri qurulur: yollar, dəmir yol nəqliyyatı, təyyarə, poçt, teleqraf, teletayp, telefaks, elektron şəbəkə. Şübhə yoxdur ki, qeyd edilənlər iqtisadi təkamülə müəyyən təsir

downloaded from KitabYurdu.org

göstərmişlər. Lakin onun, yəni inkişafın əsaslandırılmasında hər hansı bir rol oynamışlarmı? Və, nəhayət XX əsrin sonunda informasiya amili dominant mövqeyə keçir. Bir çox tədqiqatçılar cəmiyyətin inkişafını informasiya texnologiyalarının təkmilləşməsi prosesi ilə bağlılıqda şəhr edirlər: Nitqin yaranması → çap dəzgahı→ kompyuter-internet. Hal-hazırda dəbdə olan yanaşmalar sırasında maliyyə nəzəriyyələri xüsusi yer tutur.

Bu baxımdan təkamül prosesi sadə mübadilə əməliyyatlarından tutmuş müasir kompyuter bankçılığına qədər uzun tarixi dövrü əhatə edir. Kifayət qədər orijinal yanaşmalar da var. Məsələn, amerikan tədqiqatçısı Ç.Adams tarixidə baş vermiş bütün iri hadisələri – Roma imperiyasının, İspan hökmranlığının süqutu, Amerikada müstəqillik müharibəsi, Böyük Fransız inqilabı və s. – insanların vergi sistemlərindən narazılığı ilə izah edir.

K.Blüxer marketinq yanaşmasını əsas kimi götürmüşdür və s.

## § 4.12. Tarixi dövrləmənin futuroloji interpretasiyası

"Futurologiya" termini elmi leksikona alman alimi O.Flextxeym tərəfindən (1943-cü il) daxil edilmişdir.

Futurologiya – ictimai inkişafın gələcək modellərinin hazırlanması ilə məşğul olur. Bu modellər içərisində sosiomədəni, demoqrafik, energetik, ekoloji və s. proqnozlar xüsusi yer tutur.

Proqnozların xarakterindən asılı olaraq futuroloqlar iki qrupa bölünür:

1.Pessimistlər – "Roma klubu"nun üzvləri (1968);

2.Optimistlər.

Pessimist proqnoza görə (D.Medous, D.Forrester) gələcək "gəlməyə" bilər: Qlobal iqtisadi inkişafın bugünkü templərinin saxlandığı şəraitdə "Qlobal fəlakət" baş verəcəkdir (XXI əsrin birinci yarısında). Bu fəlakətdən qorunmaq üçün əvvəlcə "sıfır artıma", sonralar isə - "məhdud artım"a keçmək lazımdır. Optimistlər (A.Viner, Q.Kan və b.) bəşəriyyətin inkişaf tarixini 3 dövrə bölürlər (şəkil 4.10)

Z.Bjenzinskinin də özünəməxsus futuroloji modeli mövcuddur. Yanaşmanın mərkəzində "texnotron cəmiyyət" anlayışı dayanır. O hesab edir ki, sözügedən cəmiyyət artıq başlamış "texnotron inqilab" nəticəsində qərarlaşacaqdır. İdarəetmə sferasında menecerlərin yerinə meriokratiya – ləyaqətlilərin, bacarıqlıların hakimiyyəti gələcək.

downloaded from KitabYurdu.org

Bərabərlik və ədalət prinsipləri düzgünlük və tərəfsizlik prinsipləri ilə əvəzlənəcək. Ictimai rifahda iştirak dərəcəsindən asılı olmayaraq yeni cəmiyyətin hər bir üzvü üçün ləyaqətli həyat səviyyəsi formalaşdırılacaqdır.




***Şəkil 4.10. Tarixi dövrlənmənin Q.Kan interpretasiyası***

Əslində, Tofflerin, Bellin və s. konseptual baxışları daha çox futuroloji səciyyə daşıyır.

## § 4.13. Tarixi dövrlənmənin riyazi modelləri

Tarixi araşdırmalarda riyazi üsullardan istifadə halları heç də az olmamışdır (A.Panov, A.Çuçina-Rusova, S.Kapitsa və s).

downloaded from KitabYurdu.org

Bunların sırasında Qrininin araşdırmaları özünün sistemliliyi və mötədilliyi ilə nəzər-diqqəti cəlb edir. Məlumdur ki, zaman-tarixi inkişafın amili kimi riyazi analizin predmeti ola bilər. Ümumiyyətlə, tarixi-iqtisadi sferada müxtəlif uzunluqda olan zaman tsikllərindən istifadə olunur. Qrininin konsepsiyasında inkişafın təkrarlanan tsikllərinin (dövrlənmə bunun əsasında aparılır) 6 mərhələsi göstərilir. Tarixi prosesin sürətlənməsi səbəbindən hər bir mərhələ özündən əvvəlki mərhələyə nisbətən daha qısadır. Qrininin apardığı riyazi təhlil aşağıdakı məqamları üzə çıxarmağa imkan vermişdir:

1. İstehsalın hər bir prinsipi zaman etibarilə təkrarlanma xüsusiyyətinə malikdir;
2. Hər bir istehsal prinsipinin çərçivəsində mərhələlərin uzunluğu və kombinasiyaları arasında sabit riyazi tənasüblük mövcuddur;
3. Tsikllərin təhlili açıq-aydın şəkildə göstərir ki, məhz istehsal inqilablarının başa çatması inkişaf tempini kəskin surətdə yüksəldir;
4. Tarixi proses hiperbola görünüşündədir;
5. İstehsal prinsipinin tsikllərinin xüsusiyyətləri və sabit tənasüblüklərin təhlili proqnoz modelini qurmağa (şərti olsa da) imkan verir (ən azı 4-cü istehsal prinsipinin ayrı-ayrı mərhələlərinin uzunluğu ilə bağlı).

Riyazi modellərdən yararlanmada bir sıra, yumşaq şəkildə ifadə etsək, "qəribəliklər"in şahidi oluruq. Belə ki, qrafiklərdə tarixi proses (zaman amilindən çıxış etməklə) yüksələn xətt formasında sonsuzluğa istiqamətlənir.

Bu aspektlə bağlı Dyakonov[127] tamamilə haqlı olaraq qeyd edir ki, "... tarixə münasibətdə "sonsuzluq" anlayışı heç bir məna daşımır: tarixi inkişafın gələcək fazaları sürətlənməklə illər, aylar, həftələr, günlər, saatlar və saniyələrlə davam etsin. Əgər fəlakət olmayacaqsa... onda, əvvəllər nəzərə alınmayan və qrafikin formasını dəyişmək iqtidarında olan hansısa hərəkətverici qüvvənin təsirini gözləmək lazımdır". Həqiqətən də, diaqram və qrafiklərdə tarixi prosesin yalnız bir dəyişəni – texnologiya öz əksini tapır. Texnoloji və ümumi inkişafın üst-üstə düşməsinin isə kifayət qədər ciddi məhdudiyyət sərhədləri mövcuddur. Bu sərhədlərə yaxınlaşdıqca həm inkişafın vektorları, həm də templəri

[127] Дьяконов И.М. Пути истории. От древнейшего человека до наших дней. М.: Восточная литература, 1994

downloaded from KitabYurdu.org

arasında fərqliliklərin yaranması tamamilə mümkündür və yaranır da! Belə ki.

1. Sistemin ümuminkişafı texnoloji inkişafın sürətinə çatma imkanında deyil;

2. Artan fərqlilik o deməkdir ki, tərəqqinin "qiyməti" daima yüksələcək və belə tərəqqinin labüd olaraq yaranan neqativ məqamları artacaq – o vaxta qədər ki, "tərəqqini" üstələsin! Başqa sözlə, nəzarət edilməyən elmi-texnoloji və iqtisadi dəyişikliklər öz ardınca müxtəlif deformasiyalara, böhranlara və s. yol açmaqla yekunda ümumi tərəqqini ləngidəcək və sonuc etibarilə inkişafın istiqamətini dəyişəcəkdir.

Faktiki olaraq, bu halda sistemin ümuminkişaf tempi onun ən konservativ və az hərəkətdə olan elementinin inkişaf tempinə uyğunlaşır. İqtisadi, informasiya və texnoloji reallıqların təsiri altında sistemdaxili fərqliliklərin çoxalması onun – yəni sistemin yenisi ilə əvəz olunmasına gətirib çıxarır. Məhz, bu anlamda, sürətli transformasiya qlobal səviyyədə görünməmiş kataklizmlər doğurmaq gücündədir.

L.Qrininin konsepsiyasında tarixi proses 4 mərhələyə, yaxud formasiyaya bölünür.

1. Ovçuluq-yığım;
2. Aqrar-sənətkarlıq;
3. Sənaye;
4. Elmi-informasiya.

Dövrlənmənin əsas kriterisi istehsal prinsipidir. Mərhələ dəyişkənliyi, mahiyyət etibarilə sözügedən dövrə xas olan bütün keyfiyyət xarakteristikalarının dəyişkənliyidir. Eyni zamanda, aydındır ki, bir sahədə baş verən keyfiyyət dəyişikliyi labüd olaraq digər sahələrdəki analoji vəziyyətlə qarşılıqlı bağlılıqdadır, buna görə də, dominant kimi qəbul edilə biləcək amil yoxdur. Qrininin fikrincə, az və ya çox dərəcədə, bu amilin rolunda istehsal prinsipi çıxış edə bilər:

1) İstehsalda baş verən köklü dəyişikliklər daha böyük həcmdə izafi məhsulun və əhalinin artımına səbəb olur. Bu iki sfera ictimai həyatın bütün spektrində adekvat dəyişiklik yaradır.
2) Sərvəti digər yollarla (təbii resurslar, ticarət, müharibələr və s.) artırmaq mümkündür. Lakin bu yol ümumilik xassəsinə malik deyildir.
3) İstehsal texnologiyalarının reallaşdırılmasında cəmiyyətin bütün təbəqələri, ələlxüsus aşağı təbəqələr fəal iştirak edir.

downloaded from KitabYurdu.org

Mədəniyyət, siyasət, hüquq, ideologiya sferası isə elitanın nəzarətinə keçir.

L.Qrinin qeyd edir ki, istehsal prinsiplərinin əvəzlənməsi istehsal inqilablarının başlanmaı və qurtarması ilə sıx bağlılıqdadır.

***Cədvəl 4.11***

| **Ovçuluq-yığım istehsal prinsipi** | | |
|---|---|---|
| **Mərhələlər** | **Tarixi** | **Əsas xarakteristikası** |
| I mərhələ | 40-30 min il əvvəl | "Ağıllı" insanın yaranması; 100 tipdə primitiv əmək alətlərinin mövcudluğu |
| II mərhələ | 30-20 min il əvvəl | Həyat fəaliyyətinin bioloji və sosial tənzimləyiciləri arasındakı ziddiyyətin aradan qalxması; əhali məskunlaşmasının genişlənməsi |
| III mərhələ | 18-16 min il əvvəl | Buzlaşma dövrü; Əmək alətlərinin sayı və müxtəlifliyində əsaslı dəyişikliklər; Dəyişən təbii mühitə uyğunlaşma daha da güclənir |
| IV mərhələ | 17-14 min il əvvəl | |
| V mərhələ | 14-11 min il əvvəl | Paleolitin sonu – mezolitin başlanğıcı. İqlimin kəskin dəyişməsi; Buzdan tənzimlənmə; Fərdi ovçuluğa keçid. Texniki vasitələr (ox, tələ, qarpun, balta və s.) yaranır və balıqçılıq meydana gəlir |
| VI mərhələ | 12-10 min il əvvəl | İstiləşmə və təbii mühitin əlverişli dəyişmələri davam edir. Mərhələnin sonunda qolosenə keçid (arxeoloji dövrlənmədə - neolitə) baş verir. Buradan da yeni istehsal prinsipinə (aqrar-sənətkarlıq) keçid başlanır |

Arxeoloqların[128] fikrincə, əkinçilik yalnız əlverişli təbii şəraiti olan zonalarda meydana çıxmışdı. Ümumiyyətlə, aqrar inqilabının 12-9 min il əvvələ gedib çıxdığı qeyd olunur.

***Cədvəl 4.12***

| **Aqrar – sənətkarlıq istehsal prinsipi** | | |
|---|---|---|
| ***Mərhələlər*** | ***Tarixi*** | ***Əsas xarakteristikası*** |
| **I mərhələ** | 10.5-7.5 min il əvvəl | Bu dövr Ön Asiya əkinçilik regionunun formalaşması ilə başa çatır; |

[128] Шнирельман В.А. Возникновение производящего хозяйства. М., Наука, 1989,

downloaded from KitabYurdu.org

| | | |
|---|---|---|
| **II mərhələ** | 8-5 min il əvvəl | Vahid Misir dövlətində güclü irriqasiya təsərrüfatının yaranması; Yeni əkinçilik zonalarının formalaşması; Ön Asiyadakı kənd təsərrüfatı bitkilərinin digər yerlərə yayılması; Keçi, qoyun və öküzlərin əhliləşdirilməsi; Ticarətin fəallığının güclü artımı; |
| **III mərhələ** | 5-3.5 min il əvvəl | Aqrar inqilabın ikinci mərhələsi başlanır. İntensiv, sonradan kotançı əkinçilik; heyvandarlığın, sənətkarlıq və ticarətin müstəqil sahələrə ayrılması; Məhz bu dövrdə ilk dövlətlər yaranmağa başlamış və sonralar imperiyalara çevrilmişlər. Bu mərhələ güclü təsərrüfat, aqrotexniki və sənətkarlığın inkişafı ilə başa çatır; |
| **IV mərhələ** | 3.5-2.2 min il əvvəl | İntensiv kənd təsərrüfatı sistemlərinin formalaşması; Sənətin, ticarətin, şəhərlərin görünməmiş inkişafı, yeni sivilizasiyaların yaranması və s. proseslərin başlanması; Bu mərhələ yeni nəhəng dövlətlərin (Roma, Çin) yaranması ilə başa çatır; |
| **V mərhələ** | b.e.ə. III əsrin sonu-b.e. IX əsrinin əvvəli | Aqrar-sənətkarlıq təsərrüfatı məhsuldar qüvvələrinin güclü inkişafı, qədim sivilizasiyaların çiçəklənməsi və süqutu; Yeni sivilizasiyaların (ərəb, Avropa) yaranması; |
| **VI mərhələ** | b.e. IX-XV | Əvvəlcə ərəb dünyası və Çində istehsal və digər sferalarda mühüm dəyişikliklər baş verir, sonra isə Avropada şəhərlərin inkişafı və təsərrüfat yüksəlişi start götürür. Sənaye inqilabının ilk ocaqları yaranır; |

downloaded from KitabYurdu.org

***Cədvəl 4.13***

| **Sənaye istehsal prinsipi** | | |
|---|---|---|
| ***Mərhələlər*** | ***Tarixi*** | ***Əsas xarakteristikası*** |
| **I mərhələ** | XV əsrin ikinci yarısı - XVI əsr | Ön sıralara yeniliyi qəbul edə bilən və daha çox izafi məhsulu akkumulyasiya edən fəaliyyət növləri: Ticarət və müstəmləkə sistemi çıxır. Bəzi yerlərdə, primitiv sənaye yaranmağa başlayır. Məhz bu mərhələdə Vallerstaynın dediyi kapitalist "dünya-iqtisadiyyatı" formalaşır; |
| **II mərhələ** | XVI əsrin sonu – XVIII əsrin birinci yarısı | Yeni istehsal prinsipinin ikinci – "gənclik" mərhələsi başlanır. Artım və yeni sektorların inkişafı, ayrı-ayrı cəmiyyətlərdə aparıcı rola yiyələnmə (Hollandiya, Almaniya) |
| **III mərhələ** | XVIII əsrin ikinci yarısı – XIX əsrin 30-cu illəri (İngiltərə) | Sənaye inqilabının ikinci mərhələsi; Maşınlı sənaye və buxar enerjisinə keçid; Maşınqayırma sahəsi yaranır. Paralel olaraq güclü demoqrafik dəyişikliklər baş verir; |
| **IV mərhələ** | 1830- XIX əsrin sonu | Maşınlı sənayenin inkişafı və onun güclü şəkildə yayılması. |
| **V mərhələ** | XIX əsrin sonu – 1930-cu illər | Kimya sənayesi, poladəritmə sahələri güclü inkişaf edir, elektrik enerjisindən geniş surətdə istifadə olunur, kömür neftlə əvəzlənir. Radio və televizor yaranır; |
| **VI mərhələ** | XX əsrin ortaları | İstehsalın güclü şəkildə intensivləşməsi və elmi metodların tətbiqi, standartlaşdırma və müəssisələrin iriləşməsi prosesi start götürür. Elmi-texniki inqilabın rüşeymləri görünməyə başlayır. |

downloaded from KitabYurdu.org

XX əsrin 40-50-ci illərindən etibarən istehsal inqilabının üçüncü dalğası – elmi-informasiya inqilabı start götürmüşdür. İstehsal və tədavülün təşkili və idarəedilməsində elmi metodlar ön plana çıxmağa başladı.

downloaded from KitabYurdu.org

*Cədvəl 4.14*

| Elmi – informasiya istehsal prinsipi | | |
|---|---|---|
| **Mərhələlər** | **Tarixi** | **Əsas xarakteristikası** |
| **I mərhələ** | **1950-1990-cı illər** | Elmi-texniki inqilab və informasiya texnologiyalarının güclü inkişafı; Qloballaşma prosesinin başlanması; |
| **II mərhələ** | **1990 – müasir dövr** | Kompyuterləşmə, informasiya texnologiyalarından kütləvi istifadəyə keçid; Rabitə-kommunikasiya sferasının görünməmiş inkişafı; |
| **III mərhələ** | **2030-2040-cı illər** | Elmi-informasiya inqilabının ikinci mərhələsi; idarəedən sistemlərin inqilabı; Hətta, insanın bioloji təbiətinin dəyişməsi ehtimalı da var. |
| IV, V,VI mərhələlərin real məzmunu yalnız ehtimal xarakterlidir. Zaman etibarı ilə bu tsiklin 2100-cü ildə, yaxud XXII əsrin başlanğıcında yekunlaşacağı ehtimal olunur. | | |

downloaded from KitabYurdu.org

*Cədvəl 4.1*

## *İstehsal prinsipi əsasında dövrlənmə*

| İstehsal prinsipi | I mərhələ min il | IImərhələ min il | III mərhələ min il | IV mərhələ min il | V mərhələ min il | VI mərhələ min il | Dövrün xronoloji müddəti min il |
|---|---|---|---|---|---|---|---|
| 1. Ovçuluq-yığım | 40-30 (38-28) b.e.ə | 30-22 (28-20) b.e.ə | 22-17 (20-15) b.e.ə | 17-14 (15-12) b.e.ə | 14-11.5 (12-9.5) b.e.ə | 11.5-10 (9.5-8) b.e.ə | 40-10 (38-8) |
| I mərhələ-nin xronoloji müddəti | **10** | **8** | **5** | **3** | **2.5** | **1.5** | **30** |
| 2. Aqrar-sənətkar-lıq | 10-7.3 (8-5.3) b.e.ə. | 7.3-5 (5.3-3) b.e.ə | 5-3.5 (3-1.5) b.e.ə | 3.5-2.2 (1.5-0.2) b.e.ə | 2.2-1.2 (0.2 b.e.ə -0.8 b.e) | 0.8-1.43 b.e | 10-0.57 (8 b.e.ə-1.43 b.e) |
| II mərhələnin xronoloji müddəti | **2.7** | **2.3** | **1.5** | **1.3** | **1.0** | **0.6** | **9.4** |
| 3.Sənaye | 1.43-1.6 | 1.6-1.73 | 1.73-1.83 | 1.83-1.89 | 1.89-1.93 | 1.93-1.95 | 1.43-1.95 |
| IIImərhələnin xronoloji müddəti | **0.17** | **0.13** | **0.1** | **0.06** | **0.04** | **0.025** | **0.525** |
| 4.Elmi-informasiya | 1.955-2.0 (1.955-1.995) | 2.0-2.04 (1.995-2.03) | 2.040-2.070 (2.030-2.055) | 2.070-2.090 (2.055-2.070) | 2.090-2.105 (2.070-2.080) | 2.105-2.115 (2.080 - 2.090) | 1.955-təxminən (2.090-2.115) |
| IV mərhələ-nin xronoloji müddəti | **0.04-0.045** | **0.035-0.04** | **0.025-0.03** | **0.015-0.02** | **0.01-0.015** | **0.01** | **0.135-0.160** |

***Qeyd:*** *Mötərizəsiz yazılmış rəqəmlər – müasir dövrdən keçmişə qədər keçən vaxtı;mötərizədə yazılmış rəqəmlər isə bizim eradan əvvəlki vaxtı göstərir.*

downloaded from KitabYurdu.org

İstehsal inqilablarının özünəməxsus tsikli mövcuddur. Bu baxımdan iki keyfiyyət mərhələsi və onları ayıran, yəni həmin mərhələlər arasında bir növ "fasilə" kimi çıxış edən kəmiyyət mərhələsindən danışmaq olar.

L.Qrininin məntiqi ilə davam etsək, onda qeyd edilən aspektdən tarixi prosesin real məzmunu aşağıdakı kimi olacaqdır:

İnqilabın hər bir mərhələsi istehsalda güclü sıçrayış yaradır. İlkin mərhələdə yeni istehsal prinsipinin bazası formalaşır və həmin sektor möhkəmlənir (güclənir). Sonrakı dövrdə isə qabaqcıl keyfiyyət yeni sosiumlara və ərazilərə yayılmağa başlayır. Harada ki, istehsalın əlverişli variantı və əlverişli ictimai mühit təşəkkül tapır, məhz orada istehsal inqilabının yeni mərhələsinə keçid başlayır.

İstehsal inqilabı istehsal prinsipinin hissəciyi kimi çıxış edir. Buna görə də, bütövlükdə istehsal tsiklini iki mərhələdə ifadə etmək olar: istehsal inqilabı→ yetkin münasibətlərin inkişafı.

Eyni zamanda, istehsal prinsipinin tsiklini klassik formada da ifadə etmək olar:
Yaranma→Yetkinlik→Tənəzzül!

L.Qrinin bu baxımdan 6 mərhələni fərqləndirməyi məqsədəuyğun hesab edir:

**Birinci mərhələ** - "Keçid" istehsal inqilabının başlanması və yeni istehsal prinsipinin ilkin formada bir, yaxud bir neçə ərazidə meydana çıxması;

**İkinci mərhələ** - "Yeniyetməlik"; yeni təsərrüfat növlərinin daha geniş yayılması, yeni istehsal prinsipinin güclü şəkildə qərarlaşması; Bu halda yeni formasiya, yaxud yeni dünya-sistemi yaranır.

**Üçüncü mərhələ** - "Çiçəklənmə"; İstehsal inqilabının ikinci mərhələsi ilə bağlılıqda olmaqla, istehsal prinsipinin yetkin formalarının üzə çıxması ilə xarakterizə olunur.

downloaded from KitabYurdu.org

***Cədvəl 4.16***

**İstehsal inqilabları**

| Aqrar inqilab (Neolit) | Sənaye inqilabı | Elmi-informasiya inqilabı |
|---|---|---|
| I mərhələ: 7-5 min il b.e.ə. | I mərhələ: XV-XVI əsrlər | I mərhələ: 1940-50-ci illər |
| Primitiv əkinçilk və maldarlığa keçid | Dənizçilik və ticarətin güclü inkişafı; Əmək bölgüsünün mürəkkəbləşməsi; Sair; | Elektronika, rabitə və informasiyanın inkişafı |
| II mərhələ: 5-3 min il b.e.ə. | II mərhələ: XVIII-XIX əsrin birinci yarısı | II mərhələ ? |
| Əkinçilkdə irriqasiya sisteminə keçid | Sənaye çevrilişi | |

**Dördüncü mərhələ** -“Yetkinlik”. İstehsal prinsipi özünün klassik formasını alır. Və, bu andan etibarən qeyri-istehsal sferasında çox mühüm dəyişikliklər başlayır.

**Beşinci mərhələ** - “Yüksək yetkinlik”. İstehsalın intensivliyi və onun potensialı maksimum həddə qədər yüksəlir. Bu həddən sonra böhran təzahürləri meydana çıxır və həmin istehsal prinsipinə xas olmayan sistemdən kənar hadisələr baş verir.

**Altıncı mərhələ** - “Hazırlıq”. İstehsalın intensivləşməsi güclənir, daha çox sistemdən kənar hadisə və proseslər yaranmağa başlayır ki, bunu da yeni istehsal prinsipinin “doğuşuna” hazırlıq keyfiyyətində qəbul etmək olar.

downloaded from KitabYurdu.org




***Şəkil 4.1.1 Tarixi prosesin zamanca yüksəlişi.***

downloaded from KitabYurdu.org




***Şəkil 4.12. Tarixi prosesin dinamik hiperbolik modeli***

## § 4.14. Tarixi dövrlənmə: nəzəri ümumiləşdirmə və problemlər

Tarixin dövrlənməsi ifrat dərəcədə mürəkkəb, prosessual, inkişaf etməkdə olan müvəqqəti (keçici) tipə malik hadisələrin araşdırılması ilə birbaşa bağlılıqdadır. Tarixi gerçəkliyin qeyd edilən mürəkkəblik keyfiyyətinə söykənməklə üzə çıxarılması, bu aspektdən əldə edilən biliklərə elmi status verilməsi son dərəcə müşkül məsələdir. Buna görə də, konseptual yanaşmaların əksəriyyətində tarixi gerçəkliyin bəsitləşdirilməsi, yüksək səviyyəli təxminilik və s. labüd olaraq yer almaqdadır. Ola bilsin ki, məhz buna görə də tədqiqatçıların[129] bir qrupu

[129] Shanks M.,C.Tilley., Sosial Theory and Archeology Cambridge. Polite Press.

downloaded from KitabYurdu.org

dövrlənmə prosedurlarının rolunu kiçiltməyə, bəzi hallarda isə proses → mərhələ əksliyinə istinad etməyə cəhd göstərirlər.

R.Korneyro[130] tamamilə haqlı olaraq göstərir ki, proses və mərhələni üz-üzə qoymaq yalançı dixotomiyadır. Belə ki, mərhələ - fasiləsiz davam edən prosesin epizodlarıdır və proses anlayışı mərhələ anlayışını dərk etmənin çıxış nöqtəsidir.

Qeyd etmək lazımdır ki, tarixin dövrlənməsi ilə bu və ya digər dərəcədə bağlı olan əksər yanaşmalar birtərəflidir və reallığın adekvat təsvirini verə bilməkdə acizlik nümayiş etdirir. Ümumiyyətlə, dövrlənmə - eyniyyət halında olan əsaslandırmadan çıxış etməli, yaxud dövrlərin ayrılması eyni kriterilərə söykənməlidir.

Problemin qaynaqlandığı mənbə məhz buradadır. Dövrlənmə üzrə yanaşmaların böyük əksəriyyətinin dəqiq kriteriləri yoxdur. Bir qayda olaraq, ya eklektik əsaslandırmaya, ya da bəsit sxemə: Qədim dövr→ Orta əsrlər →Yeni dövr istinad edilir.

Dövrlənmə probleminin ikinci mühüm məqamı əsaslandırma tipinin gerçəklik dərəcəsi və onun ümumkonseptual baxışla, eləcə də dövrlənmənin təyinatı ilə bağlılığı məsələsidir. Belə ki, dövrlənmə kriteriləri çox geniş diapazonda dəyişir: ideya və təfəkkürün xarakterindən[131] tutmuş ekoloji transformasiya[132] və mədəniyyətlərarası qarşılıqlı təsirə[133]qədər. XVIII əsrdən başlayaraq (Tyurqo, Barnav, Smit) müasir postindustrializmə qədər (Bell, Toffler) çox saylı tədqiqatçılar iqtisadi-istehsal kriterisini əsas kimi götürmüşlər.

Kriteri seçimində iki ifrat kənar mövqe müşahidə edilir. Bəzi hallarda seçilən kriteri mütləqləşdirilir və nəticədə də, P.Sorokinin[134] qeyd etdiyi kimi, onlar qismən haqlı, eyni zamanda birtərəfli qaydada haqsız olurlar. Eyni zamanda, bəzi tədqiqatlarda dövrlənmə və konsepsiya arasında əlaqələrə ümumiyyətlə, fikir verilmir.

Tarixi prosesin dövrlənməsi və ümumiyyətlə, xronologiyasının tədqiqi təkcə faktiki materialların eynicinsli olmamasından deyil, həm də bu və ya digər tarixi hadisələrin qarşılıqlı müqayisəsi prinsipinin

---

[130] Carneiro R.L. A false Dichotomy in Tracing the Rise of the state. Proccess vs. Strag-es. Vladivostok. FEBRAS, 2000

[131] Ясперс К. Смысл и назначение истории. М.,Республика, 1994.

[132] Goudsblom J.Human History and Long-Term Social Processes. Toward a Synthesis of Chronbology and Phaseology. New York., N4; Sharpe. 1996

[133] Bentley J.H. Cross- Cultural Interaction and Periodization in World History .American Historical Review (June) 1996.

[134] Сорокин П.А. Так называемых факторах социальной эволюции. М., Политиз-дат., 1992.

downloaded from KitabYurdu.org

"davranış tərzindən" qaynaqlanan çətinliklərlə üzləşir. Belə ki, konkret tarixi dövrün təhlili yalnız əldə olunan faktların araşdırılması ilə yekunlaşmır.

Təhlilin nəticəsinin sistemliliyi və gerçəkliyi həmin dövrün reallığının maksimum şəkildə əhatə edilməsindən, yəni mövcud faktlarla kifayətlənməməkdən – yeni faktların aşkarlanmasına çalışmaqdan birbaşa asılılıqdadır. Digər tərəfdən, seçilmiş faktların araşdırılan tarixi prosesə, yaxud dövrə birbaşa yaxud dolayısı ilə aidiyyətliliyi problemi mövcuddur. Adətən, faktların bir qismi prosesin struktur məzmununun əsasında dayanır, digər qismi isə - birbaşa aidlik baxımından sözügedən strukturun birmənalı şəkildə aşkarlanmayan xassələrində "gizlənirlər". Həmçinin, nəzərə alsaq ki, ümumdünya tarixi prosesin obyektləri əvvəlcədən qeyri-xətti mühitdə meydana çıxır, onda aparılan bölgünü (tarixi prosesin dövrlənməsi) ifrat müxtəlifliyinə təəccüblənmək lazım gəlmir. Dövrlənmə - müəyyən kriterilərə (prinsiplərə) uyğun olaraq prosesin ayrı-ayrı dövrlərə bölünməsidir. Yekunda alınan dövrlər – müəyyən zaman sürəci kimi başa çatmış proses timsalındadır. Eyni zamanda, tarixi mötədillik nöqteyi – nəzərindən heç bir prosesin konkret zaman sərhədlərini birmənalı müəyyənləşdirmək mümkün deyildir.

Belə ki, konkret dövrün başlanğıcı əvvəlki dövrdə, gələcəyi, yaxud sonu isə özündən sonra gələn dövrdə müşahidə edilir (bəzi hallarda, heç sonun özünü birmənalı qiymətləndirmək mümkün olmur). Yəni dövrün (konkret zaman intervalının) ayrılması, yaxud mənalandırılması obyektivliyin yüksək dərəcəsi kimi deyil, qiymətləndirmə xarakterli mühakimələr formasında ortalığa çıxır.

Bu anlamda ortodoksal dövrlənmə daha çox tarixi materialın yadda saxlanılması rahatlığını doğurur. Sistemli şəkildə tarixi prosesin dərki prizmasından isə yararsızdır. Bu aspektdən diqqət yetiriləsi məsələlərdən biri – determinizmin "təbiətinin" dəyişməsidir. Belə ki, tarixi hadisələr arasında əlaqənin, yaxud bağlılığının səbəb-nəticə çərçivəsində primitiv şəkildə interpretasiyası reallıqda mövcud olan zaman, məkan və funksional əlaqələrin (yaxud bağlılıqların) təzahür çoxluğunu ifrat dərəcədə azaldır, "yoxsullaşdırır".

Eyni zamanda, tarixi tədqiqatlarda müşahidə olunan digər bir məsələ - hadisələrin yaranma səbəblərinin hadisələrarası münasibətlərin formalaşması səbəbləriylə əvəzlənməsi funksional asılılığı (determinizmlə müqayisədə) ön plana çıxarır. Əslində, söhbət konkret paradoksal situasiyadan gedir. Paradoks bundan ibarətdir ki, tarixi prosesə aid olmayan və təfəkkürün gətirdiyi "nəisə" prosesin özündən

downloaded from KitabYurdu.org

kənarlaşdırmağa və kriterilərdən istifadə etmədən nəzəri müddəaların formalaşdırılmasına cəhd göstərilməsi gerçəkliyin dərk edilməsi dərəcəsini kəskin şəkildə aşağı salacaqdır ki, bu da hər bir obyekt, yaxud fenomenin ifrat fərdiliyi və unikallığı ilə şərtlənir.

Bir sıra tədqiqatlarda "bəşəriyyət" termini "sivilizasiya" (Danilevski, Toynbi və s.), yaxud "dünya-sistem" (Vallerstayn, Frank və s.) anlayışları ilə əvəz olunur. Tənqidi mövqedə dayanan tədqiqatçılar (L.Qrinin və s.) hesab edirlər ki:

1. Bu anlayışlar "bəşəriyyət" terminindən zaman (aqrar dövrəqədərki və ilkin aqrar dövr kənarda qalır) və məkan miqyaslarına görə fərqlənirlər. (Təbii ki, əgər həmin terminlər sinonim kimi qəbul edilmirsə);
2. Bəşəriyyəti və onun tarixi prosesini daha dar anlayışlarla əvəzetməyə cəhd göstərilməsi, mahiyyətcə daha yüksək ümumiləşmə səviyyəsində tədqiqatın qadağan olunması tələbi kimi səslənir. Bu sadəcə olaraq tədqiqatın səviyyəsinin daha dar səviyyə ilə əvəzlənməsidir. Əslində bu yönümdə dəyişikliklərə canatma olmuşdur. Məsələn, Milyukov ümumdünya tarixi nöqteyi-nəzərin köhnəldiyini bəyan etmiş və onun yerinə elmi tədqiqatın təbii vahidi kimi milli orqanizmi götürməyi məsləhət bilmişdir.

Ümumiyyətlə, tarixi prosesin dövrlənməsi probleminə yanaşmada müşahidə edilən çoxvariantlılıq, ələlxüsus marksist və qeyri-marksist yanaşmalar arasında prinsipial olaraq struktur fərqlilikləri yoxdur. Sadəcə, hər iki istiqamət "yarımçıqlıq" sindromunun daşıyıcılarıdırlar.

Konseptual qiymətləndirmənin yekun nəticələri:

1. Dövrlənmə zəruridir. Məlumatların sistemləşdirilməsi və təhlili baxımından effektiv metoddur;
2. Amma ... Dövrlənmə mürəkkəb hadisələrin prosessual, inkişaf etməkdə olan və müvəqqəti tipi ilə "işləyir", buna görə də təxminilik və tarixi reallığın sadələşdirilməsi qaçılmazdır.
3. Ona görə də, bəzi tədqiqatçılar dövrlənmənin əhəmiyyətini azaltmağa çalışır, proses→mərhələ əksliyi yaradırlar. Bu cütlük əslində yalançı dixotomiyadır. Belə ki, mərhələ - elə prosesin "dayanacaq" nöqtəsidir. Proses – mərhələlərdən ibarətdir.

Beləliklə:

1. Tarixi-iqtisadi prosesin dövrlənməsi ilə bağlı istənilən yanaşma birtərəfli xarakter daşıyır.

downloaded from KitabYurdu.org

2. Dövrlənmə eyni əsaslandırma tipinə, yaxud eyni kriterilərə əsaslanmalıdır (bərabır güclü). Amma əksəriyyətin dəqiq kriteriləri yoxdur, yaxud əsaslar elektik xarakterlidir və mərhələdən-mərhələyə dəyişir. Buna görə də əsas istiqamətlənmə sxemi kimi Qədim dövr →orta əsrlər→yeni dövr çıxış edir.

3. Digər bir məqam dövrlənmənin əsaslarının hansı dərəcədə arqumentləşdirilməsi, onun ümumi konsepsiya ilə əlaqəsi və təyinatı ilə bağlıdır. Adətən ən müxtəlif əsaslardan istifadə olunur: ideya və təfəkkürün xarakterinin dəyişməsindən tutmuş ekoloji transformasiyalara, mədəniyyətlərarası qarşılıqlı təsirə qədər. Əsaslanmanın seçilməsində iki ifrat kənarlılıq müşahidə edilir: Əksər hallarda seçilən amillərin əhəmiyyəti absolyuta yüksəldilir – nəticədə onlar hissəvi olaraq haqlı, eyni zamanda birtərəfli yanlış olurlar.

4. İqtisadi fəaliyyətin, iqtisadi prosesin sərhədləri məsələsi açıq qalır;

5. İnsanın, bütövlükdə bəşəriyyətin mövcudluğunun əsas məqsədi, yaxud məqsədləri açıqlanmır (Teoloji paradiqma istisnadır).

downloaded from KitabYurdu.org

# III BÖLMƏ

# DÜNYA İQTİSADİYYATININ GENEZİSİNƏQƏDƏRKİ DÖVR

## V fəsil. Ən qədim və qədim dünyanın tarixi iqtisadiyyatı

Ən qədim dünyanın bizim təsnifatda xronoloji sərhədləri insanın meydana gəldiyi dövrdən tutmuş b.e.ə. V minilliyə qədər – Qədim Mesopotamiyada ilk dövlətlərin yarandığı dövrəqədərki zaman intervalını əhatə edir. Məhz bu keçid dövründə "mənimsəmə" iqtisadiyyatı "istehsal" iqtisadiyyatına çevrildi.

Eyni zamanda, ən qədim dövrü biz iki mərhələyə ayırırıq:

1. Tarixəqədərki və cəmiyyətəqədərki dövr (1.6-0.04 mln. il b.e.ə).
2. "Mənimsəmə" iqtisadiyyatının qərarlaşmadığı dövr (400-12 min il b.e.ə.).

### § 5.1. Tarixəqədərki və cəmiyyətəqədərki dövr (1.6-0.04 mln il əvvəl)

Təxminlərə görə, məhz bu dövrdə insan heyvanlar aləmindən ayrılmışdır. Həmin ehtimalla da (bəzi mənbələr bunu ciddi fakt hesab etsələr də) belə bir qənaətə gəlinir ki, heyvanlarla homo sapriens arasında, hədsiz dərəcədə uzun tarixi proses ərzində sonuncunun formalaşması (antropososiogenez) baş vermişdir. İlkin başlanğıcda olan insan – insanaqədərki insan kimi qəbul edilir (analoji hal cəmiyyətə də xasdır).

Əvvəldə də qeyd etdiyimiz kimi, insanın meydana gəldiyi dövrlə bağlı yekdil fikir yoxdur. Bir yanaşmaya görə ilk insanlara, yaxud insanaqədərki "insana" 2.5 mln. il əvvəl avstralopiteklərin yerinə gəlmiş habilisləri, digər yanaşmaya görə 1.6 mln. il əvvəl habilisləri əvəz etmiş arxeantropları (pitekantrop, sinantrop, atlantrop və s.) aid edirlər.

Böyük əksəriyyətin mövqeyi belədir ki, ikinci yanaşma həqiqətə daha yaxındır. Belə ki, məhz arxantroplarla nitqin, təfəkkürün və sosial münasibətlərin formalaşması prosesi başlanmışdır. Habilislər, eləcə də avstralopiteklər, həmçinin qomonidlər isə insanaqədərki canlını deyil, həmin canlının formalaşmasına qədərki məxluqatı əks etdirirlər.

İnsanın və insan cəmiyyətinin təşəkkülünün əsasında istehsal fəaliyyətinin, maddi istehsalın yaranması və inkişafı prosesi dayanır.

downloaded from KitabYurdu.org

İstehsal fəaliyyətinin yaranması və inkişafı istehsalçı məxluqun orqanizmində adekvat dəyişikliklərlə yanaşı əvvəlki dövrlərdən keyfiyyətcə fərqlənən yeni münasibətlərin –sosial münasibətlərin yaranmasına və yekun etibarilə insan cəmiyyətinin formalaşmasına gətirib çıxarmışdır. Sosial münasibətlər – yalnız insana xas münasibətlərdir.

***Cədvəl 5.1***

***Tarixəqədərki tarix: geoxronologiya***

| ***Geoloji eralar*** | ***Həyat*** | ***Təxmini tarixi mln.il*** |
|---|---|---|
| 1.“Həyatın başlanğıcı” | Canlı orqanizmlər yoxdur | 4030-4000 |
| 2. “İlkin həyat” (Proterozoy) | | |
| 3. “Qədim həyat” (Palezoy) | Sadə orqanizmlər, molyusklar və s; | 4000-1500 |
| 4. “Orta həyat” (Mezozoy) | Balıqlar, həşəratlar, sürünənlər, bitkilər və s; | 345 |
| 5. “Yeni həyat” (Kaynazoy) – üçüncü dövr | Nəhəng sürünənlər, bitkilər; | 163 |
| - dördüncü dövr | Heyvanların, balıqların, quşların, bitkilərin müxtəlif növləri. Dövrün sonunda insanabənzərlərin – antropoidlərin (driopiteklər, avstralopiteklər) meydana gəlməsi; Əmək fəaliyyətinin ilkin rüşeymləri | 72 |
| | Bitkilərin müasir forması, sürünənlərin hökmranlığı; Təfəkkürün, nitqin yaranması; Antropososiogenez (arxeantroplar, paleantroplar). | 7.5 |

downloaded from KitabYurdu.org

| | | |
|---|---|---|
| İnsan erası | Üzvi həyatın müasir formaları. Neantroplar; Müasir insan | 04-02 |

**Qeyd:** Mənbə - M .З. Бор. «История мировой экономики» M.; 1998.- C.22

Keyfiyyətcə yeni münasibətlərin intişarı, o cümlədən insanın davranış tərzinin stimulları baxımından yeniləşmə davranış tərzinin əvvəlki əsas hərəkətverici qüvvəsi olan bioloji instinkti sosial çərçivəyə salmaqla məhdudiyyətlər sisteminin yaranması ilə nəticələnmişdir. Bioloji instinktin sosial çərçivəyə salınması prosesi öz başlanğıcını arxoantroplardan götürməklə 75-70 min il əvvəl son paleantropların dövründə ilkin formada yekunlaşmış – sosial-iqtisadi münasibətlərin ibtidai dövr üçün ilkin forması ortalığa çıxmışdır.

## § 5.2. Ən qədim dövr – "mənimsəmə" iqtisadiyyatı

İbtidai icma dövrü bəşər tarixinin ən uzun dövrüdür. Bu dövr insanın yaranmasından başlayıb sinifli cəmiyyətin – dövlətin meydana gəlməsinə qədər davam etmişdir.

İbtidai icma dövrünün – "mənimsəmə" iqtisadiyyatının əsas xarakterik cəhətlərinə aşağıdakılar aiddir:

1. Məhsuldar qüvvələrin ifrat aşağı səviyyəliliyi və ifrat ləngliklə təkmilləşməsi.
2. Təbii resursların və istehsalın nəticələrinin kollektiv surətdə mənimsənilməsi.
3. Bərabər bölgü, sosial bərabərlik.
4. Cəmiyyətin ifrat aşağı səviyyəli inkişafı.
5. Xüsusi mülkiyyət və dövlətin yoxluğu.

İbtidai dövrün inkişaf mərhələlərinin müəyyənləşdirilməsi kifayət dərəcədə mürəkkəb məsələdir (Faktiki məlumatların kasadlığı ucbatından). Bu baxımdan bir neçə variant mövcuddur. Amma, demək olar ki, əksər hallarda arxeoloji sxemdən istifadə olunur. Məsələn, həmin sxemə uyğun olaraq əmək alətlərinin hazırlandığı materiala görə ibtidai dövr 3 əsas xronoloji mərhələyə bölünür:

1. Paleolit (qədim daş dövrü) – 3 mln – 12 min il əvvəl.
2. Mezolit (orta daş dövrü) – 12-8 min il əvvəl.
3. Neolit (yeni daş dövrü) – 8-3 min il əvvəl.

downloaded from KitabYurdu.org

Göründüyü kimi, ibtidai icma dövrü xronoloji baxımdan daş dövrü ilə üst-üstə düşür. Ayrı-ayrı ərazilərdə (xalqlarda) dövrlərin müxtəlif sürətliliyinə baxmayaraq, onların hamısı üçün ümumi olan cəhətlər mövcuddur: əvvəla, təsərrüfatın əsas forması – “mənimsəmə” xarakterli olmuşdur.

Yəni insanlar heç bir maddi nemət istehsal etmədən yalnız təbiətdə hazır şəkildə mövcud olanlardan yararlanmışlar. İkincisi, istehsal münasibətlərinin əsasında kollektivçilik, əmək aləti üzərində icma mülkiyyəti dayanırdı.

İbtidai dövrün ən uzun mərhələsi – qədim daş dövrü (Paleolit) olmuşdur. Yenicə formalaşmış insanın fəaliyyətinin ilk təsərrüfat forması ovçuluq, yığım və balıqçılıq olmuşdur. Arxeoloji tapıntılara istinadla tədqiqatçılar qeyd edirlər ki, ovçuluq ilkin dövrdə - spesifik xarakter daşımışdır. Ovçuluğun kollektiv üsulları tətbiq olunurdu. Bitki kökləri və digər qida kimi qəbul edilə bilən bitkilərin yığımı onsuz da kasad olan qida rasionunu nisbətən tamamlayırdı. İnsanı heyvandan fərqləndirən əsas cəhət (o dövrdə) əmək alətləri düzəltmək qabiliyyəti idi. Arxeoloqlar hesab edirlər ki, ilk daş alətlər 2.5 mln. il bundan əvvəl yaradılmışdır. Lakin bu alətlərin sayı o qədər də çox deyildir.

Lakin, zaman keçdikcə alətlərin sayı artırdı. Bəzi arxeoloji mənbələrdə qeyd olunur ki, artıq ilk paleolit (3 mln. – 200 min il b.e.ə.) dövründə 30-40 funksiyası olan alətlər dəsti yaradılmışdır. Orta paleolitdə (200-400 min il b.e.ə) iti, üçkünc, kəskin uclu alətlər, nizələr meydana cıxmağa başladı.

Bəzi mənbələrə görə təxminən 1 mln. il əvvəl insanaqədərki “insanın” (yarımeymun) yeni növü – arxeantroplar meydana gəlmişdir. Bu insanlar əsasən Şimali Çində, Avropada, Afrikanın səhralarında məskunlaşmışlar.

Məhz həmin dövrdə buzlaşma prosesi başlamış və Avrasiyanın (təxminən 100 min il əvvəl) böyük hissəsi qalınlığı 2 m-ə çatan buz qatı altında qalmışdır. İqlim dəyişkənliyi odun yaranmasına gətirib çıxardı. Təxminən 250 min il əvvəl arxeontroplar neondertallarla (homo sapiens) əvəz olundular. 35-10 min il əvvəl buzlaq əriməyə başladı və demək olar ki, müasir iqlimə oxşar iqlim formalaşdı.

***Cədvəl 5.2***

***Zooloji sürünün ibtidai icmaya keçidi***

downloaded from KitabYurdu.org

<table>
<tr><th rowspan="2">Arxeoloji zaman</th><th colspan="2">İnsanın təkamülü (antropososiogenez)</th><th rowspan="2">Əmək alətləri</th><th rowspan="2">Təsərrüfatın forması</th></tr>
<tr><th>Növlər</th><th>Təxmini tarix</th></tr>
<tr><td rowspan="4">Paleolit</td><td>Antropoidlər (insanabən-zərlər)</td><td>4 mln. il əvvəl</td><td>Məlum deyil</td><td>Məlum deyil</td></tr>
<tr><td>Arxeantroplar (Pitekantropla r, sinantroplar)</td><td>1 mln.il əvvəl</td><td>Ağac və daşdan düzəldilmiş alətlər</td><td>Ovçuluq, yığım. Ailə hələ yoxdur. Nitqin rüşeymləri yaranmağa başlayır.</td></tr>
<tr><td>Paleantroplar (Neonder tallar)</td><td>300-400 min il əvvəl</td><td>Daş və sümükdən hazırlanmış alətlər; Tədrici təkmilləşdirmə</td><td>Ovçuluq, yığım; nitq inkişaf edir. Ailə hələ yoxdur.</td></tr>
<tr><td>Neantroplar (Homo sapiens)</td><td>40-50 min il əvvəl</td><td>Daş və ağacdan hazırlanan (alətlərin təkmil variantı) nizə və s.</td><td>Ovçuluq yiğim, oddan istifadə, kobud, gil qablar, eksoqamiya. İkili nikah sistemi. Ailənin rüşeymləri.</td></tr>
<tr><td>Mezolit</td><td>Homo sapiens irqlərin yaranması</td><td>40-14 min il əvvəl</td><td>Ox və kamanın icadı; Alətlər təkmilləşir.</td><td>İtlərin, donuzların, əhliləşdirilməsi,b alıqçılıq Cüt nikahlara keçid</td></tr>
<tr><td>Neolit — İlkin</td><td>“_______“</td><td>14 min il əvvəl</td><td>“_________”</td><td>İstehsala keçid: əkinçilik və maldarlıq. Qoyun, keçi, inək və atların əhliləşdirilməsi.</td></tr>
</table>

downloaded from KitabYurdu.org

| | | | | | |
|---|---|---|---|---|---|
| | son | "_______" | 10 min il əvvəl | "_________" | Matriarxat → Patriarxata keçir. Birinci böyük əmək bölgüsü – maldarlığın əkinçilikdən ayrılması. |
| Metal epoxası | Mis-daş əsri | Müasir insan | 6 min il əvvəl | "_________" | Sənətkarlığın inkişafı; şəhərlərin yaranması. Monoqamiya |
| | Tunc əsri | "_________" | Avropada 3 min il əvəl Asiyada 4-3 min il əvvəl | "_________" | Nəqliyyat vasitələrinin təkmilləşməsi, Sənətkarlığın əkinçilikdən ayrılması, ikinci böyük əmək bölgüsü. Bazarın rüşeymlərinin yaranması. |
| | Dəmir əsri | "_________" | 3 min il əvvəl | "_________" | "_________" |

Qeyd edilən dövrdə həm də antropogenez – insanaqədərki "insanın" homo sapiensə (müasir insana) çevrilməsi prosesi başa çatdı. Mezolit erasında artıq irqlərin – avropoid, monqolid, neqroid formalaşması prosesi yekunlaşdı.

Əmək alətlərinin təkmilləşməsi prosesi fasiləsiz olaraq davam etməkdə idi. Sümükdən istifadə etməklə yaradılan əmək alətlərinin sayca çoxalmasına istinad edən arxeoloqlar son paleolit dövrünü "sümük əsri" adlandırmışlar. Bugünkü günə qədər paleolit erasının 150 növ daş və 20 növ sümük alətlərinin olduğu təsbit edilmişdir. Son paleolitdə ibtidai icma nəsil icmasına çevrilir. Qan qohumluğu əsasında formalaşmış icmada kollektiv mülkiyyət hakim idi və təsərrüfat fəaliyyəti yaş və cins üzrə əmək bölgüsünə və sadə kooperasiyaya əsaslanırdı.

Qadınlar üstün rola malik idilər. Nəsil icmasının birinci pilləsi matriarxat adlanır və o, metal erasına qədər davam etmişdir.

Paleolit dövrünün sonunda "zooloji fəlakət" baş verdi. İri sürülərin sayı kəskin şəkildə azaldı, bəzi növlər isə ümumiyyətlə, yox oldular. Bu

downloaded from KitabYurdu.org

hal əhalinin sayının əhəmiyyətli dərəcədə azalmasına və çox güman ki, təsərrüfat həyatında müəyyən dəyişikliklərə səbəb olmuşdur.

Mezolit erasında ( 12-8 min il əvvəl) buzlaq geriyə-şimala doğru çəkilməyə başladı və demək olar ki, müasir epoxa start götürdü. Daş alətlərin emalında yeni nailiyyətlər əldə edildi. Daş baltalar yarandı. O dövrün əsas nailiyyəti isə ox və kamanın icadı olmuşdu. Eyni zamanda qarpun və torların köməyi ilə balıq ovu yeni vüsət almışdı. Heyvanların əhliləşdirilməsi prosesi başlandı.

Mezolit epoxasında Avrasiyanın tam şəkildə məskunlaşması başa çatdı.

Neolit epoxası (8-3 min il əvvəl) "mənimsəmə" iqtisadiyyatının yüksək səviyyəyə çatması və "istehsal" iqtisadiyyatına keçidlə xarakterizə olunur. Bu epoxada birinci böyük ictimai əmək bölgüsü – heyvandarlığın əkinçilikdən ayrılması baş verdi.

"Mənimsəmə" iqtisadiyyatının sahə strukturunu ayrı-ayrı sahələr, yaxud ayrı-ayrı təsərrüfatlar şəklində fərqləndirmək müşkül məsələdir. Bu təsərrüfatlar qapalı natural təsərrüfat çərçivəsində mövcud olmaqla avtarkiya səciyyəsi daşıyırdı. Məhz ictimai əmək bölgüsü iqtisadiyyatın sahə strukturunun formalaşmasında xüsusi rol oynamışdır. Ərazicə formalaşmanın əsasında isə təbii-iqlim şəraiti və ayrı-ayrı ərazilərin mənimsənilmə sürəti dayanırdı: qədim əkinçilik sivilizasiyaları daha əlverişli iqlim şəraiti olan ərazilərdə meydana gəlmişdir. Eyni zamanda, ərazi ixtisaslaşması birbaşa xammal mənbələri və ticarətin inkişafına güclü təsir götərmişdir.

Məhz bu dövrdə texnikada, istehsalın formaları və həyat tərzində, yeni ərazilərin mənimsənilməsi və onlardan daha effektiv istifadə mahiyyətcə radikal xarakter daşıyırdı. Buna görə də, təsadüfi deyildir ki, sözügedən dəyişikliklər kompleksi "neolit inqilabı" adlanır.

Neolit inqilabı – "mənimsəmə" iqtisadiyyatından "istehsal" iqtisadiyyatına keçidi təmin etməklə, izafi məhsulun artımı əhalinin həyat səviyyəsinin yüksəldilməsi, əhalinin sayca artımı və dövlətin yaranmasının müqəddəm şərtlərinin formalaşdırılmasında əhəmiyyətli rol oynamışdır. Eyni zamanda, qeyd etmək lazımdır ki, neolit epoxası müxtəlif ərazilərdə, müxtəlif xronoloji çərçivədə davam etmişdir. Belə ki, neolit epoxası Asiyada 8-5 min il əvvəl, Avropada 8-6 min il, Avropanın şimalında III minilliyə (b.e.ə.) qədər sürmüşdür. Neolit dövrü, həmçinin köçəri həyat tərzindən oturaq həyat tərzinə keçidlə xarakterizə olunur. İqtisadi fəaliyyət və əmək alətləri mürəkkəbləşir: oraq, kotan və s. meydana çıxır. Daimi olaraq məhsul əldəetmə imkanının yaranması insan

downloaded from KitabYurdu.org

fəaliyyətinin təşkili formalarını da müəyyən dəyişikliyə məruz qoyur. Paralel olaraq sosial birliyin mahiyyət dəyişkənliyi baş verir: nəsil icması qonşular icmasına çevrilir.

"Mənimsəmə" iqtisadiyyatın ərazi strukturunun əsas xüsusiyyəti – polisentrizmdir (çoxmərkəzçilik).

Məsələn, bugünkü günə qədər arxeoloqlar tərəfindən əkinçiliyin yarandığı bir neçə ərazi müəyyənləşdirilmişdir:

- Şimal-Qərbi Tailand (10-6 min il b.e. əvvəl)
- Ön Asiya və Şərqi Aralıq dənizi regionu (8-6 min il b.e.ə).
- Hind-Çin yarımadası (7-6 min il b.e.ə.)
- İran və Orta Asiya (6-5 min il b.e.ə.)
- Nil vadisi (5-4 min il b.e.ə.)
- Hindistan (5-3 min il b.e.ə.)
- İndoneziya, Çin, Mərkəzi Amerika, Peru (4-1 min il b.e.ə.).

İbtidai dövrün, ibtidai icmanın dağılmağa başladığı zamanı adətən metal erası ilə bağlayırlar.

Eneolit – mis-daş əsri (6 min il b.e.ə.) yalnız Avropanın ayrı-ayrı rayonlarında müşahidə edilir. Bu dövr iriölçülü mis əmək alətlərinin yaranması ilə səciyyələnir. Tunc əsri (Avropada – 3 min il; Asiyada – IV-III min il b.e.ə.) tunc əmək alətlərinin yayılması ictimai əmək bölgüsünün ikinci mərhələsi ilə xarakterizə olunur. İkinci böyük ictimai əmək bölgüsü - əməyin fərdiləşməsinə, xüsusi mülkiyyətin yaranması və inkişafına təkan verdi. Bununla belə, sənətkarlığın müstəqil sahəyə çevrilməsi prosesi heç də qısa zaman kəsiyində baş verməmişdir.

Prosesin uzanması bir neçə amillə izah edilə bilər:

1. Sənətkarlıq – texnoloji mürəkkəbliyə malikdir və xüsusi vərdiş-bacarıq tələb edir. Buna görə də, ilkin olaraq əmək bölgüsü icma daxili deyil, icmalararası müstəvidə baş vermişdir ki, bu da icmalararası sərhəd ticarətinin yaranmasına səbəb olmuşdur.
2. Sənətkarlıq – mövsumi xarakterli istehsal sferasıdır. Bu sahə üzrə tam məşğulluq yalnız o yerlərdə ola bilərdi ki, orada sabitqədəmli artım yönümlü izafi məhsul istehsal edilsin.

Sənətkarlığın inkişafı ticarəti əhəmiyyətli dərəcədə fəallaşdırmışdır. Bu da üçüncü böyük ictimai əmək bölgüsünə - ticarətin ayrılmasına və şəhərlərin yaranmasına səbəb olmuşdur. Tunc əsrində sənətkarlıq məmulatları ilə yanaşı duz, dəri məmulatları da ticarətin obyekti kimi çıxış edirdi. Mübadilə vasitəsilə insanlar nadir şeylərin (mis, tunc,qızıl və

downloaded from KitabYurdu.org

s.) əldə edilməsinə can atırdılar ki, bunlar da bir çox hallarda "ibtidai pul" rolunda çıxış edirdilər. Bu dövrün mühüm cəhətlərindən biri də kiçik dövlət formalarının (Misirdə "nomlar", Yunanıstanda şəhər-dövlətlər) üstünlük təşkil etməsi olmuşdur.

Dəmir əsrinin (3 min il b.e.ə.) başlanğıcı iqtisadiyyatın struktur təkmilləşdirilməsi, siyasi-iqtisadi prizmadan isə dünya imperiyalarının yaranması ilə əlamətdar olmuşdur. Aydındır ki, sözügedən prosesin reallaşmasında "mənimsəmə" iqtisadiyyatının böhranı az əhəmiyyətli rol oynamamışdır. Bununla belə, bir neçə mühüm əhəmiyyət kəsb edən amillər də vardır:

1. Zəif iqtisadi əlaqələrin fonunda istehsal vasitələri istehsal edən regionlarla kənd təsərrüfatı və sənətkarlığın geniş yayıldığı regionların siyasi birliyi zərurəti;
2. Xarici təhlükənin önlənməsi – sərhədlərin effektiv mühafizəsi üçün yeni ərazilərin mənimsənilməsi;
3. Sosial təbəqələşmənin "qanunilәşdirilməsi".

Sosial təbəqələşmə, yaxud sinfi cəmiyyətin formalaşması prosesi sinxron olmamışdır. Belə ki, bəzi xalqlar öz dövlətlərini IV-III min il b.e.ə., digərləri – Roma imperiyasının dağıldığı dövrdə, bir çoxları isə bizim eranın XVIII-XIX əsrlərində yaratmışlar. İlkin olaraq b.e.ə. IV minilliyin sonunda əvvəlcə Mesopotamiyada, sonra isə Misirdə ilk dövlət yarandı.

### § 5.3. İbtidai cəmiyyət epoxası (40-6 min il əvvəl)

İbtidai cəmiyyət dövrü öz inkişafında iki əsas mərhələdən keçmişdir: ilkin ibtidai cəmiyyət və son ibtidai cəmiyyət. Sosial təbəqələşmə, yaxud siniflərin meydana gəlməsinə qədərki dövr son ibtidai cəmiyyətin dağılmağa başladığı andan etibarən start götürmüş və uzun tarixi prosesi əhatə etmişdir. Keçid dövrü ərzində kəndli-icma tipli təşəkkül prosesindən danışmaq mümkündür. Sosial təbəqələşməyəqədərki dövr tipoloji müstəvidə sosial-iqtisadi vahidlik kimi çıxış etmir və buna görə də, onu ümumdünya tarixi prosesin əsas mərhələləri ilə bir sıraya qoymaq olmaz.

Antroposiogenez – insanın fiziki tipi və sosial simasının tarixi – təkamül prosesində formalaşmasıdır. Vəhşilik və barbarlıq epoxalarını əhatə edir.

***Cədvəl 5.3***

downloaded from KitabYurdu.org

### *İbtidai dövrün xronologiyası (Antropososiogenez)*

| ***Geoloji sxem*** | | | ***Arxeoloji zaman*** | ***Tarixi mərhələlər*** | | ***Keçid mərhələləri*** |
|---|---|---|---|---|---|---|
| **era** | **dövr** | **epoxa** | | | | |
| **K<br>A<br>Y<br>N<br>A<br>Z<br>O<br>Y** | **D<br>Ö<br>R<br>D<br>Ü<br>N<br>C<br>Ü** | **P<br>I<br>S<br>T<br>O<br>S<br>E<br>_<br>_<br>Q<br>O<br>L<br>O<br>S<br>E<br>N** | P ilkin<br>A - - - - - - - -<br>L<br>E orta<br>O - - - - - - - - -<br>L son<br>İ<br>T - - - - - - - - - -<br>M e z o l i t<br>- - - - - - - - - - -<br>**N** ilkin<br>**E**<br>**O** - - - - - - - - -<br>**L** son<br>**İ**<br>**T**<br>- - - - - - - - - - - -<br>**M** eneolit<br>**E** (mis-daş əsri)<br>**T**<br>**A** - - - - - - - - -<br>**L**<br>**E** Tunc əsri<br>**P**<br>**O** - - - - - - - - - -<br>**X**<br>**A** Dəmir əsri<br>**S**<br>**I** | **V<br>Ə<br>H<br>Ş<br>İ<br>L<br>İ<br>K**<br><br>**B<br>A<br>R<br>B<br>A<br>R<br>L<br>I<br>Q** | Aşağı səviyyə<br>_ _ _ _ _ _ _<br>Orta səviyyə<br>_ _ _ _ _ _ _<br>Yüksək səviyyə<br>- - - - - - - - -<br>Aşağı və orta səviyyə<br>- - - - - - - - -<br>Ali səviyyə | Tarixəqədərki tarix: zooloji sürü<br>_ _ _ _ _ _ _ _ _ _ _<br>İbtidai icmanın ilkin mərhələsi<br>- - - - - - - - - - - - - -<br>İbtidai icmanın yetkin mərhələsi |

***Cədvəl 5.4***

### *İbtidai icmanın inkişaf mərhələləri*

| ***Mərhələlər*** | ***Arxeoloji zaman*** | ***Əmək alətləri və təsərrüfatın forması*** | ***Mübadilə*** | ***Ailə*** |
|---|---|---|---|---|
| İlkin mərhələ | İlkin neolit | Daş, sümük, | Təbii əmək | Qrup nikahı; |

downloaded from KitabYurdu.org

| | | | | |
|---|---|---|---|---|
| (Matriarxat) | | buynuz və ağacdan düzəldilmiş alətlər. Yığım, ovçuluq, balıq ovu. "Mənimsəmə" iqtisadiyyatı | bölgüsü. Mübadilənin sadə forması | Matriarxat; Qan qohumlarından ibarət icma |
| Son mərhələ (Patriarxat) | Son neolit, metal əsri | Yüksək səviyyədə çilalanmış daş alətlər. Sonralar metal alətlər. İstehsala keçid. "İstehsal" iqtisadiyyatı. Əkinçilik, maldarlıq və sənətkarlığın inkişafı. | Birinci və ikinci böyük əmək bölgüsü. Mübadilə formalarının inkişafı. Bazar rüşeymlərinin yaranması, xüsusi mülkiyyətin yaranması. | Cüt, sonralar monoqam nikahlar. Patriarxat. Qan qohumluğu qonşuluqla, kənd icması ilə əvəzlənir. Dövlətin meydana gəlməsi. |

Ümumiyyətlə, ibtidai icmanın forma müxtəlifliyi sadədən mürəkkəbə doğru dəyişərək hərbi demokratiyaya keçidin ilkin şərtlərinin formalaşmasına gətirib çıxarmışdır (şəkil 5.1).

Maraqlıdır ki, icma münasibətləri Asiya, Afrika və Latın Amerikasının bir çox ölkələrində hələ də qalmaqdadır. Dəyişən icma münasibətləri həmin dəyişikliyə paralel olaraq idarəetmə (qədim cəmiyyətin) sferasında da adekvat yeniləşmənin meydana çıxmasını şərtləndirmişdir (şəkil 5.2).

downloaded from KitabYurdu.org




***Şəkil 5.1. İbtidai icmanın tipologiyası***

downloaded from KitabYurdu.org




***Şəkil 5.2. İcma (yerli) idarəetmənin hərbi demokratiyaya keçidi***

Sosial təbəqələşmənin dərinləşməsi yekun etibarilə dövlətin yaranmasına gətirib çıxardı. İlk dövlətlər IV-III minillikdə (b.e.ə.) meydana gəlmişdir. Hərbi demokratiya – dövlətin çıxış, yaranış prototipidir. Matriarxat və Patriarxat dövrlərində, eləcə də ibtidai icmanın dağılmağa başladığı zamanda hələ dövlət yox idi. İctimai birgəyaşayış qaydaları, adət-ənənələr, nəsil ağsaqqallarının nüfuzu, Patriarxın avtoriteti hesabına formalaşır və tənzimlənirdi. "İstehsal" iqtisadiyyatına keçid birgə, kollektiv əməyin ailə və individual əməklə əvəzlənməsi, xüsusi mülkiyyətin yaranmasına və nəticə etibarilə əmlak bərabərsizliyinə gətirib çıxardı. Kənd ərazi icmasında sosial təbəqələşmə sürətlə getməyə başlayır, nə vaxtsa tam bərabərçiliyin hökm sürdüyü

downloaded from KitabYurdu.org

sosium varlılara və kasıblara, zadəganlara və rəiyyətə parçalanır. Torpaq, heyvanlar və s. naminə aramsız davam edən qəbilələrarası konfliktlər hərbçilərin və hərbi rəhbərlərin meydana gəlməsi ilə sonuclandı. Hərbi demokratiya formalaşır. Sonrakı proseslərdə dövlətin əsas əlamətləri üzə çıxmağa başlayır.

### § 5.4. Qədim dövr: İlk sivilizasiyaların yaranması. Asiya və antik təsərrüfatçılıq modelləri

İlk sivilizasiyaların formalaşdığı dövrü marksist yanaşma quldarlıq ictimai-iqtisadi formasiyası kimi nəzərdən keçirir. Xronoloji olaraq, quldarlığın zaman sərhədləri Avropada b.e.ə. III minillikdən b.e. IV əsrinin sonuna, Şərqdə isə b.e.ə. IV minillikdən b.e. VI əsrinin sonuna (Afrika,Asiya) qədər davam etmişdir.

Eyni zamanda, marksistlər dövrün, hətta ibtidai icmanın özündə belə növbəti formasiyanın – feodalizmin əlamətlərini görürdülər. Həmin elementlərə aşağıdakıları aid edirlər:

1. Qan qohumluğu əsasında formalaşan icmanın qonşular icması ilə əvəzlənməsi – xüsusi əmək, xüsusi mənimsəmə. Patriarxal quldarlığın yaranması.
2. Əmlak təbəqələşməsi. Nəsil elitasının yaranması. Hərbi demokratiya.
3. Şəxsi asılılıq. İctimai-iqtisadi formasiyaların ümumdünya xarakteri kəsb etmədiyini aşağıdaki cədvəldən görmək mümkündür.

***Cədvəl 5.5***

***Formasiya dəyişikliyinin qeyri-ardıcıllığı***

| İbtidai icmadan quldarlığa və feodalizmə ardıcıl keçid | İbtidai icmadan birbaşa feodalizmə keçid |
|---|---|
| Qədim Misir<br>Ön və Kiçik Asiya ölkələri<br>Qədim Hindistan<br>Qədim Çin<br>Qədim Yunanıstan<br>Qədim İtaliya | Şərqi slavyanlar<br>Alman tayfaları<br>Asiyanın maldar tayfaları<br>Ərəblər |

downloaded from KitabYurdu.org

Qeyd etdiyimiz cəhət – ictimai-iqtisadi formasiyaların tarixi gerçəkliklə problematik münasibəti xronoloji aspektdə də özünü doğruldur.

***Cədvəl 5.6***

***Avropada quldarlıq formasiyasının qərarlaşması və inkişafı***

| *Mərhələlər* | *Qədim Yunanıstan* | *Qədim Roma* |
|---|---|---|
| 1. Qərarlaşma | "Homer dövrü" (b.e.ə. 11-9 əsrlər) | "Çar dövrü" (b.e.ə 9-6 əsrlər) |
| 2. İnkişaf | Yunan şəhər-dövlətlərinin inkişafı (Polislər) (b.e.ə.) 8-4 əsrlər). | Roma – respublika. (b.e.ə.5-1) |
| 3. Dağılma və süqut | b.e.ə. 4 əsr – Yunanıstanın Makedoniyalı İsgəndər tərəfindən işğalı | b.e. 1-5 əsrləri: Roma imperiyası. b.e. 5-ci əsri – Qərbi Roma imperiyasının süqutu |

Eyni zamanda, Qədim Yunanıstan və Qədim Roma sivilizasiyaları arasında da fərqliliklər mövcud olmuşdur.

***Cədvəl 5.7***

***Qədim Yunan və Qədim Roma sivilizasiyalarının müqayisəsi***

| *Kriteriyalar* | *Qədim Yunanıstan* | *Qədim Roma* |
|---|---|---|
| 1.Qul əməyindən istifadə | Əsasən emalatxana və dağ-mədən işlərində; Qulun icarəyə verilməsi. | İki qrupa ayrılır: Şəhər familiyası – qulların əsas hissəsi; Əsasən nökər kimi, qismən sənətkarlıq, tikinti işlərində istifadə olunurdu. |
| 2.Sənətkarlığın inkişafı | Əhəmiyyətli inkişaf; Xarici bazara istiqamətlənmə (tam şəkildə). Yalnız qul əməyi istifadə olunur. | Zəif inkişaf; Daxili bazara istiqamətlənmə; Sənətkarlar arasında qulların xüsusi çəkisi – 6% (Romada), 2%-ə qədər əyalətlərdə. |
| 3.Ticarətin inkişafı | Əhəmiyyətli inkişaf, ələlxüsus – xarici ticarət; | Zəif inkişaf |
| 4.Sələmçi kreditin inkişafı | Nisbi zəif (ticarətlə müqayisədə) inkişaf. | Əhəmiyyətli inkişaf: Lombardlar, banklar və s. |

downloaded from KitabYurdu.org

Marksist yozum quldarlıq formasiyasının əsas əlamətləri sırasına aşağıdakıları aid edir:

1. iqtisadiyyatın natural xarakteri;
2. qul əməyi, istehsalın primitiv texnikası;
3. quldar mülkiyyətin qula istehsal vasitələrinə və qul əməyinin məhsuluna aid edilməsi;
4. bazarın istehlakçı xarakteri;
5. sadə əmtəə istehsalının inkişafı. Üçuncü böyük ictimai əmək bölgüsü;
6. yunanıstanda polislər, Romada bələdiyyələr.

Paralel sürətdə dövlətlərin yaranması və güclənməsi prosesləri gedirdi.

downloaded from KitabYurdu.org




***Şəkil 5.3. Hərbi demokratiyanın dövlətə çevrilməsi***

## § 5.5. "Qədim dövr" anlayışı və sivilizasiya

Ümumiyyətlə, qədim dünya anlayışı altında bir qayda olaraq (əksər tarixi mənbələrdə) Qədim Şərq, Qədim Yunanıstan və Qədim Roma ("klassik qədimlik") nəzərdə tutulur.

Tədqiqatçılar qeyd edilən "birləşməni" təsadüfi, yaxud mexaniki aidetmə kimi qəbul etmirlər.[135] Qeyd edilənlərin vahid anlayışla

[135] А.А.Вигасин, М.А. Дандамаев; М.В. Крюков и др. История древнего востока.М.: Высшая школа, 2003.

downloaded from KitabYurdu.org

"birləşdirilməsi" qədim şərq, yunan və roma xalqlarının sosial-iqtisadi quruluşunda, siyasi institutlarında, dini-mədəni xüsusiyyətlərində mövcud olan ümumi cəhətlərdən qaynaqlanır.

Belə ki, Qədim Şərq, Yunan və Roma cəmiyyətləri hər şeydən əvvəl, uzun tarixi proses ərzində primitiv ibtidai icmadan formalaşmışlar. İnsanın təbiət qarşısında gücsüzlüyü, nəsil münasibətləri, yaşamaq – elementar olaraq sağ qalmaq uğrunda mübarizə, məntiqi və abstrakt təfəkkürün inkişaf etməməsi və s. və.i.a. cəhətlərə münasibətdə identiklik mövcud olmuşdur.

Eyni zamanda, ətraf mühitə adaptasiya olunma və öz sivil dəyərlərini yaratma yolunda həmin cəmiyyətlərin özünəməxsusluğu da qabarıq şəkildə təzahür edir.

Qədim Şərq, Yunan və Romanın xüsusi komplekslər kimi tarixi fərqlilikləri, məhz sivilizasiya mərhələsinə keçidlə formalaşmış və məzmun identikliyi aradan qalxmışdır.

Ümumdünya tarixinin yeni mərhələsi kimi sivilizasiyanın 6 əlamətini göstərmək olar:

1.istehsalçı təsərrüfatın yaranması, iqtisadiyyatın rasional təşkili, cəmiyyətin sərəncamına keçən izafi məhsulun artımı – birgə mənimsəmə, mənfəətə yönəlməyən ibtidai təsərrüfat sistemi;

2.xüsusi mülkiyyət institutunun yaranması, sərvətin bir və ya bir neçə əldə təmərgüzləşməsi, sosial təbəqələşmə – varlı və yoxsullar qrupunun meydana çıxması;

3.sosial münasibətləri və konfliktləri tənzimləyən xüsusi institutların – dövlət və hüquq – yaranması;

4.təsərrüfat, inzibati, hərbi, mədəni-dini mərkəzlər kimi şəhərlərin meydana çıxması.

5.yaranmaqda olan sivilizasiyaların böyük imkanlara malikliyinin nümayişi kimi iri, nəhəng tikililərin (məs.: piramida) həyata keçirilməsi;

6.yazının yaranması; yazının kəşfi – yeni mentalitetin meydana çıxması, sivilizasiyanın maddi və intellektual imkanlarının nəhəng sıçrayışı demək idi.

Sivilizasiyaya ilkin keçid əmək alətləri, sosial-iqtisadi münasibətlər, idarəetmə sferasında baş verən keyfiyyət dəyişiklikləri ilə səciyyələnir. Belə ki, metaldan istifadə əmək prosesinin fərdiləşməsinə, icmadaxili əmlak bərabərsizliyinin yaranmasına, hərbi əsirlər və borcluların qula çevrilməsi idarəetmədə icma təşkilatının ərazi-dövlət forması ilə əvəzlənməsinə və hərbi diktaturanın qurulmasına gətirib çıxardı.

downloaded from KitabYurdu.org

## § 5.6. Qədim Şərqin tarixi iqtisadiyyatı

Qədim Şərqin tarixini adətən (əksər mənbələrdən) bizim eradan əvvəl IV minilliyin ikinci yarısında Nil və Evrat vadilərində ilk sinifli cəmiyyət və dövlətin yaranmasından başlayaraq b.e. IV əsrin 30-20-ci illərində Yaxın Şərqlə yekunlaşdırırlar. Məhz həmin dövrdə bütün Yaxın Şərq Makedoniyalı İsgəndər tərəfindən işğal olundu və bu ərazilərdə "ellin" dövlətləri (Qədim Yunanıstan) yaranmağa başladı. "Qədim Şərq" coğrafi termini müasir Tunisdən müasir Çin, Yaponiya və İndoneziyaya (qərb-şərq yönümündə), cənubdan şimala doğru isə Həbəşistandan Qafqaz dağları, Aral dənizinin cənub sərhədlərinə qədər böyük bir ərazini əhatə edirdi.

3 min il tarixi olan Qədim Şərqdə o dövrki dünyanın ən qüdrətli dövlətləri mövcud olmuşdur (Şumer, Akkad, Babil, Misir, Assuriya və s. )

Nil vadisi və onunla qonşu olan ərazilər (gələcək Misir dövlətinin ərazisi) ilk insan məskənlərindən biridir. Burada hətta paleolit dövrünün əmək alətləri aşkar olunub. Qədim Şərqdə daş əsrinin mədəniyyəti özünün ən yüksək səviyyəsinə 20-10 min il b.e.ə. çatmışdır. Əhalinin sürətli artımı Nil vadisinin qısa zaman kəsiyində mənimsənilməsinə gətirib çıxardı.

Neolit epoxasına aid qədim əkinçi və heyvandarların ilk yaşayış məskənləri (Nil vadisində) VI-V min il b.e.ə. tarixdə mövcud olmuşdur.

### § 5.6.1. Mesopotamiya dövlətlərinin iqtisadiyyatı

Yer kürəsində ən qədim dövlətlər b.e.ə. IV minillikdə Mesopotamiyada yaranmışdır. Mesopotamiya – şimalda Qafqaz, cənubda Fars körfəzi, qərbdə Suriya çölləri ilə, şərqdə müasir İraq arasında yerləşən coğrafi ərazidir. Bu ölkə ən qədim dövrlərdən Şumer və Semit tayfaları ilə məskunlaşmışdır. B.e.ə IV minillikdə ilkin olaraq Şumer dövləti yaranmışdır. Afrikanın şimalından (b.e.ə. V minillik) Ərəbistan yarımadasına, Suriyaya və sonradan Mesopotamiyaya köç edən Semit tayfaları Akkad dövlətini, sonrakı dövrdə isə Babil dövlətini – Babilistanı yaratmışlar. Təxminən b.e.ə. VI-VIII minilliklər ərzində həmin tayfalar tərəfindən bir çox heyvanların – donuz, keçi, iribuynuzlu mal-qara və s. əhliləşdirilməyə başlanılmış, arpa, taxıl və digər mədəni bitkilərin əkini

downloaded from KitabYurdu.org

genişləndirilmiş, kənd təsərrüfatı inkişaf etdirilmişdir. Məhz bu tayfalar dünyaya cüt və kotanı, suvarma sistemini bəxş etmişlər.

Dünyada ilk dəfə olaraq məhz Mesopotamiyada saxsı (gil) qablar və tikintidə istifadə edilən kərpic istehsalına başlanmışdır (b.e.ə. V minilliyin birinci yarısında).

B.e.ə. VIII minillikdə misin metallurji emalının, b.e.ə. V-IV minilliklərdə tunc məmulatların və nəhayət, b.e.ə. II minillikdə dəmir alətlərin yaranması bütövlükdə Qədim Şərqdə məhsuldar qüvvələrin sürətli inkişafına təkan vermişdir.

B.e.ə. 2340-cı illərdə Şumer-Akkad dövlətlərinin birləşməsi Mesopotamiyanın iqtisadiyyatına müsbət təsir göstərmişdir. Bu birləşmə iki çayarası ərazidə bütün çay və suvarma sistemlərinin tənzimlənməsi imkanını yaratmışdır ki, nəticədə nəqliyyat və irriqasiya şəbəkəsi xeyli yaxşılaşmışdır. Vahid ölçü və çəki sisteminin tətbiqi ticarətin inkişafında əhəmiyyətli rol oynamışdır.

Sonsuz müharibələr b.e.ə 2007-ci ildə Akkad dövlətinin mövcudluğuna son qoydu və ölkə köçəri Semit tayfaları tərəfindən işğal olunaraq b.e.ə. 1897-ci ildə Babil çarlığı yarandı. Çar Xammurapi yenidən Mesopotamiya ərazilərini birləşdirdi və güclü dövlət yaratdı. Çar Xammurapinin qanunlar məcmusu – Xammurapi kodeksi Qədim Şərq dövlətlərinin quruluşu və təsərrüfat həyatının öyrənilməsi prizmasından mühüm əhəmiyyət kəsb edən tarixi mənbədir.

Mesopotamiya iqtisadiyyatının əsas xüsusiyyətlərindən biri kənd icması ilə marksist anlamda quldarlıq təsərrüfatının birgə mövcudluğu olmuşdur. Kənd icmasının saxlanılması əsasən təbii şəraitin spesifikliyi ilə bağlıdır. İsti iqlim çoxlu sayda irriqasiya sistemlərinin qurulmasını tələb edirdi. Bu proses yalnız kollektiv şəkildə həyata keçirilə bilərdi. İqlim şəraiti (bitkiçilikdə) qurutma və suvarma kanalları sisteminin yaradılmasını müxtəlif rayonlardan olan insanların birliyi və fəaliyyətin koordinasiyasını zəruri şərt kimi irəli sürürdü.

Məhz, çox erkən zamanlarda dövlətin yaranması da bu tələblə şərtlənir.

Dövlət – bütövlükdə irriqasiya sisteminə nəzarət edir, icmalar isə onun ayrı-ayrı sahələrində fəaliyyət göstərirdilər.

Bu baxımdan işçi qüvvəsinə tələbat böyük idi. Əsas mənbə kimi hərbi əsirlərin, eləcə də yerli sakinlərin qula çevrilməsi çıxış edirdi. Qul alqı-satqı obyekti idi. Qulun qiyməti 14-20 şekel (1 şekel= 8 qram gümüş) arasında dəyişirdi. Quldarlıq (Qədim Şərqdə) hələ o qədər inkişaf etməmişdir.

downloaded from KitabYurdu.org

Xammurapi məcəlləsi təkcə quldarların deyil, həm də qulların mənafelərini qoruyurdu. Məsələn, məcəllənin 282-ci maddəsi tabeçilik göstərməyən qulun cəzalandırılmasını, 117-ci maddəsi borca görə qul edilənin ən çoxu 3 ildən sonra azadlığa buraxılması tələbini və s. nəzərdə tuturdu.

İcma və qul əməyi ilə yanaşı muzdlu əməkdən də istifadə edilirdi.

İrriqasiya sistemlərinin qurulması istiqamətində fəaliyyətin intensivləşməsi dövlətin iqtisadiyyatda rolunu durmadan yüksəldirdi.

Çarlar icma torpaqlarının bir hissəsini özləri və ruhanilər üçün ələ keçirməyə başladılar və beləliklə də, saray və məbəd təsərrüfatları yarandı. Eyni zamanda, işğal edilmiş ərazilər də çar torpaqlarına daxil edilirdi. Sonrakı dövrlərdə bütün torpaqlar çarın mülkiyyətinə keçir və bu torpaqlardan ruhanilərə, məmurlara, hərbçilərə və saray əyanlarına pay verilirdi. İcma çar torpaqlarından istifadə edirdi və buna görə dövlətin xəzinəsinə vergi ödəyirdi. Çar torpaqları, eyni zamanda, müqavilə əsasında icarəyəyə də verilirdi.

Müqavilədə icarənin obyekti, icarəhaqqının məbləği və ödənilməsi vaxtı qeyd olunurdu. İcarə haqqı əsasən natural formada – məhsulun bir hissəsi ilə ödənilirdi. Hətta, stimullaşdırıcı tədbirlər də tətbiq olunurdu. Məsələn, xam torpaqların işlənməsi üçün birinci il icarəhaqqı alınmırdı.

Torpaq sahibliyinin yeni formaları artıq sosial təbəqələşmədən xəbər verirdi: Ali ruhani – 36 hektar, ruhani – 18 hektar, məmur – 15 hektar, kiçik torpaq sahibləri – bir neçə sotdan 2 hektara qədər torpağa sahiblik edə bilərdilər. Yararlı torpaq sahələrinin azlığı qeyd edilən tənasüblüyü dəyişdirir, çar tərəfindən ruhani torpaqlarının dövlət ehtiyacları üçün müsadirə olunmasını şərtləndirirdi.

İqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil edirdi. Erkən dövrlərdə heyvandarlıq geniş yayılmışdır.

Əkinçilik əsasən məhsuldar torpaqlarda inkişaf etməyə başlamışdır.Əsas taxıl məhsulu – arpa idi. Arpa təkcə çörəkbişirmədə deyil, həmçinin pivə istehsalında istifadə olunurdu. Pivə texnologiyası Mesopotamiyada b.e. 3 min il əvvəl işlənib hazırlanmışdır. Xammurapi kodeksi yüksək qiymətlə pivə satanları çaya atmaqla, bu işlə gizli məşğul olanları isə ölüm cəzası ilə cəzalandırmağı nəzərdə tuturdu. Eyni zamanda, bağçılıq, üzümçülük və tərəvəzçilik kənd təsərrüfatının mühüm sahələri sırasında idi.

Əkinçiliyin inkişafı, erkən dövrlərdə dövlətin yaranması və bununla bağlı çar sarayının, ordunun, məmurların və şəhərlərin meydana gəlməsi

downloaded from KitabYurdu.org

sənətkarlığın əkinçilikdən çox erkən vaxtlarda ayrılmasına gətirib çıxardı.

Meşə örtüyünün azlığı, bununla bahəm qamış, gil və s. geniş yayılması, məhz ikincilərin istifadəsinin bütün əraziyə yayılmasını, saxsı və kərpic istehsalının meydana gəlməsini şərtləndirmişdir.

Metallurgiya istehsalının meydana gəlməsi əvvəlcə mis, sonralar tunc və dəmir məmulatlarının (kənd təsərrüfatı, tikinti, məişət və s. istifadə edilən) hazırlanmasına güclü təkan vermişdir. 4500 il (b.e.ə.) əvvəl Mesopotamiyada tətbiq edilən zərgərlik məmulatlarının hazırlanması texnologiyası bu gün də öz aktuallığını itirməmişdir. İnkişaf etmiş heyvandarlıq paralel olaraq dəri istehsalına və toxuculuğa güclü təkan vermişdir.

### § 5.6.2. Qədim Misirin iqtisadiyyatı

Qədim Misir "Asiya istehsal üsulunun" tipik ölkəsidir. Əkinçi və maldarların Nil vadisində məskunlaşması b.e.ə VI-IV minilliklərə təsadüf edir. Təsərrüfatın təşkili, strukturu və istifadə olunan əmək alətlərinin çeşidi baxımından Qədim Mesopotamiya ilə oxşar cəhətlər kifayət qədərdir. Təbəqələşmənin başlanğıcı və gedişi prosesi də, demək olar ki, üst-üstə düşür. B.e.ə. IV-III minilliklərdə ilk dövlətlər – nomlar meydana gəlməyə başladı. Yuxarı və Aşağı Misir çarlıqları birləşərək vahid dövlət – Qədim Misir dövlətini yaratdılar. Ümumiyyətlə, Qədim Misirin, Misir sivilizasiyasının tarixi sinifli cəmiyyət və dövlətçiliyin yarandığı andan başlayaraq (b.e.ə. IV minilliyin ikinci yarısı) müstəqil misir dövlətinin süqutuna (b.e.ə. VI əsr) qədərki (Persiya tərəfindən işğal olunana qədər) tarixi əhatə edir. 3 min il yaşı olan qədim Misirin tarixi aşağıdaki dövrlərə bölünür:

- Birinci sülaləyəqədərki dövr (b.e.ə. IV minilliyin I yarısı). Nəsil-icma münasibətlərinin dağılması;
- İkinci sülaləyəqədərki, yaxud gerzey dövrü (b.e.ə. IV minilliyin II yarısı). Sosial təbəqələşmənin başlaması, irriqasiya sisteminin ayrı-ayrı elementlərinin yaranması, ilk dövlət yaranışlarının meydana çıxması; Dövrün sonunda Yuxarı Misir və Aşağı Misir çarlıqlarının yaranması;
- İlk çarlıq. Vahid ümummisir dövlətinin yaranması (b.e.ə. XXXI-XXIX əsrlər);
- Misirin inkişafı; (b.e.ə. XXVIII XXIII əsrlər);

downloaded from KitabYurdu.org

- I keçid dövrü (b.e.ə. XXIII-XXI əsrlər). Vahid Misir dövlətinin ayrı-ayrı nomlara parçalanması;
- Mərkəzləşdirilmiş Misir dövlətinin bərpası (dirçəlişi) (b.e.ə. XXI-XVIII əsrlər);
- II keçid dövrü (b.e.ə. XVIII-XVI əsrlər). Misirin zəifləməsi. Xalq üsyanları; Misirin rukclər tərəfindən işğalı;
- Misir sivilizasiyasının yüksəliş dövrü (b.e.ə. XVI-XI əsrlər). Misir imperiyasının yaranması;
- III keçid dövrü (b.e.ə. XI-X əsrlər). Misirin tənəzzülü.
- Son çarlıq. Misir əcnəbi sülalələr tərəfindən idarə olunur (b.e.ə. XI-VIII əsrlər).
- Misirin Persiya tərəfindən işğalı və onun tərkibinə daxil edilməsi (b.e.ə VI-V əsrlər).

Qədim Misirin əlverişli coğrafi mövqeyi var idi. Aralıq dənizi onu Ön Asiya, Kipr, Egey dənizi adaları və Yunanıstanla birləşdirirdi. Nil-mühüm naviqasiya rolunu oynayırdı. Misirdə faydalı qazıntılar mövcud idi.

Qədim Misir təsərrüfatının əsasını suvarma əkinçiliyi təşkil edirdi. Kənd təsərrüfatı ixtisaslaşdırılmışdır. Yuxarı Misir əkinçiliyin, Aşağı isə heyvandarlığın, bağçılığın və üzümçülüyün mərkəzinə çevrilmişdi.

Hələ qədim dövrlərdən əkin sahələrini “yuxarı” və “aşağı” (çayların (Nilin) daşdığı zaman xüsusi bəndlərlə suyun yığılıb saxlanması) hissələrə bölən irriqasiya sistemi yaradılmışdır. Təsərrüfatın əsas fərqləndirici xüsusiyyətlərindən biri torpaq və irriqasiya sistemləri üzərində dövlət mülkiyyətinin olması idi. Fironlar, saray əyanları iqtisadiyyatda hökmran mövqeyə sahib idilər. Çar, məbəd və xüsusi təsərrüfatlarda həm qullar, həm də asılı vəziyyətə düşmüş icma üzvləri çalışırdı. Dövlət, insanları birləşdirməklə əvvəlki icma öhdəliklərini saxlamış və sonralar onu dövlət əmək mükəlləfiyyətinə çevirmişdir. İctimai işlər vasitəsilə hökmdarlar azad icma üzvlərini özlərinə tabe etdirirdilər.

Belə şəraitdə qul əməyi – ikinci dərəcəli əhəmiyyət kəsb edirdi. Qullar adətən nökər funksiyalarını yerinə yetirirdilər. Qul əməyinə yanaşma tərzi yalnız b.e.ə. XVI-XII əsrlərdə dəyişməyə başladı. “Asiya” icmalarında əlavə işçi qüvvəsinə ehtiyac yox idi. Əksinə, əmək resurslarının artıqlığı müşahidə edilirdi. Aydındır ki, izafi əmək resurslarının mövcudluğu şəraitində kənd təsərrüfatında qul əməyindən istifadə mənasız bir iş idi. İcma üzvləri - əkinçilər demək olar ki, müftə işçi qüvvəsi keyfiyyətində çıxış edirdi və onları saxlamaq (yedirtmək,

downloaded from KitabYurdu.org

geyindirmək və s.) lazım gəlmirdi. Antik təsərrüfat modelindən fərqli olaraq (qullar ayrı-ayrı quldarların şəxsi mülkiyyətində idilər və həmin quldarların xüsusi mənafelərinə xidmət göstərirdilər) bu nəhəng əmək ordusu mərkəzləşdirilmiş şəkildə yalnız dövlət işlərinə cəlb olunurdu: suvarma sistemlərinin, yolların, nəhəng binaların və s. tikintisində çalışırdılar. Qədim Misirdə dövri olaraq əhalinin siyahıya alınması keçirilirdi ki, bunda da məqsəd əmək mükəlləfiyyətinin bölüşdürülməsi idi. Hər bir kəndli ilin müəyyən dövrünü Firon və məbədlərə məxsus əkin sahələrində, suvarma sistemlərinin, piramida və məbədlərin tikintisində işləməli idi. Dövlət mükəlləfiyyəti bütün əhaliyə şamil edilirdi. İşlərin yerinə yetirilməsinə xüsusi məmurlar – "insan sayanlar", yaxud "insan sayğacları" nəzarət edirdilər.

Ümumiyyətlə, nəinki qədim Misir, eləcə də əksər Qədim Şərq dövlətləri üçün iqtisadiyyatın yüksək səviyyəli mərkəzləşdirilməsi xarakterik hal idi; İstehsal edilmiş məhsulun əsas kütləsi mərkəzləşdirilmiş şəkildə bölüşdürüldü.

Məmurlar məhsulun həcminin və heyvanların baş sayının uçotunu aparırdılar; irriqasiya sistemləri və obyektlərin tikintisində çalışan icma üzvləri müxtəlif alətləri və qida rasionunu dövlət xəzinəsindən alırdılar.

Bu ölkələrdə irriqasiya sistemlərinin idarə olunması ifrat mərkəzləşdirilmiş və despotik xarakter daşıyırdı.

"Asiya istehsal üsulu"nun qeyd edilən əksər xüsusiyyətləri çox uzun tarixi proses ərzində mövcud olmuşdur. Qədim Şərqdə cəmiyyətin çox ciddi iyerarxik quruluşu formalaşmışdır. Qədim Misirdə hakimiyyət və mülkiyyət üzvi vahidlik halında mövcud olmuşdur. Sosial mövqe, sərvətə sahib olmanın yeganə yolu hökmdara (Firona) yaxınlıqdan keçirdi.

Əkinçinin vəziyyəti də təsərrüfatın dövlət xarakteri ilə müəyyənləşirdi: əkinçi öz evində yaşayır və təsərrüfatını idarə edirdi. Lakin əkin üçün toxumu, yer şumlamaq üçün işçi heyvanları müvəqqəti olaraq dövlətdən alırdı. İstehsal edilmiş məhsul bütünlükdə dövlətin sərəncamına keçir və bu məhsuldan əkinçiyə yalnız ailəsinin tələbatı həcmində pay ayrılırdı.Əsas hissə isə dövlət anbarlarına təhvil verilirdi.

Qədim Misirdə sənətkarlıq da mərkəzi xarakter daşıyırdı. Misirlilər tuncdan əsasən bəzək şeyləri düzəldirdilər. Əmək alətlərinin hazırlanmasında isə istifadə olunmurdu. Qədim Misir tarixinin sonunda dəmir meydana çıxdı ki, onu da ilkin vaxtlarda qiymətli metal hesab etdilər. Ayrı-ayrı sənətkarlardan başqa detallar üzrə əmək bölgüsünə əsaslanan iri dövlət müəssisələri də fəaliyyət göstərirdi.

downloaded from KitabYurdu.org

Təsərrüfatın inkişafı Cənubi Misirdə heyvanlarla, Şimalda isə taxılla ticarətin artımına güclü impuls vermişdir. Kiçik Asiyadan qurğuşun və digər metalları, Kiprdən isə mis alırdılar. Varlanmış tacirlər sələmçiliklə məşğul olmağa başlamışlar. İqtisadiyyatın tam şəkildə dövlət mülkiyyətinə alınması, ictimai həyatın total reqlamentləşdirilməsi, bürokratiyanın qərarlaşması, əslində Qədim Şərq cəmiyyətlərinin hamısına xas olan bir cəhətlə - hər şeydə sabitliyə nail olma (iqtisadi, sosial-mədəni və siyasi həyatda) istəyi ilə bağlı olmuşdur. İcmasız hər hansı bir ailənin mövcudluğu mümkün olmadığı kimi, dövlətsiz də icmanın yaşaya bilməməsi situasiyası formalaşmışdır.

Sabitliyə canatmanın ifratçı təzahürü yekun etibarı ilə staqnasiyaya gətirib çıxardı. Yəni, iqtisadiyyat inkişafdan dayandı, eyni forma və münasibətlərin təkrar istehsalı müşahidə edilməyə başlandı.

### § 5.6.3. Qədim Çinin iqtisadiyyatı

Qədim Çin b.e.ə. 5-3 minilliklərdə Xyanxe çayı hövzəsində neolit mədəniyyəti bazasında formalaşmışdır.

Xyanxe hövzəsi qədim Çin sivilizasiyasının formalaşdığı əsas ərazi idi. Uzun dövr ərzində sözügedən ərazi nisbi təcridlik şəraitində inkişaf etmişdir. Yalnız b.e.ə. 1-ci minilliyin ortalarından ərazinin genişlənməsi prosesi əvvəlcə Yanzı hövzəsi, sonralar isə cənuba doğru start götürmüşdür.

Çin sivilizasiyasının əsas xüsusiyyəti daha çox təbii şəraitin spesifikliyi ilə səciyyələnir. Belə ki, Qədim Misir və Şumer sivilizasiyalarından fərqli olaraq Çin sivilizasiyası daha az əlverişli olan şəraitdə formalaşmışdır ki, bu da dövlətin yaranmasının daha gec (Qədim Şərqlə müqayisədə) baş tutmasına səbəb olmuşdur. Eyni zamanda, yuxarıda qeyd etdiyimiz kimi, Çinin təcrid olunması amili də az əhəmiyyətli olmamışdır.

Təxminlərə görə, Çin b.e.ə. II minilliyin ikinci yarısına qədər digər sivilizasiyalardan təcrid olunmuş halda inkişaf etmişdir. Qədim Çin sivilizasiyasının ilkin ocaqlarının qeyri-suvanma tipli olması, onu "hidravlik" cəmiyyətlərdən – Qədim Misir, Qədim Mesopotamiya, Qədim Hindistan - əhəmiyyətli dərəcədə fərqləndirirdi. Qədim Çində suvarma sistemləri yalnız b.e.ə. 1-ci minilliyin ortalarından etibarən yaranmağa başlamışdır. Ümumiyyətlə, Çinin tarixində Konfutsinin traktatları əhəmiyyətli rol oynamışdır.

downloaded from KitabYurdu.org

Çin tarixi ənənəvi olaraq Şan dövlətindən – 5 əfsanəvi imperatordan başlanır. Bu dövr Çin tarixində müdriklik, ədalət və xeyirxahlığın qızıl əsri adlanır.

Neolit epoxasının sonunda (b.e.ə.II minillik) Xuanxe hövzəsində şəhər-dövlətlər yaranır. Bunların sırasında inkişaf etmiş tunc mədəniyyətinə malik olan Şan-in ("Böyük şəhər Şan") xüsusilə seçilirdi. Şan-in epoxası üçün yüksək keyfiyyətli tunc döyüş texnikası, məişət əşyaları, zərgərlik məmulatları xarakterik olmuşdur. Bir sıra tədqiqatçılar belə bir mövqedədirlər ki, Çin sivilizasiyasının genezisində b.e.ə. II minilliyin ortalarında Orta Asiyaya miqrasiya etmiş hindavropa tayfaları əhəmiyyətli rol oynamışlar.

B.e.ə. XIII-XII əsrlərdə Şan şəhər –dövlətinin siyasi strukturu üç qeyri-bərabər hissədən ibarət olmuşdur:

1. Daxili zona: hökmdarın (Vanın) və onun mərkəzi icra aparatının birbaşa nəzarətində olan ərazi;

2. Ara zonası: paytaxtı əhatə edən yerli hökmdarlar tərəfindən (Vana tabe olan) idarə olunan çoxsaylı regional bölmələr;

3. Xarici zona: müxtəlif tayfaların yaşadığı ərazilər. Bu tayfaların rəhbərləri Vanın avtoritetini qəbul edir, lakin ondan asılı olmadan – müstəqil fəaliyyət göstərirdilər.

Şan dövlətinin yerinə b.e.ə 1027-771-ci illərdə Qərbi Çjou dövləti gəlir. Bu dövlət kifayət qədər böyük olsa da, dayanıqlı deyildi.

Bu dövr dövlətin etnik müxtəlifliyi və möhkəm iqtisadi, ictimai-siyasi əlaqələrin yoxluğu ilə səciyyələnir. İdarəetmə sferasına əkinçilik təsərrüfatlarının birgə işlənən sahələri, sənətkarlıq və tikinti, vergi və töycülərin alınması, məhkəmə və s. daxil idi.

Torpaq üzərində mülkiyyət hökmdara, onun yaxın ətrafına, məmurlara məxsus idi.

Onların hər birinin tam hakimiyyəti altında olan torpaq payı (udel) vardı. B.e.ə. VIII əsrdən başlanan ölkədaxili siyasi kataklizmlər daha az ərazini əhatə edən Şərqi Çjou dövlətinin və çoxlu sayda müstəqil çarlıqların yaranmasına gətirib çıxardı.

Marksizmin feodalizm adlandırdığı formasiya Çində, orta əsrlər Avropasından fərqli olaraq sosial-iqtisadi deyil, sosial-siyasi xarakter daşımışdır (yəni iqtisadi mexanizmlərə yox, münasibət və tabeçilik sisteminə əsaslanırdı).

Qərbi Çjou üçün bir pilləli, Şərqi Çjou üçün isə çoxpilləli iyerarxiya xas idi: Hökmdarlar; formal vassal asılılığında olanlar (torpaq payları – udelləri olanlar) – udellərin muxtar hökmdarları; Xidmətçi Şilər

downloaded from KitabYurdu.org

(aşağı idarəetmə təbəqəsinə aid, titulları olmayan vassallar); Tsin DAFU – titullu zadəganlar (mülkiyyəti olmayan, hərbidə xidmət edənlər). Bütün pillələrdə "mənim vassalımın vassalı mənim vassalım deyil" tipli orta əsr prinsipi hökmran idi.

Çin feodalizminin əsas cəhətlərinə aşağıdakıları aid etmək olar:

- iyerarxiya normaları və vassal öhdəliklərinə dəqiq riayət edilməsi;
- Hakimiyyətə və vəzifələrə mümkün iddialarda klan qohumluq dərəcəsinin nəzərə alınması;
- Ağaya sadiqlik;
- Döyüş meydanlarında, eləcə də vəzifə öhdəliklərində qəbul edilmiş davranış qaydalarına əməl olunması;
- Zadəganlığa pərəstiş, statusa uyğun olaraq etika normalarının gözlənilməsi.

Ölkə daxili mübarizənin güclənməsi hökmdarların bir çoxunu islahatlara başlamağa məcbur etdi:

- Udellərin zəifləməsi və daxili administrasiyanın güclənməsi. B.e.ə. VII-VI əsrlərdə udel yaratma praktikasına son qoyuldu. Xidmətlərə görə şərti vəzifə mülkiyyətləri hədiyyə edilməyə başlandı. Torpaq bütünlüklə hökmdarın mülkiyyətinə keçdi. Uyezdlər yaradıldı və məmurlar tərəfindən idarəedilməyə başlandı.
- Nəsil elitasının zəifləməsi: Vəzifə və başlıca postlara təyinatda klan qohumluğu əsas kimi götürülmüşdü. Vəzifə pillələri ilə yüksəlmə birmənalı olaraq, şəxsi nailiyyətlərlə müəyyənləşirdi. Əslində bunlar, mahiyyət etibarilə inzibati bürokratik sistemin əks-feodallaşması idi.

B.e.ə V-III əsrlər Çin tarixinin "dəmir əsri" adlanır. Dəmirdən istifadə edilməyə başlanması sivilizasiyanın inkişafına güclü stimullaşdırıcı təsir göstərmişdir:

- Yeni torpaqların dövriyyəyə qatılması;
- İrriqasiya qurğularının sürətli artımı;
- Bazar üçün sənətkarlıq məmulatlarının hazırlanması;
- İstehsalın həcminin sürətli artımı;
- Sənətkarlığın, ticarətin, kredit əməliyyatlarının, sələmçiliyin, əmtəə-pul əlaqələrinin inkişafı;
- İcmanın dağılmaqda davam etməsi (icarə, muzdlu əmək, borcluların qula çevrilməsi, borca görə ailə üzvlərinin satılması);
- Qulların azsaylı olması və əsasən nökər kimi istifadəsi;

downloaded from KitabYurdu.org

- Silahların təkmilləşməsi;
- Müharibələrin xarakteri və miqyasının dəyişməsi.

Bu dövrdə 7 iri çarlıq yaranmışdır: Bey, Çjao, Xan, Tsin, Tsin Yan, Çu. Ən radikal islahatlar Tsin çarlığında (b.e.ə. IV əsrdə - Şan Yan) aparılırdı:

I. İcma torpaqlarından istifadənin ciddi şəkildə reqlamentləşdirilməsi:

- Böyük ailələr daha kiçik ailələrə bölünməli və onların hər birinin özünəməxsus təsərrüfatı yaradılmalıdır;
- Qarşılıqlı əlaqə sistemi: 5-lik və 10-luqlarda birləşmələr, bir-birinə nəzarət və qarşılıqlı cavabdehlik;
- Digər çarlıqlardan olan immiqrantların əlverişli şərtlərlə Tsin torpaqlarında işə cəlb edilməsi (əsas məqsəd tsinlərin orduda xidmət üçün işdən ayrılmasıdır).
- Hərbi sferada islahatlar; Hərbçilərin nüfuzunun artırılması;
- Varlanmış mülkiyyətçilərin dövlət nəzarətinə alınması;

İslahatların növbəti dalğası b.e.ə. 350 ildən başlanır:

- Ölkə-məmurlar tərəfindən idarəolunan uyezdlərə bölünür;
- Olçü və çəki sistemlərinin unifikasiyası aparılır;
- Torpaq payları kəndlilərə verilir.

İslahatların nəticəsində iqtisadiyyatın və sosial münasibətlərin inkişaf tempi hissediləcək dərəcədə yüksəlmişdir.

B.e.ə. VII əsrdən aparılan islahat isə mərkəzi hakimiyyətin güclənməsinə, Çinin birləşməsi və imperiyaya çevrilməsinə səbəb olmuşdur.

Bu proses b.e.ə. 221 ildə başa çatdı və Tsin imperiyası yarandı. Sosial-iqtisadi həyatda və idarəetmə sistemində ardıcıl olaraq islahatlar həyata keçirilməyə başlandı. Böyük Çin səddi də məhz həmin dövrün məhsuludur.

### § 5.6.4. Qədim Hindistanın iqtisadiyyatı

Qədim Hindistan – ilk dünya sivilizasiyalarına aiddir. Burada insan məskunlaşması (arxeoloqların şəhadətinə görə) daş dövründən başlanır. Tunc mədəniyyətinə aid olan məmulatlar İnd çayının sahilində (3 min il b.e.ə.) aşkarlanmışdır. Hesab edilir ki, ən qədim sinifli cəmiyyət b.e.ə. 3-cü minilliyin ikinci yarısından 2-ci minilliyin birinci yarısına qədər mövcud olmuşdur.

Qədim Hindistan tarixi aşağıdakı dövrlərə bölünür:

downloaded from KitabYurdu.org

1. Qədim (İnd, Xarrap) sivilizasiyalar – b.e.ə XXII-XVIII əsrlər. İlk şəhərlərin, erkən dövlət yaranışlarının meydana çıxması;

2. “Vedi” dövrü – b.e.ə II minilliyin sonu – I minilliyin ortalarına qədər:

a) Erkən dövr - b.e.ə. XIII-X əsrlər; Ari tayfaların Şimali Hindistanda məskunlaşması;

b) Son dövr – b.e.ə. IX-VI əsrlər; Sosial və siyasi təbəqələşmə, Qanq çayı hövzəsində ilk dövlətlərin yaranması;

3.“Budda” dövrü – b.e.ə. VI-III əsrlər; Buddizmin yaranması və yayılması; Urbanizasiya prosesi və ilk böyük dövlətin – Mauri dövlətinin yaranması;

4.“Klassik epoxa” – b.e.ə. II - b.e V əsrləri; Qədim Hind sivilizasiyası, Cənubi Asiyanın mədəniyyəti və sosial təşkilinin xarakterik xüsusiyyətlərinin formalaşması.

Cənubi Asiya – qədim dünyanın fərqli xüsusiyyətlərinə malik regionu olmuşdur. Belə ki, burada inkişafın varisliyi, sosial münasibətlər və mədəniyyətdə dayanıqlılıq əsas səciyyəvi cəhətlər kimi çıxış edir.

Qədim Hindistan sivilizasiyasına münasibətdə yekdil fikir yoxdur. Bir qrup tədqiqatçılar hesab edirlər ki, ind sivilizasiyası kənardan, ari tayfaları tərəfindən gətirilib. Bəziləri onun şumer əsaslı olduğunu göstərirlər. Arxeoloq R.Qeyne-Qelden[136] isə yazır ki, Hindistanda sivilizasiya qəflətən meydana çıxıb. Belə ki, onun əvvəlki inkişafının izləri tapılmamışdır. Eyni zamanda, Hind sivilizasiyasının yerli mənşəli olduğunu qeyd edən tədqiqatçılar da vardır. Hesab edilir ki, Hind sivilizasiyası qədimliyinə görə İkiçay arası və Misirdən sonra üçüncüdür.

Qədim Hindistanın ən iri şəhərlərində (ticarət, sənətkarlıq və inzibati hakimiyyət şəhərlərdə cəmlənmişdir) yüz minə qədər insan yaşayırdı. Bu şəhərlərin əsas xarakterik cəhətləri aşağıdakılardan ibarətdir:

1. Şəhərlər iki yerə - “Yuxarı” və “Aşağı”ya – bölünürdü ki, bu hissələr arasında gediş-gəliş məhdudlaşdırılırdı. “Yuxarı”da zadəganlar və s., “Aşağı”da isə əhalinin əsas hissəsi məskunlaşırdı;
2. Şəhərin yaşayış hissəsi düzbucaqlı formasında qurulmuşdur;
3. İctimai anbarlar və taxıl anbarları şəhərlərdə yerləşirdi;
4. Tikinti ciddi plan əsasında aparılırdı. Məsələn, əsas küçələrin eni 10 metr götürülürdü;

---

[136] Антонова К.А. История Индии (краткий очерк). М.: Мысль, 1973.- С.13-22

downloaded from KitabYurdu.org

5.Əkinçilər və heyvandarlar icma şəklində şəhər divarlarından kənarda, kənddə yerləşirdilər;
6.Kərpic - əsas tikinti materialı idi;
7.Su təchizatı və kanalizasiya sistemi mövcud olmuşdur.

Qədim Hindistanın iqtisadiyyatında əsaslı irəliləyişlər Mauri dövlətinin yarandığı andan müşahidə edilməyə başlanmışdır. Kənd təsərrüfatı (düyü, taxıl arpa) yüksək səviyyəyə çatmış, heyvandarlıq isə köməkçi sahə kimi inkişaf etməkdə idi. Eyni zamanda, bağçılıq və bostançılıq da xeyli irəliləmişdir.

Bir sıra yerlərdə süni suvarma sistemindən müvəffəqiyyətlə istifadə olunurdu. İldə iki dəfə məhsul götürmək adi hala çevrilmişdir.

Qədim dövrdən başlayaraq orta əsrlərə qədər Qədim Hindistanda sənətkarlıq durmadan inkişaf etmiş, əsas məmulatlar, ələlxüsus pambıq parça digər ölkələrə ixrac edilməyə başlanmışdır. Eyni zamanda, hind sənətkarları metallurgiyada da böyük uğurlar qazanmışlar.

Sənətkarlıq əsasən şəhərlərdə mövcud olmuş və başlıca olaraq dövlət ehtiyaclarının, eləcə də elitanın təmtəraq məmulatlarına olan tələbatını ödəməklə məşğul idi.

Təsərrüfatın natural tipinin hökmran olmasına baxmayaraq ticarət inkişaf etməkdə davam edirdi. Ticarətin əsas obyekti təmtəraq məmulatları olmuş və əsasən karvan ticarəti formasında həyata keçirilmişdir.

Ticarət əlaqələrində su yolları, ələlxüsus Qanq çayı müstəsna rol oynamağa başlamışdır. Qədim Hindistanın digər ölkələrlə (Mesopotamiya, Misir, İran, Orta Asiya və s.) ticarət əlaqələri mövcud idi.

Ticarətin inkişafı metal pulların yaranmasına gətirib çıxardı. Hələ b.e.ə. I minillikdə mis qırıqları gümüş və qızıl (müəyyən çəkidə) pul kimi istifadə olunurdu. B.e.ə. V-IV əsrlərdə karşapana, yaxud dxarana adlanan gümüş pullar yarandı. Bununla belə, əmtəələrin sadə mübadiləsi ticarətin mühüm forması kimi qalmaqda idi.

Sözügedən dövrdə ticarət əməliyyatları dövlət tərəfindən ciddi şəkildə reqlamentləşdirilmişdir. Bazarda çəki və ölçülərin düzgünlüyü xüsusi məmurlar tərəfindən yoxlanılırdı. Keyfiyyətsiz məhsul satışı, yaxud fırıldaqçılıq cəzalandırılırdı. Əksər hallarda cərimə şəklində.

Hətta çarın özü də ticarətlə məşğul olurdu. Bir sıra məhsulların ticarəti (dağ-mədən məmulatları, duz, spirtli içkilər) çarın inhisarında olmuşdur.

Qədim Hindistanın siyasi və sosial strukturu haqqında irəli sürülən fikirlər yalnız təxminlərə əsaslanır. Bir tərəfdən, vahid çəki və ölçü

downloaded from KitabYurdu.org

sistemlərinin, tikintinin oxşar prinsiplərinin, yazının mövcudluğu bütün ərazi miqyasında idarəetmənin mövcud olması təəssuratını yaradır. Digər tərəfdən, bu idarəetmənin necə və haradan həyata keçirildiyi aydın deyil. Bir sıra tədqiqatçılar cəmiyyətin quldarlıq prinsipləri ilə idarə olunduğunu, digərləri Qədim Mesopotamiya ilə oxşarlığı, üçüncülər isə respublika quruluşunu önə çəkirlər.

Ümumiyyətlə, İnd sivilizasiyasının əsas xüsusiyyətlərinə aşağıdakılar aid edilir:

1. Dini-ruhani komponentin dominantlığı;
2. Müəyyən imtiyazlara malik sosial-siyasi qrupun tədricən əlahiddələşməsi;
3. Zəif və qısamüddətli dövlət yaranışlarının üstünlük təşkil etməsi;
4. Varno-Kasta sistemi; "Varna"- növ, dərəcə, rəng deməkdir və cəmiyyətin əsas sosial təbəqələrinin bir-birindən fərqləndirilməsində istifadə olunur. Cəmiyyətin bir-birinə qarşı duran təbəqələrə bölünməsi labüddür. Varna sistemi zaman keçdikcə nəinki dağılmadı, əksinə daha da inkişaf edərək kasta sisteminə çevrildi. Həmin sistem müasir Hindistanda bu gün də mövcuddur.

## § 5.7. Antik epoxa (b.e.ə. VIII əsr-b.e. V əsri): Qədim Yunanıstan və Qədim Roma

Antik cəmiyyətin formalaşması Qədim Şərq sisteminin yunan sosio-orqanizmlərinə hərtərəfli təsiri altında baş vermişdir. Sistemli təsiri – Qədim Şərq cəmiyyəti tərəfindən – tarixçilər istiqamətləndirici təsir kimi səciyyələndirirlər. Yunanlardan sonra antik istehsal üsulu digər yerlərə də yayıldı: Etrusk, Karfagen, Latın. Birgə götürülmüş antik sosiotarixi orqanizmlər yeni tarixi arenanı – Aralıq dənizi hövzəsini ortalığa çıxardı ki, yekunda da ümumdünya tarixi inkişafın mərkəzi məhz bu zonaya keçdi. Dünya epoxalarının növbələşməsi baş verdi: Qədim Şərq epoxası Antik epoxa ilə əvəzləndi. Yeni dünya sistemi bəşəriyyəti tarixi inkişafın yeni mərhələsinə yüksəltdi.

B.e.ə. IV əsrdə Yaxın Şərq və Aralıq dənizi tarixi arenaları birlikdə yeni super sistemi – mərkəzi tarixi məkanı formalaşdırdılar. Tərəflərarası münasibət baxımından sözügedən supersistemdə iki tarixi zona yarandı:

downloaded from KitabYurdu.org

Aralıq dənizi zonası tarixi mərkəz, Yaxın Şərq zonası isə daxili əyalət keyfiyyətində çıxış etməyə başladılar.

Mərkəzi tarixi məkanın sərhədlərindən kənarda xarici əyalət yerləşirdi. Qədim Şərq epoxasından fərqli olaraq, antik epoxada xarici əyalət keyfiyyətində çıxış edən tarixi arenalar arasında müxtəlif istiqamətli əlaqələr mövcud olmuşdur.

Beləliklə, köhnə dünyada Şərqi Asiya, İndoneziya, Hind, Mərkəzi Asiya və böyük çöl (türk imperiyaları) arenaları formalaşmışdır. B.e.ə. I minillikdə isə (yeni dünya) and və mezoamerikan tarixi arenaları meydana çıxmışdır. Antik cəmiyyətə keçid məhsuldar qüvvələrin əhəmiyyətli inkişafı ilə müşayiət olunurdu.

Lakin, qeyd edilən yüksəlişin əsasında texniki amillər deyil, demoqrafik situasiya ilə, işçi qüvvəsinin ümuməhalinin sayında xüsusi çəkisinin artması dayanırdı. İndistrializməqədərki epoxada sosiotarixi orqanizmin daxilində əhalinin ümumi sayının artmadığı şəraitdə işçi qüvvəsinin xüsusi çəkisinin yüksəlməsi yalnız bir amilin – immiqrantların hesabına ola bilərdi. İctimai istehsalın məhsuldarlığının qeyd edilən üsulu birmənalı olaraq ekzogen xarakter daşıyırdı. Yəni, söhbət kənardan gətirilən qulların say artımından gedir. Qul əməyinə əsaslanan istehsal üsulu formalaşırdı.

Beləliklə, antik cəmiyyətin mövcudluq şərti fasiləsiz olaraq digər sosiotarixi orqanizmlərdən gətirilən insan resursları ilə birbaşa determinə olunur.

Qədim Şərqdən fərqli olaraq Avropanın cənubunda ilk dövlətlər nisbətən gec – b.e.ə. II minillikdə meydana gəlmişlər. Arxeoloji tapıntılar göstərir ki, Qədim Yunanıstan və Qədim Roma hələ paleolit dövründə yaşayış məskənləri olmuşlar. B.e.ə. VII minillikdə Balkan yarımadasının cənubunda əkinçilik və heyvandarlıq yaranmışdır. B.e.ə. IV minilliyin sonlarında mis əmək alətləri, b.e.ə. III minilliyin başlanğıcında isə tunc alətlər yayılmağa başlamışdır. B.e.ə. II minilliyin sonlarına yaxın yunan iqtisadiyyatında artıq dəmirdən düzəldilmiş alətlərdən istifadə olunmuşdur. Məhz həmin dövrdən etibarən dulusçuluq inkişaf etmiş, ilk şəhərlər yaranmışdır.

Apennin yarımadasının qədim sakinləri liqurlar, italiklər və illiriyclər olmuşlar. Neolit mədəniyyəti məhz həmin tayfalar tərəfindən inkişaf etdirilmişdir. Yarımadada b.e.ə. IX-VIII əsrlərdən etibarən dəmirdən geniş surətdə istifadə edilməyə başlanmışdır. B.e.ə. VIII-VI əsrlərdə etruskların mədəniyyəti inkişaf etməyə başlamışdır.

downloaded from KitabYurdu.org

Qədim Yunanıstan və Qədim Roma iqtisadiyyatında qul əməyi maddi istehsalın əsas hərəkətverici qüvvəsi kimi çıxış edirdi. Bir qayda olaraq, hərbi əsirlər və ələ keçirilmiş yerli sakinlər, qul ailəsində anadan olanlar, digər tayfaların satışa çıxardığı insanlar və s. qulların sırasına daxil edilirdi.

### § 5.7.1. Qədim Romanın iqtisadiyyatı

Qədim Roma respublikası b.e.ə. II minilliyin ortalarında yaranmışdır. Apennin yarımadasının əksər tayfalarını özündə birləşdirmiş, b.e.ə. I əsrdən b.e. II əsrinə qədər bütün Şimali Afrikanı, Avropanın xeyli hissəsini və Ön Asiya ölkələrini zəbt edərək Aralıq dənizi regionunun ən güclü dövlətinə çevrilmişdir.

Qədim Romanın sosial-iqtisadi və siyasi tarixini aşağıdaki kimi dövrləmə bölmək olar:

1) "Çar dövrü" (b.e.ə. VI əsr), yaxud erkən Roma respublikası (b.e.ə V-IV əsrlər).
2) "İstehsal" iqtisadiyyatının qərarlaşdığı (quldarlıq) dövr:
    a. Birinci dövr: Klassik quldarlıq (b.e.ə. II-I əsrlər) dövrü;
    b. İkinci dövr: Erkən imperiya dövrü (b.e. I-II əsrləri);
3) Roma imperiyasının ümumi böhranı (b.e. III əsri);
4) Təsərrüfatçılıq sisteminin (quldarlıq istehsal üsulu) böhranının dərinləşməsi (b.e. IV-V əsrlər), Qərbi Roma imperiyasının süqutu.

Roma imperiyasında qul əməyinə əsaslanan antik təsərrüfatçılıq modeli özünün ən yüksək səviyyəsinə çatmışdı. İmperiyanın süqutu antik sivilizasiyanın sonu demək idi.

Qədim Romanın tarixi 12 əsrə yaxın davam etmişdi. B.e.ə. VIII-VI əsrlərdə icma münasibətləri dağılmağa başlamış, qan qohumluğu əsasında formalaşmış icma ərazi prinsipi ilə yenidən qərarlaşmış, əmlak bərabərsizliyi güclənməyə başlamışdır.

Qullar da daxil olmaqla böyük patriarxal ailə əsas təsərrüfat vahidi kimi çıxış edirdi. Ailənin başçısı mütləq hakimiyyətə malik idi. Hər bir patriarxal ailə icma torpaqlarından (öz mülkiyyətinə keçmə şərti ilə) 2 yuqer (0.5 hektar) torpaq payı alırdı. Gəlmələr yalnız ticarət və sənətkarlıqla məşğul olurdular. Kənd təsərrüfatı – təsərrüfat həyatının əsasını təşkil edirdi. Ticarət ləng inkişaf edirdi. B.e.ə VI əsrdə plebeylərin patrisilərə qarşı uzun müddət davam edən mübarizəsi icma münasibətlərinin qalıqlarını tamamilə aradan qaldırdı, bütün azad

downloaded from KitabYurdu.org

insanların hüquq bərabərliyi və Roma dövlətinin yaranması ilə başa çatdı. İtaliyanın işğalı, Karfagen və Makedoniya ilə 100 il davam edən müharibə nəticəsində (b.e.ə. II minilliyin ortalarında) Roma güclü quldarlıq dövlətinə çevrildi: Qul əməyi – kənd təsərrüfatı, tikinti, dağ-mədən sahələrində, yəni Roma dövlətinin iqtisadiyyatının əsas sferalarında əsas məhsuldar qüvvə kimi çıxış edirdi. Müharibələr təsərrüfat sistemində mühüm dəyişikliklərə səbəb oldu. Şimali Afrika və Siciliyadan gətirilən ucuz taxıl təsərrüfatın intensiv inkişaf tipinə keçidi üçün əlverişli şərait yaratmışdır.

Təbii ki, kəndli təsərrüfatı yaranmış şəraitdən səmərəli istifadə etmək gücündə deyildir.

Qrakx aqrar islahatları ilə kiçik torpaq sahiblərini "xilas" etmək cəhdi uğursuzluğa düçar oldu. Bizim eraya yaxın dövrdə Roma imperiyaya çevrildi. Ərazinin ifrat genişliyi ərazi əmək bölgüsünün dərinləşməsinə, ticarətin, sənətkarlığın, kənd təsərrüfatının inkişafına təkan verdi. İstehsal vasitələrinin fasiləsiz təkmilləşməsi – yeni oraq növlərinin, bağ qayçılarının, təkərli kotanın yaranması irəliyə doğru böyük bir addım idi.

Quldar təsərrüfatının əsas tipi 100-400 yuqer (25-100 hektar) ərazisi və qullardan ibarət işçi qüvvəsi olan villalar idi. Villalarda təsərrüfat sahələrinin demək olar ki, hamısı - əkinçilik, heyvandarlıq, üzümçülük, zeytunçuluq və s. mövcud olmuşdur.

Villaların kəndli təsərrüfatı ilə müqayisədə üstün cəhətləri vardı:

1. əməyin daha yaxşı təşkili və əmək kooperasiyası;
2. müxtəlif istehsal vasitələrindən istifadə imkanları;
3. qabaqcıl aqronom üsulları və texniki təcrübədən yararlanma.

Qul əməyindən istifadənin rasional təşkilinə baxmayaraq intensiv inkişaf tipini saxlamaq mümkün olmamışdır.

B.e.ə. II əsrdən etibarən ekstensiv inkişaf tipi hakim mövqeyə keçdi.

Bu dövrdə Roma iqtisadiyyatı əsas iki sektora bölünürdü:

1. Quldarlıq təsərrüfat sistemi.
2. Kəndli-icma təsərrüfat sistemi.

B.e.ə. II-I əsrlərdə kənd təsərrüfatının güclü inkişafını şərtləndirən səbəblərə aşağıdakıları aid etmək olar:

1. qul əməyindən geniş stifadə;
2. sadə əmtəə istehsalının təşkili;
3. kiçik təsərrüfatlardan iri təsərrüfatlara keçid.

downloaded from KitabYurdu.org

Kənd təsərrüfatının inkişafı şəhər və kənd arasında bazar əlaqələrinin qurulmasına, əmtəə mübadiləsinin intensiv xarakter almasına təkan verdi.

Bazar münasibətlərinin inkişafı, yeni şəhərlərin yaranması, şəhər əhalisinin, ictimai və fərdi tələbatın artımı sənətkarlığın müxtəlif növlərinin inkişafına stimullaşdırıcı təsir göstərmişdir.

Eyni zamanda, dəmir, mis, qurğuşun və digər əvvəllər də istifadə edilən metallarla yanaşı, poladın yeni növləri, xəlitələr, civə və sinkdən də yararlanmağa başlanmışdır.

B.e.ə. II-I əsrlər həm də güclü tikinti ilə də xarakterizə olunur. Romada çoxmərtəbəli yaşayış evlərinin tikintisinə başlanılır.

Ticarət – xüsusi intensivliklə yüksəlməyə başlayır. Dəniz ticarətinin inkşafı ixrac əməliyyatlarının həm həcmcə artımına, həm də ixrac olunan məhsulların çeşidinin genişlənməsinə gətirib çıxarmışdır.

B.e.ə. III-II əsrlərdə dövriyyəyə buraxılan gümüş pullar (sestersiya, denar) tezliklə Aralıq dənizi regionunun əsas valyutasına çevrilir.

Ssuda faizi İtaliyada illik 6%, əyalətlərdə isə 48% təşkil edirdi.

B.e.II əsri üçün icarə münasibətləri və kolonatların yaranması xarakterik olmuşdur. Hüquqi cəhətdən kolon – azad insan olmaqla, müqavilə əsasında (5 il) işə qəbul ediləndir. Bir çox yerlərdə kolonlar əbədi icarədarlara çevrilirdilər.

### § 5.7.2. Qədim Yunanıstanın iqtisadiyyatı

Qədim Yunanıstanın sosial-iqtisadi və siyasi tarixi 5 dövrə bölünür:

1. Egey, yaxud krit-miken dövrü (b.e.ə. III-II minilliklər).
2. Ibtidai icma münasibətlərinin bərpası, sonrakı prosesdə antik mülkiyyət formaları əsasında sinifli cəmiyyətin yaranması dövrü (b.e.ə. XI-IX əsrlər).
3. Arxaik dövr (b.e.ə. VIII-VI əsrlər) – Polislərin yaranması.
4. Klassik dövr (b.e.ə. V-IV əsrlər).
5. Ellin dövrü (b.e.ə. IV-İ əsrlər).

B.e.ə. VIII-VII əsrlərdə Qədim Yunanıstan (Ellada) Şərqi Aralıq dənizi adalarında və Balkan yarımadasında yaranmış çoxsaylı kiçik müstəqil dövlətlərdən ibarət olmuşdur.

İcma münasibətlərinin dağılmağa başlaması və məhdud ərazilərin intensiv məskunlaşması nəticəsində b.e.ə. VIII-VII əsrlərdə böyük yunan dünyası formalaşdı. Bura artıq Kiçik Asiyanın sahilyanı əraziləri, Qara

downloaded from KitabYurdu.org

dəniz sahilləri, Şimal-Şərqi Afrika, Apennin yarımadasının və Fransanın cənub əraziləri daxil idi.

Yunan kolonları ilə metropoliyalar arasında ticarət münasibətləri formalaşmışdır. Kolonlaşma (məskunlaşma) dövründə yunan icmalarının sosial-iqtisadi inkişafında mühüm irəliləyişlər baş vermişdir.

Qul əməyindən istifadə edilməsi daha da genişlənmiş, dəmir əmək alətləri üstünlk təşkil etməyə başlamış, sənətkarlıq kənd təsərrüfatından ayrılmışdır. İri şəhərlər kənd yerlərini özünə birləşdirməklə şəhər-dövlətlərə, polislərə çevrilmişlər. Polisin klassik nümunəsi – b.e.ə. VI əsrdə yaranmış Afina şəhər-dövləti idi.

Qədim Yunanıstan iqtisadiyyatının inkişafında Böyük Yunan məskunlaşması (kolonizasiya) mühüm rol oynamışdır. Böyük Yunan məskunlaşmasının əsas səbəbləri sırasına aşağıdakıları aid etmək olar:

1. Ticarətin (o cümlədən, dəniz ticarətinin) inkişafı.
2. Polislərdə (şəhər-dövlətlərdə) siyasi, iqtisadi və sosial situasiyanın pisləşməsi.
3. Torpaq çatışmazlığı və əhalinin sıxlığı.
4. Ticarətin inkişafı üçün Aralıq dənizi sahillərinin məskunlaşdırılması zəruriliyi.

Məskunlaşma Şərqi Aralıq dənizi ölkələri ilə ticarət əlaqələrinin inkişafına səbəb olmaqla Qədim Yunanıstanın uzun tarixi dönəmdə rastlaşdığı təcridliyi (ticarət əlaqələri nöqteyi-nəzərindən) aradan qaldırmaqda mühüm rol oynadı.

İlkin olaraq məskunlaşma ticarət üçün əlverişli olan ərazilərdə həyata keçirilirdi.

Ticarət məskunlaşmasının iki növü mövcud olmuşdur:

1. Emporiya – məskunlaşan ərazi.
2. Anoykiya - əkinçi və sənətkarların daimi məskunlaşması.

Sonrakı prosesdə məskunlaşmanın növləri arasındakı fərqliliklər aradan qalxmış və vahid iqtisadi istiqamət – ticarət və vasitəçilik qərarlaşmışdır.

Böyük Yunan məskunlaşması ticarətin inkişafında əhəmiyyətli rol oynamışdır:

1. ticarət əlaqələrinin intensivləşməsinə şərait yaratmış;
2. ticarətin xarici bazarlara çıxışına imkan vermişdir ki, bu da bir çox sosial, iqtisadi cə siyasi problemlərin həllinə yardım etmişdir;
3. sənətkarlığın intensiv inkişafına təsir göstərmişdir.

downloaded from KitabYurdu.org

Böyük Yunan məskunlaşması epoxasının məntiqi yekunu olaraq Qədim Yunanıstan primitiv natural təsərrüfatla müqayisədə daha yüksək inkişaf səviyyəsi əldə etmişdr. Məhz bu proseslərin yekunu kimi polislər (şəhər-dövlətlər) meydana gəlməyə başlamışdır.

Qədim Yunanıstanda şəhər-dövlətlərin (polis) yaranması prosesinin əsas tiplərinin qərarlaşması b.e.ə. XI əsrdən başlayaraq b.e.ə IV əsrə qədər davam etmişdir.

downloaded from KitabYurdu.org




***Şəkil 5.4. Şəhər-dövlətlərin (polislərin) genezisi***

Şəhər-dövlətlərin (Polislərin) hər iki tipi üçün xarakterik olan prinsiplərə aşağıdakılar aiddir:

1. Dövlət və xüsusi mülkiyyət;

downloaded from KitabYurdu.org

2. Polisin torpaq üzərində ali hüquqi prinsipi;
3. Yalnız polisin vətəndaşı olanların torpaq sahibliyi hüququ prinsipi;
4. Azadlığın əsası kimi avtarkiya prinsipi;
5. Əkinçi əməyinin digərlərindən üstünlüyü prinsipi.

Polislərin birinci tipi – Aqrar polislərdə münasibətlərin tənzimlənməsi Likurq qanunları (b.e.ə.IX əsr) ilə həyata keçirilirdi. Bu qanunlar bır sıra tədqiqatlarda Likurq inqilabı adlanır.

Polislərin ikinci tipi – Ticarət-sənətkarlıq polislərində isə Drakonta (b.e.ə. 621 il), Solona (b.e.ə.594 il) və Klisfena (b.e.ə.509 il) qanunları dövriyyədə olmuşdur. İkinci tipə xas olan əsas cəhətlər sırasına aşağıdakıları aid etmək olar:

1. Xüsusi mülkiyyət hüququ;
2. Polisin vətəndaşları arasında hüquq bərabərliyi;
3. Afinanın vətəndaşı qul ola bilməz;
4. Torpaq payının maksimumunun təsbiti;
5. İcma münasibətlərinin ləğvi.

Müəyyən fasilədən sonra – XII əsrdən başlayaraq şəhərlərin iqtisadi əhəmiyyəti sürətlə artmağa başladı. Qeyd edilən yüksəliş əsasən 2 amillə şərtlənir:

1. Feodal asılılığından azadolma (şəhərlərin özünəməxsus silahlı müdafiəyə dəstələri yaranmışdır).
2. Feodalın təsir dairəsindən kənarda azad bazar, azad ticarətin mövcudluğu.

Təxminən həmin dövrdə inkişafa mane olan icma təşkilatları ləğv edilmiş, nəsil imtiyazları əmlak senzi və xüsusi mülkiyyətlə əvəzlənmişdir. Bütün əhali əldə edilən gəlirin həcminə görə dörd dərəcəyə bölünürdü ki, bu dərəcələr əsasında da siyasi hüquqlar (bu və ya digər vəzifəni tutma) və hərbi mükəlləfiyyətlər müəyyənləşirdi.

Afina quldarlıq respublikasının yaranması məhsuldar qüvvələrin inkişafına güclü təkan vermişdir. B.e.ə. VII-VI əsrlərdə daha mürəkkəb alətlərdən - əl dəyirmanı, zeytun yağı və şərab istehsalı üçün xüsusi qurğulardan istifadə edilməyə başlanmışdır. Metaləritmə sobaları meydana çıxdı və s.

Yunan-Persiya müharibələri (e.ə 500-449-cu illər) əksər yunan dövlətlərinin (nəticə etibarilə) möhkəmlənməsinə, Afina başda olmaqla dəniz ittifaqı yaratmalarına gətirib çıxardı. Afina – birləşmiş güclü dövlətə çevrildi. Müharibə nəticəsində ölkəyə qul axını gücləndi. Qulların əsas hissəsi istehsalat sferasına cəlb olunmuşdu.

downloaded from KitabYurdu.org

B.e.ə. V əsrin ortalarında Afina bütün Yunanıstanın siyasi və iqtisadi mərkəzi kimi çıxış etməyə başladı. Ticarət əlaqələri sürətlə genişlənməkdə idi. Bu prosesə paralel olaraq sələmçilik geniş vüsət almışdır. Ssuda əmlak girovu (torpaq, ev, gəmi, əmtəə) əsasında verilir, illik faiz dərəcəsi 12-18%-dən 30 %-ə qədər dəyişirdi. Pul vahidlərinin çoxluğu pul mübadiləsini ticarət üçün mühüm sahəyə çevirmişdir. Pul mübadiləsi ilə - trapezitlər məşğul olurdu. Onlar, eyni zamanda bəzi primitiv bank xidmətləri də göstərirdilər: pul köçürmələrini həyata keçirir, pulun saxlanmasını təmin edirdilər.

Lakin Afinanın inkişafı uzunömürlü olmadı. Ziddiyyətlər iqtisadiyyatın tənəzzülünə, kiçik istehsalçıların müflisləşməsinə və heç bir yaşayış vasitəsi olmayan əhalinin xüsusi çəkisinin artımına (60%) gətirib çıxardı.

B.e.ə. IV əsrdə Afina Makedoniya, b.e.ə. II əsrdə isə bütün Yunanıstan Roma tərəfindən işğal edildi və yeni dövlət – Roma imperiyası yarandı.

Beləliklə, Qədim Yunanıstan iqtisadiyyatı quldarlığın antik formasına əsaslanaraq inkişaf edirdi. F.Engels yazırdı ki, "... Yalnız quldarlıq əkinçilik və sənaye arasında daha irimiqyaslı əmək bölgüsünü mümkün etmişdr... Qullarsız nə yunan dövləti, nə də yunan incəsənəti və yunan elmi, eləcə də, bütövlükdə Roma imperiyası ola bilməzdi."[137]

Qullarla yanaşı sənətkarlıq və kənd təsərrüfatı sferalarında azad insanlar da çalışırdılar. Bunlara əsasən sənətkarlar, kiçik emalatxana sahibləri, yaxud sadəcə olaraq, ustalar aid edilirdi.

Kənd təsərrüfatının əsasını üzümçülük, zeytunçuluq, meyvə və tərəvəz istehsalı, o cümlədən taxıl və arpa bitkiləri təşkil edirdi. Kənd təsərrüfatına paralel olaraq sənətkarlıq da inkişaf edirdi. Müxtəlif sənətkarlıq məmulatları istehsal edən emalatxanalar – erqasteriya ("erqa"- iş) adlanırdı. Bu emalatxanalarda orta hesabla 20-30 nəfər çalışırdı.

Sənətkarlığın inkişafı həm daxili, həm də xarici ticarətin artımı ilə müşayiət olunurdu.

Attikanın əsas limanına – Pirə xarici ticarət gəmiləri gəlirdi.

Məhsuldar torpaqların kasadlığı və əlverişli coğrafi mövqe, bir tərəfdən, kənd təsərrüfatında maksimum səylə çalışmağı tələb edirdi, digər tərəfdən ölkənin xarici əlaqələrini əhəmiyyətli dərəcədə

---

[137] История Древнего Мира. Расцвет древних обществ// под ред. И.М. Дьяконова, М.: 1989г.

downloaded from KitabYurdu.org

genişləndirməyə imkan verirdi. Bütün bunlar yekun etibarilə sənətkarlığın inkişafı üçün stimul yaradırdı.

## § 5.8. Asiya (Qədim Şərq) və antik təsərrüfatçılıq modellərinin müqayisəsi

Qədim Şərq və antik dövlətlərin sosial-iqtisadi həyatı, ümumiyyətlə sözügedən cəmiyyətlərdə iqtisadiyyatın genezisi, münasibətlər sisteminin tənzimlənməsi və s. nöqteyi-nəzərdən fərqli xüsusiyyətləri olmuşdur.

- Qədim Şərq (Asiya) təsərrüfatçılıq modeli – bütün qərarların dövlət səviyyəsində qəbuluna (əhali bu qərarları reallaşdırırdı) əsaslanan iqtisadi sistemdir.

1. Bütün iqtisadi proseslər dövlətin təsiri altında idi. Dövlət maraqları şəxsi maraqlardan üstün tutulurdu.
2. Hakimiyyət → mülkiyyət bərabərliyi mövcud idi. Və onlar ayrılmazdı.
3. Şərqdə quldarlıq ümumi xarakter daşıyırdı. İnsan (onun uşaqları) bütün ömrü boyu qul olaraq qalırdı. Köləlik – irsən keçirdi.
4. Köləlik – təbii qəbul olunurdu.
5. Qullar – cəmiyyətin əsas məhsuldar qüvvəsi deyildir. Başqa sözlə, kənd təsərrüfatı və digər maddi istehsal sferalarında azad icma üzvləri çalışırdı.
6. Əsas iqtisadi amillər – torpaq, su – üzərində mülkiyyət hüququ dövlətə məxsus idi.
7. Dövlət və icma üzvləri arasında tabeçilik (rəiyyətlik) münasibətləri formalaşmışdır. Dövlət mükəlləfiyyəti bütün əhaliyə şamil edilirdi.
8. İcmalar kifayət qədər dayanıqlı idilər. Bu da əsasən irriqasiya sistemlərinin yaradılması və səmərəli fəaliyyəti baxımından zəruri hal kimi çıxış edirdi.
9. İqtisadi sistem kimi özünü təcridə və totalitarizmə meyillənirdi.
10. Ərazi işğalı ( digər dövlətlərin) aktiv xarakter daşıyırdı.

- Antik təsərrüfatçılıq modeli – qul və azad insanların, iqtisadi prosesləri dövlət tənzimlənməsinin və xüsusi mənafelərə riayət olunmasının əlaqələndirilməsi əsasında formalaşan iqtisadi sistemdir. Əsas xarakterik cəhətləri:

1. Köləlik ümumi xarakter daşımırdı: qul-azad vətəndaş statusu ala bilirdi.

downloaded from KitabYurdu.org

2. b.e.ə. VIII-VII əsrin əvvəlində böyük siyasi-iqtisadi böhran baş verdi.

Nəticədə:

- Borc köləliyi ləğv edildi;
- Xüsusi mülkiyyətdə ola biləcək torpaq norması müəyyənləşdirilirdi.
- Vahid pul vahidi müəyyən edildi.

Hər iki model əslində, coğrafi və iqlim şəraitinin spesifikası ilə bağlı olmuşdur.

***Cədvəl 5.8***

***Asiya və Antik təsərrüfatçılıq modellərinin müqayisəsi***

| **Asiya və Antik təsərrüfatçılıq modelləri** | | |
|---|---|---|
| | Antik | Asiya |
| 1.Coğrafi areal | QədimYunanıstan, Qədim Roma | Şumer, Assuriya, Babilistan, Qədim Misir, Qədim Hindistan, Qədim Çin. |
| 2.İqtisadiyyatın əsası | Əkinçilik, heyvandarlıq, sənətkarlıq. Qullar üzərində quldar mülkiyyəti | Suvarılan əkinçilik, quraqlıq. Torpaq üzərində dövlət mülkiyyəti, irriqasiya sistemlərinin dövlət idarəetməsi. |
| 3.İqtisadiyyatın xarakteri | Natural təsərrüfat tipi. Sadə əmtəə istehsalı və bazar münasibətlərinin əhəmiyyətli inkişafı (xarici müstəvidə) | Natural təsərrüfat tipi. Əmtəə istehsal və bazar münasibətlərinin zəif inkişafı. |
| 4.Əsas məhsuldar qüvvə | Qul. Kənd icması saxlanılır. Sənətkarlıq əsasən şəhərlərdə intişar tapır. | Kəndli-icma üzvləri və sənətkarlar. Torpaqdan kollektiv istifadə, sənətkarlıq, icma daxilində kənd ərazi icması. |
| 5.Köləliyin xarakteri | Antik köləlik. Əhalinin ümumi sayında qulların xasusi çəkisinin böyüklüyü. | Patriarxal köləlik. Qulların xüsusi çəkisi cüzidir. Qul əməyi qismən irriqasiya sistemlərində tətbiq olunur. Qullar əsasən nökər funksiyalarını yerinə yetirirlər. |

downloaded from KitabYurdu.org

## VI fəsil. Türklər qədim dövrdə

Türk tayfalarının ən qədim və qədim dövr tarixinin (eləcə də, orta əsrlər tarixinin) sistemli və obyektiv surətdə qiymətləndirilməsi problemi bu gün də problem olaraq qalmaqdadır. Aparılan araşdırmalar göstərir ki, ümumiyyətlə tarixdə 110 türk dövləti mövcud olmuşdur.[138] Bununla yanaşı, türklərin dövlətçilik tarixinin qədimiliyi ilə bağlı problemlər hələ də qalmaqdadır. Aparılan tədqiqatlar türkün dövlətçilik tarixinin e.ə. III əsrdə Mərkəzi Asiyada Hun dövlətindən başladığı haqqındakı təsəvvürlərin yanlışlığını üzə çıxarmışdır.

Problemin kökündə dayanan əsas məsələ "e.ə. I minillikdə Ön Asiyada, Orta Asiyada, Cənub-Şərqi Avropada və Azərbaycan ərazisində mövcud olmuş bir sıra siyasi qurumların etnik mənsubiyyəti məsələsində tarixşünaslıqda hələ də yanlış mövqe hökm sürməkdədir".[139]

Belə ki, Mesopotamiyada Şumer, Cənubi Azərbaycanda (e.ə.I minillikdə) Manna (e.ə.IX-VII əsrlər), Midiya (e.ə.VII əsr – 550-ci il) və Atropatena (e.ə.IV əsr və b.e. III əsri), Şimali Azərbaycanda Alban dövləti (e.ə. IV əsr – b.e. VII əsri), Cənubi Qafqazda Skif çarlığı (e.ə. VII-IV əsrlər), Cənub-Şərqi Avropada skif çarlıqları (e.ə.VII-IV əsrlər) və Sarmat (e.ə.IV əsr- b.e.III-IV əsrləri) və s. dövlət qurumlarının etnik mənşəyini tamamilə yalnış olaraq İran mənşəlilərinə aid etmişlər. Əslində isə sadalananların əksəriyyəti türk dövlətləri olmuşdur. Ümumiyyətlə, türkün dövlətçilik tarixi e.ə.I minillikdən – Dəmir dövründən başlanır.

### § 6.1. Qədim türkün iqtisadi sistemi

E.ə. I minillikdə Avrasiyada mövcud olmuş əksər türk dövlətləri, öz mahiyyəti etibarilə köçəri-maldar tayfaların siyasi ittifaqı formasında fəaliyyət göstərmişlər.

Qədim türk xalqlarında "Dövlət" və "Xalq" anlayışları identik məna kəsb edirdi və çox zaman "El" adlanırdı.[140] "Köçəri maldarlığın təkmilləşməyə ehtiyacı olmayan təsərrüfat forması"[141] kimi mövcudluğu bu əsasda yaranmış dövlət qurumlarının uzun müddət ərzində yaşamasına imkan verirdi (L.Qumilyov).

---

138 Rafiq Özdək. Türkün qızıl kitabı. Bakı. 1992.- S.28

139 Əsməd Muxtarova. Türk xalqlarının dövlətçilik tarixi. Bakı, 2002.- S.16.

140 Əsməd Muxtarova. Türk xalqlarının dövlətçilik tarixi. Bakı, 2002.- S.22.

141 Yenə orada. S.23.

downloaded from KitabYurdu.org

Qədim türklərin iqtisadi fəaliyyəti bütünlüklə şərq təsərrüfatçılıq tipinə uyğun idi.

Belə ki, köçəri maldarlıq, öz təbiətinə uyğun olaraq xüsusi mülkiyyət (istehsal vasitələri üzərində) doğura bilməzdi. Torpaq – köçəri maldar tayfaları arasında bölünürdü ki, bu da məzmun etibarilə dövlətin həlledici rolunu ön plana çıxarırdı. İnkişaf getdikcə yeni otlaq yerlərinə tələbat yaranırdı ki, bu da saysız-hesabsız müharibələrin əsas səbəbi rolunda çıxış edirdi.

Eyni zamanda, qədim türk tayfalarının bir qismi şəhər və kəndlərdə məskunlaşmış, əkinçiliklə məşğul olmuşlar.

Bəşər tarixində ilk dəfə olaraq at, qoyun və keçi kimi ev heyvanlarının əhliləşdirilməsi Avrasiyada başlanmışdır.[142] Eyni zamanda, ilk metaləridənlərin də qədim türklər (Altay) olması qənaəti mövcuddur.[143] Dəmir dövrünün başlanması “Böyük çölü” (Monqolustan, Orta Asiya, Altay, Sibir və Cənub-Şərqi Avropanı əhatə edir) hərəkətə gətirdi. Tarixdə ilk dəfə olaraq süvari ordu yaradan qədim türklərin maldar tayfaları şərqdən qərbə doğru yönəlməyə başladılar. Maldar - əkinçi tayfalarının kütləvi şəkildə köçəri maldarlığa keçidi ilə Tunc dövründən mövcud olmuş yarımqazma evlərdən ibarət oturaq yaşayış məskənlərinin yerinə alaçıqlar meydana gəldi.

İbtidai dövrə xas olan həyat tərzi tədricən aradan çıxmağa başlamışdır (e.ə. IX-VIII əsrlər).

Quldarlıq - əksər şərq xalqlarında olduğu kimi, qədim türklərdə də Avropa modelindən fərqli xüsusiyyətlərə malik olmuşdur. Bizim eranın III-IV əsrlərində Orta Asiyada bır sıra türk dövlətləri mövcud olmuşdur: Kuşan, Ağ hun, Kanq, Xarəzm kimi quldarlıq məzmunu daşıyan dövlətlərin fəaliyyəti bütövlükdə türk xalqlarının qədim dövrünün əsas məziyyətlərini özündə ehtiva etmişdir. Bu dövlətlərdə əsasən maldarlıq və əkinçilik sahələri üstünlük təşkil edirdi. Suvarma əkinçiliyi geniş yayılmışdı. Qul əməyindən əsasən suvarma sistemlərinin qurulmasında, məbədlərin və qalaların tikintisində istifadə olunurdu. Bu mənada, əksər şərq xalqlarında olduğu kimi, qədim türk dövlətlərində də qul əməyi aparıcı rola malik deyildir.

Bütün mülkiyyət dövlət başçısına – Xaqana mənsub idi. Yerlərdə əyanlar idarəçilik fəaliyyəti ilə məşğul olur, lakin mülkiyyətçi keyfiyyətlərinə sahib deyildilər.

---

[142] Антонов Н.К. Лексика по тюркологии. Якутск, 1984.- С.21.
[143] Yenə orada. S.21

downloaded from KitabYurdu.org

Elə həmin dövrdən başlayaraq, əksər türk dövlətlərində yeni münasibətlər sistemi – feodalizm formalaşmışdır.

## § 6.2. Ən qədim və qədim dövr Azərbaycanı

Azərbaycan ən qədim yaşayış məskənlərindən biridir. İbtidai dövrün başlanğıc tarixi 1.5 mln. il b.e.ə. təsadüf edir. Həmin dövrə aid olan daş alətlər hələ 400 min il əvvəl Azıx mağarasında yaşayan ilk insanlar tərəfindən hazırlanmışdır. Azıxantroplar ovçuluq və yığımla məşğul olmuş, oddan istifadə etmişlər.

Son Paleolitdə (40-14 min il b.e.ə.) qəbilə icması formalaşmağa başlamışdır (cədvəl 6.1). Əksər Qədim Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da ilkin olaraq qan qohumluğu əsasında icmalar formalaşmış və həmin ölkələrdə gedən proseslərə paralel olaraq (bəzi istisnalarla) davam etmişdir.

Azərbaycanda matriarxat dövrü eneolitin sonunadək (b.e.ə. IV minillik) sürmüşdür.

Ox və kamandan istifadə (e.ə. XII-VIII minilliklərdə) mezolit dövrünə təsadüf edir.

Bu dövrdə balıqçılığın yaranması qədim insanın qida rasionunun zənginləşməsində mühüm rol oynamışdır.

Digər ərazilərdə olduğu kimi, Azərbaycanda da icma həyatında kardinal dəyişikliklərin baş verməsi, əkinçilik və maldarlığın yaranması, ümumiyyətlə "istehsal" iqtisadiyyatına keçid neolit dövrünə (b.e.ə. VII-VI minillik) təsadüf edir.

"Neolit inqilabı" qədim Azərbaycan sakinlərini ərzaqla təchizat üzərində nəzarət imkanı əldə etməsinə şərait yaratdı. Qobustanda həmin dövrə aid olan müxtəlif əmək alətləri (daş toxalar, dən daşları, biçin bıcaqları və oraq dişləri) tapılmışdır. Təbriz yaxınlığındakı Yanıqtəpə və Sulduz düzündəki abidələr neolit dövründə oturaq əkinçi-maldar təsərrüfatının mövcudluğundan xəbər verir. Eyni zamanda, sözügedən dövr, həmçinin sənətkarlığın yaranması, dulusçuluq, toxuculuq, eləcə də tikinti işlərinin ilkin olaraq yarandığı dövr kimi əlamətdardır.

Əmək alətlərinin imkan məhdudluğuna baxmayaraq 10-a qədər taxıl növü (buğda, arpa, darı və s.) əkilirdi.

Azərbaycanın qədim sakininin metalla ilk tanışlığı eneolit dövrünə təsadüf edir. Arxeoloji qazıntılar ən qədim mis alətlərin (soyuq döymə üsulu ilə hazırlanmış 20-dək kiçik mis alətlər) mövcudluğunu üzə çıxarmışdır.

downloaded from KitabYurdu.org

Patriarxat dövrü erkən tunc dövründən başlanır (e.ə. IV minillik). Bu dövr Azərbaycanda, təxminən 2 min il davam etmişdir. Qeyd edilən zaman kəsiyi ərzində iqtisadiyyatda, sosial münasibətlər sistemində əsaslı dəyişikliklər baş vermiş, icmanın dağılması nəticəsində tamamilə yeni siyasi situasiya formalaşmış, dövlətin ilk rüşeymləri meydana çıxmağa başlamışdır. B.e.ə. III minilliyin birinci yarısından etibarən toxa əkinçiliyi xış əkinçiliyi ilə əvəzlənmişdir. Məhz bu dövrdə Azərbaycanın cənubunda, eləcə də Kür-Araz vadisində iri tayfa birlikləri yaranmışdır.

***Cədvəl 6.1***

***Azərbaycanda ibtidai dövrün xronosxemi***

| *Geoloji taksonomlar* | | | *Arxeoloji taksonomlar* | *Tarixi mərhələlər* | *İnkişaf mərhələləri* | |
|---|---|---|---|---|---|---|
| **era** | **dövr** | **epoxa** | | | | |
| | | | P ilkin | | İbtidai | “Mənimsəmə |
| | | **P** | A ------ | 1.5 mln – 40 | sürü | ” iqtisadiyya- |
| | | **İ** | L | min il əvvəl. | | tının primitiv |
| | | **S** | E orta | | | forması |
| | | **T** | O ---- --- | | ---------- | |
| | | **O** | L son | 40 min -14 min | İbtidai | --------------- |
| | | **S** | İ | il əvvəl | icma | “_________” |
| **K** | **D** | **E** | T -------- | e.ə. XII-VIII | -------- | |
| **A** | **Ö** | **N** | M e z o l i t | minilliklər | İbtidai | --------------- |
| **Y** | **R** | | -------- | ---------------- | icma | Ox və |
| **N** | **D** | | **N** ilkin | e.ə. VII-VI | ---------- | kamanın |
| **A** | **Ü** | | **E** | minilliklər | İbtidai | kəşfi |
| **Z** | **N** | | **O** | | icma | --------------- |
| **O** | **C** | | **L** ----------- | | | “İstehsal” |
| **Y** | **Ü** | | **İ** son | | | iqtisadiyyatın |
| | | | **T** | | | a keçid |
| | | | --------- | -------------- | ---------- | --------------- |
| | | **-------** | **M** Eneolit | e.ə. VI-IV | | |
| | | **Q** | **E** (mis-daşəsri) | minilliyin I | İbtidai | “İstehsal” |
| | | **O** | **T** | yarısı | icma | iqtisadiyyatın |
| | | **L** | **A** --------- | ----------------- | | ın inkişafı |
| | | **O** | **L** | e.ə. IV minillik | | |
| | | **S** | **E** Tunc əsri | | ---------- | --------------- |
| | | **E** | **P** | --------------- | | |
| | | **N** | **O** --------- | | İbtidai | “__________ |
| | | | **X** | | icma | ” |
| | | | **A** Dəmir əsri | e.ə. XIV-VII | (Tayfa | |

downloaded from KitabYurdu.org

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | **S**<br>**I** | əsrlər | birlikləri)<br>-----------<br>İcma dağılır | ---------------<br>"__________" |

Son tunc dövründə (erkən dəmir dövrünə keçid) – b.e.ə. XIV-VII əsrlərdə - iqtisadiyyatın inkişafı getdikcə daha intensiv şəkildə əmlak bərabərsizliyinə gətirib çıxarırdı. Dəmirdən ilk istifadə e.ə. XII-XI əsrlərdə olmuşdur. E.ə. II minilliyin sonunda artıq metallurgiya özünün yüksəliş dövrünə qədəm qoymuşdur. Azərbaycanın Qədim Mesopotamiya və Ön Asiya ilə müntəzəm ticarət əlaqələri yaranmışdır. Beləliklə, Azərbaycanda icma münasibətlərinin dağılması prosesi b.e.ə. II minilliyin sonu – I minilliyin başlanğıcında başa çatmışdır.

B.e.ə. I minillik ərzində ilk dövlətlər (Manna, Atropaten və Albaniya) yaranmağa başlamışdır. Manna dövləti (b.e.ə. IX əsr) üç əsr ərzində Şərqin güclü dövlətlərindən biri olmuşdur. Qədim Şərq təsərrüfatçılıq modelinin, yaxud Asiya istehsal üsulunun mövcud olduğu əksər dövlətlərdə olduğu kimi, Azərbaycan dövlətlərində də quldarlığın klassik forması qərarlaşmışdır. Bu dövlətdə hakimiyyət irsi xarakter daşıyırdı, hökmdar qeyri-məhdud hakimiyyətə malik idi. Həm dəmyə, həm də suvarma əkinçiliyi inkişaf etmişdir. Eyni zamanda, ərazinin relyefi maldarlığın inkişafı üçün də əlverişli idi. Manna faydalı qazıntılarla (mis, dəmir, qızıl, qurğuşun yataqları və s.) zəngin olmuşdur ki, bu da dağ-mədən və sənətkarlıq sferasında inkişafa güclü təkan vermişdir. Ölkədə dəmirçilik, misgərlik, zərgərlik və silah istehsal edən emalatxanalar fəaliyyət göstərirdi.

B.e.ə. IV əsrin 20-ci illərində Makedoniyalı İsgəndərin imperiyasının süqutu nəticəsində Cənubi Azərbaycanda Atropaten dövləti yaranmışdır. Bu dövlətdə əkinçilik, bağçılıq və üzümçülük iqtisadiyyatın əsas sahələri kimi çıxış edirdi. Həmçinin maldarlıq, dəvəçilik və atçılıq da geniş yayılmışdır. Manna ilə oxşar cəhətləri kifayət qədər çox olmuşdur. Əsas faydalı qazıntılardan olan nefti çox vaxt "Midiya yağı" adlandırırdılar. Ölkə beynəlxalq ticarət yollarının kəsişməsində yerləşirdi. Ellin dövlətləri, Hindistan, Çin və Baktriya (Orta Asiya) ilə sıx ticarət əlaqələri formalaşmışdır.

downloaded from KitabYurdu.org

E.ə. IV əsrin sonları – III əsrin əvvəllərində Araz çayından şimalda Alban dövləti meydana çıxmışdı. Ölkənin əhalisi 26 dildə danışan tayfalardan ibarət olmuşdur.

Əkinçilik güclü inkişaf etmişdir. Əkilən torpaq sahələri ildə iki və ya üç dəfə məhsul verirdi.

Antik dövrdə əsasən taxılçılıq, tərəvəzçilik, bağçılıq, üzümçülük və maldarlıqla məşğul olurdular. Təsərrüfatda balıqçılıq da mühüm yer tuturdu. Sənətkarlığın inkişafı yüksək səviyyədə idi. Bizim eranın ilk əsrlərində şüşə istehsal edilməyə başlandı. Daxili və xarici ticarət yüksək inkişaf səviyyəsinə çatmışdı.

Sosial iyerarxiya dörd təbəqədən ibarət idi:

1. Padşah, ordu başçısı və hakim;
2. Din xadimləri;
3. Hərbçilər və əkinçilər;
4. Qullar.

Asiya istehsal üsulunun bütün xarakterik xüsusiyyətləri Albaniya dövlətinə də xasdır.

downloaded from KitabYurdu.org

## VII fəsil. "İstehsal iqtisadiyyatı": meyillər və təmayüllər. Erkən və klassik orta əsrlər

"İstehsal" iqtisadiyyatı Neolit inqilabından tutmuş 1960-cı illərə qədər uzun bir tarixi dövr ərzində mövcud olmuşdur.




***Şəkil 7.1. "İstehsal" iqtisadiyyatı tarixi-təkamül prosesində***

### §7.1. Orta əsrlərin xronologiyasına müasir baxış

downloaded from KitabYurdu.org

Orta əsrlərin xronologiyası sferasında mövcud olan uyğunsuzluqlar bu gün də qalmaqdadır.

İlkin olaraq orta əsrlər intibah dövründə meydana çıxan ifadə kimi Qərbi Avropanın Roma imperiyasının süqutundan tutmuş intibah dövrünə qədər olan tarixini -xronologiyasını əks etdirmişdir.

"İntibah" anlayışının özü Avropa cəmiyyətlərinin antik dəyərlərə qayıdışını ifadə edirdi. Bu baxımdan Avropada orta əsrlərin konkret tarixi sərhədləri kimi V-XIV əsrlər götürülür.

Orta əsrlərin və yeni dövrə keçidin xronoloji sərhədləri ilə bağlı bəzi ziddiyyətli məqamlar mövcuddur. Belə ki:

1. orta əsrlər birmənalı olaraq feodalizm ictimai-iqtisadi formasiyasının tarixi sərhədləri kimi qəbul edilir;
2. qeyd edilən anlamda Qərb və Şərqin xronologiyası üst-üstə düşmür;
3. sırf iqtisadi anlamda mövcud yanaşma problemli situasiya yaradır.

Hər şeydən əvvəl, qeyd edək ki, Şərq ölkələrində "qədim dövrə" qayıtma prosesi (intibah) I-II minilliklərin kəsişməsində müşahidə edilir.

Məsələn, Çində-VII-VIII əsrlər; ərəblərdə IX-XI əsrlər və s. Məhz bu nöqteyi-nəzərdən çıxış edən marksist tədqiqatçılar sözügedən dövrü orta əsrlər kimi qələmə almışlar.

Tarixi prosesin xətti-mərhələli paradiqmasından yanaşanların zatən başqa bir çıxış yolu da yox idi. Ümumdünya tarixi prosesin vahidliyini əsas gətirərək Şərq ölkələrinə aid etdikləri "orta əsrləri" də (Avropada olduğu kimi) feodalizm adlandırırdılar. Beləliklə, konkret tarix süni şəkildə mərhələ uyğunluğuna – feodalizmin eyni vaxtda meydana çıxmasının sübutuna qurban verilirdi.

İnsan cəmiyyətinin inkişafında tipoloji olaraq müxtəlif qanadlara aid olanların "birləşdirilməsini", bəzi tədqiqatçıların ifadə etdikləri kimi, "möcüzə" adlandırmaq olar.

Marksist baxışa görə ( əslində, söhbət sovet tədqiqatçılarından gedir) ümum-dünya tarixi miqyasda feodalizmin təşəkkülünü şərtləndirən proseslər (orta əsrlərdə) həm Şərq, həm də Qərb üçün ümumi xarakter daşımışdır:

- Tarixi arenada "gənc" xalqların – barbarların meydana çıxması;
- Feodal bazisinin üstqurumu kimi dinin xüsusi rolu;
- İdeoloji və siyasi təşkilat kimi kilsənin xüsusi rolu;

downloaded from KitabYurdu.org

- Sülh və hərb yolu ilə, iqtisadi və mədəni əlaqələr qurmaqla Şərq və Qərbin tarixi həyatının ümumiliyinin güclənməsi.

Əslində, feodalizm və ümumiyyətlə, orta əsrlərlə bağlı irəli sürülən arqumentlər haradasa Avropa üçün keçərli olsa da, Şərqə münasibətdə elə bir əhəmiyyət daşımırlar.

Qədim dövrdən fərqli keyfiyyət səviyyəsinin formalaşması, eləcə də konkret xronoloji sərhədləri müəyyənləşdirməyin mümkünlüyü orta əsrləri Avropa tarixinin (ələlxüsus – Avropa tarixi-iqtisadiyyatının) xüsusi mərhələsi, yaxud kateqoriyası kimi götürməyə imkan verir. Lakin məlumdur ki, Şərq ölkələrində formalaşmış situasiya qədim dövrdən, məhz tipoloji aspektdə - elə də fərqlənmirdi. Əsas fərq yalnız kəmiyyət çoxalmasında, kəmiyyət göstəricilərinin səviyyəsində təzahür edirdi. Keyfiyyət aspektində isə əsasən əvvəlki yaranışların (strukturların) tədrici təkmilləşməsi baş verirdi. Məsələn, Çində konfutsiçiliyin, müsəlman aləmində islamın təsiri nəticəsində dövlətin yeri, rolu və funksiyaları daha da güclənir, möhkəmlənirdi (Qədim dövrlə müqayisədə).

Aydındır ki, kəmiyyət çoxalması əsasında gedən tarixi prosesin ortalığa qoyduğu yaranışın keyfiyyətcə fərqli bir şey olmadığı üçün, ona fərqli tipoloji prizmadan yanaşmaq düzgün olmazdı.

Ümumiyyətlə, seçilən kriteriyadan, eləcə də hansı hadisə və proseslərin əsas kimi götürülməsindən asılı olaraq orta əsrlərin mahiyyəti və xronologiyasını müxtəlif cür şərh etmək olar. Məsələn, marksist anlamda cəmiyyətdə feodal münasibətlərinin hökmranlığı mərhələsi kimi orta əsrlər (Avropaya münasibətdə) Şərqdə mövcud olmamışdır.

Bununla yanaşı, o da məlumdur ki, sözügedən dövr həm Qərb, həm də Şərqdə siyasi əks-mərkəzləşmə - "pərakəndələşmə" ilə müşayiət olunmuşdur. Bu proses Avropada qısa zaman kəsiyini əhatə etmişdir. Digər tərəfdən, yaranmış siyasi "boşluq" şəhərlərin həm iqtisadi, həm də sosial-siyasi həyatda rolunun güclənməsi ilə, bir növ siyasi mərkəzləşməyə alternativ variantla əvəzlənmişdir.

Şərq ölkələrində isə siyasi dağınıqlıq uzun tarixi proses ərzində mövcud olmuş və Avropadan fərqli olaraq, məhsuldar qüvvələrin və əmtəə-pul münasibətlərinin zəif inkişafına söykənmişdir. Qeyd olunan məzmunlu "siyasi feodalizm" ictimai həyatın heç bir sferasında irəliləyişə şərait yaratmamışdır.

Göründüyü kimi, "orta əsrlər" adlanan, feodalizm ictimai-iqtisadi formasiyası kimi səciyyələndirilən tarixi dövrdə inkişafın Avropa qanadı təkmilləşmə yönümündə davam etmiş, Şərqdə isə əvvəlki Qədim Şərq

downloaded from KitabYurdu.org

strukturlarının sadəcə olaraq möhkəmlənməsi (orta əsrlərsiz və feodalizmsiz ) baş vermişdir.

Sadəcə olaraq, son orta əsrlərdən etibarən Qərb bəşəriyyətin inkişaf tarixinin universal modelinə çevrilməyə başlamış, Avropa tarixinin mərhələləri universal ümumdünya-tarixi mərhələlər kimi qəbul edilmişdir. "Orta əsrlər Şərqi" anlayışının (Avropanın xronologiyasına uyğun olaraq) meydana çıxması ümumdünya tarixi prosesin dövrlənməsini xeyli asanlaşdırmışdır. Amma... Şərq tarixinin dövrlənməsinin isə mürəkkəbləşdirilməsi ilə nəticələnmişdir. Göründüyü kimi, orta əsrlərin xronologiyasına münasibətdə Şərq və Qərb arasında əhəmiyyətli fərqlər mövcuddur. Bazar təsərrüfatının qərarlaşması prosesi (marksist anlamda kapitalizm ictimai-iqtisadi formasiyasının genezisi) Avropada XIV-XV əsrlərdə başlamış və ingilis burjua inqilabı ilə (XVII əsr) orta əsrlər başa çatmışdır. Sübut etməyə ehtiyac yoxdur ki, Asiya istehsal üsulu spontan qaydada, yaxud təkamül yolu ilə kapitalizm doğura bilməzdi – insan hüquqları və xüsusi mülkiyyətin elementar mühafizəsinin yoxluğu şəraitində yeni yaranışa keçidin təbii-tarixi yönümü mümkünsüzdür. Bəzi tədqiqatçıların fikrincə, bunun üçün ‚Şərq ölkələrinə ən azı 7-8 əsr vaxt lazım gələrdi. Ənənəvi şərq strukturlarının ifrat dayanıqlılığı formasiya dəyişkənliliyinin yalnız xarici təsir altında baş tuta biləcəyini ortalığa qoyurdu.

Asiya istehsal üsulu şəraitində kapitalist transformasiyası Avropanın kütləvi müstəmləkələşdirmə və qərbləşmə siyasətinin güclü təsiri altında XIX əsrin ortalarından start götürmüşdür.

(Məsələn, Çində 1840-cı ildə, Yaponiyada 1870-ci ildə analoji dəyişikliklər başlamışdır).

Beləliklə, XIX əsrin ortalarından başlayaraq ümumbəşəri inkişafın iki qanadı arasında (qərbləşdirmə siyasəti nəticəsində) yaxınlaşma müşahidə edilirdi. Şərq-Qərblə müqayisədə - kapitalizmə 200 il gec keçmiş və elə həmin dövrdən də kapitalist sisteminin əyalətinə çevrilmişdir.

Bütün bunları nəzərə almaqla, qeyd etmək lazımdır ki, orta əsrlər → yeni dövr zaman sürəclərinin bu gün qüvvədə olan konkret sərhədləri dünya iqtisadiyyatının tarixi nöqteyi-nəzərindən adekvat deyildir. Belə ki:

1. Dünya iqtisadiyyatı tarixi kateqoriyadır və bu anlamda da bəşəriyyətin bütün inkişaf tarixini əhatə etmir. Onun genezisi Avropada XV əsrdən, Şərqdə isə XIX əsrdən başlanır.

downloaded from KitabYurdu.org

2. Dünya iqtisadiyyatı – planetar səviyyəni bütövlükdə əhatə edən sistemli yaranışdır. Yəni, yalnız Avropa tarixinə istinadla onun formalaşma dövrünü dəqiq müəyyənləşdirmək mümkünsüzdür.
3. Ümumbəşəri tarixi prosesin hər iki tərəfinin (Şərq və Qərb) "davranış" tərzini nəzərə almaqla orta əsrlərin aşağıdakı ardıcıllıqla dövrlənməsini məqsədəuyğun hesab edirik;

   Erkən orta əsrlər (V-XI) → klassik orta əsrlər (XI-XV) →son orta əsrlər (XV-XVIII).
4. Qeyd edilən dövrlənmə, həmçinin "istehsal" iqtisadiyyatının inkişaf spesifikasına tam şəkildə uyğun gəlir. Başqa sözlə, Avropada bazar təsərrüfatının qərarlaşması iqtisadiyyatda (onun "istehsal" xarakterində) mahiyyət dəyişiklikləri ilə müşayiət olunmamışdır. Dəyişən iqtisadi proseslərin təşkili, idarəedilməsi, tənzimlənməsi və əsas subyektlərin fəaliyyət mexanizmi olmuşdur. Bizim dövrləmədə qeyd edilənlər ikinci dərəcəli amillər keyfiyyətində çıxış edirlər. Başqa sözlə, yalnız forma dəyişkənliyi, forma yeniləşməsi səciyyəsi daşımaqla iqtisadi prosesin ana xətti kimi götürdüyümüz yanaşmada – nemətlərin istehsalının "maddi" formasının hökmran mövqelərində heç bir dəyişikliyə zəmin yaratmır.

## §7.2. Erkən və klassik orta əsrlərin "istehsal iqtisadiyyatı"

Erkən və klassik orta əsrlərin "istehsal" iqtisadiyyatı iqtisadi həyatın sabitliyi ilə səciyyələnirdi. Aqrar cəmiyyətdən əxz edilmiş "ənənəviçilik" yalnız yaşayış minimumu səviyyəsində (sadə təkrar istehsal çərçivəsində) nemətlərin əldə olumasını, ənənəvi istehlak tipinin davam etməsini saxlayırdı. Natural təsərrüfat çərçivəsində istehlaka yönəlik tələbin həcmi kifayət qədər aşağı idi. İndustrializməqədərki dövrdə əhalinin böyük hissəsi gəlirlərinin yarıdan çoxunu qida məhsullarının əldə olunmasına yönəldirdi. Qida rasionunun strukturu həm ayrı-ayrı təbəqələr, həm də regionlar üzrə dəyişirdi. Bununla yanaşı, yaşayış minimumunun sərhədlərini (informasiyanın yoxluğu ucbatından) dəqiqləşdirmək mümkün deyil.

Bir sözlə, sözügedən dövrdə "mənfəət" nəinki fəaliyyətin elementi, heç anlayış şəklində də işlədilmirdi.

Əməyə münasibətdə iki məqam fərqləndirilirdi: "Əmək" (qulların əməyi) və "iş" (sənətkarların əməyi). Təsərrüfat mədəniyyəti yalnız XV əsrdən başlayaraq iqtisadi, sosial və mədəni proseslərin təsiri altında

downloaded from KitabYurdu.org

dəyişməyə başlamış, son orta əsrlərdə (XV-XVIII) dəyişiklik prosesi əhəmiyyətli dərəcədə intensivləşmişdir.

Bir sıra tədqiqatçıların qənaətinə görə, XII əsrdə Çindən hərəkətə keçən iqtisadi konyunkturanın böyük tsiklləri məhz bu yarmarkalara yönəlirdi. XIV-XV əsrlərdə yarmarkalar əvvəlki mövqelərini itirməyə başlayır. Avropa ticarətinin əsas mərkəzi kimi Brüqqe (Flandriya) ortalığa çıxır. Sosial-iqtisadi və siyasi situasiyanın pisləşməsi tacirlərin adekvat reaksiya verməsini tələb edirdi. Bununla əlaqədar olaraq, öz mənafelərini qorumağa çalışan tacirlər müxtəlif gildiyalar və qanzalar (şəhərlərarası ittifaq) yaradırdılar. Bunların içərisində tacirlərin ticarət-siyasi ittifaqı kimi yaradılmış və 170 şəhəri əhatə edən Qanza ittifaqı xüsusi yer tuturdu. Bu ittifaq XII əsrdən XVII əsrə qədər fəaliyyətdə olmuşdur. İttifaq Şimali Avropa ticarəti üzərində inhisar imtiyazlarına malik olmuş, özünün ticarət donanması və xaricdə ticarət koloniyaları mövcud idi.

Yeni ticarət yollarının axtarışı böyük coğrafi kəşflərə gətirib çıxardı. Yeni bazarlara çıxış, öz növbəsində orta əsr Avropa iqtisadiyyatının güclü inkişafına təkan vermiş oldu.

"İstehsal" iqtisadiyyatının orta əsrlər dövrü marksist yanaşma çərçivəsində feodalizm ictimai-iqtisadi formasiyası adlanır.

***Cədvəl 7.1***

***Feodalizmin tarixi dövrlənməsi***

| Orta əsrlər | Xronoloji çərçivə | | Mərhələnin məzmunu |
|---|---|---|---|
| | Qərb | Şərq | |
| 1. Erkən orta əsrlər | V-XI əsrlər | II-XI əsrlər | Çoxukladlı iqtisadiyyat şəraitində feodal münasibətlərinin qərarlaşması, iri torpaq mülkiyyətçiliyinin formalaşması; |
| 2. Klassik orta əsrlər | XI-XV əsrlər | XI-XVI əsrlər | Kənd təsərrüfatında və sənətkarlıqda əmək məhsuldarlığının yüksəlişi, əhalinin əhəmiyyətli artımı, ticarət-sənətkarlıq mərkəzləri kimi şəhərlərin inkişafı; |
| 3. Son orta əsrlər | XVI-XVIII əsrlər | XVIII-XIX əsrlər | Feodalizmin tədricən dağılması və kapitalizm elementlərinin yaranması; ilkin kapital yığımı; |

Feodalizm – yeganə inkişaf mərhələsidir ki, bu mərhələni demək olar əksər ölkələr keçmişlər. Lakin feodal təsərrüfat tipinin formalaşması

downloaded from KitabYurdu.org

müxtəlif məzmunlu bir proses kimi mövcud olmuşdur. Belə ki, bir qrup ölkələr birbaşa ibtidai-icma dövründən, bəziləri quldarlıqdan, digərləri isə "Asiya" təsərrüfatçılıq modelindən feodalizmə keçmişlər. Başqa sözlə, feodalizmin qərarlaşması iki yolla getmişdir:

1.Sintez yolu ilə (yəni, quldarlıq elementlərindən törəyərək);

2.Təkamül yolu ilə (yəni, barbarlıq mərhələsindən qaynaqlanaraq).

Feodalizmin qərarlaşdığı dövr "istehsal" iqtisadiyyatının bazaraqədərki genezisinin birinci dövrüdür. Bu dövrün əsas xarakterik xüsusiyyətləri sırasına aşağıdakıları aid etmək olar:

1.Natural təsərrüfat ("qapalı") – istehsal edilmiş məhsul istehsal yerində də istehlak olunur. Yəni istehsalçı öz tələbatını ödəmək üçün məhsul istehsal edir. İstehsal və istehlak həmin təsərrüfatın çərçivəsindən kənara çıxmır.

2. Mübadilə - "mənimsəmə" iqtisadiyyatına xas olan mahiyyətdə həyata keçirilir.

3. Əmtəə istehsalı yoxdur.

4. Bazar yoxdur.

Təbiidir ki, "yoxdur" ifadəsi mütləq məna daşımır. Həm mübadilə, bazar, həm də əmtəə istehsalı mövcuddur və öz ehtiyacları üçün istehsalla müqayisədə çox cüzi əhəmiyyət kəsb edirlər. Bir sözlə, təsərrüfata təsiri ifrat səthi xarakter daşıyır. Sonrakı – bazar mərhələsindən fərqli olaraq, qeyd olunanlar həmin dövrün əlamətləri sırasına daxil deyildir və ona görə də, sözügedən epoxanı – yəni "istehsal iqtisadiyyatının" erkən formasını natural təsərrüfat kimi səciyyələndiririk. Qeyd edək ki, K.Blüxerin təsnifatında bu dövr "qapalı ev təsərrüfatı" dövrü adlanır. Qeyd etmək lazımdır ki, təsərrüfat həyatının dövrlər üzrə bölgüsünə yanaşmada elmi fikirdə müxtəlif baxışlar mövcuddur. Yanaşma müxtəlifliyini qruplaşdırılmış şəkildə aşağıdakı kimi ifadə etmək olar:

1. Təsərrüfat həyatının konkret dövrlərə bölünməsinə ehtiyac yoxdur. Belə ki, bu və ya digər hadisə, yaxud proses bütün dövrlərdə mövcud olmuşdur. Məsələn, natural və mübadilə təsərrüfatı (bazar) həm erkən, həm də son orta əsrlərdə paralel şəkildə fəaliyyət göstərmişlər. Əlbəttə, bu cür baxışla razılaşmaq mümkün deyildir. Ona görə ki, əvvəla qeyd edilən yanaşmanın daxili məntiqinə istinadla təsərrüfat həyatının gedişi prosesini anlamaq mümkünsüzdür; İkincisi, dövrlənmədə əsas aksept hökmran mövqedə olan təsərrüfat tipinin üzərinə düşür. Bu anlamda, erkən orta əsrlərdə natural təsərrüfat aparıcı

downloaded from KitabYurdu.org

rola malik olmuşdur (mübadilə aktları isə daha çox istisna xarakteri daşımışdır). Onların mahiyyətcə eyniləşdirilməsi təbii ki, qəbul edilə bilməz.

2. K.Blüxerin təsnifatına ("qapalı ev təsərrüfatı") müxtəlif məzmunlu əlavələr edilir:
   - Erkən orta əsrlər üçün ticarətin rolunun daha qabarıq şəkildə ifadə olunması zərurəti; "qapalı ev təsərrüfatı" ideal təsərrüfat tipi kimi səciyyələndirilir və qeyd olunur ki, həyat (iqtisadi) bu tipə yalnız yaxınlaşır, yəni onun tam şəkildə oturuşması ola bilməz.
   - Başqa bir yanaşmaya görə təsərrüfat vahidlərinin mübadilədən mümkün çərçivədə asılı olmağa can atması erkən orta əsrlərin xarakterik cəhəti hesab olunur. Bununla yanaşı, göstərilir ki, ilkin tələbat malları ilə ticarət mövcud olmuşdur, belə ki, bunsuz bəzi ərazilərdə ümumiyyətlə, təsərrüfat mövcud ola bilməzdi.
3. K.Blüxerin təsnifatını inkar edən yanaşmalar. Məsələn, V.Zombart belə bir mövqedə olmuş, lakin mahiyyətcə eyni fikri (başqa ifadələrlə) ifadə etmişdir.

Klassik orta əsrlər "istehsal" iqtisadiyyatının bazaraqədərki ikinci mərhələsidir. Bu dövr sadə əmtəə təsərrüfatı, yaxud şəhər təsərrüfatı dövrü kimi də səciyyələnə bilər. Dövrün əsas xarakterik cəhətlərindən biri ondan ibarətdir ki, ölkədaxili iqtisadi subyektlərin ayrıca bir təsərrüfat kimi ("qapalı") bölgüsü daha iri miqyasa – bütöv rayonlar, ərazilər (mərkəz-şəhərlər olmaq etibarilə) - transfer edir. Belə geniş miqyasda formalaşan təsərrüfat həyatı rəngarəngliyi ilə nəzər-diqqəti cəlb edir. Müvafiq surətdə əmək bölgüsünün də miqyası genişlənir. Dəyişən şərait, yəni təsərrüfat həyatının miqyas genişlənməsi mübadiləni zəruri proses halına gətirmişdir ki, bu da şəhər əhalisinin ayrı-ayrı qrupları arasında əlaqəni ayrıca təsərrüfat daxilində (erkən orta əsrlərdə) mövcud olan əlaqələrdən kəskin surətdə fərqləndirmişdir.

Başqa sözlə, mübadilə - özünün real məzmununu kəsb etməyə başlamışdır.

Şəhər bazarlarındakı birbaşa mübadilə bu dövrün əsas fərqləndirici xüsusiyyəti hesab oluna bilər. Belə ki, bu halda təkcə şəhərdə fəaliyyət göstərən sənətkar deyil, həmçinin də kəndlilər bazar üçün istehsal etməyə başlamışdılar ki, bu da təsərrüfatın əvvəlki natural xarakterinin itirilməsi, əmtəə təsərrüfatına keçməsi anlamında qəbul edilə bilər.

downloaded from KitabYurdu.org

Bununla yanaşı, söhbət heç də mütləq anlamda əmtəə təsərrüfatının qərarlaşmasından getmir. Yenə də istehsalın böyük bir hissəsi daxili istehlaka yönəldilir. Sadəcə olaraq müxtəlif növ vergilərin (rüsumların və s.) pulla ödənilməsi zərurəti kəndlilərə məhsulun bir hissəsini satışa çıxarmaq məcburiyyəti yaradır. Eyni zamanda, açıq şəkildə müşahidə etmək mümkündür ki, sözügedən mübadilə təsərrüfatı pul təsərrüfatı kimi də təzahür edir. Şəhərdaxili və ətraf kəndlərlə mübadilə üstün xarakter daşımaqla, şəhərlər, eləcə də ölkələrarası müstəviyə keçir.

Bu əlaqələrin mühümlüyü heç də əksər ərazilərdə (şəhərlərdə) bərabər səviyyəli olmamışdır. Belə ki, bəzi şəhərlər böyük ticarət mərkəzlərinə çevrildiyi halda, digərləri üçün ticarət o qədər də əhəmiyyətli rol oynanamışdır.

Həmçinin, qeyd edilməlidir ki, ticarətin obyekti kimi yalnız müəyyən mal qrupu çıxış edirdi. Digər məmulatlar bu sferaya daxil edilməmişdir. Yerli mübadilə birbaşa (istehsalçı→istehlakçı) yolla aparılırdısa, şəhərlər və ölkələrarası mübadilə vasitəçilər tərəfindən həyata keçirilirdi ki, bu da ticarət kapitalının, eyni zamanda ilkin formada ssuda kapitalının meydana gəlməsini şərtləndirirdi. Ticarət və ssuda kapitalının meydana çıxması yalnız bir sıra şəhərlərdə müşahidə edilirdi. Əksər ərazilərdə isə sadə əmtəə təsərrüfatı hökmran mövqedə qalmaqda idi. Həmçinin, kapitalın hər iki formasının meydana çıxdığı ərazilərdə də, ticarət və kredit istisna olmaqla, istehsalın əvvəlki forması saxlanılırdı. Son orta əsrlərdə formalaşmış iqtisadi situasiyanın birmənalı qiymətləndirilməsi problemi bu gün də öz aktuallığını saxlamaqdadır. Hələ K.Marks yazırdı ki, “.... Kapitalist təsərrüfatı (əmtəə təsərrüfatı-Ə.B.) XIV-XV əsrlərdə Aralıq dənizi hövzəsində yerləşən ölkələrdə meydana gəlməyə başlamışdır”. Lakin onun fikrincə, kapitalizm yalnız XVI əsrdən formalaşmağa başlamışdır. Eyni zamanda, göstərirdi ki, orta əsrlərdə yaranan ticarət və ssuda kapitalının sənaye kapitalina çevrilməsini əngəlləyən başlıca maneə feodal quruluşu olmuşdur.

B.Qilderband orta əsrlərin əsas xüsusiyyətini çoxlu sayda “qapalı” təsərrüfat vahidlərinin mövcudluğunda görürdü. Şenberq isə qeyd edirdi ki, orta əsrlərdə xalq təsərrüfatı olmayıbdır. Yalnız xüsusi “qapalı” təsərrüfat orqanizmi kimi şəhər təsərrüfatları mövcud idi.

Öz çərçivəsində qapanmağa canatmanı Şmoller şəhərlərin əsas xüsusiyyətlərindən biri hesab edirdi. Eyni zamanda, göstərirdi ki, şəhərlər bütün vasitələrdən istifadə etməklə iqtisadi və siyasi təsirini ətraf ərazilərə yaymağa çalışırdılar. Blüxerə görə isə erkən orta əsrlərin qapalı

downloaded from KitabYurdu.org

ev təsərrüfatı dövrü şəhər təsərrüfatı dövrü ilə, yəni birbaşa mübadilə, birbaşa istehlakçıya yönəlmiş istehsal dövrü ilə əvəzlənir.

Beləliklə, hər bir şəhər öz ətrafı ilə birlikdə avtonom təsərrüfat vahidinə çevrilir. İqtisadi həyat müəyyən edilmiş qaydalar əsasında (həmin çərçivədə) öz axarı ilə gedir.

Əksər tədqiqatçılar sözügedən dövrün əsas mahiyyətinə yanaşmada yekdil mövqedən çıxış edirlər:

1. istehsalın böyük hissəsi təsərrüfatın çərçivəsindən kənara çıxmır.
2. yalnız cuzi bir hissəsi mübadilə yolu ilə digər təsərrüfatlara keçir. Bu keçid çox qısa yolla: İstehsalçıdan istehlakçıya doğru yönəlir.
3. əmtəə dövriyyəsi yoxdur (sistem olmaq etibarilə). Yalnız bəzi məhsullar əmtəəyə çevrilə, pul forması ala bilirlər. Amma birbaşa mübadilə sistemindən istisna olaraq ayrılır və bütövlük - təsərrüfat tipinə xas olmayan element kimi çıxış edir.

Bəzi tədqiqatçılar qeyd edilən yanaşmanın müəyyən düzəlişlərlə qəbul edilməsinin tərəfdarı kimi çıxış edirlər. Məsələn, bir yanaşmaya görə xaç yürüşləri dövrü və orta əsrlərin sonuncu yüzillikləri şəhər təsərrüfat dövrü kimi xarakterizə olunur, lakin bu dövrün qədim epoxadan müasir dövrə yönəlik təsərrüfatın inkişafında orta pillə keyfiyyətində qəbulunu mümkünsüz hesab edir. Belə ki, şəhər təsərrüfatı orta əsr mədəniyyətinin inkişafında hadisə kimi nəzərdən keçirilməlidir. Eyni zamanda, şəhərdaxili müstəvidə həyata keçirilən mübadiləni istisnasız olaraq hərəkət keyfiyyətində anlamaq olmaz. Digər tədqiqatçı (Belov) isə Blüxerə etiraz edərək göstərir ki, ticarəti – birbaşa mübadilənin istisna halı kimi səciyyələndirmək olmaz.

V.Zombart isə ümumiyyətlə, şəhər təsərrüfatı anlayışını sənətkarlıq sistemi anlayışı ilə əvəz etməyə çağırır. O hesab edirdi ki, ticarətçilərin özü də sənətkar olmuşlar. O, eyni zamanda, orta əsrlər ticarətinin rolunu əhəmiyyətli dərəcədə yüksəltməyi yanlışlıq hesab edirdi.

Ümumiyyətlə, marksist anlamda feodalizmin əsas xarakterik xüsusiyyətləri kimi aşağıdakıları göstərmək olar:

1. iri torpaq mülkiyyətinin hökmranlığı;
2. kəndlilərin xüsusi statusu: torpaq üzərində mülkiyyətə malik deyildirlər, lakin ondan istifadə edirdilər (müxtəlif şərtlərlə) və hətta, istifadədə olan torpaq payının irsi keçməsi də mövcud olmuşdur!

downloaded from KitabYurdu.org

3. kəndlilərə qarşı qeyri-iqtisadi məcburetmənin müxtəlif formalarının tətbiqi;
4. natural təsərrüfatın hökmranlığı şəraitində aqrar sektorun ticarət və sənayedən üstünlüyü;
5. texnikanın və biliklərin ifrat aşağı səviyyəsi.

Feodal mülkiyyətin təkamülü həmin dövr iqtisadiyyatının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edirdi. Əsas fərqləndirici xüsusiyyət ondan ibarət idi ki, mülkiyyət xüsusi olsa da, mütləq anlam kəsb etmir və müəyyən şərtiliyi özündə əks etdirirdi. Hər bir iri feodal hərbi xidmət keçmək müqabilində kiçik feodallara müəyyən torpaq payı verirdi. Bu da xüsusi sistemin – feodal-təbəqələşmə iyerarxiyasının (vassal münasibətlərinə istinadla) yaranmasına gətirib çıxarmışdır. Feodal rentası – mülkiyyətin realizasiyasının əsas iqtisadi forması kimi çıxış edirdi. Ümumiyyətlə, feodal rentasının 3 növü tətbiq olunurdu:

Biyar, ərzaq (natural sapalaq) və pul.

Feodalizmin sosial-siyasi spesifikasının əsas cəhətləri aşağıdakılardan ibarət olmuşdur:

1. Cəmiyyətin təbəqəli xarakteri;
2. İyerarxik struktur;
3. Korporativ qurumların geniş yayılması;
4. Dini dünyagörüşünün hökmranlığı.

Avropa – feodal cəmiyyətinin göstərilən cəhətlər üzrə mahiyyətini anlamaq baxımından klassik nümunə kimi götürülə bilər.

downloaded from KitabYurdu.org

***Cədvəl 7.2***

***Avropa feodal cəmiyyəti (XI-XV əsrlər)***

| ***İyerarxiya*** | | ***Zümrələr*** | ***Siniflər*** | ***Korporativ quruluş*** |
|---|---|---|---|---|
| Ali səviyyə: (suveren) vassalitet | Monarx (imperator, çar, kral və s.) | 1-ci zümrə: -zadəganlar | Əsas siniflər:<br>-feodallar<br>-kəndlilər | -Rıtsar ordeni;<br>-Monarx ordeni;<br>-Tacir gildiyası; |
| 1-ci səviyyə: suveren-vassallar | Hersoq, qraf, lord, knyaz, ali ruhanilər | 2-ci zümrə:-ruhanilər | Qeyri-əsas olanlar:<br>-sənətkarlar;<br>-tacir və maliyyəçilər;<br>-fəhlələr | -Tacir kompaniyası; |
| 2-ci səviyyə: suveren-vassallar | Baron, markiz, vikont, orta kilsə iyerarxi-yası. | 3-cü zümrə: şəhərlilər, ticarətçilər, maliyyəçilər, azad kəndlilər. | | -Sexlər;<br>-hüquqşünas qildiyası;<br>-həkim qildiyası;<br>-qardaşlıq;<br>-yerliçilik; |
| 3-cü səviyyə: vassallar | Rıtsar, sevalye, zadəgan | | | |

XI əsrdən başlayaraq şəhərlərin iqtisadi əhəmiyyəti sürətlə artmağa başladı. Qeyd edilən yüksəliş əsasən 2 amillə şərtlənir:

1. feodal asılılığından azadolma (şəhərlərin özünəməxsus silahlı müdafiə dəstələri yaranmışdır).
2. feodalın təsir dairəsindən kənarda azad bazar, azad ticarətin mövcudluğu.

Orta əsrlər Avropasının şəhərləri sənətkarlıq, ticarət və kredir mərkəzləri kimi çıxış edirdilər. Orta əsr Qərbi Avropa şəhərlərinin inkişaf genezisi 3 mərhələdən keçmişdir:

1. Erkən orta əsrlər (V-X əsrlər) – bütün iqtisadi proseslər kənd yerlərində cəmləşib. Sənətkarlıq kənd təsərrüfatı əməyi ilə uyğunlaşdırılıbdır.

Şəhərlər – inzibati və dini mərkəzlər rolunda çıxş edirlər;

downloaded from KitabYurdu.org

5. Klassik orta əsrlər (XI-XV əsrlər) - əvvəlki dövrlərdə mövcud olmuş şəhərlər dirçəlməyə başlayır, yeni şəhərlər yaranır. XI-XIII əsr səlib yürüşləri şəhərlərin inkişafında xüsusi rol oynayırlar.

   Şəhərlər – təkcə siyasi və dini deyil, həmçinin iqtisadi və mədəni mərkəzlərə çevrilirlər.

6. Son orta əsrlər – "kommunal" inqilablar və şəhərlərin feodal asılılığından azad olması. Şəhər – respublikalar yaranmağa başlayır (Şımali İtaliyada → Milan, Genuya, Florensiya, Venesiya; Almaniyada → Hamburq, Nyünberq, Strasburq; Fransada → Paris, Orlean; İngiltərədə →London).

Orta əsrlər Qərbi Avropa şəhərləri iqtisadi həyatın strukturu və tərkibi baxımından özünəməxsus xüsusiyyətlərə malik olmuşlar:

1. Orta əsr şəhərləri azsaylı yaşayış məskənləri kimi fəaliyyət göstərirdilər. Məsələn, Almaniyada kiçik şəhərlərin əhalisi 1-5 min nəfər, iri şəhərlərin isə 25-35 min nəfər arasında dəyişirdi.

2. Şəhərin özünəməxsus hüquqları var idi:
   - Bazar;
   - Müdafiəolunma;
   - Şəhərin idarəedilməsi;
   - Feodal öhdəliklərindən azadolma.

3. Əsas siniflərə burjuaziya, tacirlər və sələmçilər, sənətkarlar aid idi.

4. Sənətkarlığın təşkili; Sexlər – sənətkarların istehsal texnologiyaları və öz hüquqlarının mühafizəsi məqsədi ilə peşə yaxud ixtisas üzrə yaradılmış birlik forması olmaqla ciddi şəkildə reqlamentləşdirilmiş ierarxik struktura və qaydalar sisteminə malik idilər. Sexin hər bir üzvü bu qaydalara və reqlamentə əməl etmək məcburiyyətində olmuşdur. İyerarxik struktur 3 təbəqəyə bölünürdü: Ustalar (tamhüquqlu üzvlər); usta köməkçiləri və şagirdlər. Sex – şura (ağsaqqallar) tərəfindən idarə olunurdu. Sexdaxili əmək bölgüsü aparılmamışdır.

İstehsalın həcmi məhsulun keyfiyyəti, işçilərin sayı, iş vaxtı ciddi surətdə reqlamentləşdirilmişdir. Sənətkarlararası qardaşlıq münasibətləri formalaşmışdır. Əsas fəaliyyət sferasına toxuculuq-tikiş, metal emalı və silah istehsalı daxil idi.

Sənətkarlıq sexlərinin təsir dairəsi aşağıdakıları əhatə etmişdir:

downloaded from KitabYurdu.org

1. xüsusi mülkiyyətin dəqiq sərhədlərinin müəyyənləşdirilməsi, mühafisəzi və inkişafı;
2. istehsal texnologiyalarının qorunub saxlanılması və inkişafı;
3. qarşılıqlı yardımın inkişafı;
4. kooperasiyanın təşəkkülü;
5. xarici rəqabətdən mühafizə;
6. sənətkarlığın feodal hakimiyyətindən asılı olmaması.

Ticarətin təşkili aşağıdakıları özündə ehtiva edirdi:

1. Şəhər bazarları, ticarət, əmtəələrin satış qaydaları ("qanunlar"), nəzarət.
2. Yarmarkalar.
3. Tacir və sənətkarların gildiyaları.

Gildiya – müəyyən peşəkar fəaliyyətlə məşğul olan insanların birliyidir.

Gildiyalar inkişaf etdikcə siyasi və iqtisadi həyata daha güclü təsir göstərirdilər.

Sözügedən qurum bir sıra məsələlərin həllinə imkan verirdi:

1. feodal hakimiyyətinə qarşı mübarizə;
2. siyasi təsir;
3. ölçü və çəki vahidlərinin unifikasiyası;
4. peşəkar fəaliyyətin inhisara alınması;
5. rəqabət mübarizəsinin zəiflədilməsi;
6. xüsusi mülkiyyət hüququnun qorunması.

İlkin dövrlərdə sexlər və gildiyalar sənətkarlığın inkişafına fəal surətdə təsir göstərmiş, lakin XIV əsrdən etibarən praktiki olaraq tənəzzülə uğramışlar.

4. Ticarətin inkişafı və mühafizəsi üçün şəhərlərin ittifaqı; (Şimali Almaniya və Baltikyanı hövzənin 100 yaxın şəhərini özündə birləşdirən məşhur Qanza buna misal ola bilər).

5. Kreditin təşkili iki yönümlü xarakter daşımışdır:

1. sələmçilik;

2.bankların və kommersiya kreditinin (veksel dövriyyəsi) yaranması. Yeni yaranışlar ilkin dövrlərdə Şimali İtaliya şəhərlərində - Genuya, Venesiya, Florensiya – müşahidə olmuşdur.

XI əsrdən başlayaraq iqtisadiyyat sabit şəkildə inkişaf edirdi: Əhalinin sayı artır, aclıq və epidemiyalar artıq əvvəlki dövrlərdəki qədər təhlükəli xarakter kəsb etmir, sənətkarlıq və incəsənət inkişaf edirdi. Şəhər-dövlətlərin tərəqqisinə paralel olaraq feodalların mütləq

downloaded from KitabYurdu.org

hakimiyyəti də getdikcə güclənirdi. Feodal özbaşınalığı əhalinin narazılığını daha da artırırdı. Kütləvi etirazlar (o dövrdə) "kommunal inqilab" adını almışdır. İlkin vaxtlarda bu etirazlar vergilərin azaldılması tələbi ilə baş verirdisə, sonralar özünüidarəetmə hüququnun qəbulu üzərinə keçmişdir. Bu məqsədlərə müxtəlif yollarla çatmağa can atırdılar:

1. Feodallara qarşı silahlı mübarizə.
2. Özünüidarəetmə hüququnun birdəfəlik akt kimi satınalınması.
3. Daha güclü feodalın – imperator, kral-tabeliyinə keçid.

200 ilə yaxın bir müddətdə davam edən "kommunal inqilablar" şəhərlərə bəzi uğurlar əldəetmə imkanı yaratmışdır;

1. Vahid verginin tətbiqi;
2. Asılı kəndli şəhərə köçəndən sonra azadlıq əldə edirdi (feodaldan asılılığına son qoyulurdu).
3. Özünəməxsus şəhər vergilərini təyinetmə hüququ;
4. Öz sərəncamında olan maliyyə vəsaitlərindən sərbəst istifadəetmə hüququ;
5. Yalnız şəhər özünüidarə hakimiyyətinə tabe olan döyüşçülərin muzdla tutulması hüququ;
6. Şəhərin idarəedilməsinin sərbəst seçim yolu ilə (şəhər rəhbərinin seçilməsi) həyata keçirilməsi
7. Yalnız şəhərin özünüidarəetmə hakimiyyətinə tabe olan məhkəmələrin formalaşdırılması və qanunların qəbulu, "Kommunal inqilablar" sırf iqtisadi anlamda feodal asılılığında olmayan azad bazarların və ticarətin formalaşmasına, şəhərlərin iqtisadi əhəmiyyətinin yüksəlməsinə müsbət təsir göstərmişdir.

Qeyd edilən dövrdən (XI əsr) başlayaraq Qərbi Avropanın inkişaf yoluna qədəm qoyması xarici aləmə münasibətdə də müəyyən dəyişikliklərə səbəb olmuşdur.

Bu anlamda XI-XIII əsrlər ərzində həyata keçirilən səlib yürüşləri xarakterik hal kimi qəbul edilə bilər.

## § 7.3. Səlib yürüşləri: sosial-iqtisadi nəticələr

Erkən orta əsrlərin sonundan etibarən Qərb ölkələri tərəfindən həyata keçirilən səlib yürüşləri (1096-1270) Yaxın Şərq regionunu demək olar ki, tam şəkildə əhatə etmişdir.Yürüş regionun müsəlman əhalisinə qarşı aparılırdı. Məqsəd Yerusəlimin fəthi, "Allahın cənazəsi"nin xilas edilməsi və müsəlmanların Müqəddəs Torpaqdan çıxarılmasından ibarət idi.

downloaded from KitabYurdu.org

Cəmi 8 yürüş keçirilmiş, bunlardan yalnız 3-nün konkret nəticələri olmuşdur:

Birinci səlib yürüşündə (1096-1099) Yerusəlim Krallığı yaradılmışdır ki, bu krallıq 1187-ci ilə qədər mövcud olmuşdur. Üçüncü səlib sürüşü (1147-1149) Kiprin istilası ilə nəticələnmiş, dördüncü yürüşdə isə (1202-1204) Konstantinopol fəth edilmiş – Latın imperiyası (1204-1261) yaradılmışdır.

1291-ci ildə Misirin əks-yürüşü səlibçilərin Yaxın Şərqdən çıxarılması ilə nəticələndi (Kipr istisna olmaqla).

Səlib yürüşləri – böyük coğrafi kəşflərə qədərki dövrdə Qərbi Avropada bazar münasibətlərinin inkişafında müəyyən rol oynamışdır:

1. Aralıq dənizi üzərindən Şərqə gedən ticarət yolunun ələ keçirilməsi. “Varyarqlardan yunanlara doğru” olan ticarət yolu öz əhəmiyyətini itirdi.
2. Avropalılar onlar üçün yeni olan əkinçilik məhsulları ilə tanış oldular (düyü, qarpız, limon, ipək və s.)
3. Suriyadan əxz etdikləri yel dəyirmanlarından yararlanmağa başladılar.
4. Parça istehsalı və metal emalının daha yüksək səviyyədə olan texnologiyalarını mənimsədilər.
5. Şərqlə təmas Avropanın mədəni səviyyəsinin yüksəlməsində xüsusi rol oynadı.

downloaded from KitabYurdu.org

# IV BÖLMƏ

# DÜNYA İQTİSADİYYATININ GENEZİSİ DÖVRÜ

## VIII fəsil. "İstehsal iqtisadiyyatı" – son orta əsrlər (XVI-XVIII əsrlər)

### § 8.1. Son orta əsrlərin ümumiqtisadi xarakteristikası

Bu dövr klassik bazarın formalaşmağa başladığı dövr kimi ilkin olaraq şəhərlərin (ətraf kəndlərlə birlikdə) birləşərək daha iri ərazi vahidlərinin yaranması ilə səciyyələnir. Bununla əlaqədar olaraq daxili ticarətin mahiyyətində kardinal dəyişikliklər baş verirdi. Belə ki, erkən və klassik orta əsrlərdən fərqli olaraq daxili ticarətin obyekti kimi təkcə bəzi xammal növləri deyil, həmçinin müxtəlif sənaye məhsulları çıxış edirdi. Eyni zamanda, şəhərlərarası ticarət əlaqələri daha intensiv surətdə inkişaf etməyə başlamışdı. Yenicə yaranmaqda olan sənaye sferasının istehsal etdiyi məhsullar lokal bazarlardan ölkənin sərhədləri çərçivəsində formalaşmış "ümum"bazara çıxarılırdı. Milli sənaye istehsalını təşkil etməklə, həmçinin daxili ticarəti dəstəkləməklə bahəm dövlət siyasəti bütün iqtisadi proseslərin ölkənin sərhədləri çərçivəsində "qapanmasına", xarici məhsulların ölkəyə gətirilməsinə maneəçilik törədilməsinə yönəlmişdir. Eyni zamanda, dövlət xarici ticarətin inkişafında, müstəmləkələrin ələ keçirilməsi və digər ölkələrlə müstəsna ticarət hüququna sahiblənmədə əsl "inhisarçı" kimi çıxış etməyə cəhd göstərirdi ki, bununla da digər ölkələrin həm ticarət, həm də gəmiçilik sferasında müəyyən irəliləyişlərə nail olmasını əngəlləməyə çalışırdı. Əslində, son orta əsrlərin başlanğıcında həyata keçirilən siyasət – öz mahiyyəti etibarilə şəhərlərin əvvəlki dövrlərdə tutduqları mövqe ilə üst-üstə düşürdü. Sadəcə olaraq, bu halda söhbət siyasi fəaliyyət sferasının genişlənməsindən (şəhər miqyasından bütövlükdə ölkə miqyasına transfer olunma) gedir. Digər bir fərqli nüans ondan ibarət olmuşdur ki, erkən və klassik orta əsrlərdə şəhərlərin yalnız bir qismi – ticarət mərkəzləri kimi çıxış edənlər qeyd olunan siyasətin tətbiqində maraqlı idilər. (Digər şəhərlər ticarətin inkişafına xüsusi olaraq can atmırdılar). Son orta əsrlərdə isə ticarət üstünlüklərinə canatma, ticarəti inhisara alma istəyi ən ümumi xarakter kəsb etməyə başladı. Əksər ölkələrdə artıq sənaye ilə yanaşı ticarət siyasəti də yer tutmağa başlayır. Tamamilə məntiqi olaraq kənd təsərrüfatı sferası da ölkənin prioritetləri sırasına

downloaded from KitabYurdu.org

daxil edilir. Kənd təsərrüfatı üzərində himayəçilik - əkin sahələrinin genişləndirilməsi, təsərrüfatçılığın rasional metodlarının tətbiqi və s.- dövlət siyasətində mühüm yerlərdən birini tuturdu.

Terminoloji ifadə baxımından diqqət çəkən məqam "milli təsərrüfat" və "milli siyasət" anlayışlarının meydana çıxması olmuşdur.

Son orta əsrlərdə həyata keçirilən iqtisadi siyasətin əsas cəhətlərinə aşağıdakıları aid etmək olar:

1. İqtisadi siyasət – ayrı-ayrı şəhərlərin, yaxud ərazi vahidlərinin deyil, bütövlükdə ölkənin mənafelərinə yönəlmişdir.
2. İqtisadi siyasət vahid mərkəzdən – dövlət tərəfindən həyata keçirilirdi.
3. Əsas məqsədlərdən biri tədricən bütün ölkəni əhatə edəcək daxili bazarın formalaşdırılmasından ibarət olmuşdur.
4. İqtisadi siyasət – iqtisadiyyatın əsas sferalarını (kənd təsərrüfatı, sənaye, ticarət və s.) əhatə edən tədbirlər kompleksi formasında həyata keçirilirdi.

Bu dövrün çox vaxt merkantil sistem (merkantilizm) kimi səciyyələndirilməsinin əsasında məhz təsərrüfatın ayrı-ayrı sferalarının dövlət reqlamentləşdirilməsi dayanırdı ki, bu da yekun etibarilə milli ticarət, sənaye və kənd təsərrüfatının inkişafına, ticarət yollarının yaxşılaşdırılmasına, vahid pul, ölçü və çəki sisteminin tətbiqinə xidmət göstərirdi.

"Merkantilizm" anlayışının məna tutumunda (əvvəlki və indiki dövr) baş verən dəyişikliyə baxmayaraq, o, özünün müasir anlamında da təsərrüfat siyasətinin yalnız bir istiqamətini əhatə edir, yəni birtərəfli səciyyə daşıyır. Digər tərəf – təsərrüfatın özünün xarakteri, şəhər təsərrüfatının miqyas genişlənməsi və milli təsərrüfata çevrilməsi və s. nəzər-diqqətdən kənarda qalır.

Həmçinin, son orta əsrlərin məzmununa münasibətdə konseptual yanaşmalarda da yekdillik olmamışdır və yoxdur. Belə ki, K.Marks XVI-XVIII əsrləri erkən kapitalizm epoxası kimi səciyyələndirmişdir (yaxud ilkin kapital yığımı). Sənayenin inkişafı və sənaye istehsalının "ümumi" bazara yönəlməsi faktından çıxış etməklə prosesin sosial aspektini ön plana çıxarırdı: bir tərəfdən, kapitalist-sahibkar sinfinin formalaşması nəticəsində əməyin istehsal vasitələrindən (kapitaldan) ayrılması, digər tərəfdən isə fəhlə sinifinin formalaşması və iri kapitalın "ümumi" bazarının yaranması nəticəsində izafi dəyər, yaxud mənfəətin artımını əsas cəhətlər kimi səciyyələndirirdi.

downloaded from KitabYurdu.org

K.Blüxerin yanaşması məhsulun istehsalçıdan istehlakçıya çatdırılması prosesinin bir sıra yeni halqalarının meydana çıxmasına istinad edərək XVI-XVIII əsrləri xalq təsərrüfatı dövrü kimi xarakterizə edir. Başqa sözlə, təsərrüfat quruluşunun və iqtisadi siyasətin milliləşdiyi ön plana çıxarılır. K.Blüxer bu anlamı XVI əsrdən bu günə qədər keçən zaman sürəcinə aid edir. Təbii ki, qeyd edilən yanaşma dünya iqtisadiyyatının formalaşması, eləcə də müasir qloballaşma nöqteyi-nəzərindən qəbul edilə bilməz. Yəni, XVI əsrin "milli" təsərrüfatı ilə müasir "milli" təsərrüfat arasında milli tamlıq, bütövlük və mahiyyət aspektindən əhəmiyyətli fərqlər mövcuddur. Anlayışın ifadə tərzindəki eyniyyət heç bir halda mahiyyət eyniyyəti kimi qəbul edilə bilməz.

V.Zombart orta əsrlərin sənətkarlıq dövrü ilə kapitalizm dövrünü fərqləndirir. O, əhalini iki qrupa ayırırdı: istehsal vasitələrinin sahibləri (istehsal prosesini idarəedənlər) və istehsal vasitələrindən "kənarlaşdırılmış" işçilər. Zombart həmin dövrün təsərrüfat fəaliyyətini gəlirə can atması aspektində qiymətləndirmiş və göstərmişdir ki, fəaliyyətin əsasında rasionalizm prinsipi dayanırdı. V.Zombart da XVI-XVIII əsrləri erkən kapitalizm epoxası kimi səciyyələndirmişdir. Bununla yanaşı, "gəlirə canatma" anlayışının əvvəlki dövrlərdə də mövcudluğu inkaredilməzdir. Bu baxımdan əsas fərqin nədən ibarət olduğunu göstərməyə ehtiyac vardır. Erkən və klassik orta əsrlərdə söhbət istehlaka yönəlik xarakteri daşıyan "gəlirə canatma"nı özündə ehtiva etmişdir.

Son orta əsrlərdə isə, ələlxüsus XVIII əsrdə, qeyd edilən yönüm kapital yığımına istiqamətlənmişdir ki, bu da təsərrüfat həyatının mahiyyət dəyişkənliyi baxımından mühüm əhəmiyyət kəsb edir.

## § 8.2. Qərbi Avropada bazar iqtisadiyyatının genezisi

Avropa sənayesində kapitalist münasibətləri sisteminin (marksist anlamda) genezisi son orta əsrlərdən (XVI-XVII əsrlər) başlamışdır. Bu proses "istehsal" iqtisadiyyatının bazaraqədərki inkişafının sonu, yeni - keyfiyyətcə fərqli müstəvidə bazar dövrünün başlanğıcı demək idi.

Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, sosial-iqtisadi həyatda baş verən sistem dəyişikliyində Böyük coğrafi kəşflər və müstəmləkə sisteminin formalaşması mühüm rol oynamışdır.

### § 8.2.1 Böyük coğrafi kəşflərin sosial-iqtisadi nəticələri

downloaded from KitabYurdu.org

Qərbin iqtisadi inkişaf tarixində Böyük coğrafi kəşflər xüsusi əhəmiyyət kəsb edir. XV-XVI əsrlər ərzində X.Kolumb tərəfindən Amerikanın kəşfi (1442 il), Vaski de Qamanın Hindistan-Bartolomiyo-Dias (1486-87-ci illər) dəniz yolunu "açması", C.Kabot tərəfindən (1497-98-ci illər) Şimali Amerikanın kəşfi, A.Nikitinin (1466-72-ci illər) "Üç dəniz arxasına" səyahəti, ilk dəfə olaraq F.Magellanın dünya dəniz səyahəti (1519-22) və s. o dövrdə formalaşmış sosial-iqtisadi və siyasi situasiyada böyük bir canlanma yaratmışdır.

Böyük coğrafi kəşflərin bir proses olmaq etibarilə yaranması səbəbləri sırasına, bir qayda olaraq aşağıdakılar aid edilir:

1. Ön və Kiçik Asiyanın (Konstantinopol – 1453-cü il) və Avropanın bir hissəsinin türklər tərəfindən tutulması nəticəsində Avropa – Şərq (İran, Hindistan, Çin) ticarət yollarının "qapanması";
2. tədavül vasitəsi kimi qiymətli metalların kəskin defisiti: "qızıl aclığı";

Böyük coğrafi kəşflərin Qərbin tarixi-iqtisadi yüksəlişində oynadığı rolu 5 istiqamətdə qiymətləndirmək olar:

I. Avropa dövlətlərinin yeni ərazilərə çıxışı:

1400-cü il – 50 mln. km²;

1500-cü il – 110 mln. km²;

1600-cü il – 310 mln. km²;

II. Qiymət "inqilabı":

1.Ucuz pulların (qızıl və gümüş) axını;

2. Qiymətlərin yüksəlişi: qiymətlər 1600-cü ildə İspaniyada 4.5 dəfə, İngiltərədə - 4 dəfə, Fransada – 2.5 dəfə; İtaliya və Almaniyada 2 dəfə artmışdır.

3.Nəticədə ticarət və sənayedən əldə edilən mənfəətin sürətli artımına nail olunmuşdur. Eyni zamanda, ümumiyyətlə, 1500-1620-ci illər ərzində bütövlükdə Avropada qiymətlər 300-400% artmışdır. Sözügedən yüksəliş, yaxud qiymət "inqilabı" əsasən ticarətin kəskin genişlənməsi, tədavüldə olan pul kütləsinin əhəmiyyətli artımı (qiymətli metalların Avropaya axını ilə əlaqədar olaraq), kənd təsərrüfatı məhsullarına olan tələbin yüksəlişi, həyat şəraitinin yaxşılaşması, eləcə də Avropanın şimalında sənaye istehsalının yüksəlməsi ilə izah oluna bilər.

downloaded from KitabYurdu.org

Təbiidir ki, ticarətdən əldə edilən gəlirlər iqtisadiyyatın inkişafında əsas amil kimi çıxış edən kapitalqoyuluşunun həcmini də adekvat şəkildə artırırdı.

## § 8.2.2. Müstəmləkə sisteminin formalaşması

1770-ci illərdə Qərbi Avropa ölkələri (İngiltərə, Fransa, İspaniya, Portuqaliya, Hollandiya) və ABŞ birlikdə Afrikanın ərazisinin 0.9%-nə, Amerikanın 27.5%-nə, Asiyanın 51.5%-nə, Okeaniyanın 56.5%-nə və Avstraliyanın 100%-nə sahib idilər.

İngiltərənin müstəmləkə imperiyasının ərazisi öz ərazisindən 75 dəfə, əhalisindən isə 6 dəfə çox idi.

Müstəmləkə sistemi: ilkin kapital yığımının mühüm mənbəyi, böyük tutuma malik satış bazarı və ən əsası – qərbdə sənayeləşmənin ən başlıca şərti kimi çıxış edirdi.

Müstəmləkə təsərrüfatının 3 tipi mövcud olmuşdur:

1. **Plantasiya**: Müxtəlif məhsular (tütün, pambıq, şəkər çuğunduru və s.) üzrə ixraca yönəlik ixtisaslaşma. Bu təsərrüfatlarda əsasən qul, sonralar isə “neon” (muzdur) əməyindən istifadə edilirdi. Plantasiya tipli müstəmləkə təsərrüfatları Braziliyada, ABŞ-in cənubunda, Qəraib dənizi hövzəsi ölkələrində yayılmışdır.
2. **Fermer (köçürmə tipi) təsərrüfatı**: Avropadan Şimali Amerikaya, Avstraliyaya, Yeni Zelandiyaya köçənlərin yaratdığı təsərrüfat tipidir. Aborigen xalqların sıxışdırılması, hətta soyqırımı hesabına bazar prinsiplərinə söykənməklə təsərrüfat təşkil edilir və fəaliyyət göstərirdi. Sonarlar “azadlıq müharibələri” baş vermiş (məs.: 1777-ci ildə ABŞ-da) metropoliyadan asılılıq aradan qaldırılmışdır.
3. **Feodal müstəmləkə təsərrüfatı**: Metropoliya bir sıra müstəmləkələrdə feodal münasibətlərini toxunulmamış saxlayırdı. Eyni zamanda vergilər, qeyri-ekvivalent ticarət vasitəsilə həmin ölkələri talan edir, iqtisadiyyatın monostruktur xarakter almasını məqsədyönlü şəkildə həyata keçirirdilər.

Müstəmləkə təsərrüfatları öz tarixi boyunca iki mərhələdən keçmiş və hər bir mərhələdə metropoliyaların ö dövrə xas olan mənafelərinə xidmət etmişlər:

**I. Sənaye inqilabına qədərki dövr:**

1.satış bazarı kimi fəaliyyət göstərirdilər. Metropoliyanın inhisarçılığı altında qeyri-ekvivalent ticarət əlaqələri qurulurdu;

downloaded from KitabYurdu.org

2.heyvan və bitki mənşəli xammal mənbəyi idilər.

**II. Sənaye inqilabından sonrakı dövr:**

1.XIX əsrin ikinci yarısından etibarən mineral xammal (əlvan metallar, neft) mənbəyi kimi çıxış etməyə başladılar;

2.qeyri-ekvivalent ticarət əlaqələri şəraitində satış bazarları kimi fəaliyyətdə olmuşlar.

Müstəmləkə sisteminin formalaşması XIX əsrin sonu XX əsrin əvvəllərində başa çatdı. Bu dövrdə artıq dünyanın ərazicə bölünməsi öz məntiqi sonluğuna çatmışdı. Müstəmləkələr – "xammal" əlavələri keyfiyyətində beynəlxalq əmək bölgüsü sisteminə daxil edilmişdilər.

XIX əsrin sonu XX əsrin əvvəllərində Qərb ölkələrinin müstəmləkə imperiyaları kifayət qədər geniş yayılmışıdr.

***Cədvəl 8.1***

***Qərb ölkələrinin müstəmləkələri***

| ***Ölkələr*** | ***1875*** | | ***1990*** | | ***Son 25 ildə zəbt olunub*** | |
|---|---|---|---|---|---|---|
| | ərazi mln.km² | əhali mln.nəfər | ərazi mln.km² | əhali mln.nəfər | ərazi mln.km² | əhali mln.nəfər |
| İngiltərə | 22,5 | 250 | 32,7 | 370 | 10.5 | 120 |
| Fransa | 1,0 | 6 | 11 | 50 | 5 | 44 |
| Niderland | 2,0 | 25 | 2 | 38 | - | 13 |
| Belçika | 2,3 | 15 | 2 | 15 | - | - |
| Almaniya | - | - | 2,6 | 12 | 2,6 | 12 |
| ABŞ | 1,5 | - | 1,9 | 9 | 0,4 | 9 |

Müstəmləkəciliyin ilk dövrlərinə xas olan ənənəvi münasibət formaları (qeyri-ekvivalent ticarət, mütəmləkə xəracı, vergi talanı və s.) olduğu kimi saxlanılmışdır.

Asılılığın əsas formaları kimi kapital ixracı, ucuz işçi qüvvəsinin istismarı, spesifik müstəmləkə sosial-iqtisadi strukturlarının yaradılması çıxış edirdi.

Metropoliya → müstəmləkə münasibətlərində siyasi-hüquqi aspektdən 3 yanaşma formalaşmışdır:

1. Ölkənin dövlət müstəqilliyinin saxlanılması (Latın Amerikası ölkələri)

downloaded from KitabYurdu.org

2. Asılılığın ara-keçid formaları (protektorat – Misir, Tunis, Küveyt, Bəhreyn və s.; mandat sistemi – Millətlər Liqasının mandatı).
3. Metropoliyaya tam tabeçilik – Hindistan, Əlcəzair, Birma, Seylan, İndoneziya.

Həmin dövrdə İngiltərə və Fransanın payına müstəmləkələrin ərazisinin 85%-i əhalisinin isə 84%-i düşürdü. Yenidən bölgü öz başlanğıcını İngilis-Bur (1899-1902), İspan-amerikan (1898) və rus-yanon (1904) müharibələrindən götürmüşdür.

### § 8.2.3. İlkin kapital yığımı

İlkin kapital yiğimi – işçinin (kəndlinin) mülkiyyətindən məhrum edilməsi, istehsal vasitələrinin kapitala çevrilməsini özündə ehtiva edən tarixi prosesdir.

***Cədvəl 8.2***

***İlkin kapital yığımının xronoloji sərhədləri***

| Ölkələr | Başlanma tarixi | Klassik forma aldığı tarix |
|---|---|---|
| 1. İngiltərə | XV | XVII |
| 2. Fransa | XVI | XVIII |
| 3. Almaniya | XVIII | XIX əsrin 2-ci yarısı |
| 4. Yaponiya | XVIII | XIX əsrin 70-ci illəri |

İlkin kapital yığımının əsas mənbələrinə aşağıdakılar aid idi:

1. müstəmləkə sistemi;
2. dövlət istiqrazları sistemi; XVI-XVIII əsrlərdə Avropa ölkələri arasındakı müharibələr və müstəmləkə ələ keçirmə istəyi dövlətin pula olan tələbatını kəskin şəkildə artırmışdır;
3. vergi sistemi;
4. sənaye proteksionizmi – yüksək idxal rüsumları, ixrac mükafatlandırmaları.

Bazar münasibətlərinin formalaşması ilkin kapital yığımı prosesinə paralel olaraq getməklə yanaşı, onu əhəmiyyətli dərəcədə aktuallaşdırırdı. XVIII əsr İngiltərəsində artıq kəndlilər bir təbəqə, yaxud sinif kimi yox idilər. XV əsrdə icma torpaqları, XVII əsrdə kilsə və monastr torpaqları zəbt olunur, XVII-XVIII əsrlərdə "çəpərləmə" həyata keçirilir və s.

- Bazar münasibətlərinin inkişafı:

downloaded from KitabYurdu.org

1.Beynəlxalq ticarət yollarının Aralıq dənizindən Atlantik, Hind və sakit okeanlara keçməsi.
2.Ticarət kompaniyalarının yaranması.
3. Antverpen və Londonda əmtəə və fond birjalarının yaranması.
4.Bazara yeni məhsulların (tütün, kakao, kofe, çay) çıxışı. Düyü, şəkər və müxtəlif ədviyyatlar üzrə dövriyyənin kəskin artımı; Məsələn, Böyük Coğrafi Kəşflərə qədər Venesiya tacirləri hər il 200 ton məhsul idxal edirdilərsə, kəşflərdən sonra bu rəqəm 7000 tona çatmışdı.

- Müstəmləkəçiliyin başlanması.

Bütün bunlar ilkin kapital yığımı prosesini əhəmiyyətli dərəcədə sürətləndirmiş, istehsalın sex formasında təşkilinin dağılmasına, manufakturaların intensiv inkişafına səbəb olmaqla yeni cəmiyyətin – kapitalizmin meydana gəlməsində (oxu: bazar iqtisadiyyatının) həlledici rol oynamışdır.

### §8.2.4. Bazar iqtisadiyyatına keçid: sistem dəyişikliyinin institusional məzmunu

Sadə əmək kooperasiyasının genezisi üçüncü böyük ictimai əmək bölgüsündən başlayır. İqtisadi əhəmiyyəti əsasən onunla izah olunur ki, əmək məhsuldarlığının artması yekun olaraq ticarət və pul kapitalının ilkin tiplərinin meydana gəlməsini şərtləndirir. Sadə əmək kooperasiyasının 3 əsas tipi məlumdur.

downloaded from KitabYurdu.org




***Şəkil 8.1. Sadə əmək kooperasiyasının tipologiyası***

downloaded from KitabYurdu.org




*Şəkil 8.2. Qərbi Avropa sənayesində kapitalizmin genezisi*

downloaded from KitabYurdu.org

Manufaktura – mürəkkəb əmək kooperasiyası olmaqla genezisi feodal münasibətlər kompleksinin dağıldığı dövrdən (XVIII əsr) başlayaraq yeni – təsərrüfatın kapitalist ukladının əsası kimi çıxış edirdi. Genezis nöqteyi-nəzərindən bir-biri ilə sıx bağlılıqda olan iki prosesin vəhdətinə söykənirdi:

1. İstehsal prosesinin (sadə əmək kooperasiyası çərçivəsində) ayrı-ayrı əmək əməliyyatlarına parçalanması;
2. Müxtəlif sənət və peşələr üzrə ixtisaslaşmış işçilərin emalatxana çərçivəsində bir araya gətirilməsi.

Manufakturanın 4 əsas forması məlumdur.




***Şəkil 8.3. Manufakturaların əsas formaları***

downloaded from KitabYurdu.org

Sadə əmək kooperasiyası ilə müqayisədə manufakturalar bir sıra üstünlüyə malikdirlər:

1. işçilərin ixtisaslaşması;
2. əmək intensivliyinin yüksəlişi;
3. işçi alətlərin diferensasiyası;

### § 8.2.5. Sənaye inqilabı: mahiyyəti və əhəmiyyəti

Sənaye çevrilişi mahiyyət etibarı ilə elmi-texniki inqilab xarakteri daşımışdır. Elmi-texniki tərəqqinin sürətlənməsi (XVII-XVIII əsrlər) sənayedə manufakturadan fabrikə - iri maşınlı sənayeyə keçidin əsas hərəkətverici qüvvəsi kimi çıxış etmişdir. Sənaye çevrilişi ilk dəfə İngiltərədə (XVIII əsrin sonu) baş vermişdir.Qeyd edilən prosesin əsas mərhələləri kimi aşağıdakıları göstərmək olar:

1. İstehsalın bir sahəsində tətbiq olunan maşın zəncirvari reaksiya kimi digərlərində də tətbiq zəruriliyini ortalığa qoydu.
2. Mühərrikin təkmilləşməsi – buxar maşınlarının yaranması;
3. Sənayede texniki inqilab nəqliyyatda da kardinal dəyişikliyə səbəb oldu (paravoz, paraxod).
4. İstehsalın iri maşınlı müstəviyə keçidi maşınqayırmada da texniki dəyişiklik doğurdu (maşınların maşınla istehsalı).
5. İri maşınlı sənayenin inkişafı maşınların sadə kooperasiyasını (eynicinsli maşınların tətbiqi) maşınlar sisteminə (müxtəlif cinsli; qarşılıqlı tamamlayıcı maşınlar kompleksinin tətbiqi) transfer etdi.

Neolit inqilabından sonrakı dövr ərzində sənaye çevrilişinin gətirdiyi iqtisadi, siyasi, sosial dəyişikliklərə bərabər ikinci bir hadisə olmamışdır. Sənaye çevrilişi bütövlükdə ictimai münasibətlər sistemində kardinal yeniləşməyə səbəb oldu. Real məzmunlu bazar iqtisadiyyatının formalaşması prosesi başa çatdı.

Sənaye inqilabı "istehsal" iqtisadiyyatının inkişaf prosesində çox güclü təkan oldu. Bütövlükdə, Qərbi Avropada sənayeləşmə prosesi ilkin olaraq yüngül sənayenin iri maşınlı bazaya keçirilməsindən başlanmışdır. Belə ki, yüngül sənaye üçün daha az avans olunmuş kapitala ehtiyac duyulur. Digər tərəfdən, kapitalın dövriyyəsi sürətlənir.

Ümumiyyətlə, sənayeləşmə bir proses olmaq etibarilə mütərəqqi xarakter daşıyırdı:

1.Əmək məhsuldarlığı və texnikadan istifadə imkanları artır;

downloaded from KitabYurdu.org

2.Şəhərlərin inkişafı sürətlənir;
3.İri sənaye və nəqliyyat mərkəzləri yaranır;
4.Real məzmunlu bazar münasibətlərinin qərarlaşması prosesinə güclü təsir göstərir və s.

Sənaye inqilabının, eləcə də bütövlükdə sənayeləşmə prosesinin xronoloji sərhədləri ölkələr üzrə fərqlənir. Belə ki, bu proses İngiltərədə XVIII əsrin sonu XIX əsrin əvvəllərində, Fransada 1815-1860-ci illərdə, Almaniyada XIX əsrin ikinci yarısında, ABŞ-da XIX əsrin birinci yarısında, Yaponiyada isə XIX əsrin sonunda baş vermişdir. Eyni zamanda, Asiya, Afrika və Latın Amerikasının əksər ölkələri bu prosesdən kənarda qalmış, dünya iqtisadi mərkəzlərinin aqrar-xammal əlavələrinə çevrilmişlər.

***Cədvəl 8.3***

***Manufaktura və fabrikin müqayisəsi***

| **Əlamətlər** | **Manufaktura** | **Fabrik** |
|---|---|---|
| 1. İstehsalın texnoloji üsulu | Əl əməyi, əllə hərəkətə gətirilən alətlər | Maşın |
| 2. Texnika | Sadə maşınlar, əl alətləri | Mürəkkəb maşınlar, maşınlar sistemi. |
| 3. Əməyin kapitala tabeçiliyi | Əsasən, formal tabeçilik | Real tabeçilik |
| 4. İstehsalın təşkili forması | Fərdi və kiçik partiyalı istehsal | Kütləvi istehsal |
| 5. Bazar yönümlülüyü | Lokal bazar | İri (milli, beynəlxalq) bazar |

downloaded from KitabYurdu.org

# IX fəsil. Təsərrüfat formaları və iqtisadiyyatın strukturunun təkamülü xüsusiyyətləri: Şərq və Qərb

## §9.1. Şərq və Qərb təsərrüfatçılıq modelləri

Qədim dövrdə olduğu kimi (Asiya və antik təsərrüfatçılıq modelləri) orta əsrlərdə də təsərrüfatın təşkili formaları və ölkə iqtisadiyyatının strukturu nöqteyi-nəzərindən Şərq və Qərb makromodelləri arasında müəyyən fərqli cəhətlər mövcud olmuşdur.

***Cədvəl 9.1***

***Feodalizm: Şərq və Qərb makromodelləri***

| *Göstəricilər* | *Şərq makromodeli* | *Qərb makromodeli* |
|---|---|---|
| 1.Mülkyyət | Torpaq üzərində dövlət mülkiyyəti | Torpaq üzərində xüsusi mülkiyyət |
| 2.Mülkiyyətin realizasiyası-nın əsas iqtisadi forması | Monarxiya tipli mərkəzləş-dirilmiş idarəetmə sistemi | Yetkin feodalizm döv-ründə siyasi parçalanma |
| 3.İdarəetmə sistemi | Dövlət vergiləri | Feodal rentası |

Tarixin Şərq modeli daha erkən dövrləri əhatə etmiş və daha uzun zaman sürəcində mövcud olmuşdur. İqtisadiyyatın strukturunun iki sektorluğu – dövlət və icma sektorları paralel şəkildə fəaliyyət göstərmişdir.

Əslində, Şərqdə də dövlət mülkiyyəti öz mahiyyəti etibarilə feodal xarakteri daşımışdır. Onun reallaşmasının əsas forması – dövlət vergiləri – dövlətin ictimai-hüquqi funksiyalarının və ayrı-ayrı feodallar üzərində ciddi nəzarətini olduğu şəraitdə feodal rentasının xüsusi növü kimi çıxış edirdi.

Dövlət mülkiyyətinin qabarıq şəkildə ifadə olunduğu ölkələr sırasında Çin xüsusi yer tutur. Bu ölkədə hakim sinifin nümayəndələri xüsusi mülkiyyətə malik deyildilər və feodal rentasında onlara düşən pay əməkhaqqı formasında ödənilirdi.

Erkən orta əsrlər ərzində III əsrdən formalaşdırılmış "dövlət pay sistemi" V əsrdə "bərabər sahələr sisteminə" modifikasiya olunmuşdur. Ümumiyyətlə, Çin orta əsrlərdə texnoloji cəhətdən daha yüksək səviyyədə inkişaf etmiş dövlət idi.

downloaded from KitabYurdu.org

Tan imperiyası dövründə toxuculuq və ipəkçiliklə yanaşı pambıqçılıq da yaranmışdır.

Böyük həcmdə çay, duz və müxtəlif metallar (dəmir, gümüş, mis və s.) istehsal olunur, məişət predmetlərinin istehsalı kütləvi hal alırdı və s.

Ticarətdə sənətkarlıq və tacir gildiyaları – xanlar böyük rol oynayırdı. Xanların öz nizamnamələri var idi və seçilmiş ağsaqqal tərəfindən idarə olunurdular. VIII əsrdə kağız pullar dövriyyəyə buraxılmışdır. XIII əsrdə Çingizxan hökumətində kağız pullar sərbəst şəkildə qızıla dəyişdirildi. XVI əsrdə Çin hökuməti izafi buraxılış və inflyasiya üzündən yaranmış çətinliklərə görə kağız pulların buraxılışını dayandırmaq məcburiyyətində qalmışdı.

Bununla belə, artıq formalaşmış xüsusi banklar kağız pulların emissiyasını davam etdirirdilər. Bəzi tədqiqatçıların fikrincə, ticarətin, ümumiyyətlə əmtəə-pul münasibətlərinin sürətli inkişafı artıq X əsrdə "Kondratyev tsikllərinin" meydana gəlməsinə səbəb olmuşdur.

Dövlət mülkiyyətinin qərarlaşması prosesi dövlətin nəzarəti altında şərti xidməti (hərbi ) torpaq sahibliyi sisteminin formalaşmasına paralel olaraq gedirdi. Məsələn, Hindistanda qeyd edilən sistem xüsusilə nəzər-diqqəti cəlb edir. Dehli sultanatı dövründə torpaqlar ikta formasında paylanırdı. XIV əsrin ortalarından etibarən iktalar irsi mülkiyyətə keçir və bir sıra hallarda xəzinəyə vergi ödəməkdən azad edilirdilər. Feodal torpaq sahibliyinin digər forması ənam (bəxşiş) idi. Eyni güzəştlər Böyük Moqol imperiyasında da (XVI əsr) tətbiq olunurdu. Bununla yanaşı, xüsusi feodal mülkiyyəti (torpaq üzərində) də mövcud olmuşdur. Lakin, dövlət mülkiyyəti ilə müqayisədə elə bir rola malik deyildilər.

İqtisadi strukturun digər qütbündə icma sektoru dayanırdı. İcma sektorunun mövcudluğu əkinçiliyin təbii şəraiti, kənd təsərrüfatı və sənətkarlığı özündə birləşdirən natural təsərrüfatın hökmranlığı ilə izah oluna bilər. İcma strukturunun saxlanılması və ictimai normaların institutlaşdırılması prosesinin demək olar ki, getməməsi kəndlilərin əmlak və sosial təbəqələşməsinə əngəl törətməklə şərq modelində müəyyən durğunluq yaratmışdır. Hətta o səviyyədə ki, XVI-XVIII əsrlərdə icma torpaq sahibliyinin dağılması elementlərinə rast gəlinir. Bu proses, digər şərq ölkələri ilə müqyisədə, Yaponiyada daha erkən başlanmışdır.

Orta əsr Şərq şəhərləri də bir sıra spesifik xüsusiyyətlərə malik olmuşdur:

1. əhalinin daha yüksək səviyyəli təmərgüzləşməsi (10-25%);
2. sənətkarlığın daha yüksək inkişafı;

downloaded from KitabYurdu.org

3. iri ticarət kapitalı;
4. feodal sistemi ilə daha dərin əlaqə;
5. iri dövlət müəssisələrinin mövcudluğu (məsələn, XIV-XV Hindistanda fəaliyyət göstərmiş karxanalar).
6. bazara işləyən strukturların (Hindistanda mallaxi, yaxud Çində xan tipli) zəif özünüidarəetmə sistemi;

Şəhərlər – siyasi-hüquqi anlamda kənd yerlərinin davamı keyfiyyətində çıxış edirdilər.

Ənənəvi və yeni fəaliyyət sferalarının meydana gəlməsi ticarətin sürətli inkişafına səbəb olmuşdur. Bütün bunlarla yanaşı, Şərq modelinin spesifik cəhətləri məcmu halında inkişafın sürətinin zəiflənməsinə və tədricən daha dinamik hərəkətdə olan Qərb modelindən geri qalmasına gətirib çıxardı.

Qərbin önə keçməsi böyük coğrafi kəşflər, müstəmləkə sisteminin yarandığı dövrdən daha aydın şəkildə müşahidə olunmağa başladı.

Qərb makromodelinin əsas xarakterik xüsusiyyətlərinə aşağıdakıları aid etmək olar:

1. Xüsusi feodal mülkiyyətinin təkamülü. VI əsrdə fərdi-ailə torpaq mülkiyyətçiliyi yaranmış və VIII-IX əsrlərdə feodal mülkiyyətinə çevrilmişdir. Torpaq fondunun kasadlığı (Frank dövlətində) müəyyən korrektələr aparmağı zəruri etmişdir. Belə ki, torpaq sahibliyinin bağışlama (benefisiya) əbədi olmadığı, yalnız xidmət dövründə, yaxud ömür boyu davam edə biləcəyi qeyd olunmuş, sonradan isə bu sahibliyin digər şəxsə keçməsi imkanı qəbul edilmişdir. IX-X əsrlərdə bağışlanan torpaqların (benefisiya) irsən keçməsinə icazə verilmişdir ki, bu da hərbi-təbəqələşmə sisteminin yaranması ilə nəticələnmişdir. Frank cəmiyyətində təsərrüfatın əsasını feodal votçinası-"senyoriya" təşkil edirdi. İngiltərədə bu proses VII-VIII əsrlərdə - boklendlərin (torpaq sahələri) yaranması ilə başlamış və feodal votçinasının-"manoranın" formalaşması ilə başa çatmışdır.
2. Asılılıq münasibətlərinin təsbiti; İcma cəmiyyətinin təbəqələşməsi və kiçik ailələrin icmadan ayrılması kütləvi yoxsulluqla sonuclanmışıdr. XI əsrdə (Fransada) əsas kateqoriya kimi "servlər"-feodaldan torpaq və şəxsi asılılıqda olanlar çıxış edirdilər. İngiltərədə, mahiyyətcə servlərə oxşar olan "villanlar" üstünlük təşkil edirdilər.

downloaded from KitabYurdu.org

Tədricən kəndlilər arasındakı bütün fərqliliklər aradan qaldırılmış və onların hamısı asılı villanlara çevrilmişlər. Feodal sisteminin formalaşması prosesi XI əsrdə (Fransada) başa çatmışdır.

3. Əmtəə-pul münasibətlərinin aqrar sferaya təsiri kifayət qədər güclü olmuşdur. Ərzaq rentası pulla əvəz olunmuş, torpağın icarəsi kimi yeni formalar meydana çıxmışdır. XIV əsrdən etibarən feodallar arasında vassal münasibətləri də dəyişilmiş, xidmət haqqı olaraq torpaq sahəsi deyil, ondan alınan renta çıxış etməyə başlamışıdr. XII əsr İngiltərə iqtisadiyyatında iki təmayül yaranmışdır:
   1. Kəndlilərin şəxsi azadlığı və rentanın forma dəyişkənliyi: biyar sapalaqla əvəzlənir;
   2. Feodal təsərrüfatının genişləndirilməsi və biyar işlərinin həcmcə artımı.
4. Qərb təsərrüfatçılıq tipində şəhərlər xüsusi rol oynayırdılar. Şəhərlərin sənətkarlıq və ticarət mərkəzləri kimi əsas yüksəlişi XIII-XIV əsrlərə təsadüf edir. Şəhər əhalisinin böyük əksəriyyəti istehsal və tədavül sferasında çalışırdı. Sənətkarlığın ən geniş yayılmış sahələrinə toxuculuq istehsalı, metal emalı aid idi. İstehsalın qərarlaşması formaları sosiomədəni fərqliliklərlə sıx bağlı olmuşdur. Bu da sənətkarlığın inkişafında iki yolun yaranmasına gətirib çıxarmışdır.
   1. Roman yolu: Roma mədəniyyəti çərçivəsində peşəkarlıq əlaməti üzrə birliklərin (sexlərin) yaranması; (İtaliya, Pireney və Fransa);
   2. Alman yolu: Əsas prinsipə (qardaşlıq andı) istinadla qildiyaların yaranması (İngiltərə, Skandinaviya ölkələri və Almaniya).

Bütün bu formalar sadə əmək kooperasiyası çərçivəsində fəaliyyət göstərirdilər. Həyata keçirdikləri əsas funksiyalar aşağıdakılardan ibarət olmuşdur:

1. Sənət növü üzərində inhisarın təsbiti;
2. Sənətkarlıq məmulatlarının istehsalı və satışı üzərində nəzarət;
3. Üzvlərarası münasibətlərin tənzimlənməsi.

XIV əsrə qədər istehsalın qeyd edilən təşkili formaları proqressiv xarakter daşımışdır.

XVI-XVII əsrlərdə ilk manufakturalar meydana gəlməyə başladı.

downloaded from KitabYurdu.org

Daxili ticarət elə də böyük əhəmiyyət kəsb etmirdi. Şəhərlərdə lokal bazarlar fəaliyyət göstərirdilər ki, burada da bir qayda olaraq ətraf kəndlərlə mübadilə (gündəlik tələbat malları üzrə) həyata keçirilirdi. Peşəkar ticarətçilər müxtəlif strukturlarda (gildiya və s.) birləşirdilər. Ticarətin inkişafı artıq XIII əsrdən etibarən tacirlərdə pul vəsaitlərinin yiğilmasına imkan yaratmış və sonuc olaraq, pul bazarının formalaşmasına həlledici təsir göstərmişdir.

Pul vahidləri və sistemlərinin müxtəlifliyi pulun mübadiləsi zərurətini ortalığa çıxarmışdır. Qızıl ehtiyatlarının azlığı və pul çatışmazlığı yüksək ssuda faizlərinin yaranmasına və pul vəsaitlərinin ticarətdən axınına səbəb olmuşdur. Kredit-ssuda əməliyyatlarının genişlənməsi ilkin olaraq İtaliyada, sonralar isə Niderland və İngiltərədə bankların yaranmasına gətirib çıxarmışdır. Kredit əməliyyatlarının vasitəsi kimi birja möhtəkirliyi çıxış edirdi ki, bu da ilk dəfə olaraq Amsterdamda meydana çıxmışdır. Avropanın ticarət sferasında çox tezliklə İtaliyada tətbiq edilən "ikili mühasibat"dan istifadə olunmağa başlandı. Bir sözlə, şəhər və kənd yerlərində əmtəə təsərrüfatının genişlənməsi qərb təsərrüfatçılıq tipinin inkişafına təsir göstərməklə yanaşı feodalizmin süqutunu da sürətləndirirdi.

### § 9.2. Şərq-Qərb fərqliliyinin anatomiyası

Dünya iqtisadiyyatının genezisi kontekstində Şərq və Qərb sivilizasiyalarının formalaşması və inkişaf təmayülləri mühüm tarixi əhəmiyyət kəsb edir.

Şərq-Qərb müxtəlifliyinin tarixi rolu müasir dünya iqtisadiyyatının gerçək məzmununda kifayət qədər dərin izlər buraxmışdır. Bu sıraya aşağıdakıları aid etmək olar:

1. qlobal ədalətsizliyin sistemli yaranış kimi meydana çıxması: Bəşəriyyətin tən yarısı – 3,5 mlrd.-dan çox adam bu gün insan kimi yaşamaq iqtidarında deyil;
2. qloballaşmanın asimmetrikliyi; ölkələrarası fərqlərin qabarıq şəkildə təzahürü;
3. qlobal iqtisadi inkişaf problemlərinin kəskinləşməsi;
4. ümumbəşəri rifahın dayanıqsızlığı və s.

Bu sıranı xeyli genişləndirmək də olar. Lakin, bu deyilənlər də problemin (Qərb-Şərq müxtəlifliliyi) aktuallıq dərəcəsinin dərkedilməsi baxımından kifayətedicdir. Əlbəttə, sadalanan və sadalanmayan problemlər kompleksini təkcə Şərq-Qərb müxtəlifliyi ilə də bağlamaq

downloaded from KitabYurdu.org

düzgün olmazdı. Müasir qlobal situasiyanın problemlər çoxluğu amillər çoxluğu ilə determinə olunur. Bu amillər içərisində Şərq→Qərb müxtəlifliyi bu növ baza keyfiyyətində çıxış edir.

Beləliklə, Şərq-Qərb müxtəlifliyi ilkin başlanğıcdanmı mövcud olmuş, yoxsa tarixin müəyyən pilləsində meydana çıxmışdır sualına birmənalı olaraq "sonradan ayrılmışlar" tipli cavab vermək olar. Əvvəli bir olanın sonunda eyniyyətə gələcəyi qənaətini bir tərəfə qoyaraq, qeyd edək ki, hər iki sivilizasiya neolit inqilabından qaynaqlanır.

Uzun tarixi dövr ərzində siyasət, iqtisadiyyat, sosial sfera və s. müstəvisində oxşar (bəlkə də eyni) yolla inkişaf etmişlər. Yalnız bizim eraya yaxın dövrdə sivilizasiyanın antik inkişaf yolu ümumşərq magistralından ayrılmış və sonralar bu yol Qərb yolu adlandırılmışdır. Sivilizasiyaların inkişaf yolunun fərqliliyi heç də o anlama gəlmir ki, Şərq və Qərb arasında münasibətlər olmamışdır. Hər iki tərəf sıx qarşılıqlı əlaqədə olmuş, bununla belə özünəməxsusluğu qoruyub saxlamışdır. Hərbi münaqişələrin, hətta aydın şəkildə görünən tsiklliyi yaranmışdır:

İlkin olaraq Şərq hərbi üstünlüyə malik olmuş (yunan-İran müharibələri), sonralar yerdəyişmə baş ermişdir: Makedoniyalı İsgəndər, Roma imperiyası və s. Orta əsrlərdə yenidən Şərq önə keçmiş və Qərbi öz təsir dairəsinə almışdır (türklər, ərəblər və s.).

Son orta əsrlərdən başlayaraq yenidən Qərb üstünlüyü ələ keçirmiş və böyük müstəmləkə sistemi yaratmışdır.

Bəri başdan xatırlatmaq istədik ki, nə Qərb, nə də Şərq ayrı-ayrılıqda vahid sivilizasiya kimi çıxış etmir. Yəni, həm Qərb, həm də Şərq sivil dəyərlər nöqteyi-nəzərindən homogen deyildir. Onları yalnız, əgər belə demək caizsə, metasivilizasiyalar kimi qəbul etmək olar. Eyni zamanda hər iki qütb həm mahiyyəti, həm də təməl prinsipləri baxımından kəskin surətdə fərqlənirlər. Sivilizasiyaların inkişaf tarixini tədqiq edən müəlliflər Qərblə Şərq (ələlxüsus, müsəlman Şərqi) arasında fundamental fərqlərin mövcudluğunu əyani şəkildə sübuta yetirmişlər.[144]

***Cədvəl 9.2***

***Şərq-Qərb: sivil dəyərlərin fərqliliyi***

| **Əlamətlər** | **Qərb** | **Şərq** |
|---|---|---|

[144] Pandey R. Sosiology of Development. Delhi, 1985, p293.

downloaded from KitabYurdu.org

| | | |
|---|---|---|
| 1. Sosial-iqtisadi xarakteristika | a) inkişaf etmiş industrial cəmiyyət<br>b) bazis-istehsal | a) iqtisadi geriliklə üzləşən «aqrar» cəmiyyət<br>b) bazis-bölgü |
| 2. Sosiumun strukturu və tipi | a) şəhər cəmiyyəti<br>b) şəhər<br>c) şəhərlilər<br>ç) müasirlik | a) kənd cəmiyyəti<br>b) kənd<br>c) tayfalar<br>ç) ənənəviçilik |
| 3. Siyasi səciyyəsi | a) demokratik, vətəndaş cəmiyyəti | a) patriarxal, avtoritar, tiran |
| 4. Mədəniyyət | a) materializm<br>b) sekulyarizm<br>c) realizm /praqmatizm<br>ç) obyektivizm<br>d) plüralizm<br>e) azadlıq<br>ə) bərabərlik<br>f) individualizm<br>g) antroposentrizm | a) ruhanilik<br>b) dinçilik<br>c) idelazim<br>ç) subyektivizm<br>d) monizm<br>e) tayfa<br>ə) tabeçilik<br>f) totalitarizm<br>g) teosentrizm |
| 5. Tarixi xarakteristika | a) tarixilik<br>b) xətti zaman | a) qeyri-tarixilik/ durğunluq<br>b) tsiklik zaman |

Göründüyü kimi, Qərbin əsasən “primitiv” və “irrasional” hesab etdikləri Şərqin mövcudluq prinsipləri kimi çıxış edir. Modernizmin zəruriliyi fikrində israr edən tədqiqatçılar Qərbin texnikası ilə Şərqin əxlaqını, rasionalizmlə humanizmi birləşdirməyə cəhd edirlər.[145] Problem bundadır ki, keçmiş dövrlərdən fərqli olaraq, müasir dövrdə Şərq-Qərb “simbiozu” sosial və fərdi varlığın təməl prinsiplərinin total əksliyi şəraitində həyata keçirilməyə çalışılır.

Qlobal və regional səviyyələrdə baş verən hadisələr (proseslər) deyilən istiqamətdə hansısa bir yeni yaranışın formalaşma mərhələsində olduğu qənaətini aktuallaşdırmaqdadır. Bununla belə, biz qəti surətdə əminik ki, ən yaxşı halda ilğım kimi təzahür edən “yeni yaranış”ın hec

[145] Гудыменок А.В., Старостин Б.С. Социокультурный облик развивающихся обществ. Социальные процессы: соотношение современного и традиционного//Развивающиеся страны: экономический рост и социальный прогресс. М: 1983.

downloaded from KitabYurdu.org

bir real əsası yoxdur, yaxud ziddiyyətli ilkin şərtlərə söykənməklə qurulan nəzəri konstruksiyadan başqa bir şey deyildir.

Məntiqi yanlışlığı açıq şəkildə müşahidə edilən müqəddəm şərtlərin bazasında gerçək dünya ilə adekvat ola biləcək "yeni yaranışın" meydana çıxması ehtimalı elmdənkənar təsəlliverici ümumiləşdirmə keyfiyyətindən o yana keçmir. Bununla yanaşı, aldadıcı təzahürlərin mövcudluğunu da inkar etmək olmaz. Belə ki, Şərq-Qərb "simbiozu" çərçivəsində sosial institutlaşmanın hansısa seqmenti üzrə ümumuyğunluq yarana bilər. Lakin bu aldadıcı uyğunluq olmaqla, əsasən istisna xarakteri daşıyacaqdır. İstisnaların təmayül kimi qəbulu isə mümkünsüzdür.

Beləliklə, Şərq-Qərb "simbiozunun" reallığa çevrilməsi istəyində abstrakt metaforalarla uzağa getmək mümkün deyildir. Başqa sözlə, real məzmunlu müxtəliflik, yaxud ya Şərq, ya Qərb gerçəkliyi göz qabağındadır.

## § 9.3. Qərbin dünya liderliyinə keçidi

X əsrdə Şərq ölkələrinin iqtisadi inkişaf səviyyəsi Qərbi Avropa ilə müqayisədə 1.5-2 dəfə yüksək olmuşdur.[146]

XI əsrdə adambaşına ÜDM-un həcmi Çində 600-700 dollar, Hindistanda 550-650 dollar, Misirdə 470-530 dollar (1980-ci ilin qiymətləri ilə) təşkil etmişdir. Eyni zamanda, şəhər əhalisinin xüsusi çəkisi arasında da əhəmiyyətli fərqlər yaranmışdır. Belə ki, Çində 2 min əhalisi olan şəhərlərdə əhalinin 20%, islam ölkələrində - 15-20%-i yaşadığı halda, Qərbi Avropada analoji göstərici 11-13% təşkil edirdi. XI-XII əsrlərdə Çində dəmir istehsalı İngiltərənin XVII əsrdə (1640-cı il) əldə etdiyi səviyyədən 2.5-5 dəfə çox idi. Həmin dövrdə təkcə Çinin dəmir istehsalının həcmi XVIII əsr Avropasının bütövlükdə analoji göstəricisinə bərabər olmuşdur.

Şərqlə Qərb arasında fərqlilik intellektual səviyyəyə görə daha böyük nisbətdə - 1:20-ə nisbətində (Şərqin xeyrinə) formalaşmışdır. Bu göstərici üzrə Avropanın səviyyəsi, hətta Roma imperiyasının klassik dövründəki (b.e.ə. VIII əsr – b.e. II əsri) səviyyədən də aşağı olmuşdur.

Qərbi Avropanın dünya hegemonluğuna keçidinin ilkin başlanğıc anı 1683-1739-cu illəri əhatə edir. Belə bir qənaət ortalıqdadır ki, 1683-cü ildə Şərqlə Qərb arasında paritet mövcud olmuşdur.

[146] В.К.Ломакин. Мировая экономика. М.: Финансы, 1998.- С.29

downloaded from KitabYurdu.org

XVIII əsrin ortalarından etibarən paritet Qərbin xeyrinə pozulmağa başlamış və Qərbin dünya iqtisadiyyatında həlledici mövqelərə yüksəlməsini şərtləndirmişdir. Məhz həmin dövrdə Avropa ictimai əmək məhsuldarlığı və istehlakın səviyyəsinə görə Şərq ölkələrinə çatmış, sonrakı mərhələdə isə sürətlə irəli çıxmışdır.

Maraqlı cəhətlərdən biri ondan ibarətdir ki, araşdırılan dövr ərzində Şərq mədəniyyətinin yüksəlişi müşahidə edilirdi. Təbiidir ki, qeyd edilən yüksəliş ənənəvi dəyərlər sisteminə söykənirdi. Bu aspektdən, yəni mədəniyyətlə bağlı tənəzzül hesab edilə biləcək yeganə məsələ özünəməxsusluğun, ənənəviçiliyin hegemon mövqedə qalması, Avropanın intellektual və mədəni nailiyyətləri ilə müqayisədə innovativ xarakterli dəyişikliklərin yoxluğu ilə şərtlənə bilər.

Ümumiyyətlə, hal-hazırda tədqiqatçıların böyük əksəriyyəti belə bir qənaətdədirlər ki, XVI-XVII əsrlərdə Avropanın çiçəklənməsinin "Avropa möcüzəsi"nin əsas qaynağı elə Avropanın özündədir. "Avropamərkəzçiliyi" konsepsiyası və ümumiyyətlə, birxətli inkişaf yanaşması, o cümlədən marksist baxışlar qeyd edilən dövrdə baş vermiş inkişafı kapitalizmə keçidlə əsaslandırırlar. Belə ki, "burjua" inqilabları ardıcıl olaraq Avropa ölkələrində formalaşmış feodal münasibətləri sisteminə son qoymuş, məhsuldar qüvvələrin inkişafı yolundan bütün "maneələri" aradan qaldırmışdır və s.

Həqiqətən də, XVI-XVIII əsrlər ərzində Şərqin heç bir ölkəsində "burjua" inqilabı baş verməmiş, kapitalist münasibətlərinin spontan qaydada formalaşması prosesi olmamışdır. Amma... nədən? Birxətli yanaşmanın, o cümlədən tarixi materializm məntiqindən çıxış etsək, əslində əks-nəticə ilə qarşılaşmalı idik. Yəni o dövrdə Şərq bütün parametrlərə görə Qərbdən üstün idi və təbii olaraq, "proqressiv" olan nə varsa ilkin olaraq Şərqdən başlanmalı idi.

Şərqin gerçəkliyini şərtləndirən amillərə yanaşmada müxtəlif baxışlar yer almaqdadır:

1. Şərq ölkələrinin köçəri tayfaların aramsız hücumlarına məruz qalması; Həqiqətən də, kiçik fasilələrlə aparılan müharibələr iqtisadiyyatın inkişafına dağıdıcı təsir göstərmiş, demoqrafik situasiyanı kəskin şəkildə pisləşdirmişdir və s.

    Bəzi tədqiqatçılar bunu önəmli amil hesab etmirlər. Qeyd edirlər ki, əvvəla, dağıdıcı müharibələr heç vaxt Şərqin xüsusiyyəti keyfiyyətində çıxış etməmişlər. İkincisi, Avropada da belə müharibələr baş vermişdir (1618-1648 – 30 illik müharibə) ki, nəticədə də təkcə Almaniyanın

downloaded from KitabYurdu.org

əhalisi 20 mln. nəfərdən 7 mln. nəfərə qədər azalmışdır və s.

2. Şərq ölkələrinin sistematik şəkildə talan edilməsi (müstəmləkə sistemi). Sözügedən proses bir tərəfdən, Şərq ölkələrində iqtisadiyyatın dağılmasına, kütləvi yoxsullaşmaya, digər tərəfdən isə əldə olunan böyük həcmli sərvətə söykənməklə Avropa ölkələrinin sürətli inkişafına səbəb olmuşdur. İlkin kapital yığımı prosesinin əsasən Şərq ölkələrinin talan edilməsi hesabına baş verməsi bütövlükdə Şərq regionunda feodalizmin və müstəmləkə köləliliyinin uzunmüddətli mövcudluğuna səbəb olmuşdur.

Probelmin bu səpgidə qoyuluşunu qəbul etməyən tədqiqatçılar qeyd edirlər ki:

1.Çoxsaylı cəhdlərə baxmayaraq "görünməmiş talan"ın miqyasını və "ilkin kapital yığımı"nın məbləğini müəyyənləşdirmək mümkün olmamışdır. Əksinə, Şərqlə Qərb arasındaki "tədiyyə balansı" birincinin xeyrinə formalaşırdı.

Qərbin Şərqlə ticarət əlaqələrində olan xroniki defisit qiymətli metalların Şərqə axınına gətirib çıxarmışdır. XVII-XVIII əsrlərdə Amerikada hasil edilən gümüşün 1/3 məhz həmin defisiti qapamaq üçün Şərq ölkəsinə göndərilmişdir. Avropanın ümumidxalatının 90%-i Asiyadan gətirilirdi. Yəni vurğulayırlar ki, qızıl axınları Qərbdən Şərqə yönəlmişdir, əksinə deyil! Əslində isə, Şərqin maddi, təbii və insan resurslarının Qərb dövlətləri tərəfindən talan edilməsi (müstəmləkə sistemi) Şərqin iqtisadiyyatına öldürücü zərbə vurmuşdur. Məsələn, Maysorun paytaxtının işğalı nəticəsində (1799-cu il) ingilislər 12 mln qızıl pul, Benqalın işğalından sonrakı 15 il ərzində (XVIII əsr) 1 mlrd. funt sterlinq dəyərində vəsait əldə etmişlər. 100 il ərzində (1757-1857) İngiltərənin Hindistandan əldə etdikləri sərvətin məbləği 1 mlrd. funt sterlinq təşkil etmişdir və s. Bütün bunlara 100 illər boyu davam edən müstəmləkə sistemini və onun səbəb olduğu nəticələri də əlavə etsək, onda gerçək vəziyyətin heç də deyildiyi kimi olmadığını görə bilərik

Bir sıra müəlliflər qeyd edirlər ki, bəzi ölkələr istisna olmaqla, bütövlükdə Şərq regionunda mütləq iqtisadi tənəzzül olmamışdır. Hətta, o dərəcədə ki, iqtisadi inkişaf templəri Avropanın analoji göstəricisindən elə də fərqlənmirdi. Məsələn, Mak-Eyvedi və Consun

downloaded from KitabYurdu.org

qiymətləndirmələrinə görə demoqrafik artımın dinamikası (iqtisadi inkşafın məcmu ifadəsi kimi) yuxarıda gəlinən qənaətin doğru olduğuna dəlalət edir.

***Cədvəl 9.3***

***Şərq-Qərb: əhalinin artım dinamikası***

| İllər | Avropa | | Asiya | |
|---|---|---|---|---|
| | *Əhalinin sayı mln. nəfər* | *Əvvəlki dövrə nisbətən artım (%)* | *Əhalinin sayı mln. nəfər* | *Əvvəlki dövrə nisbətən artım (%)* |
| 1500 | 81 | - | 280 | - |
| 1600 | 100 | 25 | 375 | 35 |
| 1650 | 105 | 5 | 370 | -1 |
| 1700 | 120 | 14 | 415 | 12 |
| 1800 | 180 | 50 | 625 | 50 |

1800-cü ilə olan məlumata görə Avropanın əhalisi 71%, Çinin – 146%, Hindistanın əhalisi isə 27% artmışdır. XVIII əsrin əvvəllərində Çin, sonralar isə Avropa iqtisadi inkişaf templərinə görə Hindistana çatmışdı, iqtisadi və demoqrafik artımın dinamikası Yaponiya üçün də analoji xarakter daşımışdır.

2.“İlkin kapital yığımı” prosesinin tarixi fenomen kimi mövcudluğu şübhə altına alınır. Prosesin təfərrüatına varmayan bəzi tədqiqatçılar göstərirlər ki, bu fenomenin gerçəkliyinin belə, Şərqə heç bir aidiyyəti olmamışdır. Başqa sözlə, XVII-XVIII əsr Avropasının elmi-texniki və iqtisadi inkişafında müstəmləkə sistemi, ələlxüsus Şərq heç bir rol oynamamışdır. Sənaye çevrilişinin erkən dövründə (1760-1815) ticarət və bank kapitalının iştirakını sübut edə biləcək heç bir fakt mövcud deyildir. Ayrı-ayrı şəxslər tərəfindən əldə edilən sərvət (müstəmləkələrin istismarı ilə bağlı) Qərbin sənayeləşməsi prosesində iştirak etməmişdir.

3.Şərqə münasibətdə Qərbin “xeyirxahlığını” önə çəkənlərin ən maraqlı qənaətlərindən biri də “konkret qanunauyğunluq” aşkara çıxarmalarıdır. Heç demə müstəmləkələr metropoliyalara nisbətən daha sürətli inkişaf yolunda olmuşlar.

downloaded from KitabYurdu.org

Bununla belə, əksər nəzəri yanaşmalar (marksizm, dünya-sistem nəzəriyyəsi, asılılığın meta nəzəriyyəsi və s.) Şərqin dünya liderliyini əldən verməsini Qərbin "talan" siyasəti ilə bağlayırlar. Məsələn, İ.Vallerstayn "müasir dünya sisteminin" formalaşması prosesini iki dövrə bölür – 1450-1640 və 1640-1815; eyni zamanda, göstərilir ki, sözügedən prosesdə mənimsəmənin yeni formaları meydana çıxmışdır. Kənd təsərrüfatı, sonralar isə sənaye istehsalında artım dünya bazarı vasitəsi ilə (qeyri-ekvivalent ticarət) Qərb ölkələri tərəfindən mənimsənilirdi. Qeyri-ekvivalent ticarət regional qiymət səviyyələri arasındakı fərqə və gümüş və qızılın fərqli alıcılıq qabiliyyətinə əsaslanırdı. Həyata keçirilən valyuta – qiymət siyasətinin əksər müsbət məqamları isə "nədənsə" Qərbdə toplanırdı və onun sürətli inkişafına güclü təkan verirdi. Bu da, yekun olaraq sənayeləşmə və cəmiyyətin modernləşməsi ilə nəticələndi. 1500-1700-cü illər ərzində Avropanın xarici ticarət dövriyyəsi 15 dəfə artdı. Və beləliklə, beynəlxalq ticarətdə hegemon mövqeyə sahiblənən Qərb dünyanın iqtisadi inkişaf mərkəzinə çevrildi.

Müvafiq olaraq, Şərq "mərkəzin" tələbatları və mənafeləri çərçivəsində "inkşaf" yoluna qədəm qoydu – dünya sisteminin əyalətinə çevrildi. Beynəlxalq əmək bölgüsü sistemi genişləndikcə Şərq ölkələrinin "mərkəzdən" asılılığı da güclənməyə başladı. Formalaşmaqda olan dünya bazarının "oyun qayda"larına (daha doğrusu – Avropa kapitalının diktə etdiklərinə) tabe olmaq məcburiyyəti iqtisadi geriliyin sistemli xarakter almasına gətirib çıxardı. Daxili, endogen amillərin təsir dairəsi və əhəmiyyəti xeyli dərəcədə aşağı düşdü. Həmin dövrdə Şərq ölkələri xammal və yarımfabrikat ixracatçılarına çevrildilər.

Beləliklə, inkişafa münasibətdə Şərqlə Qərb arsında əks-tənasüblük formalaşdı. Qərb – nə qədər çox inkişaf edirdisə, Şərq o qədər geri qalırdı.

Bütün orta əsrlər dövründə, eləcə də yeni dövrün başlanğıcında Şərq özünəməxsusluğunu qorumuş və Qərblə bağlı olanları (mənəvi dəyərlərdən tutmuş iqtisadiyyatın təşkilinə qədər) birmənalı şəkildə rədd etmişdi. Yalnız XIX əsrin ikinci yarısından başlayaraq Şərq sivilizasiyası tədricən daha tolerant olmağa, Qərbə aid olanları qəbul etməyə başlamışdı. Şərqin "qərbləşməsi" prosesi bu gün də davam etməkdədir.

downloaded from KitabYurdu.org

## § 9.4. Qərb və Şərq ölkələri orta əsrlərdə: "istehsal iqtisadiyyatı"nın inkişaf xüsusiyyətləri

### § 9.4.1. Fransa iqtisadiyyatı

XI-XV əsrlərdə Fransa tipik feodal dövləti kimi mövcud olmuşdu. Fransanın feodalizmə keçidi icma cəmiyyətinin və Roma imperiyasının protofeodal elementlərinin uyğunlaşdırılması əsasında baş vermişdir. Artıq V əsrdə Fransa feodal dövlətinə çevrilmişdir. Milli dövlət quruculuğu prosesi IX əsrin ortalarından başlamış, XI əsrdə yekunlaşmışdır. IX-XI əsr Fransa iqtisadiyyatında hakim mövqedə olan natural təsərrüfatçılıq tipi ayrı-ayrı iri feodalların daha da güclənməsinə şərait yaradırdı. Hətta o dərəcədə ki, onların sahib olduqları ərazilər ayrıca dövlət kimi fəaliyyət göstərir, kral hakimiyyətindən asılılıq demək olar ki, tam şəkildə aradan qalxırdı.

XI-XIII əsrlərdə mərkəzəqaçma təmayülləri tədricən güclənməyə başlayır, ayrı-ayrı əyalətlərin dağınıq halda mövcudluğuna son verilir.

Feodalların torpaq üzərindəki inhisar mülkiyyəti tam şəkildə qərarlaşır. Azad kəndli torpaq sahibliyi ləğv edilir. Yalnız şəxsi feodal asılılığı əsasında kəndlilərə pay torpaqları verilir. Asılılığın ən geniş yayılmış forması təhkimçilik (servaj) idi. Təhkimli kəndlilər tam hüquqsuz vəziyyətə salınmışdı.

XIII-XIV əsrlərdə təhkimçiliyin böhranı başlayır. Natural təsərrüfatçılıq tipi inkişafın əngəlinə çevrilir.

Böyük Coğrafi kəşflərin digər ölkələrlə müqayisədə Fransa iqtisadiyyatına təsiri hissediləcək dərəcədə olmamışdır. Feodal münasibətləri sistemi XVIII əsrin sonuna qədər davam etmişdir. Bütün bu dövr ərzində ölkə iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edirdi. Aqrotexnki təchizatın səviyyəsinə görə XIV əsrlə müqayisədə, əhəmiyyətli irəliləyişlər olmamışdır. Bununla yanaşı, əsas kənd təsərrüfatı rayonlarının ərazicə ixtisaslaşması prosesi start götürmüşdür.

Fransada ilkin kapital yığımı prosesi, İngiltərədən fərqli olaraq ("çəpərləmə") vergi yükünün artırılması yolu ilə həyata keçirilirdi.

İlkin kapital yığımının fransız metodu iki əsas xüsusiyyəti ilə fərqlənirdi:

1. Dövlət borcları sisteminin xüsusi çəkisinin qeyri-adi böyüklüyü.
2. Daxili bazarın nisbi zəifliyi.

downloaded from KitabYurdu.org

Bu proses çərçivəsində sənayenin ən yüksək inkişaf səviyyəsi XVII əsrin ortalarına təsadüf etmişdir. Qeyd edilən səviyyənin əldə olunmasında dövlətin proteksionist siyasəti həlledici rol oynamışdır. Ümumiyyətlə, dövlətin həyata keçirdiyi iqtisadi siyasət ticarətin inkişafında da mühüm yer tutur. Ticarət donanması yaradılmışdır, daxili bazar yüksək gömrük tarifləri ilə qorunurdu və dövlət ixracat əməliyyatlarını əhəmiyyətli dərəcədə dəstəkləyirdi. Avropanın digər ölkələri və müstəmləkələrlə ticarətdə inhisarçı birliklər meydana çıxmağa başlamışdır. Feodal münasibətləri məhz Fransada daha yetkin forma almışdı. Bu baxımdan aşağıdakı fərqli xüsusiyyətləri göstərmək olar:

1. Feodalların kənd təsərrüfatından “ayrılığı”.
2. Kənd yerlərində xırda torpaq sahibliyinin hökmranlığı; Təsərrüfatın natural xarakterinə uyğun olaraq daxili bazarın və əmtəə-pul münasibətlərinin zəif inkişafı; daxili bazarın “darlığı” əsasən kəndlilərin çoxsaylı və ağır vergi yükü altında olmaları ilə izah edilə bilər.
3. Dövlət strukturlarında feodalların güclü mövqelərə sahib olması feodal münasibətlərinin dağılmasına və yeni kapitalist münasibətlərinin intişarına mənfi təsir göstərirdi.
4. Dövlət vergilərinin mərkəzləşdirilmiş feodal rentası kimi xüsusi rolu;
5. Yüksək faizlərlə dövlət istiqrazlarının buraxılması; Nəticədə, manufakturaya kapital qoyuluşu ilə müqayisədə sələmçilik daha sərfəli olmuşdur. Vergilərlə birlikdə sələmçilik Fransada ilkin kapital yığımının spesifik mənbəyi kimi çıxış edirdi.
6. Zadəganlara aid olmayan əsas əhali kütləsi tam hüquqsuz idi. Bu da yeni yaranan münasibətlər (kapitalist) sistemində əngəlləyici amil rolunu oynayırdı.
7. Sənayedə xüsusi kapital qoyuluşlarının zəif artımı sənətkarlıq və manufakturalar üzərində kral hökumətinin qəyyumçuluğuna səbəb olmuşdu.

XVII əsrin ikinci yarısından etibarən Fransada manufakturaların 4 tipi formalaşmışdı:

1. Dövlət vəsaitləri hesabına yaradılan və dövlət tərəfindən idarəedilən kral manufakturaları.
2. Müxtəlif imtiyazları olan xüsusi kral manufakturaları.
3. Vergiqoyma sferasında və ssuda alınmasında müxtəlif güzəştlərdən istifadə edən, bu anlamda müəyyən üstünlüklərə malik olan xüsusi imtiyazlı manufakturalar.

downloaded from KitabYurdu.org

4. Heç bir imtiyazı olmayan, dövlət dəstəyindən istifadə etməyən adi manufakturalar.

Fransa dövləti gəmiçiliyin inkişafına xüsusi diqqət yetirməyə başlamışdır ki, bu da nəticədə ingilis və hollandlarla rəqabət aparmaq imkanı yaratmışdır. Digər tərəfdən, Kanadanın, LuizIananın, Qəraib dənizi hövzəsindəki bir sıra adaların, Hindistanın Pandişer vilayətinin və s. ələ keçirilməsinə təkan vermişdir.

XVII əsrin sonu XVIII əsrin əvvələrində başlayan siyasi-iqtisadi tənəzzül müstəmləkələrin bir hissəsinin itirilməsi ilə nəticələndi. Dövlət borcunun həcmi görünməmiş dərəcədə artdı (kralın vergilərdən əldə etdiyi məcmu gəlirindən 32 dəfə çox). Məcburi məzənnə ilə buraxılan kağız pullar bütövlükdə pul sisteminin dağılmasına səbəb oldu.

### § 9.4.2. İngiltərənin iqtisadiyyatı

İngiltərədə feodal münasibətləri icma təsərrüfatının inkişaf xüsusiyyətlərindən qaynaqlanmaqla formalaşmışdı. Roma imperiyasının təsiri Fransadakı qədər əhəmiyyətli rol oynamamışdır. VII əsrdə əmlak bərabərsizliyinin konkret səviyyələri formalaşmışdır: erli (zadəganlar), kerli (azad icma üzvləri), leti (yarımazad icma üzvləri) və qullar. IX əsrdə İngilis krallığı yaranır. XII əsrdə votçina qəti olaraq qərarlaşır.

1235-ci ildən etibarən “çəpərləmə” prosesi başlanır. Manufakturaların yaranışı (şəhərlərdən kənar) start götürür. XV-XVI əsrlərdə cəngavərlərin “burjualaşması” prosesi gedir.

XVI-XVII əsrlər İngiltərəsi yeni, kapitalist münasibətlərinin formalaşması prosesində daha fəal şəkildə çıxış edirdi. Kapitalist münasibətləri sisteminin İngiltərədə daha sürətli qərarlaşması əsasən aşağıdakı amillərlə izah oluna bilər:

1. Təhkimçilik hüququnun daha erkən ləğvi;
2. Sənaye burjuaziyasının əhəmiyyətli bir təbəqəyə çevrilməsi;
3. Zadəgan təbəqəsinin parçalanması: Zadəganların bir qismi yeni münasibətlər sistemini dəstəkləyirdi.
4. Sənayenin inkişafını dəstəkləyən güclü mütləqiyyətin mövcudluğu. İngiltərənin (XVI-XVII əsrlərdə) iqtisadi inkişafı iki əsas amillə xarakterizə olunur:
   1. İngilis sənayesinin əsasını kətançılıq təşkil edirdi. Yunçuluq sənayesi – ilkin başlanğıcdan yeni münasibətlər əsasında formalaşmışdır.

downloaded from KitabYurdu.org

Kətançılıq manufakturaları əvvəlcə kənd yerlərində yaranmışdır. Harada ki, sex rejimi yox idi və sərbəst işçi qüvvəsi kifayətedici səviyyədə idi. XVII əsrin əvvəllərində kətan və yun ingilis ixracatının 90%-ni təşkil edirdi. İpək və metal emalı sənayesi müqayisədə ikinci planda dayanırdı. XVII əsrdə Şərq ölkələrindən pambıq idxalına başlandı. Tədricən dağ-mədən sənayesi, gəmiqayırma, barıt, şüşə və sabun istehsalı inkişaf yoluna qədəm qoyurdu. Yüz il (1551-1651) ərzində İngiltərədə kömür hasilatı 14 dəfə, dəmir filizi – 3 dəfə, əlvan metallar (mis qurğuşun və s.) 6-8 dəfə artmışdır. Bütün Avropada istehsal edilən kömürün 4/5-ü İngiltərənin payına düşürdü.

2. XVI əsrdə İngiltərədə "aqrar inqilab" baş verir. Kəndli sinfi bir sinif kimi "yox" olur. "Çəpərləmə" əməliyyatı kəndliləri torpaqdan uzaqlaşdırmaqla sərbəst işçi qüvvəsinin sayının artımına səbəb olmuşdur ki, bu da sənaye üçün işçi qüvvəsi problemini aradan qaldırmışdır.

"Çəpərləmə" əməliyyatına təkan verən əsas amil XVI əsrin əvvəllərində yuna olan tələbin artması idi. Artan tələbi ödəmək məqsədi ilə mülkədarlar özlərinə məxsus olan torpaq sahələrini otlaq yerlərinə çevirirdilər. İri fermer təsərrüfatları yaranırdı.

Yeni münasibətlərin qərarlaşması prosesinə paralel olaraq zadəgan təbəqəsinin parçalanması da sürətlənirdi. Keçmiş feodalların bir hissəsi yeni, kapitalist münasibətlərinin tərəfdarlarına çevrilirdilər.

Eyni zamanda, dövlət də öz tərəfindən kapitalist münasibətləri sisteminin formalaşmasını güclü şəkildə dəstəkləyirdi. Bu məqsədlə bir sıra qanunlar qəbul edilmişdir: avaralara qarşı tətbiq olunan "qanlı qanunlar", maksimal əməkhaqqı haqqında qanun və s. Həmçinin yeniliyin sürətli tətbiqində kilsənin islahatları da az əhəmiyyətli rol oynamamışdır. Nəticədə geniş torpaq sahələri kilsədən alınaraq təsərrüfat dövriyyəsinə daxil edilmişdir.

İngiltərədə feodal torpaq sahibliyinin yenidən təşkili burjua-kəndli deyil, burjua-zadəgan yolu ilə həyata keçirilirdi. Öz feodal hüquqlarından istifadə edən torpaq sahibləri kəndliləri kütləvi şəkildə qovurdular. Sənayenin inkişafı ticarətin, ələlxüsus xarici ticarətin tərəqqisinə güclü təkan verdi. Ölkədə iri ticarət şirkətləri yaranmağa başladı. 1600-cü ildə yaradılmış Ost-Hind şirkəti Hindistanın müstəmləkə əsarətinə alınması prosesinin başlanğıcını qoydu. XVI əsrdə Londonda iri banklar və

downloaded from KitabYurdu.org

birjalar meydana çıxdı. XVI əsrin ikinci yarısından etibarən İngiltərə müstəmləkə sistemi yaratmağa başlamışdır.

### § 9.4.3. Almaniya iqtisadiyyatı

Almaniyada feodalizmə keçid kənd yerlərində yaranmış protofeodal elementləri əsasında baş vermişdir. Almaniya IV-IX əsrlərdə Frank dövlətinin tərkibində olmuş, yalnız 911-ci ildə müstəqillik əldə etmişdi. Feodalizmin qərarlaşması prosesinin əsas xarakterik xüsusiyyətlərinə aşağıdakıları aid etmək olar:

1. Prosesin ifrat ləngliyi.
2. Prosesin asimmetrikliyi: feodal münasibətləri ölkənin cənubu və cənub-qərbində daha sürətlə yayılırdı.
3. XIV əsrə qədər mərkəzləşdirilmiş kral hakimiyyətinin saxlanması.

XIII-XIV əsrlərdə ölkənin iqtisadi məkanı 3 yerə parçalanmışdı:

1. Şimal-qərb regionu: kiçik zadəganlar, icarəçi kəndlilər;
2. Şərq regionu: işğal edilmiş ərazilər, kiçik zadəganlar, təhkimçilik hüququ, ticarət;
3. Cənub və Cənub-qərb regionu: iri votçinalar. XVI əsrdə Almaniyanın ərazisində 30 mln. insan 297 müstəqil dövlətdə yaşayırdı.

Ümumiyyətlə, Almaniyanın iqtisadi inkişafı İngiltərə və Fransadan tamamilə fərqli xüsusiyyətlər daşıyırdı. XVI əsr Almaniyasında feodal münasibətləri nəinki zəifləmiş, hətta daha da möhkəmlənmiş və XIX əsrə qədər davam etmişdi.

XIV-XV əsrlərdə əhalinin artımı, ticarətin, sex sənətkarlığının, əkinçiliyin inkişafı dövrü kimi xarakteizə oluna bilər. Alman malları – yüksək keyfiyyətlə istehsal olunurdu ki, bu da rəqabət mübarizəsində müəyyən üstünlüklər əldə etməyə imkan verirdi. Zərgərlik, silah istehsalı, dağ-mədən sənayesi güclü inkişaf etmişdi. Almaniya – Avropada ilk dəfə olaraq kitab çapını həyata keçirirdi.

Kənd təsərrüfatı məhsullarına olan tələbin artırılması kənd yerlərində əmtəə-pul münasibətlərinin inkişafı prizmasından Qanza önəmli rol oynayırdı.

Böyük Coğrafi kəşflər Almaniya iqtisadiyyatına mənfi təsir göstərmişdir. Belə ki, ticarət yollarının dəyişməsi şimali və cənubi alman şəhərlərinin tənəzzülünə, ticarətin və sex sənətkarlığının böhranına səbəb oldu.

downloaded from KitabYurdu.org

Bununla yanaşı, gümüş mədənlərinin sənaye əhəmiyyəti aşağı düşdü. Qiymət inqilabı və tələbin həcminin artması ilə kənd təsərrüfatı məhsullarının qiymətində yüksəliş baş verdi ki, bu da sözügedən istiqamətdə əlverişli konyunkturanın formalaşmasına gətirib çıxardı. Alman mülkədarları kənd təsərrüfatı məhsullarının ixracatını artırmaq məqsədi ilə klassik feodal elementlərinə (biyar və s.) geniş yer verirdilər. Bu dövrdə baş verən kəndli üsyanları (1525-ci il) yatırıldıqdan sonra feodal münasibətləri daha da möhkəmləndi. Yeni şəraitə uyğunlaşa bilməyən Qanza dağıldı (1699-cu il). Alman taxıl mərkəzi kimi Hamburq ön plana çıxdı.

XVI əsr Almaniyasının iqtisadi tənəzzülündə siyasi dağınıqlıq da əhəmiyyətli rol oynamışdı. Siyasi dağınıqlılıq - əslində ölkə iqtisadiyyatının zəif inkişafından qaynaqlanırdı, eyni zamanda, öz növbəsində iqtisadi geriliyi daha da dərinləşdirirdi. Ayrı-ayrı iqtisadi regionlar arasında, demək olar ki, əlaqə yox idi. Məsələn, Şimali Almaniya Baltik dənizi hövzəsinə, Cənubi Alman şəhərləri Şimali İtaliya və Dunay çayı hövzəsinə yönəlmiş, qərb rayonları Niderlanddan asılı vəziyyətə düşmüş, Şərqi Almaniyanın isə heç bir inkişaf etmiş ərazilərlə münasibətləri olmamışdır. Ölkədaxili regionların iqtisadi əlahiddələşməsi siyasi separatizm doğururdu.

XVII əsrin sonunda Almaniyada 6 min müxtəlif pul vahidi dövriyyədə olmuş, gömrük sistemi əlavə məhdudiyyətlər hesabına daha da mürəkkəb sistem keyfiyyətinə yiyələnmişdi.

Bütün bunlar, təbii olaraq ölkənin iqtisadi inkişafında mənfi işarəli rol oynayırdı. Feodal çəkişmələri 30 illik müharibəyə (1618-1648) gətirib çıxardı. Antihamburq koalisiyasının qələbə çalması Alman torpaqlarının bir hissəsinin bölüşdürülməsinə səbəb oldu.

Nəticədə, iqtisadi təcridliyə çoğrafi təcridlik də əlavə olundu. Bütün Baltikyanı ərazilər İsveçin, Şimal dənizi isə Hollandiyanın nəzarətinə keçdi.

XVIII əsrdə Prussiya güclü hərbi-siyasi monarxiyaya çevrildi. İqtisadi proseslərdə "hərbi" elementlər üstünlük təşkil etməyə başladı.

Feodal münasibətlərinin daha da möhkəmləndirilməsi prosesi start götürdü.

### § 9.4.4. Niderlandın iqtisadiyyatı

downloaded from KitabYurdu.org

Niderland 200-dən çox şəhəri olan, əhali sıxlığı ilə seçilən ilkin, nümunəvi kapitalist ölkəsi idi. Ölkənin iqtisadi qüdrəti mərkəzi və şimal əyalətlərində sənayenin və ticarətin inkişafı üzərində bərqərar idi.

İnkişafın yetkinlik dövründə (XVI əsr) Niderland – Hollandiya, Belçika, Lüksemburq və Fransanın şimal hissəsini özündə birləşdirərək, İspaniyanın tərkibində hersoqluq kimi mövcud olmuşdur.

Kapitalist münasibətlərinin rüşeymləri hələ XIV əsrdən meydana çıxmağa başlamışdır. Digər Avropa ölkələri ilə müqayisədə əmtəə-pul münasibətləri daha erkən yayılmışdır. XVI əsrdən etibarən flamand şəhərlərinin sex quruluşu tənəzzülə uğramış, kapitalist manufakturaları xüsusi mövqelərə sahiblənmişlər.

Kapitalist manufakturaları əsasən şimal əyalətlərində (Hollandiya, Zelandiya) inkişaf etmişdir. Bu dövr üçün əsas sahələr kimi gəmiqayırma və balıqçılıq çıxış edirdi. XVI əsrdə Amsterdam iri limana çevrilmişdir. Qeyd etmək lazımdır ki, Niderlandda ilkin kapital yığımı prosesi əyalətlər üzrə fərqli yollarla həyata keçirilirdi ki, bu da sonralar həmin əyalətlərin fərqli tarixi talelərinin meydana çıxmasına səbəb olmuşdur. XVI əsr Niderlandı yüksək iqtisadi inkişaf səviyyəsinə nail olmaqla dünya ticarətinin mərkəzinə çevrilmişdir. Ölkədaxili inkişaf səviyyəsinə görə mərkəzi əyalətlər xüsusi yer tuturdu. Antverpen – XVI əsr Avropasının ticarət və kredit mərkəzi idi. Avropanın bütün banklarının bu şəhərdə nümayəndəliyi açılmışdır.

Antverpenin əmtəə birjasında həyata keçirilən ticarət əməliyyatlarının həcmi Venesiyadan 1.5 dəfə çox olmuşdur. Eyni zamanda, Antverpendə müxtəlif sənaye sahələri də inkişaf etmişdi. Manufakturaların inkişafında qiymət “inqilabı” önəmli rol oynamışdı: İnqilab nəticəsində əməkhaqqı təxminən 2 dəfə azalmışdır ki, bu da muzdlu işçilərdən istifadənin faydalılığını əhəmiyyətli dərəcədə yüksəltmişdir.

Şəhərlərdə kapitalist münasibətlərinin qərarlaşması aqrar sferada da adekvat dəyişikliklərə gətirib çıxardı. Kəndlilərin şəxsi azadlığı təmin olunmuşdur. Kəndlilər pul rentası müqabilində torpaq sahələrini icarəyə götürürdülər ki, buradan da kapitalist sisteminə transformasiya olunmaq elə də mürəkkəb məsələ deyildi.

XVI əsrdə holland kəndlərində sosial təbəqələşmə mövcud idi və natural təsərrüfat ümumiyyətlə, aradan qaldırılmışdır. Kəndlilərin əsas kütləsinin yoxsullaşması kapitalist sənayesinin inkişafı üçün baza yaradırdı və daxili bazarı genişləndirirdi. Kənd təsərrüfatında muzdlu işçi

downloaded from KitabYurdu.org

qüvvəsindən istifadə olunmağa başlamışdı. Əkin dövriyyəsinin daha mütərəqqi formaları tətbiq olunurdu.

Şimal əyalətlərində də analoji proseslər gedirdi. Ölkənin cənubunda isə aqrar-feodal münasibətləri hökmran olaraq qalmaqda idi.

Sənaye istehsalının artımı, ayrı-ayrı əyalətlər arasında iqtisadi əlaqələrin güclənməsi, daxili bazarın formalaşması kapitalist münasibətlərinin qərarlaşması, milli bütövlüyün formalaşması feodal İspaniyası ilə münasibətlərin kəskin şəkildə pisləşməsinə gətirib çıxardı. İspaniya Niderlandda feodal münasibətlərinin saxlanılmasına çalışırdı. Bəşər tarixində ilk dəfə Niderlandda baş verən burjua inqilabı (1565-1609) kompromislə sonuclandı: Yalnız 7 Şimal vilayəti İspaniyadan ayrılaraq "Hollandiya" adında müstəqil dövlət yaratdı. Mərkəzi və cənubi əyalətlər İspaniyanın tərkibində qaldı.

Hollandiya – birmənalı olaraq kapitalizm yoluna qədəm qoydu. Artıq XVII əsrdə Hollandiya ilk dəniz və ticarət dövlətinə çevrilmişdir. Onun dəniz donanması dünya donanmasının 60%-ni təşkil edirdi ki, bu da İngiltərə və Fransanın birlikdə malik olduqları donanmadan 2 dəfə çox idi.

Sex quruluşu birdəfəlik aradan qaldırıldı, yeni manufakturalar yaranmağa başladı, ixracat yönümlü məmulatların istehsal həcmi əhəmiyyətli dərəcədə artdı. Eyni zamanda, digər ölkələrin sifarişləri əsasında gəmiqayırma sənayesi sürətli inkişaf yoluna qədəm qoydu. Bununla belə, Hollandiya iqtisadiyyatının əsas sahəsi kimi ticarət çıxış edirdi. Kapitalqoyuluşlarının əsas hissəsi dəniz və ticarət nəqliyyatına yönəldilirdi. Hollandiya – beynəlxalq ticarət əlaqələrində əsas "vasitəçi" və malyerilişi prosesinin əsas subyekti kimi çıxış edirdi.

Amsterdam – dünya ticarəti və kreditin mərkəzinə çevrildi. İri sığorta şirkətləri yarandı.

1609-cu ildə ilk əmanət bankının əsası qoyuldu. XVIII əsrdə Amsterdamın fond birjası qiymətli kağızlar üzrə beynəlxalq bazara çevrildi.

Həcminə görə Holland kapitalı Avropanın məcmu kapitalından çox idi. Kapital qoyuluşunun əsas sferalar kimi xarici ticarət və dəniz daşımaları çıxış edirdi.

XVII əsrdə Hollandiya dünya ticarətində liderliyi ələ keçirdi. Bu aspektdə müstəmləkə imperiyasına "xidmət" üçün xüsusi ticarət şirkətləri yaradılırdı.

XVII əsrin birinci yarısı ərzində ilkin kapital yığımı prosesi getmişdir ki, burada da dövlət borcları xüsusi rol oynamışdır.

downloaded from KitabYurdu.org

XVII əsrin ən varlı ölkəsi olan Hollandiyanın ən çox da dövlət borcu var idi. Dövlət borcu kapitalın maliyyəçilərdə toplanmasına şərait yaradırdı. O dövrün heç bir ölkəsində Hollandiyada olduğu sayda birbaşa və dolayısı ilə vergilər olmamışdı.

Dünya ticarətində liderliyi uzun müddət saxlamaq mümkün olmadı. Belə ki, XVII əsrin sonlarına yaxın sənayenin inkişaf səviyyəsi ilə ticarət liderliyi arasında uçurum yaranmağa başladı. XVII-XVIII əsrlər İngilis-Holland müharibələri nəticəsində İngiltərə önə çıxdı.

Liderliyi itirən Hollandiyada kapitalın sənayedən ticarətə axını daha da gücləndi. Kapital daha çox sələmçi xarakter almağa başladı.

Hollandiyanın tənəzzülü səbəbləri sırasında əsasən aşağıdakıların önəmli olduğunu qeyd edə bilərik;

1. ölkədə kapitalizmin inkişaf səviyyəsi İngiltərəyə qarşı durmaq üçün kifayət deyildir;
2. Hollandiya – güclü ticarət kapitalına və zəif sənayeyə malik ölkə idi;
3. ticarət – daha çox "vasitəçi" xarakter daşıyırdı.

## § 9.4.5. Yaponiyanın iqtisadiyyatı

Yaponiyada erkən feodalizm V-XI əsrləri əhatə edir. Məhz bu dövrdə Yaponiya Asiya istehsal üsulundan feodalizmə keçid etmişdir.

IX əsrə qədər, Çində olduğu kimi, Şərq despotluğu mövcud olmuşdu. Kəndlilər şəxsən azad olsalar da, müəyyən torpaq paylarına təhkim edilmişdilər.

Vergilər taxıl, sənətkarlıq məmulatları, yaxud əmək mükəlləfiyyəti formasında müəyyənləşdirilirdi.

IX-X əsrlərdə məmurlara aid olan torpaq payları votçinalara çevrilir.

XII əsrdən etibarən Yaponiyada feodal münasibətləri kifayət qədər dayanıqlı xarakter daşımış və "Meyci inqilabına" (1868-ci il) qədər davam etmişdir. Yapon feodalizmi öz mahiyyəti etibarilə Şərq təsərrüfatçılıq modelinin çərçivəsindən kənara çıxmamışdır. Bütün torpaqlar nominal olaraq imperatora məxsus idi. Lakin faktiki torpaq sahibliyi feodallar tərəfindən həyata keçirilirdi. Bununla yanaşı, xüsusi çəkisinin ifrat dərəcədə az olmasına baxmayaraq kəndlilərə məxsus torpaq sahibliyi də mövcud olmuşdur.

downloaded from KitabYurdu.org

Sosial təbəqələşmə dayanıqlı vassalitetə istinadən formalaşmışdı. Kənd yerlərində əhali sıxlığının yüksək dərəcəyə çatması kəndlilərin torpaq asılılığını xüsusilə gücləndirirdi.

Feodal rentası natural sapalaq formasında alınırdı ki, bu da adətən istehsal edilmiş məhsuldan (düyü) pay şəklində olurdu. Bununla yanaşı kəndlilər feodal təsərrüfatlarında biyar işlərinə də cəlb olunurdu.

Feodal-kəndli münasibətlərində sələmçilik sonuncuların istismarının mühüm elementi kimi çıxış edirdi.

Yapon şəhərlərində feodal münasibətləri dəqiq reqlamentləşdirilmiş formada mövcud olmuşdu. Şəhərlərin heç bir hüququ yox idi.

XII-XIII əsrlərdə yapon şəhərlərində 4 mln. insan yaşayırdı ki, bunların da yalnız 1 mln. nəfəri sənətkarlıqla məşğul olurdu.

Yapon dövləti şəhərlərin iqtisadi həyatına güclü müdaxilə edir, ticarəti reqlamentləşdirir, qiymət səviyyəsini müəyyən edir, təmtəraq mallarının istehlakını yasaqlayır və s. bir sözlə, iqtisadiyyat tam şəkildə dövlət tərəfindən idarə olunurdu. Ticarətin bir çox sferaları dövlət inhisarına alınmışdır. Yaponiyada feodal rejiminin spesifik xüsusiyyətlərindən biri də samurayların say çoxluğu ilə əlaqədar olmuşdur. Onların böyük əksəriyyətinin torpaq payları yox idi və buna görə də vassalların maddi təminatının "düyü payı" formasında özünəməxsus sistemi formalaşmışdır.

Yeni, kapitalist münasibətlərinin qərarlaşmağa başladığı dövrdə (son orta əsrlər) Yaponiya feodal dövləti olaraq qalmaqda idi. İqtisadi geriliklə yanaşı, kəndlilərin torpaq asılılığının maksimum səviyyəyə çatması, feodalların iqtisadi funksiyalarının ifrat dərəcədə bəsitləşdirilməsi, şəhərlərin feodallaşdırılması, hakim sinfin (təbəqənin) çoxsaylılığı, Avropa ilə müqayisədə Yapon feodalizmini daha dayanıqlı etmişdi. İctimai həyatın bütün spektrini çuğlayan feodal münasibətləri labüd olaraq dayanıqlılıq fenomenini ortalığa çıxarmışdır. Belə ki, Avropa ölkələrində kapitalizmin tam şəkildə qərarlaşdığı bir dövrdə Yaponiya hələ də feodal ölkəsi kimi qalmaqda davam edirdi. Eyni zamanda yapon feodalizminin mühafizəkarlığı siyasi xarakterli amillərin də təsiri altında idi.

Aydındır ki, mütləqiyyət tipli dövlətin yaranması o dövr üçün proqressiv xarakter daşıyırdı. Belə ki, feodallararası konfliktlərin aradan qaldırılması məhsuldar qüvvələrin inkişafında müsbət işarəli rol oynayırdı. XVII əsrdə bir sıra nailiyyətlər əldə olunmuşdu: yeni torpaqlar hesabına əkin sahələri genişləndirilmiş, gübrədən istifadə olunmağa başlanmış, yeni bitkilərin – pambıq, şəkər çuğunduru, kartof, tütün əkini

downloaded from KitabYurdu.org

vüsət almış, eyni zamanda ayrı-ayrı rayonların ixtisaslaşması və coğrafi əmək bölgüsünün dərinləşdirilməsi istiqamətində intensiv fəaliyyət həyata keçirilmişdir.

Yapon şəhərlərində sənətkarlıq inkişaf etdirilmiş, şəhərlərin ixtisaslaşması və istehsalın həcminin artırılmasına nail olunmuşdur.

XVII əsrin sonunda sənətkarlığın 130 növü mövcud olmuşdur. Sex ustalarının istehsal etdiyi məmulatlar yüksək keyfiyyəti ilə fərqlənirdi. Bütün bunlara paralel olaraq daxili ticarət genişlənirdi.

Bununla yanaşı, yapon feodalizminin spesifik cəhətləri sırasında bir çox nüanslar da yer almaqda idi. Belə ki, Yapon dövləti xarici ticarət, gəmiqayırma, müstəmləkə ələ keçirmə və ilkin kapital yığımı kimi ö dövrdə mühüm əhəmiyyət kəsb edən sferaları dəstəkləmirdi. Tam əks mövqe sərgilənirdi: ölkənin xaricdən tam şəkildə təcrid olunmasına çalışılırdı. İlkin kapital yığımının əksər xarici mənbələrindən imtina tam məntiqi olaraq yeni kapitalist münasibətlərinin genezisinin əngəlləyici amili kimi çıxış edirdi. Buna görə də, nəinki son orta əsrlərdə (XVI-XVIII), hətta XIX əsrin ikinci yarısında da Yaponiya feodal dövləti olaraq qalmaqda idi.

XVII əsrin sonlarında yapon iqtisadiyyatında durğunluq dövrü olmuş, hətta əhalinin artımı dayanmışdı.

Yapon feodalizminin tədricən dağılmasında daxili ticarət önəmli rol oynamışdı. Daxili ticarətin əsasında sənətkarlığın kənd təsərrüfatından, şəhərlərin kəndlərdən ayrılması, coğrafi əmək bölgüsünün inkişafı, əkinçiliyin geniş yayılması dayanırdı. Bütün bunlar şəhərlərin inkişafında müstəsna rol oynamışdır. XVII əsrin sonunda şəhər əhalisi artıq 14-15% təşkil edirdi. XVIII-XIX əsrlərdə yapon feodalizminin dağılması prosesinin ilk rüşeymləri meydana çıxdı. Bu proses sənaye istehsalının manufaktura sisteminin inkişafına paralel olaraq gedirdi.

"Ev sənayesi" məhsullarının tacirlər tərəfindən alınaraq bazar dövriyyəsinə daxil edildikcə dağınıq tipli manufakturaların inkişafı üçün ilkin müqəddəm şərtlər formalaşırdı.

Avropa ölkələrində olduğu kimi, Yaponiyada da məhz sənətkarlıq manufaktura sənayesinin genezisi üçün maddi baza yaratmışdır.

İri müəssisələrin yaradılması üçün böyük həcmdə kapitala və çoxlu sayda muzdlu işçilərə olan tələbat son orta əsrlərdə ilkin kapital yığımını kifayət qədər aktuallaşdırmışdır.

XVII-XIX əsrlərdə feodalizmin dağılması və kapitalizmin genezisi arasında böyük uçurum meydana çıxmışdır. Belə ki, kənd yerlərində əhali sıxlığının daha da artması, kapitaldan sələmçi istifadə, manufaktura

downloaded from KitabYurdu.org

sənayesinin ləng inkişafı sözügedən uçurumun real məzmun daşıdığını ortalığa qoyur.

Bunun əsas səbəblərindən biri, əvvəldə də qeyd etdiyimiz kimi, Yaponiyanın xarici dünyadan təcridi nəticəsində ilkin kapital yiğimi prosesinin zəifləməsidir. Digər tərəfdən, istehsalın reqlamentləşdirilməsinin sex sistemi manufaktura sənayesinin inkişafına imkan vermirdi.

Ümumiyyətlə, sözügedən uçurumun başda gələn əsas səbəbi feodal rejiminin ümumi hökmranlığı olmuşdur. Ölkədə özbaşınalıq baş alıb gedirdi. Buna görə də tacirlər, o cümlədən sələmçilər sənayeyə investisiya qoyuluşuna cürət etmirdilər. Çoxlu sayda əngəlləyici amillərin təsirinə baxmayaraq XV-XVI əsrlərdən etibarən manufaktura tipli müəssisələr yaranmağa başlamışdı. Həmin dövrdə daha çox dağ-mədən müəssisələri, XVII əsrdən gəmiqayırma tərsanələri yaranır, XVII əsrin ikinci yarısından etibarən manufaktura sistemi saxsı sənayesinə nüfuz etməyə başlayır.

XVIII əsrdə toxuculuq, hörmə, rəngləmə və dulusçuluq manufakturaları meydana gəlir. Ümumiyyətlə, "Meyci inqilabına" qədər 420 manufaktura fəaliyyət göstərmişdir.

Yaponiyada kapitalizmin genezisinin əsas xüsusiyyətlərini aşağıdakı kimi sıralamaq olar:

1. Yaponiya XVII-XIX əsrlərdə feodal ölkəsi idi, buna görə də, Qərbi Avropa ilə müqayisədə kapitalizmin genezisi daha ağır şərtlər daxilində gedirdi.
2. Bununla əlaqədar olaraq ilkin kapital yığımı prosesi ifrat aşağı templərlə gedirdi. Müstəmləkə resurslarından istifadə olunmurdu.
3. Feodalizmin dağılması ilə kapitalizmin genezisi arasında böyük uçurum yaranmışdı.
4. Sənayenin feodallaşdırılması müşahidə olunurdu. Məcburi əməyə əsaslanan dövlət zavodları, ayrı-ayrı knyazların votçinalarında manufakturalar meydana çıxırdı.
5. Yaponiyada kapitalizmin genezisinin iqtisadi bazası kimi şəhərlərdə mövcud olan sex sənətkarlığı, varlı tacirlər təbəqəsi, geniş ticarət çıxış edirdi.

downloaded from KitabYurdu.org

### § 9.4.6. Çinin iqtisadiyyatı

Çində Asiya istehsal üsulundan feodalizmə keçid b.e.ə. I minillikdən başlamış b.e. VII əsrinə qədər davam etmişdir. Asiya istehsal üsulunun dayanıqlılığı, bu sistem çərçivəsində kənd icmasının da uzunömürlüyünü təmin etmişdir.

Təsərrüfatın qapalı xarakteri, məcmu iqtisadi fəaliyyətin icmadaxili müstəvidə həyata keçirilməsi və özünütəchizə yönəldilməsi kənd icmasının dayanıqlı struktur kimi mövcudluğunun dəstəklənməsində mühüm rol oynamışdı.

Qeyd edilən zaman sürəci ərzində sosial təbəqələşmə prosesi ardıcıl olaraq davam etmiş və erkən orta əsrlərdə artıq Çin cəmiyyəti 3 əsas təbəqəyə bölünmüşdü: Zadəganlar (xeyirxah insanlar); kəndlilər və qullar. Torpaq sahibliyi dövlət payları (nadel) formasında sistemləşdirilmişdir;

1. Məmurlara verilən xidməti torpaq payları; Torpaq sahibliyi şərti xarakter daşıyırdı.
2. Ömürlük bəxşeyiş formasında verilən torpaq payları.
3. "Güclü möhtəşəm evlər"in xüsusi mülkiyyətində olan torpaq sahələri (vergilərdən azad olunurdu).
4. Kəndlilərin ömürlük torpaq paylarına təhkim olunması;

Çində renta-vergi həm natural formada (taxıl, parça və s.) alınır, həm də əmək mükəlləfiyyəti şəklində ödənilirdi.

Sosial təbəqələşmənin dəqiq sərhədlərə malikliyi kifayət qədər inkişaf etmiş bürokratik aparatın yaranmasına gətirib çıxarmışdır. VII əsrdə dövlət pay (nadel) sistemi ləğv olunur, VIII əsrdən XVII əsr də daxil olmaqla feodal münasibətlərinin yetkin forması qərarlaşır. Bu dövrdə xüsusi mülkiyyətin geniş yayılması, iri feodalların votçinalarının formalaşması baş verir.

Kəndli təsərrüfatının iki kateqoriyası meydana çıxır: 1. dövlət ("təsərrüfatçı" – şəxsən azad olan kəndlilər); 2. "Qonaq" – müflisləşmiş, torpağı və əmək alətləri olmayan kəndlilər;

Feodalizmin yayılma intensivliyinə paralel olaraq Çin şəhərləri inkişaf edirdi. Sənətkarlığın icmadan ayrılması, sexlərin, tacir gildiyalarının yaranması iqtisadiyyatda müəyyən irəliləyişlərlə müşayiət olunurdu.

X əsrdən etibarən kağız pulların, veksellərin iqtisadi dövriyyəyə daxil olması, sələmçiliyin inkişafı yüksələn xətlə gedirdi. Monqol əsarəti (1211-1368) iqtisadi yüksəlişin tənəzzüllə əvəzlənməsinə gətirib çıxardı.

downloaded from KitabYurdu.org

Yalnız 1368-ci ildə vahid Çin dövləti bərpa olundu. 1644-cü ildən 1911-ci ilə qədər isə Çin Mancuriyanın əsarəti altında olmuşdu.

XVII əsrin sonlarında Avropa ilə əlaqələrin yaradılması, xarici ticarət və sənətkarlığın dirçəlişi hesabına iqtisadiyyatda müəyyən canlanma yaranmışdı. XVIII əsrdən başlayaraq feodal cəmiyyətinin dağılması prosesi start götürmüşdür. Çində sənaye inqilabının başlanğıcı XVIII əsrin sonlarına təsadüf edir.

downloaded from KitabYurdu.org

## X fəsil. Türklər orta əsrlərdə

### § 10.1. Türk dövlətlərinin iqtisadi sistemi

III-IV əsrlərdən etibarən Türk dövlətlərində feodal münasibətləri qərarlaşmağa başladı. Bununla yanaşı, qeyd olunmalıdır ki, türk ərazilərində quldarlıq münasibətlərinin bir çox elementləri V-VI əsrlərə qədər mövcud olmuşdur. Bütövlükdə orta əsrlərdə (ələlxüsus erkən və klassik orta əsrlər) Mərkəzi Asiyada 15-dən çox türk dövləti mövcud olmuşdu.

Erkən orta əsrlərin ən böyük türk dövləti Orta Asiyada III-IV əsrlərdə (feodalizmə keçid dövründə) yaranmış Kuşan imperiyası idi. Bu dövlət ərazicə orta Asiyanı, Əfqanıstan, Pakistan və Hindistanın şimalını əhatə edirdi.

Kuşan imperiyasında əksər Şərq ölkələrində olduğu kimi, Asiya təsərrüfat üsulu hökmran olmuşdur. Ölkə iqtisadiyyatının aparıcı sahəsi heyvandarlıq olsa da, əkinçilik də inkişaf etmiş, geniş suvarma kanalları çəkilmişdi.

İmperiya canişinlər vasitəsilə idarə olunurdu. İmperiyanın işğal etdiyi ölkələr nisbi müstəqilliklərini saxladıqlarına görə (imperiyanı yalnız vergilər maraqlandırırdı) Kuşan dövlətinin ciddi mərkəzləşdirilmiş idarəetmə sistemi olmamışdı. Bu da, sonuc etibarilə dövlətin süqutuna gətirib çıxarmışdı.

IV əsrin ortalarında yaranmış Ağ hun dövləti də Kuşan dövləti kimi köçəri maldarların imperiyası idi. Köçəri maldarların və əkinçilərin yaşadığı Ağ hun dövləti haqqında tarixi mənbələr kifayət qədər kasaddır. Kuşan dövləti ilə əksər məsələlərdə, o cümlədən ərazinin əyalətlərə bölünməsi və əyalətdaxili müstəqillik və s. tam aşkarlıq mövcud idi. Bu dövlətdə ticarət və sənətkarlıq inkişaf etmiş, şəhərlər yaranmışdı. Bu sıraya e.ə. I minillikdə yaranmış Kanq dövlətini, Xarəzm dövlətini də aid etmək olar. Bu dövlətlərin əksəriyyəti ilkin yaranışda quldar dövlətləri kimi fəaliyyət göstərmişlər.

Xarəzm dövləti VI əsrdən etibarən feodal dövlətinə çevrilməyə başlamışdı. Qeyd etmək lazımdır ki, III-IV əsrlərdən başlayaraq əksər türk dövlətlərinin idarəetmə sistemi (o cümlədən, Türk xaqanlığında) feodal münasibətlərinə xas olan iyerarxiyaya əsaslanırdı. Türk xaqanlığında sosial təbəqələşmə aşağıdakıları ehtiva edirdi:

1. Xaqan – Ali hökmdar.
2. Şax, yabqu və tarxanlar – iri feodallar.

downloaded from KitabYurdu.org

3. Bəglər (bəylər) – tayfa başçıları.
4. “Kara budun” (qara camaat) – yerdə qalan əhali; azad köçəri maldarlar.

Bir qayda olaraq, qul əməyi aparıcı mövqeyə malik olmamış, iqtisadiyyatın əsas istinad nöqtəsi kimi torpaq çıxış edirdi. Köçəri maldar tayfaları üçün torpaq həm yaylaq, həm də qışlaq kimi istifadə olunurdu.

Xaqan – ali mülkiyyət hüququna malik idi. Ayrı-ayrı əyalətlərin başçıları bu əyalətlərə məxsus olan torpaqların baş mülkiyyətçisi hesab olunmurdular. Köçəri maldar imperiyalarında feodal münasibətləri spesifik xüsusiyyətlərə malik idi:[147]

1. Təhkimçilik - əkinçi tayfalarında olduğu kimi tətbiq edilmirdi. Yalnız maldar ailələr yaşadıqları torpaqlara təhkim olunurdu.
2. Torpaq – bütövlükdə tayfanın ümumi istifadəsində idi.
3. Maldar tayfalar parçalanmış, tək-təklikdə deyil, qrup (oba) şəklində yaşayırdılar.

Nisbi müstəqilliyə malik olan ayrı-ayrı tayfalar arasında yaranmış ziddiyyətlər VI əsrdə Türk xaqanlığını iki yerə parçaladı.

Tarixçilərin qənaətinə görə Türk xaqanlığını yaratmış qədim türk tayfaları bütün müasir türk xalqlarının, o cümlədən azərbaycanlıların təşəkkülündə iştirak etmişlər.

Türk xaqanlığında quldarlıq münasibətləri olmamış ( hətta hərbi əsirlər belə şəxsi azadlıqda idilər), ibtidai icmadan feodalizmə birbaşa keçid baş vermişdi.

581-ci ildə Türk xaqanlığı iki yerə parçalandı. Qərbi Türk xaqanlığı təşəkkül tapdı.VI-VII əsrlərdə xaqanlığın ərazisində Kulan, Nevaket, Taraz və s. şəhərlər yaranmışdır.[148] Xaqanlıqda əhali “kara budun” (qara camaat), feodal asılılığında olan ailələr isə “tat” adlanırdı.

704-cü ildə Qərbi Türk xaqanlığına son qoyulmaqla Türkəş xaqanlığı yaranır. Türkəş xaqanlığı idarəetmə sistemi və münasibətlərin əsas məzmunu üzrə Qərbi türk xaqanlığının davamı kimi qəbul edilə bilər.

766-940-cı illərdə mövcud olmuş Karluq xaqanlığına daxil olan türk tayfaları oturaq həyat tərzi keçirdilər ki, bunu da feodalizmin inkişafının məntiqi nəticəsi kimi səciyyələndirmək olar. Xaqanlıqda mülkiyyətin iki forması vardı:

1. Əkinçi üzərində.

---

[147] Ə.Muxtarova. Türk xalqlarının dövlətçilik tarixi. Bakı, 2002.- S.70-71
[148] Ə.Muxtarova. Türk xalqlarının dövlətçilik tarixi. Bakı, 2002- S.79

downloaded from KitabYurdu.org

2. Mal-qara üzərində.

Maraqlı cəhətlərdən biri ondan ibarət idi ki, maldar – şəxsən azad idi – onun mal-qarası elə özünün xüsusi mülkiyyəti hesab olunurdu. Əkinçi ailələri isə maldar feodaldan asılılıqda olmuşdur. Belə ki, əkinçi ailələrin istifadə etdiyi suvarılan torpaqlar maldar feodala məxsus olmuşdu.

Erkən orta əsrlərdə yaranmış feodal tipli dövlət qurumları sırasında Uyğur xaqanlığı da (745-840) olmuşdu. Bu xaqanlıq Şərqi türk xaqanlığına son qoymuş, Altaydan Mancuriyaya qədər böyük bir ərazini əhatə etmişdi.

Əsas fəaliyyət sferası heyvandarlıq idi. Əhalinin yalnız kiçik bir hissəsi əkinçiliklə məşğul olurdu. Tarixi mənbələr göstərir ki, Uyğur xaqanlığı yeganə türk dövləti idi ki (erkən orta əsrlərdə), Çinlə ticarət edir və ölkədə Çin pulları işlədilirdi. Suvarma əkinçiliyinin inkişaf etməsinə baxmayaraq qul əməyindən istifadə kütləvi xarakter daşımırdı. Torpaqlar bütünlüklə xaqanın mülkiyyətində idi. Xidmətlərinə görə feodallara verilən torpaq sahələri onların mülkiyyəti hesab olunmurdu. Feodallar o torpaq sahələrində çalışan maldarların və əkinçilərin sahibkarı idi. Oturaq həyat tərzinə keçmiş yerlərdə isə kəndli torpağa təhkim olunmuşdur və öz istəyi ilə həmin yeri tərk edə bilməzdi.

Erkən orta əsrlərdə Orta Asiyada mövcud olmuş türk dövlətlərində feodalizmin qərarlaşması prosesində müəyyən fərqliliklər də olmamış deyildir. Əsas fərqli xüsusiyyətlər köçəri maldar tayfaların dövlət sistemi ilə əkinçi tayfalarının erkən feodal dövlətləri arasında nəzərə çapır. Aydındır ki, qeyd edilən fərq təsərrüfat məşğuliyyətinin məzmunundan irəli gəlirdi. Erkən feodalizm dövründə yaranmış şəhər-dövlətlər IX əsrə qədər mövcud olmuşdular. Feodalizm münasibətlərinin dərininə inkişafı ilə əlaqədar olaraq həmin dövrdən etibarən müstəqil feodal dövlətlərin yaranması mərhələsi başlanır.

Samanlar dövləti məhz göstərilən dövrdə meydana çıxmışdı. Əkinçi-maldar tayfaların oturaq həyat tərzi qərarlaşmışdı. Ölkədə iri torpaq sahibliyi inkişaf etmişdi. Dövlətin ərazisi iki yerə ayrılmışdı.

1. "Mülki-xərac": xərac verən ərazilər.
2. Xərac verməyən ərazilər. Xərac verməyən hissə özü də 3 yerə bölünürdü:
    a. "Mülki-sultan" – hökmdara məxsus olan ərazilər; bu ərazilər "dövlət torpaqları" adlanırdı.
    b. mülkədar torpaqları; cəmiyyətin elit təbəqəsinə aid olan yüksək mənsəbli məmurlar;

downloaded from KitabYurdu.org

c. Vəqf torpaqları.

İIri torpaq sahibləri birbaşa iqtisadi fəaliyyətlə məşğul olmurdular. Onlara məxsus olan torpaq sahələri kəndlilər arasında bölüşdürülür və icarəhaqqı, yaxud vergi alınırdı.

İdarəetmə sistemi Ərəb xilafətinin analoqu idi. Sistem saraydan və 10 divandan (dəftərxana ) ibarət olmaqla formalaşdırılmışdır.

Tarixçilərin fikrincə, "Orta Asiyada inkişaf etmiş feodal münasibətləri mərhələsinin qurumu olan Samanlar dövləti əslində türk xalqlarının tarixində ilk formalaşmış klassik feodal dövləti idi".[149]

VI-VIII əsrlərdə indiki Özbəkistan və qismən Qırğızıstan ərazilərində Fərqanə dövləti mövcud olmuş və 627-649-cu illərdə Türk xaqanlığı tərəfindən işğal edilmişdi. Erkən feodal dövləti kimi yaranmış Fərqanə dövlətinin əhalisi oturaq olmuş və 100-ə qədər kiçik şəhərləri vardı.

XII əsrin sonlarında yaranan Xarəzmşahlıq dövləti türk xalqlarının tarixində ilk dəfə olaraq mərkəzləşdirilmiş idarəetmə sisteminə malik olmuşdu. Xarəzm dövlətinin Orta Asiyanı əhatə edən ərazilərində əhali əsasən əkinçilərdən, sənətkarlardan və tacirlərdən ibarət idi.

Əvvələr Türk xaqanlığına tabe olmuş qırğızlar IX əsrin 40-cı illərində Qırğız xaqanlığını yaratmışdılar. Qırğız xaqanlığı mahiyyətcə, köçəri maldar tayfaların tayfa ittifaqı idi. Ölkə 6 əyalətə bölünmüşdü. Dövlət idarəetməsi hüquqa deyil, icma dövrünün adət-ənənələrinə əsaslanırdı.

Erkən feodal tipli dövlət qurumlarına X əsrin ortalarında yaranmış Qaraxanlar, Kidan dövlətlərini və Oğuz dövlət qurumlarını da aid etmək olar.

Erkən feodalizm dövründəki türk dövlət qurumları təkcə Orta Asiya ilə məhdudlaşmır. Belə ki, həmin dövrdə Cənub-Şərqi Avropada da türk dövlətləri mövcud olmuşdu. Bu, ilk növbədə hunların Avropaya miqrasiyası ilə (b.e. əvvəllərində) ilə əlaqədardır. İlkin dövrlərdə hun tayfaları hərbi demokratiya şəraitində fəaliyyət göstərirdilər. 453-cü ildə hun tayfalarının yenidən qruplaşması Qərbi Hun dövlətinin (Şərqi Hun dövlətinin ənənələrinin davamçısı kimi) güclənməsinə gətirib çıxardı. Qərbi Hun dövlətinin süqutu nəticəsində yeni türk dövlətləri: Bolqar, Xəzər, Avar və Suvar – meydana çıxdı. Tarixi mənbələr göstərir ki, məhz hunlar Şərqi Avropada quldarlığa son qoymuşlar.

---

[149] Ə.Muxtarova. Türk xalqlarının dövlətçilik tarixi. Bakı, 2002, s.87

downloaded from KitabYurdu.org

Erkən feodalizm dövrünün Türk dövlətləri təsərrüfatçılığın Şərq modeli çərçivəsində fəaliyyət göstərməklə yanaşı, bir sıra spesifik xüsusiyyətlərə də malik olmuşlar. Məsələn, feodal münasibətlərinin qərarlaşmasına baxmayaraq, hərbi-demokratiya ənənələri qalmaqda davam etmiş, dövlətin başında birmənalı olaraq köçəri maldar tayfalarının başçıları dayanmış və s.

XV əsrin ortalarından etibarən Orta Asiyadakı türk tayfalarının yenidən birləşməsi, feodal pərakəndəliliyinin aradan qaldırılması prosesi başlanır. Əmir Teymur 1370-ci ildə yeni bir türk imperiyası yaratdı. Bu dövlət artıq yetkin feodal münasibətlərinə əsaslanır, köçəri maldarlar və əkinçi tayfalarının birgə fəaliyyətinə şərait yaradırdı.

Teymurun dövləti vassal feodalların torpaq sahibliyinə əsaslanırdı. Başqa sözlə, mərkəzləşdirilmiş dövlət anlayışı əmir Teymurun şəxsində təcəssüm edirdi. O, öləndən sonra (XV əsrin 20-ci illəri) dövlət sürətlə parçalandı.

### §10.1.1. Böyük Osmanlı imperiyası

XIV əsrdə Kiçik Asiyada keçmiş dövlətlərin - Hett padşahlığının, Midiya və Əhəmənilər imperiyalarının, Selevkilər dövlətinin, Pont çarlığının, Perqamın, Bizans imperiyasının ərazilərini əhatə edən qüdrətli türk dövləti olan Osmanlı dövləti yaranmışdır. Həmin dövlətin (Avropa mənbələrində «Ottoman dövləti» kimi göstərilir) əsasını oğuzların qayı boyundan çıxmış Osman bəy qoymuşdur.

Çingiz xanın 1219-1221-ci illərdə Orta Asiyaya yürüşü ilə əlaqədar 70 min nəfərə qədər Orta Asiya türkü Ön Asiyaya, o cümlədən bir qismi Anadoluya köç etmişdi. Bunların içərisində təxminən 4 min nəfərdən ibarət qayı tayfası da var idi. XIII əsrin əvvəllərində Anadoluya gələn bu tayfanın başçısı Ərtoğrul bəy Səlcuq Sultanından Söqüt (Səqat) vilayətini iqta kimi almış, ona Bizans ilə sərhədləri qorumaq tapşırılmışdı.

Atasının vəfatından sonra Osman bəy qayı bəylərinin qüvvələrini birləşdirərək əskişəhər – Suriya-İraq yolunu ələ keçirir və bununla sultanlığın varlığına son qoyaraq Osmanlı dövətini yaratdı (1299-cu il). Zaman göstərdi ki, osmanlıların tarix səhnəsinə çıxışı təsadüf deyildi. Bu dövlət daha öncəki türk-islam dövlətlərinin mədəni-siyasi irsi üzərində qərarlaşmışdı.

downloaded from KitabYurdu.org

Osmanın oğlu Orxan Qazinin hakimiyyəti dövründə Osmanlı dövləti çox gücləndi, dövlət hakimiyyət orqanları formalaşmağa başladı, ölkə vilayətlərə və bölgələrə bölündü. 1326-cı ildə Bursa şəhəri fəth edildi və dövlətin ilk paytaxtı elan olundu. Osmanlılar 1337-ci ildə Nikomediya (indiki İzmir) şəhərini tutduqdan sonra bütün Anadolu onların tabeliyinə keçdi.

Osmanlı tarixinin ən əlamətdar hadisələri içəriçində 1389-cu ildə Kosovo döyüşü (Serbiyanın müstəqilliyinə son qoyuldu), 1396-cı ildə Bolqarıstanın işğalı xüsusi əhəmiyyət kəsb edir. Bununla da 1397-1400 –cü illərdə İldırım Bəyazid Səlcuq dövlətinin tərkibinə qatılmış digər əraziləri ələ keçirib türk hakimiyyətini Şərqi Avropaya qədər yayaraq qüdrətli Osmalı imperiyasını yaratmağa başladı.

XIV əsrin sonlarında Bəyazid Bizansın Balkanlardakı sonuncu dayağı olan Konstantinopolu işğal etməyə hazırlaşdığı zaman türk dünyasının ən böyük faciəsi baş verdi – 1402-ci ildə Əmir Teymur ilə İldırım Bəyazid arasında Ankara döyüşü nəticəsində Osmanlılar Balkanlarda torpaqları itirdi, çökməsi gözlənilən Bizans bu savaşdan sonra daha bir şans qazandı, Anadolu – Türk birliyi pozuldu, Avropa, Rusiya sürətlə dirçəlməyə başladılar.

Sultan II Muradın və onun oğlu Mehmetin hakimiyyəti dövründə Osmanlı dövləti əvvəlki qüdrətini bərpa etdi.

1453-cü il mayın 29-da Osmanlılar Konstantinopolu fəth edib və bununla da Bizans imperiyasının varlığına son qoydular. II Mehmet isə «Fateh» adı ilə tarixə düşdü. Konstantinopol (İstanbul) Osmanlı imperiyasının yeni paytaxtı oldu. Konstantinopolu ələ keçirməklə Osmanlı sultanları Avropanı Asiya ilə birləşdirən ticarət yollarını nəzarət altına aldılar.

Bu dövrdə Krım, Moldova və Valaxiya, Macarıstan Osmanlı imperatorluğuna qatıldı. İranın bəzi vilayətləri, Bağdad alındı, Avstriya vergi ödəməyə məcbur edildi. Beləliklə, üç qitəni əhatə edən qüdrətli söz sahibinə malik olan müsəlman Osmanlı imperiyası beynəlxalq münasibətlər sisteminin aktiv subyektinə çevrildi.

Dövlətin birinci şəxsi "padşah" adlanırdı. İlk vaxtlar "bəy" və "qazi" ünvanlarından da istifadə olunub. «Sultan» ünvanından isə ilk dəfə I Murad (1359-1389-cu illər) istifadə edib, yavuz Sultan Səlimin Misir səfərindən (1517-ci il) sonra isə bunların üstünə «xəlifə» adı da əlavə olundu. Dövlət tam bir mərkəziyyətçiliklə idarə olunurdu. Bütün bölgələr mərkəzdən yönəlir, idarəçilər mərkəzdən göndərilirdi.

downloaded from KitabYurdu.org

Sultandan sonra ikinci şəxs «Sədrəzəm», yəni baş vəzir idi. İlk vaxtlar vəzirlər elm adamlarından seçilirdi. Sonralar əsgər kökənli vəzirlər də oldu. O dövlətin möhürünü saxlayır, siyasi işlərə rəhbərlik edirdi. Maliyyə işlərinə rəhbərlik edən vəzifəli şəxsə dəftərdar deyilirdi. Sultanın yanında Ali Məsləhət Şurası rolunu oynayan Divan fəaliyyət göstərirdi. Orxanın dövründə ölkə ərazisi ilk dəfə olaraq inzibati vahidlər olan paşalıqlara və sancaqlara bölündü. Paşalığın başından sultan tərəfindən təyin olunmuş və geniş səlahiyyətlərə malik olan paşa dururdu, sancaqlara isə sancaqbəyilər rəhbərlik edirdilər.

Osmanlı imperiyasına 623 illik dövründə 36 padşah hökmdarlıq edib. Osmanlı imperiyasının hərbi feodal səciyyəsi onun daxili və xarici siyasətini müəyyən edirdi. Müharibə və işğalçılıq türk feodallarının sərvət mənbəyi olmuşdu. Buna görə də imperiyanın hakim sinfi döyüş qabiliyyətli ordunun yaradılmasına və saxlanılmasına xüsusi diqqət verirdi. Bu sahədə hərbi len sistemi mühüm rol oynayırdı. Hərbi len sahibləri sipahi adlanırdı. Onlar dövlət torpaq fondundan böyük və kiçik şərti mülk (ziyamət və timar) alır, burada alınan verginin bir hissəsini özlərinə götürürdülər. Bu sistem Osmanlı imperiyasının bütün ərazisində türk hərbi feodal dövlətinin möhkəmləndirilməsində böyük rol oynamışdı. Hərbi len sistemi dövlət büdcəsini ordu saxlamaq üçün əsas xərclərdən azad edirdi və feodal ordusunun vaxtında səfərbər edilməsinə imkan verirdi. Piyada qoşun əsgərləri olan yeniçərilər və digər ordu hissələri dövlət büdcəsindən təmin olunurdular. Lakin tədricən hərbi len sahiblərinə çevrilirdilər.

Osmanlı dövlətində torpaq mülkiyyətinin dörd forması mövcud idi: dövlət torpaqları, sultan ailəsinə məxsus torpaqlar (xass), dini idarələrə, ruhanilərə, məscidlərə məxsus torpaqlar (vəqf), şəxsi adamların əlində olan sahələr (mülk).

Osmanlı imperatorluğunun vergi verən bütün əhalisi reaya adlanırdı.

Kəndlilər torpaqdan və sudan istifadəyə görə torpaq rentası ödəyirdilər. Müsəlman əkinçilər aşar adlandırılan məhsulun onda biri həcmində vergi verirdilər, müsəlman olmayanlardan, yaşından asılı olmayaraq adambaşı vergi olan işpəncə alınırdı.

XVII əsrin ikinci yarısında torpaq mülkiyyətinin bir əldə cəmləşməsi gücləndi, lakin istehsal üsulu dəyişmədi. Sipahiləri yeni torpaq sahibləri – feodallar əvəz etdilər. Beləliklə, dövlət torpaq fondu hesabına iri feodal torpaq mülkiyyəti yarandı, əvvəlki hərbi len sahibləri yeni mülkədarlara çevrildi, müflisləşmiş ziyamət və timarın

downloaded from KitabYurdu.org

şərti mülkləri yeni feodalların əlinə keçdi. Əkinçilikdə hərbi len sisteminin dağılması və böhranı bütövlükdə Osmanlı hərbi feodal dövlətini böhrana gətirib çıxartdı, onun hərbi qüdrətinin zəifləməsinə səbəb oldu.

XVIII əsrin ikinci yarısında Osmanlı imperiyasına qarşı «Şərq məsələsi» formalaşmağa başladı. Məqsəd – «xristianların müsəlman
Osmanlı imperiyasının zülmündən azad etmək uğrunda mübarizə», türkləri Balkanlardan çıxarmaq, İstanbulu ələ keçirmək, Osmanlı dövlətinin Asiya hissəsində yaşayan xristianlar üçün islahatlar keçirmək idi.

XVIII əsrin ikinci yarısında (1768-1774, 1787-1791-ci illər) və XIX əsrin birinci yarısında (1806-1812, 1828-1829; 1853-1856) Rusiya-Osmanlı müharibələri ölkənin sosial-iqtisadi və siyasi böhranını daha da dərinləşdirdi.

İqtisadiyyatın əsas sahəsi olan kənd təsərrüfatında ağır vergilər, feodal zorakılığı vəziyyəti ağırlaşdırırdı. Kəndlilər təkcə ağır vergilərdən deyil, həm də becərilmiş məhsullara qoyulmuş çox ucuz icbari qiymətlərdən, alınan daxili gömrük rüsumlarının çoxluğundan ziyan çəkirdilər. Xaricdən idxal olunmuş mallarla rəqabət apara bilməyən yerli sənaye müəssisələri müflisləşərək, bağlanırdı. Osmanlı imperiyası Avropa dövlətlərindən ağır şərtlərlə borc almağa məcbur olurdu. 1875-ci ildə bu dövlətin xarici borcları son dərəcə böyük məbləğə – 5,3 milyard franka çatmışdı. Kapital yığımı əsasən yunan, yəhudi, erməni tacirlərin əlində cəmləşmişdir.

Konstitusiyalı dövlət quruluşunun yaradılması yolunda atılan ilk addımlar Osmanlı imperiyasında 1839-cu ildən XIX əsrin 70-ci illərinin əvvəlinədək həyata keçirilmiş və ictimai-siyasi ədəbiyyatda tənzimat adını almış istahatların son mərhələsində və bu islahatların ölkədə mütərəqqi ictimai fikrin və hərəkatın oyanmasına pozitiv təsirinin nəticəsi olaraq meydana gəlmiş «yeni osmanlılar» cəmiyyətinin fəaliyyəti ilə bağlı olmuşdur. Qabaqcıl türk ziyalılarının (Namiq Kamal, Ziya bəy, İbrahim Şinasi və b.) yaratdıqları «yeni osmanlılar» cəmiyyəti (1865) mütləqiyyətçi feodal rejiminin ölkənin ictimai tərəqqisi yolunda ciddi əngələ çevrildiyini və bu səbəbdən konstitusiyalı dövlət quruluşuna keçirilməsini milli məhsuldar qüvvələrin kapitalist inkişaf yolu ilə irəliləməsinə və ölkənin müstəqilliyinin möhkəmləndirilməsinə təkan verə biləcək mühüm vasitə hesab edirdi. «Yeni osmanlılar»ın konstitusiya hərəkatı həm də

downloaded from KitabYurdu.org

bununla əlamətdar idi ki, onun carçıları get-gedə xarici kapitalın ölkəni yarımmüstəmləkə əsarəti altına saldığı bir şəraitdə iqtisadi və siyasi müstəqillik uğrunda mübarizə aparırdılar. Bu hərəkat nəticəsində meydana gəlmiş və Osmanlı imperiyası şəraitində burjua azadlıqları – dini mənsubiyyətindən asılı olmayaraq bütün osmanlı təbəələrinin qanun qarşısında bərabərliyi, şəxsiyyət və mülkiyyət toxunulmazlığı, mətbuat və söz azadlığı və s. bəyan edən ilk türk konstitusiyası, yaxud müəllifin adı ilə «Mithəd Konstitusiyası» 1876-cı il dekabrın 23-də qəbul edildi. Üç ay sonra, 1877-ci il martın 19-da imperiyanın kişi əhalisi tərəfindən seçilən deputatlar palatası və üzvləri sultan tərəfindən ömürlük təyin edilən senatdan ibarət ikipalatalı ilk osmanlı parlamenti işə başladı.

Lakin 1876-cı il Osmanlı Konstitusiyası cəmi 14 ay qüvvədə qaldı. 1878-ci ilin əvvəlində rus-türk müharibəsi gedişində vəziyyətin Osmanlı imperiyası üçün böhranlı xarakter aldığı şəraitdə sultan II Əbdülhəmid Mithəd Konstitusiyasının son qalıqlarını da ləğv etdi – parlamenti buraxdı, deputatların bir hissəsini həbs etdirərək sürgünə göndərdi.

Osmanlı Konstitusiyası və parlamenti "gənc türklər" inqilabı (1908) nəticəsində bərpa edildi.

Noyabrın 20-də, otuz illik fasilədən sonra işə başlayan parlamentdə "gənc türklər" böyük üstünlüyə malik idilər: məclisdəki 230 deputat yerindən 150-si onlara məxsus idi.

"Gənc türklər" hərəkatı və hakimiyyətinin (1908-1918) Türkiyədə dövlət quruculuğu praktikasına gətirdiyi başlıca yenilik dualist monarxiyadan parlamentli monarxiyaya keçilməsində öz əksini tapdı. I Dünya müharibəsi illərində (1914-1918) Osmanlı Konstitusiyasının fəaliyyəti əsaslı surətdə məhdudlaşdırıldı. Deputatlar palatası 1918-ci ilin dekabrında Antanta dövlətlərinin təzyiqi alıtnda sonuncu sultan VI Mehmet (vahidəddin) tərəfindən, 1920-ci ilin martında isə İstanbulu işğal edən ingilislər tərəfindən qovuldu.

Türkiyədə yeni, müasir dövlət yaradılması yalnız türk xalqının və onun mahir sərkərdəsi və rəhbəri Qazi Mustafa Kamal Atatürkün bu taleyüklü vəzifəni üzərinə götürməsi sayəsində reallaşdı. Anadoluda alovlanaraq milli azadlıq inqilabına çevrilmiş coşqun xalq hərəkatı nəticəsində 1920-ci ilin aprelində yaradılmış Türkiyə Böyük Millət Məclisi hökumətin simasında yeni dövlətin – hazırkı Türkiyə Respublikasının təməli qoyuldu.

downloaded from KitabYurdu.org

1922-ci il noyabrın 1-də məclis sultanlığın xilafətdən ayrılması və ölkədə hakimiyyətin tam şəkildə TBMM-ə verilərək sultanlığın ləğv edilməsi haqqında qanun qəbul etdi.

Sonuncu 36-cı osmanlı sultanı VI Mehmet Malta adasına qaçdı. 1922-ci ilin payızında imperialist qəsbkarlar qovularaq Anadolu torpaqlarından çıxarıldılar. Türk xalqının dörd il sürən qəhrəman qurtuluş savaşı qalibiyyətlə nəticələndi. Türkiyə istiqlaliyyət qazandı. TBMM 1923-cü il oktybarın 29-da Türkiyəni respublika elan etdi. Müstafa Kamal Atatürk Türkiyə Respublikasının ilk prezidenti seçildi, onun ən yaxın silahdaşı İsmət paşa isə birinci respublika hökumətinin başçısı oldu. Ankara yeni dövlətin paytaxtı elan edildi.

## §10.1.2. Orta əsrlər Azərbaycan iqtisadiyyatı

III-V əsrlərdə Azərbaycanda əvvəlki dövrlərdən fərqli olan yeni iqtisadi münasibətlər təşəkkül tapmağa başlamışdı. Əksər Şərq ölkələrində, eləcə Türk dövlətlərində mövcud olan münasibətlər sistemi Azərbyacana da xas idi. Həm Atropaten, həm də Albaniyada feodal münasibətləri formalaşmaqda, yeni münasibətlər sisteminin gətirdiyi keyfiyyət dəyişiklikləri baş verməkdə idi.

Erkən feodalizm dövründə torpaq üzərində dövlət mülkiyyəti hökmran olmuş, IV-VIII əsrlər ərzində isə torpaq sahibliyinin xüsusi forması (dövlətlə yanaşı) təşəkkül tapmağa başlamışdı. Torpaq sahibliyinin 2 forması mövcud olmuşdu;

1. Dastakert (“mülk”) – irsi torpaq sahibliyi;
2. Xostak (“bağışlanılan”) – şərti torpaq sahibliyi.

Azad kəndlilər feodal asılılığına düşür və müxtəlf vergilər ödəməklə yanaşı, digər mükəlləfiyyətləri də həyata keçirirdilər.

Atropatendə feodal münasibətlərinin qərarlaşması III əsrdən başlamışdı. Sasanilər dövründə əhali dörd təbəqəyə bölünürdü:

1. Kahinlər.
2. Döyüşçülər.
3. Mirzələr.
4. Vergiverənlər.

Vergilərin yığılması üzərində ciddi dövlət nəzarəti mövcud olmuşdu. VI əsrdə həyata keçirilən vergi islahatları nəticəsində ölkədə 20-50 yaş arasında olan bütün kişilər həm can vergisi, həm də torpaq vergisi ödəyirdi. Erkən orta əsrlər dövrünün Azərbaycanında əkinçilik,

downloaded from KitabYurdu.org

maldarlıq və sənətkarlıq iqtisadiyyatın əsas sahələri kimi çıxış edirdilər. Eyni zamanda, Albaniyada metallurgiya inkişaf etməkdə, əvvələr mövcud olmuş şəhərlərlə (Qəbələ, Naxçıvan, Dərbənd) yanaşı yeni şəhərlər (Bərdə, Beyləqan və s.) yaranmağa başlamışdı.

O dövrün spesifikasından çıxış etməklə tarixçilər Azərbaycan şəhərlərini 3 qrupa ayırırlar:[150]

1. Beynəlxalq ticarət yollarının üzərində olan şəhərlər (Bərdə, Dərbənd və s.).

2. Ticarət yollarından kənarda olan şəhərlər (Şəki, Şəmkir, Naxçıvan və s.).

3. Kəndtipli şəhərlər (Torpaqqala – (Qax) və s.).

Tarixi mənbələrə əsaslanaraq belə bir qənaətə gəlmək mümkündür ki, erkən orta əsrlərdən başlayaraq Azərbaycan ərazisində klassik feodal münasibətləri təşəkkül tapmışdı.

VIII əsrdə Azərbaycanın Ərəb xilafəti tərəfindən işğalı iqtisadi münasibətlər sistemində kardinal dəyişikliklərlə müşahidə olunmuşdu.

Artıq iqtisadi münasibətlər sistemi müsəlman hüququ və şəriət əsasında tənzimlənməyə başlamışdı.

Bütün torpaqlar üzərində ali dövlətçilik hüququ xəlifəyə məxsus idi. Bu dövrdə Azərbaycanda torpaq sahibliyinin 5 növü mövcud olmuşdu:

1. Dövlət torpaqları;
2. İqta (ərəbcədən "kəsik" anlamındadır); Xidmətə görə verilən torpaq payı;
3. Mülk torpaqları: yerli feodallara məxsus olan torpaq payı;
4. Vəqf torpaqları: Müsəlman ruhanilərə məxsus olan torpaq payı;
5. İcma torpaqları: əhaliyə məxsus olan torpaq payları.

Vergi sistemində də əhəmiyyətli dəyişikliklər baş verdi (661-750-ci illər). Kəndlilərə vergi siyahısında olduğu kəndi tərk etmək qadağan olunmuşdu.

Vergitutmada müsəlman və qeyri-müsəlmanlara fərqli yanaşılırdı. Belə ki, qeyri-müsəlmanlar can vergisi (cizyə) və torpaq vergisi (xərac), müsəlmanlar isə istehsal edilmiş məhsulun 1/10- qədər üşr və xüms ödəyirdilər. Eyni zamanda, yoxsul əhalinin tələbatını ödəmək məqsədi ilə zəkat da alınırdı.

---

[150] N.Süleymanov. Azərbaycanın iqtisadi tarixi. Bakı, 2001.- S.31

downloaded from KitabYurdu.org

750-ci ildən sonra (Abbasilər dövrü) ərəb və qeyri-ərəb feodallara fərqli münasibətlər sərgilənirdi.

Tarixi mənbələr göstərir ki, Azərbyacan iqtisadiyyatının dirçəlişi IX əsrin ikinci yarısından etibarən (Ərəb xilafətinin işğalına son qoyulandan sonra) başlamışdı.

IX-XIII əsrlərdə xilafətin parçalanması ilə Azərbyacan ərazisində yeni müstəqil dövlətlər yaranmağa başladı (Şirvanşahlar, Salarilər və s.) Səlcuq imperiyasının süqutu nəticəsində isə Eldənizlər (Atabəylər) dövləti (1136-1225) meydana çıxdı. Məhz bu dövrdə Azərbaycan iqtisadiyyatında, ölkənin təsərrüfat həyatında inkişaf meyilləri yaranmağa başlamışdır. İstehsal vasitələri təkmilləşir, əkinçilik mədəniyyəti yüksəlirdi. Bağçılıq, ipəkçilik, maldarlıq sürətli inkişaf yoluna qədəm qoymuşdu.

IX-XI əsrlərdə ölkədə torpaq sahibliyi formaları xilafət dövründə olduğu kimi davam etməkdə idi. Sənətkarlıq əkinçilikdən ayrılmış, həm ölkədaxili, həm də xarici iqtisadi-ticarət əlaqələri genişlənmişdi. XI-XIII əsrlərdə xarici ticarətdə Dərbənd və Bakı limanlarının rolu əhəmiyyətli dərəcədə artmışdır.

Bu dövrdə Azərbaycanda iki böyük beynəlxalq bazar mövcud olmuşdu: 1) Ər-Kürki bazarı (Bərdə); 2) Gülsəra bazarı (Ərdəbil-Marağa ticarət yolunun üstündə).

Monqolların yürüşü (XIII əsrin 20-30-cu illəri) iqtisadi dirçəlişi dayandırdı, iqtisadi infrastruktur məhv edildi, əhalinin böyük hissəsi həlak oldu. Monqolları yalnız örüş yerləri, qışlaq və yaylaq torpaqları maraqlandırırdı. Bu siyasət nəticəsində əkinçilik və şəhər təsərrüfatı sıradan çıxarıldı.

Monqol əsarəti dövründə əhalinin üzərinə qoyulan vergi və mükəlləfiyyətlərin sayı 40-a çatmışdı. Məhsulun 70%-i xərac şəklində alınır, vergini ödəyə bilməyənlər ailəlikcə qul edilirdilər. İqtisadiyyatın çökdürülməsi prosesi XIV əsrin ikinci yarısında da davam etmiş (Çobanilər və Cəlairlər sülalələri dövründə) və daha da dərinləşmişdi.

XIV əsrin sonu-XV əsrin əvvələrində Şirvanşahlar (1382-1538), Qaraqoyunlular (1410-1468) və Ağqoyunlular (1468-1501) dövlətlərinin mövcudluğu illərində yaranmış nisbi sabitlik iqtisadiyyatın yenidən dirçəlməsinə təkan vermişdi.

Monqol əsarəti dövründə dağıdılmış suvarma sistemi bərpa olunmuş, kənd təsərrüfatının və sənətkarlığın yeni inkişaf dövrü başlamışdı. Bu dövrdə Şirvanşahlar dövlətində əkinçilik, maldarlıq,

downloaded from KitabYurdu.org

bağçılıq və s. sahələr daxili tələbatı tam şəkildə ödəyirdi. İpəkçiliyin coğrafiyası genişlənir, ipək məmulatlarının ixracatı artırdı.

XV əsrdə Şamaxı beynəlxalq ipək ticarəti mərkəzlərindən birinə çevrilmişdi.

Təbriz - əvvəlcə Qaraqoyunluların, sonra isə Ağqoyunluların paytaxtı – Yaxın və Orta Şərqin ən böyük sənət və ticarət mərkəzlərindən biri idi.

XV əsrdə Bakı Xəzər dənizində əsas limanlardan biri olaraq qalır, lakin Dərbənd əvvəlki rolunu saxlaya bilməmişdi. Əmir Teymur tərəfindən Həştərxanın dağıdılması (1395) nəticəsində Suriya limanları ön plana çıxmışdı.

Sözügedən dövrdə mövcud olmuş Azərbaycan şəhərləri Avropa şəhərləri ilə müqayisədə fərqli idarəçiliyə malik idilər. Belə ki, bu şəhərlərdə Avropadakı kimi özünüidarə sistemi olmamış, ayrı-ayrı feodallar tərəfindən idarə edilmişlər.

Bir sıra istiqamətlərdə əsaslı dəyişikliklərin baş verməsinə baxmayaraq, torpaq sahibliyi əvvəlki formalarını olduğu kimi saxlayırdı.

Monqol əsarətindən qalma vergi siyasəti Uzun Həsənin (1468-1478) dövründə əhəmiyyətli dərəcədə dəyişdirildi. Vergi və mükəlləfiyyətlərin sayı 27-ə (bəzi mənbələrdə 31 göstərilir) qədər azaldıldı. Bu sahədə aparılan islahatlar "Qanunnamə" adlanırdı.

Qeyd etmək lazımdır ki, sözügedən dövr ərzində biyar təsərrüfatı Avropadakı kimi xüsusi yer tutmurdu. Azərbaycanda təhlimçilik hüququ olmamışdır.

Son orta əsrlərdə - Avropada yeni, kapitalist münasibətlərinin formalaşdığı dövrdə Azərbaycanın birləşdirilməsi prosesi gedirdi. XVI əsrin əvvəllərində yaranmış Səfəvilər dövləti o dövrün ən böyük dövlətlərindən hesab olunurdu. Kənd təsərrüfatı, o cümlədən əkinçilik, bağçılıq və bostançılıq, eləcə də sənətkarlıq, ticarət, ipəkçilk iqtisadiyyatın əsas sahələri kimi çıxış edirdi.

XVI-XVII əsrlərdə pambıqçılq da əsas sahələrdən birinə çevrilmişdi. Heyvandarlıq, əsasən köç maldarlığı inkişaf etmişdi.

Bununla belə, təsərrüfat öz natural xarakterini saxlamaqda idi. Vergilərin yalnız az bir qismi pulla alınırdı. Ticarətin (həm daxili, həm də xarici) inkişafı ləng templərlə olsa da əmtəə-pul münasibətlərinin yayılmasına təkan verir, XVII əsrin sonlarından etibarən natural təsərrüfatın sərhədləri tədricən yığılırdı.

downloaded from KitabYurdu.org

Səfəvi dövlətində sənətkarlıq və ticarət sürətlə inkişaf edir, şəhərlər əsil dirçəliş dövrünü yaşayırdılar. 1571-1573-cü illərdə 52 şəhər mövcud olmuşdu.

Azərbaycanda şəhərlərin sürətli tərəqqəsini (o dövrün xarakterindən çıxış etməklə) iki amillə əsaslandırmaq olar: 1) ictimai əmək bölgüsünün genişlənməsi və dərinləşməsi; 2) əlverişli coğrafi mövqe.

Spesifik xüsusiyyətlərdən biri şəhərlərin iqtisadiyyatında ticarət və sənətkarlıqla yanaşı kənd təsərrüfatının da əhəmiyyətli rol oynamasıdır. Belə ki, şəhərlərdə taxıl əkinləri, meyvə bağları və bostanlar var idi.

Sənətkarlığın kənd təsərrüfatından tam şəkildə ayrılmaması qeyd edilən xüsusiyyərin meydana çıxmasını şərtləndirən əsas amildir. Səfəvilər dövründə Azərbaycanın Avropa, Rusiya, Hindistan və bir çox başqa ölkələrlə çox geniş ticarət əlaqələri mövcud olmuşdu.

Eyni zamanda, torpaq sahibliyinin ənənəvi formaları saxlanılmış, vergi və mükəlləfiyyətlərin ümumi sayı 35-ə çatdırılmışdı. Əsas vergi torpağın münbitliyi və məhsulun həcmi nəzərə alınmaqla ümumi məhsulun 1/5-dən 1/3-dək hissəsini təşkil edirdi. Bağlardan alınan vergi məhsulun 1/10-ə bərabər olurdu.

Torpaqdan istifadənin əsas forması yardarlıq idi. Yəni, məhsul bölgüsünə əsaslanırdı. Bölgü "beş amil"[151] formuluna görə aparılırdı: Torpaq, su, toxum, iş heyvanı və işçi qüvvəsi; Feodal torpağında çalışan kəndli yalnız işçi qüvvəsinə malik olduğu üçün bölgü zamanı məhsulun 1/5-ni alırdı.

Ümumiyyətlə, həmin dövrdə vergi və mükəlləfiyyətlər beş əsas qrupa ayrılırdı:

1. torpaq və gəlir vergiləri;
2. məhsul ödəmələri;
3. məcburi bəxşişlər;
4. can vergisi;
5. əmək mükəlləfiyyətləri.

Göründüyü kimi renta 3 formada (məhsul, pul və biyar) ödənilsə də, əsas üstünlük natural vergilərdə qalmaqda davam edirdi.

Səfəvilər dövlətinin həyata keçirdiyi və yekun etibarilə Azərbaycanın dirçəlməsinə yönəlmiş iqtisadi siyasətin əsas istiqamətləri kimi aşağıdakıları göstərmək olar:

1. Torpaq siyasəti: dövlətin sosial-iqtisadi bazasının möhkəmləndirilməsinə xidmət edirdi;

---

[151] N.Süleymanov. Azərbaycanın iqtisadi tarixi. Bakı, 2001.- S. 69

downloaded from KitabYurdu.org

2. Kənd təsərrüfatı, sənətkarlıq və ticarətin inkişafı sıyasəti;
3. Maliyyə-vergi siyasəti: dövlət gəlirlərinin sabit və daimi artımına nail olmaq məqsədi güdürdü.
4. Qiymət siyasəti: möhtəkir əməliyyatlarına qarşı ciddi cəza tətbiq olunurdu.

Bütün bunların məntiqi nəticəsi olaraq ölkə iqtisadiyyatı inkişaf yoluna qədəm qoymuş, maliyyə-vergi və qiymət sferalarında müəyyən nizam yaradılmışdı.

Lakin XVII əsrin sonu XVIII əsrin əvvəllərindən başlayaraq Azərbaycan iqtisadiyyatı tənəzzül dövrünə qədəm qoydu. Bütövlükdə sosial-iqtisadi həyatı bürümüş böhranın əsas səbəbləri kimi tarxçilər aşağıdakıları göstərirlər:

1. Mərkəzi dövlət hakimiyyətinin zəifləməsi ilə suvarma sistemlərinin dağılması;
2. Təsərrüfat subyektləri arasında əlaqələrin pozulması, sənətkarlığın tənəzzülü;
3. Maliyyə-pul sisteminin pozulması;
4. Daxili və xarici ticarətin tənəzzülü;
5. Sələmçiliyin misli görünməmiş inkişafı;
6. Elmi-texniki gerilik;
7. Mənəvi-ideoloji böhran;
8. Böyük coğrafi kəşflərlə əlaqədar dünya ticarət yollarının dəyişməsi (XVI-XVII əsrlər).

Şərqlə Qərb arasında əsas ticarət yollarının Aralıq dənizindən Atlantik və Hind okeanına keçməsi Azərbaycanın, eləcə də Ön Asiya ölkələrinin iqtisadi həyatına öldürücü təsir göstərmişdir.

Böhran Səfəvi dövlətinin süqutuna gətirib çıxardı. XVIII əsrin 20-30-cu illərində Azərbaycanın böyük hissəsi Osmanlı imperiyası, Xəzərboyu ərazilər isə Rusiya tərəfndən işğal edildi və zəbt olunmuş ərazilərdə müstəmləkə üsul-idarəsi quruldu. Nadir şahın (1736-1747) həyata keçirdiyi islahatlar nəticəsiz yekunlaşdı. Nadirin imperiyasının şüqutu nəticəsində Azəbaycan xanlıqlara (müstəqil və yarımmüstəqil dövlət qurumları) parçalandı...

Beləliklə, son orta əsrlər ərzində Azərbaycan iqtisadiyyatının inkişaf təmayülləri XV əsrdən start götürməklə XVI-XVII əsrlərdə daha da möhkəmlənmiş, XVIII əsrin əvvəllərindən isə tənəzzülə uğramışdır. İqtisadiyyatı və sosial-siyasi həyatı bürümüş böhran, xanlıqlara parçalanma və onun doğurduğu neqativ meyillər Azərbaycanda kapitalist münasibətlərinin formalaşmasına imkan verməmişdir.

downloaded from KitabYurdu.org

# V BÖLMƏ

# DÜNYA İQTİSADİYYATININ QƏRARLAŞMASI DÖVRÜ

## XI fəsil. Dünya iqtisadiyyatının genezisi prosesi:konseptual ümumiləşdirmə

Dünya iqtisadiyyatının formalaşması uzun tarixi proses ərzində baş vermiş, sistemli yaranış kimi qərarlaşması isə məhz XIX əsrin sonu XX əsrin əvvəllərinə təsadüf etmişdi.

Ən ümumi şəkildə dünya iqtisadiyyatının formalaşmasını iki böyük dövrə bölmək olar:

1. Genezisəqədərki dövr.
2. Genezis dövrü.

Genezisəqədərki dövr ümumiyyətlə, iqtisadiyyatın yaranması, onun sistem halı alması və ardıcıl olaraq böyük ictimai əmək bölgüsünün meydana çıxmasını özünü ehtiva edir. Əlbəttə, problemə sistemli yanaşma nöqteyi-nəzərindən qeyd edilən zaman sürəcinin məhz dünya iqtisadiyyatının qərarlaşmasına birbaşa aidiyyəti yaxud onun konkret məzmunlu hansısa mərhələsini əhatə etdiyini (dünya iqtisadiyyatının inkişaf mərhələləri) birmənalı şəkildə təsbit etmək mümkünsüzdür. Digər tərəfdən nəzərə alsaq ki, göstərilən dövrdə iqtisadiyyatın planetar səviyyəli sistem xassələrinin yoxluğu tam məntiqi olaraq dünya iqtisadiyyatından danışmağı qeyri-mümkün edir, onda həmin dövrün yalnız ilkin başlanğıcda dayanan dövr kimi səciyyələndirilməsi lazım gələcəkdir (şəkil 11.1). Göründüyü kimi, genezisdən daha çox inkişaf mərhələləri baxımından dünya iqtisadiyyatının qərarlaşması və tərəqqisini 4 əsas keyfiyyət dəyişiklikləri prizmasından qiymətləndirmək olar:

1. "Mənimsəmə" iqtisadiyyatı: e.ə. 400 min il – 5 min il;
2. "İstehsal" iqtisadiyyatı: 5 min il əvvəldən orta əsrlər (V-XVIII) və yeni dövr də daxil olmaqla (XVIII-XX əsrin ikinci yarısı).
   "İstehsal"iqtisadiyyatı da öz növbəsində aşağıdakıları ehtiva edir:

- "Aqrar" iqtisadiyyat: e.ə. 5 min il – b.e. X əsri;
- "Aqrar-ticarət" iqtisadiyyatı: X-XV əsrlər;
- "Aqrar-sənaye" iqtisadiyyatı: XV-XIX əsrlər;
- "Sənaye"iqtisadiyyatı: XIX əsr-XX əsrin ikinci yarısı.

downloaded from KitabYurdu.org




***Şəkil 11.1. Dünya iqtisadiyyatının genezisi: keyfiyyət dinamikası***

downloaded from KitabYurdu.org

3. “Xidmət” iqtisadiyyatı: 1970-2000-ci illər;
4. “İnformasiya” iqtisadiyyatı: 2000-ci ildən sonrakı dövr; İqtisadiyyatın inkişaf tempi ilə dünya əhalisinin artım tempi arasında da düzmütənasib asılılıq formalaşmışdır. Göründüyü kimi uzun tarixi proses ərzində - Neolit inqilabından (14 min il e.ə.) bizim eranın birinci ilinə qədər olan uzun tarixi dövr ərzində dünya əhalisi 10 mln. nəfərdən 236 mln. nəfərə qədər, yəni 14 min il ərzində cəmi 226 mln. nəfər artmışdır.

***Cədvəl 11.1***

***Dünya əhalisinin dinamikası***

| Xronologiya | Əhalinin mütləq sayı (mln.nəfər) | Mütləq artım (mln. nəfər) | Hər 100 il etibarı ilə nisbi artım |
|---|---|---|---|
| 1. Neolit dövrünün başlanğıcı (14 min il əvvəl) | 10 | - | İfrat dərəcə cüzi artım: |
| 2. Neolitin sonu (10-7 min il əvvəl) | 30 | 20 (4-7 min il ərzində) | 40 nəfər |
| 3. Bizim eranın birinci ili | 236 | 206 (7 min il ərzində) | 420 nəfər |
| 4. X əsr | 300 | 64 | 6400 nəfər |
| 5. XV əsr | 450 | 150 | 60 min nəfər |
| 6. XVIII əsr (1800-cü il) | 906 | 456 | 152 mln. nəfər |
| 7. XX əsrin başlanğıcı (1900-cu il) | 1656 | 750 | 750 mln. nəfər |
| 8. 1950-ci il | 2527 | 871 | - |
| 9. 1980-ci il | 4430 | 1903 | - |
| 10.2008-ci il | 6500 | 2070 | 2070 mln. nəfər |

downloaded from KitabYurdu.org

Bizim eranın başlanğıcından dünya əhalisinin 2 dəfə artması üçün 1500 il lazım gəlmişdir. Sonralar bu müddət 500 ilə (X-XV əsrlər), 100 ilə, 50 ilə və nəhayət, 30 ilə qədər azalmışdır.

## § 11.1. Dünya bazarının təşəkkülü

Dünya iqtisadiyyatının formalaşmasında real məzmunlu bazarın – dünya bazarının təşəkkülü müstəsna rol oynamışdı. Təsadüfi deyildir ki, hər iki yaranışın meydana çıxma tarixi eynidir – XIX əsrin sonu XX əsrin əvvəlləri.

Dünya bazarının genezisi, problemin sistemli qoyuluşu nöqteyi-nəzərindən, XVI əsrdən başlanır. Əksər tədqiqatçılar XVI-XVIII əsrləri əhatə edən zaman sürəcini dünya bazarının genezisinin birinci mərhələsi kimi göstərirlər. Sözügedən dövr ərzində həqiqətən də dünya bazarının formalaşması prizmasından mühüm hadisələr baş vermişdi:

1. müstəmləkə sisteminin yaranması – Amerika və Hindistanın müstəmləkəyə çevrilməsi;
2. "Qiymət" inqilabı;
3. dəniz gəmiçiliyinin inkişafı;
4. müstəmləkələr hesabına Avropa bazarının daha da genişlənməsi və zənginləşməsi;
5. natural təsərrüfatın mahiyyət dəyişikliyinə məruz qalması və əmtəə təsərrüfatının qərarlaşması ilə sex quruluşundan manufakturaya keçid; istehsalın kütləvi bazara istiqamətlənməsi;
6. xarici ticarətin inkişafı; iri ticarət kampaniyalarının, ticarət və fond birjalarının yaranması;
7. bazar iqtisadiyyatının qərarlaşması.

XVI-XVIII əsrlərdə baş verən hadisə və proseslər dünya bazarının sistemli yaranış kimi genezisinin əsasında dayananlardır. Bu dövr iqtisadi ədəbiyyatda dünya bazarının məhz genezisi kimi, həmçinin bütövlükdə formalaşmanın birinci mərhələsi kimi səciyyələndirilir.

İkinci mərhələ – XVIII-XIX əsrin sonu – artıq dünya bazarının qərarlaşdığı dövrdür. Bu mərhələnin əsas keyfiyyət xarakteristikası aşağıda sadalananlarda öz əksini tapmışdır:

1. sənaye inqilabının sosial-iqtisadi nəticələri;

downloaded from KitabYurdu.org




***Şəkil 11.2. Bazarın tipoloji-tarixi təsnifatı***

downloaded from KitabYurdu.org

2. manufakturadan fabrikə - iri maşınlı sənayeyə keçid;
3. Hind-Çin yarımadası, Afrika və Avstraliyanın müstəmləkəyə çevrilməsi;
4. bazar sistemi və bazar infrastrukturunun inkişafı, kapital ixracının meydana gəlməsi;
5. beynəlxalq əmək bölgüsünün sistem keyfiyyətinə sahiblənməsi.

Ümumiyyətlə, mal ixracından kapital ixracına keçid mahiyyət nöqteyi-nəzərindən dünya bazarının yarandığına dəlalət edən əsas amillərdən biridir.

Nəhayət üçüncü mərhələ - XIX əsrin sonu XX əsrin əvvəlləri – dünya bazarının dünya iqtisadiyyatının mərkəzinə, əsas tənzimləyici müxanizmə çevrilməsi:

1. İnhisarizmin yaranması.
2. Beynəlmiləlləşmə prosesinin ifrat dərəcədə intensivləşməsi.
3. Mal bazarının strukturca kardinal şəkildə dəyişməsi.
4. Mal və kapital bazarlarının tənzimlənməsinə keçid və s.

Ümumiyyətlə bazar – sistemli yaranış kimi meydana çıxdığı zamandan müasir dövrə qədər ardıcıl olaraq keyfiyyət dəyişikliklərinə məruz qalmışdır. İlkin olaraq formalaşan “klassik” bazar geniş təkrar istehsal prosesinin kortəbii tənzimləyicisi kimi çıxış edirdi.

Dünya bazarının təşəkkülü dövründə (XIX əsrin sonu-XX əsrin əvvəlləri) “klassik” bazar keyfiyyət dəyişikliyinə məruz qalaraq azad rəqabətdən inhisarçı rəqabətə keçid etdi. “Kortəbii” tənzimləmənin sərhədləri inhisarçı birliklərin müdaxiləsi ilə xeyli daraldı və “korporativ” tənzimlənmə ilə müəyyən mütənasiblikdə tətbiq olunmağa başladı. “Klassik” bazar sənaye inqilabı dövrünün iqtisadi mexanizmi idi. Məcmu istehsalda sənayenin xüsusi çəkisi durmadan artır, istehsal böyük tutumlu bazarlara və standartlaşdırılmış kütləvi tələbat mallarının buraxılışına yönəlirdi. İstehsalın səmərəliliyinin yüksəldilməsinin əsas amili ən müxtəlif formalarda canlı əmək məsrəflərinə qənaət edilməsi idi.

downloaded from KitabYurdu.org




***Şəkil 11.3. Dünya bazarları sistemi***

downloaded from KitabYurdu.org

“Klassik” bazarın mövcudluğu XX əsrin ortalarına qədər davam etmiş, “Satıcı” bazarı keyfiyyətində fəaliyyət göstərmişdir. Müasir bazar özünün “klassik” formasından köklü surətdə fərqlənir. Müasir bazar hər şeydən fərqlənir. Müasir bazar hər şeydən əvvəl informasiya dövrünün iqtisadi mexanizmi kimi çıxış edir və konkret situasiyadan asılı olaraq bazar mexanizmi dövlət və korporativ tənzimləmələrlə çulğalaşır. Müasir bazar şəraitində istehsalçı naməlum istehlakçı üçün nəzərdə tutulmuş hazır məhsulla bazara çıxmır.Əksinə, istehlakçının nəzərdə tutduğu parametrdə məhsul istehsal edir. Müasir bazarı fərqləndirən əsas cəhət onun “alıcı” bazarı kimi formalaşmasıdır. Məlumdur ki, XX əsrin ikinci yarısına qədər mövcud olmuş bazarların əsas xüsusiyyəti istehsalçının istehlakçıya nisbətən üstün mövqedə durması olmuşdu. Belə şəraitdə, istehsalçı diktatı yaranır və “satıcı” bazarı keyfiyyət yüksəlişinin maneəsinə çevrilirdi. Sonrakı proses də (ələlxüsus – satış problemlərinin kəskinləşməsi, əmək məhsuldarlığının görünməmiş yüksəlişi və s.) bazarda keyfiyyət dəyişiklikləri baş verir və “alıcı” bazarı formalaşır.

Elə buradaca qeyd edək ki, uzun müddət ərzində “satıcı” və “alıcı” bazarlarının mahiyyətinə münasibətdə müəyyən yanılmalar mövcud olmuşdu. Məsələn, bu anlayışlar əksər hallarda kəmiyyət nisbətlərinə urcah edilməklə son dərəcə bəsit formada izah olunurdu. P.Zavyalov yazırdı ki: “.... tələb təklifdən əhəmiyyətli dərəcədə yüksək olarsa, onda bu “satıcı” bazarıdır”.[152]

Əslində isə, yuxarıda göstərilən vəziyyət defisit kəlməsi ilə daha düzgün ifadə olunur. Eyni zamanda, belə bir fikir irəli sürülürdü ki, hər hansı bir ölkənin daxili bazarında müxtəlif mal qrupları üzrə eyni vaxtda həm “alıcı”, həm də “satıcı” bazarı ola bilər... Fikrimizcə, sözügedən dövrdə F.Kotlerin[153] “... Satıcı bazarı şəraitində satıcılar alıcılara nisbətən daha çox hakimiyyətə malikdirlər” müddəası düzgün başa düşülməmişdir. Belə ki, həm “satıcı”, həm də “alıcı” bazarı doydurulmuş bazardırlar. Fərq tələb və təklifin mütləq həcmində deyil, onların çeşid-keyfiyyət strukturunun uyğun olmamasındadır.

“Satıcı” bazarı şəraitində artıq istehsal olunmuş məhsullar təklif edilir. “Alıcı” bazarı isə potensial alıcısı olan məhsulları istehsal edir və bazara çıxarır. “Satıcı ” və “alıcı” bazarları ümumiyyətlə, bazarın keyfiyyət xarakteristikalarıdır. Qeyd etmək lazımdır ki, inkişaf etmiş və

---

[152] Завъялов П.С. Формула успеха: Маркетинг. М.: «МО»., 1991.- С.25
[153] Котлер Ф. Основы маркетинга. М.: Прогресс, 1992.- С.48

downloaded from KitabYurdu.org

artıq informasiya dövrünə qədəm qoymuş ölkələrin heç birində hər hansı bir mal qrupları üzrə "satıcı" bazarı yoxdur və ola da bilməz.

## § 11.2. Dünya iqtisadiyyatında sistem yaradan element: ticarət tarixi müstəvidə

Ticarət və onunla bağlı yaranan ixtisaslaşmanın bəşər tarixində yeri və rolu heç bir tarixi dönəmdə sistemli şəkildə qiymətləndirilməmişdir. Əksinə, ticarətə neqativ münasibət ən qədim dövrlərdən başlayaraq XX əsrin sonlarına qədər davam etmişdir.

F.Xayek yazır ki, hətta Aristotel mübadilə proseslərinə ".... nifrətlə yanaşırdı"[154]. F.Xayek ticarəti iqtisadi sistemi (bazar prinsipləri əsasında) formalaşdıran əsas element hesab edirdi.

Ticarət – eyni zamanda, sosial-siyasi proseslərə də güclü təsir göstərmək iqtidarındadır. Tarixən dövlətdən əvvəl yaranan ticarət makrososial və siyasi sabitliyin dayanıqlılığının "qarantı" kimi çıxış edir. Sərbəst ticarət – inkişafın və sabitliyin əsas elementidir. F.Xayek sözügedən sabitliyin real məzmun daşımasını ticarət sferasında tətbiq edilən məhdudiyyətlər sisteminin ciddiliyindən funksional asılılıqda olduğunu qeyd edir. Ciddilik dərəcəsi artdıqca sosial-siyasi təlatümlər də güclənir və əksinə!

Şübhə yoxdur ki, ticarət ən qədim dövrlərdə belə mövcud olmuşdur. Arxeoloji qazıntılar[155] sübut edir ki, ticarət-iqtisadi fəaliyyətin bütün növlərindən, o cümlədən əkinçilikdən daha qədimdir.

Avropada ticarətin "izləri" paleolit dövrünə, 30 min il bundan əvvələ gedib çıxır.[156] 8 min il əvvəl, metal və keramikadan hazırlanan məmulatlar üzrə ticarətin hələ formalaşmadığı dövrdə Anadolu və Fələstin Qara və Qırmızı dəniz arasında ticarət yollarının mərkəzinə çevrilmişdi.

F.Fon Xayek hər iki hadisəni "əhalinin dramatik artımı"na nümunə kimi göstərir və qeyd edir ki, bunu bir çox hallarda mədəni inqilab kimi səciyyələndirirlər. Arxeoloqlar qeyd edirlər ki, b.e.ə. 3200-ci ildə Belucistanla (Qərbi Pakistan) Qərbi Asiya rayonları arasında şaxələnmiş

[154] Ф.Фон Хайек. Пагубная самонадеянность. Ошибки социализма. 1991, М.: - С.59
[155] Leakey R.E. The Making of Mankind. New York: Dutton, 1981, p.212
[156] Herskovits M.J. Economic Anthropology, a Study in Comparative Economics. New York: ( Alfred Knopf, inc).1960

downloaded from KitabYurdu.org

ticarət əlaqələri mövcud olmuşdu.[157] Ticarətin geniş yayılması antik sivilizasiyanın sürətli inkişafında müstəsna rol oynamışdı. Ticarətin inkişafı sosial görünüşün sərhədlərini genişləndirir və artıq tunc dövrünün ortalarında (b.e.ə. II minillik) dəniz, çay və quru yollarının şəbəkəsi formalaşır və həqiqi mənada beynəlxalq xarakter kəsb edirdi. Erkən orta əsrlərdə ticarət dövriyyəsinin əsas ağırlıq mərkəzi şəhərdaxili və şəhərlərarası əlaqələrin üzərinə düşürdü. Xarici ticarət (Qərb və Şərq arasında) əsasən kənd təsərrüfatı və sənətkarlıq məhsulları üzrə aparılırdı.

XII əsrdən etibarən xüsusi ixtisaslaşmış assosiasiyalar – gildiyalar yaranmağa başladı ki, bunların da əsas fəaliyyət sferası ticarət idi.

Ümumiyyətlə V-XV əsrlərdə xarici ticarət iqtisadiyyatın strukturunda xüsusi yer tuturdu. Həmin dövrdə ticarət əsasən topdansatış və tranzit formalarında həyata keçirilirdi. Erkən orta əsrlərdə qeyd edilən sferada Şərq ölkələri (əlalxüsus Çin) üstün möveqdə olmuşdular.

XI əsrdən başlayaraq dünyanın ticarət mərkəzi yenidən Aralıq dənizi hövzəsinə qayıdır. İtalyan tacirləri daha fəal surətdə ticarət əməliyyatlarını həyata keçirirdilər. Aralıq dənizi hövzəsində ticarətin əsas obyektləri kimi təmtəraq malları, qızıl, gümüş və silah çıxış edirdi. Eyni zamanda, XI əsrdən etibarən şimal ticarət rayonu (Baltik və Şimal dənizi) formalaşmağa başladı. Hər iki ticarət axınları arasında əlaqə Alp dağları, Reyn və eləcə də, Avropanın Atlantik sahilləri vasitəsilə yaranmışdır. Klassik orta əsrlərdə xarici ticarətin inkişafı Avropa ölkələrində vahid təsərrüfat sisteminin formalaşmasına, beynəlxalq əmək bölgüsü əsasında mübadilə proseslərinin intensivləşməsinə gətirib çıxardı. Orta əsr Avropasının regionları arasında ixtisaslaşma prosesi gedirdi:

1.Şimal-qərb sənətkarlıq regionu (İngiltərə və Niderland).

2.Mərkəzi region: sənaye xammalı və qiymətli metalların satışı üzrə ixtisaslaşmışdır (Aralıq dənizi hövzəsi, İspaniya, Skandinaviya).

3.Şərq regionu: Kənd təsərrüfatı və balıqçılıq: (Baltika, Macarıstan, Polşa və Rusiya).

İqtisadi regionlara bölgü regionlararası ticarət əlaqələrinin xüsusi intensivliyi ilə seçilməsə də, inkişafına maneə törətmirdi.

XI-XII əsrlərdə İngiltərə, Almaniya, İtaliya və Fransada yarmarkalar meydana çıxdı. Müxtəlif şəhərlər, xarici ölkələrlə ticarət

[157] Childe V.Cordon Man Makes Himself, introduction by Sally Green. Bradford – on-Avon, Wiltshire: Moonraker 1981.

downloaded from KitabYurdu.org

(həm dəniz, həm də quru yolla) məhz həmin yarmarkalar vasitəsilə daha geniş vüsət almışdır.

O dövrdə aparılan ticarətin dünya iqtisadiyyatına təsiri əsasən Şərq məhsullarının yüksək dəyərliliyi ilə səciyyənir. Kilsə Şərqlə ticarəti qadağan etdiyindən məhsullar Avropa bazarına vasitəçilər tərəfindən gətirilirdi ki, bu da qiymət artımında xüsusi rol oynayırdı. Məhz bu aspekt Şimali və Şərqi Avropa ölkələri ilə Şərq ölkələri arasında ticarət müqaviləsinin bağlanmasına gətirib çıxardı. Ticarətin inkişafı eyni zamanda yeni aqromədəni qaydaların və yeni texnologiyaların yayılmasına stimul verdi ki, nəticədə də kənd təsərrüfatı sabit templərlə inkişaf etməyə başladı.

X-XV əsrlər Avropasında ticarətin yeri və rolu xüsusilə böyük olmuşdu. Xarici ticarət manufaktura istehsalının stimullaşdırılmasında, feodal münasibətlərinin dağılmasında, Şərqin elm, mədəniyyət, tibb və kənd təsərrüfatı sferasında əldə etdiyi nailiyyətlərin Avropaya gətirilməsində əlahiddə rol oynamışdı. Məhz bunun nəticəsi olaraq XIV əsrdən etibarən bir sıra Avropa ölkələrində iqtisadi artım templərinin yüksəlməsi baş verdi.

XV əsrin əvvələrində Qanza Ticarət Assosiasiyası Avropanı beynəlxalq ticarət mərkəzinə çevirdi. Güclü hərbi-iqtisadi ittifaq Avropanın beynəlxalq proseslərə təsir gücünü əhəmiyyətli dərəcədə artırdı. Əks-əlaqə çərçivəsində manufaktura istehsalının inkişafı resursların idxalı və sənaye mallarının beynəlxalq bazarlarda satışı həcmini yüksəltdi. Məhz xarici ticarətə istiqamətlənmə manufaktura istehsalının həcminin artımı və çeşidinin genişlənməsində həlledici əhəmiyyət kəsb edir.

Bir sözlə, orta əsrlər Avropası üçün ticarət iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilmişdi.

Ticarətin sosial-iqtisadi həyata təsiri əsasən aşağıdakı istiqamətləri əhatə edir:

1. Manufaktura istehsalının inkişafı.
2. Feodalizmin dağılması.
3. Əmtəə-pul münasibətlərinin yayılması və natural təsərrüfat tipinin yararsızlığının ictimai şüura yeridilməsi.
4. Əhalinin yaşayış səviyyəsinin yüksəlməsi.

Ticarətdə Avropanın arxa plana keçməsinin əsas səbəbləri kimi aşağıdakıları göstərmək olar:

downloaded from KitabYurdu.org

1. Böyük coğrafi kəşflər nəticəsində alternativ ticarət yollarının aşkarlanması Şərqlə ticarətdə olan inhisar imtiyazlarının itirilməsi ilə nəticələndi.
2. "Qiymət inqilabı" və yekun olaraq kapitalın təmərgüzləşməsi mərkəzlərinin dəyişməsi;
3. İngiltərə və Niderlandın liderliyi ələ alması;
4. Ticarət siyasətində buraxılan səhvlər və s.

Bütün bunların nəticəsində Avropanın (XV əsrin sonu XVI əsrin əvvəlləri) beynəlxalq ticarətdəki liderliyi itirildi.

Yeni, kapitalist münasibətlərinin qərarlaşdığı (bu prosesdə də ticarət həlledici rol oynamışdı) dövrdən dünya iqtisadiyyatının formalaşdığı dövrə qədər (XIX əsrin sonu-XX əsrin əvvəlləri) ticarət sistemyaratma funksiyasını davam etdirmişdir.

Məhz ticarətin inkişafı nəticəsində kapital ixracı eləcə də digər istehsal amillərinin beynəlxalq hərəkəti yaranmışdır ki, bütün bunlar da yekun etibarilə dünya iqtisadiyyatının bir sistem kimi formalaşmasında əlahiddə rol oynamışlar.

## § 11.3. Dünya iqtisadiyyatının genezisi: inhisar fenomeni

XIX əsrin sonu XX əsrin əvvəllərində real iqtisadi güc kimi meydana çıxan inhisar birlikləri nəinki ayrı-ayrı ölkələrin, eləcə də bütövlükdə bəşəriyyətin sosial-iqtisadi inkişaf tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoymuşdur. «Klassik» bazarın uzunmüddətli vaxt intervalında «prays-teyker» situasiyasını saxlaya bilməməsi və bazar subyektlərinin müəyyən istiqamətlərdə və pozisiyalarda üstünlük səviyyəsinə görə bir-birindən getdikcə daha böyük nisbətlərdə fərqlənməsi meylinin meydana çıxması öz mahiyyəti baxımından bazar mexanizminin fəaliyyət xüsusiyyətlərinin məntiqi yekunundan başqa bir şey deyildir. Ən ümumi formada yanaşdıqda, bazar subyektləri arasında inkişaf səviyyələrinə görə kəskin fərqlərin yaranması bir tərəfdən ayrı-ayrı iqtisadi vahidlərin fəaliyyətinin təşkili ilə bağlıdırsa, digər tərəfdən sənaye inqilabının başa çatması, istehsalın kütləvi xarakter alması, xarici bazarlara çıxışın zərurilik dərəcəsinin güclənməsi, iqtisadi fəaliyyətin genişlənməsi ilə əlaqədar olaraq maliyyə resurslarına olan tələbatın sürətli artımını təmin etmək və s. baxımından mülkiyyətin səhmləşdirilməsi və s. və i.a. çıxış edir.

downloaded from KitabYurdu.org

Tarixi-xronoloji prizmadan ilk dəfə sırf iqtisadi mənada inhisarçılığın real olaraq tətbiqini merkantilistlər həyata keçirmişlər. Məqsədlərindən asılı olmayaraq xarici ticarətin sərt dövlət nəzarətinə götürülməsi məzmunca dövlət inhisarının (xarici ticarət üzərində) tətbiqi demək idi.

İqtisadi fikir tarixində inhisarın meydana çıxması, mahiyyəti və ictimai-iqtisadi münasibətlər sistemində oynadığı rol barəsində müxtəlif konsepsiyalar irəli sürülmüşdür.

Daha çox subyektiv-psixoloji amillərə istinad edən tədqiqatçılar nəinki inhisarın, hətta inhisar yaradan situasiyanın formalaşmasını da insanın daxili təbiəti, fərdiyyətçiliyi və maksimum fayda götürmək istəyi ilə izah edirdilər. Məsələn, F.Bastia yazırdı ki, «...Daha az tərləmək və daha çox çörək əldə etmək hər bir kəsin arzusudur. Bu tarixin gəldiyi nəticədir»[158].

Başqa sözlə, müasir anlamda inhisarçılıq eqoizmdən qaynaqlanan, insanın əksər hallarda həyat kredosu kimi çıxış edən iqtisadi «Mən»in obyektiv tərzli təzahüründən başqa bir şey deyildir. Aprior paradiqma «daxilə» boylanmaqla fərdi bünövrəyə əsaslanan subyektiv səciyyəli arzu və istəkləri real gerçəklik nöqteyi-nəzərindən maddi forma almaq imkanı olan obyektiv yaranış hesab edir. «Eqoizm» termini ilə birləşdirilən bu arzular toplusu, B.Qilderbrandın sözləri ilə desək, «...o halda zərər verir ki, o, (yəni eqoizm-kursiv Ə.B.) ictimai rifahla toqquşur və ictimai rifahı şəxsi mənafeyə qurban verir»[159]. Ekstremal hallar istisna olmaqla, təbii-tarixi təkamülün istənilən mərhələsində «ictimai mənafenin» qurban verilməsinə dair çoxlu sayda faktlar göstərmək mümkündür. Lakin xüsusi olaraq vurğulanması zəruri olan bir məqam var ki, o da real fəaliyyət göstərən bazar mexanizminin mahiyyətcə fərdiyyətçiliyə əsaslanması və inhisarın meydana çıxması, yaxud «ictimai mənafenin şəxsi mənafeyə qurban verilməsi» üçün real sosial-iqtisadi zəmin hazırlanmasıdır. Məhz bu uyğunluğu nəzərə alan A.Smit yazırdı ki, «...Eyni ticarət, yaxud peşə növünün nümayəndələrinin hər hansı bir yığıncağı (məqsədindən asılı olmayaraq-kursiv-Ş.H., Ə.B.) əksər hallarda ictimaiyyət əleyhinə, yaxud

---

[158] Ф.Бастиа. Экономические софизмы. С.Петербург; Промышленность, 1862.- С.1-3.

[159] Б.Гильдербранд. Политическая экономия настоящего и будущего СПБ. 1860. С. 34-35.

downloaded from KitabYurdu.org

qiymətlərin yüksəlməsi haqqında razılaşma ilə nəticələnir»[160]. Əlbəttə, «görünməyən əl»in şəriksiz hökmranlığına heç bir şübhə etməyən klassiklərin aprior düşüncə tərzi hələ yenicə zühur etməyə başlayan inhisarın inkişafdakı yeri və rolunu adekvat şəkildə izah edə bilməzdi. Hətta inhisarçı fəaliyyətin tam şəkildə meydana çıxdığı vaxtda belə fikir müxtəlifliyi daha da çoxaldı. Bir sıra «klassik» platformalı tədqiqatçılar inhisarı rəqabətin dialektik inkarı, onun əksi hesab edirdilər[161]. Əlbəttə, bu tamamilə yanlış bir fikir idi. K.Marksın təbirincə desək, əməli fəaliyyətdə inhisar və rəqabət, onların antoqonizmi və sintezi müşahidə edilir[162]. Başqa sözlə, inhisar və rəqabət ziddiyyətli vahidlikdir və onları «ya-ya» formulu üzrə ayırmaq mümkünsüzdür. Ümumiyyətlə, inhisar nəzəriyyəsinin formalaşmasında marksizmin, xüsusilə V.İ.Leninin müstəsna rolu olmuşdur. Əlbəttə, siyasi-ideoloji örtüyün götürüldüyü və ifrat "obyektivizmin" qismən yumşaldıldığı təqdirdə marksizmin bu istiqamətdə çox mühüm müddəalarını qəbul etməmək qeyri-mümkündür.

Əksər ictimai hadisə və prosesləri ifrat obyektivləşdirmə mövqeyindən çıxış edən V.İ.Lenin istehsalın təmərküzləşməsi və inhisarlaşma arasında səbəb-nəticə əlaqələrini kapitalizmin «ümumi qanunu» adlandırmışdır, yəni inhisar geniş təkrar istehsalın müqəddəm şərti kimi kapitalist istehsal münasibətləri çərçivəsində obyektiv zərurətdir[163]. Beləliklə, kapitalın və istehsalın təmərküzləşməsinin güclənməsi nəinki inhisarlaşma prosesini intensivləşdirir, eyni zamanda kapitalizmin ictimai sistemində keyfiyyətcə yeni hadisənin – dövlət-inhisarçı kapitalizmin meydana çıxmasına səbəb olur və beləliklə, inhisara qədərki «anonim» bazar öz dövrünü başa vurur.

Marksizmə görə inhisarın mahiyyəti üç başlıca cəhətlə müəyyən olunur: 1) bir, yaxud bir neçə sahədə istehsalın təmərküzləşməsi; 2) qiymətləri diktə etmək imkanı; 3) yüksək inhisarçı mənfəət əldə etmək imkanı; inhisar probleminə Neoliberal yanaşma isə inhisar-rəqabət dilemmasından çıxış etməklə klassik liberalizmin «...əlverişli formalar, yəni ümumiyyətlə deyilsə, məqsədyönlü iqtisadi quruluş öz-özünə,

---

[160] А.Смит. Исследование о природе и причине богатства народов. Т1., М.: ГСЭИ, 1935. стр 56.

[161] Политическая экономия (учебник). М.: Политическая литература. 1980.- С. 330.

[162] К.Маркс, Ф.Энгельс. Соч. Т. 4.- С.106.

[163] В.И.Ленин. Полн. собр. соч. Т.27.- С.315

downloaded from KitabYurdu.org

aşağıdan, cəmiyyətin kortəbii güclərindən inkişaf edir»[164] müddəasını tam şəkildə bölüşməklə yanaşı, onları inhisar fenomenini görməməkdə günahlandırır. Neoliberallar inhisarı ya «birtərəfli təklif», ya da «birtərəfli tələblə» səciyyələndirirlər. Bu o deməkdir ki, əgər eyni növ məhsulun tam istehsalı, yaxud alışı bir subyekt tərəfindən həyata keçirilərsə, onda bu subyektə inhisar demək olar. Bəri başdan deyək ki, bu cür yanaşma süni abstraksiyadan başqa bir şey deyildir. Yəni, real həyatda mütləq inhisar yoxdur və ola da bilməz. Neoklassik məktəbin inhisar mövzusunda büdrəmələri bütövlükdə nəzəriyyənin «xalis» rəqabətə əsaslanması ilə izah oluna bilər. Qeyd edək ki, ilkin olaraq «xalis» rəqabət anlayışı italyan iqtisadçısı P.Sraffa tərəfindən kəskin tənqidə məruz qalmış və G.Çemberlinin araşdırmaları nəticəsində neoklassiklərin başlıca «istinad nöqtəsi» əvvəlki əhəmiyyətini xeyli itirmişdir[165].

Bizim fikrimizcə, təkcə «xalis» yox, həm də «kamil» rəqabət anlayışı qəbuledilməzdi. Belə ki, «kamil» rəqabət adlanan istinad nöqtəsindən çıxış etdikdə qəribə mənzərə alınır. Belə çıxır ki, kamil rəqabət ümumiyyətlə, rəqabətin yoxluğu deməkdir. Həqiqətən də ayrı-ayrı korporativ mənafelərdən çıxış edən bazar subyektlərindən hansı məntiqlə rəqabət mübarizəsində «insaflı» olmalarını tələb etmək mümkündür? Əgər rəqabət «qeyri-müəyyənlikdən» doğursa (nəticəsi məlum olan hadisə rəqabət yarada bilməz) və «mənə məxsus olmalıdır» şüarı altında hərəkətə gəlirsə, onda hansı «kamillikdən» danışmaq mümkündür? Məhz bu baxımdan K.Marksın «...İnhisar və rəqabətin sintezi formula yox, hərəkətdir» fikri çox sönük görünür. Həmin sintezin inhisarçı rəqabət şəklində məhz formula olduğunu G.Çemberlin yuxarıda söz açdığımız əsərində inandırıcı dəlillərlə sübut etmişdir. Beləliklə, «klassik» bazarın tədqiqatçıları inhisarçıların meydana çıxmasını kapital və istehsalın təmərküzləşməsi prosesi ilə əlaqələndirirlər və bu araşdırdığımız problemdə yeganə cəhətdir ki, fikir yekdilliyi mövcuddur.

Müasir iqtisadçılardan D.Natter, P.Samuelson, C.Stiller və s., eləcə də bizim fikrimizcə, inhisar doğuran situasiya istehsalın təmərküzləşməsi ilə mütləq bağlılıqda deyil və burada çox incə nüanslar mövcuddur. Ümumiyyətlə, müasir şəraitdə istehsalın təmərküzləşməsi (təbii inhisarlar

---

[164] Eucken W.Drundsatse der Wirtchaftspolitik, Bern, Franke Verlag, Tubingen. Mohr Verlad. 1952, p.27

[165]Э.Чемберлин.Теория монополитической конкуренции. Реориентация теории стоимости. М.: Экономика, 1996.- С.8.

downloaded from KitabYurdu.org

istisnadır) getmir və s. Sosial-iqtisadi inkişafda inhisarların roluna dair iki yanaşma mövcuddur.

Hevernis, Lifman, Risser və başqaları bazar iqtisadiyyatı şəraitində inhisarın böyük rol oynadığını, «təşkilatçılığını» ön plana çəkmiş, onun bazarın ayrılmaz atributu olduğunu xüsusi ilə vurğulamışlar[166].

Qobson, Lansburq[167], eləcə də Sraffa, Robinson və H.fon Ştakkelberq[168] isə inhisarın roluna tənqidi mövqedən yanaşmış və azad rəqabətli bazara dönüşün zəruriliyini qeyd etmişlər.

Sosial-demokratların lideri K.Kautski özünün «ultraimperializm» nəzəriyyəsində bazar münasibətlərinin inkişafının milli kapitalların vahid trestdə birləşməsinə gətirib çıxaracağını və bütövlükdə dünya iqtisadiyyatının kapitalın beynəlxalq birliyi tərəfindən idarəediləcəyini əsaslandırmağa çalışmışdır. N.Buxarinin «xalis imperializm» konsepsiyasına görə isə, inhisar mal istehsalının ziddiyyətlərini ləğv etməklə ictimai təsərrüfatın tamamilə yenidən qurulmasına gətirib çıxarır və s.

İnhisarçı fəaliyyətə həsr edilmiş çoxlu sayda nəzəriyyələr və konsepsiyaların qısa xülasəsi göstərir ki, uzun illər ərzində inhisarın mahiyyəti və onun terminoloji mənası baxımından iqtisadçılar arasında yekdil fikir olmamışdır.

Beləliklə, inhisara yanaşmada başlıca olaraq 2 nöqteyi-nəzərin mövcudluğu göz önündədir:

1. İnhisar hər hansı bir istehsal sferasında liderlik edən iri korporasiyadır: Bu yanaşmanı yalnız retrospektiv aspektdə nəzərdən keçirmək olar. Məsələ bundadır ki, XX əsrin I yarısında (30-cu illərə qədər) ziddiyyətlərin zahiri görünüşü arxasında bazar iqtisadiyyatının formalaşdığı andan davam edən böhran yetişməkdə idi. Bu da həmin dövr ərzində ictimailəşmənin tipindən irəli gəlirdi. Həmin tip azad rəqabəti aradan qaldırmaqla inhisarların mövqelərini daha da möhkəmlətdi. İctimailəşmənin bu tipini piramida quruculuğu prosesi kimi təsvir etmək olar (şəkil 11.4).

Təbiidir ki, belə piramidanın quruculuğu uzun sürən bir prosesdir və öz-özlüyündə istehsalın ictimailəşməsinin bu tipinin ən dərin

---

[166]Политическая экономия (учебник). М.: Политическая литература. 1980.- С. 379.

[167] Там же. С. 379.

[168] Э.Чемберлин-Теория монополитической конкуренции. Реориентация теории стоимости. М: «Экономика», 1996.- С.9.

downloaded from KitabYurdu.org

əsaslarını dağıtdı. Nəticədə əməyin yaradıcı xarakteri ön plana çıxmaqla nəhəng piramidaların daha az səmərəli olduğunu nümayiş etdirdi.

2. İnhisar bazar situasiyasıdır, bazarda tək satıcı deməkdir. Deməli, bazar mexanizmi mövqeyindən yanaşdıqda kiçik müəssisə inhisarçı, iri korporasiya isə inhisarçı olmaya bilər (əgər bazar payı azdırsa) və s.




***Şək.11.4. İnhisarın təşəkkülü sxemi***

Göründüyü kimi, inhisar xüsusi imtiyaz, iri istehsal, satış və yaxud tədarük təşkilatı, tək satıcı kimi izah olunmuş, hətta ictimai həyatın digər sferalarına münasibətdə də geniş surətdə istifadə edilmişdir (hakimiyyət inhisarı, ideoloji inhisar, siyasi inhisar və s.).

Fikrimizcə, göstərilən problemə yanaşma müxtəlifliyinin rəngarəngliyinə baxmayaraq, inhisarı iki aspektdə nəzərdən keçirmək məqsədəuyğun olardı:

1. İnhisar ictimai-iqtisadi münasibətlərin xüsusi tipi kimi (inhisarizm);

2. İnhisar bazar strukturu, bazarın atributu kimi.

Elə buradaca qeyd edək ki, göstərilən bölgü heç də inhisarın təzahür formalarının müxtəlifliyindən doğan mahiyyət fərqini deyil, sadəcə olaraq onun bəşəriyyətin inkişaf tarixində oynadığı rolun səciyyəvi cəhətlərini əks etdirir.

downloaded from KitabYurdu.org

İnhisarizm xüsusi imtiyazlara əsaslanan münasibətlər tipi olmaqla, çox qədim tarixə malikdir. Onun formalaşması və inkişafı bəşəriyyətin tarixi-təkamül prosesinin ayrı-ayrı mərhələlərində fərqli aspektlərdə özünü təcəssüm etdirmişdir. Başqa sözlə, hamı üçün birmənalı mahiyyət daşıyan hadisə və prosesləri inhisarın müxtəlif təzahür formaları kimi xarakterizə etmək olar.

Məsələn, totalitarizmi bir şəxsin xüsusi imtiyazlara malik olması baxımından şəxsiyyət inhisarı kimi, milli ideologiyanı-ideoloji inhisar kimi, hər hansı bir siyasi qruplaşmanın münasibətlər məcmusuna güclü təsir etmək iqtidarında olmasını isə siyasi inhisar kimi və s. izah etmək mümkündür. Yəni, inhisarizmi münasibətlər sisteminin tənzimlənməsi və idarə edilməsi sferasında xüsusi imtiyazların bir, yaxud bir neçə qrupun əlində cəmlənməsi kimi başa düşmək lazımdır. Bununla yanaşı, qeyd edilməlidir ki, inhisarizm və bazarın atributu kimi çıxış edən inhisarı eyni mənbəyə əsaslanan ictimai hadisənin müxtəlif təzahür formaları kimi səciyyələndirmək heç də birmənalı şəkildə qəbul edilə bilməz. Məsələn, bəzi tədqiqatçılar inhisarı mülkiyyət formalarının eyniliyinə və millətin ideoloji bütövlüyünə əsaslanan hadisə hesab edirlər[169].

Fikrimizcə, bu yanaşmanın özünün mahiyyətində metodoloji yanlışlıq qabarıq şəkildə müşahidə edilir.

Belə ki, əvvəla, sözügedən konsepsiya bütövlükdə inzibati-amirlik sisteminin spesifik cəhətlərinə əsaslanır və bazar iqtisadiyyatlı ölkələrə heç bir aidiyyatı yoxdur. Məlumdur ki, Qərbi Avropa ölkələrində xüsusi mülkiyyət uzun dövr ərzində hegemon mövqedə olmuşdur. Lakin bu hal «nədənsə» yalnız XIX əsrin sonu, XX əsrin əvvəllərində inhisar doğurmuşdur; ikincisi, millətin ideoloji bütövlüyü ən yaxşı halda abstrakt-fəlsəfi mahiyyətdən uzağa getmir. Dəyərlər sisteminin məzmunundan asılı olmayaraq hər cür ideologiya iqtisadi paradiqmanın qismən modifikasiya edilmiş, «mənəviləşdirilmiş» törəməsidir. Ümumiyyətlə, ideologiya, eləcə də bütövlükdə üstqurum bazisin, yəni iqtisadi münasibətlər sisteminin ictimai şüurda təzahür formasından başqa bir şey deyildir. Əgər ictimai münasibətlərin dialektik xarakterini və element-sistem qarşılıqlı münasibətlərində determinoloji bağlılığı qəbul ediriksə, bütün hadisə və proseslərə elmi baxımdan səbəb-nəticə əlaqələri kateqoriyası çərçivəsində yanaşırıqsa, onda bəşəriyyətin bütün tarixi boyu elmi fakt kimi mövcud olmayan mifik ideoloji bütövlüyü ön plana

---

[169] В.Богачев. Монополия в советской экономике //Экономические науки,1990. № 9.- С.11.

downloaded from KitabYurdu.org

çəkməyə heç bir lüzum yoxdur; üçüncüsü, müasir reallıq baxımından yanaşdıqda da mülkiyyət eyniliyi fenomeninin qabardılması heç bir real məzmun kəsb etmir. Ümumiyyətlə, inhisarın hər iki aspekti arasında son dərəcə sıx qarşılıqlı əlaqələrin mövcudluğuna baxmayaraq, onları tarixi-xronoloji inkişaf mərhələləri baxımından vahid mənbəyə əsaslanmaqla eyniyyət təşkil etdiklərini qeyd etmək ümumiqtisadi inkişaf qanunauyğunluqlarının mahiyyəti və məzmununa yanaşmada, eləcə də iqtisadi fikirdə dolaşıqlıq yarada bilər.

Bütün bunlarla yanaşı, qeyd etməliyik ki, inhisarın hər iki aspektinin hər halda vahid mənbəyi mövcuddur.

İnhisar istər bazarın atributu, istərsə də ictimai-iqtisadi münasibətlərin xüsusi tipi formasında iqtisadi «Mən»in kulminasiya nöqtəsi kimi təzahür edir. Sadəcə olaraq, inhisarçı fəaliyyətin meydana çıxması fərdiyyətçiliyin qabarıq nümayişindən başqa bir şey deyildir.

Lakin bütün amillər kompleksi nəzərə alındığı təqdirdə bu hal heç də inhisarçı subyekt və inhisarizmin məzmun eyniliyinə dəlalət etmir. Çünki:

1. İnhisarizm münasibətlər məcmusu kimi təzahür edirsə, inhisarçı subyekt iqtisadi vahid statusundan demək olar ki, kənara çıxmır;

2. İnhisarizm makrosəviyyədə formalaşan hadisədirsə, inhisarçı fəaliyyət mikrosəviyyənin elementidir;

3. İnhisarizm mahiyyət etibarilə nəinki iqtisadi, eləcə də siyasi, sosial, ideoloji və s. aspektlərin ümumuyğunluğuna əsaslanan mənafelər kimi meydana çıxırsa, inhisarçı fəaliyyət bəzi cəhətləri çıxmaq şərti ilə sırf iqtisadi xarakter daşıyır və s.

Beləliklə, inhisarizm anlayışına sırf iqtisadi səciyyə daşıyan və yalnız geniş təkrar istehsal prosesinin əksər fazalarında təzahür edən hadisə kimi deyil, daha çox ictimai-iqtisadi münasibətlər sisteminin xüsusi tipi kimi yanaşmaq real gerçəkliyin obyektiv dərki baxımından daha məqsədəuyğun olardı. Əlbəttə, inhisarizm bugünkü situasiya çərçivəsində inhisarçı iqtisadi subyektin törətdiyi, doğurduğu ictimai hadisədir. Amma sosial-iqtisadi determinasiyanın inkar edilmədiyi təqdirdə yuxarıda qeyd etdiyimiz tezisin hökm kimi qəbulu mümkünsüzdür. Ona görə ki, əvvəla bəşəriyyətin iqtisadi inkişaf tarixi iqtisadi proseslərin daxili məntiqindən doğan inhisarçı subyektlə yalnız XIX əsrin ikinci yarısından sonra qarşılaşıb. Yəni bu gün inhisarizmin törədicisi kimi qəbul etdiyimiz və sırf iqtisadi səciyyə daşıyan inhisarçı subyektin ən çoxu 150 yaşı var. Bu o deməkdir ki, ictimai-iqtisadi münasibətlərin tənzimlənməsi, yaxud idarə edilməsi sferasında xüsusi

downloaded from KitabYurdu.org

imtiyazların mövcudluğu, yaxud həmin imtiyazlara canatma bəşər nəslinin yarandığı andan formalaşan, insanın özü ilə birlikdə doğulan, insanın bioloji təbiətinin ayrılmaz atributu kimi təşəkkül tapan təbii hadisədir. Siyasi-inzibati üsullarla həmin imtiyazların əldə saxlanılması bütün tarixi dövrlərdə problematik xarakter daşımış, başqa sözlə, cəmiyyətin varlığı və inkişafının əsasında dayanan, sonuc etibarilə bütövlükdə üstqurumu doğuran iqtisadi bazislə üzvi vəhdətdə olmamış və elə ona görə də, dayanıqlılıq baxımından son dərəcə qeyri-sabit, dəyişkən mahiyyətə malik olmuşdur. Real bazar münasibətlərinin intişarı isə həmin uyğunsuzluğun aradan qaldırılmasında müstəsna rol oynamışdır. Real bazar inhisarizmin iqtisadi əsaslarının formalaşması, onun dayanıqlıq səviyyəsinin yüksəldilməsi, sosial və iqtisadi olanlar arasında dialektik bütövlüyün yaranması üçün ideal zəmin hazırlamaqla, eyni zamanda onun (inhisarizmin) «təbiiliyinin» əhəmiyyətli dərəcədə qabardılmasına rəvac vermişdir. İkincisi, problemin qeyd etdiyimiz səpgidə qoyuluşu həm də ona dəlalət edir ki, ümumiyyətlə, bazarın meydana gəlməsi mənafelərin daha tam şəkildə ödənilməsi tələbinin, yaxud həmin prizmadan ictimai «sifarişin» nəticəsindən başqa bir şey deyildir. İqtisadi proseslərdə əlahiddələşmə mənafelər mövqeyindən «xüsusiliyin» ön plana çəkilməsi kimi də başa düşülə bilər. Yəni iqtisadi səciyyə daşıyan hadisələrdə «iqtisadi»nin mütləqləşdirilməsi, konkretləşdirilməsi və öncüllüyünün birmənalı qəbulu heç də «sosial»ın mücərrədləşdirilməsini, «simasızlaşdırılmasını» tələb etmir. Həqiqətən də, «iqtisadi» olan «sosialın» maddiləşmiş təzahüründən başqa bir şey deyildir. Eyni zamanda, «sosialın» mövcudluğu və inkişafı «iqtisadi»dən funksional asılılıqdadır. Belə olan təqdirdə mənafelərin daha tam ödənilməsi «ümumilik» səciyyəsi daşısa da, elə həmin mənafelər müstəvisində qruplaşmaların meydana çıxmasını da şövqləndirir. Başqa sözlə, inhisarizmin intişarı artıq dialektik bağlılıqda olan proseslərin məntiqi yekunu, təbii nəticəsi kimi baş verir və əvvəlki, yəni bazaraqədərki dövrlə müqayisədə ikitərəfli səciyyə kəsb edir.

Üçüncüsü, bazarın özünün təkamülü tarixinin müxtəlif mərhələlərinə uyğun olaraq, inhisarizmin təzahür formaları da dəyişir. Demokratik prinsiplər bazasında formalaşan vətəndaş cəmiyyətinin mövcudluğu inhisarizmin təklik, vahidlik aspektlərini çoxluqla, müxtəlifliklə əvəz edir. Müxtəlif səviyyəli və imkanlı mənafe qruplarının üz-üzə gəlməsi, sosial-siyasi mahiyyət daşıyan islahat, yaxud dəyişikliklərin aparılması ilə tənzimlənir. Bu heç də o demək deyildir ki, sözügedən dəyişikliklər sosial qaydaların köklü surətdə yeniləşməsi ilə

downloaded from KitabYurdu.org

nəticələnməlidir. Yəni qeyd edilən problemə marksist «qlobalizmi» mövqeyindən baxış tamamilə yolverilməzdir. Belə ki, sosial problemlər ümumbəşəri məzmuna paralel olaraq, həm də milli-etnik mahiyyətə malikdir. Bu baxımdan biz D.Starkın belə bir fikri ilə tam razıyıq ki, həqiqətən də sosial sferada həyata keçirilən əsaslı dəyişikliklər heç də bir sosial qaydadan digərinə keçid deyildir. Bu dəyişikliklər çoxsaylı sosial qaydalar arasında qarşılıqlı əlaqələr sisteminin yeniləşdirilməsidir, mövcud strukturun yeni prinsiplər əsasında formalaşdırılmış kombinasiyasıdır[170]. Bazar fəaliyyətində milli spesifikliyin mövcudluğu o deməkdir ki, istənilən səpgili dəyişikliklərin nüvəsində tarixi-təkamül prosesinin formalaşdırdığı və əksər hallarda mahiyyətcə sabit xarakter daşıyan milli qaydalar durur və o, sosial sferadakı dəyişikliklərin inqilabiliyini qəbul etmir və bütün gücü ilə müqavimət göstərir. Başqa sözlə, söhbət ən yaxşı halda həmin milli qaydaların yeni prinsiplər əsasında təşkilindən gedə bilər, onların məzmunca dəyişdirilməsindən yox! Məhz buna görə də, cəmiyyətin idarə edilməsi sferasında xüsusi imtiyazların bir, yaxud bir neçə əldə cəmlənməsi, yaxud inhisarizmin müxtəlif səviyyəli və formalı təzahürü milli aspektdən birbaşa asılılıqdadır.

Nəhayət qeyd etmək lazımdır ki, müasir sosial-iqtisadi situasiya çərçivəsində inhisarizmin formalaşması həm lokal, həm də regional və qlobal mənafelərin uyğunlaşdırılması istiqamətində problematik məqamların meydana çıxmasına səbəb olur. Belə ki, inhisarizm ictimai həyatın bütün sferalarına nüfuz etməklə, ümummilli mənafeləri arxa plana keçirir və əksər hallarda əlahiddələşmiş korporativ maraqların əsirinə çevrilir (şək.11.5).

Başqa sözlə, inhisarçı fəaliyyət göstərən iqtisadi subyekt ölkənin iqtisadi inkişaf strategiyasından tutmuş, siyasi partiyaların, seçki kompaniyalarının maliyyələşdirilməsinə qədər bütün ictimai proses və hadisələrdə yaxından iştirak etməklə, xüsusi mənafenin öncüllüyünün təminatına çalışır və nəticə etibarilə inhisarizm doğurur.

Dünya iqtisadiyyatının qloballaşması prosesinin sürətlənməsi isə həmin «yaranışın» ümumbəşəri bəlaya çevrilməsinə gətirib çıxarır.

---

[170] Stark D. Recombinat Property in East European Capitalism-American Journal of Sociolopy, 1996. Vol. 101 N4. p.993-1027

downloaded from KitabYurdu.org




***Şəkil.11.5. İnhisarizmin formalaşması mexanizmi***

İstehsal və kapitalın transmilliləşməsi, milli mənsubiyyəti bəlli olmayan beynəlxalq istehsal komplekslərinin, qapalı xarakter daşıyan inteqrasiya bloklarının yaranması, sənayecə inkişaf etmiş ölkələrin liberal ekstremizmi iqtisadi cəhətdən geri qalan əksər inkişaf etməkdə olan ölkələrdə lokal inhisarizmi milli mənafelərin yeganə təminatçısına çevirir və məcburi qaydada onun mövqelərini möhkəmləndirir. Qeyd edilən proseslər beynəlxalq və regional səviyyələrdə elə mürəkkəb simbioz formalı qarşılıqlı münasibətlər formalaşdırmışdır ki, ayrıca götürülmüş hər hansı bir ölkənin perspektiv inkişafı lokal səciyyəli problemlərin deyil, xarici iqtisadi fəaliyyətin təşkili və tənzimlənməsinin səmərəlilik və optimallıq dərəcəsindən birbaşa asılılığa düşmüşdür. Eyni zamanda, transmilliləşmə və universalizm milli sərhədləri aşaraq yalnız biznesin inkişaf qanunauyğunluqlarına əsaslanmaqla inhisarçı birlik və qrupların meydana çıxmasına və həmin istiqamətdə hər hansı bir tənzimləyici, yaxud nəzarətedici orqanın, o cümlədən milli hökumətin imkanlarını, ifrat dərəcədə məhdudlaşdırılmasına səbəb olmuşdur. Beləliklə, həm milli səviyyədə, həm də milli→regional→qlobal mənafelər sistemində kəskin təzadların yaranmasına, ümumbəşəri inkişafın sabitqədəmliliyinə çox güclü əks-təsir göstərmişdir.

### § 11.4. İnhisarçı yaranış bazar prosesinin

downloaded from KitabYurdu.org

**məntiqi nəticəsidir**

İnhisar fenomeni və bütövlükdə inhisar yaradan prosesə nəzəri baxışların müqayisəli təhlili və bunun nəticəsində əldə olunan ümumiləşdirilmiş yanaşma tərzi aydın şəkildə göstərir ki, problemin həm qoyuluşu, həm də mahiyyətcə açıqlanmasında sırf iqtisadi məzmun daşıyan aspektlər həmişə ön sıralarda qərarlaşmışdır. Başqa sözlə, inhisarın nəyin törəməsi olduğundan (istehsal, yoxsa bazar) asılı olmayaraq, söhbət yalnız bazar şəraitindən, bazar mexanizminin real fəaliyyət göstərdiyi situasiyadan gedir. İnhisarın məhz bu görmə bucağı altında şərhi əvvəllər qeyd etdiyimiz birtərəfliliyin meydana çıxmasında mühüm rol oynamışdır. Eyni zamanda, qeyd edilən aspektin prioritetliyinin mütləqləşdirilməsi inhisar və inhisarizm problemlərinin tarixi kökləri və onların təkamülü prosesini aydın şəkildə dərketmə imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Bütün bunlar heç də o demək deyildir ki, inhisar→bazar cütlüyü inkar edilir. Əksinə, bazaraqədərki dövrün spesifikasını nəzərə almaqla mövcud olan inhisarçı təmayülləri araşdırmaq, elə nəticə etibarilə inhisarizmin sosial-siyasi, tarixi və iqtisadi əsaslarının məcmu şəkildə əhatə edilməsi anlamına gəlir.

Beləliklə, fikrimizcə, inhisarın yaranma tarixini (ələlxüsus, inhisarizm fenomeninin təsir imkanlarını araşdırmaq baxımından) iki əsas mərhələyə ayırmaq məqsədəuyğun olardı:

1.Bazaraqədərki dövr: Antik inhisar;

2.Bazar dövrü. Bu dövrü də iki yerə ayırmaq olar: Klassik inhisar dövrü; Müasir inhisar dövrü.

Tarixi mənbələr göstərir ki, antik inhisar başlıca olaraq aşağıdakı istiqamətldə təzahür etmişdir:

1. Etnik inhisar; Hələ eramızdan əvvəl 522-426-cı illərdə I Daranın dövründə əcnəbi tacirlərə ticarət etmək qadağan olunmuşdur. Bu hal etnik əlamət üzrə ticarət əməliyyatlarının qadağan olunmasının başlanğıcı idi. Bu təcrübə Pekində XX əsrin əvvəllərinə qədər mövcud olmuşdur. Müasir yanaşma baxımından etnik inhisarçılığı sırf siyasi mahiyyət daşıması prizmasından «qapalı» inhisarın rüşeymi hesab etmək olar;

2. Təbii inhisar; Bu hal əsasən Avropada (bürünc və dəmir məmulatlarının hazırlanmasında ayrı-ayrı ustaların öz üsulları var idi), o cümlədən, bizim eradan əvvəl II minillikdə Qədim Misirdə mövcud olmuşdur (Nil sahilində taxıl yetişdirməklə bağlı);

3. Üçüncü tir inhisar meyilləri isə hakimiyyətə münasibətlə əlaqədar meydana çıxmışdır ki, onun da iki növünü fərqləndirmək olar:

downloaded from KitabYurdu.org

Hakimiyyətə olan hüququn məhdudlaşdırılması; Yalnız müəyyən qrupun hakimiyyətə gəlmək imkanının qəbul olunması.

Bundan başqa, Roma imperiyasının bütün tarixi ərzində taxıl ticarəti dövlətin inhisarında olmuşdur və s. İnhisarın bazaraqədərki təzahür formalarına aid çoxlu sayda misallar gətirmək mümkündür. Lakin, bu sadalananlar kifayətdir ki, hər iki dövr arasında başlıca fərqin nədən ibarət olduğunu müəyyən etmək mümkün olsun. Göründüyü kimi, bazaraqədərki dövrdə inhisarçı meyillərin meydana çıxmasında iqtisadi proseslərin elə bir əhəmiyyətli təsiri olmamışdır. Problem bütün mahiyyəti ilə siyasi iradəyə bağlı olmuşdur.

İnkişafın bazar dövründə isə inhisarın meydana çıxmasında iqtisadi proses, onun məzmun və mahiyyəti həlledici rola malik olmaqla, qeyri-iqtisadi amillərin təsir gücünü heç də azaltmamış, əksinə daha da gücləndirmişdir.

Araşdırmalarımız göstərir ki, klassik inhisar bazar münasibətlərinin atributu kimi, bir qayda olaraq, təmərküzləşmənin məntiqi nəticəsi keyfiyyətində tədqiq olunmuş və alınan yekuna müvafiq olaraq müxtəlif məzmunlu elmi baxışlar formalaşdırılmışdır.

Təhlil materialları birmənalı şəkildə belə bir qənaətə gəlməyə imkan verir ki, həqiqətən də inhisarla iqtisadiyyatın «qapalılığı» və totalitarizm arasında ifrat dərəcədə sıx qarşılıqlı bağlılıq mövcuddur. Amma bu, heç də o demək deyildir ki, hər iki fenomen arasında mexaniki surətdə bərabərlik işarəsi qoyulmalıdır. Başqa sözlə, inhisarizm adlandırdığımız sistemli yaranışın sırf siyasi xarakter kəsb edən istiqaməti bir sıra hallarda (konkret situasiyalardan asılı olaraq) avtonom formada da təzahür edə bilər. Yə'ni, inhisar istənilən şəraitdə totalitar idarəetmə təmayüllərini doğurur demək, əlbəttə ki, yanlışlıq olardı. Qısaca olaraq, belə bir qeyd etməyi zəruri sayırıq ki, inhisar fenomeninin təzahürü və formalaşdırdığı situasiyalar açıq və qapalı iqtisadi sistemlərdə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir (şəkil 11.6).

Beləliklə, əvvəllərdə qeyd etdiyimiz kimi, istehsal və kapitalın təmərküzləşmə (mərkəzləşmə) dərəcəsinin artım tempinin getdikcə yüksəlməsi, nəticə etibarilə vahid dövlət, yaxud beynəlxalq inhisara səbəb olacaqdır tipli yanaşma (marksistlər, Oyken və s.) XX əsrin 30-cu illərindən sonra baş verən köklü dəyişikliklər üzündən qəbul edilməzdir.

| «Qapalı» iqtisadiyyat | «Açıq» iqtisadiyyat |
|---|---|
| 1.İnhisarın ölçüləri daha | 1.İnhisarın ölçüləri o qədər böyük deyil. |

downloaded from KitabYurdu.org

| | |
|---|---|
| böyükdür. | |
| 2.İnhisar iqtisadi münasibətlərin müstəqil subyekti deyil. | 2.İnhisar iqtisadi münasibətlərin müstəqil subyektidir. |
| 3.İstehsalın inhisarlaşma dərəcəsi daha yüksəkdir. | 3.İstehsalın inhisarlaşma dərəcəsi nisbətən aşağıdır. |
| 4.Bazarda həmişə inhisarçı situasiya olur. | 4.Bazarda həmişə inhisarçı situasiya olmur. |
| 5.Hətta potensial rəqabət imkanları belə yoxdur. | 5.İnhisarlar arasında kəskin rəqabət mövcuddur. |

***Şəkil. 11.6. İnhisarçılığın «qapalı» və «açıq» iqtisadiyyat şəraitində fərqli xüsusiyyətləri.***

Bütün bunlarla yanaşı, hər iki hal üçün oxşar cəhətlər də olmamış deyildir:

1. Hər iki halda istehlakçı seçim məhdudlaşdırılır;

2. İstehsal xərclərinin azaldılması yönümlü stimulların yoxluğu və mənfəətin gizli, yaxud açıq şəkildə qiymətlərin yüksəldilməsi hesabına əldə olunması;

3. İnnovasiya prosesi stimullaşdırılmır.

Bazar münasibətlərinin xüsusi atributu kimi inhisarın təsnifləşdirilməsində mövcud olan yanaşma müxtəlifliyi də məhz əvvəllər qeyd etdiyimiz amillər çoxluğuna baxışda fərqli seçim tərzlərinin ortalığa qoyulmasından irəli gəlir. Məsələn, klassik yanaşmaya görə inhisar 3 istiqamətdə təzahür edə bilər:

1. İstehsal vasitələri üzərində inhisar;

2. İstehsal şəraiti üzərində inhisar;

3)«Özündə şey» tipli inhisar: Yəni, istehsalın və kapitalın təmərküzləşməsi nəticəsində meydana çıxan inhisar.

Müasir yanaşma isə inhisarın əsasən 4 formasını fərqləndirir:

1. Təbii inhisar: Bazarda mal təklifinin bir firma tərəfindən formalaşdırıldığı təqdirdə sahənin uzunmüddətli orta xərcləri minimum səviyyəyə enir.

2. Təşkilati inhisar: Eyni profilli müəssisələrin idarəetmə obyektlərinin sayını azaltmaq məqsədilə birləşməsi, məsələn, idarə inhisarçılığı, nazirlik və s.

3. Texnoloji inhisar: Belə bir nöqtədən çıxış edir ki, mövcud texnologiya bazasında müəyyən məhsula olan tələbi bir, yaxud bir neçə müəssisə ödəmək iqtidarındadır. Onların sayının artımı istehsalın həcmcə

downloaded from KitabYurdu.org

artmasına, yaxud hər bir müəssisədə istehsalın həcminin azalmasına və istehsal xərclərinin artımına gətirib çıxarır. Eyni zamanda, bu halda texnoloji liderliyə canatma müşahidə edilmir.

Əksinə, əksər hallarda cari xərcləri azaltmaq məqsədilə texnoloji səviyyənin olduğu kimi qalmasına çalışılır;

4. İqtisadi inhisar-müqavilə, sazişlər, yaxud rəqabət mübarizəsində qalib gəlməklə meydana çıxan inhisarçı yaranış.

Qeyd edilən iri qruplaşmalar şəklində formalaşdırılmış təsnifata bir sıra tədqiqatçılar tərəfindən müəyyən əlavələr də edilmişdir. Məsələn, M.İ.Knış[171] deyilənlərlə yanaşı inhisarın forması, yaxud təzahürü kimi aşağıdakıları da əlavə etməyi məqsədəuyğun sayır:

1. Hər hansı bir coğrafi məkanda müstəsna istehsalçı hüququ verən lisenziya, yaxud franşizanın firma tərəfindən alınması;
2. Əsas xammala sahiblik və onun göndərişinə nəzarətin firmanın əlində olması;
3. İstehlakçı tələbini tam şəkildə özünə cəlb edən məhsul növünün istehsalı, yaxud bazara çıxarılması və s.

Qərb iqtisadçıları G.Dolan və D.Lindsey[172] isə inhisarın əsasən 3 növünü fərqləndirirlər:

1. «Qapalı» inhisar (Rəqabətdən hüquqi qadağalarla qorunan firma);
2. «Açıq» inhisar (Qısamüddətli vaxt intervalında rəqabətdən xüsusi vasitələrlə qorunmayan bir firmanın bazarda tək satıcıya çevrilməsi);
3. «Təbii» inhisar.

Eyni zamanda, inhisarın tipləşdirilməsində inzibati müdaxilənin ayrıca forma kimi götürülməsinə də rast gəlinir. Biz bunu, bir qayda olaraq, siyasi amillərlə bağlı yaradılan «qapalı» inhisar kimi səciyyələndiririk. Hal-hazırda, araşdırdığımız problemlə bağlı böyük əksəriyyət tərəfindən qəbul edilən tipləşdirmə elmi fikirdə hələ ki, üstün mövqedədir:

1. Ayrıca götürülmüş bir müəssisənin inhisarı;
2. Saziş (razılaşma) formasında inhisar;
3. Məhsulun diferensiyasiyasına əsaslanan inhisar.

---

[171] М.И.Кныш. Конкурентные стратегии. Санкт-Петербург. 2000.- С.48.

[172] Э.Дж.Долан, Д.Е.Линдсей. Рынок: микроэкономическая модель. Санкт-Петербург. 1992.- С.195.

downloaded from KitabYurdu.org

Göründüyü kimi, inhisarın təsnifatında müxtəlif əlamətlərə istinad edən tədqiqatçılar, elə həmin müxtəlifliyə müvafiq gələn qruplaşmalar aparırlar.

Bizim fikrimizcə, inhisarın təsnifatına 5 əlamət üzrə yanaşmaqla, onun növmüxtəlifliyini daha dəqiq ifadə etmək mümkündür (şəkil 11.7). Həmçinin, əlavə olunmalıdır ki, inhisarçı birliklərin 5 əsas təşkilati forması mövcuddur: Kartel, Sindikat, Trest, Konsern, Konqlomerat!

Eyni zamanda, müasir elmi fikirdə inhisar təmayüllərinin yaranma səbəblərinə mövcud olan yanaşmalarda da yekdillik yoxdur. Bu baxımdan, əsasən iki diametral əks istiqamətli baxışlar mövcuddur:

1.İnhisarizm bazar iqtisadiyyatına xas olan keyfiyyət deyil, təsadüfi hadisədir;

2. İnhisarizm qanunauyğun hadisədir.




***Şəkil 11.7. İnhisarın müxtəlif əlamətlər üzrə təsnifatı***

downloaded from KitabYurdu.org

A.Piqu yazır: «...İnhisarçı hakimiyyət təsadüfi meydana çıxmamışdır... O, müəssisənin strategiyasının məntiqi nəticəsidir»[173].

Apardığımız araşdırmalara əlavə olaraq qeyd etməyi zəruri sayırıq ki, müasir elmi fikir inhisarizm təmayüllərini iki amillə bağlayır:

1. Mənfəətin maksimumlaşdırılması «qanunu»;

2. Kapitalın təmərküzləşməsi «qanunu».

İnhisarlaşma bazarın bütün inkişaf mərhələlərində mövcud olmuş və olmaqda da davam edir. Əslində, inhisarçı fəaliyyət həm məzmun, həm də mahiyyətcə bazar prosesinin ayrılmaz tərkib ünsürüdür. Bir sıra iqtisadçılar inhisarın ən yeni tarixinin iqtisadi böhranlarla (1873-cü il) başladığını, böhranın inhisarlaşma prosesini hərəkətə gətirən amil olduğunu xüsusi vurğu ilə qeyd edirlər. Hətta o dərəcədə ki, inhisar «böhranın uşağı» hesab edilir. Bu səpgili yanaşmalar daha çox XIX əsrin sonlarında geniş yayılmışdır.

İnhisarçı mövqeyə canatma sahibkarlıq fəaliyyətinin daxili təbiətindən doğan zərurətdir. Əvvəla, ona görə ki, real bazar münasibətlərinin mövcud olduğu bir şəraitdə dövlətin iqtisadi proseslərə müdaxiləsi, ələlxüsus real məzmunlu rəqabət mühitinin formalaşdırılması, yaxud bu istiqamətdə qismən nail olunmuş situasiyanın qorunub saxlanması son dərəcə problematikdir. Makroiqtisadi tənzimləmə mikro- və mezo səviyyələrdə subyektlərarası münasibətlərin qarşılıqlı faydalılıq bazasında təşəkkülü üçün qətiyyən yetərli deyildir. Deməli, yuxarıda təsvir etdiyimiz yönümdə makromühitin hər bir ayrıca götürülmüş bazar subyekti üçün əlverişli olma ehtimalı sıfıra yaxındır. Eləcə də, forma və növündən asılı olmayaraq bütün kəskinliyi ilə gedən rəqabət mübarizəsi nəinki orta və uzunmüddətli vaxt intervalında, o hətta ən qısa zaman kəsiyində də iqtisadi fəaliyyətin effektivliyini əvvəlcədən birmənalı şəkildə qiymətləndirməyə imkan vermir. Mahiyyətcə, sahibkarın bilmək istədiyi nəticələr Qeyri-müəyyənlik→Rəqabət→Qeyri-müəyyənlik triadasının formalaşdırdığı anlaşılmazlığa qərq olur.

Problemin qəlizliyi ondadır ki, qeyri-müəyyənlikdən doğan rəqabətin (nəticəsi məlum olan şey rəqabət doğurmaz) özü də qeyri-müəyyənlik doğurur.

Göründüyü kimi, inhisar prosesinə metodoloji yanaşmanın qısa xülasəsi də sübuta yetirir ki, inhisarlaşma, hər şeydən əvvəl, qeyri-müəyyənlikdən qaçma cəhdi kimi təzahür edir. Kəmiyyət ölçüsü olan

---

[173] А.Пигу. Экономическая теория благосостояния. Т.1, М., 1985.- С.326.

downloaded from KitabYurdu.org

maddiyyatın rasional karkulyasiyasının aparılması mümkünsüz olan prosesdaxili «intriqalarda» onun itirilmə təhlükəsi əlahiddə mövqe qazanma istəyini tamamilə təbii bir istək keyfiyyətində ortalığa çıxarır.

Beləliklə, hər hansı bir bazar subyektinin inhisarçı mövqe uğrunda çarpışmasında «qəbahətli» heç nə yoxdur. Ona görə ki, inhisarçı mövqe ən azı aşağıdakılara nail olmaq imkanı yaradır:

1. Konkret mal bazarında rəqabətin məhdudlaşdırılması, onun müəyyən mənada «əhliləşdirməsi»;

2. Qeyri-müəyyənliyin əhatə dairəsini əhəmiyyətli dərəcədə daraltmaqla bir sıra problemlər və risklərdən uzaqlaşmaq imkanı;

3. Bazarda hökmran mövqeyə nailolma və iqtisadi gücü öz əlində cəmləşdirmək;

4. Bazardakı «oyun qaydalarını» diqtəetmə imkanı;

5. Bazar subyektlərinə, hətta ümummilli mənafelərə öz maraqları prizmasından təsir göstərmək imkanı;

6. Qiymətqoymada liderlik;

7. Yüksək inhisar mənfəəti əldə etmə imkanı və s.

Həmçinin, inhisarlaşmanın bazar iqtisadiyyatı üçün yabançı bir proses olduğunu iddia edənlərin də müəyyən arqumentləri olmamış deyildir. Burada, sadəcə olaraq, eyni anlayışa fərqli baxışlar ön plana çıxarılır. Belə ki, müasir elmi fikirdə iqtisadi liberalizm əksər hallarda ideoloji liberalizmlə eyni mahiyyət daşıyan anlayışlar kimi səsləndirilir. Aydındır ki, məhz «liberal» prizmadan iqtisadi münasibətlərin və bazarın sərbəstliyi mütləq anlamda dərk edilməməlidir və edilmir də! Axı, bazarın, əgər belə demək caizdirsə, mütləq hökmranlığı demokratiya ilə qətiyyən bir araya sığmır və nəticə etibarilə, «hakimiyyətin» iri kapitalın «əsarətinə» keçməsinə gətirib çıxarır. Həmin məntiqi zəncirin hərəkətə gətirdiyi proses, yəni «azad» və məhdudiyyətsiz rəqabətin inhisarlaşma ilə yekunlaşması labüdləşir. Problemin məhz bu miqyasda qoyuluşu bir sıra amillər baxımından qaçılmazdır. Belə ki, əvvəla, inhisar, yaxud inhisarlaşma prosesi nəinki bazar demokratiyasına, yaxud bazar münasibətlərinin demokratikliyinə öldürücü zərbə endirir, həmçinin şəxsiyyət azadlığını məhdudlaşdırır. İkincisi, qeyd edilən yönümdə proseslərin inkişafı cəmiyyət üzərində azsaylı «sahibkar» inhisarının formalaşmasına gətirib çıxaracaqdır.

Ümumiyyətlə, bazar sərbəstliyi, yaxud azadlığı keyfiyyətinə canatmaq ən azı məntiqi antinomiya doğurur. Öz mahiyyəti etibarilə bazar demokratik dəyərlər sisteminə aid deyil (sözün mütləq mənasında). Tam «azad» bazar demokratiyanı məhv edir.

downloaded from KitabYurdu.org

Bazara yanaşmada, tənzimləmə nöqteyi-nəzərindən, kritik nöqtə istehsalçı diktatının, yaxud sahibkar ağalığının yaranması prosesinin start xəttidir. Məhz bu xəttdən sonra anarxiya gəlir. Məhz bu proses bazarın fiaskosu ilə, yaxud özü-özünü məhv etməsi ilə nəticələnir.

Beləliklə, əgər heç bir məhdudiyyətsiz fəaliyyət göstərən bazar əks-demokratik mahiyyət daşıyırsa, onda sosial-siyasi və iqtisadi münasibətlər kompleksinin normal mütənasibliyi məzmunca elə bazar kortəbiiliyinin aradan qaldırılmasına söykənməlidir. Belə ki, qeyd etdiyimiz qərarlaşmanın baza müstəvisi bazar münasibətləri ilə şəxsiyyət azadlığının dialektik vəhdətindən qaynaqlanır.

Digər tərəfdən, araşdırdığımız problemə fərqli nəzəri baza əsasında yanaşmaqla, tamamilə fərqli nəticələr əldə edə bilərik. Belə ki, inhisar fenomeninə sinergetik yanaşma mahiyyətcə, həm prosesin start anını, həm də nəticədə meydana çıxan «yaranışı» fərqli müstəvidə şərh edir. Bu konsepsiyanın məntiqindən çıxış etsək, onda belə alınır ki, XX əsrin 30-cu illərinə qədər formalaşmış inhisarlar bazarda meydana gələn fluktasiya proseslərini öz gücü ilə neytrallaşdıraraq milli iqtisadiyyatların sabit, dayanıqlı inkişafında mühüm rol oynamışlar.

Amma, digər tərəfdən, inhisarlar labüd surətdə tələb və təklif arasında kəskin natarazlığın aramsız olaraq təkrar istehsalına, başqa sözlə, defisitin təkrarlana-təkrarlana artımına səbəb olurlar ki, nəticədə də iqtisadi sistem illər keçdikcə özünün hipotetik tarazlıq vəziyyətindən daha çox uzaqlaşır. Beləliklə, inhisarın özü fluktasiya prosesinin məntiqi nəticəsi keyfiyyətində meydana çıxır. Həmin məntiqlə davam etsək, deməli natarazlığın daha da güclənməsi özünün böhran həddinə çatanda (bifurkasiya nöqtəsi) xaos başlanır və bundan sonra iqtisadi sistemin özünü təşkili prosesi start götürür. Yeni tipli qaydalar meydana çıxır və iqtisadiyyat ya qapalı, ya da açıq (mümkün variantlar çoxluğundan hansı alternativin prioritet mövqeyə çıxmasından asılı olaraq) tipli səciyyə daşımağa başlayır. Beləliklə, sinergetik konsepsiya birmənalı şəkildə bəyan edir ki, inhisar öz məzmunu etibarilə tamamilə fərqli və müxtəlif iqtisadi sistemlər formalaşdıra bilər. Göründüyü kimi, bu problemə bizim yanaşma tərzimiz yekun olaraq sinergetik baxışla üst-üstə düşür.

downloaded from KitabYurdu.org

## XII fəsil. Dünya iqtisadiyyatının inkişaf mərhələləri

Dünya iqtisadiyyatının sistemli yaranış kimi genezisi, qərarlaşması və inkişaf dövrünü beş mərhələyə bölmək olar:

**I. Dünya iqtisadiyyatının genezisi:**

**I mərhələ** (XVI-XIX əsrlər) – dünya iqtisadiyyatının genezisinin başlanğıc dövrü hesab olunur.

Böyük coğrafi kəşflər, müstəmləkə sisteminin yaranması real mahiyyət kəsb etməkdə olan bazar münasibətlərinin coğrafi genişlənməsində və dayanıqlı xarakter almasında xüsusi rol oynamışdır. Bazar münasibətlərinin dayanıqlılığı bir tərəfdən natural təsərrüfat tipinin tədrici dağılması və yeni münasibətlərin meydana gəlməsi, digər tərəfdən xarici ticarətin intensif inkişafı ilə determinə olunur. Əslində, sözügedən dövrdə dünya iqtisadiyyatı ölkələrarası, ələlxüsus metropoliya və müstəmləkələrarası qarşılıqlı ticarət əlaqələrinin məcmusu keyfiyyətində çıxış edirdi.

**II. Dünya iqtisadiyyatının qərarlaşması:**

**II mərhələ** (1870-1913-cü illər). Təbiidir ki, dünya iqtisadiyyatının genezisi prosesinin, o cümlədən “klassik” bazarın təşəkkülünün əsas ağırlıq mərkəzi natural təsərrüfat tipinin əmtəə istehsalı ilə əvəzlənməsi olunmuşdur. Əmtəə istehsalının genezisi neolit inqilabından tutmuş XIX əsrin birinci yarısına qədər davam etmiş və məhz həmin dövrdə özünün yetkin formasını almışdır (şəkil 12.1).

downloaded from KitabYurdu.org




***Şəkil 12.1. Əmtəə istehsalının genezisi tarixi müstəvidə***

downloaded from KitabYurdu.org

***(Neolit inqilabından bugünə qədər).***

Planetar səviyyədə qarşılıqlı ticarət əlaqələri ilə yanaşı, bütövlükdə iqtisadi münasibətlərin formalaşması, istehsal amillərinin: kapital, işçi qüvvəsi və s. beynəlxalq miqrasiyasının inkişafı, ümumiyyətlə, ictimai-iqtisadi həyatın beynəlmiləlləşməsi dövrünü özündə ehtiva edir. Məsələn, 1870-ci ildən 1913-cü ilə qədər Avropadan emiqrasiya edənlərin sayı 36 mln. nəfərdən çox olmuşdur ki, bunun da 2/3-ü Amerikaya getmişdir. 1914-cü ildə uzunmüddətli xarici investisiyaların həcmi 44 mlrd. dollara çatmışdır. Portfel investisiyaları inkişaf yoluna qədəm qoymuşdur. 1913-cü ildə Londonda satılan xarici qiymətli kağızların xüsusi çəkisi 59%, Fransada (1908-ci ildə) 53% təşkil etmişdir. İstehsal əməkdaşlığının inkişafı dünya iqtisadiyyatının formalaşmasında əhəmiyyətli rol oynamışdır. Birbaşa xarici investisiyaların ixrac həcmi sürətlə artmağa başlamışdı. Əsas ixracatçılar kimi Böyük Britaniya (45%) və ABŞ (20%) çıxış edirdi. Ümumiyyətlə, birbaşa investisiyaların əsas axını inkişaf etmiş ölkələrdə toplanmışdı.

İstehsal və kapitalın təmərgüzləşməsi, inhisarçı birliklərin yaranması dünya iqtisadiyyatının sistemli yaranışa çevrilməsində həlledici rol oynamışdır.

II mərhələ - dünya iqtisadiyyatının metropoliya və müstəmləkələr, eləcə də inkişaf etmiş ölkələrin öz aralarında formalaşmış beynəlxalq iqtisadi münasibətlərin məcmusu kimi səciyyələndirir.

Aydındır ki, ilkin olaraq ayrıca götürülmüş bir ölkə, yaxud region çərçivəsində iqtisadi əlaqələr sisteminin bütün spektri formalaşmış, ticarət yeganə bağlayıcı element (sahə və sferalararası) statusunu tamamilə yeni keyfiyyətdə ortalığa qoymaqla istehsal amillərinin (kapital, işçi qüvvəsi və s.) sərbəst hərəkəti yönümündə inteqrativ bağlılıqda olan münasibətlər kompleksini doğurmuşdur. Eyni zamanda, iqtisadi münasibətlərin sosial-iqtisadi həyatın bütün spektrini bir sistem kimi əhatə etməsi prosesi başa çatmışdır (şəkil 12.2).

downloaded from KitabYurdu.org




***Şəkil 12.2. İqtisadi münasibətlər sistemi***

Ümumiyyətlə, iqtisadi münasibətlər – konkret sosial-iqtisadi şəraitdə cəmiyyətin sərəncamında olan və yekun etibarilə mülkiyyət münasibətlərindən çıxış etməklə mövcud resurslardan istifadə üzrə formalaşan münasibətlər sistemidir. İqtisadi münasibətlər – "insan→təbiət" və "insan→insan" qarşılıqlı əlaqələri və qarşılıqlı təsiri prosesinin mahiyyətində dayanan anlayışdır. Alt sistemlər arasında qarşılıqlı bağlılıq təşkilati və idarəetmə sferası vasitəsilə həyata keçirilir.

Dünya iqtisadiyyatının formalaşması sənaye inqilabını keçmiş və keçməkdə olan ölkələrin sürətli inkişafı ilə müşayiət olunurdu. Belə ki, həm dünya, həm də ayrı-ayrı Qərb ölkələrində sənaye istehsalının dinamikası kifayət qədər intensiv xarakter almışdır (cədvəl 12.1).

downloaded from KitabYurdu.org

***Cədvəl 12.1.***
***XIX-XX əsrin əvvəllərində sənaye istehsalının dinamikası (1913=100)***

| *Dövrlər* | *Dünya* | *İngiltərə* | *Almaniya* | *Fransa* | *ABŞ* |
|---|---|---|---|---|---|
| I. XIX əsrin sonu: | | | | | |
| -1870 | 19 | 44 | 34 | 18 | 11 |
| -1890 | 43 | 62 | 56 | 40 | 39 |
| II. XX əsrin əvvəlləri | | | | | |
| - 1900-cü il | 60 | 79 | 66 | 65 | 54 |

Eyni zamanda, dünya sənayesindəki liderlik statusu 1880-ci ildən etibarən ABŞ-a keçmişdir. İngiltərənin (1900-1913-cü illərdə) sənaye istehsalından xüsusi çəkisi azalmış, o, nəinki ABŞ-dan, hətta Almaniyadan da belə geri qalaraq üçüncü yeri tutmuşdur (cədvəl 12.2).

***Cədvəl 12.2***
***Aparıcı ölkələrin dünya sənayesində yeri***

| 1860 | 1870 | 1880 | 1890 | 1900-1913 |
|---|---|---|---|---|
| 1. İngiltərə<br>2. Fransa<br>3. ABŞ<br>4.Almaniya | 1. İngiltərə<br>2. ABŞ<br>3.Fransa<br>4. Almaniya | 1. ABŞ<br>2. İngiltərə<br>3. Almaniya<br>4. Fransa | 1. ABŞ<br>2. İngiltərə<br>3. Almaniya<br>4. Fransa | 1. ABŞ<br>2. Almaniya<br>3. İngiltərə<br>4.Fransa |

Aparıcı ölkələrin dünya sənaye istehsalında xüsusi çəkisinin dinamikasını 12.3 saylı cədvəldən görmək mümkündür.

Göründüyü kimi, 1860-1913-cü illər ərzində İngiltərənin xüsusi çəkisi 22% azalaraq 14%-ə, Fransanın müvafiq göstəricisi isə 6% azalaraq 6% -ə düşmüşdür. Bu dövr ərzində Almaniyanın mövqeyində əhəmiyyətli dəyişikliklər baş verməmiş, ABŞ isə 19% artımla (xüsusi çəki – 36%) lider ölkəyə çevrilmişdir.

downloaded from KitabYurdu.org

***Cədvəl 12.3***

***Aparıcı ölkələrin dünya sənaye istehsalında xüsusi çəkisinin dinamikası (%)***

| ***Ölkələr*** | ***1860*** | ***1870*** | ***1880*** | ***1890*** | ***1900*** | ***1913*** | ***1913-1860-cı ilə nisbətən*** |
|---|---|---|---|---|---|---|---|
| İngiltərə | 36 | 32 | 28 | 22 | 18 | 14 | -22.0 |
| Fransa | 12 | 10 | 9 | 8 | 7 | 6 | -6.0 |
| ABŞ | 17 | 23 | 28 | 31 | 31 | 36 | +19.0 |
| Almaniya | 16 | 13 | 13 | 14 | 16 | 16 | X |
| ***Yerdə qalan dünya ölkələri birlikdə*** | 19 | 22 | 22 | 25 | 28 | 18 | -1.0 |

## §12.1. Qərb ölkələrində industrial iqtisadi sistemə keçid

Qərbin dünya liderliyinə keçidi industrial iqtisadi sistemin qərarlaşmasına paralel sürətdə baş vermişdir.

Məlumdur ki, industrializmə qədərki iqtisadi sistemdə (aqrar iqtisadiyyat) əsas məsələ "sağ qalmağa" yönəldilmiş dəyərlər sisteminin formalaşdırılması olmuşdur. İndustrializmdə isə fəaliyyətin "xaricə" istiqamətləndirilməsi həlledici xarakter daşıyır.

Yeni məzmunlu iqtisadi sistemin formalaşmasının və ümumiyyətlə, mövcudluğunun əsas prioritetləri sırasına aşağıdakıları aid etmək olar:

1. Ümumcəmiyyət miqyasında yeni təmayüllərin meydana çıxması: insan həyatı cəmiyyətin ali dəyərinə çevrilir. Maddi rifahın yüksələn xəttlə yaxşılaşması, iqtisadi sferada əldə olunan nailiyyətlər sosialtutumlu məsələlərin önə çıxmasına, cəmiyyətin keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymasına gətirib çıxarmışdı. "İqtisadi

downloaded from KitabYurdu.org

insan" və onun formalaşdırdığı rasionalizm aparıcı mövqelərə yiyələnmişdir.

2. Təsərrüfat fəaliyyətinin nisbi müstəqilləşməsi, yaxud avtonomluğu; industrializm – cəmiyyətdə plüralizmi inkişaf etdirməklə ictimai həyatın bütün sferalarını, o cümlədən, iqtisadi fəaliyyəti avtonomlaşdırır. İqtisadi həyatın siyasi institutlardan asılılığı və onun məhdudlaşdırılması praktikasına XIX əsrin sonu XX əsrin əvvəllərində son qoyulmuşdu. Sırf xronoloji prizmadan qeyd edilən sferada dövlət nəzarətinin zəifləməsinə hələ XV əsrdə rast gəlinir. XVIII-XIX əsrlərdə isə iqtisadi həyatın asılılıqdan (dövlət nəzarəti) qurtarması istəyi Qərb ölkələrindən əsas prioritetlər sırasına daxil idi.

3. Praqmatizmin ön plana çıxarılması; Qərb ölkələri feodalizmin dağılmağa başladığı andan praqmatizm prinsipini təsərrüfat fəaliyyətində yaranan istənilən problemin həllində əsas prinsip olaraq tətbiq etməyə başladılar. Əsas məqsəd – iqtisadi effektivliyi artırmaq idi. Elm və sənaye arasındakı münasibətlərdə də praqmatizm həlledici rola malik olmuşdu. Elm → sənaye cütlüyünün praqmatik müstəvidə birləşməsi bir tərəfdən yeni məhsulların istehsalına, digər tərəfdən isə istehsalın və əməyin elmi təşkilinə, yeni metodların tətbiqinə gətirib çıxramışdı.

4. Qərb ölkələrində iqtisadi artımın sabitqədəmliliyi:

- Qərb ölkələrində kəskin sıçrayışlar olmamışdı; Məsələn, XIX əsr ərzində sənayenin orta illik artım tempi 3% təşkil etmişdi.[174]

- İqtisadi artım bütövlükdə əhalinin maddi rfahının yaxşılaşdırılmasına təsir göstərirdi. (Yəni, təkcə sahibkarlara deyil). Ayrı –ayrı ölkələrdə yoxsulluğun səviyyəsi 90%-dən 30-20%-ə qədər azalmışdı.[175] Orta təbəqə getdikcə daha çoxsaylı olurdu. İqtisadi rifahın yüksəlişi təhsilin inkişafına güclü təsir göstərmişdi (cədvəl 12.4).

***Cədvəl 12.4***

***Qərb ölkələrində əhalinin savadlılıq dərəcəsi (1850-1900) (%-lə)***

---

[174] Ван Дер Вее. История мировой экономики. М.: Наука, 1995.- С.31

[175] Розенберг Н., Бридцелл. Л.Э. Как Запад стал богатым . Новосибирск: Экар, 1995.- С.13

downloaded from KitabYurdu.org

| **Ölkələr** | **1850** | **1900** | **1900-1850-ci ilə nisbətən (+, - )** |
|---|---|---|---|
| 1.ABŞ (zəncilər nəzərə alınmadan) | 85-90 | 94 | +4.0% |
| 2.Şotlandiya | | | |
| 3.Prussiya | 80 | 97 | +17.0% |
| 4.İngiltərə və Uels | 80 | 88 | +8.0% |
| 5.Fransa | 67-70 | 96 | +26.0% |
| 6.Avstriya (Macarıstanla birlikdə) | 55-60 | 83 | +23.0% |
| 7.Belçika | 55-60 | 77 | +17.0% |
| 8.İtaliya | | | |
| 9.İspaniya | - | 81 | X |
| 10.İsveç | 20-25 | 52 | +27.0% |
| | 25 | 44 | +19.0% |
| | 90 | 99 | +9.0% |

***Mənbə: Rondo Cameron. Concise economic History of the World., Oxford, 1993, p.220.***

5. İnnovasiyanın rolu; Qərb ölkələrində iqtisadi inkişafın amili kimi çıxış edən innovasiyaya əsasən 3 sferanı əhatə edirdi:
   - Ticarətdə innovasiya: Daxili və xarici ticarətin genişlənməsinə, yeni ərazilərin və yeni resursların mal dövriyyəsinə daxil edilməsinə, ticarətin infrastrukturunun inkişafına səbəb olmuşdu. Məlumdur ki, ticarətin genişlənməsi və inkişafı məntiqi olaraq milli iqtisadiyyatı formalaşdıran əsas amillərdən biridir. Xarici ticarətin genişlənməsi sferasında innovasiya özünü dünyada analoqu olmayan məhsulların yaradılması və mənimsənilməsi, dünya bazarının formalaşmasında mühüm rol oynayan dəniz ticarət yollarının açılmasında büruzə verirdi.
6. Ticarətin infrastrukturu, yaxud ticarətə xidmət edən institutların inkişafı; Ticarətin inkişafı yeni institusional müxanizmlərin yaranmasını sərtləndirirdi:

- Müqavilələrin və mülkiyyət hüququnun hüquqi mühafizəsi;

downloaded from KitabYurdu.org

- Bankların inkişafı;
- Vergiqoyma sisteminin yaranması;
- İqtisadi əməkdaşlığın (nəsillə əlaqədar olmayan) inkişafı;
- İşgüzar dairələrin mənafelərinə uyğun əxlaqi və dini davranış normaları sisteminin formalaşması;

- Texnologiyada innovasiya: Bu aspektdən texnoloji və təşkilati innovasiyaları fərqləndirmək olar. Texnoloji innovasiyalara fabrik istehsalında suyun və buxarın gücündən istifadəni, ağacın dəmir və poladla əvəzlənməsini, rabitə vasitələrindəki innovasiyaları göstərmək olar.

Təşkilati innovasiyasına isə sənətkarlıq emalatxanalarından fabrik istehsalına keçidi aid etmək olar.

Əksər tədqiqatçılar Qərb ölkələrində innovasiya ideyasının meydana gəlməsi səbəbləri, yaxud ideyanın mənbələri kimi aşağıdakıları qeyd edirlər:

1. Elmi tədqiqatlar və NİOKR;
2. Təbii resursların kasadlığı;
3. Formalaşmış iqtisadi tələbatlar;
4. Rəqabət;
5. Dövlətlərarası iqtisadi münasibətlərin formalaşmasına tələbat.

XVIII-XIX əsrlər və XX əsrin əvvəllərində ayrı-ayrı ölkələrin inkişaf xüsusiyyətləri kifayət qədər fərqli məcrada təzahür etmişdir.

### § 12.1.1. Fransa iqtisadiyyatı

Fransada kapitalist münasibətlərinin genezisi XVI əsrdən başlamış XVIII əsrin sonuna qədər davam etmişdi. 1789-cu il Fransız burjua inqilabı yeniliyin köhnəlik (feodalizm) üzərində qələbəsini təmin etmişdi. Elə həmin ildə də insan və vətəndaş hüquqları bəyannaməsi qəbul edildi. Bəyannamə xüsusi mülkiyyəti toxunulmaz elan etdi.

Fransa hökuməti aqrar məsələ ilə bağlı 3 dekret qəbul etdi. Qanunvericiliyin əsas nəticəsi ondan ibarət olmuşdur ki, feodal mülkiyyəti – tam şəkildə aradan qaldırılmasa da - əhəmiyyətli dərəcədə zəiflədilmiş, kəndlilərin torpaq üzərində xüsusi mülkiyyəti təsbit edilmişdi. Kiçik kəndli mülkiyyətinin qərarlaşması ilə kəndli təsərrüfatı iqtisadi həyatda hökmran tipə çevrilmişdi. Digər iqtisadi tədbirlərə möhtəkirliklə mübarizə (maksimal qiymət səviyyəsinin təsbiti) və antiişçi qanunun (Le Şepelye qanunu – 1791-ci il) – tətil, etirazlar və hər cür işçi

downloaded from KitabYurdu.org

ittifaqlarının yaradılmasını qadağan edən qanunun qüvvədə saxlanılması aid idi. 1794-cü il əks-inqilabi çevrilişlə Napoleonun diktaturası (1799-cu il) yarandı. Napoleon proteksionist siyasət yürütməklə Ticarət Palatları, Baş Ticarət Şurası, Fabrik və Zavodların İşləri Üzrə Şura tipli ixtisaslaşmış qurumlar vasitəsilə ticarət və sənayenin inkişafını dəstəkləyirdi. Bu dövrü Fransada sənaye inqilabının başlanğıcı dövrü kimi səciyyələndirmək olar. Fransız sənayesinin inkişafında Napoleon tərəfindən həyata keçirilən (1806-cı il) – İngiltərə və onun müttəfiqlərinə qarşı yönəldilmiş materik blokadası mühüm rol oynamışdı.

İngiltərə ilə hər cür ticarətin qadağan edilməsi vasitəsilə Napoleon təkcə onun zəiflədilməsinə deyil, həmçinin Avropa bazarlarının ələ keçirilməsinə çalışırdı. Bununla belə, materik blokadası fransız sənayesinin bütün sahələrinə eyni cür təsir göstərməmişdir: Xammal bazası olan sahələr (yun, inək və s.) inkişaf etmiş, lakin maşın və xammalın idxalatının (İngiltərədən) dayandırılması sənayenin digər sahələrinə əks-təsir göstərmişdi. Qiymətin yüksəkliyi ucbatından fransız mallarının yeni bazarlara çıxışı gözlənilən effekti verməmişdi.

Napoleon dövründə ölkənin ticarət dövriyyəsi elə bir əhəmiyyətli artıma nail ola bilməmişdi (10-20%). Materik blokadasının arzuedilən nəticələri verməməsi Napoleonu yeridilən siyasətdə müvafiq dəyişikliklər etmək zərurəti qarşısında qoydu: Daha çox zəruri olan ingilis malları və müstəmləkələrdən alınan xammalın idxalatı sferasında xüsusi lisenziya sistemi tətbiq olundu. 1800-cü ildə Napoleonun birbaşa dəstəyi ilə fransız bankı yaradıldı. XIX əsrin əvvəllərindən etibarən bankların dövlət istiqrazları ilə apardıqları əməliyyatlar sürətlə inkişaf etməkdə idi.

Digər tərəfdən, Fransanın iqtisadiyyatına Napoleonun apardığı müharibələr də əhəmiyyətli təsir göstərirdi. Məğlub olmuş ölkələr bir tərəfdən fransız mallarının satış bazarına çevrilir, digər tərəfdən isə fransız iqtisadiyyatının ucuz xammal əlavəsi kimi fəaliyyət göstərirdi. Müharibələrdə məğlub olmuş ölkələrin sərvətinin talan edilməsi ilkin kapital yığımının mühüm mənbələrindən olmuşdur. Eyni zamanda, Napoleonun apardığı müharibələr bütün Avropada feodalizm qalıqlarının aradan qaldırılmasında və kapitalist münasibətlərinin qərarlaşmasında müəyyən rol oynamışdı.

XIX əsrin birinci onilliyində başlanan sənaye inqilabı 1860-cı illərdə iri maşınlı fabrikə keçidlə başa çatdı. İngiltərədən fərqli olaraq fransız sənayeləşməsi bütünlüklə idxal olunan ingilis maşınları əsasında

downloaded from KitabYurdu.org

həyata keçirilirdi. XIX əsrin ortalarına qədər sənaye inqilabı əsasən yüngül sənayeni əhatə edirdi.

Ağır sənayedə inkişaf XIX əsrin 50-60-cı illərindən başlanır. Daş kömür hasilatı, dəmir filizi istehsalının həcmi sabit templərlə artmağa başlamışdı. 1870-ci ildən etibarən ağır sənaye inkişaf templərinə görə yüngül sənayeni geridə buraxmışdı. Belə ki, həmin ildə daş kömür hasilatı 13 mln.tona, çuqun istehsalı – 1.2 mln.tona çatmışdı. XIX əsrin 50-60-cı illərində buxar maşınlarının sayı 4 dəfə artmışdı. Bu dövrdə Fransa artıq özünün inkişaf etmiş maşınqayırma sənayesinə malik idi. Məhz XIX əsrin 50-60-ci illərində ilk dəfə olaraq fransız hökuməti müəssisələrin texniki təchizatına dəstək verməyə başlamışdı: dağ-mədən və toxuculuq sənayesinə ayrı-ayrılıqda 55 mln. frank, metallurgiyaya isə 9 mln. frank vəsait ayrılmışdı. XIX əsrin ortalarında sənayenin inkişaf səviyyəsinə görə Fransa-İngiltərədən sonra – ikinci yeri tuturdu. Bununla belə, qeyd etmək lazımdır ki, İngiltərədən fərqli olaraq Fransada sənaye inqilabı daha ləng sürətlə həyata keçirilirdi ki, bu da müəssisələrin say çoxluğunun saxlanılması və ümumiyyətlə, istehsal, eləcə də kapitalın aşağı səviyyəli təmərgüzləşməsi ilə izah oluna bilər. Fransız sənayesində qadın və uşaq əməyindən geniş sürətdə istifadə olunurdu: XIX əsrin 40-cı illərində pambıq-parça sənayesində çalışanların 52%-i qadınlar və uşaqlar olmuşlar.

***Cədvəl 12.5***

***Fransanın iqtisadi inkişaf dinamikası (1800-1870)***

| *Göstəricilər* | *1800* | *1830* | *1850* | *1870* | *1870/1800-ə nisbətən %-lə* |
|---|---|---|---|---|---|
| 1. Əhali, mln.n | 27.3 | 32.4 | 35.6 | 36.9 | +35.2% |
| 2.Şəhər əhalisinin xüsusi | 20 | - | 25 | 31 | +11% |
| çəkisi (%) | | | | | |
| 3.Kömür istehsalı, mln. t. | - | 1.9 | 4.4 | 13.2 | +6.9(2) dəfə |
| 4.Çuqun istehsalı mln.t. | | | | | |
| 5. Polad istehsalı, min.t. | - | 0.2 | 0.4 | 1.2 | +6.0(2) dəfə |
| 6.Pambıq istehsalı, min | - | - | 1.01 | 0.08 | X |
| kip.(1) | - | 282 | 593 | 593 | +2.1(2) dəfə |
| 7.Dəmiryolunun uzunluğu, | | | | | |
| km | - | 38 | 3130 | 18000 | 473.6 (2) dəfə |
| 8. İxracat, mln.fr. | | | | | |
| 9. İdxalat, mln. fr. | - | 453 | 1068 | 2802 | +6.1(2) dəfə |
| | - | 4898 | 791 | 2867 | +58.5 % (2) |

downloaded from KitabYurdu.org

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | |

***Qeyd: (1) 1 kip=227 kq; (2) 1830-cu illə müqayisədə.***

XIX əsrin 70-ci illərində kapital ixracının artımı və daxili bazar tutumunun azalması sənayenin inkişaf tempini hissediləcək dərəcədə aşağı salmışdı. Kapital ixracatının artımı – daxili bazarın tutumca zəifliyinə görə yerli sənayeyə kapital qoyuluşunun effektiv olmamasına əsaslanırdı ki, bu da yekun etibarilə sənayenin inkişaf tempinə mənfi təsir göstərirdi.

Daxili bazarın tutumunun aşağı səviyyədə olması isə daha çox kənd təsərrüfatının inkişaf xüsusiyyətləri ilə determinə olunurdu.

XIX əsrin ortalarında Fransanın kənd təsərrüfatında kiçik kəndli təsərrüfatı aparıcı mövqedə olmuşdur. Kiçik kəndli təsərrüfatı - əsasən daxilə yönəlik, yəni təsərrüfatdaxili tələbatların ödənilməsi istiqamətində fəaliyyət göstərirdi. Demək olar ki, natural təsərrüfat tipi özünün bütün təfərruatı ilə qalmaqda davam edirdi. Yalnız XIX əsrin 60-cı illərindən etibarən istehsal və kapitalın təmərgüzləşməsi prosesi güclənməyə başladı ki, bu da azsaylı iri fermer təsərrüfatlarının yaranmasına və ön plana çıxmasına şərait yaratdı. Bununla belə, kapitalist münasibətlərin inkişaf prosesində icarənin yarımfeodal forması saxlanmaqda idi.

Eyni zamanda, kəndlilərin böyük əksəriyyəti müflisləşərək müzdlu işçilərə çevrilirdilər.

Torpaq sahibi olan kəndlilər isə böyük ipoteka borcu altında fəaliyyət göstərirdilər.

Bütün bunlar onunla nəticələndi ki, erkən dövrlərdə kənd təsərrüfatı sferasında kapitalist münasibətlərinin formalaşmasına dəstək verən kiçik kəndli təsərrüfatları tezliklə onun əksinə çevrildi. Belə ki, natural təsərrüfatçılğın üstün mövqelərdə olması sənaye mallarının satış bazarının tutumuna mənfi təsir göstərirdi. İri fermer təsərrüfatlarının – digər Avropa ölkələri ilə müqayisədə xüsusi çəkisi əhəmiyyətli dərəcədə aşağı olmuşdur.

Fransa sənayesinin inkişaf tempinə görə İngiltərədən əhəmiyyətli dərəcədə geri qalsa da, ssuda kapitalının dövriyyəsinə görə ön yerlərdən birini tuturdu. Ümumiyyətlə, ilkin dövrlərdə fransız kapitalizmi daha çox sələmçi xarakter daşıyırdı.

downloaded from KitabYurdu.org

XIX əsrin 40-60-cı illərində iri ixtisaslaşmış banklar yaranır. 1848-ci ildə dövlətin dəstəyi ilə kapitalının 2/3 xəzinəyə və bələdiyyələrə mənsub olan 67 milli uçot idarələri yaranmışdır. 1855-ci ildə isə bunlar bir bankda birləşmiş, dövlət və bələdiyyələrə mənsub olan səhmlər özəl sektora verilmişdir. Bu bank, əsasən daxili və xarici ticarəti maliyyələşdirirdi. Eyni zamanda, 1852-ci ildə bir çox ipoteka banklarının birləşməsi nəticəsində torpaq bankı yaradıldı ki, bu da ipoteka kreditlərinin mərkəzi kimi çıxış edirdi. Paralel olaraq, Fransanın müstəmləkələrində də (Əlcəzair, Qvineya və s.) banklar meydana çıxmağa başladı. Paris birjası beynəlxalq səviyyəyə yüksəlmiş, kapital ixracının həcmi (1869-cu ildə) 10 mlrd. frankdan çox olmşdu (müqayisə üçün – İngiltərədə analoji göstərici 1872-ci ildə 15 mlrd. frank təşkil etmişdi).

Xarici ticarət əməliyyatlarına görə də Fransa İngiltərədən sonra ikinci yeri tuturdu. İxracatın əsasını ənənəvi mallar təşkil edirdi. İdxalatda isə sənaye xammalı, maşın və avadanlıqlar üstünlük təşkil edirdi.

1860-cı ilə qədər Fransa Napoleonun yeritdiyi proteksionist siyasəti həyata keçirirdi. Həmin dövrdə gömrük tarifləri bir neçə dəfə yüksəlmişdi. Eyni zamanda, aqrar proteksionizm tətbiq olunurdu. Yalnız XIX əsrin ortalarından başlayaraq azad ticarət siyasətinin tətbiqi istiqamətində müəyyən irəliləyişlər müşahidə olunurdu. Belə ki, sənaye xammalının bəzi növləri üzrə tarif dərəcələri aşağı salınır, taxıl idxalı sərbəstləşdirilirdi və s. Lakin 1871-ci ildə bir sıra iqtisadi səbəblər üzündən Fransa yenidən ptoteksionizm siyasətinə qayıtmışdır.

XIX əsrin 50-60-cı illərində Hind-Çin yarımadası Əlcəzair və Çin Fransanın müstəmləkələrinə çevrildi.

1870-1913-cü illər ərzində Fransanın aparıcı ölkələr sırasına keçməsi müşahidə olunur (cədvəl 12.6).

downloaded from KitabYurdu.org

***Cədvəl 12.6***

***Fransanın iqtisadi inkişaf dinamikası (1870-1913 illər)***

| *Göstəricilər* | *1870* | *1890* | *1900* | *1913* | *1913/1870-ə nisbətən %-lə* |
|---|---|---|---|---|---|
| 1. Əhali, mln. nəfər | 36.9 | 38.4 | 38.9 | 39.8 | + 7.8% |
| 2.Dünya sənayesində xüsusi çəkisi, (%) | 10 | 8 | 7 | 6 | - 4.0% |
| 3. Sənaye istehsalı indeksi (1913=100) | 33 | 51 | 66 | 100 | X |
| 4. Kömür istehsalı, mln. t. | 13.2 | 26.1 | 34.4 | 40.8 | + 3.1 dəfə |
| 5.Çuqun istehsalı, mln.t. | | | | | |
| 6.Pambıq istehsalı, min kip. | 1.2 | 2.0 | 2.7 | 5.2 | +4.3 dəfə |
| 7. Taxıl əkin sahəsi, min ha. | | | | | |
| 8. Taxıl yığımı, mln.kip. | 593 | 1251 | 1589 | 2713 | +4.6 dəfə |
| 9. İxracat, mln.fr. | | | | | |
| 10. İdxalat, mln. fr. | 6348 | 7062 | 6864 | 6542 | +3.0% |
| 11. Kapital ixracı, mlrd. fr. | | | | | |
| | 74.2 | 89.7 | 88.6 | 91.0 | +22.6% |
| | 2802 | 3753 | 4109 | 6880 | +2.4 dəfə |
| | 2867 | 4437 | 4698 | 8421 | +2.9 dəfə |
| | 10.0 | 20 | 30 | 42.5 | +4.2 dəfə |

## §12.1.2. İngiltərə iqtisadiyyatı

İngilis burjua inqilabı (1642-1648) feodal münasibətlərini aradan qaldırmaqla yeni, kapitalist münasibətlərinin qərarlaşması yolundakı maneələri ləğv etdi. Ticarət və sənayenin inkişafını tənzimləyən hüquqi normalar, istehsalın sex quruluşunun qalıqları və s. ləğv edilməklə xarici ticarətin inkişafı, müstəmləkə ələ keçirilməsi prosesinin intensivləşməsi və ümumiyyətlə, ilkin kapital yığımı prosesi XV əsrin sonundan başlayaraq XVIII əsrin ortalarına qədər davam etmişdir. Proses özündə aşağıdakıları ehtiva edirdi:

1. İstehsalçıların (kəndlilər, sənətkarlar) muzdlu işçilərə çevrilməsi, işçi qüvvəsi bazarının yaranması;
2. Kapitalist istehsalına keçid üçün zəruri olan səviyyədə kapital yığımı aparılmış və onun ticarət-sənaye burjuaziyasının əlində təmərgüzləşməsinə nail olunmuşdu.

downloaded from KitabYurdu.org

İngiltərədə ilkin kapital yığımının əsas mənbələri və metodlarına aşağıdakıları aid etmək olar:

1. Kəndli torpaqlarının mülkədarlar tərəfindən zəbt olunması, dövlət mülkiyyətində olan torpaqlarla möhtəkir əməliyyatların aparılması; Bu prosesin nəticəsi olaraq İngiltərədə fermer – icarə sisteminin inkişafı (XVIII əsr) daha sürətli olmuşdur. Natural xarakterli kəndli təsərrüfatları sisteminin ləğvi daxili bazarın genişlənməsində mühüm rol oynamışdır.
2. Müstəmləkələrin istismarı hesabına əldə olunan gəlirlər; Belə ki, ingilis ixracatı 1697-ci ildə 3.5 mln. f.st. olmuşdursa, bu göstərici 1770-ci ildə - 14.2 mln. f.st., 1815-ci ildə isə 58.2 mln. f.st-ə çatmışdı.
3. Dövlət istiqrazları və vergiləri sistemi;
4. Proteksionist siyasət; Proteksionizm İngiltərədə Hollandiyanın dəniz hökmranlığının aradan qaldırılmasına yönəldilmiş Kromvelin naviqasiya aktlarından başlanır (XVII əsrin ortaları). Bu siyasətdən yararlanan ingilis hökuməti milli iqtisadiyyatın gənc və perspektivli sahələrini xarici rəqabətdən qorunmağa çalışırdı.

İlkin kapital yığımı – bir proses olmaq etibarı əsaslı keyfiyyət dəyişikliklərinə gətirib çıxardı (XVIII əsr): işçi qüvvəsi bazarı yarandı, əhəmiyyətli səviyyədə kapital yığımı həyata keçirildi, daxili bazar genişləndi, manufakturalar özünün yetkinlik səviyyəsinə çatdı və iri maşınlı sənayeyə keçid başlandı: detallar üzrə əmək bölgüsü yarandı, istehsal alət və vasitələrinin ixtisaslaşması başlandı, əmək prosesi sadələşdirildi, müəyyən ixtisasa malik mütəxəssislər yetişdirildi və s.

XVIII əsrin 60-cı illərindən etibarən İngiltərədə sənaye inqilabı baş verdi. İngilis sənaye inqilabı iki məqamla səciyyələnir:

1. Əl əməyinin maşınlı istehsalla əvəzlənməsi: Texniki inqilab;
2. Sosial məzmunlu dəyişiklik: əməyin kapitaldan asılılığının real mahiyyətdə meydana çıxması.

Sənaye çevrilişi sənayeləşmə prosesinə güclü təkan verdi. Texniki inqilab, buxar mühərriklərindən istifadə nəinki yüngül və ağır sənaye sahələrində, eləcə də ölkənin nəqliyyat sistemində əsaslı dəyişikliklərə səbəb oldu.

Sənaye inqilabı sənaye istehsalının həcmini görünməmiş dərəcədə artırdı. 1841-ci ildə İngiltərədə 528 mln. funt pambıq xammalı istehsal olunmuşdu. Sənaye istehsalının struktur dəyişiklikləri vüsət almışdı:

downloaded from KitabYurdu.org

kətan istehsalı pambıq-parça istehsalı ilə əvəzləndi, metallurgiya, maşınqayırma, daş kömür və ümumiyyətlə, hasilat sənayesi sürətlə inkişaf etməyə başladı.

Şəhərlərin inkişafı yeni mərhələyə keçdi. Xarici ticarət əlaqələri kəskin şəkildə genişləndi: xarici ticarət dövriyyəsi 30 il ərzində (1770-1800-ci illər) 7-7.5 dəfə artdı. Bununla əlaqədar, İngiltərənin xarici ticarət balansı da müsbət olaraq qalırdı. Eyni zamanda, ixracatın strukturu da dəyişirdi: sənaye malları içərisində yun parçalar liderliyi pambıq parçalara verirdi. İdxalat isə, əsasən pambıq-xammalından və ərzaq məhsullarından ibarət olmuşdu. İlkin olaraq kapitalizmə qədəm qoyan İngiltərə XIX əsrin ikinci yarısından etibarən dünyanın lider ölkəsinə çevrilmişdi. Dünya bazarındakı inhisarçı mövqe xüsusi önəm daşıyırdı. XIX əsrin əvvəllərindən başlayaraq maşın istehsalı kütləvi hal almış və 1843-cü ildən etibarən maşın ixracını qadağan edən hüquqi normaların ləğvi sözügedən sferanı ixracatın əsas sahələrindən birinə çevirmişdi. İngiltərə maşın ixracında inhisarçı mövqeyə yüksəlmişdi: ingilis toxuculuq maşınları buxar mühərrikləri və parovozlar bütün dünyaya yayılmışdı. Eyni zamanda, istehsal prosesinin mexanikləşdirilməsində əldə edilən yüksək səviyyə ingilis parçalarının daha ucuz qiymətə satışına imkan verirdi ki, bu da, mahiyyətcə rəqabət mübarizəsində birinciliyin əldə olunması demək idi. XIX əsrin ortalarında çuqun istehsalı və daş kömür hasilatının həcmi Fransa, Almaniya və ABŞ-ın birgə əldə etdikləri səviyyədən çox olmuşdur.

***Cədvəl 12.7***

***İngiltərənin iqtisadi inkişaf dinamikası (1800-1870)***

| ***Göstəricilər*** | ***1800*** | ***1830*** | ***1850*** | ***1870*** | ***1870/1800-cü ilə nisbətən %-lə*** |
|---|---|---|---|---|---|
| 1. Əhali [1], mln.n | 9.2 | 13.9 | 17.9 | 22.7 | +2.5 dəfə |
| 2.Dünya sənayesində xüsusi çəkisi, (%) | - | - | 39.0 | 32.0 | X |
| 3. Sənaye istehsalı indeksi (1913=100) | - | 20 | 28.5 | 44 | X |
| O cümlədən: | | | | | |
| 3.1 İstehsal vasitələri istehsalı | - | 6.5 | 13.7 | 28.6 | X |
| 3.2 İstehlak şeyləri istehsalı | | | | | |
| 4. Kömür istehsalı, mln. t. | - | 18.9 | 30.3 | 43.3 | X |
| 5.Çuqun istehsalı, mln.t. | | | | | |

downloaded from KitabYurdu.org

| | | | | | |
|---|---|---|---|---|---|
| 6. Polad istehsalı, min.t | 10.1 | 16.0 | 49.0 | 110 | +10.9 dəfə |
| 7.Pambıq istehlakı, min t. | 0.19 | 0.7 | 2.3 | 6.0 | +31.6 dəfə |
| 8.Gəmiqayırma, min. | - | - | - | - | X |
| req. t. | 54.2 | 269.6 | 776 | 1080 | +19.9 dəfə |
| 9.Dəmiryolunun uzunluğu, km | - | - | 134 | 343 | X |
| 10. İxracat, mln.f.st | | | | | |
| 11. İdxalat, mln. f.st | - | 471 | 10653 | - | X |
| 12. Kapital ixracı, mlrd. fr. | | | | | |
| | 24.9 | 61.1 | 175.4 | 199.6 | +8.0 dəfə |
| | 31.8 | 46.2 | 100.4 | 258.8 | +8.1 dəfə |
| | - | - | - | 51.2 | |

***Qeyd: 1) İngiltərə və Uels.***

Dünya sənayesində hökmran mövqelərə yiyələnmək ölkənin elə həmin miqyasda maliyyə gücünə çevrilməsinə səbəb olmuşdu. 1870-ci ildə ölkədə 113 səhmdar bank fəaliyyət göstərirdi. Kapital "bolluğu", digər ölkələrdən daha erkən kapital ixracını həyata keçirmək imkanı verirdi.

XVIII əsrin sonlarına qədər kənd təsərrüfatı ölkənin məcmu tələbatını ödəmək gücündə olmuşdu. Lakin XIX əsrin əvvəllərindən etibarən kənd təsərrüfatı sənaye ilə müqayisədə, geri qalmağa başladı ki, bu da ərzaq məhsulları idxalatının əhəmiyyətli dərəcədə artırılması ilə nəticələndi. 1814-cü ildə qəbul edilmiş "çörək qanunlarına" əsasən qiymətin səviyyəsi müəyyən həddən yuxarı olmayan xarici "çörəyin" idxalatı qadağan edilirdi. Beləliklə, İngiltərə nəinki sənaye, eləcə də aqrar sferada da proteksionist siyasət yeritməyə başlamışdı.

İngilis sənayeçilərinin, "mançestr məktəbinin" "çörək qanunları" əleyhinə apardıqları mübarizə 1846-1848-ci illərdə, həmin qanunların ləğvi ilə nəticələndi. Artıq çörəyin qiyməti milli deyil, dünya bazarının konyukturasından asılı vəziyyətə düşdü. Xarici rəqabətdən qorunmaq məqsədilə fermerlər (1850-ci illərdə) yeni texniki təkmilləşdirmələrə əl atdılar: drenaj işləri, mineral gübrələrdən istifadə, yeni maşınların tətbiqi və s. "Çörək qanunların"dan imtina proteksionizm zəiflənməsinə gətirib çıxardı.

XIX əsrin ortalarında İngiltərə xarici iqtisadi siyasətində kardinal dəyişiklik etdi. Xarici ticarəti məhdudlaşdıran bütün qanunlar ləğv edildi, azad ticarət (free trade) siyasətinə keçildi. Azad ticarət siyasətinə keçid İngiltərənin sənaye istehsalı və bütövlükdə dünya bazarındakı liderliyi əsasında mümkün olmuşdu. Xarici ticarətin genişlənməsində müstəmləkələr önəmli rol oynayırdı. XIX əsrin əvvəllərində Hindistan

downloaded from KitabYurdu.org

tam amilə ələ keçirilmişdi. Sonralar İngiltərə Çinə daxil oldu və Mərkəzi, Qərbi, Cənubi Afrikanın bır sıra regionlarını ələ keçirdi.

1870-1913-cü illər ərzində iqtisadi inkişaf sürəti digər aparıcı ölkələrlə müqayisədə zəifləmiş və İngiltərə liderlik statusunu itirmişdir (cədvəl 12.8).

***Cədvəl 12.8***

***İngiltərənin iqtisadi inkişaf dinamikası (1870-1913)***

| *Göstəricilər* | *1870* | *1890* | *1900* | *1913* | *1913/1870-ə nisbətən %-lə* |
|---|---|---|---|---|---|
| 1. Əhali, mln.n | 25.8 | 32.8 | 36.7 | 41.3 | +1.6 dəfə |
| 2.Dünya sənayesində xüsusi çəkisi, (%) | 32 | 22 | - | - | X |
| 3. Sənaye istehsalı indeksi (1913=100) | 44 | 62 | 79 | 100 | X |
| 4. Kömür istehsalı, mln. t. | 110 | 182 | 225 | 287 | +2.6 dəfə |
| 5.Çuqun istehsalı, mln.t. | | | | | |
| | 8.0 | 7.9 | 9.0 | 10.3 | +28.7 dəfə |
| 6. Polad istehsalı, min.t | | | | | |
| 7. Gəmiqayırma, min. req. t. | 0.2 | 3.6 | 4.9 | 7.7 | +38.5 dəfə |
| 8. Pambıq istehlakı, mln.kvintal | 343 | 813 | 933 | 1200 | +3.5 dəfə |
| 9. İxracat, mln.f.st. | 11 | 15.8 | 1534 | 19.2 | +74.5% |
| 10. İdxalat, mln. f.st. | | | | | |
| | 199.6 | 263.5 | 291.2 | 525.3 | +2.6 dəfə |
| 11. Kapital ixracı, mln.f.st. | | | | | |
| | 258.8 | 356 | 459.9 | 659.2 | +2.5 dəfə |
| | 51.2 | 101.3 | 126.1 | 160,5 | +3.1 dəfə |

downloaded from KitabYurdu.org

## §12.1.3. Amerika Birləşmiş Ştatlarının iqtisadiyyatı

XVI əsrdə ABŞ ərazisi Avropa ölkələri arasında (İspaniya, Portuqaliya, Fransa, Hollandiya, İngiltərə) bölünmüşdü. Müstəmləkəyə çevrilmiş ərazilər iqtisad inkişaf səviyyəsinə görə fərqlənirdi:

1. Şimal əraziləri, yaxud Yeni İngiltərə inkişaf səviyyəsinə görə digərlərindən kifayət qədər üstün idi.
2. Mərkəzi, yaxud orta atlantik əraziləri iri fermer təsərrüfatlarının üstünlük təşkil etdiyi aqrar rayon olmuşdur.
3. Cənub əraziləri isə iri plantasiya təsərrüfatları və qul (zənci) əməyindən geniş istifadə ilə xarakterizə olunurdu.

Bütün XVIII əsr ərzində ilkin kapital yiğimi prosesi getmişdi. İngiltərənin nəzarətində olan regionlarda müşahidə edilən sürətli inkişaf – İngiltərənin özünü narahat etməyə başlamışdı. Belə ki, ingilis hökuməti tabeliyində olan ərazilərin öz mənafeyinə uyğun olaraq aqrar-xammal tipli inkişaf yolu ilə getməsini istəyirdi. Ziddiyyətlərin kəskinləşməsi azadlıq müharibəsi ilə (1775-1782) nəticələndi. Bunun nəticəsində 13 ştatdan ibarət olmaqla müstəqil dövlət - ABŞ yarandı.

Müharibə bir tərəfdən müstəmləkə asılılığına son qoydu, digər tərəfdən isə kapitalizmin qərarlaşması yolundakı bütün maneələri aradan qaldırdı. Mövcudluğunun ilk dövrlərindən başlayaraq ABŞ yeni ərazilər əldə etməyə can atırdı. 1803-1847-ci illər ərzində Şimali Amerikada olan ispan, fransız, ingilis müstəmləkələrini ələ keçirdikdən sonra, 1867-ci ildə 7.2 mln. dollara Alyaskanı Rusiyadan satın almaqla Yeni Dünyanın ən iri dövlətinə çevrildi.

XVIII əsrin sonlarından başlayaraq ABŞ sənayenin intensiv inkişafı yönümündə əhəmiyyətli irəliləyişlərə nail oldu. Sex quruluşunun yoxluğu və ingilislər tərəfindən şimalda tətbiq edilən iri feodal torpaqsahibliyinin aradan qaldırılması sənayenin inkişafında əhəmiyyətli rol oynamışdı. Elə bu dövrdə də sənaye çevrilişi – fabrikə keçid başlandı. Bununla belə, ABŞ-da regional inkişafın qeyri-bərabərliyi sənaye çevrilişinin 1870-1890-cı illərə qədər uzanmasına səbəb oldu.

İlkin dövrlərdə sənaye çevrilişi yüngül sənayeni əhatə etmişdi.

Ağır sənaye, ələlxüsus dağ-mədən və metallurgiya sənayesində müşahidə edilən gerilik daş kömürdən istifadəyə keçməklə (XIX-40-cı illəri) aradan qaldırıldı. 1870-ci illərə qədər istehsal və kapitalın təmərgüzləşməsi prosesi kifayət qədər ləng gedirdi. XIX əsrin 30-cu illərindən sonra dəmiryolu çəkilişinə başlandı.

downloaded from KitabYurdu.org

1850-ci ildə artıq ABŞ dəmiryolunun uzunluğuna görə (14.5 min km) dünyada birinci yerə çıxdı. Sənaye çevrilişi Şimal-Şərq ştatlarında XIX əsrin 50-60-cı ilərində, Qərbdə - 1880-ci ildə, Cənubda isə 1890-cı illərdə başa çatmışdı.

XIX əsr ərzində ABŞ iqtisadiyyatı görünməmiş sürətlə inkişaf etmişdi. Belə ki, 1870-ci ildə 1800-cü ilə nisbətən kömür istehsalı 98.3 dəfə, çuqun istehsalı 42.5 dəfə, pambıq istehlakı 61.2 dəfə və s. artmışdır. Xarici ticarət dövriyyəsi orta hesabla 10 dəfə böyümüşdü (cədvəl 12.9).

1859-cu ildə Pensilvaniyada neft tapılması ilə əlaqədar olaraq neft hasilatı sürətlə inkişaf etməyə başlamışdı.

***Cədvəl 12.9***

***ABŞ-ın iqtisadi inkişaf dinamikası (1800-1870)***

| ***Göstəricilər*** | ***1800*** | ***1830*** | ***1850*** | ***1870*** | ***1870/1800-ə nisbətən %-lə*** |
|---|---|---|---|---|---|
| 1. Əhali, mln.n | 5.3 | 12.9 | 23.3 | 38.7 | +7.3 dəfə |
| 2.Kömür istehsalı, mln. t. | - | 0.3 | 6.3 | 29.5 | +98.3 dəfə[2] |
| 3.Neft hasilatı, mln. qallon[1] | | | | | |
| 4.Çuqun istehsalı, mln.t. | - | - | - | 221 | X |
| 5.Pambıq istehlakı, min kip. | | | | | |
| 6.Dəmiryolunun uzunluğu, km | 0.04 | 0.2 | 0.6 | 1.7 | +42.5 dəfə |
| 7. İxracat, mln. dol. | 19 | 130 | 423 | 1163 | +61.2 dəfə |
| 8. İdxalat, mln.dol. | | | | | |
| | - | 40 | 14500 | 85000 | +2125 dəfə |
| | 36 | 59 | 125 | 377 | +10.5 dəfə |
| | 41 | 50 | 164 | 420 | +10.2 dəfə |

***Qeyd: 1) qallon = 3785 litr; 2) 1830-cu ilə nisbətən.***

Aqrar sferanın inkişafı isə bir sıra xüsusiyyətlərlə səciyyələndirdi. Müstəqillik əldə edildikdən sonra Qərbdə olan ərazilər "ictimai torpaq fondu" elan edildi və sərbəst satışa çıxarıldı. Şimal və cənub arasında, ələlxüsus aqrar sferada təzahür edən ziddiyyətlər vətəndaş müharibəsi ilə (1861-1865) nəticələndi. Müharibə ölkə iqtisadiyyatının normal inkişafı prizmasından mühüm əhəmiyyət kəsb edən dəyişikliklərə gətirib çıxardı: Quldarlıq aradan qaldırıldı, aqrar məsələ fermerlərin xeyrinə həll edildi. 1860-1880-ci illərdə fermerlərə məxsus torpaq sahəsinin həcmi 65 mln. hektara çatdı.

downloaded from KitabYurdu.org

1870-ci ildə amerikan sənayesi istehsalın həcminə görə dünyada ikinci yerə çıxdı (İngiltərədən sonra). Hələ 1850-ci ildə ABŞ aqrar ölkə olmuşdu. Lakin 1880-ci ildə, yəni cəmi 30 il ərzində sənaye istehsalının həcmi dəyər ölçüsündə kənd təsərrüfatı istehsalını 2.5 dəfə qabaqlayırdı.

***Cədvəl 12.10***

***ABŞ-ın iqtisadi inkişaf dinamikası (1870-1913)***

| ***Göstəricilər*** | ***1870*** | ***1890*** | ***1900*** | ***1913*** | ***1913 /1870-ə nisbətən %-lə*** |
|---|---|---|---|---|---|
| 1. Əhali, mln.n | 38.7 | 63.1 | 76.1 | 96.5 | +2.5 dəfə |
| 2.İmmiqrasiya, min.n | 387.2 | 455.3 | 448.6 | 1198 | +3.1 dəfə |
| 3. Dünya sənayesində xüsusi çəkisi, (%) | 23 | 31.0 | 31.0 | 36.0 | +13% |
| 4. Sənaye istehsalı indeksi (1913=100) | 8 | 27.0 | 37.0 | 69.0 | X |
| 5. Kömür istehsalı, mln. t. | 29.5 | 140.9 | 240.8 | 508.9 | +17.2 dəfə |
| 6. Neft istehsalı, mln. t | 0.2 | 1.9 | 2.7 | 10.4 | +52 dəfə |
| 7.Çuqun istehsalı, mln.t. | 1.7 | 9.2 | 13.8 | 31.0 | +18.2 dəfə |
| 8.Polad istehsalı, mln.t | 0.7 | 4.3 | 10.2 | 31.3 | +44.7 dəfə |
| 9.Elektrik enerjisi istehsalı, mlrd. kvt.s | - | - | 5.0 | 17.5 | X |
| 10.Avtomobil istehsalı, min ədəd | - | - | 4.0 | 485 | X |
| 11.Pambıq istehlakı, min t. | - | 2518 | 3873 | 5786 | 2.3 dəfə[2] |
| 12.Taxıl əkin sahəsi, mln.ha | | | | | |
| 13.Taxıl yığımı mln. kvintal[1] | 8.5 | 14.9 | 19.9 | 21.1 | +2.5 dəfə |
| 14.Pambıq əkin sahəsi, mln.ha | | | | | |
| 15.Pambıq yığımı, mln. kvintal | 69.2 | 122.2 | 163.1 | 204 | +2.9 dəfə |
| 16.Dəmiryolunun uzunluğu, min km. | | | | | |
| 17.İxracat, mln.dol | 3.7 | 8.5 | 10.1 | 14.3 | +3.8 dəfə |
| 18.İdxalat, mln.dol | | | | | |
| | 8.7 | 18.6 | 22.0 | 30.7 | +3.5 dəfə |
| | 85 | - | 300 | 413 | +4.8 dəfə |
| | 377 | 846 | 1453 | 2448 | +6.5 dəfə |
| | 420 | 812 | 804 | 1757 | +4.2 dəfə |

***Qeyd: kvintal = 45.36 kq; 1890-cı illə müqayisədə***

downloaded from KitabYurdu.org

1870-1913-cü illər ərzində də ABŞ-ın iqtisadi inkişaf sürəti yüksək olaraq qalmaqda idi. Proseslərin intensivləşməsi, dünya sənaye istehsalında öncül mövqelərə yiyələnmə ABŞ-ın lider ölkəyə çevrilməsi ilə nəticələndi.

### §12.1.4. Almaniyanın iqtisadiyyatı

XVI əsrdən XVIII əsrin sonlarına qədər Almaniya Avropanın ən geridə qalmış ölkəsi olmuşdur.

1760-cı illərdən başlayaraq, dağınıq halda olsa da, manufakturalar meydana çıxmış, lakin ölkənin şərqi, o cümlədən bütövlükdə kənd təsərrüfatı feodal münasibətləri çərçivəsində qalmaqda idi.

XIX əsrin əvvələrindən etibarən Almaniyada iqtisadi durğunluq öz yerini tərəqqiyə verməyə başladı. Pozitiv proseslərin yaranmasında Fransa inqilabı əhəmiyyətli rol oynamışdı. Alman ərazilərini ələ keçirən fransızlar (Napoleonun apardığı müharibələrdə), ilk növbədə, feodal imtiyazlarını ləğv edir, kəndliləri müxtəlif növlü feodal mükəlləfiyyətlərindən azad edirdilər. XIX əsrin birinci yarısında təhkimçilik hüququ aradan qaldırıldı. O cümlədən, aqrar islahatlar çərçivəsində "irsi asılılıq" ləğv edildi (1807-ci il). XIX əsrin 20-ci illərində "kontinental blokada" alman bazarlarından ucuz ingilis mallarının çıxarılmasına şərait yaratmaqla ölkənin metallurgiya və toxuculuq sənayesinin inkişafına müsbət təsir göstərdi. Fransa ilə müharibə başa çatdlqdan sonra indiyə qədər mövcud olmuş 360 dövlətin yerinə Alman İttifaqı (34 monarxiya və 4 azad şəhərdən ibarət olmaqla) yaradıldı.

Vyana konfransı tərəfindən təsis edilən Alman İttifaqı ölkədaxili ticarətin inkişafına güclü təkan verdi. Almaniyada ilk fabriklər yaranmağa başladı. Bununla belə, XIX əsrin ortalarına qədər Almaniyada iqtisadi dirçəliş o qədər də əhəmiyyətli olmamışdı. Əsasən sənətkarlıq və kiçik əmtəə istehsalı xarakterik idi. 1834-cü ildə 18 alman dövlətinin gömrük ittifaqı yaratması gələcək inkişafın institusional təminatına çevrildi. Bazar tutumunun böyüməsi, ticarət əlaqələrinin inkişafı sənaye inqilabına təkan verdi. XIX əsrin ortalarına yaxın Almaniyada 45 iri sənaye müəssisəsi açılmışdı. 1840-cı ildə 1800-cü ilə nisbətən sənaye istehsalının həcmi 2.5 dəfə artdı. 1830-cu ildən başlayaraq dəmiryolu şəbəkəsi yaradıldı.

downloaded from KitabYurdu.org

Aqrar sferada islahatlara başlanıldı. 1850, 1853 və 1857-ci il qanunlarına müvafiq olaraq Prussiyada təhkimçilik hüququ birdəfəlik ləğv edildi. Kəndlilər tərəfindən 1811-ci il qanunu çərçivəsində feodal mükəlləfiyyətlərinin satınalınmasında əldə edilən vəsait ilkin kapital yığımının mühüm mənbələrindən biri kimi çıxış edirdi. XIX əsrin 60-cı illərindən etibarən Almaniya aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrilir.

Çox qısa müddət ərzində sənayeləşmə prosesi vüsət almış və Almaniya İngiltərədən sonra ikinci yerə çıxmışdı.

1870-ci ildə Almaniyanın dünya sənaye istehsalında xüsusi çəkisi 13%-ə çatmış, 1800-cü illə müqayisədə kömür istehsalı 88 dəfə, çuqun istehsalı 3.5 dəfə artmışdı (cədvəl 12.11).

Sənayeləşmə birmənalı olaraq yerli maşınqayırma sahəsinə əsaslanırdı. Məhz elə o dövrdə Almaniyada iri maşınqayırma müəssisələri yaranmağa başladı. 1850-ci illərdə Almaniyanın ixracatı 2,5 dəfə, idxalatı isə 2 dəfə artmışdır. 1850-1870-ci illər ərzində kapital qoyuluşu 10 dəfə artaraq 400 mln. markadan 4 mlrd.markaya çatmışdı. Eyni zamanda, xarici ticarətin strukturunda da əhəmiyyətli dəyişikliklər baş vermişdi. Belə ki, 1864-cü ildə ixracatın 52%-i, idxalatın isə 9,2%-i sənaye məhsullarının payına düşürdü. Almaniya əsasən xammal və ərzaq məhsulları idxal edirdi (61.0%). Bu da sənaye ölkəsinə xas strukturun qərarlaşdığından xəbər verir.

downloaded from KitabYurdu.org

***Cədvəl 12.11***

***Almaniyanın iqtisadi inkişaf dinamikası (1800-1870)***

| ***Göstəricilər*** | ***1800*** | ***1830*** | ***1850*** | ***1870*** | ***1870/1800-cü ilə nisbətən %-lə*** |
|---|---|---|---|---|---|
| 1. Əhali , mln.n | - | - | 35.3 | 40.8 | X |
| 2.Dünya sənayesində xüsusi çəkisi, (%) | - | - | 15 | 13 | X |
| 3.Sənaye istehsalı indeksi (1860=100) | 6 | 23 | 78 | 116 | X |
| 4. Kömür istehsalı, mln. t. | 0.3 | - | 5.2 | 26.4 | +88.0 dəfə |
| 5.Çuqun istehsalı, mln.t. | 0.4 | - | 0.2 | 1.4 | +3.5 dəfə |
| 6. Polad istehsalı, mln.t | - | - | 0.006 | 0.2 | X |
| 7.Pambıq istehlakı, min t. | - | - | 17.8 | 80.9 | X |
| 8.Dəmiryolunun uzunluğu, km | - | - | 6044 | 3575 | X |
| 9. İxracat, mln.m. | | | | | |
| 10. İdxalat, mln. m. | - | - | 519 | - | X |
| | - | - | 545 | - | X |

1870-1913-cü illər Almaniyanın iqtisadi inkişaf tarixində xüsusi yer tutur (cədvəl 12.12). Məhz bu dövrdə Almaniya sənaye istehsalında İngiltərəni qabaqlayaraq ABŞ-dan sonra ikinci yerə çıxmışdı.

***Cədvəl 12.12***

***Almaniyanın iqtisadi inkişaf dinamikası (1870-1913)***

| ***Göstəricilər*** | ***1870*** | ***1890*** | ***1900*** | ***1913*** | ***1913 /1870-ə nisbətən %-lə*** |
|---|---|---|---|---|---|
| 1. Əhali, mln.n | 40.8 | 49.2 | 56 | 67 | +1.6 dəfə |
| 2.Dünya sənayesində xüsusi çəkisi, (%) | 13 | 14 | 16 | 16 | +3.0% |
| 3. Sənaye istehsalı indeksi (1913=100) | 17.5 | 40.3 | 64.7 | 100 | X |
| 4. Kömür istehsalı, mln. t. | 34.0 | 89.3 | 149.8 | 277.3 | +8.1 dəfə |
| 5.Çuqun istehsalı, mln.t. | | | | | |
| 6. Polad istehsalı, mln.t | 1.4 | 4.7 | 8.5 | 19.3 | +13.8 dəfə |
| 7. Pambıq istehlakı, min t. | | | | | |
| 8. İxracat, mln. marka | 0.2 | 2.2 | 6.6 | 18.4 | +92.0 dəfə |
| 9. İdxalat, mln. marka | | | | | |
| | 80.9 | 233 | 307.5 | 486.2 | +6.0 dəfə |
| | - | 3327 | 4611 | 10097 | 3.0 dəfə([1]) |

downloaded from KitabYurdu.org

| | | | | | |
|---|---|---|---|---|---|
| | - | 4146 | 5766 | 10770 | +2.6 dəfə([1]) |

***Qeyd : 1) 1890-cı illə müqayisədə.***

## §12.2. Yaponiyanın iqtisadiyyatı

XIX əsrin 70-ci illərində yapon hökumətinin həyata keçirdiyi bir sıra islahatlar, o cümlədən, feodal imtiyazlarının ləğvi və aqrar sferada yeni mülkədarların (samuraylardan başqa) meydana çıxması kapitalizmin qərarlaşması prosesində müsbət rol oynamışdı.

Yaponiyada sənaye çevrilişi prosesi inhisarçı birliklərin yaradılması ilə paralel şəkildə getmişdi. İlkin inhisarçı birliklər artıq 1880-ci ildə meydana çıxmağa başlamışdı. Dövlət tərəfindən iri sənaye müəssisələrinin özəl sektora verilməsi sənaye kapitalının təmərgüzləşməsi prosesini sürətləndirmişdi.

1872-73-cü illərdə həyata keçirilən aqrar islahatlar kapitalizmin Prussiya yolu ilə qərarlaşmasına gətirib çıxardı (aqrar sferada).

Ölkə daxili bazarı tutumca çox kiçik idi. Xarici ticarətdə kənd təsərrüfatı məhsullarının ixracatı üstünlük təşkil edirdi: İxracatın 50%-i ipək xammalı, 25%-i çay idi.

İdxalatda əsasən hazır sənaye məmulatları, metal və maşınlar üstünlük təşkil edirdi. Bir sözlə, yerli sənayenin geriliyi və birtərəfliliyi yapon iqtisadiyyatını xarici bazarlardan asılı vəziyyətə salmışdı.

***Cədvəl 12.13***

***Yaponiyanın iqtisadi inkişaf dinamikası***

| ***Göstəricilər*** | ***1870*** | ***1890*** | ***1900*** | ***1913*** | ***1913/1870-ə nisbətən %-lə*** |
|---|---|---|---|---|---|
| 1. Əhali, mln.n | 33.1 | 40.5 | 44.8 | 53.4 | +61.3% |
| 2. Kömür istehsalı, mln. t. | - | 2.6 | 7.5 | 21.3 | +8.2 dəfə ([1]) |
| 3. Çuqun istehsalı, mln.t. | | | | | |
| 4. Polad istehsalı, mln.t | - | - | 0.02 | 0.24 | X |
| 5. Mis istehsalı, min.t. | | | | | |
| 6. Pambıq parça dəzgahları, | - | - | 0.001 | 0.25 | X |
| min ədəd. | | | | | |
| 7. Xam ipək istehsalı, mln. | - | 5.8 | 24.3 | 66.5 | +11.5 dəfə ([1]) |
| iyen. | - | 16 | 1135 | 24.4 | +150.9 dəfə ([1]) |
| 8. İxracat, mln. iyen | | | | | |
| 9. İdxalat, mln. iyen | - | - | 59.9 | 199.5 | X |
| | | | | | |
| | 14.5 | 28.4 | 204.4 | 632.5 | +43.6 dəfə |
| | 33.7 | 33.0 | 287.3 | 729.4 | +21.6 dəfə |

downloaded from KitabYurdu.org

***Qeyd: 1) 1890-cı illə müqayisədə***

## §12.3. Hindistanın iqtisadiyyatı

Hindistanda bazar münasibətlərinin qərarlaşması prosesi bütünlüklə müstəmləkə səciyyəsi daşıyırdı.

XVII-XVIII əsrlərdə sənətkarlığın kifayətqədər sürətli inkişafına və texnoloji tərəqqisinə baxmayaraq manufakturaların yaranması ilə nəticələnmədi. Ən geniş yayılmış təşkilati struktur sadə əmək kooperasiyası idi.

İcma münasibətlərinin,ələlxüsus aqrar sferada, dayanıqlılığı feodal rejiminin əsas bazası kimi çıxış edirdi. Məhz icmaçılıq əmtəə təsərrüfatının yaranmasına, sənətkarlığın şəhərlərdə təmərgüzləşməsinə, manufaktura sisteminin formalaşmasına əngəl törədirdi.

Xarici ticarət (son orta əsrlərdə) sürətlə inkişaf edirdi. Lakin Avropadan fərqli olaraq Hindistanda merkantilizm siyasəti yeridilmirdi ki, bu da bazar münasibətlərinin genezisində ifrat ləngliyə gətirib çıxarırdı.

Milli bazarın təşəkkülü, kapital yiğimi və onun sənayeyə qoyuluşu prosesinə siyasi pərakəndəlik və dağınıqlıq da əhəmiyyətli təsir göstərirdi. 1763-cü il Paris sülh müqaviləsindən sonra Fransanın geri çəkilməsi Hindistanın bütövlükdə ingilis müstəmləkəsinə çevrilməsi ilə yekunlaşdı. Müstəmləkə əsarəti Hindistanın metropoliyanın xammal əlavəsinə çevrilməsində müstəsna rol oynamışdı.

Hindistanda sənaye inqilabı XIX əsrin ortalarında başladı. İlk fabrik ingilislər tərəfindən 1815-ci ildə inşa edilmişdir.

Dayanıqlı fəaliyyət göstərən müəssisələr şəbəkəsi isə yalnız 1851-ci ildən meydana çıxmağa başlamışdı. 1879-cu ildə artıq 56 fabrik fəaliyyət göstərirdi.

Sənaye inqilabı ağır sənaye sahələrində də canlanma yaratdı. 1869-cu ildə kömür hasilatı 467 min ton təşkil etmişdir.

Ümumiyyətlə, 1870-ci ilə qədər sənaye inqilabı özünün birinci mərhələsinin çərçivəsindən kənara çıxmamış, yalnız istehsalın bəzi sahələrini, ələlxüsus toxuculuq sənayesini ehtiva edirdi.

Məcmu proseslərin mahiyyət yekunlaşdırılmasından çıxış etməklə Hindistanda bazar münasibətlərinin formalaşması xüsusiyyətlərini aşağıdakı kimi sıralaya bilərik:

1. Feodal münasibətlərinin ifrat dayanıqlılığı;

downloaded from KitabYurdu.org

2. İri kapitalın və işçi qüvvəsinin kifayət həcmdə ehtiyatlarının olmasına baxmayaraq, manufakturlar sistemi geniş şəkildə yayılmamışdır.
3. Sənaye inqilabı böyük yubanmalarla başlamışdı;
4. Hind şəhərləri öz missiyalarını (Avropada olduğu kimi) yerinə yetirə bilmirdi.
5. Ticarət-sələmçi kapital feodallara "xidmət" edir, ya da tədavül sferasından kənara çıxmırdı;
6. Kasta sistemi, quldarlığın qalıqları, kəndlilərin ağır formada torpaq paylarından asılılığı bazar münasibətlərinin qərarlaşmasını əngəlləyirdi;
7. Merkantilizm və kapital yiğiminin xarici mənbələri (Avropadan fərqli olaraq) Hindistan iqtisadiyyatında heç bir rol oynamırdı;
8. Müstəmləkə əsarətinin mövcudluğu yeni münasibətlərin yaranmasına imkan vermirdi.

Beləliklə, Hindistanda bazarın genezisi müstəmləkə xarakteri daşıyırdı. Sənaye inqilabı gec başlamış və bir qayda olaraq, əcnəbi kapitala istinadla həyata keçirilmişdir ki, bu da ölkənin metropoliyanın aqrar-xammal əlavəsinə çevrilməsində mühüm rol oynamışdı.

Sənayenin inkişafı ləng getməklə yanaşı, birtərəfli – monostruktur səciyyəsi daşımışdı.

Əsasən yerli xammalı emal edən sənaye sahələri inkişaf edirdi. Bir sözlə, Hindistan sənaye inqilabının "titul vərəqində"n kənara çıxa bilməmişdi.

## §12.4. Azərbaycan iqtisadiyyatı: XIX əsri sonu -XX əsrin əvvəlləri

1801-1828-ci illər Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı iqtisadiyyatın inkişaf xüsusiyyətlərinə özünəməxsus çalarlar vermişdir.

Türkmənçay müqaviləsindən (1828) sonra sosial-iqtisadi həyatda müəyyən irəliləyişlər müşahidə edilməyə başlamışdır. Əhalinin sayı 20 il ərzində (1832-1850) 300 min nəfər artaraq 1 mln. nəfərə çatmış (əsasən erməni və rusların Azərbaycana köçürülməsi hesabına) şəhərlərin sabitqədəmli inkişafı başlamışdı.

1840-cı illər ərzində imperiyanın pul islahatları nəticəsində rus gümüş manatı əsas valyuta kimi iqtisadi dövriyyəyə daxil edilmişdi. Vahid pul, ölçü və çəki sisteminə keçid, qarşılıqlı iqtisadi əlaqələrdə hələ də qalmaqda olan feodal qaydalarının (məsələn, daxili gömrük rüsumları)

downloaded from KitabYurdu.org

ləğv edilməsi iqtisadi proseslərin intensivləşməsində mühüm rol oynamışdır.

Ölkənin kənd təsərrüfatında müəyyən irəliləyişlər baş verirdi. 1845-ci ildə 23 mln. pud taxıl istehsal edilmiş, mal-qaranın sayı 1843-cü ildəki 823 min başdan 1857-ci ildə 2 mln. başa qədər artmışdır. İpəkçilik – yüksəliş dövrünə qədəm qoymuş, imperiyanın toxuculuq sənayesinin xammalla təchizatını yaxşılaşdırmaq məqsədilə pambıqçılığın inkişafına xüsusi diqqət yetirilirdi. XIX əsrin ikinci yarısında yeyinti istehsalı və sənətkarlığın ənənəvi sahələri – ipəkçilik, toxuculuq, xalçaçılıq, dulusçuluk inkişaf etməkdə idi.

Rusiya imperiyasının işğalı altında olan Şimali Azərbaycanda – imperiyanın digər müstəmləkələri ilə müqayisədə - bazar münasibətləri daha erkən və daha sürətlə təşəkkül tapmaqda idi. Azərbaycan şəhərlərində manufakturanın ilk rüşeymləri hələ XVII əsrin sonu – XVIII əsrin əvvəllərində meydana gəlmişdi. Tarixi mənbələr ö dövrdə təkcə Şamaxıda 500-ə yaxın toxucu dəzgahının olduğunu, ipək parça toxuyan manufakturaların mövcudluğunu təsbit edir.

1829-cu ildə yaradılan ilk ipək manufakturası (dövlətə məxsus idi) 1836-cı ildə özəlləşdirilmiş və “Qafqazda ipəkçiliyi və ticarət sənayeçiliyini yayan cəmiyyət”in ixtiyarına verilmiş, nəticədə müəssisə fabrikə çevrilmişdir. 1854-cü ildə müəssisədə fəaliyyət gösətərən 42 dəzgahın 30-u buxarla hərəkətə gətirilirdi.[176]

XIX əsrin 30-cu illərindən etibarən mədən neftçıxarma sənayesi, 50-ci illərin ortalarında metallurgiya sənayesi yeni – bazar münasibətləri sisteminə qədəm qoymuşdu.

1861-ci ildə imperiya tərəfindən təhkimçilik hüququnun ləğvi ilə Azərbaycan kəndində də yeni münasibətlərə keçid başlanır. Əlbəttə, 1870-ci il aqrar islahatı həm yarımçıq idi, həm də müstəmləkəçi xarakter daşıyırdı.

Bununla belə, sözügedən islahat nəticəsində kəndlilərin şəxsi azadlığa çıxması, torpaq mülkiyyətçisi olmaq hüququnun verilməsi əmtəə-pul təsərrüfatının qərarlaşması yönümündə əlverişli mühit formalaşdırırdı:

1. Aqrar sferada bazar münasibətlərinin formalaşması;
2. Daxili bazarın tutumca genişlənməsi və kənd təsərrüfatı məhsullarının istehsalı üzrə regional əmək bölgüsünün dərinləşməsi;

[176] N.Süleymanov. Azərbaycanın iqtisadi tarixi. Bakı, 2001.- S. 97

downloaded from KitabYurdu.org

3. Aqrar sferada yeni alət və vasitələrdən, maşınlardan istifadə, qabaqcıl aqrotexniki üsulların tətbiqi;
4. Texniki bitkilər istehsalının genişlənməsi;
5. Aqrar sferada muzdlu əməyin tətbiqinin genişlənməsi;
6. Torpaq bazarın formalaşması;
7. Sosial təbəqələşmənin dərinləşməsi və s.

XIX əsrdə Cənubi Qafqazda istehsal edilən taxılın 40% -ni Azərbaycan verirdi.

XIX əsrin sonunda Azərbaycan sənayesi, sözün həqiqi mənasında bazar münasibətləri sisteminə qədəm qoymuşdu.

XX əsrin əvvəllərində kapitalın təmərgüzləşməsi dərəcəsinə və inhisarların inkişaf səviyyəsinə görə Bakı neft sənayesi Rusiyanın iqtisadiyyatında xüsusi yer tuturdu.

I Dünya müharibəsi ərəfəsində "Nobel qardaşları" şirkəti, "Şell" və "Oyl-korporeyşn" kimi ən iri beynəlxalq neft trestləri meydana gəlmişdi. Bakı imperiyanın ən mühüm sənaye və ticarət mərkəzlərindən biri idi. XX əsrin başlanğıcında dünyada hasil edilən neftin 51%, Rusiyada isə 95%-i Bakının payına düşürdü.

***Cədvəl 12.***

***Şimali Azərbaycanda neft hasilatının dinamikası***

| ***İllər / Göstərici*** | ***1870*** | ***1875*** | ***1890*** | ***1901*** | ***1901-ci il (%)*** | |
|---|---|---|---|---|---|---|
| | | | | | 1870-ci ilə nisbətən | 1890-cı ilə nisbətən |
| Neft hasilatı, mln.pud | 1.4 | 5.2 | 242.9 | 489 | +340.2 dəfə | +2.0 dəfə |

Eyni zamanda, həmin dövrdə dünya ölkələrində fəaliyyət göstərən səhmdar şirkətlərin, ticarət evlərinin, firmaların nümayəndəlik və agentlikləri fəaliyyət göstərirdi.

Misal olaraq, "Arşın mallarının daxili və xarici ticarəti", "Reddavay F və K", "Qet-İ", "Savva Morozovun oğlanları K°" və s. şirkətləri göstərmək olar. Həmin dövrdə Azərbaycanda 230 istehlak cəmiyyəti fəaliyyət göstərirdi.[177]

[177] Musayev M.Ə. XX əsrin əvvəllərində Bakı şəhərinin ticarəti – Bakı, "Azərnəşr", 1975.- S. 123.

downloaded from KitabYurdu.org

Eyni zamanda, ticarət evlərinin sayı durmadan artırdı. Belə ki, əgər 1899-cu ildə Bakı şəhərində 38 ticarət evi var idisə, 1904-cü ilin əvvəllərində onların sayı 56-ya, 1910-cu ilin axırlarında 98-ə, 1913-cü ildə 200-ə, 1914-cü ildə 253-ə və 1915-ci ilin axırlarında isə 298-ə çatmışdı.[178]

Ticarət evlərinin əsas kapitalı da sürətlə artmaqda idi. Belə ki, 1898-ci ildə ticarət evlərinin əsas kapitalı 3471min man. olduğu halda, 1913-cü ildə bu məbləğ 15400 min man. təşkil etmişdi. 1913-cü ildə 200 ticarət evinin 30-u istehsalla da məşğul olurdu.

Səhmdar şirkətlərin sayı 73-ə çatmışdı. Bakı birjası müvəffəqiyyətlə fəaliyyət göstərirdi. 1913-cü ildə 139 birincidərəcəli topdan satış ticarət müəssisələrinin 94-ü və ya 60.8%-i ticarət evləri və səhmdar cəmiyyətlərinə məxsus idi.[179] Məhz həmin dövrdə birjada fond əməliyyatları da aparılmağa başlanmışdı. 1897-ci ildə 8347 tacir var idisə, onların sayı 1913-cü ildə 19515 nəfərə çatmışdı. Tacirlərin 50%-dən çoxu etnik azərbaycanlı idi. 1913-cü ildə Bakıda olan I dərəcəli ticarət müəssisələrinin 15.6%-i, III dərəcəli müəssisələrin 52%-i və IV dərəcəli müəssisələrin 69,4%-i azərbaycanlılara məxsus idi.

Göründüyü kimi, XX əsrin birinci yarısında azərbaycanda bazar münasibətləri və bazarın infrastrukturunun formalaşması böyük sürətlə gedirdi.

***Cədvəl 12.15***

***Şimali Azərbaycanın istehsal dinamikası***

| *İllər / Göstərici* | *1900* | *1905* | *1910* | *1913* | *1917* | *1917-ci il (%)* | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | *1900-cu ilə nisbətən* | *1913-cü ilə nisbətən* |

[178] Musayev M.Ə. XX əsrin əvvəllərində Bakı şəhərinin ticarəti – Bakı, “Azərnəşr”, 1975, səh 141.
[179] Yenə orada, səh 171.

downloaded from KitabYurdu.org

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1.Mis filizi hasilatı, mln.pud | 3.7 | 3.5 | 3.2 | 1.9 | 0.2 | -18.5 dəfə | -9.5 dəfə |
| 2.Kükürd və mis kolçedanı istehsalı, min pud; | - | 224.2 | 277.3 | 303.5 | 213.6 | X | -30% |
| 3.Mis istehsalı, min pud. | 147.7 | 82.1 | 95.4 | 78.9 | 118.7 | -19.7% | +49.6 % |
| 4.Daşduz istehsalı, min pud | 190 | 604.5 | 386 | 391 | 344.9 | +1.7 dəfə | |
| 5. Mahlıc istehsalı, mln. pud | 0.87 | 0.62 | 1.7 | 1.8 | 0.6 | | - 11.8% |
| 6.Xam ipək istehsalı, mln.man | 2.0 | - | - | 4.2 | 27.3(¹) | -31.1 % | - 3 dəfə |
| 7.Balıq ovlanması, mln.pud | 0.84(²) | 1.8 | - | 12.8 | 6.6(¹) | +13.6 dəfə | +6.5dəfə |
| 8.Kürü istehsalı, min pud | 53.7(²) | 26.8 | 14.2 | 24.0 | 22.2(¹) | +7.8 dəfə | |
| 9.Şərab istehsalı, mln.vedrə | 1.35 | - | 2.74 | 4.06 | 2.23(³) | -58.7% | -48.5 % |
| 10.Tütündən tənbəki istehsalı, min pud | 10.02 | 9.5 | 14.4 | 12.3 | 12.4(³) | +65.2% | -7.5 % |
| 11.Biyan kökü emalı, mln.pud | - | 0.79 | 1.1 | 2.04 | 1.26(4) | +23.7%<br>X | -45.1%<br>+0.8%<br>-38.3% |

***Qeyd: 1) 1915-ci il; 2)1901-ci il; 3) 1914-cü il; 4) 1916-cı il.***

Cədvəldəki məlumatlardan göründüyü kimi Şimali Azərbaycanın metallurgiya, yüngül və yeyinti sənaye sahələrində artım sürəti sabitqədəmli xarakter daşımamış (1900-1917), dəyişən meyillərlə səciyyələnmişdir (Cədvəl 12.15).

1917-ci ildə baş vermiş Oktyabr çevrilişi Şimali Azərbaycanda formalaşmaqda olan real bazar sisteminin mövcudluğuna son qoydu.

downloaded from KitabYurdu.org

# VI BÖLMƏ

# DÜNYA İQTİSADİYYATININ INKIŞAFI DÖVRÜ

## Fəsil XIII

## Dünya iqtisadiyyatının inkişafı: III mərhələ (1913-1970-ci illər)

### § 13.1 Qlobal inkişafın III mərhələsi haqqında bəzi mülahizələr

əvvəlcədən qeyd etmək lazımdır ki, bir çox təsnifatlarda dünya iqtisadiyyatının inkişafının III mərhələsi I və II Dünya müharibələri dövrü ilə çərçivələnir. Göstərilən yanaşma, ümumiyyətlə iqtisadi tarixin geniş spektrliyinə əsaslanmaqla aparılan yanaşmadır. Qeyd edilən dövr çox böyük itkilərlə müşahidə olumuşdur. Sırf iqtisadi itkilər anlamında həmin dövrün bəşər tarixində analoqu yoxdur. Lakin sözügedən dövrün əlahiddələşməsi yalnız kəmiyyət göstəricilərinə uyğun olaraq aparılır.

Kəmiyyətcə azalma, yaxud çoxalma hələ öz-özlüyündə sistemin keyfiyyətcə yeni mərhələyə keçidi anlamını vermir. Eyni zamanda, kəmiyyət çoxalmaları mexaniki olaraq keyfiyyət yeniləşməsinə gətirib çıxarmır, yaxud bu proses heç də həmişə keyfiyyət yeniləşməsi ilə müşaiyət olunmur.

Düzdür, qeyd edilən yanaşma, ümumiyyətlə, tarixi-iqtisadi prosesin müəyyən "dayanacaqlarla" gedişi nöqteyi-nəzərindən, həmçinin, sırf istorizm (tarixilik) mövqeyindən müəyyən qeyd-şərtlərlə qəbul edilə bilər.

Amma dünya iqtisadiyyatının sistem keyfiyyətində inkişafı prizmasından göstərilən təsnifat (dövrlənmə) birtərəfli xarakter daşıdığı, məzmunlu keyfiyyət aspektini nəzərə almadığı üçün inkişaf mərhələsi (ayrıca bir pillə keyfiyyətində) kimi qəbulu mümkünsüzdür!

Ona görə ki:

1. Dünya iqtisadiyyatı – iqtisadi sistemdir! Dünya iqtisadiyyatının tarixi fənni də məhz həmin sistemin genezisi, formalaşması və inkişaf tarixini öyrənir. Bu baxımdan, mərhələli bölgü birmənalı olaraq keyfiyyət aspektinə istinadla aparılmalıdır.

2. Dünya iqtisadiyyatında (bir sistem olmaq etibarilə) keyfiyyət dəyişikliyi (1970-ci illərdə) – "istehsal" iqtisadiyyatının "xidmət" iqtisadiyyatına keçidi dövründə baş vermişdi.

downloaded from KitabYurdu.org

Dünya iqtisadiyyatının formalaşdığı, qərarlaşdığı andan (XIX əsrin sonu-XX əsrin əvvəlləri) bu ana qədər (1970-ci illərə) kəmiyyət və forma dəyişkənliyi baş vermişdir ki, bunların da dövrlənmə kriteriləri kimi tətbiqi metodoloji aspektdən yalnışdır.

3. "Xidmət" iqtisadiyyatına keçid dünya iqtisadiyyatında, eləcə də bütövlükdə sivil dəyərlər sistemində substansional dəyişikliklərə səbəb oldu və s.

1913-1970-ci illər, əslində dünya iqtisadiyyatının (genezis və qərarlaşma nəzərə alınmadan) bir sistem kimi inkişafında birinci mərhələdir. Bu mərhələni məzmun tutumu baxımında 2 xronoloji dövrə ayırmaq olar:

1. 1913-1938;
2. 1938-1991.

Bu dövrdə ümumbəşəri rifaha birbaşa zərbə vuran bir çox nəhəng tarixi hadisələr baş vermişdir:

1. I Dünya müharibəsi (1914-1918);
2. Dünya iqtisadi böhranı (1929-1933);
3. II dünya müharibəsi (1939-1945);
4. Dünya sosialist sisteminin yaranması (1917-1991).

Bu hadisələrin hər biri ayrı-ayrılıqda böyük təsir gücünə malik olmuş və dünya iqtisadiyyatının sabitqədəmli inkişaf prosesində böyük fəsadlar yaratmışdır.

## § 13.2. I Dünya müharibəsi: səbəbləri və iqtisadi nəticələri

XX əsrin əvvəllərindən etibarən aparıcı ölkələr arasında dünyanın yenidən bölüşdürülməsi, təsir sferalarının genişləndirilməsi, kapital qoyuluşu, xammal mənbələri üzrə ziddiyyətlərin kəskinləşməsi I Dünya müharibəsinə gətirib çıxardı (1914-1918).

Birinci Dünya müharibəsinin səbəbləri sırasına aşağıdakıları aid etmək olar:

1. XX əsrin əvvəllərindən başlayaraq Almaniyanın beynəlxalq səviyyəli siyasi proseslərdən və dünya bazarlarından sıxışdırılması; Məhdud iqtisadi resurslara malik Almaniyanın inkişafı yolundakı maneələrin müharibə ilə aradan qaldırılması zərurətinin yaranması;

downloaded from KitabYurdu.org

2. Təmərgüzləşmiş iri kapital strukturları arasında təsir sferalarının bölgüsü üzrə yaranmış ziddiyyət və onun aradan qaldırılmasında iqtisadi metodların gücsüzlüyü;
3. Lider ölkələrin öz mövqelərini nəyin bahasına olursa-olsun saxlamaq istəyi;
4. Əsas bazarların inhisarlaşması.

Göründüyü kimi, I Dünya müharibəsinin əksər səbəbləri iqtisadi məzmun daşıyır.

İki hərbi blok – Antanta və Avstriya – alman blokları arasında başlanan müharibə 2.0 mlrd. nəfər əhalisi olan 56 ölkəni əhatə edirdi.

Müharibə çox ağır nəticələrlə sonuclandı. 10 mln. nəfər həlak olmuş, 20 mln. nəfər yaralanmışdır. Hərbi əməliyyatlar nəticəsində 500 döyüş, 6 min ticarət gəmisi batırıldı. İqtisadiyyat birmənalı olaraq hərbi relsə keçirilmişdi. 1917-ci ildə Antanta (ABŞ – istisna omaqla) blokunda 13 mln. işçisi olan 40 min müəssisə, Alman-Avstriya blokunda isə 6 mln. işçisi olan 10 min müəssisə hərbiyə işləyirdi.

Müharibə illəri ərzində 30 mln. tüfəng, 1 mln. pulemyot, 150 mindən çox artilleriya qurğusu, 9 min tank, 180 mindən çox təyyarə istehsal olunmuşdu.

Ümumi hərbi xərclər 200 mlrd. doll. (o illərin qiymətləri ilə) təşkil etmişdi ki, bu da qızıl ehtiyatlarından 12 dəfə çox idi.

Müharibə bəşəriyyətin o dövrə qədər əldə etdiyi sərvətlərin 1/3-ni məhv etdi.

Yalnız Yaponiya və ABŞ müharibənin gedişində milli sərvətlərini müvafiq olaraq 25% və 40 % artıra bildi. Yaponiya Cənub-Şərqi Asiyada ticarəti öz inhisarına aldı. ABŞ isə hər iki bloka silah satmaqla dünya qızıl ehtiyatlarının təxminəm 50%-ni ələ keçirdi. Əksər Qərb ölkələri ABŞ-nın borclularına çevrildi.

Müharibə Üçlər İttifaqının (Almaniya, Avstriya-Macarıstan, Osmanlı imperiyası) məğlubiyyəti ilə nəticələndi.

Versal sülh müqaviləsinə (1919) görə Almaniya ərazisinin 1/8-ni, əhalisinin isə 1/10-ni itirdi. Eyni zamanda, Almaniyanın Şərqi və Cənub-Qərbi Afrikadakı müstəmləkələri İngiltərəyə, Kamerun və Toqo isə Fransaya keçdi. Almaniyanın ödəyəcəyi təzminatın məbləğı 132 mlrd. marka həcmində müəyyənləşdirildi. Almaniya ilə bir blokda olan Osmanlı imperiyası ilə Sevr müqaviləsi imzalandı və o, 1923-cü ildə Lozanna müqaviləsi ilə əvəz olundu. Müharibənin gedişi və ondan sonrakı dövrdə Antantanın Avropada türk varlığını məhv etmək istiqamətindəki bütün səyləri nəticəsiz qaldı. Qazi Mustafa Kamal

downloaded from KitabYurdu.org

Atatürkün rəhbərliyi altında verilən mücadilə möhtəşəm Türk dövlətinin – Türkiyə Respublikasının yaranması ilə nəticələndi.

Sosial-iqtisadi aspekt də əlavə olunmaqla I Dünya müharibəsinin əsas nəticələri sırasına aşağıdakıları da aid etmək olar:

1. Rusiyada Oktyabr çevrilişi ilə beynəlxalq səviyyədə siyasi situasiyanın gərginləşməsi;
2. Əsas iqtisadi resursların kəskin şəkildə azalması;
3. Ekoloji situasiyanın pisləşməsi;
4. Təsir sferalarının yenidən bölgüsü;
5. Bazarların və istehsal sferasının struktur dəyişiklikləri.

I Dünya müharibəsinin vurduğu iqtisadi zərərin aradan qaldırıldığı, aparıcı ölkələrin dinamik inkişaf yoluna qədəm qoyduqları andan (1929-cu il) "Böyük durğunluq" adlanan planetar səviyyəli iqtisadi böhran başladı.

## § 13.3. Böyük depressiya (1929-1933)

1929-cu ildə baş verən dünya iqtisadi böhranı kifayətqədər fəallaşmış məcmu iqtisadi proseslərin normal gedişini dayandırdı. 1929-33-cü illər böhranı istehsal →istehlak cütlüyündə yaranan ziddiyyətlər kompleksindən qaynaqlanmışdır. Əslində, söhbət geniş təkrar istehsal prosesinin sistemli gedişinin pozulmasından, ayrı-ayrı elementlər səviyyəsində əlahiddələşmədən, XIX əsrin sonundan başlanan ictimaişləşmə tipinin böhranından gedirdi.

İqtisadi böhran – "görünməyən əlin" effekt yaratma mexanizmə olan inamı sarsıtdı. Özünütənzimlənmənin sərhədsiz olmadığını, onun mütləq dövlət tənzimlənməsi ilə optimal uyğunluğa gətirilməsi zəruriliyini ortalığa qoydu.

***Cədvəl 13.1***

***1929-1933-cü illər böhranı: sənaye istehsalı indeksi (1913=100)***

| *İllər* | *Dünya (¹)* | *İngiltərə* | *Fransa* | *Almaniya* | *ABŞ* |
|---|---|---|---|---|---|
| 1929- böhranın başlanğıcı il | 150 | 104.4 | 144 | 108.3 | 182.6 |
| 1933– böhrandan çıxış ili | 84 | 70.7 | 92 | 51.8 | 81.2 |

downloaded from KitabYurdu.org

***Qeyd: SSRİ nəzərə alınmadan.***

Cədvəldəki məlumatlardan göründüyü kimi, böhran illərində sənaye istehsalı əksər inkişaf etmiş ölkələr üzrə hətta 1913-cü il səviyyəsindən də aşağı düşmüşdü.

Ən çox azalma Almaniyada baş vermişdir. Zatən, Almaniya I dünya müharibəsindəki məğlubiyyətindən sonra yenicə dirçəlməyə başlamış, 1913-cü il səviyyəsini azca ötməklə normal inkişaf yoluna qədəm qoymuşdu.

## §13.4. Qərb ölkələri müharibələrarası (I və II Dünya müharibələri) dövrdə

### § 13.4.1. ABŞ iqtisadiyyatı

1929-33-cü illərdə baş vermiş iqtisadi böhran Nyu-Yorkun Fond birjasından başlamaqla bank sistemini, sənayeni və kənd təsərrüfatını əhatə etməklə dünya iqtisadiyyatını əməlli-başlı silkələdi. Böhranın ən ağır təsir etdiyi ölkə ABŞ idi. Böhranaqədərki dövrdə ABŞ dünyanın lider ölkəsinə çevrilmiş, bütün Avropanı viran qoyan I Dünya müharibəsindən daha da güclənmiş halda çıxmışdı (Cədvəl 13. 2).

Cədvəldəki məlumatlardan göründüyü kimi, 1929-cu ildə (1913-cü illə müqayisədə) əksər göstəricilər üzrə kəskin artım müşahidə edilirdi. Neft hasilatı 8 dəfə, çuqun istehsalı 37.4%, polad istehsalı 80.0%, avtomobil istehsalı 11.1 dəfə, ixracat 2.1 dəfə, idxalat 2.4 dəfə və s. artmışdı.

1932-ci ildə isə ABŞ-da məcmu sənaye istehsalı 46%, o cümlədən, çuqun istehsalı 79%, polad istehsalı 76%, avtomobil istehsalı 80% aşağı düşmüşdü.

Böhran illəri ərzində (1929-33) 135 mindən çox ticarət, maliyyə və sənaye firmaları, 5760 bank müflisləşdi. Xarici ticarət dövriyyəsi 3.1 dəfə azaldı. Əksər göstəricilərə görə ölkə 1911-ci ilin səviyyəsinə düşdü. Səhmlərin məzənnəsinin aşağı düşməsi 25 mln. nəfərin yaşayış səviyyəsinə kəskin şəkildə mənfi təsir göstərdi. İşsizlərin sayı 50%-ə qədər artdı. Böhran aqrar sferada da böyük fəsadlar doğurdu. 1934-cü ildə taxıl yığımı 36%, qarğıdalı yığımı 45% azaldı, kənd təsərrüfatı məhsullarının satış qiyməti 58% aşağı düşdü, 1 mln.-dan çox fermer müflisləşdi.

downloaded from KitabYurdu.org

***Cədvəl 13.2***

***ABŞ-ın iqtisadi inkişaf dinamikası (1913-1938)***

| *Göstəricilər* | *1913* | *1918* | *1929* | *1938* | *1938 /1913-cü ilə nisbətən %-lə* |
|---|---|---|---|---|---|
| 1. Əhali, mln.n | 96.5 | 104 | 122 | 130 | +34.7% |
| 2. Sənaye istehsalı indeksi (1923-1925=100) | 69 | 83 | 119 | 105 | X |
| 3. Kömür istehsalı, mln. t. | 508.9 | 605.5 | 543.7 | 355 | -30.3% |
| 4. Neft hasilatı, mln. barrel | 10.4 | 31.5 | 83.9 | 91.5 | +8.8 dəfə |
| 5. Çuqun istehsalı mln.t. | 31.0 | 39.1 | 42.6 | 19.5 | -37.1% |
| 6. Polad istehsalı, mln.t | 31.3 | 44.5 | 56.4 | 28.8 | -8.0 % |
| 7. Avtomobil istehsalı, min ədəd | 0.485 | 1.2 | 5.4 | 4.8 | +9.9 dəfə |
| 8. Pambıq istehlakı, min kip. | 5786 | 7685 | 7970 | 5914 | +2.2% |
| 9. Taxıl yığımı, mln. kvintal | 204 | 246.1 | 223.8 | 194.7 | -4.6% |
| 10. Pambıq əkin sahəsi, mln.ha | | | | | |
| 11. Pambıq yığımı, mln. kvintal | 14.3 | 14.2 | 17.5 | 11.1 | -22.4% |
| 12.İxracat, mln.dol | 30.7 | 26.1 | 32.1 | 27.5 | -10.5% |
| 13.İdxalat, mln.dol | | | | | |
| | 2448 | 6048 | 5157 | 3300 | +34.8% |
| | 1757 | 2930 | 4315 | 3100 | +76.4% |

Bu dövrə qədərki zaman intervalında liberal dəyərlərin hüdudsuz tətbiqi, fərdiyyətçiliyinin "mütləqləşməsi" müşahidə olunur, iqtisadiyyatın dövlət tənzimlənməsi birmənalı şəkildə rədd edilirdi.

Yaranmış böhran situasiyasından çıxış yolu axtaran Amerika hökuməti (Prezident Q.Quver) ilkin olaraq ticarət proteksionizminin tətbiqi ilə kifayətləndi. O, hesab edirdi ki, 60 gün ərzində ölkə böhrandan çıxa biləcəkdir. Lakin böhran getdikcə dərinləşməkdə idi.

1931-ci ildə müflisləşməni önləmək məqsədilə bankların (eləcə də, sənaye və nəqliyyat müəssisələrinin) dövlət tərəfindən kreditləşdirilməsinə cəhd edildi. Bu məqsədlə yaradılmış Milli kredit korporasiyası (3.5 mlrd. dol. kapitalla), "Federal fermer bürosu" müəyyən işlər görə bilmişdi. Büronun əsas vəzifəsi kənd təsərrüfatı məhsullarının qiymətlərini dəstəkləməkdən ibarət idi. Lakin bu

downloaded from KitabYurdu.org

istiqamətdəki fəaliyyət yekun etibarilə heç bir effekt vermədi. 1933-cü ildə işsizlərin sayı artıq 17 mln. nəfəri keçmişdi.

Elə həmin il ABŞ-ın prezidenti seçilmiş F.D. Ruzvelt vəziyyətdən çıxmaq istiqamətində irihəcmli islahtalara başladı.

F.D.Ruzveltin "Yeni kursu" bəşər tarixinə ən effektiv islahat sistemlərindən biri kimi daxil olmuşdur. D.Keynsin nəzəriyyəsinə istinadla "Yeni kurs" geniş təkrar istehsal prosesinin dövlət tənzimlənməsinin zəruriliyini ön plana çıxardı.

Amerika hökumətinin qeyd edilən yönümdə həyata keçirdiyi yeni iqtisadi siyasət, geniş təkrar istehsal prosesinə aktiv dövlət müdaxiləsi əsas məqsəd kimi götürməklə, 3 prinsipə söykənirdi: 1. planlaşdırma; 2. sosial həmrəylik və sosial əməkdaşlıq; 3. digər ölkələrlə mehriban qonşuluq. "Yeni kursun" həyata keçirilməsi dövrü iki mərhələdən ibarət idi:

1. İlkin mərhələ - 1933-1935-ci illər;
2. İkinci mərhələ - 1935-ci ildən sonrakı dövr.

"Yeni kurs" ABŞ-ın yenidən dünya liderliyinə qayıdışını təmin etdi.

### § 13.4.2. Almaniya iqtisadiyyatı

I Dünya müharibəsində məğlubiyyət və Versal sülh müqaviləsinin ağır şərtləri Almaniyanın iqtisadi həyatına öldürücü təsir göstərmişdi. Müharibədə 2 mln. alman həlak olmuş, 1.5 mln. yaralanmış, 1 mln.-a qədər isə epidemiya və aclıqdan ölmüşdü. Ölkədə iqtisadi xaos başlanmışdı. Versal sülh müqaviləsinə görə Almaniyadan alınan ərazilər daş kömür hasilatının 25%-ni, dəmir filizinin 75%-ni, poladın 35%-ni və s. verirdi.

1913-cü illə müqayisədə məcmu sənaye istehsalının həcmi 43% aşağı düşmüşdü. Sənaye istehsalın azalması, daxili bazarın tutumca daralması, qiymət artımı, real əməkhaqqının 25% aşağı düşməsi kütləvi işsizliklə müşayiət olunurdu.

Maliyyə sistemi dağılmış, inflyasiya sürətlə yüksəlirdi.

1923-cü ildən başlayaraq həyata keçirilən iqtisadi islahatlar nəticəsində valyutanın sabitləşməsinə nail olundu ki, bu da büdcənin normallaşdırılmasına imkan verdi. Stabilləşdirmə tədbirləri əsasən aşağıdakıları əhatə edirdi:

1. İstehsal güclərinin modernləşdirilməsi;

downloaded from KitabYurdu.org

| *Göstəricilər* | *1913* | *1918* | *1924* | *1938* | *1938 /1913-ə nisbətən (%-lə)* |
|---|---|---|---|---|---|

2. Alman inhisarçı birliklərinin mövqelərinin möhkəmləndirilməsi: kartel və sindikatların yerinə trest və konsernlər gəlməyə başlayır;

3. Əmək prosesinin intensivləşdirilməsi.

1924-cü il London konfransında təzminatın ödənilməsi şərtlərinin yüngülləşdirilməsi haqqında proqram qəbul edildi. Bunun ardınca imzalanan Lokarn müqaviləsi (1925) Versal sülh müqaviləsinin şərtlərini yüngülləşdirmə yönümündə yenidən təftişini həyata keçirdi və Almaniya üçün mühüm əhəmiyyət kəsb edən bır sıra qərarlar qəbul etdi: Hərbi nəzarətin ləğv edilməsi, fransız qoşunlarının Saardan çıxarılması və s.

Təzminatın ödənilmə mənbələri kimi aşağıdakılar müəyyənləşdirilmişdi (Daues planı):

1. Rüsum və dolayı vergilər (əsasən, kütləvi istehlak malları üzrə): xüsusi istiqrazların buraxılması;
2. Alman dəmiryolundan gələn gəlirlər;
3. Sənayedən alınan vergilər.

Təzminat xərclərinin ödənilməsi 1928-ci ildən başladı (illik 2.5 mlrd. marka) 1932-ci ildə isə ümumiyyətlə, ləğv edildi.

***Cədvəl 13.3***

***Almaniyanın iqtisadi inkişaf dinamikası (1913-1938)***

downloaded from KitabYurdu.org

| | | | | | |
|---|---|---|---|---|---|
| 1. Əhali, mln.n | 67 | 66.8 | 64.7 | 69 | + 2.9% |
| 2.Sənaye istehsalı indeksi (1913=100) | 100 | 57 | 108.1 | 137 | X |
| 3.Kömür istehsalı, mln. t. | 277.3 | 259.0 | 237.9 | 214.4 | - 22.7% |
| 4.Çuqun istehsalı, mln.t. | 19.3 | 9.2 | 13.1 | 19.7 | +2.1% |
| 5. Polad istehsalı, mln.t. | 18.4 | 11.8 | 16 | 22.5 | +22.3% |
| 6. İxracat, mln.marka | 10097 | - | 13483 | - | X |
| 7.İdxalat, mln. marka | 10770 | - | 13447 | - | X |

Cədvəldən göründüyü kimi, I Dünya müharibəsində itirilən inkişaf səviyyəsi 1924-cü ildə belə bərpa olmamışdır. Belə ki, 1924-cü ildə əhalinin sayı 1913-cü il səviyyəsinin 96.5%-nə, kömür istehsalı üzrə 85.5%-nə, çuqun istehsalında 67.9%-nə, polad istehsalında 86.9 %-nə və s. bərabər olmuşdur. 1929-cu ilə qədərki dövrdə (1924-cü ildən) ölkə sənayesində canlanma yaranmış, sənaye istehsalının həcmi müharibəyə qədərki səviyyəni ötüb keçmişdi. II Dünya müharibəsinə qədərki dövrdə isə Almaniya sənaye istehsalında Avropada birinci, dünyada isə ikinci (ABŞ-dan sonra) yerə çıxdı.

Məlumatlardan göründüyü kimi (cədvəl 13.4) 1941-ci ildə Almaniya regional liderə çevrilmişdi.

***Cədvəl 13.4***

***1941-ci Almaniyasının iqtisadi göstəriciləri***

| *Göstəricilər* | *Almaniya* | *İşğal olunmuş ölkələrlə birlikdə* | *Artım (%)* |
|---|---|---|---|
| 1. Əhali, mln.n. | 69 | 290 | + 4.2 dəfə |
| 2.Kömür istehsalı, mln.t. | 235 | 400 | + 70.2% |
| 3.Neft hasilatı, mln. t. | 0.7 | 7.5 | + 10.7 dəfə |
| 4.Polad istehsalı, mln.t | 22 | 45 | + 2.0 dəfə |

## § 13.4.3. İngiltərə iqtisadiyyatı

Nəzərdən keçirilən dövr İngiltərə iqtisadiyyatının assimetrik inkişaf dövrü kimi səciyyələnə bilər. I Dünya müharibəsindəki itkilər bütöv bir dövr ərzində çox ləng sürətlə bərpa olunmağa başlamışdı (cədvəl 13.5). Məlumatlardan göründüyü kimi, sənaye istehsalının indeksi yalnız 1920-ci ildə 1913-cü il səviyyəsinə çatmış, lakin sonrakı dövrlərdə, böhranaqədərki illərdə də onu əhəmiyyətli dərəcədə ötüb keçə bilməmiş, 1935-ci ildə isə hətta aşağı düşmüşdür. I Dünya müharibəsi İngiltərə

downloaded from KitabYurdu.org

iqtisadiyyatına həqiqətən də böyük zərbə vurmuşdu. Belə ki, 1918-ci ildə 1913-cü ilə nisbətən kömür istehsalı 20.6%, çuqun istehsalı 11.7%, gəmiqayırma 31.2%, pambıq istehlakı 67.8% və s. aşağı düşmüşdür.

İqtisadi böhran İngiltərə iqtisadiyyatında 1930-cu ildə təzahür etməyə başlamış, 1930-32-ci illərdə sənaye istehsalının həcmi 15% azalmışdır. Bu prosesdə ən çox zərər çəkən ənənəvi sahələr – metallurgiya, kömür istehsalı və s. olmuşdu. Eyni zamanda, əkin sahələri azalmış, xarici ticarət dövriyyəsi 2 dəfə aşağı düşmüş, ticarət balansında böyük kəsir yaranmışdı. 1932-ci ildə işsizlərin xüsusi çəkisi 30-35%-ə çatmışdı. Funt sterlinqin nüfuzdan düşməsi, nəticə etibarilə ölkənin qızıl valyuta ehtiyatlarının azalması ilə sonuclandı. Ölkənin tədiyyə balansı fəlakətli bir vəziyyətə gəlib çatmışdı. İngilis hökuməti böhrandan çıxmaq məqsədilə sərt büdcə siyasəti yeritməklə dövlət xərclərinin qismən tənzimlənməsinə nail oldu ki, bu da müəyyən yönümlərdə sabitləşdirici effekt verdi. Qənaət siyasəti yeridən hökumət funt sterlinqin qızıl paritetini ləğv etdi və nəticədə milli valyuta 35% cıvarında devalvasiyaya uğradı.

***Cədvəl 13.5***

***İngiltərənin iqtisadi inkişaf dinamikası (1913-1938)***

| *Göstəricilər* | *1913* | *1918* | *1929* | *1938* | *1938/1913-cü ilə nisbətən %-lə* |
|---|---|---|---|---|---|
| 1. Əhali , mln.n | 41.3 | 38.8 | 44.4 | 48 | +16.2% |
| 2.Sənaye istehsalı indeksi (1913=100) | 100 | 100.2(¹) | 100.5 | 98.5(²) | X |
| 3. Kömür istehsalı, mln. t. | 287 | 228 | 258 | 231 | -19.6% |
| 4.Çuqun istehsalı, mln.t. | 10.3 | 9.1 | 7.6 | 6.9 | -33.1% |
| 5. Polad istehsalı, mln.t | 7.7 | 9.5 | 9.6 | 10.6 | +37.6% |
| 6.Gəmiqayırma, min. req. t. | 1200 | 826 | 931 | 1026 | -14.5% |
| 7. Pambıq istehlakı, mln.t | 19.2 | 6.8 | 6.8 | 5.9 | -59.3% |
| 8. İxracat, mln.f.st | 525.3 | 489.4 | 729.3 | 965.6 | +83.8% |
| 9. İdxalat, mln. f.st | 659.2 | 1254.4 | 1111.1 | 1703.6 | +2.6 dəfə |

downloaded from KitabYurdu.org

| | | | | | |
|---|---|---|---|---|---|
| 10.Kapital ixracı, mlrd.f.st. | 160.5 | - | 87.2 | 15.4 | -10.4 dəfə |

***Qeyd: 1) 1920-ci il; 2) 1935-ci il.***

Bunun ardınca 1931-ci ildə yaradılan sterlinq blokunun üzvü olan və olmayan ölkələr – Skandinaviya ölkələri, Yaponiya da qızıl paritetini ləğv etdi.

ABŞ, Almaniya, Fransa, İtaliya və s. ölkələrdə qızıl standartının saxlanılması funt sterlinqlə ticarəti aparılan malların qiymət üstünlüyünə gətirib çıxardı ki, bu da o dövrdə formalaşmış problemli situasiyanın gərginliyinin azalmasında mühüm rol oynadı. 1932-ci ildən etibarən İngiltərədə stabilləşmə prosesi başlamış və böhranın nəticələri aradan qaldırılmışdı.

1934-cü ildə sərt büdcə siyasəti əhəmiyyətli dərəcədə yumuşaldıldı, elə həmin ildə İngiltərə böhrandan çıxdı.

### § 13.4.4. Fransa iqtisadiyyatı

Onsuz da dünya səviyyəsində aparıcı mövqeləri bir-bir itirən Fransa I Dünya müharibəsində çox böyük itkilərlə üzləşmişdi (cədvəl 13.6).

Belə ki, 1918-ci ildə 1913-cü ilə nisbətən sənaye istehsalı indeksi 43 punkt aşağı düşmüş, kömür istehsalı 35.6%, çuqun istehsalı 75%, polad istehsalı 61.8%, pambıq istehlakı 50% azalmışdı. Müharibədə Fransa 1.3 mln. nəfər itirmiş, 750 min insan yaralanmışdı. 6 min km dəmiryolu, 52 min km şose yolu, 350 min ev, 23 minə qədər fabrik, zavod və s. dağıdılmışdır. Fransaya dəyən ümumi zərərin həcmi 134 mlrd. qızıl frank təşkil etmişdi. Ölkənin xarici dövlət borcu (1920-ci ildə) 300 mlrd. franka çatmışdı. 1920-ci illərin əvvəllərində Fransada sənaye istehsalı 1913-cü il səviyyəsinin 55%-ni, kənd təsərrüfatı istehsalı isə 77%-ni təşkil edirdi. Fransız hökumətinin güclü səyləri yalnız 1924-cü ildə müəyyən effekt verməyə başladı. Ölkə iqtisadiyyatı sabitləşmə prosesinə qədəm qoydu. Məhz 1924-cü ildə sənaye istehsalı 1913-cü il səviyyəsini ötüb-keçdi, kənd təsərrüfatı isə həmin səviyyəyə çatdı. Almaniyadan alınan 8 mlrd. qızıl marka təzminat bütünlüklə sənaye istehsalının bərpasına yönəldilmişdi. Eyni zamanda, dövlət borcları

downloaded from KitabYurdu.org

hesabına 8 minə yaxın sənaye müəssisəsi bərpa olunmuş, yeni zavodlar tikilmiş, dəmiryolları çəkilmişdi.

*ədvəl 13.6*

***Fransanın iqtisadi inkişaf dinamikası (1913-1938)***

| *Göstəricilər* | *1913* | *1918* | *1929* | *1938* | *1938/1913-cü ilə nisbətən %-lə* |
|---|---|---|---|---|---|
| 1. Əhali , mln.n | 39.8 | 38.8 | 41.2 | 41.0 | + 3.0% |
| 2.Sənaye istehsalı indeksi (1913=100) | 100 | 57 | 140 | 101 | X |
| 3. Kömür istehsalı, mln. t. | 40.8 | 26.3 | 53.8 | 46.5 | +13.9 % |
| 4.Çuqun istehsalı, mln.t. | 5.2 | 1.3 | 10.4 | 6.5 | +25% |
| 5. Polad istehsalı, mln.t | 4.7 | 1.8 | 9.7 | 7.8 | +65.9% |
| 6. Avtomobil istehsalı, min ədəd. | - | - | 246 | 209 | X |
| 7. Elektrik enerjisi istehsalı, mlrd. kvt/s | - | - | 13.5 | 20 | X |
| 8. Pambıq istehlakı, mln. kvintal | 2713 | 1360 | 3582 | - | X |
| 9. İxracat, mlrd.fr. | 6.880 | 11.9 | 50.1 | 15.5 | +2.3 dəfə |
| 10. İdxalat, mlrd. fr. | 8.421 | 35.8 | 58.2 | 25.4 | +3.0 dəfə |

Sabitləşmə və inkişaf dövrü 1929-33-cü illər böhranı ilə başa çatdı. Ölkədə 1930-cu ildə başlanan böhran 1935-ci ilə qədər davam etdi. 1932-ci ildə sənaye istehsalı 1930-cu ilə nisbətən 44% azaldı. 1933-34-cü illərdə qismən canlanma baş versə də, 1935-ci ildə iqtisadi situasiya kəskin şəkildə pisləşdi.

Böhran illərində maşınqayırma sənayesi 1929-cu il səviyyəsindən 69.6%, istehsal vasitələri istehsalı 80%, çuqun və polad istehsalı 50% aşağı düşmüşdü. Toxuculuq sənayesi daha ağır situasiya ilə

downloaded from KitabYurdu.org

qarşılaşmışdır. Xarici ticarət dövriyyəsi 2 dəfə azalmış, idxal və ixracat 1930-cu il səviyyəsindən 65% aşağı düşmüşdür.

Kənd təsərrüfatı istehsalında (1929-1934) isə azalma 2.6 dəfədən çox olmuşdur. 1935-ci ildə işsizlərin ümumi sayı 1 mln. nəfəri ötmüşdü.

Ölkə hökuməti vəziyyətdən çıxış yolu kimi iqtisadi proseslərin dövlət tənzimlənməsini ön plana çıxarmışdı. 13.6 saylı cədvəldən göründüyü kimi, 1937-ci ildə də belə böhranın nəticələri tam şəkildə aradan qaldırılmamışdı.

Göründüyü kimi, 1913-1937-ci illər ərzində Fransanın iqtisadi inkişaf prosesi kifayət dərəcədə qeyri-bərabərliyi ilə səciyyələnir.

## § 13.5. Yaponiya iqtisadiyyatı

Yaponiya I Dünya müharibəsindən daha da güclənmiş halda çıxdı. Ümumi qiymətləndirmələrə görə, Yaponiya müharibə dövründə milli sərvətini 25% artıra bilmişdir.

Məlumatlar göstərir ki, 1918-ci ildə 1913-cü ilə nisbətən kömür istehsalı 31.4%, çuqun istehsalı 2.7 dəfə, polad istehsalı 2.2 dəfə, gəmiqayırma 7.5 dəfə, xam ipək istehsalı 2.6 dəfə və s. artmışdır. Eyni zamanda, xarici ticarət dövriyyəsinin həcmi 2.6 dəfə yüksəlmişdir (cədvəl 13.7). Bununla belə, 1920-21-ci illərdəki iqtisadi tənəzzül yapon iqtisadiyyatına güclü zərbə vurmuşdu. Ümumi sənaye istehsalı 20%, ixracat 40%, idxalat 30% azalmışdı.

Ölkədə sənayenin yüksəliş dövrü 1924-26-cı illəri əhatə edir. İstehsalın təmərgüzləşməsi prosesi sürətlə gedirdi. 1929-cu ildə sənaye istehsalının 61%-i iri inhisarçı birliklərin payına düşürdü. Avropadan fərqli olaraq yapon konsernləri rəqabət mübarizəsi nəticəsində deyil, ayrı-ayrı ailə klanlarına dövlət tərəfindən verilən xüsusi imtiyazlar yolu ilə formalaşırdı. 1920-ci illərin əvvəllərində yapon iqtisadiyyatında dövlətin rolu böyük olaraq qalırdı. İqtisadiyyata yönəldilən investisiyaların 2/3-i dövlətə məxsus idi.

***Cədvəl 13.7***

***Yaponiyanın iqtisadi inkişaf dinamikası (1913-1933)***

| *Göstəricilər* | *1913* | *1918* | *1929* | *1933* | *1933/1913-cü ilə nisbətən* |
|---|---|---|---|---|---|

downloaded from KitabYurdu.org

| | | | | | %-lə |
|---|---|---|---|---|---|
| 1. Əhali , mln.n | 53.4 | 56.7 | 65.9 | 69.9 | +30.9% |
| 2. Kömür istehsalı, mln. t. | 21.3 | 28.0 | 34.3 | 32.5 | +52.6% |
| 3.Çuqun istehsalı, mln.t. | 0.24 | 0.67 | 1.5 | 2.0 | +8.3 dəfə |
| 4. Polad istehsalı, mln.t | 0.25 | 0.54 | 2.0 | 2.6 | +10.4 dəfə |
| 5.Gəmiqayırma, min. req. t. | 65 | 490 | 164 | 74 | +13.8% |
| 6. Mis istehsalı, min t. | 66.5 | 90.4 | 25.5 | 69 | +3.7% |
| 7. Pambıq parça dəzgahları, min. ədəd | 2414 | 3228 | 6837 | 8644 | +3.6 dəfə |
| 8. Düyü yığımı, min kvintal | - | 98.9 | 107.7 | 128.1 | 29.5% (1) |
| 9. Xam ipək istehsalı, mln. iyen | 199.5 | 526.7 | 875.6 | 497.7 | +2.5 dəfə |
| 10. İxracat, mln iyen. | 632.5 | 1962.1 | 1990.9 | 750.9 | +18.7 % |
| 11. İdxalat, mln iyen. | 729.4 | 1668.1 | 2053.5 | 773.6 | + 6.0% |

***Qeyd: 1) 1918-ci illə müqayisədə.***

1926-cı ildən başlayaraq yüksəliş tənəzzüllə əvəz olundu. Mövcud zavod və fabriklərin böyük əksəriyyəti öz istehsal gücünün 25%-i səviyyəsində fəaliyyət göstərirdi. Bu dövrdə Yaponiyanın xarici bazarlardan asılılığı daha da artmışdı. 1929-1931-ci illərdə sənaye istehsalı 32% aşağı düşmüşdü. Kənd təsərrüfatı xüsusilə ağır vəziyyətdə idi.

Qeyd edilən dövr ərzində kənd təsərrüfatı məhsulları istehsalı 60% azaldı.

Eyni zamanda, ixracat 2 dəfədən çox aşağı düşmüşdü. İşyerləri kütləvi şəkildə ixtisar olunurdu.

1929-33-cü illərdə işsizlərin sayı 3 mln. nəfərə çatmışdı. 1932-ci ildən başlayaraq ölkə iqtisadiyyatının hərbiləşdirilməsi sürətlə həyata keçirilməyə başladı. Yapon hökuməti hərbi sferanı diqqət mərkəzində saxlayırdı. Yalnız 1931-ci ildə Yaponiya ABŞ-dan 447.2 mln. dollarlıq silah və hərbi sursat, 6 mln. dol. sənaye avadanlığı idxal etmişdi. 1931-

downloaded from KitabYurdu.org

38-ci illərdə sənaye istehsalı 1.6 dəfə, metal məhsulları 10 dəfə, maşınqayırma sənayesi 6.7 dəfə, kimya sənayesi 3.2 dəfə, qaz və elektronika məmulatları istehsalı 2.1 dəfə artmışdı.

1939-cu ildə silah və hərbi avadanlıqlar istehsalı 1925-ci ilə nisbətən 5 dəfə çoxalmışdı. Eləcə də, 1929-1938-ci illərdə ümum istehsalda ağır sənayenin xüsusi çəkisi 32.2%-dən 60.8%-ə qədər yüksəlmişdi.

## § 13.6. Azərbaycan iqtisadiyyatı

I dünya müharibəsi Azərbaycan iqtisadiyyatına da mənfi təsir göstərmişdir. Müharibə, hər şeydən əvvəl, neft sənayesində böhran yaratmışdı. Belə ki, neft hasilatı 1917-ci ildə (1913-cü illə müqayisədə) 14.2% azalmışdı. 1915-ci ildə 15 neft-yağ zavodundan 2-si, 9 yağ zavodundan 5-i fəaliyyət göstərirdi. Müqayisə edilən dövr ərzində neftayırma zavodlarına emal üçün göndərilən neftin həcmi 30% aşağı düşmüş və eyni zamanda, 225 mln. pud neftin yalnız 31%-i emal edilmişdi.

Müharibə illərində mis istehsalı 59%, əkin sahələri 2.8 dəfə, taxıl istehsalı 50%, barama istehsalı 2.0 dəfə azalmış, inflyasiya 5.2 dəfə artmışdı. Bir sözlə, Rusiyanın müstəmləkəsi kimi Azərbaycanda iqtisadi tənəzzül müharibə illərində daha da güclənmişdi. Rusiyada baş verən inqilab nəticəsində hakimiyyətə gəlmiş müvəqqəti hökumət imperiya siyasətini davam etdirməklə Azərbaycan iqtisadiyyatında yaranmış böhranlı situasiyanı daha da dərinləşdirdi. Zaqafqaziya seyminin səriştəsizliyi nəticəsində bolşevik-daşnak dəstələri S.Şaumyan başda olmaqla Bakı şəhərini ələ keçirdilər. Antitürk siyasəti yeridən türk düşməni S.Şaumyan 1918-ci ilin mart-aprel aylarında Azərbaycanda soyqırımı həyata keçirdi. "... Nəticədə təkcə Bakıda 12 min insan öldürülmüş, Şamaxı qəzasında 58 kənd dağıdılmış, 7 min dinc sakin məhv edilmişdi, Quba qəzasında 122 kənd talan olunmuşdu."[180]

Bolşeviklərin yaratdığı Bakı Xalq Komissarları Soveti (XKS) yeritdiyi siyasətdə bolşevik Rusiyasının mənafelərini əsas götürürdü.

### I Respublika (1918-1920-ci illər)

Məhz belə bir şəraitdə 1918-ci il may ayının 28-də İstiqlal Bəyannaməsi qəbul edildi və müstəqil Azərbaycan Xalq

[180] N.Süleymanov. Azərbaycanın iqtisadi tarixi, Bakı, 2001.- S.133

downloaded from KitabYurdu.org

Cumhuriyyətinin yaradıldığı elan olundu. I Respublikanın ".... mübahisəsiz ərazisi 97.2 min km² idi. Eyni zamanda, İrəvan və Tiflis quberniyalarının azərbaycanlılar yaşayan bölgəsi 15.6 min km²-ə çatırdı. Bu ərazilər mübahisəli zona hesab olunurdu."[181] Əslində, tarixi mənbələr və təkzib olunmaz faktlar o ərazilərin Azərbaycana məxsus olduğunu birmənalı şəkildə ortalığa qoyurdu. AXC-i yarandığı anda əhalinin ümumi sayı 2.8 mln. nəfər olmuşdur ki, bunun da 68.2%-ni Azərbaycan türkləri təşkil edirdi. Çox ağır geosiyasi və geoiqtisadi situasiya ilə üzləşən AXC-i ilk addım kimi ölkənin təbii sərvətlərinin xaricə daşınmasının qarşısını almaq istiqamətində addımlar atmışdı. Hökumətin 27 iyun 1918-ci il tarixli fərmanı ilə metal və metal məmulatlarının, pambıq, yun, ipək, dəri və onlardan hazırlanan məmulatların, mal-qara və ət məhsullarının ölkədən kənara çıxarılması qadağan edilmişdi. Həmin ilin 27 avqust tarixli fərmanla azad ticarət yalnız ölkə daxilıində tətbiq olunurdu. Digər bir sərəncamla bolşeviklər tərəfindən milliləşdirilmiş neft sənayesi müəssisələri əvvəlki sahiblərinə qaytarıldı. 1919-cu ildə xarici şirkətlərlə neft və neft məhsullarının satışı üzrə kontraktlar imzalanmağa başlanmışdı. Cumhuriyyət hökuməti real bazar münasibətlərinin qərarlaşması yönündə fəaliyyət göstərirdi. Ölkənin milli valyutası – manat dövriyyəyə buraxılmışdı.

1920-ci ilin əvvəllərindən etibarən gənc Azərbaycan Cumhuriyyəti artıq tanınmağa başlamış və genişmiqyaslı beynəlxalq münasibətlər sisteminə daxil olmuşdu. Əhalinin əsas hissəsinin kənd yerlərində yaşaması hökumətin iqtisadi siyasətində aqrar sferanın ön plana çıxarılmasını şərtləndirirdi. Bu dövrdə əkin sahələrinin 30%-i dövlətə, 50%-i kəndlilərə, 20%-i isə mülkədarlara məxsus olmuşdu. Aqrar sfera üçün hazırlanmış mütərəqqi layihələrin həyata keçirilməsi cümhuriyyətin süqutu nəticəsində baş tutmamışdı. Parlamentdə başlanan dartışma siyasi böhranla nəticələndi və 1920-ci il aprel ayının 27-də Parlament hakimiyyətin bolşeviklərə verilməsi haqqında qərar qəbul etdi. Cəmi 23 ay fəaliyyət göstərən AXC-i Şərqdə ilk demokratik respublika olmuş, Azərbaycan xalqının tarixində parlaq izlər qoymuşdu.

**II Respublika (1920-1991-ci illər)**

Sovet Rusiyasının işğalı nəticəsində II Respublika-Azərbaycan Sovet Sosialist Respublikası quruldu. Yeni hökumət AXC-nin

---

[181] N.Süleymanov Azərbaycanın iqtisadi tarixi, Bakı, 2001.- S.135

downloaded from KitabYurdu.org

formalaşdırdığı idarəetmə sisteminin “milli” xarakter daşıdığını önə çəkərək tamamilə ləğv etdi. İldırımsürətli milliləşdirmə real bazar münasibətlərinin qərarlaşması prosesini dayandırdı. Bu prosesdə Azərbaycanın spesifik ölkə xüsusiyyətləri qətiyyən nəzərə alınmırdı.

Nəticədə iqtisadi tənəzzül daha da dərinləşmiş 1913-cü illə müqayisədə sənaye istehsalı 7 dəfə, neft hasilatı isə 70% azalmışdı.

Rusiyada tətbiq olunan “hərbi kommunizm” siyasəti olduğu kimi Azərbaycana gətirilmiş, inkişafın sosial-iqtisadi əsaslarını dağıdan inzibati-hərbi üsullardan geniş sürətdə istifadə edilməyə başlanmışdı. Vəziyyət o qədər gərginləşmişdir ki, Rusiya Kommunist Bolşeviklər Partiyasının Siyasi Bürosu (1920-ci ildə) “Azərbaycanda ərzaq siyasətinin yumşaldılması” haqqında qərar qəbul etməyə, hətta Azərbaycana ərzaq yardımı göstərməyə məcbur olmuşdu.

1921-ci ildə Rusiyanın “hərbi kommunizm” siyasətindən “Yeni iqtisadi siyasət” adlanan yönümə keçidi Azərbaycanda da iqtisadi fəaliyyətin canlanmasında müəyyən rol oynamışdı. Azad iqtisadi fəaliyyət imkanlarının yaradılması, sənaye müəssisələrinin özünüidarə və özünü maliyyələşdirmə sisteminə keçidi və s. o dövrdə mövcud olmuş iqtisadi tənəzzülün dayandırılmasında mühüm əhəmiyyət kəsb edirdi. Yalnız bir il ərzində (1921-1922) taxıl əkini sahəsi 2.3 dəfə artmışdı.

Pambıqçılıq təsərrüfatı bərpa olunmuş, heyvandarlıq sahəsində əhəmiyyətli irəliləyişlər əldə edilmişdi: 1925-ci ildə heyvandarlıq məhsullarının ümumi dəyəri 1914-cü il səviyyəsinin 94%-ni, mal-qaranın baş sayı isə 83.6%-ni təşkil edirdi. Ümumiyyətlə, “yeni iqtisadi siyasətə” keçid ölkədə iqtisadi sabitləşməyə müsbət təsir göstərmişdi. 1925-ci ildən başlayaraq sosialist sənayeləşməsi və kənd təsərrüfatında kollektivləşmə - kollektiv təsərrüfatların yaradılması siyasəti yeridilməyə başladı. 1929-cu ildə sənaye istehsalının ümumi həcmi 1913-cü ilə nisbətən 5.3 dəfə, 1928-ci ilə nisbətən isə 2.5 dəfə artmışdı. Son 5 il ərzində ölkədə 35 yeni sənaye müəssisəsi işə salınmışdı. 1931-ci ildə Azərbaycan SSRi üzrə çıxarılan neftin 60%-ni verirdi.

Kollektivləşmə - kənddə xüsusi mülkiyyəti ləğvetmə yolu ilə inzibati qaydada aparılırdı.

Nəticə kifayətqədər acınacaqlı olmuşdu: ölkədə aclıq başlamış, əksər şəhərlərdə ərzaq məhsulların kartoçka ilə paylanması sisteminə keçilmişdi. Zorakı üsullardan istifadə kənd yerlərində situasiyanı xeyli gərginləşdirmiş, üsyanlara səbəb olmuşdu. 1931-ci ildə Azərbaycanda fərdi kəndli təsərrüfatlarının cəmi 12.3%-ni kollektivləşdirmək mümkün olmuşdu.

downloaded from KitabYurdu.org

On minlərlə Azərbaycan kəndlisi bu siyasətin günahsız qurbanlarına çevrilmiş, güllələnmiş, sürgün olunmuşdu. Bəzi tarixi mənbələr göstərir ki, kollektivləşmə dövründə SSRİ-də 4 mln. insan acından ölmüşdü. Yaradılmış kolxozların üzvləri mahiyyətcə "təhkimli kəndlilərə" çevrilmişdilər.

1930-cu illərin əvvəllərində formalaşmış inzibati-amirlik sisteminin Stalin variantı ölkə əhalisini dözülməz məşəqqətlərə düçar etdi. Bununla belə, siyasətin iqtisadi terror səciyyəsi daşımasına baxmayaraq ölkə iqtisadiyyatı inkişaf yoluna qədəm qoymuşdu.

II Dünya müharibəsi ərəfəsində, demək olar ki, əksər göstəricilər üzrə artım müşahidə edilirdi: 1940-cı ildə 1920-ci illə müqayisədə əhalinin sayı 67.7%, neft hasilatı 9.6 dəfə, məcmu sənaye istehsalının həcmi 14 dəfə, elektrik enerjisi istehsalı 14.9 dəfə, taxıl yığımı 28.9%, pambıq 70 dəfə, ət və ət məhsulları 17.1%, süd istehsalı 35.9% və s. artmışdı. İstehsal vasitələri istehsalının üstün artımı ictimai istehsalın proporsiyaları arasında uçurumu dərinləşdirmiş və sonuc olaraq SSRİ-ni süquta aparan əsas amillər sırasına daxil olmuşdu.

Beləliklə, II Dünya müharibəsinin başlanğıcında Azərbaycanda sosialist təsərrüfat tipinin formalaşması prosesi başa çatmışdı.

downloaded from KitabYurdu.org

## XIV fəsil. II Dünya müharibəsi (1939-1945): sosial-iqtisadi nəticələri

XX əsrin 30-cu illərinin sonunda dünya iqtisadi böhranının nəticələri, demək olar ki, aradan qaldırılmış, sənaye istehsalı və beynəlxalq ticarət dövriyyəsi sabitqədəmli artımla müşahidə olunurdu. Lakin Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanan II Dünya müharbəsi bütün müsbət işarəli təmayülləri əks istiqamətə yönəltdi.

II Dünya müharibəsinin başlanmasının ilkin müddət şərtləri və səbəbləri sırasında aşağıdakılar həlliedici əhəmiyyət kəsb edirdi:

1. 1919-cu ildə imzalanmış Versal müqaviləsi üzrə nəzərdə tutulan şərtlərin yerinə yetirilməməsi;
2. Almaniyanın hərbi potensialının görünməmiş dərəcədə artımı və «qisas» hissi;
3. Almaniya, İtaliya və Yaponiyanın dünya iqtisadi düzənindən narazılığı;
4. Resurs və satış bazarları üzərində inhisar imtiyazlarına yiyələnmək istəyi.

II Dünya müharibəsi bəşər tarixində analoqu olmayan ümumbəşəri fəlakət idi. Müharibəyə cəlb edilmiş 60 ölkədə dünya əhalisinin $^{4}/_{5}$-ü yaşayırdı. Hərbi əməliyyatlar Avropa, Asiya və Afrikanın 40 ölkəsində aparılırdı. Silahlı qüvvələrin tərkibi 110 mln. nəfərdən ibarət olmuşdur. Müharibədə 55 mln. insan həlak olmuş, 316 mlrd. dollarlıq milli sərvət məhv edilmişdir. Ümumi hərbi xərclər I Dünya müharibəsinin analoji göstəricisindən 4,5 dəfə çox olmuşdur.

II Dünya müharibəsinin nəticələri:

1. Dünya əsas iqtisadi resurslar (insan, maddi, təbii, istehsal) üzrə görünməmiş itkilərə məruz qaldı.
2. Kimyəvi silahdan fəal istifadə ekoloji situasiyanın əhəmiyyətli dərəcədə pisləşməsinə gətirib çıxardı.
3. Dünya iqtisadiyyatının əsas sahələrində struktur dəyişiklikləri baş verdi.
4. Müstəmləkə sistemi tam şəkildə süquta uğradı. Keçmiş müstəmləkələr müstəqil dövlətlərə çevrildi.
5. Dünya sənaye istehsalının və qızıl ehtiyatlarının $^{2}/_{3}$-si ABŞ-ın əlində cəmləşdi.

downloaded from KitabYurdu.org

6. Dünya iki antoqonist sistemə parçalandı: kapitalizm və sosializm.

7. İki hərbi-siyasi blok yarandı: NATO və VMT (Varşava Müqasləsi Təşkilatı).

8. Planetar səviyyədə iqtisadi bloklaşma prosesi start götürdü iqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT); Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı (AİƏT) və sosialist ölkələrinin birləşdiyi Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ).

## § 14.1. II Dünya müharibəsindən sonrakı dövr (1945-1983): ölkələr bölümündə inkişafın qısa xülasəsi

II Dünya müharibəsi əksər iştirakçı ölkələrdə, ələlxüsus Almaniya və Yaponiyada iqtisadi (eləcə də, siyasi və sosial) xaos yaratdı. Fransa və Böyük Britaniya əhəmiyyətli dərəcədə zəiflədiyi halda müharibəni başa vurdu.

Yalnız ABŞ müharibədən daha da güclənmiş halda çıxdı. Müharibə illəri ərzində milli gəlirin həcmi 2 dəfə artdı. 1946-cı ildə dünya sənaye istehsalının 60%-i, qızıl ehtiyatlarının $^{2}/_{3}$-si, ixracatın $^{1}/_{3}$-i ABŞ-ın əlində cəmlənmişdi. 1944-cü il Bretton-Vuds konfransı ABŞ-ın milli valyutası – dolların qızıl məzmununu rəsmiləşdirməklə (1 troya unsiyası (31,1 qızıl) = 35 dollar) onu dünya puluna çevirdi və bununla da Böyük Britaniyanın «liderliyə» qayıtma istəyinə son verildi. Yeri gəlmişkən, qeyd edək ki, yalnız bundan sonra ABŞ Normandiyaya qoşun çıxarmaqla ikinci cəbhənin açıldığını bəyan etmişdi.

1947-ci ildən etibarən ABŞ iqtisadiyyatının hərbi yönümündə əsaslı dəyişikliklərin həyata keçirilməsi başa çatdı. Texnoloji üstünlük, dünyada ən yüksək əmək məhsuldarlığı, yüksək rentabellik səviyyəsi həm ölkə daxilində, həm də xarici ölkələrdə investisiya qoyuluşlarının yüksək artım tempini təmin etmişdi.

Müharibədən sonrakı dövrün ilkin mərhələsindən başlayaraq ABŞ-ın xarici iqtisadi siyasətində Qərbi Avropa əsas yeri tutmağa başlayır.

1947-ci ildə ABŞ prezidenti Trumen sosializm kabusunun Avropaya yayılmasının qarşısını almaq üçün kapitalist ölkələrinin «birləşmiş cəbhəsini» yaratmaq ideyasını irəli sürür. Trumen doktrinası çərçivəsində dövlət katibi C.Marşall «Avropanın dirçəldilməsi proqramını» ortalığa qoyur (1948-ci il). Elə həmin ildə də ABŞ konqresi

downloaded from KitabYurdu.org

«Xarici dövlətlərə yardım haqqında» Qanun qəbul edir. Bu istiqamətdə imzalanacaq ikitərəfli müqavilənin əsas şərtləri aşağıdakı kimi təsbit olunur:

1. Azad sahibkarlığı inkişaf etdirmək öhdəliyi;
2. Xüsusi amerikan investisiyalarını dəstəkləmək;
3. Gömrük tariflərinin azaldılması yönümündə əməkdaşlıq;
4. Maliyyə sabitliyini təmin etmək;
5. Alınan vəsaitlərin istifadəsi üzrə müntəzəm olaraq hesabat vermək.

1949-cu ildə Avropanın 16 ölkəsi (Fransa, İtaliya, Belçika, Niderland, Lüksemburq, Türkiyə və s.) sözügedən müqaviləni imzaladı. Təbiidir ki, SSRİ və digər sosialist ölkələri həmin müqaviləni imzalamaqdan imtina etdi… Sadalanan şərtlərə əməl etməklə sosializm, sosialist təsərrüfat tipi, mahiyyətcə əks mövqedədir. Buna görə də «imtina» təbii səciyyə daşıyır. Marşall planı əsasında (1948-1951) 17 mlrd. dollar vəsait ayrılmışdır ki, bunun da $^{2}/_{3}$ hissəsi 4 ölkənin – Fransa, İtaliya, AFR, Böyük Britaniya – payına düşmüşdür.

**§ 14.2. ABŞ-ın iqtisadiyyatı**

Müharibədən sonrakı ilk onillikdə ABŞ-ın liderliyi birmənalı olaraq qəbul edilirdi.

Qərbi Avropada və Yaponiyada baş verən iqtisadi sıçrayış isə artıq yeni rəqiblərin meydana çıxdığına dəlalət edirdi.

1950-ci illərin ortalarında elmi-texniki inqilab ABŞ iqtisadiyyatına güclü təsir göstərməyə başlamışdı. İstehsal proseslərinin avtomatlaşdırılması və intensivləşdirilməsi tamamilə yeni keyfiyyət situasiyası yaradır, həyat səviyyəsinin yüksəlməsində və xidmət sektorunun önə çıxmasında müstəsna rol oynayırdı.

1960-cı illərdə həyata keçirilən «Yeni üfüqlər» siyasəti müsbət nəticələr verdi: sənaye istehsalı indeksi 1961-ci ilə nisbətən 1964-cü ildə 20% artdı. Bununla da belə, ABŞ-ın Qlobal Məcmu Məhsulda payı 44%-dən (1960-cı il) 27%-ə (1980-ci il) qədər, sənaye istehsalında 35,4%-dən 32,9%-ə, qlobal ixracatda isə 18%-dən 12%-ə qədər azaldı.

Lider mövqelərinin sarsılması prosesini dayandırmaq məqsədilə kompleks tədbirlər həyata keçirilməyə başlandı:

1. İstehsalın strukturca yenidən qurulması;

downloaded from KitabYurdu.org

2. Sənaye istehsalında elmtutumlu sahələrin prioritet inkişafı;

3. NİOKR – elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin intensivləşdirilməsi;

4. Elmi-texniki tərəqqinin stimullaşdırılması.

Cədvəldəki məlumatlardan göründüyü kimi, müharibədən sonrakı 20 il ərzində əmək məhsuldarlığının orta illik artım tempi 3,2% təşkil etmiş və tədricən azalmağa başlamış, yalnız 1980-ci ildə müəyyən canlanma yaranmışdı (cədvəl 14.1).

***Cədvəl 14.1***

***ABŞ-da əmək məhsuldarlığının dinamkası[182]***

| *İllər* | *Əmək məhsuldarlığının dinamikası (%)* | *Adambaşına ÜDM-un artım dinamikası (%)* |
|---|---|---|
| 1948-1966 | 3,2 | 2,2 |
| 1966-1973 | 2,0 | 2,0 |
| 1973-1981 | 0,7 | 1,1 |
| 1981-1987 | 1,5 | 1,8 |

Ümumiyyətlə isə, araşdırılan dövr ərzində ABŞ iqtisadiyyatında əksər göstəricilər üzrə artım dəfələrlə ölçülür.

Cədvəldən göründüyü kimi, ABŞ iqtisadiyyatında 1970-ci il xüsusi önəm daşıyır. Belə ki, həmin ildə müharibəyəqədərki dövrlə (1938-ci il) müqayisədə ÜDM 3,7 dəfə, məcmu kapital qoyuluşu 6,2 dəfə və s. artmış, eyni zamanda, yeni keyfiyyət strukturuna malik olan milli iqtisadiyyat formalaşmışdır. Müqayisə edilən dövr ərzində kapital ixracının 13,1 dəfə, 1983-cü ildə isə (1938-ə nisbətən) 19,9 dəfə artması ABŞ-ın sözün həqiqi mənasında dünya iqtisadiyyatının mərkəzinə çevrildiyinə dəlalət edir.

1981-ci ildən başlayaraq ABŞ-da ( eləcə də, əksər inkişaf etmiş ölkələrdə) neokonservativ siyasətin variantlarından biri – «reyqanomika» tətbiq edilməyə başlanır: Sosial proqramlar və verginin bütün növləri üzrə ixtisarlar aparılır, inflyasiya ilə mübarizə məqsədilə sərt pul-kredit siyasəti yürüdülür, sahibkarlıq fəaliyyətinin tam sərbəstləşdirlməsinə qərar verilir.

Artıq 1970-ci illərdən – «xidmət» iqtisadiyyatına keçiddən başlayaraq formalaşan ABŞ postindustrial cəmiyyəti 1980-ci illərin sonu,

[182] К.Р.Маккопелл, С.Л.Брю. Экономикс: Принципы, проблемы и политика. В 2 т. Т 1. М., 1992.- С. 38.

downloaded from KitabYurdu.org

1990-cı illərin əvvəllərində böhran təzahürləri ilə qarşılaşır. 1990-cı illərdən etibarən «informasiya» iqtsiadiyyatına keçid başlanır.

ABŞ prezidenti B.Klintonun 1992-ci ildən həyata keçirdiyi stabilləşdirmə proqramı «keçid» dövrünün problemli situasiyalarını aradan qaldırmağa imkan vermişdi. Həyata keçirilən tədbirlər kompleksi və ümumiyyətlə, neokonservativ strategiya ABŞ iqtisadiyyatının strukturca yenidən qurulmasında («informasiya» iqtisadiyyatı)

***Cədvəl 14.2***

***ABŞ-ın iqtisadi inkişaf dinamikası (1938-1983)***

| *Göstəricilər* | *1938* | *1946* | *1950* | *1970* | *1983* | *1983/1938-ə nisbətən (%-lə)* |
|---|---|---|---|---|---|---|
| 1. Əhali, mln. n. | 130 | 141 | 152 | 206 | 232 | +78,5% |
| 2. ÜDM (1958-ci ilin qiymətləri ilə), mlrd. dol. | 192,9 | - | 355,3 | 724,3 | - | x |
| 3. Məcmu daxili kapital qoyuluşu (1958-ci ilin qiymətləri ilə), mlrd. dol. | 17 | 29,2 | 69,3 | 105,4 | - | x |
| 4. Sənaye istehsalının fiziki həcmi (1975=100) | - | - | 41 | 92 | 122,1 | x |
| 5. Elektrik enerjisi istehsalı, mlrd. kvt/s | 154 | 280 | 408 | 1638 | 2480 | +16,1 dəfə |
| 6. Neft hasilatı, mln. t. | 164 | 232 | 267 | 475 | 427 | +2,6 dəfə |
| 7. Təbii qaz hasilatı, mlrd. $m^3$ | 78 | 115 | 190 | 620 | 530 | +6,8 dəfə |
| 8. Kömür istehsalı, mln. t. | 355 | 620 | 505 | 530 | 730 | +2,0 dəfə |
| 9. Çuqun istehsalı, mln. t. | 20 | 42 | 60 | 83 | 44 | +2,2 dəfə |
| 10. Polad istehsalı, mln. t. | 29 | 60 | 88 | 119 | 75 | +2,6 dəfə |
| 11. Sement istehsalı, mln. t. | 20 | 28 | 39 | 68 | 63 | +3,1 dəfə |
| 12. Avtomobil istehsalı, mln. əd. | 4,8 | 4,9 | 8,0 | 8,2 | 9,4 | +95,8% |
| O cümlədən: 12.1. Mİnik avtomobili, mln. əd. | 3,9 | 3,8 | 6,7 | 6,5 | 6,8 | +74,3% |
| 13. Traktor istehsalı, mln. əd. | 272 | 359 | 542 | 200 | 198 | -27,3% |
| 14. Ticarət gəmiləri, min rep.t. | 160 | 646 | 437 | 338 | - | x |
| 15. Radio istehsalı, mln. əd. | 8,1 | 16,0 | 14,6 | 16,0 | 44,1 | +5,4 dəfə |
| 16. Televizor istehsalı, mln. əd. | - | - | 7,5 | 9,5 | 17,6 | +2,3 dəfə |
| 17. Plasmas istehsalı, mln. t. | 0,17 | 0,5 | 1,0 | 8,0 | 16,5 | +97 dəfə |
| 18. Pambıq parça istehsalı, mlrd $m^2$ | 7,9 | 8,4 | 9,2 | 6,3 | 3,1 | -60,8% |

downloaded from KitabYurdu.org

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 19. Yun parça istehsalı, mln. poq.m² | 339 | 552 | 430 | 172 | 147 | -56,7% |
| 20. Ayaqqabı istehsalı, mln. cüt | 412 | 529 | 523 | 565 | 340 | -17,5% |
| 21. Taxıl yığımı, mln. t. | 19,5 | 31,4 | 27,7 | 37,5 | 65,5 | +3,3 dəfə |
| 22. Qarğıdalı yığımı, mln. t. | 53,1 | 81,7 | 70,2 | 104,4 | 108,2 | +2,0 dəfə |
| 23. Pambıq yığımı, mln. t. | 7,8 | 2,0 | 2,2 | 2,2 | - | x |
| 24. İribuynuzlu mal-qara, mln. baş | 66 | 82,2 | 78 | 112,3 | - | x |
| 25. İdxalat, mlrd. dol. | 3,1 | 4,9 | 8,8 | 40 | 269,5 | +86,9 dəfə |
| 26. Xaricdə kapital qoyuluşu, mlrd. dol. | 11,4 | 18,7 | 544 | 150 | 227,3 | +19,9 dəfə |
| 27. Hərbi xərclər, mlrd. dol. | 1,1 | 43,5 | 13,0 | 73,6 | 220,4 | +200,3 dəfə |

***Qeyd:*** 1) 1950-ci illə müqayisədə

və bu prosesdə xarici kapitalın həlledici rol oynamasında müstəsna xidmətlər göstərmişdir. XX əsrin sonlarından etibarən ucuz kredit siyasətinin yeridilməsi, spekulyativ maliyyə «köpüklərinin» ortalığa çıxması sonda olaraq bütövlükdə dünya iqtisadiyyatını silkələyən qlobal iqtisadi böhranla (2008) nəticələndi.

## § 14.3. Qərbi Avropa ölkələrinin iqtisadi inkişaf prosesi (1945-1987)

1948-1973-cü illər, yəni müharibədən sonrakı 25 il ərzində Qərbi Avropa ölkələrinin iqtisadi inkişaf prosesi stabil xarakter daşımışdı.

1950-60-cı illərdə sözügedən ölkələrin iqtisadiyyatı, hər şeydən əvvəl, yüksək inkişaf sürəti ilə səciyyələnir. Bu illər ərzində Almaniya və İtaliya iqtisadiyyatının orta illik artım tempi 4 dəfə, Fransa və Böyük Britaniyada 2 dəfə olmuşdur. Qərbi Avropa ölkələrinin müharibədən sonrakı dövrdə dinamik inkişafına təsir göstərən amillərə aşağıdakıları aid etmək olar: 1.Marşall planı; 2.Daxili bazarın genişlənməsi; 3.Beynəlxalq ticarət dövriyyəsinin artımı; 4.Fars körfəzindən gələn ucuz neft; 5.Elmi-texniki nailiyyətlər əsasında sənayenin keyfiyyətcə yenidən qurulması; 6.İqtisadi artımı dəstəkləyən siyasətin yeridilməsi.

İkinci Dünya müharibəsinin sonlarına yaxın Avropada iqtisadi inteqrsiya ideyası populyarlaşmağa başlamışdı. İlk cəhd Belçika, Hollandiya və Lüksemburq tərəfindən (1948) gömrük ittifaqının – «Benilüks»ün yaradılması oldu. Elə həmin ildə Fransa və İtaliya da

downloaded from KitabYurdu.org

gömrük İttifaqı – Fransital-ı yaratdılar, inteqrasiya prosesi sürətlə irəliləməyə başladı. İlkin olaraq 1951-ci ldə funksional-sahəvi xarakter daşıyan Avropa Kömür və Polad Birliyi, 1958-ci ildə isə Avropa Atom Enerji üzrə Əməkdaşlıq Təşkilatı formasında sahə qurumları yaradıldı.

Avropa İqtisadi Birliyi isə 1957-ci il Roma müqaviləsi ilə meydana çıxdı (AFR, Fransa, İtaliya, Belçika, Hollandiya, Lüksemburq), və, nəhayət, 1960-cı ildə Avropa Azad Ticarət Assosiasiyası yaradılır (Böyük Britaniya, Norveç, İsveç, Danimarka, Avstriya, İsveç və Portuqaliya).

1991-ci ildə AİB və AATA Avropa iqtisadi məkanının yaradılması haqqında müqavilə imzalandı.

1993-cü ildə qüvvəyə minmiş Maaştrixt sazişinə əsasən Avropa Siyasi, İqtisadi və Valyuta İttifaqı –Avropa İttifaqı yarandı.

Hal-hazırda Aİ vahid valyutası və 27 Avropa ölkəsinin daxil olduğu nəhəng inteqrasiya bloku kimi fəaliyyət göstərir.

1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərindən etibarən əksər inkişaf etmiş ölkələrdə iqtisadi siyasətin nəzəri bazası kardinal şəkildə dəyişdi: Keynsçi yanaşma neoklassikizmlə əvəz olundu. Başqa sözlə, tələb konsepsiyası öz yerini yığım konsepsiyasına verdi.

### § 14.3.1. Böyük Britaniyanın iqtisadiyyatı

Müharibədən sonrakı ilk illərdə (1947-ci il) ingilis hökuməti iqtisadiyyatın stabilləşməsi istiqamətində bir sıra tədbirlər həyata keçirməyə başlamışdı. Dəyişikliklərin ağırlıq mərkəzi sosial sferanın üzərinə düşürdü: əməkhaqlarının, gəlirlərin «dondurulması», şəxsi istehlakın məhdudlaşdırılması və s. 1948-ci ildə sənayeyə yatırılan investisiyaların təsiri nəticəsində ümumi məhsul istehsalının səviyyəsi müharibədən əvvəlki dövrə çatmış və onu ötüb keçmişdi.

1947-ci ildə qəbul edilən dördillik proqramın həyata keçirilməsi kənd təsərrüfatı istehsalının inkişafına güclü təkan vermiş, 1950-ci illərin əvvəllərində ölkənin iqtisadi potensialı əsasən bərpa olunmuşdu. 1950-ci illərin əvvəllərində, digər Avropa ölkələri ilə müqayisədə aşağı olsa da, ölkənin iqtisadi inkişaf sürəti əhəmiyyətli dərəcədə artmışdı. Sabit inkişaf tempi, əsasən aşağıdakı amillərin təsiri nəticəsində yaranmışdı:

1. Elmi-texniki inqilabın nailiyyətlərindən geniş surətdə istifadə edilməsi;

downloaded from KitabYurdu.org

2. İdarəetmə metodlarının təkmilləşdirilməsi;

3. Dövlət tərəfindən istehsalat sferasına iri kapital qoyuluşlarının artırılması;

4. Sənayedə baş verən struktur dəyişiklikləri.

İngiltərənin (1960-cı ildə) rəhbərliyi altında Avropa İqtisadi Birliyinə daxil olmayan ölkələri (Avstriya, Danimarka, Norveç, Portuqaliya, İsveçrə, İsveç) birləşdirən Avropa Azad Ticarət Assosiasiyasının (AATA) yaradılması ingilis mallarının intensiv satışı prizmasında arzuedilən nəticəni verməmiş və 1973-cü ildə İngiltərə «Ümumbazar»a daxil olmuşdur (Avropa İqtisadi Birliyinə).

1960-cı illərin ortalarından 1970-ci illərin əvvəllərinə qədər ölkə iqtisadiyyatında durğunluq meyilləri müşahidə edilirdi. 1973-cü il enerji böhranı, eləcə də 1975-ci il tsiklik böhranı və sosial proqramlara böyük həcmdə vəsaitlərin ayrılması iqtisadi inkişaf səviyyəsinə ciddi təsir göstərmişdi.

Eyni zamanda, 1970-ci illərin əvvəllərində Böyük Britaniya imperiyasında yalnız kiçik adalar qalmış, imperiyanın özü isə Britaniya əməkdaşlığına – keçmiş müstəmləkələrin daxil olduğu dövlətlərarası təşkilata çevrilmişdi.

1970-cu ildə M.Tetçerin rəhbərlik etdiyi hökumət iqtisadi siyasətin konseptual bazasında dəyişiklik etmiş, yeni keynisçi yanamşa neoliberalizmlə əvəz olunmuşdu. Rəqabətin stimullaşdırılması, ABŞ-ın həyata keçirdiyi kursa müvafiq olaraq islahatlar kompleksinin tətbiqi iqtisadi proseslərin dinamizmini əhəmiyyətli dərəcədə artırmışdır. Uzunmüddətli tənəzzülün monetarizm siyasətinə istinadla qarşısının alınması prosesi start götürdü:

1. Xərclərin və vergilərin azaldılması;

2. Müflis olmuş müəssisələrə subsidiyaların verilməməsi;

3. Dövlətə məxsus olan müəssisələrin özəlləşdirilməsi.

Bu, əslində Tetçer hökumətinin «ümumrifah dövləti» konsepsiyasından imtina etməsi demək idi. Yəni, bu konsepsiyanın mahiyyətində dayananlardan: vergiqoymanın yüksək dərəcəsindən, pulsuz təhsil, səhiyyə xidmətləri və dövlət təqaüd sistemindən və s. imtina edilirdi. «Hər kəs üçün» sosial zəmanət konsepsiyası fərdi müstəviyə keçirilir – «hər kəs özü üçün» konsepsiyası ilə əvəzlənirdi.

Ümumiyyətlə, «tetçerizm» İngiltərə iqtisadiyyatı üçün kifayət qədər effektiv nəticələr verdi. Tetçer hökuməti tərəfindən iqtisadiyyatda aparılan struktur dəyişiklikləri, istehsalatın modernləşdiril-

downloaded from KitabYurdu.org

məsinin nəticəsi olaraq 1980-ci ilin əvvəllərindən etibarən iqtisadi yüksəliş dövrü başladı (cədvəl 14.3).

Sosial-iqtisadi həyatın əksər sferalarında sabitqədəmli artıma nail olundu. Bu dövrdə İngiltərə ÜDM-ün artım tempinə görə Avropada birinci yeri tuturdu.

***Cədvəl 14.3***

***Böyük Britaniyanın iqtisadi inkişaf dinamikası***

| Göstəricilər | 1938 | 1946 | 1950 | 1970 | 1983 | 1983/1938-ə nisbətən (%-lə) |
|---|---|---|---|---|---|---|
| 1. Əhali, mln. n. | 48 | 50 | 50 | 56 | 56 | +16,6% |
| 2. ÜDM (1958-ci ilin qiymətləri ilə), mlrd. f.st. | - | - | 16,7 | 28,7 | - | x |
| 3. Məcmu daxili kapital qoyuluşu (1958-ci ilin qiymətləri ilə), mlrd. f. st. | 2,3 | - | 2,5 | 7,2 | - | x |
| 4. Sənaye istehsalının fiziki həcmi (1975=100) | - | - | 56 | 100 | 107 | x |
| 5. Elektrik enerjisi istehsalı, mlrd. kvt/s | 35 | 43 | 67 | 246 | 260 | +7,4 dəfə |
| 6. Neft hasilatı, mln. t. | - | 2,0 | 8,7 | 95 | 113 | +56,5 dəfə(1) |
| 7. Kömür istehsalı, mln. t. | 231 | 193 | 220 | 144 | 119 | -48,5% |
| 8. Çuqun istehsalı, mln. t. | 6,9 | 7,9 | 9,8 | 17,0 | 9,6 | +39,1% |
| 9. Polad istehsalı, mln. t. | 10,6 | 12,9 | 16,6 | 28,3 | 15 | +41,5% |
| 10. Alüminium istehsalı, mln. t. | 19,0 | 32,0 | 30,0 | 202 | 128 | +6,7 dəfə |
| 11. Sement istehsalı, mln. t. | 7,8 | 6,7 | 9,9 | 17,1 | 13,4 | +71,8% |
| 12. Avtomobil istehsalı, mln. əd. | 445 | 365 | 784 | 2098 | 1265 | +2,8 dəfə |
| O cümlədən: 12.1. Mİnik avtomobili, mln. əd. | 341 | 219 | 523 | 1641 | 1025 | +3,0 dəfə |
| 13. Ticarət gəmiləri, min rep.t. | 1026 | 1121 | 1325 | 1237 | 213 | -79,3% |
| 14. Televizor istehsalı, min əd. | - | - | 541 | 2213 | 2400 | +4,4 dəfə(2) |
| 15. Plasmas istehsalı, | - | 105 | 157 | 1350 | 1960 | +18,6 də- |

downloaded from KitabYurdu.org

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| min. t. | | | | | | fə[1] |
| 16. Kimyəvi liflər istehsalı, min t. | 67 | 81 | 168 | 599 | - | x |
| 17. Pambıq parça istehsalı, mln. m$^2$ | 3328 | 1487 | 1941 | 627 | 300 | -11,1 dəfə |
| 18. Yun parça istehsalı, mln. m$^2$ | 290 | 289 | 376 | 214 | 108 | -62,8% |
| 19. Ayaqqabı istehsalı, mln. cüt | 132 | 115 | 139 | 197 | 118 | -10,7% |
| 20. Taxıl yığımı, mln. t. | 2,0 | 2,0 | 2,6 | 4,2 | 8,7 | +4,3 dəfə |
| 21. Arpa yığımı, mln. t. | 0,9 | 2,0 | 1,7 | 7,5 | 10,2 | +11,3 dəfə |
| 22. Kartof istehsalı, mln. t. | 5,2 | 10,3 | 9,7 | 7,5 | 6,2 | +19,2% |
| 23. İxracat, mlrd. dol. | 0,96 | - | 6,0 | 19,4 | 91,7 | +95,5 dəfə |
| 24. İdxalat, mlrd. dol. | 1,7 | - | 7,0 | 21,7 | 100,1 | +58,8 dəfə |
| 25. Hərbi xərclər, mlrd. dol. | - | - | 2,4 | 5,3 | 35,7 | +14,8 dəfə[2] |

***Qeyd: 1) 1946-cı illə müqayisədə;***
***2) 1950-ci illə müqayisədə.***

### § 14.3.2. Fransanın iqtisadiyyatı

Müharibə və dördillik işğal Fransa iqtisadiyyatını tamamilə çökdürmüşdü. Həyat səviyyəsi ifrat dərəcədə aşağı düşmüş, istehsal gücləri dağıdılmış, yüksək inflyasiya prosesi gedirdi.

Marşall planında Fransa üçün nəzərdə tutulan vəsait iqtisadiyyatın tam bərpası prizmasından kifayətedici deyildi. Şarl de Qoll hökuməti böhrandan çıxış yollarını daxili resurslara istinadən həyata keçirməyə başladı.

Sosial-siyasi və iqtisadi problemlər kompleksinin həllinə yönəldilən siyasət iqtisadi ədəbiyyatda «Qollizm» adını almışdı. «Qollizm» dirçəliş kompaniyası adını almaq etibarilə aşağıdakı prinsiplərə istinad edirdi:

1. İqtisadiyyatın indikativ tənzimlənməsi (yalnız əsas istiqamətlərin tənzimlənməsi);
2. Dövlət üçün xüsusi əhəmiyyət daşıyan sahələrin birbaşa maliyyələşdirilməsi;
3. Güclü dövlət sektorunun (iqtisadiyyatda) yaradılması və təsir gücünün artırılması;
4. Dövlətin aktiv iqtisadi fəaliyyəti və onun funksiyalarının genişləndirlməsi;

downloaded from KitabYurdu.org

5. İqtisadiyyatın tənzimlənməsində inzibati və siyasi metodlardan geniş istifadə.

«Qollizm» - bir iqtisadi siyasət konsepsiyası olmaq etibarilə aşağıdakıları özündə ehtiva edirdi:

1. Zorakı üsullardan istifadə etməklə dövlət əsas istehsal güclərinə (müxtəlif formalarda) sahiblənməyə çalışırdı;
2. Fransanın dünya iqtisadiyyatında rolunun artırılması;
3. Böyük həcmdə dövlət qiymətli kağızları buraxmaq yolu ilə kapitalın ölkə daxilində səfərbərliyinə nailolma;
4. İqtisadiyyatın planlı inkişafının həyata keçirilməsi;
5. Sosial təminat və sosial zəmanət sisteminin yaradılması;
6. Elmtutumlu istehsalat sahələrinin yaradılması;
7. Dövlət aparatının təkmilləşdirilməsi.

1954-cü ildən etibarən iqtisadi yüksəliş müşahidə edilirdi. 1954-1958-ci illər ərzində Fransa sənayesinin inkişaf tempinə görə inkişaf etmiş ölkələrin böyük əksəriyyətini ötüb keçmişdi. 1950-ci illərin ortalarında əsas kapitala yönəldilən investisiyaların ümumi həcmi müharibədən əvvəlki dövrlə müqayisədə 2,6, sənaye məhsulu istehsalı isə 2 dəfə artmışdı.

Dövlətin iqtisadi həyatda xüsusi çəkisi kifayət qədər böyük idi: 1958-ci ildə kömür sənayesinin 97%-i, qaz istehsalının 95%-i, aviasiya sənayesinin və elektrik enerjisi istehsalının 80%-i, avtomobil sənayesinin isə 40%-i dövlətə məxsus olmuşdu. ÜDM-ün 13%-i dövlət müəssisələrində istehsal olunurdu.

1946-cı ildə planlaşdırma üzrə baş komissariat yaradılmışdır ki, onun əsas funksiyası indikativ planlaşdırmanın həyata keçirilməsindən ibarət idi:

- Birinci planın (1947-1953) - əsas vəzifəsi milliləşdirilmiş sektorun modernləşdirilməsi və təsərrüfatın bərpası idi;
- İkinci planda (1954-1957) - özəl firmaların rəqabət qabiliyyətliliyinin yüksəldilməsi nəzərdə tutulurdu;
- Üçüncü plan (1958-1961) – proteksionizmdən «açıq iqtisadiyyata» keçidi özündə ehtiva edirdi.

1960-cı ildə Avropa tipinə oxşar nəhəng müəssisələrin yaradılmasına başlandı.

1971-1975-ci illərdə həyata keçirilən altıncı planda beynəlxalq miqyaslı milli şirkətlərin yaradılması nəzərdə tutulurdu. 1976-1980-ci illərdə isə (yeddinci plan) «sənayenin yeni istiqaməti» siyasətinə keçid baş verdi.

downloaded from KitabYurdu.org

Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatının xarici bazarlara istiqamətlənməsi prosesi öz başlanğıcını 1960-cı ildən götürür. İxracat məhsullarının istehsal tempi daxili istehlaka yönəldilən məhsullarla müqayisədə 1,2 dəfə yüksək olmuşdu. 1983-cü ildə müharibədən əvvəlki dövrlə müqayisədə əksər iqtisadi göstəricilər üzrə sürətli artım baş vermişdi (cədvəl 14.4).

1970-ci illərin ortalarından etibarən «Qollizm» siyasəti iqtisadi inkişafın liberal konsepsiyası ilə əvəz olundu.

***Cədvəl 14.4***

***Fransanın iqtisadi inkişaf dinamikası (1938-1983)***

| *Göstəricilər* | *1938* | *1950* | *1970* | *1983* | *1983/1938-ə nisbətən (%-lə)* |
|---|---|---|---|---|---|
| 1. Əhali, mln. n. | 41,2 | 41,9 | 51,0 | 54,2 | +31,5% |
| 2. Sənaye istehsalının fiziki həcmi (1975=100) | - | 28 | 88 | 113 | x |
| 3. Elektrik enerjisi istehsalı, mlrd. kvt/s | 20,7 | 33 | 140,7 | 283,6 | +13,7 dəfə |
| 4. Neft hasilatı, mln. t. | 6,9 | 14,5 | 102,5 | 76,5 | +11,1 dəfə |
| 5. Təbii qaz hasilatı, mlrd $m^3$ | - | 0,2 | 6,9 | 13,1 | +65,5 dəfə(1) |
| 6. Kömür istehsalı, mln. t. | 46,5 | 50,8 | 37,4 | 17 | -63,5 % |
| 7. Çuqun istehsalı, mln. t. | 6,0 | 7,8 | 19,1 | 13,9 | +2,3 dəfə |
| 8. Polad istehsalı, mln. t. | 6,1 | 8,6 | 23,8 | 17,6 | +2,9 dəfə |
| 9. Alüminium istehsalı, min. t. | 42 | 61 | 387 | 361 | +8,6 dəfə |
| 10. Sement istehsalı, mln. t. | 4,1 | 7,4 | 29 | 26,1 | +6,4 dəfə |
| 11. Minik avtomobili istehsalı, min. əd. | 185 | 257 | 2458 | 3228 | +17,4 dəfə |
| 12. Yük avtomobili istehsalı, min. əd. | 24 | 100 | 282 | 78 | +3,2 dəfə |
| 13. Ticarət gəmiləri, min rep.t | 47 | 181 | 960 | 321 | +6,8 dəfə |
| 14. Traktor istehsalı, min. əd. | 1,8 | 14,2 | 68,8 | 40 | +22,2 dəfə |
| 15. Metalkəsən dəzgah istehsalı, min t. | 16 | - | 52,7 | 32,6 | +2,0 dəfə |
| 16. Radio istehsalı, min əd. | - | 963 | 2900 | 2498 | +2,6 dəfə(1) |
| 17. Televizor istehsalı, min əd. | - | 5 | 1530 | 1958 | +391,6 dəfə(1) |
| 18. Soyuducu istehsalı, min əd. | - | 120 | 600 | 900 | +7,5 dəfə(1) |
| 19. Plasmas istehsalı, min. t. | 10,2 | - | 1250 | 3029 | +296,9 dəfə |
| 20. Sintetik lif istehsalı, min. t. | - | 1,7 | 176 | 261 | +153,5 dəfə(1) |
| 21. Pambıq parça istehsalı, mln $m^2$ | 183 | 1755 | 1299 | 800 | +4,4 dəfə |
| 22. İxracat, mlrd dol. | 15,5 | 3 | 17,9 | 91,3 | +5,9 dəfə |
| 23. İdxalat, mlrd. dol. | 25,4 | 3 | 19,1 | 105,4 | +4,1 dəfə |
| 24. Hərbi xərclər, mlrd. dol. | - | 1,6 | 7,6 | 37,6 | +23,6 dəfə |

downloaded from KitabYurdu.org

***Qeyd: 1) 1950-ci illə müqayisədə.***

### § 14.3.3. Almaniyanın (AFR) iqtisadiyyatı

İkinci Dünya müharibəsi Almaniyanın sözün müstəqim mənasında iflası və dağıdılması ilə başa çatdı. Almaniya iki yerə bölündü. Qərbin nəzarəti altında olan ərazilərdə Almaniya Federativ Respublikası, SSRİ-nin işğal etdiyi ərazilərdə isə Almaniya Demokratik Respublikası yaradıldı.

Bu illər alman iqtisadiyyatı öz tarixinin ən mürəkkəb və ağır dövrünə qədəm qoymuşdu. Potsdam konfransının (1945-ci il) qərarı ilə sənaye müəssisələrinin istehsal gücləri təzminat kimi sökülüb aparılmışdı. ABŞ hökuməti və neoliberalizmin Frayburq məktəbi yaranmış situasiyanın dünya iqtisadiyyatına mənfi təsirini önləmək məqsədilə alman iqtisadiyyatının (AFR) yenidənqurulması istiqamətlərini işləyib hazırladı. İslahatların əsas məqsədi sosialyönümlü iqtisadiyyatın formalaşdırılmasından ibarət idi.

İslahatlar proqramı kansler V.Erxard tərəfindən həyata keçirilməyə başladı. Əslində, söhbət neoliberalizmin bazasında sosial bazar təsərrüfatının yeni konsepsiyasının işlənib hazırlanması və həyata keçirilməsindən gedirdi. Proqram 1948-ci ildən qiymət və pul islahatından, eləcə də mərkəzi idarəetmə sisteminin yenidən qurulması ilə sıx bağlılıqla tətbiq olunmağa başladı. Pul islahatlarından sonra resursların inzibati bölgüsü və onun üzərində nəzarət ləğv edildi. Və, AFR sabitqədəmli inkişaf prosesinə qədəm qoydu. İstehsalın ümumi həcmi 1951-ci ildə 1936-cı il səviyyəsini üstələdi.

1949-cu ilin sonunda sənaye istehsalı 1936-cı il səviyyəsinə çatdı. 1950-ci illərin sonunda isə həmin səviyyəni 14,4% ötüb keçdi. Bununla belə, daxili ziddiyyətlərin (təkrar istehsal prosesində) çoxalması 1966-1967-ci illərdə tsiklik böhranla sonuclandı. 1974-1975-ci illərin istehsal «artıqlığı» böhranı isə daha ağır nəticələrə gətirib çıxardı.

ÜDM 5%, sənaye istehsalı 12,3%, əsas kapitala yönəldilən daxili investisiyaların həcmi 18,6% aşağı düşdü. Tsiklik böhran beynəlxalq miqyas almış enerji böhranı və bir sıra sənaye sahələrindəki struktur böhranla çulğalaşaraq iqtisadi proseslərin normal gedişinə ciddi əks-təsir göstərdi. Növbəti tsiklik böhran 1980-1982-ci illərdə baş verdi.

Böhranların xronoloji ardıcıllıqla sıralanması ölkənin iqtisadi siyasətində köklü dəyişikliklərə səbəb oldu. AFR neokonservatizmin

downloaded from KitabYurdu.org

«yumşaq» variantını tətbiq etməyə başladı və eyni zamanda, iri kapitalın öncül rolunu strateji xətt kimi saxlamaqda davam edirdi. 1950-ci illə müqayisədə 1983-cü ildə ölkə iqtisadiyyatının əksər sahələri üzrə (kömür sənayesi istisna olmaqla) sabit artıma nail olunmuşdu (cədvəl 14.5).

1983-cü ildən etibarən isə, daha sürətli iqtisadi yüksəliş baş verdi.

1990-cı ildə AFR və ADR-in birləşməsi nəticəsində ərazi 30%, əhali isə 64 mln. nəfərdən 80 mln. nəfərə qədər artdı. Sosialist təsərrüfat tipinin hökmran olduğu ADR-in ərazisində real bazar münasibətlərinin formalaşması istiqamətində islahatlar həyata keçirildi. Yeni ərazilərə yatırılan irihəcmli investsiyalar nəticə olaraq dövlət büdcəsində kəsirin yaranmasına, dövlət borcunun və işsizliyin artımına gətirib çıxardı.

*Cədvəl 14.5*

***AFR-nin iqtisadi inkişaf dinamikası (1950-1983)***

| *Göstəricilər* | *1950* | *1970* | *1983* | *1983/1950-ci ilə nisbətən (%-lə)* |
|---|---|---|---|---|
| 1. Əhali mln. n. | 47,8 | 59,5 | 59,7 | +24,9% |
| 2. Sənaye istehsalının fiziki həcmi (1975=100) | 21 | 95 | 115 | x |
| 3. Elektrik enerjisi istehsalı, mlrd. kvt/s | 44,5 | 237 | 374 | +8,4 dəfə |
| 4. Kömür istehsalı, mln. t. | 111 | 111 | 82 | -26,2% |
| 5. Sənaye qazı istehsalı, mlrd. $m^3$ | 14,1 | 15,4 | 24,1 | +70,9% |
| 6. Çuqun istehsalı, mln. t. | 9,5 | 33,6 | 26 | +2,7 dəfə |
| 7. Polad istehsalı, mln. t. | 12,1 | 45 | 35 | +2,9 dəfə |
| 8. Alüminium istehsalı, mln. t. | 83 | 309 | 1012 | +12,2 dəfə |
| 9. Plasmas istehsalı, min. t. | - | 4360 | - | x |
| 10. Minik avtomobili istehsalı, min. əd. | 216 | 3528 | 3568 | +16,5 dəfə |
| 11. Yük avtomobili istehsalı, min. əd. | 89 | 315 | 290 | +3,2 dəfə |
| 12. Ticarət gəmiləri, min rep.t. | 155 | 1687 | - | x |

downloaded from KitabYurdu.org

| | | | | |
|---|---|---|---|---|
| 13. Radio istehsalı, mln. əd. | 2,0 | 6,7 | 4,6 | +2,3 dəfə |
| 14. Televizor istehsalı, mln əd. | - | 2,9 | 4,8 | +65,5%(1) |
| 15. İxracat, mlrd. dol. | 2,0 | 34,2 | 169,4 | +84,7 dəfə |
| 16. İdxalat, mlrd. dol. | 2,7 | 30 | 152,9 | +56,6 dəfə |
| 17. Hərbi xərclər, mlrd. dol. | - | 8,3 | 31,6 | +3,8 dəfə(1) |

***Qeyd: 1) 1970-ci illə müqayisədə.***

Müəyyən neqativ təmayüllərin mövcudluğuna baxmayaraq AFR Avropa İttifaqının güc mərkəzi olaraq qalmaqdadır. AFR-in dinamik iqtisadi inkişafının əsas səbəbləri sırasına aşağıdakıları aid etmək olar:

1. İstehlakçı tələbinin yüksək səviyyəsi;
2. Əməkhaqqının yüksək səviyyəsi və işsizliyin azalması;
3. Yeni ərazilər hesabına (ADR) daxili bazarın genişlənməsi;
4. Elmi-texniki tərqqinin sürətli inkişafı;
5. İxracat yönümlü sahələrin üstün inkişafı.

## § 14.4. Qərb ölkələrində iqtisadi artım siyasəti (1945-1983)

II Dünya müharibəsindən sonrakı dövrdə Qərbin iqtisadi artım siyasəti yeni xarakter daşımağa başlamışdı. İqtisadi artım siyasətinin əsas xüsusiyyətləri kimi aşağıdakıları göstərmək olar:

1. İqtisadi artım siyasətinin konsepsiyası dəyişmiş, C.Keynsin, Y.Tinbergenin və Bevericin konsepsiyaları bazasında yeni iqtisadi doktrina formalaşmışdır. Yeni prioritetlər (əsasən C.Keynesin nəzəriyyəsinə istinadla) kimi iqtisadiyyatın dövlət tənzimlənməsinə üstünlük verməklə tam məşğulluq, antisiklik fiskal və büdcə siyasətinin xeyrinə gəlirlərin yenidən bölüşdürülməsi, sosial təminat və sosial həmrəylik ön plana çıxarılmışdı. Yeni iqtisadi doktrinaya keçidi "fəaliyyət azadlığı" doktrinasının süqutu, Almaniya və Fransada iqtisadiyyata dövlət müdaxiləsinin müsbət təcrübəsi və s. amillər şərtləndirirdi.

downloaded from KitabYurdu.org

2. 1950-1960-cı illərdə iqtisadi artım kifayətqədər stabil xarakter daşıyırdı. Adətən, Qərb ölkələrində iqtisadi inkişafa münasibətdə 1950-ci illəri "gümüş", 1960-cı illəri isə "qızıl" illər hesab edirlər.
Sənaye istehsalında orta illik artım tempi 6.5%, İƏİT-ın üzvü olan ölkələrdə isə 10% təşkil edirdi.[183]
3. Qərbi Avropa ölkələri "itirilmiş zamanın" yerini doldurmağa çalışırdılar. 1950-ci ildə Qərbi Avropa ölkələrinin ÜDM-i (birlikdə) ABŞ-ın analoji göstəricisinin 60.4%-ni təşkil edirdisə, 1970-ci ildə bu göstərici 100.4%-ə çatmışdı.
Qeyd edilən yönümdə "itirilmişin qaytarılması" dinamikası iqtisadi geriliyin azalması, uzunmüddətli staqnasiya, amerikan istehlak səviyyəsinə çatma və işçi qüvvəsinin keyfiyyətinin yaxşılaşması ilə müşaiyət olunurdu.
4. 1970-ci illərdə iqtisadi situasiya dəyişdi. Qərb ölkələrində staqfliyasiya prosesi başlandı. Bu prosesin xarakterik əlamətlərinə aşağıdakılar aiddir: Sənayenin artım tempi 13% aşağı düşdü; İnfliyasiya 10%-ə qədər yüksəldi və əksər qərb ölkələrində işsizlərin sayı xeyli artdı (1974-1975-ci illərdə - 7 mln. nəfər).

Eyni zamanda, qeyd etmək lazımdır ki, Qərb ölkələrinin iqtisadi artım siyasətinin və iqtisadi gerçəkliyin interpretasiyası müxtəlif konseptual baxışlar əsasında həyata keçirilirdi. Məsələn, E.Denison[184] iqtisadi artımın tədqiqini ümumi məhsuldarlığın artımına istinadla aparmış və böhranlı dövrləri bu prosesdən sərf-nəzər etmişdi.

Artım amillərini Denison iki kateqoriyaya bölürdü:

1. Fiziki parametrlər (əmək, kapital).
2. ETT ilə bağlı olan digər amillər.

Onun hesablamalarına görə 1950-1962-ci illərdə ABŞ-da əməyin xüsusi çəkisi 82%, kapitalın payı 18%, Avropa ölkələrində isə müvafiq olaraq 78% və 22% təşkil etmişdi. İqtisadi artımın səbəbləri və artım templəri arasındakı fərqlərin araşdırılması göstərmişdir ki, qeyd olunan dövr ərzində (1950-1962) ABŞ nəinki ETT-in, eləcə də iqtisadi artımın

[183]. Ван Дер Вее История мировой экономики – М; Наука, 1995.- С. 31-52
[184] Э. Денисон. Исследовение различий в темпах экономического роста – М; Прогресс, 1971.

downloaded from KitabYurdu.org




***Şəkil 14.1. E.Denisonun iqtisadi artımda müxtəlifliyin ölçülməsi metodikası***

tempinə görə Qərbi Avropa ölkələrindən geri qalırdı. Belə ki, artım tempi ABŞ-da 4%, Qərbi Avropa ölkələrində isə 4.8% təşkil etmişdi.[185]

ABŞ-da iqtisadi artım əvvəlcə əmək və kapitala əsaslanmaqla getmiş, sonralar isə məhsuldarlıq göstəricisi önə çıxmışdı. 1970-ci ildən

---

185 Зубарева Т.С. История экономики: Учеб. Пособие, Ч III. Новосибирск: НГТУ, 2001

downloaded from KitabYurdu.org

sonra isə yenidən üstünlük əmək və kapitala verilmişdir. Həmin zaman kəsiyində Qərbi Avropa ölkələrində iqtisadi artımın $^{2}/_{3}$ hissəsi əmək məhsuldarlığının yüksəlməsi hesabına əldə olunmuşdu.

E.Denisonun fikrincə, iqtisadi artım templəri arasındakı fərqlərin əsasında elmi-tədqiqatlara çəkilən məsrəflər və onların effektivliyi durur. Məsələn, ABŞ-da elmə çəkilən xərclər Qərbi Avropanın analoji göstəricisindən 4 dəfə, elmi-tədqiqatla məşğul olanların sayı isə 2.2 dəfə çox olmuşdu.[186]

Eyni zamanda, xərc vahidinə düşən istehsalın həcmi göstəricisi də ABŞ-da kifayətqədər yüksək olmuşdu. Bu göstərici üzrə İtaliya ABŞ səviyyəsinin 50%, İngiltərə, Fransa və Hollandiya – 66%, AFR-68%-ə çatmışdı.

Həmin tədqiqatın nəticəsi göstərir ki, Qərbi Avropa ABŞ-ın 1925-ci ildə resurslardan istifadə səviyyəsinə 1960-cı ildə çata bilmişdi.

Həmçinin:

- 1925-ci ildə ABŞ-da əmək məhsuldarlığının səviyyəsi Qərbi Avropada 1960-cı ildə əldə olunmuşdu;
- Həmin ildə ABŞ-da işçi qüvvəsinin keyfiyyəti 1960-cı il Qərbi Avropanın analoji göstəricisindən aşağı olmuşdu;
- İstehsalın təşkili səviyyəsi və idarəetmənin effektivlik dərəcəsi 1925-ci ildə ABŞ-da 1960-cı il Qərbi Avropa göstəricisi ilə eyni olmuşdu;
- Eləcə də məsrəf normaları, demək olar ki, üst-üstə düşürdü.

Sonrakı inkişaf prosesində Qərb ölkələri öz aralarında olan texnoloji uçurumu tədricən aradan qaldırmağa nail olmuşdur. Bununla belə, qeyd etmək lazımdır ki, E.Denisonun qiymətləndirmə metodikası sırf kəmiyyət ölçülərinə əsaslanırdı və keyfiyyət aspekti, tələbin yeri və rolu (ancaq təklif sferası araşdırılırdı) və s. nəzər-diqqətdən kənarda qalmışdı.

Fərqli interpretasiya strukturalistlər tərəfindən irəli sürülmüşdü. Onların fikrincə, sözügedən dövr ərzində iqtisadi artıma təsir göstərən əsas amillər sırasına aşağıdakılar aiddir:

1. İstehsalın tərkib elementlərinin daimi dəyişməsi. Yəni, yüksəliş və tənəzzül, əmək və kapitalın müxtəlif sferalar arasında yenidən bölgüsü və s.;

[186] Ван Дер Вес. История мировой экономики. М.: Наука, 1995.

downloaded from KitabYurdu.org

2. İstehsalın struktur dəyişikliyi: istehsalın sahəvi təşkili, texnologiyası və istehlakın strukturunun dəyişilməsi yönümündə baş verən dəyişiklik;
3. Yeni avadanlığın dövriyyəyə buraxılması.

Məhz bu yanaşma işçi qüvvəsinin keyfiyyət aspektini birmənalı olaraq ön planda tutmağa çalışırdı. Məhz insan kapitalının formalaşmasına xüsusi diqqət yetirilməyə başlanmışdır. Qərbi Avropa ölkələrində bu amilə əsaslanmaqla bir çox iqtisadi nailiyyətlər əldə olunmuşdu.

İqtisadi artım templəri və onların müxtəlif təzahür formalarının interpretasiyasında A.Luis modeli bir çox mətləblərin aşkarlanması baxımından diqqəti cəlb edir.

Modeldə aşağıdakılar öz əksini tapmışdı:

1. işçi qüvvəsinin çevikliyi: aqrar sektordan sənayeyə axın;
2. iqtisadi artımın səbatsızlığı: sənayenin ayrı-ayrı sahələrində əmək və kapitalın müxtəlif səviyyəli effektivliyi;
3. iki böyük sektorun mövcudluğu: kənd təsərrüfatı (torpaq, əmək) və sənaye (əmək və kapital). Modelin fəaliyyət mexanizmi aşağıdakı sxem əsasında həyata keçrilirdi:
   a) Sənaye məhsuluna olan ixrac tələbinin artımı işçi qüvvvəsinə olan tələbi yüksəldir;
   b) Sənayedə məşğulluğun artımı əməkhaqqı formasında ümumi gəlirlərin həcmini artırır və nəticədə, sənaye məhsuluna olan daxili tələb yüksəlir ki, bu da sənayeyə investisiya qoyuluşunun artmasına səbəb olur.

A.Luis artımın iki tipini fərqləndirirdi:

1. Birinci tip – sənayedə əlavə işçi qüvvəsinin istifadəsinin nəticəsi;
2. İkinci tip – kənd təsərrüfatında çalışanların sayının azalmasının nəticəsi;

Luis modelini tədqiq edən Kindleberqer (1950-ci illərin sonunda) aşağıdakı nəticələrə gəlmişdi:

- İstehsalın sürətli artımı fəal əhalinin, kapitalın artımı ilə müşayiət olunur – ləngimə isə onların ləng artımına əsasən baş verir;
- Qərb ölkələrini iqtisadiyyatın inkişaf səviyyəsinə görə 4 kateqoriyaya bölür (şəkil 14.2).

downloaded from KitabYurdu.org

<table>
<tr><th>İqtisadi inkişaf kateqoriyaları</th><th colspan="2">İqtisadi inkişafın nəticələri</th><th>Ölkələr</th></tr>
<tr><td rowspan="2">Birinci</td><td colspan="2">ÜDM-un istifadə olunan əmək və kapitalın artımı ilə sıx qarşılıqlı əlaqəsi</td><td rowspan="2">AFR, İtaliya, İsveçrə, Hollandiya</td></tr>
<tr><td colspan="2">Luis modeli təsbit olunur</td></tr>
<tr><td rowspan="2">İkinci</td><td colspan="2">Əlavə əmək və kapitaldan məhdud istifadə əsasında ÜDM-un zəif artım templəri</td><td rowspan="2">Böyük Britaniya, Belçika, İsveç, Norveç, Danimarka</td></tr>
<tr><td colspan="2">Luis modeli əks-asılılıqda təsbit olunur</td></tr>
<tr><td rowspan="2">Üçüncü</td><td rowspan="2">Bütün kontinqent üçün işçi qüvvəsinin ehtiyat fondu</td><td>ÜDM-un nisbi yüksək artım templəri, əməkdən istifadənin artımı, investisiyanın ləng artımı</td><td rowspan="2">İspaniya, Portuqaliya, Yunanıstan, Türkiyə, Yuqoslaviya</td></tr>
<tr><td>Luis modeli qeyd-şərtlərlə təsbit olunur</td></tr>
<tr><td rowspan="2">Dördüncü</td><td rowspan="2">Qaydalardan istisna</td><td>Ölkənin sürətli iqtisadi inkişafı əlavə işçi qüvvəsinin zəif dəstəklənməsi ilə müşayiət olunur</td><td rowspan="2">Fransa, Avstriya</td></tr>
<tr><td>Luis modeli adekvat deyil</td></tr>
</table>

***Şəkil 14.2. Luis modelinin Qərb ölkələrinin iqtisadiyyatına tətbiqi (Kindleberqerin tədqiqatlarında)***

Göründüyü kimi iki amilli Luis modeli qərbi Avropanın müharibədən sonrakı dövrü üçün gerçək xarakter daşıyır. Bu siyahıda yalnız Fransa və Avstriya yer almamışdır.

İqtisadi artımın tədqiqində yeni aspektlər ilkin olaraq C.Kornvollun modelində özünə yer almışdır. Bu modelə görə ilkin sektor əmək məhsuldarlığı və əməkhaqqının daha aşağı səviyyədə olan sahələrdən əlavə işçi qüvvəsi əldə edə bilər.

Bu o vaxt baş verə bilər ki, aşağıdakı şərtlər ödənsin:

downloaded from KitabYurdu.org

1. Müasir yüksək texnoloji və ənənəvi sahələrin mövcudluğu;
2. Yüksək məhsuldarlığa malik sahələrdə daha yüksək artım tempinin olması;
3. Müasir texnologiya tutumlu sahələrə keçmək istəyən müəyyən sayda işçilərin olması;
4. Əməkhaqqının sahələrarası ciddi reqlamentləşdirilmiş strukturunun olması;

Kornovoll modeli İƏİT-nin 12 ölkəsində özünü doğrultmuşdu.

C.Vasiaqonun tədqiqatları tədqiqat obyektinin yeni müstəviyə keçirilməsi ilə fərqlənir. Əsas ağırlıq mərkəzi iqtisadi sistemin çevikliyi üzərinə düşür. İqtisadi sistemin çevikliyi (institusional, mədəni, maddi, psixoloji funksiya və s.) bır sıra ölkələrdə inkişafın sabitliyini təmin edə bilmişdi. Texnloji tərəqqi işçi qüvvəsində gözlənilənləri ödəmək iqtidarına gəlmişdi. İqtisadi artım davam etməkdə idi. Lakin indi artım iqtisadiyyatın əsas sahələrinə investisiya qoyuluşu nəticəsində yüksəlmiş əmək məhsuldarlığının nəticəsi kimi çıxış edirdi. İnstitusional çevikliyin olmadığı ölkələrdə başqa məzmunlu iqtisadi situasiya formalaşırdı. Əvvəlcə iqtisadi yüksəliş müşahidə edilir, sonralar isə - işçi qüvvəsi təklifinin elastikliyi aradan çıxan kimi – artım templəri ya zəifləyir, ya da ümumiyyətlə, olmurdu. Sonrakı araşdırmalar belə bir qənaəti ortalığa qoydu ki, kapital qoyuluşunun fasiləsiz artımı artıq yetərli deyil, onu istehsalın ümumi strukturu ilə inteqrasiya etmək lazımdır. Eyni zamanda, digər xüsusiyyətlər də meydana çıxmağa başlamışdı. Məsələn, V.Zalterin modeli texniki tərəqqi ilə onun nəticələrinin sənayedə adaptasiyası arasında qarşılqlı asılılığa əsaslanır.

Bu modelin tətbiqi aşağıdakı nəticələrin əldə edilməsinə imkan vermişdi:

1. Avadanlığa qoyulan kapital yatırımlarının texnoloji optimumu ilə ondan istifadənin səviyyəsi arasında uçurumun mövcudluğu; məsələn, 1911-ci ildə ABŞ-ın metallurgiya sənayesində ən yaxşı avadanlığın məhsuldarlığı 0.313 ton polad, adi avadanlıqda 0.140 ton polad, 1926-cı ildə isə bu müvafiq olaraq 0.573 ton və 0.296 ton təşkil etmişdir.[187] Bu sahədə (1911-ci ildə) əmək məhsuldarlığı maksimum mümkün olan məhsuldarlığın 50%-ni təşkil edirdi. Yeni texnoloji mərhələyə keçid 15 il

[187] Ван Дер Вее. История мировой экономики. М.: Наука, 1995.- С.116

downloaded from KitabYurdu.org

ərzində baş vermişdir. Eyni zamanda, daha qabaqcıl olan müəssisələr müvafiq göstəricini 2 dəfə artıra bilmişdir.

2. İnvestisiya qoyuluşunun (həm genişlənmə, həm də istehsalın rasionallaşdırılması istiqamətində) artım tempinin yüksəlməsi əmək və kapitalın orta məhsuldarlıq göstəricilərinin artımına əlavə impuls verir. Nəticədə ümumi kapital qoyuluşunun potensial texnoloji optimumu ilə onun effektivlik səviyyəsi arasındakı fərq azalır.

Eyni zamanda, sübuta yetirildi ki, yüksək templərlə inkişaf edən sənaye sahələrində, bir qayda olaraq, məhsuldarlığın adekvat inkişaf sürəti müşahidə olunur.

İstehsalın artımı ilə məhsuldarlığın artım templəri arasında sıx əlaqə "Verdorn qanunu" kimi iqtisadi ədəbiyyata daxil edilmişdir.[188]

1970-ci illərdə ÜDM-də investisiyaların ən böyük xüsusi çəkisi Norveçdə (30.3%) qərarlaşmış, ABŞ-da isə 18.2% təşkil etmişdi.

Meddisonun qənaətinə görə, məcmu investisiyaların yüksək artım tempi aşağıdakılarla şərtlənir:

1. Uzunmüddətli istifadə olunan məhsulların istehsalını tələb edən istehlak cəmiyyətinin yaranması (ABŞ-da bu proses XX əsrin I yarısında başlanır);
2. Kənd təsərrüfatında əməyin mexanikləşdirilməsi (aqrar sektorda artıma səbəb olmuşdu);
3. Daxili maliyyələşmə mənbələri. Qərb ölkələri arasında aparılan əmək məhsuldarlığının müqayisəli təhlili (1870-1970) ABŞ-ın böyük üstünlüyə malik olduğunu ortalığa qoymuşdu.

1970-ci ilə qədər qeyd olunan sferada üstünlüyünü saxlayan ABŞ sonrakı dövrdə geriləməyə məruz qalmışdı. Bununla yanaşı, həmin ildən etibarən ABŞ innovator-dövlət statusuna yiyələnmişdir.

### § 14.5. Yaponiyanın iqtisadiyyatı

II Dünya müharibəsində məğlub olmuş Yaponiya iqtisadiyyatı xaos vəziyyətində idi. Müharibədə 2 mln. yapon həlak olmuş, yüngül sənaye sahələri tamamilə dağıdılmış, sənaye istehsalının həcmi (1945-ci ildə) 1935-ci ilin 28,5%-i təşkil edirdi. 1948-ci ildə əksər ölkələrdə istehsalın həcmi müharibəyə qədərki dövr səviyyəsinə çatmış, ancaq

[188] Ван Дер Вее. История мировой экономики. М.: Наука, 1995.- С. 117-120.

downloaded from KitabYurdu.org

Yaponiyada bu göstərici 52%-dən yuxarı qalxmamışdı. Qərbi Avropa ölkələrindən fərqli olaraq Yaponiya Marşall planına daxil deyildi və heç bir real yardım almamışdı (humanitar yardım – 2,2 mlrd. dol. istina olmaqla). 1939-1941-ci illərdən tətbiq edilən hərbi nəzarət xüsusi mülkiyyəti ləğv etməsə də, onun sərbəstliyini xeyli məhdudlaşdırmış, müəssisələrin özəlləşdirilməsi həyata keçirilməmişdir. Müharibədən sonrakı ilk illər ərzində də resursların birbaşa bölgüsü sistemi tətbiq olunurdu. Hiperinflyasiya ölkəni başına götürmüşdü. 1946-cı ildə həyata keçirilən pul islahatı da onu dayandıra bilməmişdi.

Sənayenin milliləşdirilməsi istəyi işğalçı rəhbərlik tərəfindən rədd edilmiş, amerikan bankirləri – C.Doc və K.Şoun tərəfindən hazırlanmış «Əks kurs» proqramı tətbiq olunmağa başlamışdı. Proqramda məqsəd yapon oliqarxları ilə strateji ittifaqın yaradılması və Yaponiyanın «Asiya emalatxanasına» çevrilməsi idi. Beləliklə, 1946-1952-ci illərdə həyata keçirilən proqram ictimai həyatın bütün sferalarını əhatə etməklə Yaponiyanın sürətli inkişaf yoluna çıxmasında mühüm rol oynamışdı.

1950-ci illərin ortalarından etibarən Yaponiya görünməmiş dərəcədə iqtisadi artım dövrünə qədəm qoydu. İqtisadi ədəbiyyatlarda «Yapon iqtisadi möcüzəsi» adı almış inkişafın əsas səbəbləri sırasına, bir qayda olaraq, aşağıdakıları aid edilir:

1. Daxili bazarın genişlənməsi;
2. Yüksəkixtisaslı işçi qüvvəsi;
3. Muzdlu əməyin xüsusi sistemi;
4. Xarici iqtisadi yardımdan yüksək effektiv istifadə;
5. Əsas kapitalın kütləvi şəkildə yeniləşdirilməsi;
6. Elmi-texniki nailiyyətlərin (nou-hau, patent, lisenziya) görünməmiş kütləvi alışı;
7. İstehsal prosesinin yüksək effektiv təşkili və idarəolunması sistemi: «yapon menecmenti».

Bir sıra tədqiqatçılar yapon iqtisadi möcüzəsinin bir makroiqtisadi və makrososial hadisə kimi meydana çıxmasının amillər sisteminə aşağıdakıların aid olunmasını məqsədəuyğun hesab edirlər:

1. Əlverişli coğrafi mövqe;
2. Zəruri ehtiyacları ödəyə biləcək həcmdə resursların yoxluğu: istehsalın strukturunun daima modernləşdirilməsini, resurs və enerjiyə qənaət üsuluna keçidi, alternativ enerji mənbələrinin axtarışını tələb edir;

downloaded from KitabYurdu.org

3. Yaponiyanın antihərbi konstitusiyası; ÜDM-in yalnız 1%-i hərbiyə yönəldilə bilər;

4. Yaponların bir millət kimi homogenliyi: Yapon milli dəyərlər sisteminin (inkişafda) istinad bazası rolunda çıxış etməsi.

Məlumatlardan göründüyü kimi, iqtisadiyyatın əsas sahələri üzrə artım dəfələrlə ölçülür. 1970-ci ildə Yaponiya iqtisadi inkişaf səviyyəsinə görə ABŞ-dan sonra dünyada ikinci yerə çıxdı.

downloaded from KitabYurdu.org

***Cədvəl 14.6***

***Yaponiyanın iqtisadi inkişaf dinamikası (1934-1983)***

| **Göstəricilər** | **1934** | **1951** | **1970** | **1983** | **1983/1934-cü ilə nisbətən (%-lə)** |
|---|---|---|---|---|---|
| 1. Əhali, mln. n. | 68 | 85 | 105 | 119 | +75% |
| 2. Sənaye istehsalının fiziki həcmi (1975=100) | - | 5,4 | 91,0 | 144 | x |
| 3. Elektrik enerjisi istehsalı, mlrd. kvt/s | 20 | 48 | 360 | 515 | +25,7 dəfə |
| 4. Kömür istehsalı, mln. t. | 36 | 39 | 40 | 17 | -52,8% |
| 5. Çuqun istehsalı, mln. t. | 1,7 | 3,1 | 68 | 72,9 | +42,8 dəfə |
| 6. Polad istehsalı, mln. t. | 3,8 | 6,5 | 93,3 | 97,2 | +25,6 dəfə |
| 7. Minik avtomobili istehsalı, min. əd. | - | 3,4 | 3179 | 7150 | +2102,9 dəfə(1) |
| 8. Yük avtomobili istehsalı, min. əd. | 3 | 31 | 2124 | 3960 | +1320 |
| 9. Ticarət gəmiləri, min rep.t. | 0,2 | 0,4 | 10,5 | 3,6 | +18 dəfə |
| 10. Radio istehsalı, mln. əd. | 0,2 | 0,4 | 32,6 | 13,1 | +65,5 dəfə |
| 11. Televizor istehsalı, mln əd. | - | - | 13,8 | 13,4 | x |
| 12. İxracat, mlrd. dol. | - | 0,8 | 19,3 | 146,7 | +183,4 dəfə(1) |
| 13. İdxalat, mlrd. dol. | - | 1,0 | 18,9 | 126,4 | +126,4 dəfə (1) |

***Qeyd: 1) 1951-ci illə müqayisədə.***

Eyni zamanda, baş verən «neft şoku» və bunun ardınca (1974-1975) istehsalın tənəzzülü, hiperinflyasiya və istehsal «artıqlığı» kimi təzahür edən iqtisadi böhran bütövlükdə iqtisadiyyatın əsaslı surətdə yenidən qurulması zərurətini ortalığa çıxardı. Məhz bu şəraitdə iqtisadi inkişafın neokonservativ modeli gündəliyə gəldi. «Vətəndaş rifahı» konsepsiyası «ictimai rifahın yapon modelinə» transfer olundu. Bu modelin əsas fərqləndirici xüsusiyyəti sosial problemlərin həlli ilə bağlı ictimai maliyyələşmənin minimal səviyyəyə endirilməsi idi. Əsas vurğu «azad fərd»in üzərinə qoyulur, yüksəkkeyfiyyətli əməyin sti-

downloaded from KitabYurdu.org

mullaşdırlımasına problem yaratmamaq məqsədilə sosial gəlirə zəmanət verirdi. «Ədalətli bölgü» prinsipi «bərabər imkanlar» prinsipi ilə əvəzləndi.

Aparılan islahatların nəticəsi olaraq Yaponiya ortaillik iqtisadi artım tempinə görə ABŞ-ı ötüb keçdi. Belə ki, 1988-ci ildə sözügedən göstərici ABŞ-da 0,9%, Yaponiyada isə 4-5% təşkil edirdi.

Eyni zamanda, ETİ-nın nailiyyətlərinin kütləvi alışı ilə yanaşı Yaponiya milli elmi-araşdırmalar, təcrübə-konstruktor işlərini də əhəmiyyətli dərəcədə sürətləndirmişdir. Elm və onunla bağlı sferaya çəkilən xərclərə görə Yaponiya ABŞ-dan sonra dünyada ikinci yerə, fundamental elm xərclərinə görə isə birinci yerə (ABŞ- 12,2%, Yaponiya 12,9%) çıxmışdı (1988-ci ildə).

Yapon iqtisadiyyatının yüksəkkeyfiyyət səviyyəsinə dəlalət edən göstəricilərdən biri də adambaşına istehlak olunan enerji daşıyıcılarının həcmidir. 1985-ci ildə bu göstərici Yaponiyada 2,6 t, ABŞ-da isə 6,7 t, yəni Yaponiyadan 2,6 dəfə çox təşkil etmiş, ÜDM-in adambaşına düşən həcmi isə Yaponiyada ABŞ-dan çox olmuşdu.

1990-cı illərin əvvəllərində Yaponiya hər bir işçiyə düşən robotların sayına görə dünyada birinci yerə çıxmışdı. Həmin dövrdə bütün dünyada istifadə olunan (istehsal proqramlarını həyata keçirən) 610 min texnoloji qurğunun 385 mini Yaponiyanın payına düşürdü.

Bugün Yaponiya dünya iqtisadiyyatının əsas güc mərkəzlərindən (ABŞ və Avropa İttifaqı ilə yanaşı) birinə çevrilmişdir.

### § 14.6. Çinin iqtisadiyyatı

XX əsrin əvvəllərində Çin inkişaf etmiş ölkələrin aqrar-xammal əlavəsinə çevrilmişdi. II Dünya müharibəsinə qədərki dövrdə Yaponiya Çini bütövlükdə işğal etməyə cəhd göstərirdi. SSRİ-nin hərbi-iqtisadi yardımı ilə işğaldan qurtaran Çin 1949-cu ildə Xalq Respublikası elan edildi. Sosialist təsərrüfat sisteminin quruculuğu prosesinə başlanıldı. Həyata keçirilən islahatlar proqramı sosial-siyasi və iqtisadi həyatın müxtəlif sferalarını əhatə edirdi. Əsas məqsəd əksər iqtisadi göstəricilər üzrə dünya səviyyəsinə çatmaqdan ibarət idi.

Bu gün Çin «iqtisadi möcüzəsi» adlandırılan yüksəliş siyasəti müəyyən xronoloji mərhələlərlə həyata keçirilməyə başladı:

1. İslahatların birinci mərhələsi (1949-1960) mülkiyyətin tam şəkildə milliləşdirilməsini, sosializm cəmiyyəti quruculuğu prosesini ehtiva edirdi. Artıq 1950-ci ildə kömür hasilatının 71,3%-i, neft hasila-

downloaded from KitabYurdu.org

tının 100%-i, elektrik enerjisi istehsalının 74%-i, polad istehsalının 97%-i, maşınqayırma sənayesinin 45%-i, yüngül və yeyinti sənayesinin əhəmiyyətli dərəcədə böyük hissəsi dövlətin əlində cəmləşdi. 1956-1958-ci illərdə istehsal vasitələri və mülkiyyətin ictimailəşməsi dərəcəsinin daha da yüksəldilməsi məqsədilə «Böyük sıçrayış» adlı siyasət yürüdülməyə başlandı. Bu siyasət yalnış prinsiplərə istinad etdiyinə görə (maddi həvəsləndirmədən imtina edilir, resursların, o cümlədən, istehlak mallarının birbaşa bölgüsü həyata keçirilir və s.) iqtisadiyyatda gözlənilən artım yerinə tənəzzül doğurdu.

2. İslahatların ikinci mərhələsi (1960-1978), bu mərhələdə «Böyük sıçrayış»dan imtina olunur. Ələlxüsus kənd təsərrüfatı sferasında buraxılmış yanlışlıqlar aradan qaldırılır. İqtisadiyyatın yeni sahələri: elektronika, neft-kimya sənayesi və s. yaradılır. Bununla belə, 1966-1976-cı illər ərzində «mədəni inqilab»ın başlanması dirçəlməkdə olan iqtisadiyyata mənfi təsir göstərmişdi.

1970-ci illərin sonuna yaxın Çin iqtisadi sisteminin əsas cəhətləri açıq-aydın şəkildə təzahür edirdi. Əsas xüsusiyyət – ifrat mərkəzləşmə ilə bağlı olmuşdu. Bazar və əmtəə təsərrüfatı inkar edilirdi. Bərabərlik prinsipi qalmaqda idi («Hamı bir qabdan yeyir»).

Ölkə iqtisadiyyatı – tənzimlənmənin yalnış prinsiplərə söykənməsi üzündən – silkələnməkdə idi. 1977-ci ildə sənaye istehsalının həcmi 1975-ci il səviyyəsinə də çatmırdı. Aqrar istehsalın həcmi azalır, ölkənin ərzaq asılılığı güclənir, həyat səviyyəsi durmadan aşağı düşürdü.

3. İslahatların üçüncü mərhələsi (1978). Bu dövrdə həyata keçirilən islahatların əsas istiqamətlərinə aşağıdakıları aid etmək olar:

- tənzimləmə siyasəti: əsas diqqətin ağır sənayeyə yönəldilməsinin nəticəsi olaraq iqtisadiyyatda yaranmış natarazlığı aradan qaldırmaq;
- yeniləşmə siyasəti: ölkənin sosialist modernləşdirilməsinə nail olmaq məqsədilə iqtisadi strukturların dəyişməsi;
- nizamlama siyasəti: maliyyə resurslarının iqtisadiyyatın ən perspektivli istiqamətlərinə yönəldilməsi;
- yüksəlmə siyasəti: istehsal edilən məhsulların fiziki həcminin artırılması, keyfiyyətin yüksəldilməsi.

Bazar elementlərindən istifadə etməklə iqtisadi həyatın kardinal şəkildə yeniləşməsinə yol açıldı. İlkin dövrlərdə əsas diqqət aqrar sferaya yönəldildi. 6 il ərzində (1979-1984) taxıl istehsalı 300 mln. ton-

downloaded from KitabYurdu.org

dan 400 mln. tona qədər artdı. Eyni zamanda, pambıq yığımı 2 dəfə çoxaldı.

1980-ci illərin ortalarında Çin taxıl, pambıq, çay, şəkər çuğunduru, ət və ət məhsulları və s. üzrə dünyanın ən iri istehsalçısına çevrildi. Qiymət səviyyəsi nəzərə alınmaqla adambaşına düşən gəlirin həcmi 2 dəfə artdı. Elə bu dövrdən başlayaraq Çin iqtisadiyyatına xarici kapitalın axını start götürdü. ABŞ, Yaponiya və AFR ilə daha aktiv əməkdaşlıq münasibətləri yarandı.

1984-cü ildə qəbul edilmiş «Təsərrüfat sisteminin islahatları haqqında» qərar iqtisadi dirçəlişi daha da sürətləndirdi.

1980-ci illərin ortalarından etibarən Çin pambıq parça və sement istehsalına görə dünyada birinci yerə, kömür hasilatı və televizor istehsalı üzrə ikinci yerə, kübrələr üzrə üçüncü, polad istehsalına görə isə dördüncü yerə çıxdı. Sənayenin yeni sahələri: avtomobil, aviasiya, nüvə və kosmik energetika və s. yarandı. ÜDM-da sənayenin xüsusi çəkisi 1949-cu ildəki 25,2%-dən 1985-ci ildə 53,7%-ə qədər yüksəldi. Bununla belə, dövlətin «hökmdar» rolu dəyişilməz olaraq qalırdı. Dövlət əsas mal ehtiyatlarına nəzarət edir, bazarların təchizatını həyata keçirir, ticarətin müxtəlif sferaları arasında münasibətləri əlaqələndirir, yaşayış məskənləri üzrə məhsulların bölgüsünü həyata keçirirdi.

Həmin dövrdən etibarən «açıq qapı» siyasəti yürüdülməyə başlanır. 1979-cu ildən etibarən orta illik artım tempi 10%-dən (bəzi illərdə 13-14%) aşağı düşməmişdir. 20 il ərzində (1978-1988) ÜDM 5,92 dəfə artmışdır ki, bu da praktiki olaraq iqtisadi potensialın 6 dəfə böyüməsi deməkdir.

Sözügedən dövr ərzində əkinçilikdə əmək məhsuldarlığı 7 dəfə artmış, illik taxıl istehsalı 500 mln. tona çatmışdı. Bu gün də Çinin iqtisadiyyatı yüksək artım tempini saxlamaqdadır. Bəzi proqnozlara görə Çin dünya iqtisadiyyatının əsas güc mərkəzlərindən birinə çevrilmək astanasındadır.

downloaded from KitabYurdu.org

## § 14.7. Türkiyə Respublikasının iqtisadiyyatı

İlk növbədə onu qeyd etməliyik ki, XVI və XVII əsrlərdə Osmanlı Dövləti, demək olar ki, bütün sahələrdə - sənaye, elm, texnologiya və s. – Qərbdən daha yüksək səviyyədə olmuşdur. Ancaq XVIII və XIX əsrlərdə Qərbi Avropanın sənaye inqilabını həyata keçirərək bir sıra sahələrdə maşınlı istehsala keçməsi, Osmanlı Dövlətinin bu prosesdən kənarda qalması və inkişaf dinamizmini itirməsi siyasi, iqtisadi və hərbi güc balansının Qərbin lehinə dəyişməsinin əsas səbəbidir.

Osmanlının çöküşündə əsas faktorlardan biri də kökləri qədim tarixlərə söykənən iqtisadiyyatın, əsasən qeyri-türk və qeyri-müsəlmanların əlində olması idi: Türklər əsasən əkinçi, məmur, əsgər və kiçik tacir olduğu halda, sənaye, ticarət, maliyyə və xidmətlər sektoru, demək olar ki, azlıqların əlində idi. Mülkiyyətin etnik strukturu bu sektorlarda yaradılan kapital yığımının iqtisadiyyatın digər sektorları ilə inteqrasiyasına da maneə olmuşdur. Bu sektorlardakı qazancların mühüm bir hisssəsi iqtisadiyyata dönməmiş və ölkə xaricinə transfert edilmişdir.

Bütün bunlarla yanaşı, Osmanlının vaxtaşırı müharibələrə və iç çəkişmələrə cəlb edildiyini və bunun nəticəsində çox böyük maddi və mənəvi itkilərə məruz qaldığını da nəzərə almalıyıq. Anadolu Respublika öncəsindəki on il ərzində müxtəlif cəbhələrdə amansız savaşlarla üz-üzə qalmışdır. Bu savaşlar və çəkişmələrdə ən çox zərəri imperatorluğun əsasını təşkil edən türklər görmüşdür. Respublika qurulduğu illərdə Türkiyə Respublikasına miras qalan torpaqlar üzərində 95%-i türklərdən ibarət olan kasıb və yorğun, əksəriyyəti kəndlərdə yaşayan 13 milyonluq bir xalq qalmışdır.

Göründüyü kimi, imperatorluqdan Türkiyə Respublikasına qalan maddi kapital yığımı çox aşağı olduğu kimi, insan kapitalı da yetərsiz idi. Belə ki, 1923-cü ildə qurulan Türkiyə Respublikasına, Osmanlı İmperiyasından aqrar sektora əsaslanan, yoxsul, geri qalmış və xarici borcları yüksək səviyyədə olan bir iqtisadi struktur miras qalmışdır.

downloaded from KitabYurdu.org

**- 1923-1930-cu illər Türkiyə iqtisadiyyatı: liberal iqtisadi siyasət mərhələsi**

Türkiyə Respublikasının ilk rəhbərləri 1923-1930-cu illər arasında liberal və azad bazara əsaslanan bir iqtisadi modelə üstünlük vermişlər.

**Yeni Türkiyə Respublikasının 1923-cü il İzmir İqtisad Konqresində qəbul olunmuş**

**İQTİSADİYYAT ANDI**

**Maddə 1.** Türkiyə, Milli sərhədləri daxilində ləkəsiz bir müstəqillik ilə dünyanın sülh və irəliləməsini təmin edəcək subyektlərindən biridir.

**Maddə 2.** Türkiyə xalqı milli suverenliyini qanı və canı bahasına əldə etdiyindən, onu heç bir şeyə fəda etməyəcək və milli suverenliyinə əsaslanan Millət Məclisi və hökumətinə daima yardımçı olacaqdır.

**Maddə 3.** Türkiyə xalqı dağıdıcı deyil, yaradıcıdır. Fəaliyyətlərini iqtisadi baxımdan ucaltmaq məqsədi daşıyır.

**Maddə 4.** Türkiyə xalqı istifadə etdiyi əşyanı mümkün olduğu qədər özü hazırlar. Çox çalışar, zamanda, sərvətdə və idxalatda israfdan çəkinər. Milli istehsalın artmasını təmin etmək üçün lazım olduğu halda gecə-gündüz çalışmanın mümkünlüyünü prinsip olaraq qəbul edər.

**Maddə 5.** Türkiyə xalqı, təbii resurslar baxımından bir növ qızıl xəzinəsi üzərində oturduğunu dərk edir. Meşələrini övladı kimi sevər, bunun üçün ağac bayramları keçirər, yeni meşələr salar. Mədənlərini öz milli istehsalı üçün işlədər və təbii resurslarını hər kəsdən daha çox tanımağa çalışar.

**Maddə 6.** Oğurluq, yalançılıq, riya və tənbəlik ən böyük düşmənimiz, geri qalmışlıqdan uzaq dindarca inanc qüvvəsi hər şeydə əsasımızdır. Hər zaman yararlı yenilikləri sevərək qəbul edərik. Türkiyə xalqı müqəddəs torpaqlarına, şəxslərinə və mallarına qarşı düşmənin fəsad və təbliğatlarından nifrət etməyi və daim bunlarla savaşmanı vəzifə bilər.

**Maddə 7.** Türklər, elm və yaradıcılıq aşiqidir. Türk hər yerdə həyatını qazana biləcək formada yetişər, lakin, hər şeydən, əvvəl məmləkətinin sərvətidir. Maarifə verdiyi müqəddəslik səbəbindən (Mevlid-i Şerif) Qəndil gününü, eyni zamanda kitab bayramı kimi qeyd edər.

**Maddə 8.** Bir sıra hərblər və çətinliklərdən dolayı azalan əhalimizin artması ilə yanaşı, sağlamlığımızın, həyatımızın qorunması ən birinci əməlimizdir. Türk, mikrobdan, pis havadan, virusdan və çirklilikdən çəkinər, bol və saf hava, bol günəş və təmizliyi sevər. Atalarımızdan qalan at minmə, ox atma, ovçuluq, dənizçilik kimi idman növlərinin yaşadılmasına çalışar. Heyvanlarına da eyni diqqət və yardımı göstərməklə yanaşı, cinslərini yaxşılaşdırar və saylarını çoxaldar.

**Maddə 9.** Türk, dininə, milliyyətinə, torpağına, həyatına və təşkilatlarına düşmən olmayan millətlərlə daim dostdur, xarici kapitala qarşı deyildir. Ancaq öz yurdunda dilinə və qanununa uymayan təşkilatlarla əlaqə qurmaz. Türk, elm və sənətdəki yenilikləri haradan olursa olsun, birbaşa alar və hər formadakı münasibətlərində çoxlu vasitəçi istəməz.

**Maddə 10.** Türk, açıq alın ilə sərbəstcə çalışmağı sevər, işlərdə inhisarçılığı sevməz.

**Maddə 11.** Türklər hansı peşə sinifində olurlarsa-olsunlar, bir-birilərini candan sevərlər. Peşə və ixtsaslar olaraq əl-ələ verərək birliklər qurar, məmləkətini və bir-birilərini tanımaq, anlaşmaq üçün səyahətlər və birləşmələr təşkil edər.

**Maddə 12.** Türk qadını və müəllimi, övladlarını bu "İqtisadiyyat Andı"na görə yetişdirər.

downloaded from KitabYurdu.org

Bu dövr iqtisadi siyasətinin formalaşmasında 17 fevral-4 mart 1923-cü illər arasında keçirilən İzmir İqtisad Konqresinin böyük rolu vardır. Türkiyə Respublikasının hələ rəsmi elan edilməsindən əvvəl bu konqresin keçirilməsində əsas məqsəd, gələcəkdə həyata keçiriləcək iqtisadi siyasətin əsas prinsiplərini, zəruri tədbirlərini müəyyənləşdirmək və yeni idarəedici heyətin cəmiyyətin öndə gələn varlı sinifinin təmsilçilərilə tanış edilməsi olmuşdur. Konqresdə sənayeçilər, tacirlər, əkinçilər və işçilər olmaqla cəmiyyətin 4 əsas təbəqəsindən 1135 nümayəndə iştirak etmiş və hər qrup öz problemlərini və istəklərini rəsmi şəkildə təqdim etmişdir. Konqresdə yeni Türkiyənin 12 maddəlik "İqtisadiyyat Andı" və iqtisadi qrupların istək və təkliflərilə bağlı qərarlar qəbul edilmişdir. Gələcək Türk iqtisadi sisteminin əsas prinsiplərinin təsbit edildiyi "İqtisadiyyat Andı"nda əsas diqqəti çəkən məsələlər yerli istehsalın təşviqi, ifrat idxaldan çəkinmək, azad sahibkarlıq və çalışma azadlığını təmin etmək, inhisarçılığa imkan verməmək, iqtisadiyyata faydalı olması şərtilə xarici sərmayəyə icazə verilməsidir.

Bu dövr Türkiyə iqtisadiyyatına, həyata keçirilən iqtisadi siyasətə təsir göstərən mühüm bir faktor da 1923-cü ildə imzalanan Lozanna anlaşması olmuşdur. Anlaşmanın 28-ci maddəsinə əsasən Türkiyədə Osmanlının Qərb ölkələrinə tətbiq etdiyi bütün iqtisadi güzəştlər ortadan qaldırılır, Türkiyə gömrük tariflərini 5 il 1916-cı il səviyyəsində saxlayır, həmçinin də, ilk hissəsi 1929-cu ildən olmaqla, Osmanlının Qərb ölkələrinə olan borclarını ödəməyə başlayır.

***Cədvəl 14.7***

***Türkiyə Respublikasında həyata keçirilən iqtisadi siyasətin əsas mərhələləri***

| **İllər** | **İqtisadi siyasətin əsas xüsusiyyətləri** |
|---|---|
| 1923-1930 | Liberal iqtisadi siyasət, azad xarici ticarət |
| 1930-1935 | Etatizm, xarici ticarətdə məhdudiyyətlər |
| 1935-1950 | Sənaye planları, etatizm, xarici ticarətdə məhdudiyyətlər |
| 1950-1959 | Liberal siyasət, xarici kapitalın təşviqi, xarici ticarətdə məhdudiyyətlər |
| 1959 | Devalvasiya |
| 1960 | Hərbi çevriliş |
| 1960-1970 | Planlaşdırma, iqtisadiyyata dövlət müdaxiləsi, idxalı əvəz edən, sənayeləşməyə əsaslanan inkişaf modeli |
| 1971 | Hərbi müdaxilə |
| 1972-1979 | Koalisiya hökumətləri və iqtisadiyyatın "70 sentə möhtac olduğu" dövr |
| 1980 | Devalvasiya və hərbi çevriliş |

downloaded from KitabYurdu.org

**Mənbə**: Mahfi Eğilmez, Makroekonomi: Türkiyeden Örneklerle, Birinci Basım, Remzi Kitabevi, İstanbul, Kasım, 2009.- S.28

Cədvəl 14.7-də 1923-dən 1980-ci ilə qədər Türkiyədə iqtisadi siyasətin keçdiyi inkişaf mərhələləri ümumiləşdirilmişdir.

**- 1930-1939-cu illər Türkiyə iqtisadiyyatında etatizm mərhələsi**

Ölkədə həm özəl sektorun kapital çatışmazlığı və kapital yığımını təmin edə bilməməsi kimi səbəblərdən irəli gələrək, tələb olunan təşəbbüsləri həyata keçirə bilməməsi, həm də 1930-cu illərin iqtisadi böhranı nəticəsində iqtisadiyyatda dövlətin hakim olduğu planlaşdırma modelinə dönülmüşdür. Bu model, əsasən gömrük sərhədləri ilə qorunan, idxalı əvəz edən sənayeləşməni hədəfləyən, yüksək valyuta nəzarətinin tətbiq edildiyi, kapital mobilliyinin məhdud olduğu, sabit valyuta kursuna əsaslanan bir modeldir. Bu yolun seçilməsinə təsir göstərən amilləri aşağıdakı kimi ümumiləşdirə bilərik:

● 1923-1929-cu illər arasında tətbiq edilən liberal iqtisadi siyasətdən gözləntilərin özünü doğrultmaması;

●1929-cu il Dünya İqtisadi Böhranının milli iqtisadiyyata mənfi təsiri;

●Klassik iqtisadi siyasətin təklif artıqlığı formasında böhran yaratması və dövlətin iqtisadiyyata müdaxiləsini müdafiə edən iqtisadi yanaşmaların ortaya çıxması;

●SSRİ-də tətbiq edilən plana əsaslanan iqtsiadi siyasətin ilkin nəticələrinin uğurlu olması.

Bu dövrdə dövlət təşəbbüskarlığı dövlət müəssisələri vasitəsilə formalaşdırılmışdır. Dövlətçilik bir prinsip kimi iqtisadi fəaliyyət ilə istehsal münasibətləri və kapital yığımının müəyyənləşdirilməsində özünü göstərirdi. Dövlətə aid böyükhəcmli fabrik və zavodların qurulması, 1933-cü ildə başlayan və ikincisinə 1936-cı ildə start verilən beşillik sənaye planları çərçivəsində reallaşdırılmışdır.

Keynisçi iqtisadi siyasətin hakim olduğu bu model kiçik dəyişikliklərlə təxminən 1980-cı illərə qədər davam etmişdir. Bu müddət ərzində dövlət təkcə iqtisadi siyasətin müəyyənləşdirilməsində deyil, həmçinin istehsalda da mühüm çəkiyə malik olmuşdur.

downloaded from KitabYurdu.org

**- 1940-1945-ci illər Türkiyəsində "müharibə iqtisadiyyatı" mərhələsi**

İkinci Dünya müharibəsi Avropanın bir hissəsi olan Türkiyə üçün də yeni bir mərhələ açmışdır. Qiymətlərin sabitliyi və büdcə tarazlığı dövrün əsas iqtisadi siyasət hədəflərindən olmuşdur. Müharibə səbəbilə xarici ticarətin məhdud olması, hərbi xərclərinin artması, səfərbərlik kənd təsərrüfatı və sənaye sektorunda geriləmələrə səbəb olmuşdur. Bu dövrün ümumi qiymətləndirməsi aparılan zaman əsas və aralıq məhsulların bölüşdürülməsinin dövlət tərəfindən həyata keçirildiyi, rəsmən özəl ticarətə buraxılan sferalarda isə Milli Qorunma Qanununun nəzərdə tutduğu məcburi tədbirlərin və qiymət nəzarətinin tətbiqini göstərmək olar. Təbii olaraq bütün bu proseslər dövlətin iqtisadiyyata müdaxiləsinin və bürokratik əngəllərin artması formasında dəyərləndirilə bilər. Eyni zamanda, müharibə iqtisadiyyatının tələb etdiyi şərtlər daxilində bu tədbirlərin qaçılmaz olduğunu göstərməklə yanaşı, həmçinin, onu da qeyd etməliyik ki, ölkədə qara bazar, spekulyasiya kimi xoşagəlməz nəticələrə də səbəb olmuşdur. Belə bir şərait isə Türkiyədə kapitalizmin inkişafında mühüm önəm daşıyan kapital yığımı prosesinə də yol açmışdır.

**- 1946-1959-cu illər Türkiyə iqtisadiyyatı: liberalizmə dönüş mərhələsi**

Müharibədən sonra dünya iqtisadiyyatına inteqrasiya meyillərinin artdığı bu dövrdə, bir tərəfdə Amerikadan qaynaqlanan iqtisadi və demokratik dalğa, digər tərəfdə SSRİ-dən yayılan dalğa Türkiyənin həm iqtisadi siyasətində, həm də sosial-mədəni strukturunda müəyyənedici faktor olmuşdur. İqtisadi sferada 1946-cı ildə başlayan, sonradan isə 1950-ci ildən etibarən tətbiq edilən liberal siyasət, siyasi sferada isə yeni islahatlarla həmin dalğanın proeksiyası kimi qəbul edilə bilər. Böyük torpaq sahiblərinin liberal qüvvələrlə həyata keçirdiyi bu əməkdaşlıq istər ictimai fonda, istərsə də iqtisadi sferada mühüm və köklü dəyişikliklər yaratmışdır.

Özəl sektor, xüsusilə emal sənayesindəki intensiv təşviqlərlə inkişaf etməyə başlamış və maliyyə bazarlarına qədər yayılmışdır.

Bu dövrdə də Türkiyə 1920-ci illərdə olduğu kimi, əsas kənd təsərrüfatı məhsulları və xammal ixracatçısı, hazır məhsul idxalatçısı olaraq qalmışdı.

Müharibədən sonra yetərli valyuta ehtiyatı olan, hətta xarici ticarət profisitinə malik Türkiyə dünya iqtisadiyyatındakı sərbəstləşmə

downloaded from KitabYurdu.org

doktrinasının təsirilə xarici yardımlar əldəetmə cəhdi də göstərmiş və "Marşal Planı" çərçivəsində xarici yardımlar almışdır.

II Dünya müharibəsi illərində, xüsusilə ticarət kapitalının sürətlə artması və bu təbəqənin daxili və xarici faktorların da təsirilə ictimai və iqtisadi proseslərdə ön plana çıxması transformasiyanın müəyyənedici xüsusiyyəti olmuşdur. Bu xüsusiyyət, aqrar sektorda sürətli avtomatlaşma, yeni sahələrin dövriyyəyə daxil olması, qiymət dəstəkləmə siyasətləri ilə kəndlilərin bazara yönəlməsilə dəstək qazanmışdır.

Bu dövrdə Türkiyə iqtisadiyyatında ilk dəfə olaraq (1958-ci ildə) BVF-nin stabilləşdirmə proqramı tətbiq edilmiş və lirə devalvasiya olunmuşdur.

Bu dövrün digər bir xüsusiyyəti, Türkiyə-Avropa İttifaqı arasındakı münasibətlər zəncirinin ilk halqasının 31 iyul 1958-ci ildə Türkiyənin müraciəti əsasında başlaması olmuşdur.

**- (1960-79-cu illər) Türkiyə iqtisadiyyatında planlaşdırma və idxalı əvəz edən sənayeləşmə siyasəti mərhələsi**

Hərbi hökumətlə birlikdə yeni Konstitusiya və iqtisadiyyatdakı sosial tənzimləmələrin artması, inkişafın beşillik inkişaf planları çərçivəsində həyata keçirilməsi bu dövrün əsas xüsusiyyətləridir. Özəl sektor üçün yol göstərici, dövlət sektoru üçün məcburi xarakter daşıyan planın ilki 1963-1967-ci illəri əhatə etmişdir. Ancaq bu planlar 1980-ci ildən sonra mahiyyətini tamamilə itirmiş və tam indikativ xarakter alaraq bu günə qədər davam etmişdir.

Planlı dövrün sənayeləşmə strategiyasını idxalı əvəz edən sənayeləşmə strategiyası kimi səciyyələndirmək mümkündür. Bu dövrdə inkişaf, əsasən milli mənbələrə əsaslanaraq davam etdirilmişdir. Klassik qarışıq iqtisadiyyat modelinin tətbiq olunduğu bu dövr bazar iqtisadiyyatının instusional çatışmazlıqları ilə də yadda qalmışdır.

Bu dövrün əsas xarakterik xüsusiyyətlərindən biri Avropa Birliyilə olan münasibətlərin inkişaf etməsi olmuşdur. Belə ki, 1839-cu ildə avropalaşma yolunda ilk addımı atan, 1923-cü ildə Avropanın bütün institutlarını tətbiq edən Türkyə 1950-ci illərdən sonra Avropa Birliyilə inteqrasiya prosesinə start vermişdir. 1963-cü ildə imzlanan Ankara Sazişi ilə tərəflər arasında əlaqələri idarə edəcək ortaq qurumlar formalaşdırılmış, 1987-ci ildə isə birtərəfli qaydada Birliyə üzvlük tələbi rəsmən bildirmişdir.

downloaded from KitabYurdu.org

1960-ci illərdə ölkədə nisbətən stabil iqtisadi konyuktura müşahidə olunsa da, 1974-cü ilin neft böhranı ilə dalğalanma prosesi başlamış və dövrün sonunda iqtisadiyyat qeyri-stabil bir struktura çevrilmişdir.

İqtisadi sahədə baş verən böhran, siyasi və sosial sahələrdəki müxtəlif növ çaxnaşmalarla birlikdə 12 Sentyabr 1980-ci il hərbi çevrilişini doğurmuşdur. Ancaq 24 yanvar 1980-ci il Stabilləşdirmə Tədbirlərilə iqtisadi baxımdan yeni bir dövr başlamışdır.

## § 14.8. Azərbaycan: II Respublika inkişaf prosesində

Əvvəllər, qeyd etdiyimiz kimi, sovet imperiyasının tərkibinə daxil olduqdan sonra (1920) respublikada əmtəə-pul münasibətlərinin və tədavül sferasında əlaqələrin dərin deformasiyasına əsaslanan inhisar istehsalçılarla nomenklatur istehlakçılar arasında əlaqələrin mürəkkəb konqlomeratı formasında "sosialist bazarı" təşkil tapmışdı. II Dünya müharibəsi ərəfəsində Azərbaycanda sosialist təsərüfat tipinin Stalin variantı tam şəkildə qərarlaşmışdı. SSRİ-nin tərkibində Azərbaycan, xüsusilə Bakı şəhəri ordunun əsas cəbbəxanalarından biri kimi çıxış edirdi. Müharibədə 640 min azərbaycanlı iştirak etmiş, bunun 400 mini həlak olmuşdu.

Təkcə 1941-ci ildə dövr üçün rekord səviyyədə - 23.5 mln. ton neft hasil edilmişdi. Bütün müharibə illərində SSRİ-də hasil edilən neftin ¾-ü (75 mln.ton) Azərbaycanın payına düşürdü. Hərbi aviasiyada istifadə edilən benzinin 85-90%-ni Bakı verirdi. Eyni zamanda, respublikada 130 növ silah-sursat istehsal olunurdu. 1942-ci ildə müharibədən əvvəlki dövrlə müqayisədə 2 dəfə çox – 2.5 mln. pud taxıl, 28 min pud ət, 40.8 min pud yun, 250 min kq çay yarpağı, 210 min pud tərəvəz təhvil verilmişdi.

1941-43-cü illərdə respublikanın əhalisi müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 311 mln. manat dəyərində dövlət istiqrazı, 230 mln manat pul köçürmüş, orduya 1.6 mln. ədəd bağlama və 125 vaqon isti paltar göndərmişdi. Bir sözlə, Azərbaycan iqtisadiyyatı tamamilə hərbi rels üzərinə keçirilmişdi.

Müharibədən sonrakı 10 il ərzində ölkə sənayesinin əsas sahələri, o cümlədən, energetika sferası sürətlə inkişaf etməyə başladı. Məhz həmin dövrdə Sumqayıt iri sənaye mərkəzinə çevrildi.

Bütün bunlar birmənalı olaraq sovet imperiyasının iqtisadi maraqları çərçivəsində həyata keçirilir, xalqın məcmu tələbatları və onların ödənilməsi problemi vaciblik şkalasında arxa planda tutulur,

downloaded from KitabYurdu.org

ekoloji vəziyyət nəzərə alınmır, kifayətqədər ağır plan tapşırıqları inzibati təzyiq altında yerinə yetirilirdi. Təəccüblü deyil ki, qeyd edilən şərtlər çərçivəsində sənaye istehsalının həcmi 3 dəfə (1945-1955) artmışdı....

İmperiyanın həyata keçirdiyi aqrar siyasətdə də elə bir mahiyyət dəyişikliyi baş verməmişdi. Bu sferada inzibati-amirlik metodları daha kəskin formada tətbiq olunurdu. Maraqlı idi ki, taxılçılığın inkişafına lazimi diqqət yetirilmirdi. Lakin texniki bitkilərin istehsalı 5 dəfə, tütün 2 dəfə artdığı halda, taxıl istehsalın artım cəmi 13% olmuşdu.

1950-ci illərin ortalarından etibarən (Stalinin ölümündən sonra) inzibati-amirlik rejimi hissediləcək dərəcədə "yumşaldı".

İqtisadiyyatın idarəedilmsəi sisteminin yeniləşdirilməsi yollarının axtarışına başlandı.

Məsələn, SSRİ hökumətinin 1956-cı ildə qəbul etdiyi qərara görə müttəfiq respublikalar tikinti, əmək məhsuldarlığı, maddi-texniki təchizat, məhsulun maya dəyəri və satışı, maliyyə məsələləri ilə müstəqil məşğul ola bilərdi. Bu aspektdən də müstəqil respublikalar fərqli durumda olmuşdur. Ən ağır situasiya Azərbaycanda formalaşmışdır. Ölkə iqtisadiyyatı bütünlüklə Mərkəzi hökumətin ciddi nəzarəti altında fəaliyyət göstərirdi. Məsələn, 839 müəssisənin 48 mərkəzi, ittifaq-respublika və respublika nazirliyinə tabe idi. Dağınıqlıq – az qala idarəetmə sisteminin əsas xarakteristikasına çevrilmişdi.

Çox tezliklə (1962-ci ildən etibarən) "yumşalma"nın zərərli olduğunu önə sürən Mərkəzi hökumət islahatlar xəttindən imtina etməyə başlayır. Ümumiyyətlə, 1950-1960-cı illərdə həyata keçirilən islahatlar Azərbaycanın xammal-yarımfabrikat strukturlu iqtisadiyyata malik olmasına gətirib çıxarmışdı. Mərkəzi hökumət Azərbaycanın təbii sərvətləri hesabına Rusiya, eləcə də Gürcüstan və Ermənistan sürətlə inkişaf edirdi:

1. Gürcüstan və Ermənistan əvəzi ödənilmədən Azərbaycan nefti ilə təchiz olunurdu;
2. Hər il Daşkəsəndən 100 minlərlə ton dəmir filizi Rustavi metallurgiya zavoduna göndərilirdi.
3. Azərbayanda istehsal edilən elektrik enerjisi haqqı ödənilmədən Gürcüstan və Ermənistan arasında bölüşdürülürdü.
4. Ölkənin təbii qaza böyük ehtiyacı olduğu halda Qaradağ-Ağstafa-Gürcüstan qaz kəməri istifadəyə verilmişdi (1959). 1960-cı ildə Tbilisidə 37, Ermənstanda 30 sənaye müəssisəsi Qaradağ qazından istifadə edirdi.

downloaded from KitabYurdu.org

5. Eyni zamanda, Ermənistanda yaşayan azərbaycanlılara qarşı dözülməz münasibət formalaşmış. İmperiyanın razılığı əsasında Ermənistandan 100 mindən çox azərbaycanlı deportasiya edilmişdi və s.

Mərkəzi hökumətin Azərbaycana yönəlmiş müstəmləkə siyasətində kardinal dəyişikliklər 1969-cu ildə - ulu öndər Heydər Əliyevin ölkəyə rəhbər təyin olduğu dövrdən müşahidə edilməyə başladı.

Ölkə iqtisadiyyatının strukturunda əhəmiyyətli dəyişikliklər baş verdi. Emaledici sənaye sahələri böyük sürətlə inkişaf etməyə, neft emalı neft hasilatını üstləməyə başladı. 1976-1980-ci illərdə 90 adda neft emalı məhsulları istehsal edilirdi. Maşınqayırma və neft maşınqayırması sənayesi bir növ intibah dövrünü yaşayırdı. 1970-ci illərdə maşınqayırma üzrə istehsalın həcmi 78%, neft maşınqayırması üzrə isə 56% artmışdı.

Respublikada fəaliyyət göstərən "İttifaqneftmaş" birliyi SSRİ üzrə neft-mədən texnikası və avadanlıqlarının 70%-dən çoxunu verirdi. 1970-1980-ci illərdə maşınqayırma sənayesində 4400 yeni növ maşın və cihaz yaradılmışdı ki, bunlardan 400-ü SSRİ-də ilk dəfə istehsal edilirdi.[189]

Ulu öndər Heydər Əliyevin birbaşa rəhbərliyi altında ölkə sənayesinin – elmi-texniki inqilabın nailiyyətlərinə istinadla – struktur modernləşdirilməsi həyata keçirilir, elektrotexnika, cihazqayırma və s. kimi yeni sənaye sahələri yaradılırdı. Məsələn, Bakı məişət kondisionerləri, cihazqayırma (Bakı və Gəncə), məişət kompressorları, iri elektrotermik soba, məişət soyuducuları zavodu və s. məhz həmin illərdə tikilib istifadəyə verilmişdi.

1981-1985-ci illərdə ölkədə 950 adda yeni maşın və avadanlıq buraxılmışdı ki, bunun da 165-i SSRİ-də ilk dəfə istehsal olunurdu. Bütün bunlarla yanaşı 10 il ərzində (1970-1980-ci illər):

- Qara və əlvan metallurgiya sənayesində artım 2.5 dəfədən çox olmuş;
- 18 iri elektrik stansiyasından ibarət energetika kompleksi yaradılmış;
- 6 min km şose, 260 km dəmiryolu çəkilmiş;
- Hər il respublikanın ixracatı idxalatı 1.5-2 mlrd. manat həcmində üstələyirdi;
- Pambıq istehsalı 2.3 dəfə, üzüm istehsalı 3.7 dəfə, taxıl istehsalı 5.4 dəfə artmışdı;

[189] N.Süleymanov. Azərbaycanın iqtisadi tarixi. Bakı, 2001.- S. 211

downloaded from KitabYurdu.org

- İribuynuzlu mal-qaranın baş sayı 14.5%, kiçikbuynuzlu mal-qaranın baş sayı 22.7%, quşların baş sayı isə 2.4 dəfə artmışdı.

- Ət istehsalında – 47.9%, süd istehsalında 98.9%, yumurtada 74.8%, yun istehsalında isə 40.7% yüksəlişə nail olunmuşdu.

Təbiidir ki, iqtisadu yüksəliş əhalinin maddi rifahının yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayırdı.

Araşdırmalar göstərir ki, SSRİ-də həyata keçirilən imperiya siyasətinə baxmayaraq Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrü birmənalı olaraq II Respublikanın tarixində (1918-1991) "qızıl dövri" adlandırmaq olar.

1990-cı illərin əvvəllərindən etibarən sovet imperiyasında iqtisadi tənəzzülün başlanması və yekun olaraq sosial-iqtisadi və siyasi böhrana gətirib çıxarması İttifaqın dağılması və Azərbaycanın yenidən dövlət müstəqilliyi əldə etməsi ilə nəticələndi.

## § 14.9. SSRİ-nin yaranması və inkişafı

Yeni dünya sisteminin yaranması prosesi öz başlanğıcını 1917-ci il oktyabr çevrilişindən götürür. Azərbaycan da daxil olmaqla Çar Rusiyasının müstəmləkəsi olmuş bütün ölkələrin daxil olduğu (1922-ci il) Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) yaradıldı. SSRİ-nin yaradılması haqqında müqavilənin əsas prinsipləri (könüllülük; bərabərlik; əməkdaşlıq; proletar beynəlmiləlçiliyi; ittifaqdan sərbəst çıxmaq hüququ) elə prinsip olaraq qalmış, SSRİ-nin heç bir tarixi dönəmində real məzmun kəsb etməmişdir. Başqa sözlə, Avrasiya məkanında nəhəng sovet imperiyası qurulmuşdu. Sovet Rusiyasında həyata keçirilən siyasət, çox tezliklə bütün imperiyanın ərazisinə yayılırdı. İlkin olaraq Antantanın hərbi müdaxiləsinə qarşı duruş gətirmək, vətəndaş müharibəsinin qarşısını almaq və iqtisadiyyatı bərpa etmək məqsədilə «Hərbi kommunizm» (1918-1921) siyasəti yeridilməyə başlandı. Siyasətin təməl prinsipləri aşağıdakılardan ibarətdir:

1. Bütün resursların sovet hakimiyyətini qorumaq üçün səfərbər edilməsi;
2. Bütün iqtisadi subyektlərin (müəssisələrin) milliləşdirilməsi;
3. Sənaye və nəqliyyatda maksimum mərkəzləşmə;
4. Ərzaq sapalağı;
5. Əməkhaqqının bərabər ödənilməsi;

downloaded from KitabYurdu.org

6. Kartoçka sistemi;
7. Ümumi əmək mükəlləfiyyəti;
8. Azad ticarətin ləğvi.

«Hərbi kommunizmin» ciddi məhdudiyyətlər sistemi tezliklə əks-effekt verməyə başladı və sovet hökuməti «Yeni iqtisadi siyasətə» keçdi (1921-1936) «Yeni iqtisadi siyasət» aşağıdakıları özündə ehtiva edirdi:

1. Müvəqqəti olaraq kapitalist (bazar) elementlərindən istifadə;
2. Elektrikləşdirmə bazasında sənayenin inkişafı;
3. Əmtəə-pul münasibətlərindən istifadə;
4. Təsərrüfat hesabının tətbiqi;
5. Dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi və s.

Həyata keçirilən «Yeni iqtisadi siyasət» iki mərhələni əhatə etmişdir:

1. Bərpa mərhələsi: 1921-1925;
2. Yenidənqurma mərhələsi; 1926-1936.

1935-ci ildə SSRİ Konstitusiyasının qəbulu ilə «Yeni iqtisadi siyasət»ə son qoyuldu. Yeridilən sənayeləşmə siyasəti II Dünya müharibəsi ərəfəsində SSRİ-nin nəhəng industrial dövlətə çevrilməsi ilə nəticələndi. Kollektivləşmə prosesi isə çox ağır nəticələrlə sonuclandı.

1929-1937-ci illərdə zorakı üsullarla kütləvi şəkildə kollektivləşmə siyasəti yeridilmişdi. Bu proses 1932-1938-ci illərdə Ukrayna, Şimali Qafqaz, Volqaboyu və Qazaxıstanda kütləvi aclığa səbəb olmuş, 4 mln. insan aclıqdan ölmüşdür. 1934-cü ildə 1928-ci ilə nisbətən taxıl yığımı 20%, mal-qaranın baş sayı 60% aşağı düşmüşdü. Böhran situasiyası yalnız 1937-ci ildə aradan qaldırıla bilmişdi.

1941-ci ildə Almaniyanın hərbi təcavüzü SSRİ-ni II Dünya müharibəsinə cəlb etdi. Müharibə ölkəyə çox ağır zərər vurdu:

- 27 mln. insan həlak olmuşdu;
- 1710 şəhər, 70 min kənd və 6 mln. bina darmadağın edilmişdi;
- 31850 sənaye müəssisəsi məhv edilmişdi;
- 68 min km dəmiryolu xətti və 41 min dəmiryolu stansiyası sıradan çıxarılmışdı;
- 98 min kolxoz, 1876 sovxoz talan edilmiş, 40 min xəstəxana, 84 min orta məktəb, texnikum və ali məktəb, 43 min kitabxana dağıdılmışdı.

1941-ci ildə Almaniya tərəfindən işğal edilmiş ərazilərdə ölkə əhalisinin 40%-i (88 mln. nəfər) yaşayırdı. Eyni zamanda, bu ərazilərdə müəssisələrin əsas fondlarının 33%-i (ölkə üzrə məcmu sənaye is-

downloaded from KitabYurdu.org

tehsalının $\frac{1}{3}$-i) cəmləşmişdir. İşğal altında olan ərazilər ölkə üzrə əkin sahələrinin 47%-ni, taxıl yığımının 38%-ni verirdi. Həmçinin, iribuynuzlu mal-qaranın 45%-i, donuzların 68%-i, qoyun və keçilərin 29%-i bu ərazilərdə cəmləşmişdi. Müharibə sovet imperiyasının milli sərvətinin 30%-ni məhv etdi.

1941-ci ilin qiymətləri ilə ümumi zərərin dəyərcə həcmi 679 mlrd rubl civarında qiymətləndirilirdi.

Müharibədən sonrakı dövrdə SSRİ iqtisadiyyatı sürətlə bərpa olunmağa başlamışdı. Lakin müharibədən əvvəlki səviyyəyə (1940-cı il) tam şəkildə nail olunmamışdı: ümumsənaye istehsal (1940-cı il səviyyəsinin)-91%, kömür hasilatı - 90%, neft -62%, çuqun-59%, polad istehsalı - 67% və s. təşkil etmişdi. Əkin sahələri 37 mln. ha, malqaranın sayı 7 mln. baş azalmışdı. Ölkənin məcmu gəliri 1945-ci ildə 1940-cı il səviyyəsinin 83%-ni təşkil etmişdi… Nəhayət, artıq 1946-cı ildən etibarən keçmiş müttəfiqlər «soyuq müharibə»yə başlamışdır.

Müharibədən sonrakı dövr üçün SSRİ-nin sosial-iqtisadi inkişaf prosesini 3 mərhələyə bölmək olar:

1. Sürətli artım mərhələsi (1950-1970);
2. Durğunluq mərhələsi (1971-1985);
3. SSRİ-nin süqutu (1985-1990).

1953-cü ildə Stalinin ölümü inzibati-amirlik sisteminin Stalin variantının iflası ilə sonuclandı.

1950-1960-cı illərdə sosial-iqtisadi həyatın məhdudiyyətlər sisteminin əhəmiyyətli dərəcədə yumşalması iqtisadi canlanmada mühüm rol oynamışdı. Bu dövr ərzində məcmu sənaye istehsalı 11,7%, kənd təsərrfatı istehsalı 5%, əmtəə dövryiyəsi 11,4% və s. yüksəlmişdi.

N.Xruşovun apardığı islahatlar 1966-1970-ci illərdə əsas iqtisadi göstəricilərin sürətli artımına təkan verdi.

1970-ci illərin əvvəllərindən etibarən böhranlı situasiyalar yaranmağa başlayır. Elmi-texniki tərəqqinin ləng gedişi; sənayenin aparıcı sahələrində avadanlığın mənəvi aşınması; infrastrukturun istehsalın tələblərinə cavab verə bilməməsi; resurs böhranı və s. əsas iqtisadi göstəricilərdə azalma tempini şərtləndirən amillər sırasındadır (cədvəl 14.8).

***Cədvəl 14.8***

***SSRİ-də əsas iqtisadi göstəricilərin dinamikası (%)***

downloaded from KitabYurdu.org

| Göstəricilər | 1966-1970 | 1971-1975 | 1976-1980 | 1981-1985 |
|---|---|---|---|---|
| 1. İqtisadiyyatda çalışan işçilərin sayı | 3,2 | 2,5 | 1,9 | 0,9 |
| 2. Əsas istehsal fondları | 8,1 | 8,7 | 7,4 | 6,4 |
| 3. Əmək məhsuldarlığı | 5,2 | 4,4 | 3,2 | 3,0 |
| 4. Sənaye istehsalının həcmi | 8,5 | 7,4 | 4,5 | 3,1 |
| 5. Kənd təsərrüfatı istehsalının həcmi | 4,0 | 2,5 | 1,7 | 1,2 |
| 6. Milli gəlir | 7,6 | 5,4 | 3,9 | 3,2 |
| 7. Kapital qoyuluşu | 7,6 | 7,4 | 5,2 | 3,3 |

1960-1985-ci illərdə əsas fondlar 7 dəfə, milli gəlir isə 4 dəfə artımıdır ki, bu da inkişafın ekstensiv yolla gedişini göstərir. Digər tərəfdən, inzibati-amirlik sisteminin mövcudluğu və SSRİ hökumətinin ambisiyalı xarici siyasət yürütməsi, o cümlədən, hərbi-sənaye kompleksinə xüsusi diqqət yetirilməsi durğunluğun yaranmasında əhəmiyyətli rol oynamışdı.

Eyni zamanda, iqtisadiyyatın strukturuna münasibətdə yeridilən səhv siyasət: əsas diqqətin «A» bölməsinə, yəni istehsal vasitələri istehsal edən sahələrə yönəldilməsi o demək idi ki, sənaye istehsalının böyük hissəsi əmtəə-pul münasibətləri sferasından kənarda qalırdı (istehsal vasitələri planlı şəkildə bölüşdürülürdü).

Bu qəbildən olan iqtisadi yanaşmalar sonuc etibarilə sosial sferada vəziyyəti pisləşdirir, inkişafın sosial əsaslarına məhvedici təsir göstərirdi. Nəticədə ölkənin milli sərvəti azalmağa başlamışdı (cədvəl 14.9).

***Cədvəl 14.9***

***SSRİ-də milli sərvətin azalma dinamikası***
***(müqayisəli qiymətlərlə: mlrd. rubl)***

| | 1960 | 1970 | 1980 | 1988 | 1988-ci il 1960-cı ilə nisbətən (%) |
|---|---|---|---|---|---|
| Milli sərvət | 11884 | 11196 | 10159 | 9046 | -23,9% |
| O cümlədən: | | | | | |
| -əmlak | 583 | 951 | 1868 | 2861 | +4,9 dəfə |
| -təbii sərvət | 11301 | 10245 | 8291 | 6185 | -45,3% |

downloaded from KitabYurdu.org

İnflyasiya (illik 3%) nəzərə alınmaqla ölkənin milli gəlirinin artımı 1980-ci illərdə dayanmışdı. Əhali, ləng də olsa artırdı və nəticədə adambaşına düşən milli gəlir və sərvətin həcmi azalırdı, yəni əhalinin mütləq yoxsullaşması prosesi başlanmışdı.

1985-ci ildən M.Qorbaçovun başladığı islahatlar kompleksi yekun etibarilə SSRİ-nin dağılmasına gətirib çıxardı.

### § 14.10. Dünya sosializm sisteminin yaranması

II Dünya müharibəsində SSRİ-nin qalib gəlməsi sosialist ideologiyasının Mərkəzi və Şərqi Avropa, eləcə də Asiyanın bir sıra ölkələrinə «ixracatı» üçün əlverişli şərait yaratdı. Bu sıraya 1959-cu ildə Kuba, 1975-ci ildə isə Laos qoşuldu (şəkil 14.3).




***Şəkil 14.3. Dünya sosializm sisteminin qərarlaşması mərhələləri***

downloaded from KitabYurdu.org

Sübut etməyə ehtiyac yoxdur ki, qeyd edilən ölkələrin sosialist təsərrüfat tipinə keçidi ilə ölkədaxili iqtisadi inkişaf təmayülləri və qanunauyğunluqları arasında heç bir səbəbiyyət bağlılığı olmamışdır. Bu - sadəcə olaraq, nəhəng hərbi-sənaye kompleksinə sahiblənən SSRİ-nin xarici siyasəti və sosializmin «ixracatı» ilə əlaqədar olan, yəni kənar təsirlə ortaya gələn bir hadisədir.

Dünya sosializm sisteminin mövcudluq xronologiyasını qərarlaşma və inkişaf prizmasından aşağıdakı mərhələlərə bölmək olar:

1. 1944-1948-ci illər: Sosialist inkişaf yolu seçmiş ölkələrdə siyasi, sosial və iqtisadi müstəvidə eynitipli prinsiplərin sistemli tətbiqi; ölkələrarası (sosialist) beynəlxalq iqtisadi münasibətlərin yeni məzmunda formalaşması;

2. 1949-1960-cı illər: Sosialist münasibətlər sisteminin qərarlaşması; «Sosialist» sənayeləşməsi və beynəlxalq «sosialist» bazanın fomalaşması;

3. 1970-1980-ci illər: Sosialist iqtisadi inteqrasiyasına keçid;

4. 1985-1991-ci illər: Dünya sosializm sisteminin süqutu.

***Cədvəl 14.10***

***Dünya ölkələrinin sosial-iqtisadi inkişaf səviyyəsinin dinamikası (adambaşına milli gəlirin həcmi) (1980-ci ilin qiymətlər ilə – dol.)***

| Ölkələr | 1913 | 1920 | 1929 | 1938 | 1950 | 1986 | 1987 | 1987-ci il 1913-cü ilə nisbətən (%) |
|---|---|---|---|---|---|---|---|---|
| Bütün dünyada | 550 | 485 | 615 | 630 | 780 | 1525 | 1550 | +2,8 dəfə |
| O cümlədən: 1. İnikşaf etmiş ölkələr | 1600 | 1500 | 1925 | 2000 | 2400 | 5550 | 5670 | +3,5 dəfə |
| 1.1. ABŞ | 2325 | 2425 | 2900 | 2700 | 4275 | 6675 | 6825 | +2,9 dəfə |
| 1.2. Qərbi Avropa | 1525 | 1285 | 1650 | 1800 | 1850 | 4650 | 4750 | +3,1 dəfə |
| O cümlədən: 1.3. AFR | 1700 | 1050 | 1675 | 2450 | 2000 | 5825 | 5975 | +3,5 dəfə |

downloaded from KitabYurdu.org

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 1.4. Fransa | 1700 | 1370 | 2300 | 1875 | 2150 | 5600 | 5725 | +3,4 dəfə |
| 1.5. Böyük Britaniya | 1700 | 1800 | 1835 | 2075 | 2300 | 4200 | 4300 | +2,5 dəfə |
| 1.6. İtaliya | 1050 | 1050 | 1220 | 1220 | 1275 | 3800 | 3850 | +3,6 dəfə |
| 2. Yaponiya | 700 | 725 | 960 | 1125 | 850 | 5775 | 5900 | +8,4 dəfə |
| 3. İnkişaf etməkdə olan ölkələr | 180 | 180 | 180 | 185 | 225 | 400 | 415 | +2,3 dəfə |
| 4. QİYŞ | 400 | 250 | 480 | 665 | 1065 | 3325 | 3425 | +8,5 dəfə |
| 5. SSRİ | 350 | 120 | 365 | 640 | 1100 | 3750 | 3900 | +11,1 dəfə |
| 6. QİYŞ-nın qeyri-Avropa ölkələri | 250 | 270 | 330 | 330 | 330 | 550 | 600 | +24 dəfə |
| 7. Çin | 125 | 130 | 135 | 135 | 130 | 475 | 500 | +4,0 dəfə |

Dünya sosializm sistemi ölkələrinin II Dünya müharibəsindən sonrakı dövrdə, eləcə də 1913-cü illə müqayisədə sürətli inkişaf prosesinin kapitalist ölkələrilə müqayisəsi (cədvəl 14.10) birincilərin üstün artım tempinə malik olduğunu ortalığa qoyur. Belə ki, 1913-cü illə müqayisədə 1987-ci ildə inkişaf etmiş ölkələrdə adambaşına düşən milli gəlirin həcmi 3,5 dəfə, o cümlədən, ABŞ-da 2,9 dəfə, qərbi Avropada 3,1 dəfə, Yaponiyada 8,4 dəfə, inkişaf etməkdə olan ölkələrdə isə cəmi 2,3 dəfə artdığı halda, QİYŞ (Qarşılıqlı İqtisadi Yardım Şurası) ölkələrində 8,5 dəfə, SSRİ-də isə 11,1 dəfə yüksəlmişdir. Bununla belə, artım tempinin yüksəkliyinə baxmayaraq əksər sosialist ölkələri qeyd edilən göstərici üzrə inkişaf etmiş kapitalist ölkələrindən əhəmiyyətli dərəcədə geri qalırdı. Məsələn, adambaşına milli gəlir göstəricisi SSRİ-də ABŞ-ın analoji göstəricisinin 57,1%-ni, QİYŞ ölkələri üzrə 50,1%-ni, Çində isə 0,7%-ni təşkil edirdi. 1913-1987-ci illəri əhatə edən xronologiya üzrə elə bir il olmamışdır ki, sosialist ölkələri göstərilən səviyyədən yuxarı qalxa bilsin.

1980-ci ilin ortalarından etibarən QİYŞ-dakı problemli situasiya getdikcə gərginləşməyə başlamışdı. Baş verən böhranı və QİYŞ-in dağılmasını, bir qayda olaraq, aşağıdakı amillərlə əlaqələndirirlər:

downloaded from KitabYurdu.org

1. Əməkdaşlığın texnoloji modelini tətbiq etmək mümkün olmamışdır. Ucuz sovet xammalına söykənən ilkin sahəlarası əmək bölgüsü sxeminin yaratdığı maneələr aradan qaldırılmamışdı;

Məsələn, SSRİ-nin QİYŞ ölkələri ilə kooperasiyanın inkişaf səviyyəsi qərb ölkələri ilə aparılan ticarətin səviyyəsindən 4-6 dəfə aşağı idi.

2. Təşkilat daxilində qarşılıqlı əlaqələrin inkişafı üçün «əlverişli» şərait yaradılmışdı. Ətraf dünya üçün qapalı olan QİYŞ-də üzv ölkələr elmi-texniki tərəqqinin təsirindən - rəqabət mübarizəsindən kənarda qalırdı;

3. Sosialist ölkələrində böhran təzahürlərinin getdikcə artması;

4. Şərqi Avropanın sosialist ölkələrində istehsal edilən malların dünya bazarında mövqelərinin zəifləməsi;

5. Tarazlaşdırılmış mal mübadiləsi prinsipi və qiymətlə bağlı konfliktin meydana çıxması;

6. 1980-ci ilin ortalarından başlayaraq bir sıra sosialist ölkələrində (Polşa, Çexoslovakiya, ADR, Macarıstan) inkişafın bazar yoluna (Qərb tipli) keçməklə bağlı fəaliyyətin həyata keçirilməsi 1991-ci ildə QİYŞ-in fəaliyyətinə xitam verdi.

downloaded from KitabYurdu.org

## XV fəsil. Dünya iqtisadiyyatının inkişaf dövrü: IV mərhələ (1970-2000) "xidmət" iqtisadiyyatı

1970-ci ildən başlayaraq dünya iqtisadiyyatı özünün dinamik inkşaf prosesində əvvəlki dövrlərdən köklü sürətdə fərqlənən yeni keyfiyyət mərhələsinə qədəm qoydu.

Baş verən dəyişikliklər sosial-iqtisadi həyatın bütün sferalarında adekvat yeniləşmələrə, hətta dəyərlər sisteminin məzmun yeniləşməsinə gətirib çıxardı. 30 illik dövr ərzində, sözün həqiqi mənasında dünya iqtisadiyyatı bir sistem olmaq etibarilə mahiyyət dəyişkənliyi bazasında bütövləşmə yönümünə qədəm qoydu. Bu dövrdə baş verən əsas hadisələr sırasında aşağıdakılar xüsusi önəm daşıyır:

1. Üçüncü elmi-texniki inqilab, yaxud elmi-informasiya inqilabı;
2. "İstehsal" iqtisadiyyatından "xidmət" iqtisadiyyatına keçid: dünya iqtisadiyyatının keyfiyyətcə yeni inkişaf mərhələsinə keçməsi;
3. Dünya sosializm sisteminin süqutu: keçid iqtisadiyyatlı ölkələr qrupunun meydana gəlməsi;
4. Dünya iqtisadiyyatında qloballaşma prosesi.

### §15.1. Dünya iqtisadiyyatı: Elmi-texniki inqilablar seriyası

Ümumiyyətlə, əksər tədqiqatçılar dünya iqtisadiyyatının genezisi, qərarlaşması və inkişafı prosesində 3 əsas inqilabın həlledici rol oynadığını qeyd edirlər: Neolit (Aqrar) inqilabı; Sənaye inqilabı; Elmi-informasiya inqilabı.

Hər üç inqilab təkcə iqtisadiyyatla bağlı olan məsələlərə deyil, bütövlükdə cəmiyyətin inkişafı prosesində yeni keyfiyyət mərhələsi kimi çıxış edir.

Eyni zamanda, sırf elmi-texniki prizmadan sənaye inqilabı da daxil olmaqla müəyyən xronoloji ardıcıllıqla baş vermiş 3 inqilabı da fərqləndirirlər:

1. Birinci elmi-texniki inqilab (sənaye inqilabı) (XVIII əsrin sonu-XIXəsr).
2. İkinci elmi-texniki inqilab (XIX əsrin sonu-XX əsrin əvvələri).
3. Üçüncü elmi-texniki inqilab (Elmi-informasiya inqilabı).

- **Birinci elmi-texniki inqilab** (XVIII əsrin sonu – XIX əsr) yeni ictimai hadisə olmaqla baş verdiyi andan etibarən dünya

downloaded from KitabYurdu.org

iqtisadiyyatının əsas hərəkətverici qüvvəsinə çevrilmişdi. İnqilabın əsas xarakterik cəhətlərinə aşağıdakıları aid etmək olar:

- İstehsal vasitələrinin mexanikləşdirilməsi, buxar maşınlarından istifadə dəyişikliklərə gətirib çıxardı;

- Dünya iqtisadiyyatının sahə və sferaları arasında mürəkkəb qarşılıqlı əlaqələrin formalaşması, yeni sahələrin yaranması;

Elmi-texniki inqilabın hərəkətverici qüvvəsi kimi kapitalın təmərgüzləşməsi prosesinin başlanması;

- Elmi nəticələrin real sektora tətbiqinin sürətlənməsi; Elm və istehsalat arasında sürətli yaxınlaşma;

- İstehsalın təmərgüzləşməsi və mərkəzləşməsi; Nəticədə sənaye məmulatlarının maya dəyərinin azalması və onların daha geniş əhali kütləsinin tələbatlarının ödənilməsinə yönəldilməsi;

- Son istehlakçıya istiqamətlənmə; Yalnız tələb olan məhsulların istehsalına üstünlük verilməsi;

- İdarəetmə sisteminin rolunun yüksəlməsi, elmin sürətli inkişafı və s.

Birnci elmi-texniki inqilab sənayeləşmənin həyata keçirilməsində əsas çıxış nöqtəsi rolunu oynayırdı.

XIX əsrin sonu XX əsrin əvvəllərində baş verən ikinci ETİ dünya iqtisadiyyatının strukturunda əhəmiyyətli dəyişikliklərə gətirib çıxardı.

**İkinci elmi-texniki inqilab,** hər şeydən əvvəl, axın şərtlərinin və konveyerin istifadəyə verilməsi ilə xarakterizə olunur.

Standartlaşdırılmış məhsul istehsalına keçid axın xəttləri sisteminin meydana gəlməsini şərtləndirmişdir. Kütləvi axın istehsalı sistemi təbii olaraq əməyin rasional təşkilinə, vahid, fasiləsiz texnoloji prosesin yaranmasına gətirib çıxardı. Artıq 1914-cü ildə Q.Fordun zavodlarında bir avtomobilin yiğilması tezliyi 1.5 saata çatmışdır.

İnqilab sənaye istehsalının müxtəlif sferalarını əhatə edirdi. Birinci elmi-texniki inqilabla müqayisədə texniki tərəqqinin həm sürəti və yayılma tezliyi, həm də tətbiq edilən yeniliklərin sayı əhəmiyyətli dərəcədə yüksək olmuşdu.

İkinci elmi-texniki inqilabın mahiyyət özəlliklərinə aşağıdakıları aid etmək olar:

1. Öz xarakterinə görə sənaye çevrilişindən fərqli məzmun daşıyırdı. Belə ki, sənaye çevrilişi maşınlı sənayenin yaranması və cəmiyyətin sosial strukturunun dəyişməsinə (kapitalizmə keçid) səbəb olmuşdursa, ikinci elmi-texniki inqilab nə istehsalın tipinə, nə sosial struktura, nə də sosial-iqtisadi münasibətlərin

downloaded from KitabYurdu.org

xarakterinə heç bir təsir göstərməmişdir. Onun nəticələri yalnız istehsalın texnikası və texnologiyasında, maşınlı sənayenin yenidənqurulmasında, elmin rolunun yüksəlməsində təzahür edirdi. Buna görə də, ikinci elmi-texniki inqilabı sənaye deyil, elmi-texniki inqilab adlandırırlar.

2. Bu inqilab sənaye istehsalı sferasında tamamilə yeni sahələrin meydana çıxmasına səbəb olmuşdu: elektrotexniki, kimyəvi, avtomobil, neft-kimya, təyyarəqayırma və s.
3. Nəinki sahələrin, eləcə də sahədaxili sferaların diversifikasiyası həyata keçirilirdi.
4. Kütləvi standrtlaşdırılmış istehsalın tam şəkildə qərarlaşması başa çatdı.
5. İstehsal prosesinin mürəkkəbləşməsi start götürdü.
6. Təsərrüfat fəaliyyəti formalarının transformasiyası baş verirdi. Mülkiyyətin və təsərrüfat fəaliyyətinin yeni formaları (səhmdar cəmiyyət, fermer təsərrüfatı və s.) sürətlə inkişaf etməkdə idi.
7. Əhalinin sayının kəskin şəkildə artıma istiqamətlənməsi;
8. XIX əsrin sonu XX əsrin əvvəllərində texniki dəyişikliklər və yeni sahələrin üstün artımı dünya sənaye istehsalının strukturunda əhəmiyyətli dəyişikliklərə gətirib çıxarardı. Əgər ikinci elmi-texniki inqilaba qədər "B" qrupu sahələri (istehlak şeyləri istehsalı) üstünlük təşkil edirdisə, inqilab nəticəsində "A" qrupunun (istehsal vasitələri istehsalı) xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmış və ön plana keçmişdi.
9. İnqilabın əsas nəticələri sırasında həyat səviyyəsinin yüksəlməsi xüsusi yer tutur. Beləliklə, ikinci elmi-texniki inqilab dünya iqtisadiyyatının bir sistem kimi inkişafında önəmli rol oynamışdı.

XX əsrin ikinci yarısından start götürən üçüncü elmi-texniki inqilab dünya iqtisadiyyatının, eləcə də ayrı-ayrı ölkələrin iqtisadi inkişafında və yekun olaraq postindustrial cəmiyyətin formalaşmasında müstəsna əhəmiyyət kəsb edirdi.

**Üçüncü elmi-texniki inqilabın** əsas xarakterik cəhəti onun universal xarakter daşımasında, yəni ictimai həyatın bütün sferalarına – siyasətə, ideologiyaya, mədəniyyətə psixologiyaya və s. təsir göstərməsində, eləcə də elmin əsas məhsuldar qüvvəyə çevrilməsində təzahür edir.

Üçüncü elmi-texniki inqilabı xronoloji prizmadan iki mərhələyə bölmək lar:

1. 1940-1960-cı illər;

downloaded from KitabYurdu.org

2. 1970-ci ildən sonrakı dövr.

Bölgünün bu aspektdə aparılması dünyanı dəyişmiş qlobal hadisənin daha dərindən öyrənilməsi ilə əlaqədardır.

Üçüncü elmi-texniki inqilabın baş verməsi bir tərəfdən geoiqtisadi məkana çıxan korporasiyaların sabit mənfəət əldə etmək istəkləri ilə bağlıdırsa, digər tərəfdən ABŞ – SSRİ qarşıdurmasının doğurduğu hadisədir. Qeyd etmək lazımdır ki, Qərb ölkələrindən fərqli olaraq SSRİ-də elmi yeniliklər yalnız hərbi sferaya tətbiq olunurdu.

Qərb ölkələrində, ələlxüsus ABŞ-da isə elmi-texniki potensialın inkişafında əsas rol oynayan amil xarici siyasət sferası deyil, bazarın konyuktur dəyişiklikləri olmuşdu.

Üçüncü elmi-texniki inqilabın təsiri altında sosial strukturda əsaslı dəyişikliklər baş verirdi. Şəhərlərin sürətli inkişafı ilə yanaşı xidmət sferasında çalışanların xüsusi çəkisi sıçrayışla artırdı. Belə ki, əgər 1950-ci ildə (inkişaf etmiş ölkələrdə) xidmət sferasında çalışanların xüsusi çəkisi 33% təşkil edirdisə, 1970-ci ildə bu rəqəm 44%-ə çatmış, sənaye və nəqliyyatda analoji göstəricini ötüb keçmişdir; Təhsilin inkişafı, ixtisaslı işçi qüvvəsinin hazırlanması geniş vüsət almışdı; əməkhaqqı səviyyəsi yüksəlmiş, bununla əlaqədar həyat şəraitinin əsaslı sürətdə yaxşılaşdırılmasına nail olunmuşdu.

İqtisadiyyatda baş verən struktur dəyişiklikləri fəhlə sinfinin sahəvi bölgüsünü də dəyişmişdir. Ağır fiziki əmək tələb edən sahələrdə çalışanların xüsusi çəkisi əhəmiyyətli dərəcədə azalmış, yeni sahələrdə (elektronika və s.) isə artmışdır.

1970-ci illərin əvvəllərində orta təbəqə əhalinin 1/3 hissəsini əhatə edirdi. Kiçik və orta biznesin sürətli inkişafı başlanmışdı.

Üçüncü elmi-texniki inqilabın ikinci mərhələsində (1970-ci ildən sonrakı dövr) sadalananların yüksəliş traektoriyası daha da sürətlənməyə başladı. Qərb ölkələrində iqtisadiyyatın sosial yönümlüyü prioritet mövqelərə keçdi. Elmi-texniki proqramların sosial ehtiyaclara daha da sıx əlaqələndirilməsi həyata keçirilməyə başladı.

Mikroprosessorların kəşfi, elektron-informasiya texnikasının inkişafı, biotexnologiya və gen mühəndisliyi sferalarında əldə edilən nailiyyətlər üçüncü elmi-texniki inqilabın ikinci mərhələsinin əsas məzmununu ehtiva etməklə "yüksək texnologiyalar cəmiyyətinə" – informasiya erasına keçidi şərtləndirmişdir. Mikroprosessorlar əsasında istehsal prosesinin tam avtomatlaşdırılması müxtəlif dəzgah və mexanizmlərin, eləcə də xidmətçi personalın sayının dəfələrlə ixtisara düşməsinə gətirib çıxardı. Eyni zamanda, informasiyanın

downloaded from KitabYurdu.org

avtomatlaşdırılması prosesi təsərrüfatın digər sahələrinə - idarəetmə, maliyyə, konstruktor işləri və s. sürətlə yayılmağa başladı. Informasiya texnikasının özü sənayenin xüsusi sahəsinə, elm isə güclü bilik industriyasına çevrilir.

İnqilabın ikinci mərhələsində resurs və əmək tutumluluğun kəskin aşağı düşməsi, ekoloji təmiz və elmtutumlu istehsalatın təşkili ilə aparıcı ölkələrin iqtisadiyyatında kardinal struktur dəyişiklikləri baş verdi ki, bu da sonda köklü sosial dəyişikliklərə yol açdı.

Bu gün informasiya və xidmət sferasında çalışanlar ümum məşğul əhalinin 2/3 hissəsini təşkil edir.....

Ümumiyyətlə, XX əsr ərzində innovasiya prosesi bir sıra yeni xüsusiyyətlər kəsb etmişdi:

I. Elmi-tədiqiqat işləri (NİOKR), həm elmi və peşəkar səviyyəyə, həm də miqyasına görə yeni keyfiyyət mərhələsinə qədəm qoymuşdur. Şəxsi kəşflər və ixtiralar öz yerini peşəkarcasına təşkil olunmuş mütəxəssislər qrupuna vermişdi. Eyni zamanda, yeniliyin təsadüflüyü aradan qaldırılmış, innovasiyaların artımı sabit xarakter almışdı. Bu sferada ABŞ-ın liderliyi birmənalı şəkildə təsbit olunmuşdu.

NİOKR-a qoyulan vəsait (1957-1966) ABŞ-da 157 mlrd. dol., Qərbi Avropa ölkələrində isə cəmi 50 mlrd. dollar təşkil etmişdi. 1967-ci ildə ABŞ-ın NİOKR-a sərf etdiyi vəsait ÜDM-in 3.13%-dən çox olmuşdu. İqtisadiyyatın ənənəvi sahələrində tətbiq edilən innovasiya "partlayış" effekti verir, yeni sahələrin meydana çıxmasına səbəb olurdu. Məsələn, kimya sahəsində aparılan araşdırmalar toxuculuq sənayesinin yeni yönümünü (sintetik liflər və s.) yaranması ilə nəticələnmişdır və s.

Bəzi sahələrdə "iqtisadiyyat innovasiya" prosesləri start götürmüşdü. Hal-hazırda informasiya iqtisadiyyatının formalaşmasında müstəsna rol oynayır.

İqtisadiyyatda innovasiya bir proses olmaq etibarilə bir sıra şərtlərin mövcudluğu halında meydana çıxır, yaxud çıxa bilər:

1. Qabaqcıl texnologiyaların mövcudluğu;
2. Kommersiya faydalılığı;
3. Müasir idarəetmə sisteminin mövcudluğu;
4. Bazarın miqyasının böyüməsi.

Bəzi hesablamalara görə 1800-1971-ci illər arasında bu qəbildən 111 innovasiya olmuşdur ki, bunun da 58%-i ABŞ-ın, 38%-i Avropa ölkələrinin, 4%-i isə Yaponiyanın payına düşmüşdür.[190]

---

[190] Ван. Дер Вее. История мировой экономики. М; Наука, 1995.- С.128

downloaded from KitabYurdu.org

- Məhsul istehsalına verilən patent və lisenziyaların 50%-dən çoxu ABŞ-a məxsus olmuşdu.

Əksər tədqiqatçılar innovasiyaların yaranması xüsusiyyətləri kimi aşağıdakıları qeyd edirlər:

-İnnovasiyalar "salxım" formasında meydana çıxır;

-Bəzi dövrlərdə daha aktiv şəkildə yaranır;

-Onların meydana çıxma tezliyinin yüksəkliyi kəşflə ondan istifadə arasında olan zaman kəsiyini azaldır.

II. İkinici spesifik cəhət müəssisə və təşkilatların idarə olunmasının yeni formalarının yaranmasıdır.

Əvvəlcə sırf amerikan "hadisəsi" kimi yaranan yeni idarəetmə formalarını tezliklə "idarəetmədə inqilab" adlandırdılar. Avropa ölkələrindən yalnız Almaniya (XX əsrin əvvələri) idarəetmədə bütünlüklə amerikan sisteminə keçmişdi. Digər Avropa ölkələri yalnız II dünya müharibəsindən sonra bu sistemi tətbiq etməyə başladı.

İnnovativ inkişaf tipinin qərarlaşması prosesinin gerçək məzmununu (ölkələr bölümündə) Pavitt modeli[191] çərçivəsində aydın şəkildə görmək olar. Bu modeldə futbolun təşkili sisteminə istinadla texnologiya və idarəetmə sferalarında mütərəqqi biliklər əldəetmə imkanlarına uyğun olaraq dünya ölkələri 4 qrupa bölünür (şəkil15.1)

| **Futbolun təşkili sistemi** | | | |
|---|---|---|---|
| **Ölkələr** | | | |
| **I** | **II** | **III** | **IV** |
| "Virtuozlar": texnologiya və istehsalın təşkili sferalarında mütərrəqqi bi- | Sənaye məhsulunun modifikasiyası və modernləşməsi pro- | Sənayeləşməni kifayətqədər asan keçənlər | Primitiv iqtisadiyyat |

[191] Зубарева Т.С. История экономики. Учеб. пособие, ч. III. Новосибирск: НГТУ, 2002,

downloaded from KitabYurdu.org

| | | | |
|---|---|---|---|
| liklərin sərhəddində olanlar | sesində çətinliklərlə üzləşənlər | | |
| ABŞ<br>AFR<br>İsveçrə<br>İsveç<br>Böyük Britaniya | Yaponiya<br>Kanada<br>Belçika<br>Hollandiya | **İtaliya, İspaniya** | "Dördüncü dünya ölkələri |
| | | Şərqi Avropa, Latın Amerikası, Cənub-Şərqi Asiya ölkələri | |

***Şəkil 15.1. Pavitt modeli***

Model 1970-1980-ci illərin qlobal iqtisadi gerçəkliyinə istinadla qurulmuşdur.

Bununla belə, elmi-texniki inqilabın neqativ hadisələrə də səbəb olduğu ortalıqdadır. Xronik işsizlik məhz iqtisadiyyatda baş verən struktur dəyişikliklərin ifrat tezliyindən, beynəlxalq əmək bölgüsünün dərinləşməsi isə işçi qüvvəsinin kütləvi miqrasiyasından, sərt rəqabət mübarizəsi şəraitində istehsalın rasionallaşdırılmasından qaynaqlanır.

Beləliklə, birmənalı şəkildə belə bir qənaətə gəlmək olar ki, üçüncü elmi-texniki inqilab dünyanın "sima"sının dəyişməsində həlledici rol oynamışdır.

## §15.2. "İstehsal" iqtisadiyyatından "xidmət" iqtisadiyyatına keçid

XX əsrin 70-ci illərindən etibarən "yeni iqtisadiyyatın" formalaşma təmayülləri açıq-aydın şəkildə müşahidə edilirdi. "Köhnə industrial qaydalar" informasiya texnologiyaları ilə cücərməyə başalayan "yeni iqtisadiyyatla" əvəz olunurdu.

Texnoloji nöqteyi-nəzərdən baş verən dəyişikliyi elmi-texniki tərəqqinin yeni mərhələsi kimi də səciyyələndirmək olardı. Lakin bu mərhələnin başlıca xüsusiyyəti onun informasiya sferasına nüfuz etməsi, insan fəaliyyətinin əksər növləri üçün mühüm əhəmiyyət kəsb edən prosesləri ehtiva etməsidir. Bu proseslər iqtisadiyyat, siyasət və mədəniyyət sferalarında köklü dəyişikliklərə, ictimai şüurun

downloaded from KitabYurdu.org

dəyişməsinə, yeni, postindustrial cəmiyyət tipinin formalaşmasına gətirib çıxarır...

Xidmət sferası, elm, təhsil real sektoru (kənd təsərrüfatı, sənaye) üstələməyə başlayır, istehsal prosesində elmi biliklərdən istifadə intensiv xarakter alırdı.

Artıq 1970-ci illərin əvvəllərindən bəşəriyyətin yeni dövrə qədəm qoyduğu açıq-aydın şəkildə dərk edilməyə başlamışdı. Cəmiyyətin istehsalla bağlı (maddiyyat anlamında) problemləri öz aktuallığını itirmiş, biliklərin toplanması, sistemləşdirilməsi və yayılması ilə bağlı olan müxtəlif xidmətlər ön plana çıxmışdı. Eyni zamanda, elmi-texniki inqilabın məntiqi nəticəsi kimi elm əsas məhsuldar qüvvəyə, inkişafın və təhlükəsizliyin başlıca amilinə çevrilmişdi.

Beləliklə, “xidmət” iqtisadiyyatının (postindustrial cəmiyyət) keyfiyyət yeniliyinin əsasında dayanan başlıca məsələ xidmət istehsalının məhsul istehsalına münasibətdə prioritet mövqeyə keçməsidir.

İnformasiya və elmi biliklər istehsal resursuna çevrilir. Elmi araşdırmalar iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi kimi çıxış etməyə başlayır.Əsas dəyərlər sırasında təhsil səviyyəsi, peşəkarlıq və kreativlik ön mövqelərə sahiblənir.

Postindustrial cəmiyyətin ilkin mərhələsinin alt sistemi olan “xidmət” iqtisadiyyatının mövcudluğu ÜDM-də xidmət sektorunun xüsusi çəkisi ilə müəyyənləşir. Məsələn, ÜDM-da xidmət istehsalının xüsusi çəkisi ABŞ-da 80%, Avropa ittifaqında (15 ölkə formatında) 69%, Yaponiyada 67%, Kanada 70% təşkil edir.

## §15.3. Dünya iqtisadiyyatı: inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr: iki əsrlik (XIX-XX) inkişaf dinamikası

Dünya iqtisadiyyatında keyfiyyət yeniləşməsi prosesinin gedişini son 2 əsr (XIX-XX) ərzində baş verən iqtisadi artımın kəmiyyət ölçüləri ilə əlaqəsini aşağıdakı cədvəllərdən görmək mümkündür (cədvəl 15.1; 15.2;)

***Cədvəl 15.1***

***Dünyanın iqtisadi inkişafının əsas göstəriciləri (XIX-XX əsr)***
***(1993-cü ilin qiymətləri ilə mlrd. dollarla)***

downloaded from KitabYurdu.org

| *Göstəricilər* | *1820* | *1913* | *1913-1820-ə nisbətən (%)* | *1998* | *1998* | |
|---|---|---|---|---|---|---|
| | | | | | *1820-ə nisbətən (%)* | *1913-ə nisbətən (%)* |
| 1. Qlobal Məcmu Məhsul | 831 | 2941 | +3.5 dəfə | 36836 | +44.3 dəfə | +12.5 dəfə |
| 2.Əhali (mln.nəfər) | 1068 | 1772 | +65.9 % | 5952 | +5.6 dəfə | +3.4 dəfə |
| 3.Adambaşına QMM isehsalı (dollarla) | 778 | 1660 | +2.1 dəfə | 6189 | +8.0 dəfə | +3.7 dəfə |

***Cədvəl 15.2***

***XIX-XX əsrlərdə iqtisadi artım (1993-cü ilin qiymətləri ilə - dol.)***

| **Göstəricilər** | **Kumulyativ artım (dəfə)** | | | **Adambaşına ortaillik artım tempi (%)** | | |
|---|---|---|---|---|---|---|
| | **1820-1913** | **1913-1998** | **1820-1998** | **1820-1913** | **1913-1998** | **1820-1998** |
| 1.QMM | **3.5** | **12.5** | **44.3** | **1.37** | **3.02** | **2.15** |
| 2 .Ən aşağı göstəriciyə malik ölkə | **1.4** | **4.2** | **14.4** | **0.37** | **1.70** | **1.51** |
| 3. Ən yuxarı göstəriciyə malik ölkə | **493.6** | **132.9** | **6832.5** | **6.90** | **5.92** | **5.09** |
| 4.Əhali (mln.n) | **1.7** | **3.4** | **5.6** | **0.55** | **1.44** | **0.97** |
| 5. Ən aşağı göstəriciyə malik ölkə | **0.6** | **1.1** | **0.7** | **-0.52** | **0.15** | **-0.20** |
| 6. Ən yuxarı göstəriciyə malik ölkə | **146.1** | **9.2** | **568.2** | **5.51** | **2.65** | **3.63** |
| 7. Adambaşına QMM istehsalı | **2.1** | **3.7** | **8.0** | **0.82** | **1.56** | **1.17** |
| 8. Ən aşağı göstəriciyə malik ölkə | **1.1** | **1.3** | **2.3** | **0.09** | **0.32** | **0.46** |
| **9. Ən yuxarı göstəriciyə malik ölkə** | **4.4** | **20.8** | **26.8** | **1.61** | **3.64** | **1.87** |

downloaded from KitabYurdu.org

Son iki əsr – dünya iqtisadiyyatının tarixində görünməmiş inkişaf dövrü olmuşdu. 1820-1998-ci illərdə Qlobal Məcmu Məhsul 831 mlrd. dollardan 36836 mlrd. dollara qədər yüksəlmiş, yaxud 44 dəfə artmışdır (1993-cü ilin qiymətləri ilə).

XX əsrdə iqtisadi tərəqqi əhəmiyyətli dərəcədə sürətlənmişdir. Əgər XIX əsrdə (1820-1913) və qismən XX əsrin əvvəllərində QMM 3.5 dəfə artmışdırsa, XX əsrdə (1913-1998) bu göstərici 12.5 dəfə təşkil etmişdi. Ortaillik artım templərindən çıxış etsək, onda belə alınır ki, XX əsrdəki inkişaf sürəti XIX əsrlə müqayisədə 2.2 dəfə (1.37% - 3.02% qədər) çox olmuşdur.

QMM-un artımında dünya əhalisinin çoxalması və adambaşına QMM istehsalının artımı mühüm rol oynamışdır. İkincinin birincini üstələməsini dünyada əmək məhsuldarlığının artımı kimi də səciyyələndirmək olar. XX əsrdə (XIX əsrlə müqayisədə) hər iki amilin artım sürəti daha yüksək olmuşdu: əhali 2.6 dəfə (ortaillik artım tempi: - 0.55% və 1.44%), adambaşına QMM istehsalı 1.9 dəfə (0.82% və 1.56%) daha sürətlə artmışdır. Əgər son iki əsr ərzində dünya əhalisi 5.6 dəfə artmışdırsa, adambaşına QMM istehsalı 8 dəfə çoxlamışdı.

Araşdırılan dövr ərzində dünya iqtisadiyyatının qeyri-bərabər inkişafını açıq-aydın şəkildə görmək mümkündür. Belə ki, kumulyativ artım üzrə ölkələr arasında böyük bir uçurum müşahidə edilir. Az və ya çox dərəcədə müvafiq statistik məlumatların olduğu 50 ölkə arasında ən zəif inkişaf tempi İrlandiyaya xasdır: 1820-1989-cu illətdə cəmi 14.4 dəfə!

XIX əsrdə Çin (cəmi 42% artım), XX əsrdə isə Rusiya (cəmi 4.2 dəfə) daha çox geridə qalmışdır.

Hər iki əsrdə rekord göstərici Avstraliyaya məxsusdur: müvafiq olaraq 494 və 6833 dəfə! XX əsrdə Tayvanda da yüksək artım tempi müşahidə olunmuşdur: 133 dəfə!

Əhalinin artım tempinə görə də Avstraliya lider mövqeyindədir: 146 və 568 dəfə! XX əsrdə Qana ön plana çıxmışdı (9.2 dəfə). Ən az artım yenə də İrlandiyanın payına düşür. Əslində, İrlandiyaya münasibətdə azalma müşahidə olunur: 4.9 mln. nəfərdən 2.8 mln. nəfərə qədər! Yalnız XX əsrin ikinci yarısından etibarən müsbət işarəli proseslər yaranmağa başlamışdı.

Adambaşına ÜDM istehsalı göstəricisinə görə rekord göstərici hər iki əsrdə Yaponiyaya (26.8 dəfə), XIX əsrdə Kanadaya (4.4dəfə), XX

downloaded from KitabYurdu.org

əsrdə isə Tayvana (20.8 dəfə) məxsusdur. Bu göstərici üzrə ən aşağı səviyyədə Banqladeşdir (XIX əsrdə - 9%, hər iki əsrdə birlikdə 2.3 dəfə).

Qlobal səviyyədə inkişaf prosesi nöqteyi-nəzərindən qeyri-bərabərlik, assimmetrik bölünmə tam məntiqi olaraq dünya iqtisadiyyatında "müxtəlifliyin" daha da artmasına, dünya ölkələrinin böyük əksəriyyətinin "xidmət" iqtisadiyyatına keçiddən kənarda qalmasına gətirib çıxarmışdı. XX əsrin sonları üçün elmi dövriyyədə müəyyən mövqe tutan ümumrifah nəzəriyyəsi inkişaf səviyyəsi və inkişaf templərini aşağıdakı amillərin təsiri ilə izah edirdi:

- Əlverişli coğrafi mövqe;
- Əlverişli iqlim;
- Təbii resursların mövcudluğu;
- Əhalinin sayı (azsaylı, yaxud çoxsaylı olması);
- Fiziki kapital və yığım (yığım və investisiyalar);
- İnsan kapitalı (əhalinin təhsili və sağlamlığı) və onun yığım tempi;
- Mədəni, əxlaqi və dini dəyərlər sistemi;
- Elmi-texniki tərəqqi;
- İqtisadi inkişafın səviyyəsi və mərhələsi;
- Beynəlxalq ticarətdə iştirak dərəcəsi;
- Xarici istismara məruzqalma, yaxud xaricdən yardım alma;
- "Bazar kortəbiiliyinin elmi istiqamətləndirilməsi" və s.

Dünya iqtisadiyyatının yeni keyfiyyət mərhələsində sərvətyaratmanın ənənəvi amillər kompleksi ictimai praktikada özünü doğrultmayıbdır. Emprik təhlil uzunmüddətli iqtisadi inkişaf templəri ilə sadalanan amillər arasında dayanıqlı əlaqələrin olmadığını üzə çıxarır.

Sözügedən dövrdə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin inkişaf dinamikasının müqayisəsi qlobal vəziyyətin həqiqətən də kifayət qədər mürəkkəb, çoxsaylı və çoxşaxəli olduğunu görməyə imkan verir.

downloaded from KitabYurdu.org

*Cədvəl 15.3.*

## *Aparıcı ölkələrin iqtisadi inkişaf dinamikası (1950-1980)*

| *Göstəricilər* | *ABŞ* | | | *Böyük Britaniya* | | | *Fransa* | | | *AFR* | | | *Yaponiya* |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | *1950* | *1980* | *1980/1950 nisbətən (%)* | *1950* | *1980* | *1980/1950 nisbətən (%)* | *1950* | *1980* | *1980/1950 nisbətən (%)* | *1950* | *1980* | *1980/1950 nisbətən (%)* | *1950* |
| 1.Əhali, mln nəfər | *152 (1960)* | *229* | *+50.6%* | *50 (1960 )* | *56* | *+12%* | *41.9 (1960)* | *53.4* | *+27.4%* | *47.8 (1960)* | *59.7* | *+24.9%* | *85 (1960)* |
| 2.İnkişaf etmiş ölkələrin sənaye istehsalında xüsusi çəkisi (%) | *39.6* | *39.6* | *X* | *8.2* | *4.9* | *-3.3%* | *8.6* | *7.9* | *-0.7%* | *15.7* | *13.3* | *-2.4%* | *6.8* |
| 3.Sənaye istehsalının həcmi (1975=100) | *41* | *125* | *X* | *56* | *108* | *X* | *28* | *117* | *X* | *21* | *118* | *X* | *5.4* |
| 4.Neft hasilatı, mln.t. | *267* | *424* | *+58.8%* | *-* | *-* | *X* | *-* | *-* | *X* | *-* | *-* | *X* | *-* |
| 5.Elektrik enerjisi istehsalı, mlrd kvt/s | *408* | *2356* | *+5.72dəfə* | *67* | *266* | *+3.9dəfə* | *33* | *254.4* | *+7.7dəfə* | *45.5* | *36.9* | *-19%* | *48* |
| 6.Kömür istehsalı, ml.t. | *505* | *714* | *+41.4%* | *22* | *130* | *+5.9dəfə* | *50.8* | *8.1* | *-6.3dəfə* | *111* | *87* | *-21.7%* | *39* |
| 7. Polad istehsalı, mln.t | *88* | *102* | *+15.9%* | *16.6* | *11.3* | *-32%* | *8.6* | *23.2* | *+2.7dəfə* | *12.1* | *43* | *+3.5dəfə* | *6.5* |
| 8. İxracat, mlrd.dol. | *10.3* | *220.8* | *+21.4dəfə* | *6* | *110.1* | *+18.3dəfə* | *3* | *111.1* | *+37dəfə* | *2* | *192.9* | *+96.4dəfə* | *0.8* |
| 9.İdxalat, mlrd.dol. | *8.8* | *257.0* | *+29.2dəfə* | *7* | *115.6* | *+16.5dəfə* | *3* | *135.1* | *+45dəfə* | *2.7* | *188* | *+69.6dəfə* | *1* |

downloaded from KitabYurdu.org

15.3 saylı cədvəldən göründüyü kimi, 1980-ci ildə dünya sənaye istehsalında inkişaf etmiş 4 ölkənin (ABŞ, Böyük Britaniya, AFR, Yaponiya) xüsusi çəkisi birlikdə 80.9% təşkil etmişdi. Əksər iqtisadi göstəricilər üzrə artım 10 dəfələrlə ölçülür və s.

İnkişaf etməkdə olan ölkələrdə isə tədqiq olunan dövr ərzində iqtisadi inkişaf səviyyəsi müqayisəli şəkildə azalmağa doğru istiqamətlənmişdir (cədvəl 15.4). Məsələn, əgər sözügedən göstərici 1913-cü ildə orta dünya səviyyəsinin 33%-ni təşkil edirdisə, 1987-ci ildə 27%-ə bərabər olmuş, yaxud 6% azalmışdı. İnkişaf etmiş ölkələrin analoji səviyyəsi ilə müqayisədə isə cəmi 7% (1987-ci il ) olmuşdur.

Postindustrial eraya keçid, informasiya cəmiyyəti quruculuğu ərəfəsində inkişaf etməkdə olan ölkələrin dünya iqtisadiyyatında yeri elə bir əhəmiyyət daşıya biləcək səviyyəyə çatmamışdı (cədvəl 15.5). Məlumatlardan göründüyü kimi, 128 inkişaf etməkdə olan ölkənin dünya əhalisində payı 77.5% olduğu halda, Qlobal Məcmu Məhsulda 39.8%-lik xüsusi çəkiyə malik olmuşdur.

Dünya sosializm sisteminin süqutu (1991) nəticəsində meydana çıxan "keçid iqtisadiyyatlı" ölkələrdə ümumsosial-iqtisadi situasiya inkişaf etməkdə olan ölkələrlə müqayisədə daha gərgin xarakter daşımışdı.

*Cədvəl 15.4*

***İnkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf səviyəsi (%)***

| *Göstəricilər* | *1913* | *1920* | *1938* | *1950* | *1987* | *1987/1913-ə nisbətən dəyişmə (+;-)* |
|---|---|---|---|---|---|---|
| 1. İnkişaf etməkdə olan ölkələr / orta dünya inkişaf səviyyəsi | *33* | *37* | *29* | *29* | *27* | *-6.0%* |
| 2. İnkişaf etməkdə olan ölkələr / inkişaf etmiş ölkələr | *11* | *12* | *9* | *9* | *7* | *-4.0%* |
| 3. İnkişaf etməkdə olan ölkələr /ABŞ | *8* | *7* | *7* | *5* | *6* | *-2%* |

*Cədvəl 15.5*

downloaded from KitabYurdu.org

***İnkişaf etməkdə olan ölkələr dünya iqtisadiyyatında: əhali, ÜDM, ixracat (1998) (%-lə)***

| *Regionlar* | *Ölkələrin sayı* | *Əhali* | *ÜDM* | *İxracat* |
|---|---|---|---|---|
| 1.Afrika ölkələri, | 51 | 11.9 | 3.3 | 1.8 |
| o cümlədən: | | | | |
| -Saxaradan cənubda olan ölkələr | 48 | 10.8 | 2.4 | 1.4 |
| 2.Asiya ölkələri, o cümlədən: | | | | |
| - Çin | 27 | 52.2 | 22.8 | 8.1 |
| - Hindistan | | | | |
| - Sair Asiya ölkələri | 1 | 21.2 | 12.0 | 3.1 |
| | 1 | 16.5 | 4.4 | 0.7 |
| 3. Orta Şərq və Avropa ölkələri | 25 | 14.5 | 6.5 | 4.4 |
| 4.Latın Amerikası ölkələri | | | | |
| | 17 | 5 | 4.7 | 3.4 |
| | 33 | 8.4 | 8.9 | 4.4 |
| İnkişaf etməkdə olan ölkələr, cəmi: | 128 | 77.5 | 39.8 | 17.7 |
| Dünya | 100 | 100 | 100 | 100 |

İnkişaf etməkdə olan ölkələrin tərkibcə homogen olmadığı, inkişaf prosesinə münasibətdə həm start, həm də potensial baxımından əsaslı sürətdə fərqləndikləri açıq-aydın şəkildə müşahidə edilməkdədir.

XX əsrin sonlarında baş verən hadisə və proseslər sözügedən ölkələr qrupuna müxtəlif istiqamətlərdən təsir göstərsə də, onların hamısı üçün adekvat nəticələrlə yekunlaşmamışdır. Belə ki, bu ölkələrdə xeyli gec başlayan və assimetrik xarakter daşıyan sənaye inqilabından fərqli olaraq, qloballaşma prosesi çox qısa bir zaman kəsiyində həmin ölkələr qrupunu öz orbitinə cəlb edə bilmişdi. Nəticə olaraq dövlətin iqtisadiyyata müdaxiləsi imkanları əhəmiyyətli dərəcədə məhdudlaşmış, milli mənafelərin ödənilməsi müstəvisində böyük problemlər yaranmışdır.

Qeyd edilən asrpekt Latın Amerikası ölkələrində daha qabarıq şəkildə təzahür etmişdi.

downloaded from KitabYurdu.org

1980-ci illərdə iqtisadi artım tempinə görə Latın Amerikası ölkələri İƏİT-nin üzvü olan ölkələrdən 2 dəfə geri qalırdı. 1988-ci ildə bu ölkələrin birlikdə ÜDM-u 808 mlrd. dollar təşkil etmişdir ki, bu da İtalyanın analoji göstəricisindən aşağı səviyyədə olmuşdu.

Əhalinin 40%-i yoxsulluq həddində yaşayırdı. 1990-cı illərin əvvələrində Latın Amerikası ölkələrinin dünya ixracatında payı cəmi 3.9% olmuşdu.

1980-ci illərin əvvələrindən etibarən (dövlət kapitalizmi modelinin böhran ilə əlaqədar olaraq) Latın Amerikası ölkələrində neoliberal modelə keçid başlamışdı. Qloballaşmanın formalaşdırdığı inkişaf imperativinə uyğunlaşa bilməyən Latın Amerikası şox tezliklə emal sənayesinin tənəzzülü ilə qarşılaşdı.

Latın Amerikasından fərqli olaraq daha aşağı səviyyəli inkişaf tempinə malik olan Afrika və Qərbi Asiya birbaşa itkilərdən mühafizə oluna bilmişdi. Lakin son 9 il ərzində (2007-ci ilə qədər) emal sənayesinin illik artım tempi 1.3-1.6% olmuşdur. Müqayisə üçün qeyd edək ki, analoji göstərici Şərqi Asiyada 3.3%, Çində isə 5.5% təşkil etmişdi. Bütövlükdə, Cənub-Şərqi Asiya ölkələrində situasiya tamamilə başqa məzmun kəsb etməyə başlamışdı.

XX əsrin sonlarına yaxın dünya iqtisadiyyatında ABŞ və Aİ ilə yanaşı, üçüncü güc mərkəzi formalaşmağa başlayır. Bu mərkəzin əsas xarakterik cəhəti ondan ibarətdir ki, bu günə qədər qeyd edilən regionda artımın qütbləri arasında, başqa sözlə, gücün paylanması müstəvisində konkret aydınlıq müşahidə edilmir. Hələ 1980-ci ildə regionun şəriksiz lideri olan Yaponiya Çinin simasında güclü rəqiblə qarşılaşmışdır. Eyni zamanda, bu ölkələrdə tətbiq edilən iqtisadi mexanizm milli psixologiya və milli dəyərlər sisteminə istinadla hərəkətə gətirilir.

Məlumatlardan göründüyü kimi, inkişaf etməkdə olan ölkələrin “daxili” müxtəlifliyi zaman keçdikcə daha qabarıq şəkildə təzahür edir (cədvəl 15.6).

Eyni situasiya xarici ticarətdə də müşahidə olunur. 1985-ci illə müqayisədə İEOÖ-lərin dünya ixracatında xüsusi çəkisi 10%-dən çox artaraq 33.1% (2004-cü il) təşkil etmişdir, bunun da 4/5 12 ölkənin (sənaye məhsulları ixrac edən), o cümlədən, 1/3-i Çinin payına düşür. 2004-cü ildə İEOÖ-lərin məcmu ixracının ¾-ü 12 ölkənin, o cümlədən 25%-i Çinin hesabına olmuşdur.

Həmin ildə Çin ixracın həcminə görə dünyada 3-cü yerə (Almaniya və ABŞ-dan sonra, 2006-cı ildə isə ikinci yerə (Alamaniyadan sonra) çıxmışdı. Çin qərb iqtisadiyyatının donoruna çevrilməkdədir.

downloaded from KitabYurdu.org

Analoji vəziyyət birbaşa xarici investsiyaların paylanmasında da müşahidə edilir (cədvəl 15.7).

***Cədvəl 15.6***

***QMM-də və İEOÖ-lərin məcmu daxili məhsulunda ayrı-ayrı ölkələrin və ölkə qruplarının xüsusi çəkisnin dinamikası (%) (2004-cü ilin alıcılıq qabiliyyətinin pariteti əsasında)***

| **Ölkələr və ölkə qrupları** | **1980** | **1990** | **2000** | **2005** | **2005/1980-ə nisbətən (+ ;-)** |
|---|---|---|---|---|---|
| | Qlobal Məcmu Məhsulda (%) | | | | |
| İnkişaf etməkdə olan ölkələr (İEOÖ) bütövlükdə: | 28.9 | 31.7 | 39.4 | 43.3 | +14.4 |
| O cümlədən: | | | | | |
| 1)Sənaye məhsulları ixrac edən ölkələr: | 15.7 | 19.6 | 26.9 | 30.5 | +14.8 |
| 2) Yeni sənaye ölkələri | 1.5 | 2.5 | 3.4 | 3.4 | +1.9 |
| 3) Çin | 3.0 | 5.3 | 10.3 | 13.4 | +10.4 |
| 4) Hindistan | 3.5 | 4.3 | 5.5 | 6.3 | +2.8 |
| 5) Digər SMİÖ | 7.7 | 7.5 | 7.7 | 7.4 | -0.3 |
| 6 )Neft ixrac edən ölkələr | 4.8 | 4.5 | 4.5 | 4.7 | -0.1 |
| 7) Digər İEOÖ | 8.4 | 7.5 | 8.0 | 8.1 | -0.3 |
| | **İEOÖ-lərin Məcmu Daxili Məhsulunda (%)** | | | | |
| 1. Sənaye məhsulları ixrac edən ölkələr | 54.3 | 61.8 | 68.3 | 70.4 | +16.1 |
| 2. Yeni sənaye ölkələri | 5.2 | 7.9 | 8.6 | 7.9 | +2.7 |
| 3.Çin | 10.4 | 16.7 | 26.1 | 30.9 | +20.5 |
| 4. Hindistan | 12.1 | 13.6 | 14.0 | 14.5 | +2.4 |
| 5. Digər YSÖ | 26.6 | 23.6 | 19.6 | 17.1 | -9.5 |
| 6. Neft ixrac edən ölkələr | 16.7 | 14.2 | 11.4 | 10.9 | -5.8 |
| 7. Digər İEOÖ | 29 | 24 | 20.3 | 18.7 | -10.3 |

downloaded from KitabYurdu.org

Qeyd: 1. Sənaye məhsulları ixrac edən ölkələr qrupuna (SMİÖ) 4 yeni sənaye ölkəsi, Çin, Hindistan, Braziliya, Meksika, Tailand, Türkiyə və Filippin aid edilmişdir.

2. Neft ixrac edən ölkələr qrupu: cəmi 19 ölkə (Əlcəzair, Anqola, Bəhreyn, Bruney, Venesuela, Qabon, Küveyt, Liviya, Niqeriya, BƏƏ, Oman, Səudiyyə Ərəbistanı, Trinidad və Tobaqo).

Mənbə: Мировая экономика в эпоху глобализации. Прогноз ИМЭМО РАН до 2020 г. Приложение.

Məlumatlardan göründüyü kimi, birbaşa xarici investisiyaların əsas hissəsi həmin 12 ölkənin payına düşür.

***Cədvəl 15.7***

***İnkişaf etməkdə olan ölkələrin birbaşa xarici investisiyalarda payı (%-lə)***

| **Ölkələr və ölkə qrupları** | **1990** | **2000** | **2004** | **2004/1990-ci ilə nisbətən (+;-)** |
|---|---|---|---|---|
| İnkişaf etməkdə olan ölkələr bütövlükdə, | 20.4 | 30.0 | 25.0 | +4.6 |
| o cümlədən: | | 10.7 | | |
| 1.Yeni sənaye ölkələri | 5.0 | | 7.9 | +2.9 |
| (YSÖ) | | 1.8 | | |
| 2. ACEAN | 1.6 | 3.3 | 1.1 | -0.5 |
| 3. Çin | 1.2 | 0.3 | 2.8 | +1.6 |
| 4. Hindistan | 0.1 | 0.3 | 0.4 | +0.3 |
| 5. Türkiyə | 0.6 | 1.8 | 0.4 | -0.2 |
| 6. Braziliya | 2.1 | 1.7 | 1.6 | -0.5 |
| 7. Meksika | 1.3 | | 2.1 | +0.8 |

***Mənbə**: UNCTAD World Investment Report 2008., Annex Table B.2 məlumatları əsasında hesablanmışdı.*

TMK-lar tərəfindən sözügedən ölkələr qrupunda həyata keçirilən yeni layihələrin əhəmiyyətli hissəsi NİOKR-la bağlıdır.

Belə ki, 2003-2004-cü illərdə Cənubi, Şərqi və Cənub-Şərqi Asiyada (12 ölkənin 9-u bu regionda yerləşir) NİOKR-ın payına yeni layihələrin 11%-i, başqa sözlə, 6212 layihədən 690-i düşürdü. Müqayisə üçün deyək ki, analoji göstərici inkişaf etmiş ölkələrdə 5% (7913

downloaded from KitabYurdu.org

layihədən 38-i), postsosialist ölkələri də daxil olmaqla yerdə qalan dünya ölkələrində 1.4% (3374 layihədən 48-i) təşkil etmişdi.[192]

## §15.4. Türkiyə iqtisadiyyatı qloballaşma dövründə

24 yanvar 1980-ci ildə qəbul edilmiş Stabilləşdirmə Qərarları Türkiyənin dünyaya inteqrasiyasına əhəmiyyətli təsir göstərmişdir.

Bu dövrdə Türkiyənin idxalatında mühüm əhəmiyyət kəsb edən neftin qiymətinin yüksəlməsi valyuta ehtiyacını əhəmiyyətli şəkildə artırmışdır.

Problemli situasiyadan qurtarmaq üçün yeni xarici mənbələr axtarışına başlayan Türkiyə Dünya Bankı, BVF-nun iqtisadiyyatda ciddi struktur dəyişiklikləri tələbilə üzləşmişdir. Nəticədə, 1980-ci ildə bu struktur dəyişikliklərini də özündə ehtiva "24 Yanvar Qərarları" həyata keçirilməyə başlanmışdır.

Bu qərarların əsas hədəfləri tədiyyə balansının yaxşılaşdırılması, inflyasiyanın cilovlanması, səmərəli resurs bölgüsünə imkan verən qiymət sisteminin formalaşdırılması və effektiv xarici borc sisteminə nail olunmasıdır. Bütün bu hədəflərə nail olmaq məqsədilə, dövlət büdcəsi kəsirinin ortadan qaldırılması, qiymətlərin tənzimlənməsi, xarici ticarətdəki məhdudiyyətlər kimi bazar sisteminə mənfi təsir göstərən müdaxilələrin ləğvi və əməkhaqqı artımlarına limitlər qoyulması kimi vasitələrdən istifadə edilmişdir. Həmçinin, dövlət müəssisələrinin rasionallaşdırılması, xarici ticarətin və maliyə sektorunun liberallaşdırılması ilə vergi sisteminin səmərəliliyinin artırılması kimi tədbirlər də nəzərdə tutulmuşdur.

[192] Unctad, World Investment Report, 2005, N.Y. and Geneva, 2005. annex Tables A. 1.2., A.1.3.

downloaded from KitabYurdu.org

*Cədvəl 15.8*

***Türkiyə Respublikasında həyata keçirilən iqtisadi siyasətin əsas mərhələləri***

| **1980-1992** | **İxracata əsaslanan iqtisadi artım, liberal siyasət, xarici ticarətdə sərbəstləşmə, özəlləşdirmə, iqtisadiyyatda dövlət bölməsinin xüsusi çəkisinin azaldılması, dövlətin borclanma əsasında aliyyələşdirilməsi** |
|---|---|
| 1993-1994 | İqtisadi böhran və devalvasiya |
| 1994-1999 | Qeyri-müəyyən siyasətlər, Avropa Birliyi ilə gömrük ittifaqına qoşulma |
| 2000-2002 | İqtisadi böhran dövrü, BVF ilə ortaq siyasətlərin həyata keçirilməsi |
| 2003-2008 | Liberal siyasət, özəlləşdirmə, xarici kapitalın ölkəyə daxil olması, Avropa Birliyi ilə müzakirə dövrü və Birliyə uyğunlaşma prosesinə başlanması |
| 2008 | Qlobal iqtisadi böhran dövrü |

***Mənbə**: Mahfi Eğilmez, Makroekonomi: Türkiyeden Örneklerle, Birinci Basım, Remzi Kitabevi, İstanbul, Kasım 2009, s.28.*

İlk növbədə, inflyasiya, iqtisadi tənəzzül, valyuta çatışmazlığı kimi iqtisadi problemləri həll etmək məqsədi daşıyan bu tədbirlərin digər mühüm bir məqsədi də BVF, Dünya Bankı, İƏİT kimi beynəlxalq qurumların təzyiqini azaltmaq və xarici maliyyələşdirmə mənbələrindən faydalanmaq olmuşdur. Bu baxımdan, yenidən liberalizmə keçid və azad bazar iqtisadiyyatının tam gücü ilə çalışa bilməsi, dünyaya inteqrasiya ilə birlikdə ixracata əsaslanan sənayeləşmə strategiyası üçün zəruri sosial-iqtisadi və siyasi mühit yaradılmağa başlanmışdır.

Beləliklə, 1980-ci illərin birinci yarısından başlayaraq sənayeləşmə modelini ixracata əsaslanan sənayeləşməyə çevirən Türkiyə, tədricən sərbəst faiz, qiymət və valyuta sisteminə keçməyə başlamışdır. 1990-cı illərdə kapitalın hərəkətinin sərbəstləşdirilməsi ilə bu yeni liberal siyasət pik nöqtəsinə yüksəlmişdir.

**- 1990- cı illər iqtisadi böhran və qeyri-müəyyən iqtisadi siyasət mərhələsi**

1984-1989-cu illər arası dövrdə Türkiyə iqtisadiyyatı iqtisadi artım dövrü yaşamışdır. Bu dövrdə Qərb iqtisadiyyatlarında meydana gələn canlanma, Türkiyənin həyata keçirdiyi ixracata əsaslanan iqtisadi artım

downloaded from KitabYurdu.org

strategiyası ilə də üst-üstə düşərək potensialın artmasına səbəb olmuş və Türkiyə iqtisadi artım prosesinə girmişdir. 1990-cı illərdə dünyada baş verən iki mühüm hadisə - İran-İraq müharibəsinin başa çatması və Körfəz müharibəsi – Türkiyə iqtisadiyatına birbaşa təsir göstərmişdir. Bu iki hadisə nəticəsində Türkiyə iqtisadiyyatı iki başlıca bazarını itirmişdir. Bu hadisələrə paralel olaraq, dünya iqtisadiyyatında da bir durğunluq prosesinin başlanması Türkiyədə ixracatı azaltmış, büdcə kəsirləri inflyasiyanı artırmış, kurs siyasəti və digər amillər iqtisadiyyatı 1994-cü il böhranına yuvarlamışdır.

1994-cü il böhranı həmin ilin aprel ayında Türkiyə iqtisadi tarixinə "5 Aprel Qərarları" kimi daxil olan tədbirlərin alınmasını zəruri etmişdir. Həmin tədbirlər çərçivəsində tətbiq edilən proqram, sərt maliyyə və monetar siyasətə əsaslanan ortodoks, əməkhaqqı artımlarının büdcə ödəmələrilə məhdudlaşdırıldığı, dövlət müəssisələri məhsullarının qiymətlərinin əvvəlcə artırılıb 6 ay sabit saxlanıldığı heteredoks siyasətləri özündə birləşdirən qarışıq bir struktura malik olmuşdur.

Ancaq qısa müddət sonra ölkədə yaranan siyasi problemlər proqramın icrasını ləngitmiş və BVF da iqtisadiyatın uçuruma getdiyini göstərən bir hesabat hazırlayaraq ölkəni tərk etmişdir.

1996-1998-ci illər arasında qısamüddətli hökumətlər dövrünün davam etməsi qeyri-müəyyənliyi artırmış, orta və uzunmüddətli stabilləşdirmə proqramlarının tətbiqi mümkün olmamış, icra edilən tədbirlər isə birdəfəlik mənbə axtarışı kimi qısamüddətli xarakter daşımışdır. 1995-ci ildə başlayan sürətli iqtisadi artım meyli 1998-ci ilin aprel ayına qədər davam etmiş, ancaq həm ölkədaxilindəki siyasi sabitsizlik, həm də Cənubi-Şərqi Asiyada və daha sonra Rusiya Federasiyasındakı maliyyə böhranı səbəbilə sona çatmışdır. 1999-cu ildə yeni qurulan kaolisiya hökuməti iqtisadiyyatdakı bu mənfi gedişatın qarşısını almaq və xarici maliyyə mənbəyi tapmaq məqsədilə BVF ilə saziş imzalamağa məcbur olmuşdur. Ancaq imzalanan bu saziş, yeni bir prosesin başladılması formasında deyil, daha əvvəl başlayan stand-bu axtarışların davamı və nəticəsi xarakteri daşımışdır.

Bütün bu hadisələrin fonunda bu dövrün Türkiyə iqtisadiyyatı baxımından mühüm əhəmiyyət daşıyan cəhətlərindən biri, 1996-cı ildən Avropa Birliyi ilə Gömrük İttifaqı qurması və 1999-cu il Helsinki Zirvə Toplantısı ilə Avropa Birliy üzvlüyünə namizəd ölkə statusu qazanmasıdır.

2000-ci illərin əvvəllərində iki dəfə böhran yaşamasına baxmayaraq, Türkiyə azad bazara əsaslanan iqtisadi modeli ilə öz

downloaded from KitabYurdu.org

inkişafını davam etdirmişdir. 2002-2007-ci illər arasında, yəni dünya iqtisadi böhranına qədər Türkiyə iqtisadiyyatı ciddi bir inkişaf dinamizmi qazanmışdır ki, bunun da əsas səbəbləri aşağıdakılardır:

- Dünya iqtisadi konyukturasının yüksəlişdə olması və milli iqtisadiyyatların investorlar üçün cəlbediciliyinin artması,
- Konyuktura yüksəlişinin doğurduğu likvidlik bolluğu;
- Likvidlik bolluğunun risq qorxusunu azaltması və risqə getmək meyilini artırması;
- Kapitalın miqrasiyasının dünya boyunca sərbəstləşdirilməsi;
- 2001-ci il böhranı sonrasında bank sektorunun struktur modernləşdirilməsi və zəif tərəflərinin aradan qaldırılması;
- Türkiyənin Avropa Birliyi ilə tamhüquqlu üzvlük müzakirələrinə başlaması.

Bu dövrün əsas diqqəti çəkən xüsusiyyəti Türkiyənin Avropa Birliyinə üzvülük yolunda 2005-ci ildən müzakirələrə başlamasıdır. BVF ilə birlikdə icra edilən hökumət proqramlarının artıq 2009-cu ildə yekunlaşmış, azad bazara üstünlük verən qarışıq iqtisadiyyat modeli tətbiq edilir

**- Türkiyə iqtisadiyyatının inkişaf trendinin ümumi qiymətləndirilməsi**

Bütün bu illər ərzində Türkiyədə demokratiya 27 may 1960, 12 mart 1971 və 12 sentyabr 1980-ci illərdə olmaqla, 3 dəfə "qırılma" nöqtəsindən keçmiş və hərbi idarəetmə mülki idarəetməni əvəz etmişdir. Təbii ki, hər bir hərbi müdaxilənin də arxasında müxtəlif sosial, siyasi və iqtisadi səbəblər dayanırdı (cədvəl 15.10)

Türkiyə iqtisadiyyatının 1923-cü ildən bu günə keçdiyi inkişaf dinamikasını aşağıdakı cədvəldən görmək olar(cədvəl 15.9).

***Cədvəl 15.9***

***Əsas makroiqtisadi göstəricilərin inkişaf dinamikası (1923-2008)***

| İllər | İqtisadi artım | İnflyasiya | Büdcə kəsiri/ÜDM | Xarici ticarət kəsiri/ÜDM |
|---|---|---|---|---|
| 1923-1929 | 9,4 | - | 0,2 | -3,8 |
| 1930-1939 | 6,0 | - | -0,3 | 0,7 |
| 1940-1949 | -0,9 | 27,4 | 0,7 | 0,5 |
| 1950-1959 | 7,0 | 8,8 | -0,5 | -1,8 |
| 1960-1969 | 5,7 | 5,0 | -0,7 | -2,2 |
| 1970-1979 | 5,9 | 25,7 | -1,2 | -4,3 |
| 1980-1989 | 4,0 | 50,2 | -2,7 | -5,3 |

downloaded from KitabYurdu.org

| | | | | |
|---|---|---|---|---|
| 1990-1999 | 3,9 | 71,2 | -6,2 | -7,6 |
| 2000-2008 | 6,0 | 27,0 | -6,1 | -5,9 |

**Mənbə:** Türkiyə İstatistik Kurumu, www.tuik.gov.tr

Göründüyü kimi, Türkiyə iqtisadiyyatında ən uğurlu dövr respublikanın qurulduğu ilk illərdir. Həmin illər üçün inflyasiya göstəricilərini əldə etmək mümkün olmasa da, digər göstəricilərin kifayət qədər uğurlu olduğu müşahidə edilir.

Cəmiyyətin Qurtuluş müharibəsindən qalib çıxmasının yaratdığı ruhyüksəkliyinin rolunu danmaq mümkün deyildir.

Türkiyə Respublikasının elan olunduğu 1923-cü ildə ÜDM 570 milyon dollar, adambaşına düşən ÜDM də 47,5 dollar təşkil etmişdir. 1980-ci illər ÜDM-nin artımı baxımından dönüş nöqtəsi olmuşdur. Eyni sıçrama bir də 2000-cı illərdə baş vermişdir. Ancaq buradakı sürətli artımın əsas səbəblərindən birinin də ÜDM hesablamalarında baza ili və hesablama metodlarının dəyişdirilməsidir. Həmçinin, hər iki dövrdə sürətli iqtisadi artımın böhrandan sonrakı dövrə təsadüf etməsi diqqəti cəlb edir (cədvəl 15.10).

***Cədvəl 15.10***

***Türkiyə iqtisadiyyatında ÜDM-nin inkişaf dinamikası (1923-2008)***

| İllər | ÜDM, mln $ | Adambaşına ÜDM, $ |
|---|---|---|
| 1923 | 570 | 47,5 |
| 1930 | 746 | 51 |
| 1940 | 1742 | 98 |
| 1950 | 3462 | 167 |
| 1960 | 9866 | 359 |
| 1970 | 19029 | 539 |
| 1980 | 68391 | 1540 |
| 1990 | 152001 | 2682 |
| 2000 | 265384 | 3500 |
| 2005 | 481497 | 7000 |
| 2006 | 526429 | 7500 |
| 2007 | 658786 | 9333 |
| 2008 | 746430 | 10436 |

***Mənbə:*** *Türkiyə İstatistik Kurumu, www.tuik.gov.tr*

Türkiyə iqtisadiyyatının 1923-cü ildən bu günə qədər olan inkişaf prosesində ilk transformasiyanın əhali ilə bağlı olduğu aydın şəkildə

downloaded from KitabYurdu.org

görünməkdədir. 1923-cü ildə Türkiyə əhalisi 13,6 milyon nəfər olduğu halda, 2008-ci ildə 72 milyona yüksəlmiş, başqa sözlə 5 dəfədən çox artmışdır. 1923-cü ildə əhalinin 25%-i şəhərlərdə, 75%-i kəndlərdə yaşadığı halda, 2008-ci ildə bu rəqəmlər müvafiq olaraq 66% və 34% formasında dəyişmişdir.

***Cədvəl 15.11***

***Türkiyə iqtisadiyyatının transformasiya prosesi (1923-2008)***

| Göstəricilər | 1923 | 2002 | 2008 |
|---|---|---|---|
| Əhali:<br>Kənd əhalisi<br>Şəhər əhalisi | 13,6 mln.<br>75%<br>25% | 70 mln.<br>35%<br>65% | 72 mln.<br>34%<br>66% |
| ÜDM | 570 mln. $ | 231 mlrd. $ | 746,4 mlrd. $ |
| Adambaşına ÜDM | 47,5 $ | 3350 $ | 10436 $ |
| İxracat | 51 mln. $ | 39 mlrd. $ | 140,8 mlrd. $ |
| İdxalat | 87 mln. $ | 48 mlrd. $ | 193,7 mlrd. $ |
| Aqrar sektor / ÜDM | 43% | 13% | 10% |
| Sənaye sektoru / ÜDM | 11% | 27% | 30% |
| Xidmətlər sektoru / ÜDM | 46% | 60% | 60% |

***Mənbə:*** *Türkiyə İstatistik Kurumu, www.tuik.gov.tr*

İqtisadiyyatda sonrakı ikinci uğurlu dövr 1950-1959-cu illər arasına təsadüf edir. Bu da yenə müharibə dövrünün, II Dünya müharibəsinin ardından gələn sıçrayışı göstərir. Türkiyə müharibəyə girməsə də, onun çətinliklərini çəkən ölkələrdən biri olmuşdur. Müharibədən sonra Demokrat Partiyanın iqtidara gəlməsilə birlikdə liberal siyasətə keçən Türkiyədə iqtisadi artım dövrü başlamışdır.

Türkiyə iqtisadiyyatının bu onillik inkişaf dövrləri ərzində ən uğursuz mərhələsi 1990-1999-cu illər olmuşdur. Bu dövrdə iqtisadi artım aşağı düşmüş, inflyasiya, büdcə kəsiri və xarici ticarət kəsiri rekord səviyyəyə yüksəlmişdir.

Araşdırılan dövr (1923-2008) ərzində ÜDM-nin həcmi 1300 dəfədən çox, adambaşına düşən ÜDM-nin həcmi isə 220 dəfə, ixracat 2800 dəfə, idxalat isə 2230 dəfə artmışdır.

Cədvəl 15.11-dən göründüyü kimi, iqtisadiyyatın strukturunda da ciddi artım baş vermiş və ölkə bu müddət ərzində aqrar sektorun üstün olduğu bir iqtisadi strukturdan xidmətlər və sənayenin üstün olduğu bir iqtisadi struktura keçmişdir.

downloaded from KitabYurdu.org

**- Türkiyənin dünya iqtisadiyyatındakı yeri və iqtisadi hədəfləri**

87 ildir ki, dünyada var olan və bütün çətinliklərə baxmayaraq inkişaf edən Türkiyə Respublikası bu gün demokratik, dünyəvi, sosial və hüquqi bir dövlətdir. Türkiyənin artıq 750 milyard dollara çatmış ÜDM göstəricisini nəzərə aldıqda isə dünyanın 17-ci, Avropanın 7-cı, bölgənin isə, Rusiya nəzərə alınmasa, 1-ci böyük iqtisadiyyatına malik bir ölkə olduğunu və G-20 ölkələri arasında yer aldığını görürük.

Türkiyə xarici ticarət dövriyyəsinə görə də dünya iqtisadiyyatında mühüm rola malikdir. Belə ki, bu göstəriciyə görə hazırda dünyanın 19-cu, Avropanın 9-cu, bölgənin isə, yenə Rusiya nəzərə alınmasa, 1-ci iqtisadiyyatıdır.

Türkiyə iqtisadiyyatının sektorlar baxımından dünyada mühüm yeri vardır. Xüsusilə, dünyanın ən çox turist cəlb edən ilk 10 ölkəsi arasında olması, ən böyük inşaat şirkətlərinə sahiblik baxımından dünyanın 3-cü ölkəsi, avtomobil istehsalına görə isə Avropanın 6-cı ölkəsi olması diqqəti cəlb edir.

Bütün bu göstəricilərlə yanaşı, bu gün Türkiyə dövlətinin iqtisadi strategiyasında əsas uzunmüddətli hədəflərin respublikanın 100 yaşının tamam olduğu 2023-cü ilə fokuslandığını görürük. Türkiyə Respublikası Baş Nazirliyinin Dövlət Planlaşdırma Müstəşarlığının hazırladığı "*Uzunmüddətli İnkişaf Strategiyası (2001-2023) və VIII Beşillik İnkişaf Planı (2001-2005)*" adlı sənəddə əks olunan bu hədəflər aşağıdakılardan ibarətdir:

1) 2023-cü ildə ölkənin informasiya cəmiyyətinə tam şəkildə keçidinin təmin edilməsi və cəmiyyətin həyat keyfiyyətinin yüksəldilməsi;
2) 2023-cü ildə 1,9 trilyon dollarlıq ÜDM istehsalı səviyyəsinə nail olmaqla, ölkənin dünyanın ilk 10 böyük iqtisadiyyatı sırasına daxil edilməsi;
3) 2023-cü ildə ÜDM-nin strukturunda aqrar sektorun 5, sənayenin 30, xidmətin isə 65%-lik bir paya sahib olmasını təmin etmək;
4) 2023-cü ildə ixracatın 500 milyard dollara çatdırılması;
5) 2023-cü ildə şəhər əhalisinin xüsusi çəkisinin 90%-ə çatdırılması;
6) 2023-cü ildə təhsil səviyyəsinin ibtidai və orta məktəbdə 100%-ə, ali təhsildə isə 50%-ə çatdırılması.

downloaded from KitabYurdu.org

## § 15.5. Dünya sosializm sisteminin süqutu: keçid iqtisadiyyatlı ölkələr qrupu

Hələ 1960-cı illərdə sosialist təsərrüfat sistemi çərçivəsində formalaşan sosial-iqtisadi sistem və onun təsərrüfat mexanizminin elmi-texniki tərəqqinin nailiyyətlərindən fəal şəkildə yararlanan və dünya iqtisadiyyatı ilə sıx qarşılıqlı bağlılıqda olan effektiv iqtisadiyyat yaratmaq imkanlarının olmadığı üzə çıxmışdı. Əksər sosialist ölkələri üçün iqtisadi artımın ləngiməsi, elmtutumlu istehsalat sferasında gerilik, maliyyə sisteminin yarıtmazlığı, xarici dövlət borcunun artımı, həyat səviyyəsinin aşağı olması xarakterik hallar sırasında idi.

1970-1980-ci illərdə istehsalın intensivləşdirilməsi üzrə həyata keçirilən tədbirlər müvəffəqiyyətsiz olmuş, sosial-siyasi və milli sferalarda ziddiyyətlər kifayətqədər kəskinləşmişdir. Eyni proseslər SSRİ-də də təzahür edir. M.Qorbaçov hökumətinin 1985-ci ildə tətbiq etdiyi "sosial-iqtisadi inkişafın sürətlənməsi" strategiyası cəmi iki il sonra – 1987-ci ildə "aşkarlıq", "yenidənqurma" və "demokratiya" ilə əvəzləndi. Qapalı, totalitar sistemə xas olmayan və mahiyyətcə yabancı element kimi çıxış edən dəyərlərin dövriyyəyə buraxılması SSRİ-nin süqutu ilə nəticələndi. İmperiyanın dağılmasında milli-azadlıq hərəkatları da mühüm rol oynamışdır.

1990-cı ildən başlayaraq postsosialist ölkələri birmənalı olaraq qərb demokratiyası, dövlət sektorunun özəlləşdirilməsi, iqtisadi proseslərin dövlət tənzimlənməsinin minimum səviyyəyə endirilməsi, özəl sahibkarlığı stimullaşdırmaq vasitəsilə bazar münasibətlərinə doğru kurs götürdü. Başqa sözlə, postsosialist ölkələri keçid dövrünə qədəm qoydu.

Keçid dövrünün başlanğıcı, həm sabiq SSRİ, həm də Şərqi Avropanın əksər postsosialist ölkələri üçün dərin sosial-iqtisadi böhranla müşayət olunurdu.

Eyni zamanda, Şərqi Avropada böhran prosesi daha qısa zaman kəsiyində aradan qaldırılmışdı. Belə ki, 1990-1992-ci illər ərzində ÜDM göstəricisi üzrə azalma Bolqarıstanda 2 dəfə, Rumıniyada 30%, Macarıstan və Çexoslavakiyada 25%, Polşada 20% təşkil etmişdi. 1992-ci ilin ortalarından etibarən isə iqtisadi tənəzzülün dinamikasında stabilləşmə təmayülləri ortalığa çıxmağa başlandı.

Ümum böhran struktur böhranı ilə əvəz olunmuş, innovasiyaların, istehlakçı tələbinin və həyat səviyyəsinin fəlakətli enişinin qarşısı alınmışdı.

### §15.5.1. Keçid dövrünün konseptual məzmunu

downloaded from KitabYurdu.org

1990-cı illərin əvvəlindən başlayaraq sistem dəyişikliyi ilə əlaqədar formalaşan sosial-iqtisadi münasibətlər kompleks həm mahiyyət, həm də məzmunca «klassik» keçid dövrünün bütün spektrini özündə əks etdirirdi. İlk baxışdan sırf xaotik təsir bağışlayan keçid prosesi, əslində dəqiq məntiqi ardıcıllıq və nizamla gedir. Eyni hadisəyə yanaşmada müxtəlifliyin, iqtisadi baxışlarda daban-dabana zidd olan mövqelərin meydana çıxması təbii olsa da, mahiyyət etibarilə həqiqətin düzgün dərk edilməsində müəyyən çaşqınlıq yaradır. «Bir ölçülü» yanaşmanın qəbuledilməzliyi mövqeyindən baxılarsa, onda açıq-aydın şəkildə görmək mümkündür ki, keçid dövrü öz mahiyyəti və proseslərin məntiqi gedişi baxımından yekcins deyildir. Əldə ediləcək nəticələr və funksional fəaliyyətin məzmun fərqliliyi nöqteyi-nəzərindən onun variant müxtəlifliyi mövcuddur. Belə ki, əvvəla, bütövlükdə dünya iqtisadiyyatı keyfiyyətcə yeni mərhələyə-postindustrial dövrə, informasiya erasına qədəm qoymaqdadır; ikincisi, sırf sistem dəyişikliyi prizmasından sabiq sosialist ölkələrində kapitalizmdən sosializmə, bazardan mərkəzləşdirilmiş iqtisadiyyata keçid artıq baş vermişdir. İndi isə əks proses, yəni mərkəzləşdirilmiş iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid baş verir; üçüncüsü, əgər dünya ölkələrini bazar münasibətlərinin inkişaf səviyyəsinə görə təsnifləndirsək, onda inkişaf etmiş bazar iqtisadiyyatı, inkişaf etməkdə olan bazar iqtisadiyyatı və formalaşmaqda olan bazar iqtisadiyyatı ölkələri kimi fərqləndirmək lazım gələcəkdir. Deməli, sondan bir mərhələ geriyə, formalaşma mərhələsindən inkişaf etmiş səviyyəyə çatma prosesi də, öz mahiyyəti etibarilə keçid dövrü kimi xarakterizə oluna bilər.

Beləliklə, inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçid real bazarın özünün formalaşmasının ilk anlarından başlanan və ictimai həyatın bütün spektrini, o cümlədən, ümumibəşəri dəyərlərə münasibəti də ehtiva edən mürəkkəb, çoxlaylı və çoxşaxəli bir prosesdir.

Keçid problemi ilə üzləşən ölkələrdə mövcud situasiyanın daha da kəskinləşməsi, məhz inkişaf etmiş ölkələrin bazar modelinə istiqamət götürmələri ilə bağlı olmuşdu. Əslində problemə yanaşmanın qeyd edilən variantda qoyuluşu qaçılmaz zərurətdir. Belə ki, təsərrüfat tipindən asılı olmayaraq müəyyən iqtisadi inkişaf mərhələsinə qədəm qoymuş ölkələrin təkamülçülüyün zəruriliyi nöqteyi-nəzərindən XIX əsrin «klassik» bazarına keçmələri qeyri-mümkündür.

Sistem dəyişikliyi mahiyyətcə o deməkdir ki, əvvəlki təşkil və tənzimlənmə ləğv edilir, əvvəlki qanunauyğunluqlar daha fəaliyyət

downloaded from KitabYurdu.org

göstərmir və bu, keyfiyyətcə yeniləşmə prosesi ictimai həyatın bütün sferalarını əhatə etməklə kompleks səciyyə daşıyır.

Real bazar-«mikroskopik» hadisələrin hökmranlığı deməkdir. Mikroiqtisadi proses yalnız «öz ünsürləri», yə'ni bazar subyektləri üçün sosial-iqtisadi sistem formalaşdırır. Əlbəttə, mikrohadisələrin makroiqtisadi proseslərə təsiri son dərəcə güclüdür, amma məhz birincinin ifrat üstünlüyünün sosial həmrəyliyin aradan qaldırılmasına gətirib çıxardığı da şübhəsizdir.

Yuxarıda qeyd etdiyimiz tezisin əməli əhəmiyyət daşıdığını aşağıdakı məntiqi sxemdən açıq-aydın şəkildə müşahidə etmək mümkündür (şəkil15.2).




***Şəkil.15.2. Sistem dəyişikliyinin sadələşdirilmiş məntiqi sxemi***

Sistem dəyişikliyinin gedişi dağılmış sistemin komponentləri arasında yenidən qruplaşmaların yaranması ilə müşahidə edilir ki, bu da əksər postsosialist ölkələri üçün ən ümumi səciyyə daşıyan xüsusiyyət ki-

downloaded from KitabYurdu.org

mi qəbul edilə bilər. Konkret olaraq Azərbaycan Respublikasında keçid dövrünün inkişaf mərhələləri və onların xarakteri sırf xronoloji aspekti istisna etmək şərtilə, əksər keçid iqtisadiyyatlı ölkələr üçün eyni məzmuna malikdir (şəkil 15.3).




***Şəkil.15.3. Keçid dövrünün mərhələlərinə uyğun metodoloji baxışın təkamülü***

downloaded from KitabYurdu.org

## § 15.5.2. Keçid dövrü: Şərqi Avropa və sabiq SSRİ respublikaları

Eyni zamanda qeyd edilməlidir ki, bazar münasibətlərinin milli şüurda qərarlaşması prosesinin tarixi baxımından keçid iqtisadiyyatlı ölkələr arasında əsaslı keyfiyyət fərqləri mövcuddur. Belə ki, sabiq SSRİ respublikaları ilə müqayisədə Şərqi Avropa ölkələri məhz bu nöqteyi-nəzərdən daha əlverişli start vəziyyətinə malik olmuşlar. Bütün digər amillərlə yanaşı, bazar davranışı, bazar düşüncə tərzi bu ölkələrin milli mentalitetinin ayrılmaz tərkib hissəsinə çevrilmiş, eyni zamanda «xalq demokratiyası» formasında sosialist təsərrüfat tipinə keçərkən də, həmin ölkələrdə bazar münasibətləri yüksək səviyyədə bərqərar olmuşdur.

Digər tərəfdən, bazara keçidin mahiyyətcə-bazarı qurmaq, yaratmaq demək olduğunu nəzərə alsaq, onda bazar münasibətlərinin intişarı ilə bahəm infrastrukturanın inkişafının da necə əhəmiyyətli rol oynadığını görə bilərik. Bu sferada da, Şərqi Avropa ölkələri öndə olmuşlar. Ümumiyyətlə, müqayisə apardığımız iki qrup ölkələr arasında iqtisadi inkişafın səviyyəsi baxımından da əhəmiyyətli fərqlər mövcuddur. Cədvəl 15.12-də verilmiş məlumatlardan göründüyü kimi, hər iki ölkə qrupu mahiyyətcə eyni islahatları aparmasına baxmayaraq ÜDM-in dinamikası (1991-1998), inkişaf səviyyələri arasında kəskin təzadların mövcudluğundan xəbər verir. 1989-cu illə müqayisədə də eyni vəziyyət müşahidə olunur. Məsələn, qeyd etdiyimiz dövrlə müqayisədə ÜDM-in mütləq həcmi Şərqi Avropa ölkələrində orta hesabla 12-15% azaldığı halda keçmiş sovet respublikalarında bu göstərici təxminən 45% civarında aşağı düşmüşdür. Bir sıra respublikalarda azalma daha böyük və kəskin şəkildə baş vermişdir. Belə ki, Azərbaycanda ÜDM-in həcmi 1989-cu il səviyyəsinin 37,3%-nə; Gürcüstanda 19,5%-nə; Moldovada 35%-nə; Tacikistanda 33,2%-nə və s. bərabər olmuşdur. Hər iki ölkə qrupunun əsas makroiqtisadi göstəricilər bazasında apardığımız müqayisəli təhlil də kəskin disproporsiyaların mövcudluğunu bir daha təsdiq edir.

***Cədvəl 15.12***

downloaded from KitabYurdu.org

***Keçid iqtisadiyyatlı ölkələrdə ÜDM-un dinamikası (1991-1998)***

| Göstəricilər | Ölçü vahidi | 1991 | 1995 | 1998 | 1998/1991-ə nisbətən | |
|---|---|---|---|---|---|---|
| | | | | | +,- | % |
| I.Müstəqil Dövlətlər Birliyi: | | | | | | |
| a)ÜDM-in mütləq həcmi | mln. dol. | 1518 | 930,9 | 899,0 | -619,0 | -40,8 |
| b)QMM-də xüsusi çəkisi | % | 5,06 | 2,77 | 2,35 | - | -2,71 |
| c)Adambaşına ÜDM | dol. | 5374 | 3265 | 3196 | -2178,0 | -40,6 |
| II. Şərqi Avropa ölkələri: | | | | | | |
| a)ÜDM-un mütləq həcmi | mln. dol. | 511 | 529,5 | 612,9 | +101,9 | +19,9 |
| b)QMM-də xüsusi çəkisi | % | 1,7 | 1,57 | 1,61 | - | -0,09 |
| c)Adambaşına ÜDM | dol. | 6220 | 6363 | 7430 | +1210,0 | +19,4 |

Göründüyü kimi, Şərqi Avropa ölkələri ilə müqayisədə real məzmunlu münasibətlər sisteminin tarixi-təkamül prosesində formalaşmaması keçid dövründə sabiq SSRİ respublikaları üçün əsas problemlərdən birinə çevrilmişdir.

***Cədvəl 15.13***

***Keçid iqtisadiyyatlı ölkələrin islahatların ilkin strategiyasına görə tipologiyası***

| "Böyük sıçrayış" strategiyası | "Sabit tərəqqi" strategiyası | Yarımçıq qalmış "Böyük sıçrayış" strategiyası | "Tədrici islahatlar" strategiyası | "Məhdud islahatlar" strategiyası |
|---|---|---|---|---|
| Estoniya<br>Latviya<br>Litva<br>Çexiya<br>Polşa<br>Slovakiya | Macarıstan<br>Sloveniya<br>Xorvatiya | Albaniya<br>Bolqarıstan<br>Makedoniya<br>Qırğızıstan<br>Rusiya | Azərbaycan<br>Ermənistan<br>Gürcüstan<br>Qazaxıstan<br>Ukrayna<br>Tacikistan<br>Rumıniya | Belorus<br>Özbəkistan<br>Türkmənistan |

downloaded from KitabYurdu.org

***Mənbə: Ramiz Mehdiyev. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı: Şərq-Qərb 2008.- S.66***

Təhlil göstərir ki, sistem dəyişikliyinin doğurduğu problemlər əksər ölkələr üçün yekcins mahiyyət daşısa da, start vəziyyətindəki fərqlilik həm real məzmunlu bazar münasibətlərinin təşəkkülü, həm də iqtisadi artımda rəvanlığa nail olma imkanları baxımından kəskin natarazlıq formalaşdırmışdır.

Məsələn, Azərbaycan Respublikasının cəlb edildiyi müharibə nəticəsində ərazisinin 20% işğal olunmuş, 1 milyondan çox əhali qaçqın düşmüşdür.

1 mln. hektar yararlı torpaq sahəsi işğal altındadır. 7000-dən çox kənd təsərrüfatı, sənaye və digər müəssisələr dağıdılmışdır. Müqayisə üçün deyək ki, bu müəssisələr ölkənin taxıl hasilatının 24%-ni, şərab istehsalının 41%-ni, kartofun 46%-ni, ət məhsullarının 18%-ni, süd məhsullarının 34%-ni verirdi[193]. Təxmini hesablamalara görə, ölkəyə dəyən zərər 70 mlrd. dollardan çoxdur. Ərazisində müharibə gedən keçid iqtisadiyyatlı ölkələrin bəzilərində, o cümlədən Yuqoslaviya, Tacikistan və s.-də oxşar proseslər müşahidə edilməkdədir.

***Cədvəl 15.14.***

***Keçid iqtisadiyyatlı ölkələrdə ümumiqtisadi situasiyanın müqayisəli xarakteristikası (əvvəlki ilə nisbətən, %)***

| İllər | ÜDM-in dinamikası | Sənaye istehsalı | İnflyasiya | İşsizliyin səviyyəsi |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| A z ə r b a y c a n | | | | |
| 1991 | -0,7 | -5,4 | 111,5 | 0,14 |
| 1995 | -22,0 | -21,4 | 411,5 | 14,9 |
| 1998 | +10,0 | +2,2 | 5,4 | 8,3 |
| U k r a y n a | | | | |
| 1991 | -16,8 | -8,0 | 2100 | 16,4 |
| 1995 | -11,8 | -13,0 | 280 | 16,2 |
| 1998 | -3,2 | -1,8 | 17 | 15,4 |

193 Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat-1998. BMT; İnkişaf Proqramı; Bakı, 1998.- S. 65.

downloaded from KitabYurdu.org

| | | | | |
|---|---|---|---|---|
| Belarus | | | | |
| 1991 | -1 | -1 | 194 | 20,8 |
| 1995 | -10 | -12 | 809 | 18,4 |
| 1998 | +10 | +18 | 164 | 18,0 |
| Qazaxıstan | | | | |
| 1991 | -13 | -12,4 | 2567 | 18,9 |
| 1995 | -0,9 | -16,6 | 60,0 | 18,0 |
| 1998 | +2,0 | +4,0 | 11,2 | 16,4 |
| Rusiya | | | | |
| 1991 | -12,5 | -8,5 | 100,0 | 3,1 |
| 1995 | -4,2 | -3,0 | 230,0 | 3,2 |
| 1998 | +0,2 | -0,1 | 580,0 | 10,2 |
| Estoniya | | | | |
| 1991 | +10,0 | -7 | 210,6 | 6,4 |
| 1995 | +2,9 | -52 | 26,5 | 6,0 |
| 1998 | +3,8 | -4,3 | 12,5 | 5,8 |
| Latviya | | | | |
| 1991 | -10,4 | -1,0 | 124 | 9,2 |
| 1995 | -1,64 | -62,0 | 30 | 10,4 |
| 1998 | +4,0 | -61,0 | 7 | 8,6 |
| Litva | | | | |
| 1991 | -13,1 | +17,9 | 224,7 | 7,9 |
| 1995 | +3,0 | +0,9 | 35,5 | 7,0 |
| 1998 | +5,0 | +5,4 | 8,4 | 6,5 |
| Ermənistan | | | | |
| 1991 | -8,8 | -12,9 | 140,0 | 15,4 |
| 1995 | +6,9 | -5,4 | 175,5 | 14,9 |
| 1998 | +9,2 | +0,2 | 18,7 | 15,0 |
| Gürcüstan | | | | |
| 1991 | -20,1 | -18,4 | 78,7 | 12,4 |
| 1995 | +2,4 | -6,5 | 177,6 | 12,1 |
| 1998 | +3,6 | +0,1 | 28,0 | 11,8 |
| Qırğızıstan | | | | |
| 1991 | -4,2 | -3,9 | 113,9 | 13,0 |
| 1995 | -5,4 | -4,0 | 42,9 | 14,2 |
| 1998 | +3,1 | -0,2 | 35,1 | 14,0 |
| Tacikistan | | | | |

downloaded from KitabYurdu.org

| | | | | |
|---|---|---|---|---|
| 1991 | -8,4 | -18,0 | 112,9 | 18,4 |
| 1995 | -12,4 | -15,6 | 682,1 | 18,2 |
| 1998 | -7,6 | -10,0 | 376,9 | 17,9 |
| Türkmənistan | | | | |
| 1991 | -4,7 | -3,9 | 112,4 | 16,2 |
| 1995 | -16,0 | -12,6 | 2714,0 | 17,5 |
| 1998 | m/y | m/y | m/y | m/y |
| Özbəkistan | | | | |
| 1991 | -0,5 | -2,6 | 94,0 | 13,4 |
| 1995 | -1,2 | -2,0 | 376,7 | 14,0 |
| 1998 | m/y | m/y | m/y | m/y |
| Bolqarıstan | | | | |
| 1991 | -11,7 | -8,9 | 190 | 12,5 |
| 1995 | +1,5 | +6,0 | 80 | 12,0 |
| 1998 | +4,6 | +5,8 | 60 | 11,0 |
| Çexiya | | | | |
| 1991 | -14,2 | -21,8 | 56,6 | 3,2 |
| 1995 | +4,0 | +9,2 | 10,0 | 3,5 |
| 1998 | +1,2 | +3,0 | 8,5 | 3,5 |
| Slovakiya | | | | |
| 1991 | -11,2 | -6,4 | 120 | 18,2 |
| 1995 | +1,9 | +2,0 | 15,0 | 16,0 |
| 1998 | +6,8 | +4,9 | 14,5 | 12,8 |
| Macarıstan | | | | |
| 1991 | -11,9 | -5,0 | 220 | 14,9 |
| 1995 | +1,0 | +4,0 | 27,0 | 11,0 |
| 1998 | +3,1 | +6,5 | 19,0 | 10,5 |
| Polşa | | | | |
| 1991 | -7,0 | +8,0 | 70,3 | 14,5 |
| 1995 | +5,0 | +9,0 | 27,8 | 17,0 |
| 1998 | +6,7 | +11,0 | 14,9 | 16,0 |
| Rumıniya | | | | |
| 1991 | -13,7 | -8,9 | 320 | 14,9 |
| 1995 | +2,0 | +2,0 | 50,0 | 12,0 |
| 1998 | -2,2 | -1,9 | 80,0 | 6,1 |
| Yuqoslaviya | | | | |
| 1991 | -11,2 | -9,0 | 580 | 18,5 |

downloaded from KitabYurdu.org

| | | | | |
|---|---|---|---|---|
| 1995 | +6,0 | -2,5 | 430 | 18,7 |
| 1998 | m/y | m/y | m/y | m/y |
| X o r v a t i y a | | | | |
| 1991 | -14,4 | -11,4 | 470 | 16,5 |
| 1995 | +1,7 | -3,9 | 380 | 16,9 |
| 1998 | +5,5 | +1,2 | 90 | 15,8 |
| M a k e d o n i y a | | | | |
| 1991 | -12,1 | -10,0 | 690 | 19,5 |
| 1995 | -2,9 | -5,4 | 340 | 19,6 |
| 1998 | m/y | m/y | m/y | m/y |
| S l o v e n i y a | | | | |
| 1991 | -8,1 | -5,4 | 280 | 18,7 |
| 1995 | +3,9 | +2,8 | 85 | 16,4 |
| 1998 | +4,8 | +6,6 | 15 | 13,5 |

Göründüyü kimi, real bazarın formalaşması prosesində Azərbaycan Respublikası əlahiddə situasiya ilə rastlaşmışdır ki, bu da bütövlükdə sistem dəyişikliyinin gedişində böyük maneələr meydana çıxarır. Məhz bu aspektdən yanaşdıqda ölkənin qarşısında duran problemlər kompleksinin həllinin hər hansı bir hazır reseptinin olmadığı üzə çıxır.

Hal-hazırda keçmiş sosialist ölkələrində milli spesifikaya uyğun olaraq bazar iqtisadiyyatının müxtəlif variantları formalaşmış yaxud formalaşmaqdadır.

### § 15.5.3. Azərbaycan: III Respublika iqtisadi inkişaf prosesində

***Müstəqilliyin əldə edilməsi***
***ölkəmizin qarşısında diktaturadan demokratiyaya,***
***komanda iqtisadiyyatından sərbəst bazar iqtisadiyyatına,***
***iki əsrlik işğalçılıq tarixi olan imperiyanın***
***bir hissəsindən milli dövlətə çevrilmək vəzifələrini qoydu.***[194]
***Ramiz Mehdiyev***

[194] R.Mehdiyev. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı: Şərq-Qərb, 2008.- S. 9.

downloaded from KitabYurdu.org

SSRi-nin süqutu nəticəsində (1991-ci il) dövlət müstəqilliyi əldə etmiş Azərbaycan Respublikası beynəlxalq hüququn tam səlahiyyətli subyekti kimi beynəlxalq münasibətlər sisteminə daxil olmuşdu. İmperiyanın süqutu sovet dövründə uzun onilliklər ərzində formalaşmış problemlər kompleksinə ümummilli səciyyəli yeni nüanslar da daxil etmiş, sosial-iqtisadi inkişaf sferasında onsuz da problematik olan vəziyyəti daha da mürəkkəbləşdirmişdir. Belə ki:

- Əvvəla, Azərbaycan vahid SSRİ xalq təsərrüfatı kompleksinə həm texnoloji, həm də fəaliyyətin spesifikası mövqeyindən şaquli istiqamətdə inteqrasiya olunmuş, milli iqtisadiyyatın heç olmazsa avtonom statusda müstəqilliyi təmin edilməmişdir; Şaquli yönümlü inteqrasiya mahiyyət etibarilə bütövlük, tamlıq yaratmaqla yekunlaşır. Təzahür formalarından asılı olmayaraq şaquli inteqrasiya hər hansı bir səviyyədə altsistemin yalnız zahiri görüntüsünü formalaşdıra bilər. Əslində isə bu prosesə qoşulma nəticə etibarilə özgürlüyünü (ümummilli aspektdə) itirmə, "ərimə" deməkdir. Eyni zamanda, "əriyən" hissələrin yenidən müstəqilləşməsi, əvvəlki "bütövdən" ayrılması istənilən halda böyük itkilərlə müşahidə olunur.

  Eyni zamanda, həmin "əriyən" hissələrin tamamilə başqa bir müstəvidə, ümummilli səviyyədə determinoloji və funksional bağlılığının yaranması, sözügedən aspektdə yeni - milli "bütövlüyün" formalaşması prosesi də külli miqdarda vəsait tələb etməklə son dərəcə aramla gedir.

- İkincisi, uzun onilliklər ərzində formalaşmış inzibati-amirlik sistemi öz təbiəti etibarilə nəinki üfüqi əlaqələrin qarşılıqlı faydalılıq bazasında formalaşmasına imkan vermir, bazar mexanizmini "süni" məhdudiyyətlər kompleksinin köməyi ilə deformasiyaya uğradırdı, hətta bazar düşüncə tərzinə, bazar davranışına əsaslanmaqla milli iqtisadi təfəkkür və onunla bağlı olan hər şeyi "oyundan kənar" vəziyyətə salmışdı.
- Üçüncüsü, siyasi müstəqilliyin əldə edilməsi sovet dövründən qalma problemlərin mexaniki həllinə deyil, daha böyük və həyati əhəmiyyət kəsb edən məsələlərin kompleks qoyuluşuna və onun ifrat dərəcədə aktuallaşmasına rəvac verdi.

Bütün bunlar Ermənistanın təcavüzü nəticəsində yaranmış mürəkkəb geosiyasi fonda sosial-iqtisadi aspektdə ağır situasiyanın formalaşmasında heç də az əhəmiyyətli rol oynamamışdılar.

downloaded from KitabYurdu.org

Beləliklə, Azərbaycan qısa zaman çərçivəsində mühüm əhəmiyyət kəsb edən prosesləri paralel şəkildə aparmaq məcburiyyəti ilə üzləşmişdi:

1. Milli dövlətçiliyin möhkəmləndirilməsi;

2. Siyasi və milli müstəqilliyin, ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığının təminatına nail olunması;

3. Demokratik prinsiplər əsasında hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu;

4. Bazar iqtisadiyyatına keçid;

5. Bazar prinsipləri əsasında milli iqtisadiyyatın formalaşdırılması;

6. Geoiqtisadi məkana çıxış, Beynəlxalq Əmək Bölgüsü sistemində layiqli mövqe əldə edilməsi və s.

Problemlərin sistemli xarakter daşıdığına, söhbətin sistem transformasiyasından getdiyinə baxmayaraq o vaxtkı siyasi rəhbərlik Qərbin istəklərinə uyğun olaraq (postsosialist ölkələrinin əksəriyyəti kimi) "şok terapiyasına" üstünlük vermişdi.

"Şok terapiyasının" tətbiqi onsuz da ağır olan situasiyanı daha da gərginləşdirdi. Makroiqtisadi siyasətin kəskin dəyişməsi zəruriliyi sosialist təsərrüfat tipinin ləğvi, bazar iqtisadiyyatına keçidin zəruriliyi ilə şərtlənirdi. Lakin, 1991-1992-ci illərdə hakimiyyətdə olanlar liberal dəyərlərin qərarlaşması prizmasından ən problemli variantı seçdilər. Belə ki, məzmun eyniliyinə baxmayaraq həm nəticələrin effektivliyi, həm də zamanca fərqlənən 3 aspektli liberallaşdırma variantı mövcud idi:

1. Kortəbii liberallaşdırma;

2. Spontan liberallaşdırma;

3. Tənzimlənən liberallaşdırma: Proqram təminatı bazasında iqtisadiyyatın tədricən sərbəstləşdirilməsi. İfrat fərdiyyətçiliyin (ortodoksal liberalizmin əsas çıxış nöqtəsi) sosial "örtüyə" bürünməsi, onun sosium → fərd ayrılmazlığı prizmasından sosial yönümlüyünün qabardılması.

Təəssüflə qeyd etmək lazımdır ki, hələ 1992-ci ildən keçid prosesinə yanaşmada "kortəbii" liberallaşdırma üstünlük təşkil etməyə başlamışdı. Elə buradaca qeyd edək ki, "spontan" və "kortəbii" terminləri arasında mahiyyət eyniliyi yoxdur.

Belə ki:

- Spontan: prosesin kortəbii gedişini yox, sistemdaxili yeniləşmənin kənar müdaxiləsiz baş tutacağına olan inam,

- "Kortəbii" isə mahiyyətcə xaotikliyi, idarəedilməzliyi özündə ehtiva edir.

downloaded from KitabYurdu.org

"Kortəbii" liberallaşdırma ümummilli iqtisadi inkişaf prizmasında bir sıra fəsadların meydana çıxmasına səbəb oldu:

1. İstehlak bazarında konyuktur nisbətlərin formalaşmasında xarici amillərin üstün mövqeyə keçməsi;
2. Xarici rəqabətin güclü pressinqi altında milli istehsalın dirçəldilməsi probleminin kəskinləşməsi;
3. "Ucuz" bazar → "baha" istehsal antinomiyasının meydana çıxması;
4. İlkin kapital yığımının kriminallaşması;
5. Milli iqtisadi təfəkkürün formalaşmasında mənfi işarəli rol oynaması;
6. Ölkənin valyuta bazarında möhtəkir xarakterli əməliyyatların xüsusi çəkisinin yüksəlməsi;
7. İqtisadi konyukturanın pisləşməsi; "hakimiyyətsizlik" sindromu kapitalın "qaçışına" rəvac verməsi və s.

Bu qəbildən olanların sayını bir qədər də artırmaq mümkündür. Amma elə sadəcə olaraq sözügedən istiqamətlərin ümummilli iqtisadi inkişafda oynadığı rola nəzər salmaq kifayətdir ki, "kortəbii" liberallaşdırmanın doğurduğu fəsadların miqyasını bütün aydınlığı ilə təsəvvür edə biləsən.

Sosial-iqtisadi situasiyanın qeyd edilən istiqamətlərdə kəskin pisləşməsi sistem böhranı ilə nəticələndi.

1990-1995-ci illər ölkə iqtisadiyyatının kəskin tənəzzül illəri kimi tarixdə qalmışdı. 1995-ci ildə ÜDM-in həcmi 1990-cı il səviyyəsinin 48%-ni, əsas sənaye məhsulları üzrə 30%-ni, metallurgiyada 8%-ni, maşınqayırma sənayesində 38%-i, kənd təsərrüfatı istehsalının 54%-ni və s. təşkil etmişdi. Bu dövr ərzində elektrik enerjisi istehsalı 1.3 dəfə, dəmir filizi 334 dəfə, polad boru istehsalı 49 dəfə, dərinlik nasosları 658 dəfə, mineral kübrə istehsalı 112 dəfə azalmış, bəzi istehsal sferaları isə (məs: ipək parça istehsalı) ümumiyyətlə dayanmışdır. Sosial sferada böyük problemlər yaranmışdı. 1990-1995-ci illər ərzində 500 min nəfər iş yerini itirmiş, işsizlərin ümumi sayı 1.5 mln. nəfəri ötüb keçmişdi.

Eyni zamanda, 1992-ci ildə pul emissiyası 15.4 dəfə, 1993-1994-cü illərdə isə 74 dəfə artmışdır. ÜDM-in həcmcə aşağı düşdüyü şəraitdə izafi pul kütləsi 1993-1995-ci illərdə 20 dəfə yüksəlmişdir ki, bu da hiperinfliyasiyaya gətirib çıxarmışdı. Eyni zamanda, siyasi sabitlik kəskin şəkildə pozulmuş, speratizm meyilləri xeyli güclənmiş, ölkə

downloaded from KitabYurdu.org

parçalanma və vətəndaş müharibəsi təhlükəsi ilə üzləşmişdir ki, bu da Azərbaycanın bir ölkə kimi məhv olması demək idi.

Məhz belə bir məqamda xalqın təkidli tələbi ilə Heydər Əliyev hakimiyyətə qayıtmışdır (1993-cü il).

Azərbaycanın iqtisadi inkişafında Heydər Əliyev dövrünü üç mərhələyə ayırmaq olar:

1. 1993-1995-ci illər: "Qurtuluş" dövrü.
   - Xaos və anarxiyanın aradan qaldırılması,
   - Separatizmin qarşısının alınması;
   - Azərbaycanın dövlət, həm də ölkə kimi dağılması prosesinin dayandırılması;
   - Unitar dövlətin yaranması;
   - Neft strategiyasının həyata keçirilməsi;
   - Azərbaycanın müstəqil dövlət kimi dünya birliyinə təqdim olunması. Bu dövrdə ölkənin taleyində kardinal dönüş nöqtəsi olan "Əsrin kontraktının" imzalanması, Heydər Əliyevin neft strategiyası super iqtisadi güclərin Azərbaycanda konkret iqtisadi maraqlarının yaradılmasına və unitar dövlət quruculuğunun kifayətqədər sürətlənməsinə və yekun olaraq Azərbaycan xalqının məhv olma təhlükəsindən qurtuluşuna səbəb oldu.
2. 1995-2000-ci illər: "Stabilləşmə" dövrü
   - Ümummilli inkişaf strategiyasının formalaşdırılması;
   - İqtisadi böhranın dayandırılması, stabilləşmə prosesinin başlanması;
   - Bazar iqtisadiyyatına keçidin başlanması;
   - Milli iqtisadiyyatın və sosial iqtisadi sistemin formalaşdırılması mərhələsinə keçid;
   - Milli iqtisadi inkişaf modelinin tətbiqi;
   - İqtisadi demokratiyanın qərarlaşması yönümlü islahatların həyata keçirilməsi;
   - Gəlirlərin ədalətli bölgüsü və sosial ədalətin qərarlaşması yönümündə intensiv fəaliyyət.
3. 2000-2003-cü illər: "İnkişaf" dövrü.
   - Sistemli transformasiya paradiqmasının formalaşdırılması;
   - Bazar iqtisadiyyatına keçidə paralel olaraq hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun intensivləşməsi;
   - Sabitqədəmli iqtisadi artıma nail olunması;
   - Ölkənin geosiyasi və geoiqtisadi məkanda əsas vektorlarının müəyyənləşdirilməsi.

downloaded from KitabYurdu.org

Heydər Əliyevin tətbiq etdiyi islahatlar modeli tarixi baxımdan çox qısa zaman kəsiyində ölkənin sistem böhranından çıxışına və sabitqədəmli tərəqqinin əldə olunmasına gətirib çıxardı. Belə ki, 2003-cü ildə 1995-ci illə (sistemli islahatların başlandığı il) müqayisədə əksər makroiqtisadi göstəricilər və əhalinin həyat səviyyəsi artan xəttlə yüksəlmişdir. Müqayisə olunan dövr ərzində ÜDM 3.3 dəfə, sənaye istehsalı 2.8 dəfə, kənd təsərrüfatı istehsalı 2.3 dəfə, xarici ticarət dövriyyəsi 3.9 dəfə, dövlət büdcəsi 3.8 dəfə, əhalinin pul gəlirləri 4.3 dəfə, orta aylıq əməkhaqqı 6.2 dəfə və s. artmış, orta illik infliyasiya 511.8%-dən 2.2%-ə qədər azalmışdır. Aqrar sferada aparılan torpaq islahatları nəticəsində 2032 kolxoz və sovxoz ləğv edilərək 3.5 mln. insan xüsusi mülkiyyətçiyə çevrilmiş, real bazarın formalaşması yönümündə institusional dəyişikliklərə qədər sistemli islahatlar intensiv şəkildə həyata keçirilmişdir.

2003-cü ildən başlayaraq III Respublikanın sosial-iqtisadi həyatında kardinal keyfiyyət dəyişiklikləri start götürdü.

Bu dövr prezident İlham Əliyev tərəfindən başladılan, ulu öndər Heydər Əliyevin formalaşdırdığı fundamental bazaya söykənməklə həyata keçirilən sürətli inkişaf və modernləşmə dövrü kimi xarakterizə olunur.

downloaded from KitabYurdu.org

***Cədvəl 15.14***

### *Azərbaycanın iqtisadi inkişaf dinamikası (1995-2008) (cari qiymətlərlə)*

| *Göstəricilər* | *Ölçü vahidi* | *1995* | *2003* | *2003/ 1995-ə nisbətən (%)* | *2008* | *2008* | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | *1995-ə nisbətən (%)* | *2003-ə nisbətən (%)* |
| 1. Əhali | min.n | 7726.2 | 8422.9 | +9.0 % | 8896.9 | +15.1% | +5.6% |
| 2.ÜDM | mln.m | 2133.8 | 7146.5 | +.3.3dəfə | 38005.7 | +17.8 dəfə | +5.3dəfə |
| **O cümlədən adambaşına:** | manat | 282.1 | 880.8 | +3.1dəfə | 4439.9 | +15.7 dəfə | +5.0dəfə |
| 3. Sənaye istehsalı | mln.m | 1771.2 | 4982.1 | +2.8 dəfə | 29697.6 | +16.7 dəfə | +5.9dəfə |
| 4.Kənd təsərrüfatı istehsalı | mln.m | 713.4 | 1665.0 | +2.3 dəfə | 3308.4 | +4.6 dəfə | +98.7% |
| O cümlədən: | | | | | | | |
| 4.1 Əkinçilik məhsulları | "-----" | 418.1 | 807 | +93 % | 2085 | +4.9dəfə | +2.6dəfə |
| 4.2 Heyvandarlıq məhsulları | "-----" | 295.3 | 559.5 | +89.5% | 1223.4 | +4.1dəfə | +2.2dəfə |
| 5. Əsas fondların istifadəyə verilməsi | "-----" | 75.6 | 2183.1 | +28.9dəfə | 8342.4 | +110.3 dəfə | +3.8dəfə |
| 6.Əsas fondlara qoyulan investisiyalar | "-----" | 228 | 3786.4 | +16.6dəfə | 9944.2 | +43.6dəfə | +2.6dəfə |
| 7.Xarici ticarət dövriyyəsi | "-----" | 1304.8 | 5216.6 | +3.9 dəfə | 54922.8 | 42.1dəfə | +10.5dəfə |
| o cümlədən: | | | | | | | |
| 7.1 İxrac | "-----" | 637.2 | 2590.4 | +4.0 dəfə | 47756.2 | +74.9 dəfə | +18.4dəfə |
| 7.2 İdxal | "-----" | 667.6 | 2626.2 | + 3.9 dəfə | 7166.6 | +10.7dəfə | +2.7 dəfə |

Akademik R.Mehdiyev sözügedən dövrün məna tutumundan bəhs edərək yazır ki: "İlham Əliyevin Prezidentliyinin əsas konsepsiyası güclü iqtisadi bazanın formalaşdırılmasından ibarət idi. Bu konsepsiya kütləvi şüurun və cəmiyyətin sosiomədəni bazisinin mərhələlərlə postindustrial dəyərlər və demokratik ənənələr məcrasına transformasiyasına imkan yaratmalıdır"[195]

Dövrün xarakterindən bəhs edən cənab İlham Əliyevin "... Biz qanunun aliliyinin təmin olunduğu, yüksək səviyyədə şəffaflıq olan, hər bir insanın sülh və əmin-amanlıq şəraitində yaşadığı və bütün

[195] R.Mehdiyev. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı: Şərq-Qərb, 2008.- S. 13.

downloaded from KitabYurdu.org

azadlıqlardan istifadə etdiyi cəmiyyət qururuq” fikri Azərbaycanın perspektiv inkişafının əsas leytmotivi kimi qəbul edilə bilər.

İnkişafın İlham Əliyev dövrü inkişaf sürəti ilə ən optimist proqnozları belə geridə qoydu. Belə ki, 2008-ci ildə ÜDM 1995-ci illə müqayisədə 17.8 dəfə, 2003-cü illə müqayisədə isə 5.3 dəfə artmışdır. Müqayisə üçün qeyd edək ki, 2003-2008-ci illər ərzində analoji göstərici dünya üzrə bütövlükdə 25.4%, o cümlədən ABŞ-da 13.3%, Avropa İttifaqında 13.7%, MDB-də 45.4%, Çində 66.5% təşkil etmişdir.

Dövlət büdcəsinin gəlirləri müvafiq olaraq 33.9 dəfə və 8.8 dəfə yüksəlmiş, sosial problemlərin aradan qaldırılması yolunda əsaslı dönüşə nail olunmuşdur.

downloaded from KitabYurdu.org

***Cədvəl 15.15***

***Azərbaycanın dövlət büdcəsinin gəlirləri və xərclərinin dinamikası (1995-2008)***

***Qeyd: 1) (+) işarəsi gəlirlərin xərclərdən çox olmasını (profisit)***

| *Göstəricilər* | *Ölçü vahidi* | *1995* | *2003* | *2003/ 1995-ə nisbətən (%)* | *2008* | *2008* | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | *1995-ə nisbətən (%)* | *2003-ə nisbətən (%)* |
| 1.Dövlət büdcəsinin gəlirləri | *mln. manat* | *316.9* | *1220.9* | *+3.8 dəfə* | *10762.7* | *+33.9dəfə* | *+8.8 dəfə* |
| 1.1 Gəlirlərin UDM-də xüsusi çəkisi | *%* | *14.9* | *17.1* | *+2.2%* | *28.3* | *+13.4%* | *+11.2%* |
| 2.Dövlət büdcəsinin xərcləri | *mln manat* | *428.4* | *1234.5* | *+2.8 dəfə* | *10680.9* | *+24.9 dəfə* | *+8.6 dəfə* |
| 2.2 Xərclərin ÜDM-də xüsusi çəkisi | *%* | *20.1* | *17.3* | *-2.8%* | *28.1* | *+8.0 %* | *+10.8%* |
| 3.Dövlət büdcəsinin kəsiri(1) | *mln. manat* | *-111.4* | *-13.6* | *-8.2 dəfə* | *+81.8* | *X* | *X* |
| 3.1 Büdcə kəsirinin ÜDM-də xüsusi çəkisi | *%* | *5.2* | *0.2* | *-5.0%* | *0.2* | *X* | *X* |
| 3.2Kəsirin büdcənin gəlirlərində xüsusi çəkisi | *%* | *35.1* | *0.01* | *X* | *0.05* | *X* | *X* |

***göstərir.***

Bu dövr ərzində əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində böyük nailiyyətlər əldə edilmişdi.

downloaded from KitabYurdu.org

*Cədvəl 15.16*
***Azərbaycanda əhalinin maddi rifahının yaxşılaşması dinamikası (1995-2008) (cari qiymətlərlə)***

| Göstəricilər | Ölçü vahidi | 1995 | 2003 | 2003/1995-ə nisbətən (%) | 2008 | 2008 | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | 1995-ə nisbətən (%) | 2003-ə nisbətən (%) |
| 1. Əhali | min. nəfər | 7726.2 | 8422.9 | +9.0 % | 8896.9 | +15.1% | +5.6% |
| 2.Əhalinin təbii artımı | | | | | | | |
| 2.1 Sayı | nəfər | 92487 | 64466 | -30.3% | 99376 | +7.4% | +54.1% |
| 2.2 Hər 1000 nəfərə düşən artım | "----" | 12.2 | 8.0 | X | 11.6 | X | X |
| 3.Məşğul əhalinin orta illik sayı | min nəfər | 3613 | 3747 | +3.7% | 4056 | 12.2% | +8.2% |
| O cümlədən: 3.1 Özəl sektorda | "----" | 1585.8 | 2567 | +61.8% | 2811.6 | +77.3% | +9.5% |
| 4.İşsizlər | min nəfər | X | 400.9 | X | 262.2 | X | -34.6% |
| 5.Rəsmi qeydiyyatdan keçmiş işsizlərin sayı | "----" | 28314 | 54365 | +92.0% | 44481 | +57.1% | -19.2% |
| 6.Əhalinin pul gəlirləri | min manat | 1340.5 | 5738.1 | +4.3dəfə | 20058.2 | +14.9dəfə | +3.5dəfə |
| O cümlədən: 6.1 Adambaşına | manat | 177.2 | 707.2 | +3.9dəfə | 2343.2 | +13.2dəfə | +3.3dəfə |
| 7.Əhalinin pul xərcləri | min manat | 1275.8 | 4793.8 | +3.7dəfə | 15309.8 | +12.0dəfə | +3.2dəfə |
| 8.Orta aylıq əmək-haqqı | manat | 12.5 | 77.4 | +6.2dəfə | 277.4 | +22.2 dəfə | +3.6dəfə |
| 9.Pensiyaların orta məbləği | manat | 3.5 | 23.8 | +6.8dəfə | 95.85 | +27.3dəfə | +4.0dəfə |
| 10.Yaşayış evlərinin istifadəyə verilmiş ümumi sahəsi | min m² | 601 | 1339 | +2.2dəfə | 1845 | +3.1 dəfə | +37.8% |
| 11.İnfliyasiya (əvvəlki ilə nisbətən) | % | 511.8 | 2.2 | X | 20.8 | X | X |

Sözügedən dövrdə əhalinin pul gəlirləri 3.5 dəfə (1995-ci illə müqayisədə 14.9 dəfə), orta aylıq əməkhaqqı 3.6 dəfə (22.2 dəfə),

downloaded from KitabYurdu.org

pensiyaların orta məbləği 4 dəfə (27.3dəfə) artmış, yoxsulluğun səviyyəsi 49%-dən 10.1%-ə qədər aşağı düşmüşdür.

Eyni zamanda, regionların sosial-iqtisadi inkişafı sferasında əsaslı dönüşə nail olunmuş, son 5 ildə (2003-2008) 26 min 641 yeni müəssisə yaradılmış, 800 minə yaxın yeni iş yeri açılmışdı. Ölkənin iqtisadi təhlükəsizlik sisteminin optimal kriteriyalar əsasında qurulmasına nail olunmuşdur.

Azərbaycan – çox qısa bir zaman kəsiyində regionun lider ölkəsinə çevrilmiş, beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınmışdır.

Qloballaşan dünyanın informasiya iqtisadiyyatına keçidi və yeni dünya düzəninin formalaşması Azərbaycandan da yan keçməmişdir.

Ölkə Prezidenti qeyd edilən sferanın prioritetliyini önə çəkmiş və qısa vaxt müddətində informasiya-texnologiyalarının inkişafı yönümündə əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur. Hələ 2003-cü ildə Heydər Əliyev tərəfindən böyük uzaqgörənliklə formalaşdırılmış "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" həyata keçirilməkdədir.

Strateji məqsədlərə çatmaq naminə İ.Əliyev tərəfindən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı" (Elektron Azərbaycan) qəbul edilmişdi.

Rabitə və informasiya texnologiyaları naziri akademik Əli Abbasov qeyd edilən sferada həyata keçirilən fəaliyyəti ".... "inqilabi" dəyişikliklər yolu ilə əlçatmaz zirvələri fəth etmək"[196] kimi səciyyələndirmişdir. Həqiqətən də, "informasiya iqtisadiyyatı" deyilən şey spontan şəkildə qərarlaşmır. Onu qurmaq lazımdır. Prosesin qanunvericilik bazası günü-gündən zənginləşməkdədir. Bu günə qədər informasiya iqtisadiyyatına keçiddə mühüm rol oynayan bir sıra qanun və normativ aktlar: "Elektron ticarət haqqında", "Elektron imza və elektron sənəd haqqında", "İnformasiya əldə etmək haqqında" və s. qəbul edilmişdir.

Son 5 il ərzində İKT sektorunun orta illik artım tenpi 32-35% arasında olmuşdur. Qeyd edək ki, bu orta dünya göstəricisindən 3 dəfə yüksəkdir.

---

[196] Ə.Abbasov. Heydər Əliyevin texnoloji inkişaf strategiyası// Dayanıqlı inkişafın Heydər Əliyev modeli məcmuəsi, Bakı, 2009.- S.21.

downloaded from KitabYurdu.org

İKT sektoru bu dövr ərzində 4.5 dəfə genişlənmiş, İKT sənayesində istehsalın həcmi 6-7 dəfə artmışdır. 100 nəfərə düşən mobil abunəçilərin sayı 5 dəfə artaraq 80 nəfəri keçmişdir. Azərbaycan Ümumdünya İqtisadi Forumun 2009-cu ildə İKT-dən istifadə səviyyəsinə dair 134 ölkə üzrə reytinq cədvəlində irəliləyərək 60-cı yerə, MDB-də isə 1-ci yerə çıxmışdır.

Azərbaycan (2008-ci ildə) E-hökumət üzrə hazırlıq səviyyəsinə görə 182 ölkə arasında 89-cu yeri, İKT sənayesinin rəqabətlilik indeksinə görə inkişaf etmiş 66 ölkə arasında 61-ci yeri tutmuş, ölkənin elektron hazırlıq səviyyəsinə görə isə dünyanın bu sferada inkişaf etmiş 70 ölkəsinin sırasında yer almışdır.

Eləcə də, internetdən istifadə imkanları kifayətqədər genişlənmişdir. Hal-hazırda əhalinin 40%-i internet istifadəçisidir. Bu dövr ərzində internet-server provayderlərinin sayı 3 dəfə artaraq 30-u keçmişdir. Son 5 ildə internetdən əldə edilən gəlirin həcmi 6.5 dəfə çoxalmışdır.

İKT sahəsində beynəlxalq əlaqələr durmadan genişlənməkdədir. Bu yönümdə artıq dünya ölkələri ilə 16 saziş, 16 memorandum, 14 protokol, 10 digər sənədlər (qrant, proqram, konvensiya və s.) imzalanmışdır.

Hal-hazırda elektron hökumət, distant təhsil, elektron kommersiya üzrə milli səviyyədə intensiv fəaliyyətin həyata keçirilməsi məqsədi ilə "E-idarəçilik təşəbbüsü" layihəsi çərçivəsində ölkənin bütün bölgələrini əhatə edəcək "AzDataCom" şəbəkəsi qurulur. Bu şəbəkə 10 Gb/san sürətlə ölkədaxili məlumatların ötürülməsinə imkan verir. Rabitə və informasiya texnologiyaları naziri akademik Əli Abbasovun rəhbərliyi altında informasiya iqtisadiyyatı quruculuğu, eləcə də regional və beynəlxalq miqyasda mühüm əhəmiyyət kəsb edən bir sıra layihələr həyata keçirilməkdədir.

"Şərq-Qərb Super İnformasiya Maqistralı" (Optik "İpək Yolu") layihəsi Qərbi Avropa və Asiya-Sakit okean hövzəsini, eləcə də Şərqi Avropanı, MDB, Türkiyə, İran, Mərkəzi Asiya, o cümlədən Əfqanıstan və Pakistan, Çin və Hindistanı əhatə etməklə dünyanın yeni bir transmilli informasiya şəbəkəsinin yaradılmasına imkan verəcəkdir.

Bu layihə 2008-ci ildə region ölkələrinin nazirlərinin toplantısında müzakirə olunmuş və "Transmilli Avrasiya Super İnformasiya Maqistralına dair Bakı Bəyənnaməsi" qəbul edilmişdir.

İkinci mühüm layihə Regional İnnovasiya Zonasının yaradılmasıdır. Akademik Əli Abbasov layihənin məqsədindən bəhs edərək yazır ki: "... Əsas məqsəd "Əsrin müqaviləsi" nümunəsində neftin

downloaded from KitabYurdu.org

gətirdiyi uğur estafetini davam etdirmək, yüksək texnologiyalar üzrə xüsusi iqtisadi zona ideyasını reallaşdırmaqla, Azərbaycanı informasiya texnologiyalarının məhsul və xidmətlərinin istehsalı və ixracatı üzrə regional mərkəzə çevirməkdir”.[197]

İnformasiya iqtisadiyyatı quruculuğu prosesi bu gün də intensiv şəkildə davam etməkdədir.

Dünyanın sürətlə gedən qloballaşması prosesi ölkənin gələcək inkişaf yolunun konseptual sərhədlərinin (“keçmişin” “indiyə” keçidi “dərslərini” nəzərə almaqla) dəqiqləşdirilməsini tələb edir.

Hesab edirik ki, perspektiv inkişafın sabitqədəmliliyi və dayanıqlığına nail olma nöqteyi-nəzərindən Azərbaycanın geoiqtisadi məkanda yeri və roluna yanaşmada hədəflənən məqsədlərin konseptual sərhədləri sırasında aşağıdakılar xüsusi önəm kəsb edir.

1. Azərbaycanın dünya iqtisadiyyatında yeri və roluna “kiçik” ölkə hipotezi mövqeyindən yanaşmaqla:

- Ölkənin “ölkə-sistemə” transferinə nail olunmalıdır; Əsas ağırlıq mərkəzi bu halda kapitalın transmillliləşməsinin üzərinə düşür.
- “Kiçik” tutumlu bazarın spesifik özəllikləri mütləq nəzərə alınmalıdır;
- Müasir qloballaşma prosesi şəraitində “kiçik” tutumlu bazarın özünüqoruma mexanizminin effektivliyi daima gözlənilməli, qlobal əlaqələr sistemində tam şəkilli “əriмə”nin qarşısı alınmalıdır;
- Bazarın həm biliteral, həm də multiliteral münasibətlərinin optimal mütənasibliyi gözlənilməlidir;

Xarici iqtisadi siyasət tədricən rəqabət üstünlükləri müstəvisinə keçirilməlidir; (informasiya iqtisadiyyatı quruculuğu prosesində bu tələb xüsusi önəm daşıyır).

Milli bazar subyektlərinin regional və qlobal bazarlar sistemində bazar paylarının təmərgüzləşməsi və iriləşməsi prosesinə daima (dövlət tərəfindən) yardım edilməlidir.

---

[197] Ə.Abbasov. Heydər Əliyevin texnoloji inkişaf strategiyası// “Dayanıqlı inkişafın Heydər Əliyev modeli” məcmuəsi, Bakı, 2009.- S. 33

downloaded from KitabYurdu.org

## § 15.6. Qloballaşma prosesi: mahiyyəti, təsir dairəsi, perspektivləri

Keyfiyyətcə yeni qlobal situasiyanın formalaşması inkişaf trayektoriyasında əvvəlki dövrlərdən həm məzmun, həm də baş vermə tezliyi ilə fərqlənən meyil və təmayüllərin meydana çıxmasına şərait yaratmışdır.

XX əsrin sonu XXI əsrin əvvəllərində dünya iqtisadiyyatının inkişafının əsas təmayülləri sırasına, bir qayda olaraq, aşağıdakılar aid edilir:

1. Təsərrüfat həyatının beynəlmiləlləşməsi prosesinin intensivləşməsi; Dünya ölkələri arasında geniş təkrar istehsal prosesinin bütün fazaları üzrə qovuşma və qarşılıqlı çulğalaşmanın daha da sürətlənməsi;
2. Liberal dəyərlərin ictimai həyatın bütün sferalarında, o cümlədən iqtisadiyyatda qərarlaşması prosesinin sürətlənməsi;
3. Kapitalın və istehsalın transmillliləşməsinin intensiv xarakter alması; Transmilliləşmənin təkcə maddi istehsalı deyil, həm də xidmət sferasını, o cümlədən maliyyə sektorunu əhatə etməsi;
4. Təsərrüfat həyatının təşkili qaydaları və prinsiplərinin unifikasiyası, dünya təsərrüfat əlaqələri üzərində dövlətlərarası tənzimləmə sisteminin yaradılması;
5. Regional iqtisadi inteqrasiyanın, regional iqtisadi blokların yaradılmasının "kütləvi" xarakter alması;
6. Dünya iqtisadiyyatının qloballaşması; Sadalanan təmayüllərin kəmiyyət yekunlarını və yeni keyfiyyət halını özündə ehtiva etməklə qloballaşma bəşər tarixində analoqu olmayan fərqli qlobal situasiya formalaşmışdır.

"Qloballaşma" termini ilk dəfə T.Levittin 1983-cü ildə çapdan çıxmış "Bazarların qloballaşması" adlı kitabında istifadə olunmuşdur. T.Levitt "qloballaşmanı" sırf bazar fenomeni kimi, TMK-lara məxsus bir sıra bazarların qovuşması anlamında işlətmişdir. Sonralar K.Ome özünün "Sərhədsiz dünya" (1990) əsərində prosesin miqyas genişliyini, yalnız bazarla bağlı olmadığını qeyd etmişdi:... Ayrı-ayrı ölkələrin iqtisadi

downloaded from KitabYurdu.org

mexanizmi mənasızlaşır, dünya müstəvisində güclü aktorlar kimi "qlobal" firmalar çıxış etməyə başlayır.[198]

Bu baxımdan 4 istiqaməti fərqləndirmək olar:

1. Qloballaşma – iqtisadi inkişafın yüksək səviyyəyə çıxmasıdır;
2. Qloballaşma – mədəniyyətlərarası və geosiyasi münasibətlərin xüsusi keyfiyyət halıdır.
3. Qloballaşma – dövlət suverenliyi və milli-mədəni inteqrasiya prinsiplərinə söykənən ənənəvi siyasi qaydaların dağılması deməkdir.
4. Qloballaşma – mədəniyyət və milli dəyərlər sisteminin dağılması deməkdir (antiqlobalizm) və s.

Göründüyü kimi, qloballaşma prosesi çoxölçülü, çoxlaylı və çoxaspektli sistemli yaranış kimi təzahür edir.

"Qloballaşma" anlayışına məqsədlər prizmasından yanaşmada vahid mövqe hələ ki, ortalığa qoyulmamışdı. Təfsilata varmadan qeyd edək ki, sözügedən anlayışın mahiyyətində dayanan əsas cəhət yaxud sərhəd xətti iqtisadiyyatın beynəlmiləlləşməsinin keyfiyyətcə yeni qlobal mərhələyə keçididir. Və, bu aspektdən də əsas ağırlıq mərkəzi kapitalın transmilləşməsi – TMK-ın yaranması üzərinə düşür. Başqa sözlə, transmililəşmə - qloballaşmanın bir proses olmaq etibarilə ana xətti kimi çıxış edir. YUNKTAD-ın illik hesabatında (2006-cı il) göstərilir ki, dünyada 780 min xarici filiallar şəbəkəsi olan 78 min TMK- fəaliyyət göstərir. Ən qabaqcıl 500 TMK dünya üzrə emal sənayesi məhsulları ixracatının 1/3-nə, xammal üzrə dünya ticarətinin ¾-nə, yeni texnologiyalarla ticarətin isə 4/5-nə nəzarət edirlər.[199] Bank-maliyyə sistemi, demək olar ki, bütövlükdə TMK-ın nəzarətindədir.

Qloballaşma ideyasının populyarlaşmasını şərtləndirən əsas səbəblər sırasına aşağıdakıları aid etmək olar:

1. Elmi-informasiya inqilabı və onun nəticəsində qlobal iqtisadi məkanda baş verən keyfiyyət dəyişiklikləri;
2. Dünya sosializm sisteminin süqutu; Sosialist təsərrüfat tipinin bazar iqtisadiyyatı ilə əvəzlənməsi;
3. Neoliberal dəyərlər sisteminin birmənalı olaraq prioritet mövqelərə keçidi.

---

[198] Антипов Н.П. Экономическая интеграция в мировой экономике и транснациональные корпорации// Междунар. Публичное и частное право.- 2001.- N2, с.32-34.

[199] Паньков В.С. Мировая экономика на пути к 2015 году// Экономика XXI века. 2002. -N8.

downloaded from KitabYurdu.org

Ümumplanetar miqyasda qloballaşma prosesinin ilkin müqəddəm şərtlərini bir neçə istiqamətdə qruplaşdırmaq mümkündür:

**I. İstehsal, elmi-texniki və texnoloji:**

- İstehsalın miqyasının kəskin şəkildə artımı;
- İstehsalda yeni texnoloji üsula – elm tutumlu texnologiyalara keçid;
- Əmtəə, xidmət və kapitalın miqrasiyası yolunda maneələri aradan qaldırmağa imkan verən yeni texnologiyaların sürətlə yayılması;
- Rabitə və nəqliyyat-kommunikasiya vasitələrinin yeni nəslinin meydana çıxması;

Bütün bunlar yekun etibarilə milli bazarların qlobal inteqrasiyası prosesini əhəmiyyətli dərəcədə asanlaşdırır.

**II. Təşkilati:**

- Təsərrüfat-istehsal fəaliyyətinin təşkilinin beynəlxalq formalarının (TMK) yaranması;
- Qeyri-hökumət təşkilatlarının qlobal səviyyəyə çıxışı;
- Beynəlxalq təşkilatların (BMT, BVF, DB, DTT və s.) qlobal müstəvidə aktiv rolu, dünya iqtisadiyyatının aktorlarına çevrilmələri.

**III. İqtisadi:**

- Əmtəə, xidmət, kapital və s. bazarlarda, ticarət sferasında liberal dəyərlərin qərarlaşması; Əgər 1947-ci ildə idxal tariflərinin orta dərəcəsi 50-60% təşkil edirdisə, 1990-cı ildə bu göstərici 9.6%-ə qədər aşağı düşmüşdür. DTT (Dünya Ticarət Təşkilatı) qeyd edilən dərəcənin 3%-ə qədər azaldılmasına çalışır.[200]
- Kapitalın təmərgüzləşməsi və mərkəzləşməsinin görünməmiş yüksəlişi;
- Törəmə maliyyə alətlərinin (derivativlər) partlayış şəklində artımı, valyuta əməliyyatlarının həyata keçirilmə müddətinin kəskin azalması;
- Beynəlxalq iqtisadi təşkilatlar tərəfindən makroiqtisadi siyasət kriteriyalarının, o cümlədən vergi, regional, aqrar, antiinhisar, məşğulluq siyasəti, ticarət və s. sferalarda unifikasiyanın aparılması;
- Standartlaşdırma və unifikasiya təmayüllərinin güclənməsi;

**IV. İnformasiya:**

---

[200] Экономическая энциклопедия/ Гл.ред. Л.И. Абалкин- М; ОАО «Экономика», 1999.- С. 243.

downloaded from KitabYurdu.org

- İşgüzar münasibətlərin, istehsal, elmi-texniki, iqtisadi, maliyyə informasiyalarının mübadiləsi prosesində istifadə edilən rabitə vasitələrinin radikal şəkildə dəyişməsi;
- Maliyyə və əmtəə bazarlarının birləşməsini təmin edən qlobal şəbəkənin (informasiyaların alınması, emalı və ötürülməsinin yeni sistemi) yaranması;

V. Siyasi:

- Dövlət nəzarətinin zəifləməsi, əmtəə, xidmət, kapital və insanların ölkələrarası miqrasiyasının sərbəstləşdirilməsi;
- "Soyuq" müharibənin başa çatması, dünya sosializm sisteminin süqutu;

**VI. Sosiomədəni:**

- Milli dəyərlər sisteminin həm mövcudluq, həm də təsir imkanları baxımından zəifləməsi;
- Liberal dəyərlərin qlobal miqyaslı qərarlaşması prosesinin başlanması;
- Eyniyyət, "eynicinslilik", identifikasiya proseslərinin (sosial-mədəni sferada) güclənməsi və s.

Qloballaşma – bütün parametrlər üzrə bəşəriyyətin qarşılıqlı əlaqələrini daha da gücləndirən proses kimi iki onillik ərzində tsiklik xarakter daşıdığını ortalığa qoydu. Prosesin tsiklik xarakterindən yanaşdıqda qloballaşmanın 1980-ci illərdə yüksəlişdə olduğunu, 1990-cı illərdə intensivliyin əhəmiyyətli dərəcədə zəiflədiyini görməmək mümkünsüzdür. Yenə həmin məntiqlə davam etsək, onda belə alınır ki, qloballaşmanın tsiklik gedişi XXI əsrin 20-ci illərində başa çatmalıdır. Bəzi elmi dairələrdə hətta postqloballaşmadan danışılmağa başlanmışdır.

Bəri başdan qeyd edək ki, qloballaşma başa çatırmı? Sualının heç bir elmi əsası yoxdur. Bu qəbildən olan yanaşmalar prosesə birtərəfli, "birölçülü" baxışlardan qaynaqlanır ki, bu da "trend" yanaşmasının növ müxtəlifliyindən başqa bir şey deyildir.

Eyni zamanda, qloballaşma ilə bağlı 1990-cı illərdən başlayaraq müxtəlif istiqamətli, ziddiyyətli, bir-birini inkar edən çoxsaylı deyimlər yer almaqdadır (şəkil 15.4).

downloaded from KitabYurdu.org




***Şəkil 15.4. Qloballaşma dixotomiyası***

Eyni zamanda, qloballaşma prosesinin müasir cəmiyyətin mövcudluq şəraitinə və inkişaf təmayüllərinə təsiri də homogen xarakter daşımır (şəkil 15.5).

downloaded from KitabYurdu.org




***Şəkil 15.5. Qloballaşma prosesinin müasir cəmiyyətə təsiri***

downloaded from KitabYurdu.org

İqtisadi qloballaşma təkcə dünya bazarında aktorların tərkibini deyil, həmçinin qlobal iqtisadi məkanın institusional "simasını" dəyişir. Ayrı-ayrı milli iqtisadiyyatlar (dövlətlər) ifrat müxtəlifliyi ilə fərqlənən subyektlərlə (TMK, inteqrasiya blokları və s.) əvəz olunur.

İqtisadi planda qloballaşma ayrı-ayrı region və ölkələri yaxınlaşdırmır, onları sadəcə olaraq "sıraya düzür" (subordinasiya).

Sırf Qərb hadisəsi olmaqla qloballaşma Avropanın inkişaf tarixinin daxili məntiqi ilə bağlılıqdadır. Avropanın tarixindən təsərrüfat proseslərinin əsas amilləri dövrü olaraq dəyişməyə məruz qaldığı məlumdur: antik dövrün hərbi gücü orta əsrlərdə torpaq üzərində inhisarla əvəzlənmiş, sonralar isə həlledici rol kapitala məxsus olmuşdu. Bütün tarix boyu cəmiyyətin "kritik resurs"u (nadir, əsas resurs), istehsalın həlledici resursu üzərində nəzarət sosial təşkil və təbəqələşmənin əsası kimi çıxış etmişdi.

Qərbin biliklər iqtisadiyyatına keçidi əslində, öz başlanğıcını XX əsrin əvvəllərindən götürür:

1. Bilik – alınan informasiyanın emalı və yenisini istehsal etmək qabiliyyəti istehsalın başlıca resursuna çevrilir;
2. İnformasiya və unikal məhsul istehsalı ənənəvi nemətlər istehsalından kardinal şəkildə fərqlənir! Bu istehsal:

- Yüksək bilik səviyyəsini;
- İstehsal prosesində işçi qüvvəsinin təkmilləşdirilməsini tələb edir.

İnformasiya səviyyəsində qloballaşma prosesi "mütləq" müstəqillik əldə etməklə xüsusi rol oynayır. Eynilə də, məhz informasiya səviyyəsi müasir cəmiyyətin, bütövlükdə qloballaşma prosesinin inkişafının başası kimi çıxış etməyə başlamışdır.

Elm və informasiya tutumlu məhsullar kapital yığımına müsbət təsir göstərən amil kimi çıxış edir. Eyni zamanda, xüsusi diqqət çəkən məsələ ondan ibarətdir ki, informasiya məhsulu "dəfələrlə" satıla bilər (sahibkarın mülkiyyətində qalmaqla).

Bütün bunlar açıq-aydın şəkildə göstərir ki, ənənəvi istehsal amillərinin səfərbərliyi əsasında inkişaf prosesini sürətləndirmə və Qərbə "çatma" istəyi bəri başdan müvəffəqiyyətsizliyə düçar olacaqdır.

Qlobal səviyyədə "yeni bərabərsizlik" yeni iqtisadiyyatın doğurduğu fenomendir.

Qloballaşma – ayrı-ayrı ölkələrin əyalət statusunu daha da möhkəmləndirir.

Bəşər tarixində mövcud olmuş əksər imperiyaların, o cümlədən SSRİ-nin dağılmasında mərkəzlə əyalət arasında münasibətlərin

downloaded from KitabYurdu.org

optimallaşdırıla bilməməsi dayanırdı. Məhz bu anlamda müasir qloballaşma prosesini sxematik olaraq aşağıdakı “təmərgüzləşmə” dairələrinə bölmək olar:

1. Qərbi Avropa, ABŞ, Kanada, Avstraliya və Yeni Zelandiya;
2. Avropa təsirinin güclü olduğu “dairə”: Rusiya, Latın Amerikası, bir sıra Yaxın Şərq ölkələri, İsrail, Azərbaycan;
3. Keçmiş müstəmləkələr, Avropa dəyərlərinin müəyyən səviyyədə qərarlaşdığı “dairə”: Hindistan, Şimali Afrika,CAR, bir sıra Asiya ölkələri;
4. Qərb həyat tərzini aktiv şəkildə mənimsəyən “dairə”: Yaponiya, Koreya, Sinqapur, Malaziya və s.
5. Prosesdən “kənarda” qalan “dairə”: Afrika ölkələri, ələlxüsus (Böyük Səhra) Saxaradan cənubda yerləşən ölkələr.

Göründüyü kimi, qloballaşma prosesinin sürəti ilə avropa dəyərlər sisteminin yayılması tezliyi arasında funksional bağlılıq mövcuddur.

Hətta, sonrakı dövrlərdə belə qloballaşma prosesinin intensivləşdirilməsi tarixi optimizm üçün real əsas vermir. Dünyanın “vahidləşəcəyi” ideyası elə ideya olaraq da qalacaqdır.

Elə bir universum tapmaq mümkün deyildir ki, ayrı-ayrı xalqların milli spesifikliyinə tam şəkildə ekvivalent olsun və onların hamısını məcmu şəkildə əvəz edə bilsin!

Başqa sözlə, bəşəriyyətin “vahidliyi” prinsipi heç bir halda substansiya keyfiyyətində çıxış edə bilməz. Söhbət eynilik və vahidlikdən yox, yalnız diferensial bütövlükdən gedə bilər.

Məlumdur ki, bu xassələr yalnız mahiyyətcə vahid olan obyektə xasdır. Şübhəsiz olan bundan ibarətdir ki, eyni bir mexanizmin aramsız modifikasiyası əsaslı təftişə möhtacdır, ancaq bu hal nə vaxtsa “vahidləşmə” ilə yekunlaşmayacaqdır.

Beləliklə, ifrat universalizmin yalançı mütləqləşdirilməsi müstəqillik prinsipinin dayaqlarını sarsıtmaqla ayrı-ayrı millətlərin sosiomədəni determinizminə deyil, anarxiyaya, mexaniki ümumiləşdirməyə və sonuc olaraq, qlobal iqtisadi artımın ləngidilməsinə gətirib çıxarır.

### § 15.6.1. Qlobal ədalət müstəvisində “qloballaşma” kabusu

Elmi fikirdə bu gün müşahidə edilən ən təhlükəli meyil gözlənilənin, yaxud ola biləcəyi ehtimal edilənin reallıq kimi qələmə

downloaded from KitabYurdu.org

verilməsidir. Hipotetik qiymətləndirmənin gerçəkliklə (perspektiv anlamda) bağlılığı yalnız və yalnız ehtimal xarakterli ola bilər.

Qloballaşma prosesi başlayandan etibarən dünyanın "ümmun sistemi" çox təhlükəli meyillərin birbaşa təsiri altına düşmüşdür. Beynəlxalq təhlükəsizlik, həm bütövlük keyfiyyətinə malik qlobal sistem olmaq etibarilə, həm də ayrı-ayrı regionlar və ölkələr bölümündə ifrat dərəcədə mürəkkəb məzmunlu problemli situasiya ilə üz-üzədir. Problemin fəlsəfi ideallaşdırılması və bu prizmadan çıxış yollarına baxış birmənalı olaraq "realist məktəbin" (D.Qobson, K.Klauzevitsa, Q.Morqentau, Q.Kissincer) öz mahiyyəti etibarilə artıq kifayət qədər "tüklənmiş" Pareto-optimumundan elə də fərqlənməyən konseptual yanaşmasına gətirib çıxarır. Sabit qaydaların, sabit dünya nizamının mövcudluğu mütləq təhlükəsizliyin qarantı kimi çıxış etmək keyfiyyətinə malik deyildir. "Realist məktəbin" məntiqindən çıxış etsək, onda belə məlum olur ki, bir ölkənin "mütləq təhlükəsizliyi", digər bir ölkənin yaxud ölkələr qrupunun nisbi təhlükələrə məruz qalması şəraitində reallığa çevrilə bilər. Başqa sözlə, qlobal miqyasda ölkələrarası qarşılıqlı asılılığın assimmetrikliyi adi gözlə müşahidə olunmaqdadır. Qlobal assimmetriklik → nəyin paylanması yaxud bölüşdürülməsindən asılı olmayaraq, kütləvi şəkildə ədalətsizlik doğurur. Ədalətsizliyin qlobal miqyaslı təzahür formaları, dünya nizamının quruluş prinsiplərinin yalnışlığı ucbatından təbiilik xassəsinə malik empirik nəticələr kimi ortalığa çıxır.

Qlobal assimmetrlik → gerçək məzmunlu qlobal "bütövləşmənin" və deməli, "qlobal metasistem" deyilən funksional (bəzilərinə görə determinləşmiş) yaranışın reallığa çevrilməsini əngəlləyən başlıca amildir. "Müxtəlifliklərin kontiniumu" gerçəkdirmi? sualına adekvat cavab axtarışı sonsuzluğuna qədər uzana bilər. Qlobal assimmetriklik → insan cəmiyyətinin insan kimi yaşayan cəmiyyət halına gətirilməsini mümkünsüz etməklə hər cür fitnə-fəsadın (müharibələr, konfliktlər və s.) ideal mənbəyi kimi çıxış edir. Bu gün bəşəriyyətin tən yarısının – 3.5 mlrd. insanın insan kimi yaşamaq imkanının yoxluğu və bu sferada hər hansı real məzmunlu bir irəliləyişin olmaması assimmetrikliyin – onun ədalətsizlik komponentinin doğurduğu acı gerçəklikdir.

Digər tərəfdən, ayrı-ayrı ölkələr qloballaşma prosesinin əhatə dairəsində olmaqla müəyyən yanaşma tərzi ortalığa qoymaq məcburiyyətindədirlər.

Qlobal situasiyaya (bəlkə "oyun qaydalarına") uyğunlaşma zəruriliyi "kiçik ölkələr" üçün (məsələn, Azərbaycan) həyati əhəmiyyət

downloaded from KitabYurdu.org

daşıyır. Münasibətlər sisteminin kökündə dayanan ziddiyyətli yaranış – "sərhəd" tanımayan real məzmunlu bazar funksional fəaliyyətin prioritet sahələrini yaxud məcburi gediş kimi digər sferaları geoiqtisadi məkana çıxarır və mexaniki olaraq artıq formalaşmış qlobal "oyun qaydalarının" nəzarətinə keçir. Əgər, göstərilən aspektdə uyğunsuzluq yaranarsa yaxud mövcuddursa, onda prosesin əks-istiqamətli gedişi labüdləşir və nəinki labüdləşir, həmçinin mənfi işarəli effektlə "yüklənərək" ölkədaxili iqtisadi nizama dağıdıcı təsir göstərir. Problemin məntiqi strukturu "uyğunsuzluq" istilahının nizamlı prosesə çevrilməsinin, yəni fərq → ziddiyyət → əkslik → mübarizə oxu üzrə getdikcə artan şiddətlilik dərəcəsinin "hərəkətə" keçməsinin qarşının alınması zəruriliyini təbii şəkildə aktuallaşmış problem kimi ortalığa çıxarır. Ənənəvi metodika uyğunsuzluğun "fərqə" çevrildiyi anı birmənalı olaraq problem kimi qəbul edir. Yəni problemyaradan proses elə ilkin mərhələdə, uyğunsuzluq → fərq çevrilməsində təzahür etməklə özünün bitkin formasını alır. Şiddətlənmə dərəcəsinin maksimumu – mübarizə mərhələsinə çatma ilə ilkin mərhələ arasında elə bir mahiyyət fərqi yoxdur. Yalnız, bu halda yəni uyğunsuzluğun maksimumu halında itkilərin (bəzi hallarda qarşılıqlı itkilər) həcmi artır, dağıdıcı effekt doğuran hadisələr baş verir. Başqa sözlə, ilkin və son hədd arasında (iqtisadi sistemə təsiri nöqteyi-nəzərindən) meydana çıxan mənfi effekt yalnız kəmiyyətcə fərqlənir. Bütövlükdə, sistemə təsirin keyfiyyət ölçüsü hər iki halda eyniyüklüdür və ölkədaxili iqtisadi proseslərin nizamlı gedişində müəyyən əngəllər törədirlər.

İlk baxışdan iqtisadi prosesin müəyyən mərhələsində meydana çıxan, başqa sözlə geoiqtisadi məkanla bağlı olan və təbiəti etibarilə institutsional mahiyyət daşıyan problemin məhz "təbiiliyi" nəzər-diqqəti cəlb edir. Digər ifadə ilə, söhbət həmin "təbiiliyin" metodoloji anlamda elmin mental-dəyər səviyyəsində dərkinin problematikliyindən gedir. Həqiqətən də, iqtisadi münasibətlər sisteminin qaynaqlandığı dəyər-konseptlərin mahiyyətinə daxil edilmədən yalnız xarici kəsimdə aktuallaşan uyğunsuzluq qondarmadır, yalançı aktuallaşmadan başqa bir şey deyildir. Milli → qlobal qarşılaşmada birincidən ikinciyə keçid, yaxud birincinin ikinciyə "qovuşması" prosesində uyğunsuzluq meydana çıxırsa, onda həmin məntiqlə davam etsək, belə alınır ki, "qloballaşma" dediyimiz şey özü qondarmadır, milli yaxud millilərdən qaynaqlanmayan, millilərə mahiyyət və məzmunca yabancı olan elə kriteriya və prinsiplərə söykənərək formalaşır ki, onu təbii-tarixi prosesin məcburi gedişi kimi səciyyələndirmək olmaz.

downloaded from KitabYurdu.org

Qlobal səviyyədə qarşılıqlı asılılığın assimmetrikliyi müxtəlif ölkələrin planetar "oyun qaydalarına" uyğunlaşmalarının müxtəlif sürətliliyindənmi doğub?

Doğurdanmı, ölkənin institusional açıqlıq dərəcəsinin qloballaşan dünyada qərarlaşmış analoji halla fərqliliyi, yaxud hər iki istiqamətdə prosesin məna tutumunun üst-üstə düşməməsi qlobal assimmetrikliyin əsas səbəbidir? Qloballaşma → lokallaşma dixatomiyasını ziddiyyətli vahidlik adlandırmaq olarmı?

Haşiyəyə çıxaraq qeyd edək ki, gerçək elmi əsaslandırma olmadan yalnız müşahidə əsasında (yəni, idrak prosesi bir proses olmaq etibarilə yekunlaşmadan) hər hansı bir ölkədə cəmiyyətin idarəedilməsinin qlobal səviyyəli idarəetmə ilə qırılmaz bağlılığının mövcudluğunu iddia etmək ən azı elmi sadəlövhlük təsiri bağışlayır. Belə bir iddiada bulunanlar tərəflər arası mahiyyətcə bir istiqamətli xarakter daşıyan bağlılğı əsaslandırmaq üçün yazırlar ki: əvvəla, qloballaşma ayrı-ayrı ölkələr və sosiumlararası asılılığı, eləcə də beynəlxalq əlaqələri bütün sferalar (iqtisadi, informasiya, siyasi, ekoloji və s.) üzrə kəskin şəkildə gücləndirmişdir. Bu deyimdə əsas məsələ sosiumlar arası bağlılığın real elmi fakt kimi səciyyələndirilməsidir.

Ayrı-ayrı epizodik hallar istisna olmaqla əslində belə bir şey yoxdur. Məlumdur ki, sosiumlararası "ortaq məxrəcin" tapılması öz mahiyyəti etibarilə qlobal vahidləşmə arzusunda olanların mərkəzi problemdir və onun hətta uzaq perspektivdə belə reallaşacağı inamı mirajdır, xəyala qapılmadır və hər nədirsə, gerçək olanla heç bir əlaqəsi yoxdur. İkincisi, həm ayrı-ayrı ölkələr həm də qlobal səviyyədə cəmiyyətin təşkilində baş verən dəyişikliklərin obyektiv təmayüllərinin ümumiliyi mövcuddur və bu özünü, opponentlərin fikrincə, qloballaşma → lokallaşma dixatomiyasının meydana çıxmasında göstərir.

Yenə də yalançı aktuallaşma ilə üz-üzəyik! Belə ki, əvvəla, təmayüllərin obyektivliyi nə deməkdir – anlaşılmır! Hansı kriteirya yaxud ölçü vahidindən istifadə etməklə bu qənaətə gəlinib? Əgər təmayül – inkişaf qanunauyğunluğu deyilən şeyin dar çərçivədə təzahür formalarından yaxud o formaların "formalaşmasında" iştirak edən elementlərdən biridirsə, onda onun "subyektiv" olmaqlığı mümkünsüzdür. Yəni, təmayül varsa, o yalnız obyektiv olaraq mövcud olur və buna görə də, obyektiv təmayül ifadəsi "su yaşdır" ifadəsi kimi adi tavtalogiyadır. İkincisi, qlokallaşma, yəni qloballaşma → lokallaşma dixatomiyasının, ələlxüsus lokallaşma ilə bağlı prosesin planetar xarakter kəsb etdiyini sübuta yetirə biləcək heç bir elmi fakt yoxdur. Əgər, söhbət

downloaded from KitabYurdu.org

nəyin bahasına olursa-olsun “ümummilli” termini ilə ehtiva edilən hər şeyin ictimai şüurdan silinməsindən, sırf maddi məzmun daşıyan, başqa sözlə ictimai rifahın yalnız və yalnız maddiyyat ölçüsünün ön plana çıxarılmasından, neoliberal “rasionalizmin” yeganə və mütləq dəyər kimi qlobal səviyyədə qəbul edilməsindən gedirsə, onda elə belə də yanaşmaq, məhz mahiyyət üzrə əsas müddəaları ortalığa qoymaq daha düzgün və ədalətli olardı. Çox qəribədir ki, problemə yuxarıda təsvir etdiyimiz tərzdə yanaşma, sanki vahid mərkəzdən idarəolunan proses kimi kifayət qədər geniş yayılmış və əksər tədqiqatlarda həqiqət kimi qəbul edilir. Arzuedilənin gerçəklik kimi ortalığa qoyulmasında neoliberalistlərin əsas hədəflərindən biri – milli dəyərlər sistemini həm lokal, həm də qlobal səviyyələrdə “kütləvi” hücuma məruz qoymaq, onun mahiyyətini (modernləşmə bayrağı altında) kardinal şəkildə dəyişmək və neoliberal dəyərlərlə “silahlanmış” individiumu beynəlxalq və milli müstəvidə əsas aktora çevirmək niyyəti güdülür.

Aydındır ki, bu halda super iqtisadi gücə malik olan ölkənin (ABŞ-ın) dövlət maraqlarının tam şəkildə təminatı yolundaki bütün maneələr aradan qalxacaqdır.

Ümumiyyətlə, problemin bu aspektdə qoyuluşunun özü problematikdir. Belə çıxır ki, problemin mahiyyəti yaxud adının təsvirində yalnış aktuallaşma aparılır. Problemin qoyuluşunun problematikliyi hansısa prizmadan elm ətrafı dairədə “elmi” qoyuluş kimi qəbul edilə bilər. Amma, real elmi-metodoloji yanaşma çərçivəsində ən yaxşı halda iki problem arası “söz oyunu” keyfiyyətindən o yana çıxmır.

Həqiqətən də, ilkin şərtlərin problem xarakterli olması, məzmunca problemin dərkedilməzliyi anlamına gəlir ki, bu halda vəziyyətdən çıxış yolu kimi hər hansı bir cəhətin yaxud formalaşmaqda olan situasiyanın hər hansı bir konkret münasibətlər məcmusunun ideallaşdırılması belə “yalançı” ideallaşma olacaqdır. Bu deyilənlər məsələyə yanaşmanın metodoloji yozumudur. O ki, qaldı məsələnin real məzmununa, bu sferada tam anlaşılmazlıq hökm sürür. Axı, məlumdur ki, qlobal səviyyədə qlobal sosiumun idarəedilməsi problemi deyilən bir problem yoxdur yaxud bugün, eləcə də yaxın gələcəkdə gündəmə daxil ediləcəyi gözlənilmir.

Eyni zamanda, məlumdur ki, “dünya hökuməti” adlı hansısa fövqəlmilli qurum da yoxdur. Və, qlobal sosiumun idarəolunması ilə, təkrar edirəm, idarəolunması ilə heç bir beynəlxalq struktur məşğul olmur. Mövcud beynəlxalq təşkilatların bir qismi planetar səviyyədə

downloaded from KitabYurdu.org

sosiumla bağlı bəzi problemlərin müzakirəsini (müzakirədən o yana keçmir) aparırlar və əgər qismət olursa, bəzi hallarda müəyyən qərarlar da ortalığa qoyurlar. Amma, beynəlxalq təşkilatların qərarları bir qayda olaraq, tövsiyə xarakterli olur, yəni heç bir hüquqi yük daşımır.

Qətiyyən unudulmamalıdır ki, nəyin və necə baş verməsindən asılı olmayaraq, sosium həmişə milli xarakter daşıyır və bu xassə onun substansiyası kimi çıxış edir. "Abstrakt sosium" xalis təxəyyül məhsulu olmaqla heç bir halda reallığa çevrilə bilməz. Sosium daxili baş verən və onun monolitliyini (bunsuz inkişaf yoxdur) formalaşdıran proses sosial-həmrəylik → sosial əməkdaşlıq → milli identiklik oxu üzrə getməklə heç bir tarixi dönəmdə alayı məzmun daşımamışdır və bu əslində heç mümkün də deyildir.

Əslində nə baş verir? Neoliberal məzmunlu qloballaşma həm planetar, həm regional, həm də milli səviyyələrdə cəmiyyətin idarəedilməsi sferasında mövcud olan və yeni yaranan problemləri ifrat dərəcədə kəskinləşdirməkdədir.

Fərd-fərd, fərd-cəmiyyət, cəmiyyət-dövlət və nıəhayət fərd-dövlət münasibətlərində az və ya çox dərəcədə problemli situasiyalar meydana çıxmış və bu proses getdikcə dərinləşməkdədir.

Eyni zamanda, qeyd edilməlidir ki, semantik yanaşmanın daxili məntiqinə söykənməklə gəlinən nəticənin həqiqiliyi müəyyən şübhələrlə qəbul edilə bilər. Belə ki, əvvəla, problemə yanaşmanın metodoloji bazası müəyyən suallar doğurur. Praqmatik həqiqətin müəyyənləşdirilməsində semantik yanaşmadan istifadə nə dərəcədə doğrudur? Həqiqətin aşkarlanması və əsaslandırılması kriteriyalarının müxtəlifliyi inkar edilmədiyi təqdirdə - bu həqiqətən də belədir - hansı əsasla gəlinən qənaətin gerçək olduğu iddia edilir? İkincisi, vətəndaş cəmiyyəti heterogen xassəli funksional yaranış olmaq etibarilə (düzdür, vətəndaş cəmiyyəti quruculuğu prosesinin müəyyən mərhələsində determinləşmiş dinamika müşahidə edilir, yaxud edilə bilər) özündə ifrat dərəcədə parçalanmış mənafe qruplarının "mənə məxsus olmalıdır" prinsipi əsasında aparılan qarşılıqlı rəqabət müstəvisində göstərdikləri fəaliyyətlərinin məcmusunu ehtiva edir. Axı, vətəndaş cəmiyyətinin əksər struktur bölmə və elementlərini özündə birləşdirə biləcək "ümumi məqsəd" olmur. Əgər məqsəd ümumiliyi yoxdursa, "bəlkə də qaytardılar" prinsipinə güvənmək, ümid etməklə hansı sinergetik effektdən danışmaq olar? Dövlət → vətəndaş cəmiyyəti tandemi dayanıqlı inkişafın mühüm amillərindən biridir – yalnız o halda ki, dövlət vətəndaş cəmiyyətinin struktur bölmələri arasında, eləcə də fərd-vətəndaş

downloaded from KitabYurdu.org

cəmiyyəti, fərd-dövlət və nəhayət, dövlət-vətəndaş cəmiyyəti arasında mənafe tarazlığını təmin edə bilsin. Başqa sözlə, vətəndaş cəmiyyətinin, bir sıra tədqiqatçılar tərəfindən formalaşdırılmış "ideal simasının" real məzmun kəsb etməsi birbaşa və bilavasitə dövlətin "davranış tərzindən" funksional asılılıqdadır. Başqa sözlə,vətəndaş cəmiyyətini beynəlxalq və milli səviyyədə dövlətə bərabər aktor kimi səciyyələndirmək nəinki yalnışdır, hətta çox ağır nəticələrə gətirib çıxara bilər.

Həmçinin, şübhə yoxdur ki, qloballaşma (neoliberal model çərçivəsində) ayrı-ayrı strukturların azadlıq dərəcəsi ilə onların planetar səviyyədə mənafe tarazlığının formalaşdırılması arasında birbaşa və tərs mütənasib asılılığın olduğunu üzə çıxarır.

İradə azadlığı → sosial məsuliyyət cütlüyünün isə həqiqi bir "cütlük" olmadığı, daha çox arzuedilən funksional bağlılıq keyfiyyətinə sahibliyi və ifrat dəyişkən xarakterə malikliyi adi gözlə müşahidə edilməkdədir. Problemi qəlizləşdirən əsas məsələ ondan ibarətdir ki, qloballaşma ictimai sistemin açıqlıq dərəcəsini kəskin şəkildə genişləndirir və yüksəldir. Bu prosesə paralel olaraq ayrı-ayrı fəaliyyət sferalarının (qlobal miqyasda) nataraz yönümlü inteqral qovuşması baş verir ki, nəticədə alınan "inteqral bütövlük" daha çox anklav xarakteri kəsb edir və geridönməzliyi ilə səciyyələnir. Məsələn, qlobal maliyyə bazarının artıq ayrı-ayrı ölkə, yaxud region çərçivəsində spontan qaydalı əlahiddələşməsi mümkünsüzdür. Yaxud, mümkündür, amma çox ağır nəticələrlə sonuclana bilər. Məhdud zaman çərçivəsində müvəqqəti olaraq müəyyən əlahiddələşmələr baş verə bilər. Lakin, yuxarıda da qeyd etdiyimiz kimi, müstəsna hallar bir qayda olaraq dayanıqlı xarakter daşımır.

Digər tərəfdən, anklav xarakterli "inteqral bütövlüklərin" yaranması bütünlükdə bəşəriyyətin davamlı və sabitqədəmli inkişafı nöqteyi-nəzərində fəsadlar kompleksi doğurur:

1. Hər şeydən əvvəl, planetar miqyasi əhatə edə biləcək "qlobal ümumilik" daha çox pərakəndəliklərin süni bütövlüyü təsirini bağışlayır. Belə ki, maliyyə sferasını çıxmaq şərti ilə qlobal bütövlük anlamına gələn ikinci bir sferanın adının çəkilməsi problematikdir.
2. Müasir qloballaşma prosesi nəinki "müxtəlifliklərin", hətta "müxtəlif sürətlilərin" belə ortaq məxrəcini tapmaqda acizdir.
3. Geniş təkrara istehsal prosesinin milli tamlığı, bütövlüyü pozulur;

downloaded from KitabYurdu.org

4. Ölkə özünün klassik anlamını dəyişir. Ölkə → "ölkə-sistemə" transfer edir.
5. Qloballaşma (neoliberal bazarla birlikdə) qlobal geniş təkrar istehsal prosesinin gedişində kəskin "separatizm" meyilləri doğurmaqda davam edir. Qlobal maliyyə sferası "özündə şeyə" çevrilməklə "isti pullar" (həmçinin, real mövcud olmayan pullar), "möhtəkir əməliyyatlar" dalınca qaçmaqdadır.

Araşdırmalarımız göstərir ki, qloballaşmanın gətirdiyi naqisliklərin əsaslı səbəblərdən qaynaqlanmasında istinad edilən neoliberal bazar modelinin həlledici rolu vardır. Belə ki, neoliberal bazar modeli:

1. Seçim və manevr imkanlarını ifrat dərəcədə məhdudlaşdırır. Strateji qərarların qəbulu prosesi çox dar çərçivəyə salınır.
2. Bu model alternativsizlik keyfiyyətini ortalığa qoyur ki, nəticədə də milli səviyyədə siyasi pessimizm qaçılmaz olur.
3. Dayanıqlı inkişafın başlıca sütunlarından olan orta təbəqə eroziyaya uğrayır.
4. Əhalinin ifrat təbəqələşməsi və marginallaşması prosesi sürətlənir və s.

Araşdırmalarımız belə bir qənaətə gəlməyə imkan verir ki, qloballaşmanın neoliberal modeli tam şəkildə yararlı deyildir və onun (yəni, qloballaşmanın) struktur prinsiplərinin real gerçəkliyə adekvat olaraq dəyişdirilməsi zərurəti mövcuddur.

downloaded from KitabYurdu.org

# XVI fəsil. Dünya iqtisadiyyatının inkişafında V mərhələ: "informasiya iqtisadiyyatı"

## §16.1. İnformasiya iqtisadiyyatı: mahiyyəti və xüsusiyyətləri

İnformasiya iqtisadiyyatına keçid (postindustrial cəmiyyətin altsistemi kimi) təbiidir ki, "qəflətən" baş verməmişdir. İnformasiya və iqtisadiyyat (yaxud, cəmiyyət) anlayışlarının tarixinə nəzər salmaqla prosesin daxili məntiqinin özəlliklərini anlamaq mümkündür. Əslində, "informasiya" anlayışı bəşəriyyətin özü qədər qədimdir. İnformasiya-ictimai varlığın istənilən tarixi inkişaf prosesində ayrılmaz atribut keyfiyyətində çıxış etmişdi. Başqa sözlə, bizim qəbul edib-etməməyimizdən asılı olmayaraq sosial təşkilin ən qədim formları ilə formalaşmaqda olan postindustrial sivilizasiya arasında genetik əlaqə mövcuddur. Bizim məxsusi olaraq "əlaqə" sözünü işlətməkdə məqsədimiz ümumdünya tarixi-iqtisadi prosesin vahidliyinin qəbul edilməzliyini bir daha vurğulamaqdır.

Bu aspektdən N.Vedinin[201] ".... Hələ ki, iqtisadçılardan heç kim primitiv icma ilə müasir sivilizasiyanın zirvəsi arasında varislik əlaqəsini araşdırmağa cəhd göstərməmişdi" tipli deyimini "varsliyin" absolyuta yüksəldilməsi cəhdi kimi qəbul etmək olar.

Aydındır ki, bəşəriyyət özünün uzun tarixi boyu gələcəkdə baş verə biləcək (və baş verən ) transformasiyaların "genofondunu" yaratmışdır, lakin yekun etibarilə baş verən transformasiyanı təbii-tarixi prosesin məntiqi yekunu çərçivəsində şərh etməyə çalışmaq yalnışlıqdır. Əks-təqdirdə, dünya iqtisadiyyatı həm bütövlükdə, həm də ayrı-ayrı ölkələr və regionlar bölümündə mahiyyət və məzmunca homogen olardı:

-Tam fərqli məzmuna malik yaranışla – heterogenliklə üz-üzəyik;

- Müasir dünya iqtisadiyyatı ən yaxşı halda (yəni, ifrat optimist nöqteyi-nəzərdən) ifrat müxtəlifliklərin kontiniumu kimi mövcuddur;
- Ümumbəşəri tarixi-iqtisadi prosesdə kəmiyyət çoxalmaları avtomatik olaraq keyfiyyət yenilənməsinə gətirib çıxarmır. Kəmiyyətin keyfiyyətə keçidi idarəolunan proses kimi məqsədyönlü fəaliyyətin məntiqi nəticəsi formasında baş verir və s.

---

[201] Ведин Н.В. Постиндустриальное общество: становление новой системы присвоения// Проблемы современной экономики.- 2002.- N1.- С.63-65

downloaded from KitabYurdu.org

Bu sıranı xeyli uzatmaq da olar. Söhbət ondan gedir ki, ümumbəşəri tarixi – iqtisadi prosesin “dayanacaqları” arasında “varislik” dediyimiz şey ümumzaman axıcılığının mikrohissəciklərindən biri kimi - yalnız biri kimi – təzahür edir və onun keyfiyyət yeniləşməsindəki rolunu yalnız ən güclü mikroskop altında müşahidə etmək mümkündür...

Beləliklə, informasiya iqtisadiyyatının təşəkkülü proses olmaq etibarilə universal xarakter daşımır və bu keyfiyyətə nə vaxtsa yiyələnəcəyi hələ ki, naməlumdur. Bununla belə, inkişaf etmiş ölkələrin sürətlə informasiya iqtisadiyyatına keçidi bütövlükdə dünya iqtisadiyyatında yeni iqtisadi düzənin formalaşmasına gətirib çıxarmışdı.

İnformasiya iqtisadiyyatı - ənənəviçiliyin sonu, tamamilə yeni mahiyyətdə, yeni məzmunda yaranışlar deməkdir.

İnformasiya və elmi bilik strateji resursa çevrilirlər. İnformasiyanın istehsalı, emalı və yayılması sferasında çalışanların xüsusi çəkisi maddi istehsal sferasında çalışanların xüsusi çəkisini üstələməyə başlayır. Hələ 1980-ci ildə bu 50:50 nisbəti kimi qərarlaşmışdı. İnformasiya və elmi biliklərin yayılması məhsuldar qüvvələrin ərazicə yerləşməsində əhəmiyyətli dəyişikliklərə gətirib çıxarır. Məsələn, məlumdur ki, aqrar iqtisadiyyatın hökmran olduğu (industrializmə qədərki dövr) dövrdə şəhərlər ticarət yollarının kəsişdiyi ərazilərdə, industrial dövrdə xammal və enerji mənbələrinin yaxınlığında yaranırdı. Postindustrial dövrdə isə texnopolislər bir qayda olaraq elm mərkəzlərinin və iri tədqiqat laboratoriyalarının (texnoloji vahə) ətrafında formalaşırlar. İnkişaf etmiş ölkələrdə “bilik sənayesinin” sürətli inkişafına paralel olaraq maddi istehsalın sərhədlərinin “sıxılması” prosesi gedir.

İnformasiya iqtisadiyyatının təzahür aspektləri çoxsaylıdır:

1. İstehsal sferası (informasiya istehsalı); başqa sözlə, iqtisadi fəaliyyət növüdür;
2. İnformasiya – istehsalın amili, istənilən iqtisadi sistemin fundamental resurslarından biridir;
3. İnformasiya - əmtəədir, yəni alqı-satqı obyektidir;
4. İnformasiya (bəzi hissəsi) – ictimai nemətdir, cəmiyyətin əksər üzvləri tərəfindən istifadə olunur:
5. İnformasiya – bazar mexanizminin elementidir; Qiymət və faydalılıqla birlikdə iqtisadi sistemin optimallığı və tarazlığının müəyyənləşdirilməsinə təsir göstərir;
6. İnformasiya – rəqabət mübarizəsinin mühüm amillərindən biridir;

downloaded from KitabYurdu.org

7. İnformasiya – ictimai rəyin formalaşması və qərarların qəbulunda işgüzar və hökumət dairələrinin rezervi kimi çıxış edir.

Xüsusi ilə qeyd edilməsi zəruri olan bir məqam ondan ibarətdir ki, öz miqyası etibarilə milli xarakter daşıyan "istehsal" iqtisadiyyatından (industrial iqtisadiyyat) fərqli olaraq, "xidmət" və "informasiya" iqtisadiyyatı qlobal xarakter daşıyır. Başqa sözlə, informasiya iqtisadiyyatının qərarlaşdığı məkan qloballaşmaya bilməz. Məhz bu anlamda bir sıra tədqiqatçılar qloballaşmanı qaçılmazlıq terminləri ilə ifadə edirlər.

Bir sıra tədqiqatçılar "informasiya cəmiyyətini" "inkişaf etmiş postindustrial cəmiyyət" kimi xarakterizə edir və göstərirlər ki, yeni iqtisadiyyat o ölkələrdə reallaşır ki, hansılarda postindustrial cəmiyyətə keçid 1960-1970-ci illərdə baş vermişdi.

İnformasiya cəmiyyətinin əsas xarakteristikası aşağıdakı kriteriyalar vasitəsilə əks olunur:

1. Texnoloji: əsas amil – informasiya texnologiyaıarı ictimai həyatın əksər sferalarında tətbiq olunur.
2. Sosial: informasiya həyat səviyyəsinin dəyişməsində mühüm stimul kimi çıxış edir;
3. İqtisadi: informasiya resurs, xidmət, əmtəə, əlavə dəyərin və məşğulluğun mənbəyi keyfiyyətində çıxış edir;
4. Siyasi: azad informasiya əhalinin sosial təbəqələri arasında konsensusa xidmət edir.
5. Mədəni: ayrıca götürülmüş fərdin və bütövlükdə cəmiyyətin mədəni tərəqqisinə yardım göstərir.

## §16.2. Qlobal informasiya iqtisadiyyatı indeksi: ölkələr bölümündə qiymətləndirmə

İnformasiya iqtisadiyyatına keçidin və ümumiyyətlə, yeni iqtisadiyyatın qərarlaşması prosesinin qiymətləndirilməsində "qlobal informasiya indeksi" adlanan metodikadan istifadə olunur[202] (şəkil16.1).

İndeksdən istifadə əsasında aparılan araşdırmalar göstərir ki, ABŞ liderliyi öz əlində saxlamaqda davam edir. Hal-hazırda texnoloji

---

202 Отчет компании Metrcinet.com "The Global New Economy İndex: a Cyber-Atlas", 2-nd edition, 2000.

downloaded from KitabYurdu.org

yeniliklər və bunun nəticəsində formalaşan yeni satış bazarları və kanalları Amerika iqtisadiyyatının əsas artım mənbəyinə çevrilmişdir.

Ölkənin ÜDM-də elektron ticarətin payı 15%-ə yaxındır. Bununla belə, yeni iqtisadiyyatın modeli kimi çıxış edən ABŞ-da hələ çox iş görülməlidir.

Reytinqdə ikinci yer Yaponiyaya məxsusdur. ABŞ-dan əhəmiyyətli dərəcədə geri qalsa da, texnoloji yeniliklərin tətbiqi sferasında əksər ölkələrdən öndədir. Yapon iqtisadiyyatının qloballaşma dərəcəsi də maksimum səviyyəyə çatmışdır.

Skandinaviya ölkələri (İslandiya, Norveç, Finlandiya və s.) kifayətqədər yüksək səviyyəyə malikdirlər. Bu ölkələr telekommunikasiya sferasına qoyulan investisiyaların həcminə və İnternetə qoşulan kompyuterlərin sayına görə liderdilər. Hər iki göstərici yeni iqtisadiyyatda müvəffəqiyyət qazanmağın əsas amilləri kimi çıxış edirlər. Kontinental Avropa ölkələri (Almaniya, Fransa, İsveçrə və Avstriya) qeyd edilən yönümündə ya əvvəlki mövqeni saxlamış, ya da daha da irəliyə getmişlər. Son dövrlərdə Almaniya və İsveçrədə yüksək iqtisadi artım nümayiş etdirilir. Fransada da iqtisadi artım yüksəkdir. Böyük Britaniya reytinqinə görə 7-i yerdədir. Eyni vəziyyət Kanada da müşahidə edilir.

downloaded from KitabYurdu.org




***Şəkil 16.1. Qlobal informasiya iqtisadiyyatın indeksinin kateqoriya və göstəricilər sistemi.***

downloaded from KitabYurdu.org

Asiya ölkələrində isə panorama kifayətqədər qarışıqdır. Bəzi ölkələr (Tayvan, İndoneziya) əhəmiyyətli irəliləyişlər nümayiş etdirir, digərləri (Filippin, Sinqapur) əksər göstəricilər üzrə geriləməkdədirlər. Neqativ nəticələrin meydana çıxması əsasən iqtisadi islahatların "davranışı" və siyasi mühitin adekvat olmaması ilə izah olunur.

Mərkəzi Avropanın əksər ölkələrinin, ələlxüsus Macarıstanın, Polşanın və Rusiyanın reytinq göstəriciləri əhəmiyyətli dərəcədə aşağı düşmüşdü.

Latın Amerikası ölkələri isə reytinq cədvəlində ən aşağı pillələri tutmaqdadırlar. Bu ölkələrdə fundamental iqtisadi problemlərin mövcudluğu yeni iqtisadiyyatın formalaşması yönümündə perspektiv investisiya qoyuluşlarını mümkünsüzləşdirir.

İnformasiya iqtisadiyyatının ümumdünya çapında qərarlaşması problemi bu gün kifayətqədər aktuallaşmış problemlər sırasında ön cərgədə dayanmaqdadır. İnkişafın qeyri-bərabərliyi və qlobal assimetrikliklə yanaşı ayrı-ayrı ölkə hökumətlərinin informasiya texnologiyaları sferasında həyata keçirdikləri yaxud keçirmədikləri siyasət gözlənilməz nəticələrlə sonuclana bilər.

Belə ki, bəzi ölkələr qeyd edilən sferada aktiv fəaliyyət göstərməklə informasiya texnologiyalarını inkişafın hərəkətverici qüvvəsinə çevirə, aqrar, yaxud industrial iqtisadi sistemdən yeni – informasiya-iqtisadiyyatına keçə bilərlər. Eyni zamanda, digər qrup ölkələr bu prosesdə ləngiyə və nəticə etibarilə texnoloji planda dünya iqtisadiyyatının əyalətinə çevrilərlər.

Qlobal informasiya iqtisadiyyatına keçidlə bağlı 45 ölkəni əhatə edən araşdırmalar[203] göstərir ki, qlobal informasiya iqtisadiyyatında iştirak etmək imkanları baxımından əhəmiyyətli fərqlər mövcuddur.

Bu qrupa daxil olan 23 ölkə qeyd edilən sferada əhəmiyyətli nailiyyətlər əldə edə bilməsələr (yaxın 3 il ərzində), sonrakı dövrdə daha ağır situasiya ilə rastlaşacaqlar.

Eyni zamanda, yeni keyfiyyət mərhələsinə keçidin qlobal xarakter almadığı şəraitdə hər hansı bir ümumbəşəri səviyyəli effektdən danışmağa belə dəyməz. Ayrı-ayrı ölkələrin informasiya iqtisadiyyatına hazırlıq dərəcəsini müəyyənləşdirməkdən ötrü qarşılıqlı bağlılıqda olan 5 göstəricidən istifadə olunur:

---

[203] Отчет компании McCounell İnternational "Risk E-Business: Seizing the Opportunity of Global E-Readiness, август, 2000г" http://www.mcconellinternational.com /ereadiness/ Ereadiness Report. htm

downloaded from KitabYurdu.org

1. İnternetə çıxış imkanları;
2. İnformasiya iqtisadiyyatına keçidin məqsədyönlü tənzimlənməsi;
3. İnformasiya təhlükəsizliyi;
4. İnsan kapitalı;
5. Elektron kommersiyanın tətbiqi şəraiti.

Araşdırmalar göstərir ki, 42 ölkənin yalnız bir hissəsi informasiyanın yaradılması və yayılması prosesində iştiraka imkan verən infrastruktura malikdir.

25 ölkədə (3.6 mlrd. əhali) rabitə sisteminin əhəmiyyətli dərəcədə modernləşdirilməsinə ehtiyac vardır. 17 ölkədə situasiya nisbətən yaxşı, 11 ölkədə isə daha yaxşı qiymətləndirilir.

Hal-hazırda simsiz internetdən istifadə edənlərin sayı hər ay 8 mln. nəfər (əsasən inkişaf etməkdə olan ölkələrdə) artır.

İnformasiya iqtisadiyyatına keçid idarəolunan prosesdir. Bu anlamda dövlət-özəl sektor cütlüyünün birgə səyləri həlledici rol oynayır. Bu aspektdən həlli vacib olan məsələlər sırasına aşağıdakılar aid edilir:

1. Milli informasiya cəmiyyətinin dövlət prioritetləri sistemində yeri;
2. Dövlət xidmətlərinin avtomatlaşdırılması dərəcəsi;
3. Dövlətlə özəl sektor arasında əməkdaşlıq səviyyəsi;
4. İnternetə çıxışın kütləviləşməsi sahəsində göstərilən səylərin intensivlik dərəcəsi;

Tədqiqatlar göstərir ki, yalnız bir qrup ölkədə (əsasən inkişaf etmiş ölkələrdə) qeyd olunan istiqamətdə əsaslı irəliləyişlərə nail olunmuşdu. Azsaylı ölkələrdə prosesin intensivləşdirilməsi yönümündə sistemli tədbirlər həyata keçirilir. Məsələn, Azərbaycanda "Elektron hökumət" konsepsiyası kifayət qədər böyük sürətlə tətbiq olunmaqdadır.

Digər mühüm məsələ informasiya təhlükəsizliyi məsələsidir. Belə ki:

1. İnformasiyanın yaradılması, saxlanması və yayılması proseslərinin zəif mühafizəsi elektron biznesin həyata keçirilməsində problemli situasiya yaradır;
2. İntellektual mülkiyyətin zəif mühafizəsi proqram təminatı üzrə milli sənayenin inkişafına əngəl törədir;
3. Personal məlumatların lazımı səviyyədə mühafizə olunmaması informasiya mübadiləsinə maneə yaradır;

downloaded from KitabYurdu.org

4. Elektron imzaların qəbulundan imtina yaxud məlumatların kodlaşdırılmasına qadağa qoyulması biznesin yeni üsullarına olan etimada zərbə vurur və s.

Ümumiyyətlə, informasiya təhlükəsizliyinin əsas elementlərinə aşağıdakılar aid edilir:

1. İntellektual mülkiyyətin, ələlxüsus proqram təminatının hüquqi mühafizə dərəcəsi və bu sferadakı tərəqqinin səviyyəsi;
2. Elektron "quldurluğa" qarşı yönəldilən səylərin intensivlik dərəcəsi;
3. Hüquqi sistemin möhkəmliyi və effektivliyi;

Araşdırılan ölkələrin kiçik bir qismi istisna olmaqla, böyük əksəriyyətində qeyd olunan problemlər hələ də öz aktuallığını saxlamaqdadır.

Son 20 il ərzində istehsal resursları zəncirində ("insan resursları – maddi resurslar – maliyyə resursları") ayrı-ayrı halqaların strateji əhəmiyyəti iqtisadi inkişafın məqsəd və vəzifələrindən asılı olaraq dəyişikliyə məruz qalmışdı.

İnformasiya iqtisadiyyatı şəraitində əmək məhsuldarlığının və inkişafın başlıca mənbəyi kimi insan resursları çıxış edir.

*Cədvəl 16.1*

***Dünya ölkələrinin məcmu kapitalında struktur dəyişiklikləri (1913-1998) (%)***

| Kapitalın növü | 1913 | 1950 | 1998 |
|---|---|---|---|
| Fiziki kapital | 67-69 | 52-53 | 31-33 |
| İnsan kapitalı | 31-33 | 47-48 | 67-69 |

İnsan kapitalına aşağıdakılar daxildir:

1. Təhsil sisteminin keyfiyyət səviyyəsi;
2. Yerli yaradıcılıq və cəmiyyətdaxili informasiya mübadiləsinin inkişaf dərəcəsi;
3. İşçi qüvvəsinin ixtisas dərəcəsi və effektivliyi;

downloaded from KitabYurdu.org

Lider ölkələr bir qayda olaraq təhsil sferasına, ələlxüsus texnoloji biliklərin aşılanması yönümündə böyük vəsait sərf edirlər. İnsan kapitalında tərəqqiyə nail olmanın digər yolu effektiv immiqrasiya siyasətinin yeridilməsidir. Bu siyasət konkret ölkə miqyasında effektiv hesab olunsa da, qlobal səviyyədə - nəticə etibarilə gözlənilən yekunla sonuclanmır və s.

Qeyd edilən göstəricilər elektron kommersiyanın inkişafı üçün əsas elementlər keyfiyyətində çıxış edirlər. Bununla yanaşı, göstərmək lazımdır ki, elektron ticarət sadalananların "cəmindən" çoxdur. Bunun üçün əlverişli siyasətlə yanaşı rəqabət mühitinin yaradılması da mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, elektron ticarətin qərarlaşması prosesinin əsas tərkib ünsürləri kimi aşağıdakıları göstərmək olar:

1. Rabitə və informasiya xidməti göstərənlər arasında real məzmunlu rəqabətin mövcudluğu;
2. Maliyyə sisteminin elektron əməliyyatları dəstəkləmək qabiliyyətinin olması;
3. İnformasiya texnologiyaları sferasının xarici investorlar üçün açıq olması;
4. Siyasi və maliyyə sabitliyi, tənzimləmənin şəffaflığı, dövlət xidmətlərinin açıqlığı və biznes sferasında ümumi riskin dərəcəsi.

İnkişaf etmiş ölkələrin əksəriyyəti rəqabətin yüksəlməsi və imkanların genişləndirilməsi məqsədilə milli bazarlarının açıqlıq dərəcəsini yüksəltməyə çalışırlar.

Bununla belə, hələ ki, daxili ziddiyyətlərdən tam şəkildə yaxa qurtarmaq mümkün olmamışdır.

Hal-hazırda, elektron ticarətin inkişafı istiqamətində çoxsaylı tədbirlər həyata keçirilməkdədir. "Elektron kommersiya üzrə qlobal dialoq", "Qlobal internet-layihə" və s. tipli layihələr tətbiq olunmaqdadır. Hətta "böyük səkkizlər" (Böyük Britaniya, Almaniya, İtaliya, Kanada, Rusiya, ABŞ, Fransa, Yaponiya) "İnformasiya imkanları üzrə xüsusi komissiya" yaratmaq haqqında razılaşmaya gəlmişlər.

İnformasiya iqtisadiyyatının qərarlaşmasında müstəsna rol oynayan elektron ticarətin regional bölümdə tətbiqi sferasında əhəmiyyətli fərqlər mövcuddur.

1. Latın Amerikası (Argentina, Braziliya və s.) ölkələrində elektron ticarətin inkişafı baxımından əlverişli imkanlar mövcuddur. Bununla belə, informasiyanın təhlükəsizliyinin təminatı sistemində qeyri-adekvat

downloaded from KitabYurdu.org

dəyişikliklər elektron ticarət üçün etibarlı baza yaratmağa imkan vermir. Eyni zamanda, internetə çıxış ifrat aşağı səviyyədədir və elektron ticarətə maliyyə vəsaitlərinin qoyuluşunda problemlər mövcuddur.

2. Asiya (Hindistan,Çin və s.) ölkələrinin əsas xüsusiyyəti ondan ibarətdir ki, onların bir çoxu 1997-ci il böhranının ağır nəticələrini aradan qaldırmaq istiqamətində elektron ticarətdən bir vasitə kimi istifadə etməyə başlamışdılar. Bununla bahəm, bu regionun informasiya iqtisadiyyatına keçidinə əngəl törədən əsas məsələ informasiya təhlükəsizliyinin adekvat şəkildə təmin oluna bilməməsidir.
3. Mərkəzi və Cənubi Avropa (Türkiyə, Rusiya, İspaniya, Macarıstan və s.) - informasiya iqtisdiyyatına ən yaxın olan regionlardan biridir. Qeyd etmək lazımdır ki, bu ölkələrdə də bir sıra problemlər hələ də öz həllini tapmamışdır: adekvat hüquqi mühit: elektron ticarətin aparılması üçün əlverişli şəraitin yaradılması və s.
4. Yaxın Şərq və Afrika (Qana, Misir, Nigeriya və s.) - informasiya iqtisadiyyatına keçid nöqteyi-nəzərindən ən problematik situasiya məhz bu regionda formalaşmışdı.

### §16.3. İnformasiya iqtisadiyyatı: virtuallaşmanın fəsadları

Virtuallaşma – tamı, bütövü görmə, anlama imkanlarını potensial mümkünlük sferasından reallığa çevirən bir prosesdir. Dünya “kiçilir”, “nöqtələşir”. Dərketmə, araşdırmaların real empirik bazasını toplu halında əldə etmə, qlobal proseslərin təzahür formalarını üzə çıxarma baxımından sözügedən prosesin alternativi yoxdur. Təşkil, tənzimlənmə, idarəetmə sferalarında maksimum effektivliyə nail olma və təbii ki, elmi-tədqiqatlarda sistemliliyin təminatı prizmasından virtuallaşma son dərəcə mühüm əhəmiyyət kəsb edir....

Həm qlobal, həm də regional və milli səviyyələrdə reallığın virtuallaşması prosesinin intensivlik dərəcəsi yüksələn xəttlə getməkdədir. Proses artıq bütün təsəvvür edilən və edilməyən sərhədləri keçməkdə, konkretləşməkdə, konkret varlığın virtuallaşmasını reallığa çevirməkdədir. Yəni, virtual reallıq – virtual varlıq (mahiyyət fərqliliyini

downloaded from KitabYurdu.org

nəzərə almadan) eyniyyəti aktual reallığın təbii "görünüşlü", immanent xassəli törəməsi kimi meydana çıxmaqdadır...

Heç bir şübhə yoxdur ki, "Homo vitualis" (virtual insan) problemi üçüncü minilliyin mərkəzi probleminə çevriləcəkdir.

"Virtual" anlayışı latın mənşəli "virtualis" sözündən yaranıb və "mümkün olan, elə bir şey ki, müəyyən şəraitdə yaranır yaxud yaranmalıdır" anlamındadır. Virtual reallıq fenomeni – bu gün elmin əsas "baş ağrısıdır".

Virtual reallıq şüurlu, dərkedilən şəkildə və məqsədyönlü olaraq yaradılanda artefakta – süni şəkildə formalaşdırılan obyektə çevrilir və spontanlığı itirir. Virual reallıq - əslində yabançı təbiətli reallıqdır. Bu reallıq – həqiqi mövcud olan reallıqdan daha çox azadlığa (məhdudiyyətsiz) malikdir və bəzi hallarda (əsasən iqtisadi sferada ) insan motivasiyasının "bespredeli" kimi xarakteristikaya da sahiblənə bilir. İlğım məzmunluluğu arxasında isə kifayət qədər iddialı bir istək dayanır: real varlıq statusuna sahiblənmək istəyi? Virtual reallığın aydın şəkildə formalaşdırılan məqsədləri var:

1. İstəyin ödənilməsi situasiyasını yaratmaq;
2. Mental itkilərin komnensasiyası;
3. Hipotetik yaxud şərti olaraq aparılan dialoqda məna axtarışı prosesini həyata keçirmək;

Bu, artıq, əgər belə demək caizdirsə, nəzəriyyələşmə anlamına gəlir.

Virtual reallığın mərkəzi problemi surəti yaxud obrazı yaradılan şeylə onun özünün, yəni real mövcud olan şey arasındakı, başqa sözlə obrazın hegemonluğu və şeyin konkretliyi dixotomiyasındakı münasibət problemidir. Başqa sözlə, geridönüşlə hərəkət traektoriyasını dəyişmə istəyi yaxud müxtəlif kalibrli manipulyasiyaların həyata keçirilməsi, əslində yaxşı heç nə vəd etmir. Yaxud, müəyyən çərçivədə əldə edilən "yaxşı" çox qısaömürlü olur və tezliklə özünün əksinə - pisə çevrilir. Belə ki, konkret reallığın sərhədləri və müstəqil mövcudluq imkanında olan konkret varlıq hər hansı bir individual "Mən"in ideal yeniləşmə "istəyinə",onun istədiyini etmə istəyinə tabe deyildir.

Eyni zamanda, virtual reallığın aktual reallıqla identikliyi mövcuddur. Yəni, o məkan, zaman, hərəkət, inkişaf və s.-ni özündə ehtiva edir, həmçinin ideal –artefakt və virtual-spesifik xassələrə malikdir. Amma ... qeyd edilən atributika aktual reallıqla eyni "davranış" xarakterinə malik deyildir. Belə ki, virtual reallıqda məkan-zaman

downloaded from KitabYurdu.org

prosesləri fundamental səciyyəli sabit keyfiyyətlərlə birmənalı olaraq bağlılıqda deyildir. Zaman axıcılığı subyektiv istəkdən asılı olaraq pozula, dayandırıla, gücləndirilə yaxud ləngidilə bilər. Başqa sözlə, keçmişdən indiyə və gələcəyə yönəlik zaman hərəkəti mütləq dəyişmə statusu daşımır. Yəni, prosesin istənilən nöqtəsində geriyə dönüş mümkündür. Qeyd edilən aspekt virtual reallığın anlaşılmaz, qəribə xassələr kəsb etməsini, gerçəklikdə mövcud olan səbəbiyyətlə izahı mümkünsüz olan "hoqqalar" doğurmasını sərtləndirən əsas cəhətdir.

Beləliklə, virtual reallıq ifrat fenomenallıq xarakteristikası daşıyır. Hadisə - onu doğuran səbəblərdən uzaqlaşaraq – mütləq müstəqillik əldə edir və gerçək münasibətlər sistemindən tamamilə fərqli məzmun daşıyan qarşılıqlı təsir və qarşılıqlı əlaqələr kompleksi formalaşdırır. Virtual reallığın polisemantikliyi onda təzahür edir ki, bir tərəfdən şəxsi identiklik problemini gərginləşdirir, digər tərəfdən, onu tam şəkildə aradan qaldırır və şəxsiyyəti obyektiv varlığa qarşı etinasız edir. Bəzi hallarda virtuallığın əsas keyfiyyəti kimi interpretasiyanın üzərində dayanırlar. Məhz bu mövqedən qiymətli kağızlar hesabına sərvət toplamanın mexanizmini anlamaq mümkündür. Məhz sosial fenomenlərin virtuallığı insanın daxili eksistensiyasının ikiliyi, hətta çoxluğu keyfiyyətini doğurmaqdadır.

Virtual reallıq bir-biri ilə keçid münasibətləri olmayan çoxlu sayda ontoloji nöqteyi-nəzərdən müstəqil reallıqların model imitasiyasını yaradır. Fizikada olduğu kimi, sosial fenomenlər və iqtisadiyyat sferasında da virtual "hissəciklər" gerçəklikdə mövcud olan "hissəciklərin" (öz xassələri kompleksi nöqteyi-nəzərindən) analoqları deyildirlər: "... onlar konkret varlıq keyfiyyətinə sahib deyillər, ani olaraq potensial vəziyyətdən çıxış edir və heç vaxt tam şəkildə aktuallaşmırlar"[204] "...Belə varlığın paradoksallığı ondadır ki, "mövcud" olan həqiqətdə yoxdur"[205].

İqtisadiyyatın spesifik xassələrə malikliyi, əsasən konkret və gerçək varlıqlar şəkilində mövcudluğu, sabitlik və dayanıqlılıq keyfiyyətinin vazkeçilməzliyi virtual reallıq adlanan aldanışa aludəçiliyi birmənalı şəkildə rədd edir.

Müəyyən sərhədlərə qədər (bu sərhədlərin maksimumu gerçək varlıqdan uzaqlaşma məsafəsi ilə müəyyənləşir; təəssüf ki, böhranlar

---

[204] Севальников А.Ю. Виртульная рельность и проблемы ее описания // Смирновские чтения – М., 1999.- С 226
[205] Yenə orada, s.227

downloaded from KitabYurdu.org

şəklində) virtual reallığın subyektiv iradəyə tabeçiliyi yaxud belə bir görüntünün yaradılması idarə edən subyektdə - insanda qələbə eyforiyası doğurur. “Gerçəklikdən uzaqlaşma, xəyallar aləminə” daxil olmaqla virtual reallıq rasional yozumu mümkünsüz olan təmayüllər doğurmaqla sanki gerçək bir prosesin inkişafını əks etdirir

Virtuallaşma – fundamental xarakterli paradiqmaları (klassik liberalizm çərçivəsində) yararsızlaşdırmaqda davam edir. Fikrimizcə, problemin əsas mahiyyəti məhz bu aspektlə (bəzilərinin postmodernizm adlandırdıqları reallıqla) bağlıdır. Bazarın hər şeyi əhatə etməsi həm klassik, həm də müasir liberalizm mövqeyindən doğru deyimdir. Lakin, deyimin müasir yozumu klassik yanaşmadan mahiyyətcə əsaslı sürətdə fərqlənir. Belə ki, bazarın tam mütləqləşdirilməsi və bazar qiymətlərinin birja dövriyyəsinə qədərki proseslərin nəzərə alınmadan qoyuluşu əsl həqiqətdə bazar reallığını mifoloji yaranış, xüsusi instansiya (varlığı idarəedən) kimi səciyyələndirir və qeyd edilən yanaşmanın real bazası kimi “virtual qanunauyğunluqlara”??? istinad edilir. Başqa sözlə, anlama müstəvisində antoloji nöqteyi-nəzərdən son dərəcə ciddi dəyişiklik baş verir. Bazar – artıq təsərrüfat prosesinin, yaxud tsiklinin yekunu kimi deyil, səbəbi keyfiyyətində çıxış edir. Digər tərəfdən, məlumdur ki, klassik yanaşmada hər bir şeyin varlığı tələb → təklif münasibətləri sistemində təzahür edir, onunla birbaşa bağlılıqda müəyyənləşir. Müasir yanaşma isə şeyin varlığını tələb → təklif münasibətləri sistemindən tam şəkildə təcrid etməklə, birjanın virtual məkanında kortəbii fasiləsizliklərə daxil edir. Buna görə də, təəccüblü deyildir ki, qeyd edilən şəraitdə “isti pullar”, valyuta əməliyyatları, virtual pullarla (iqtisadi prosesdən təcrid olunmuş formada) aparılan əməliyyatlar prioritet xarakter kəsb etməyə başlayır.

Təsadüfi deyildir ki, yalnız maliyyə kapitalı qlobal şəbəkə təşkilinə malikdir. Əgər nəzərə alsaq ki, dünya maliyyə bazarının strukturunda dövriyyədə olan vəsaitlərdə “isti pulların” xüsusi çəkisi 90%-dir (möhtəkir əməliyyatları ilə əlaqədar), onda qlobal elektron şəbəkənin “sərvətyaratma”da əhəmiyyətli rolu üzə çıxacaqdır.[206]

1980-1999-cu illər arasında dünya maliyyə bazarlarının kapitallaşması 2 trln. dollardan 20 trln. dollara qədər artmışdır. Hələ o dövrdə mütəxəssislər hesab edirdilər ki, yeni informasiya texnologiyaları növbəti 8-10 il ərzində kapitallaşma dərəcəsini 10 dəfə (200 trln.dol)

---

[206] Погорлецкий А.И. Экономика зарубежных стран. СПБ., 2000.- С.47

downloaded from KitabYurdu.org

artıracaqdır.[207] Əslində isə bu artım 30 dəfə olmuş, qeyd edilən göstərici 600 trln. dol. (2008-ci il) təşkil etmişdi ki, bu da Qlobal Məcmu Məhsuldan (60 trln.dol.) 10 dəfə çoxdur.Əslində, sərvətyaratma modelinin mahiyyətində kardinal dəyişikliklər baş verir. Əmək – artıq sərvətin başlıca mənbəyi deyil yaxud əvvəlki zirvəni tərketmək məcburiyyətindədir.

Daha konkret şəkildə ifadə etsək, bu o deməkdir ki, reallıq, sözün həqiqi mənasında virtuallaşır. Yəni, real mallar bazarından xalis maliyyə "burulğanına", virtual iqtisadiyyata keçid baş verir. Beləliklə, kapitalın xalis hərəkəti real məzmunlu iqtisadi proses "statusu" alır, maliyyə sferası reallığın digər aspektlərindən "təmizlənmiş" formada avtonomlaşır. Nəticədə, qlobal iqtisadi sistemin mahiyyətində qeyri-müəyyənliyin hökmran mövqelərə yiyələnməsinə istinadla güclü keyfiyyət dəyişikliyi baş verir. Artıq problemin ağırlıq mərkəzi tələb və təklifin tarazlı dinamikası üzərinə deyil, fond birjalarının, fyüçers axınlarının təşkili və idarəedilməsi üzərinə düşür, real sektor və ənənəvi ticarət iqtisadiyyatın periferiyasına sıxışdırılır. Eyni zamanda, sadalananlar avtonom status əldə etməklə özü-özünün ölçü vahidi kimi çıxış edir və mərkəzi məsələyə çevrilir.Birja tsikllərində kapitalın xalis hərəkəti artan sürətlə getməklə elə yüksək səviyyələrə çatır ki, onun müqabilində iqtisadiyyatın digər, həm də sırf real məzmunlu sferaları elə bir əhəmiyyət kəsb etmirlər.

Problemi kifayət qədər qəlizləşdirən və təcrübənin də göstərdiyi kimi, böhrana gətirib çıxaran digər cəhət qiymətlərlə bağlıdır. Məsələ burasındadır ki, birja qiymətləri – klassik yanaşmanın iddia etdiyi kimi – artıq stoxastik xarakterli mutasiyaya məruz qalmır və onun müəyyənləndirilməsində tələb - təklif münasibətləri iştirak etmirlər.

Belə ki, birja qiymətləri – özünün xüsusi tətbiqi məntiqinə istinadla konkret sərhədləri və yolu olan trayektoriya boyunca hərəkət edirlər.

Qiymətlər virtual məkanın immanent qanunları əsasında formalaşır və trendlə dəyişirlər. Beləliklə, bazar qiymətlərinin dinamikası sözügedən trendlər sistemində müstəqil prosesə çevrilir, mal və axınların faktiki reallığından asılı olmurlar. Trendlərin müstəqilliyi dünyanın bu gün üzləşdiyi əsas problemlərdən birinin yaranmasında müstəsna rol oynamışdır. Belə ki, bazar obyektlərinin fiktivliyi şəraitində də qiymət trendlərinin real şəkildə mövcudluğuna xələl gəlmir. Maraqlıdır ki, təsvir

---

[207] Минс Г. Шнайдер Д. Метакапитализм и революция в электронном бизнесе: какими будут компании и рынки в XXI веке/ Пер. сангл. М., 2001.- С.25

downloaded from KitabYurdu.org

etdiyimiz situasiyanı bəziləri "maliyyə əlkimyası", "bazar cadugərliyi" və s. epitetlərlə səciyyələndirsələr də, digərləri bu proseslərdə postmodernizm ruhu görürlər.

Sivilizasiyanın fundamental mutasiyası kimi çıxış edən postmodermizmin, əgər həqiqətən mövcuddursa, qlobal iqtisadi inkişafı qeyri-müəyyənlik labirintinə sürükləməsindən, dayanıqsızlıq və etibarsızlıq sindromlarını yaratmadan özgə nəyə isə gətirib çıxaracağı böyük sual altındadır.

Konkret kəmiyyət ölçüsü və konkret təyinatı olan iqtisadi varlıqların virtuallaşması - əsasən pul və onunla bağlı olan sferada – qeyri-müəyyənliyin əhatə dairəsini ifrat dərəcədə genişləndirməklə (həm də, tam süni olaraq) sistemin entropiyasını maksimum həddə çatır və ilkin olaraq, "titrətmə", sonraki proseslərdə isə böhranla yekunlaşır. Virtual pullar - əslində qlobal iqtisadi gerçəkliyin qan-damar sisteminin trombositidir – virtual pullara aludəçiliyi minimal səviyyədə olan ölkələr – təcrübə göstərdiyi kimi – "varikoz genişlənmə" ilə böhrandan yaxa qurtara bilirlər.

Ümumiyyətlə, müasir sivilizasiyanın daha çox abstrakt görünüşə və dərketmə çətinliyinə malik olan institutlarına münasibətdə inamsızlıq özünün ifrat sonluğuna qədər uzanmaqdadır. Qlobal səviyyədə nəinsə, deyək ki, pulun və onun əsasında formalaşan maliyyə institutları şəbəkəsinin real işləmə mexanizminin kənar gözlərdən "gizlədilməsi", məxfilik libasına bürünməsi planetar miqyasda spontan qaydanın həqiqi "spontanlıq" xassəsi daşıdığını böyük şübhə altına alır.

Pul münasibətləri – iqtisadi müstəvidə ağıla gələn və gəlməyən əksər abstraksiyaların əsas mənbəyidir. Fon Xayek yazır ki, əvvəllər ".... sənətkarlardan qorxurdular, ona görə ki, onlar maddi substansiyanın dəyişilməsi ilə məşğul olurdular. Sonralar ticarətçilərdən qorxmağa başladılar – dəyəri dəyişdirdiklərinə görə; indi isə insanlar bankirlərdən hansısa dərəcədə qorxmalıdırlar - ən abstrakt şeylə dəyişikliklərə baş vurduqlarına görə".[208]

İqtisadi fəaliyyətin təməl prinsiplərindən biri, hətta bəzi şərtlərin mövcudluğu şəraitində birincisi olan azadlığın mövcudluğu pul münasibətlərinin "neçəliyindən" birbaşa asılılıqdadır. Pul münasibətləri real məzmunlu azadlıqdan real məzmunlu əsarətə, istismara qədər çox geniş diapazonu əhatə edən mental yaranışdır. Onun qeyd edilən qütblər arasında davranış tərzi və dəyişmə tezliyi (məzmunca) konkretliyin

---

[208] Ф.А.Хайек. Пагубная самонадеянность. М; 1999.- С 110

downloaded from KitabYurdu.org

ertələnməsinə, yəni "mənasızlaşmasına" və anlaşılmaz abstraksiyaların dominant mövqelərə keçməsinə səbəb olur. Beləliklə, planetar bütövü, tamı olduğu kimi görmək, müşahidə etmək imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Yəni, bizim bir ölkə kimi milli mənafelərimizə birbaşa təsir göstərmək iqtidarında olan qlobal TAMın real mahiyyəti və məzmununu deyil, yalnız bəzi xassələrinin aşkarlanması imkanını əldə edirik. Başqa sözlə, qlobal iqtisadi inkişaf strategiyasını formalaşdıranlar həm bu mərhələdə, həm də strategiyanın tətbiqi dövründə gerçəkliyə adekvat olmayan, həqiqətə bənzər yanılmalardan "yoğrulmuş" "nağıllarla" dünyanı yola verməyə çalışırlar. Məhz elə bu prizmadan pulun virtuallaşması aktual reallıq məzmunu kəsb edir və real pul münasibətlərinin doğurduğu neqativlərin nəinki əhatə dövrəsini ifrat dərəcədə genişləndirir – qloballaşdırır, həmçinin həmin fəsadlara "təbiilik" görüntüsü verir. **Çox maraqlı bir paradoks alınır: real olmayan şey tamamilə real məzmunlu fəsad doğurur.** Reallığın sərhədlərini müəyyənləşdirmək, onun haradan başlanıb harada qurtardığını, prosesin hansı mərhələsində (yaxud, nöqtəsində) pulun adi "kağıza" çevrildiyini, yəni virtuallaşdığını birmənalı olaraq barmaqla göstərmək mümkün deyildir. Bir tərəfdən, əsas və törəmə maliyyə bazarlarının öz aralarında, digər tərəfdən maliyyə bazarları ilə digər bazarlar arasında birbaşa və əks-əlaqə o qədər sıxdır ki, qarşılıqlı keçidin rəvanlığını adi gözlə müşahidə etmək olar.

Neoliberal modelin sərgilədiyi əlverişli şərait və virtuallaşma pul sferasının fəaliyyət mexanizmini adekvat nəzəri interpretasiya ilə əhatə etməyə imkan vermir. Formalaşan qlobal situasiyanın ifrat mürəkkəb konstruksiyaya malikliyi elmi-tədqiqatları spontan qaydada təşəkkül tapan abstrakt sxemlərdən ibarət təsvirçilik çərçivəsinə salır. Düzdür, qeyd edilən təsvirçilik yaranmış yeni mahiyyətin ən ümumi konturları aspektində izahına imkan versə də, hər hansı bir konkret məzmunlu son nəticənin (öngörmə prizmasından) ortalığa qoyulmasını prinsipcə mümkünsüzləşdirir.

Neoliberal model onsuz da maliyyə sferasını geniş təkrar istehsal prosesindən ayırıb, əlahiddələşdiribdir. Qeyd edilən əlahiddələşmə öz-özlüyündə böhrana aparan, makrosabitliyi birbaşa təhdid edən böyük bir problemdir. Hələ bu azmış kimi, bir tərəfdən də maliyyə vəsaitlərinin virtuallaşması sürətlə getməkdədir. Əslində, iqtisadi inkişafın daxili məntiqindən çıxış etsək, "əlahiddələşən", sistemdən ayrılaraq müstəqil mahiyyət yaradan istənilən şey ya geriyə, çıxdığı yerə qayıtmalı, ya da virtuallaşmalıdır. Üçüncü yol, sadəcə olaraq, yoxdur.

downloaded from KitabYurdu.org

Digər tərəfdən, virtual pulların ümummilli mənafelərə təsiri qeyri-qanuni yollarla (narkotik, silah ticarəti və s.) əldə edilən və elə həmin üsulla da iqtisadi dövriyyəyə qatılan pullar qədər təhlükəli və zərərlidir. Bu mənada, qiymətli kağızlar bazarının inkişaf trayektoriyası qlobal səviyyədə qərarlaşmış üsul və metodlardan fərqli formada həyata keçirilməli, konkret məhdudiyyətlər sistemi (real situasiyanın dəyişmə tezliyindən asılı olaraq) tətbiq olunmalıdır. Araşdırmalar göstərir ki, hər hansı bir iqtisadi subyektin bazar kapitallaşması prosesinin konkret nisbətlər formasında, yəni – ortaillik mənfəət, rentabellik dərəcəsi ilə buraxılması nəzərdə tutulan səhmlərin (yaxud digər qiymətli kağızların) məcmu dəyəri arasında düzgün,şişirdilməyən mütənasibliyin qurulması formasında aparıla bilər. Eləcə də, törəmə maliyyə bazarlarının formalaşmasında da analoji yanaşmadan yararlanmaq məqsədəuyğun olardı.

downloaded from KitabYurdu.org

# VII BÖLMƏ

# SON SÖZ ƏVƏZİ

## XVII fəsil. Dünya iqtisadiyyatı perspektiv planda

### §17.1. Dünya iqtisadiyyatının inkişaf proqnozu

Dünya iqtisadiyyatının inkişaf təmayülləri istifadə edilən modelin metodoloji xarakteristikasından asılı olaraq müxtəlif variantlarda qiymətləndirilə bilər. Aydındır ki, dünya iqtisadiyyatı hansısa bir əlahiddələşmiş, mütləq mahiyyət daşıyan konsept deyildir. O, coğrafiyadan, ekologiyadan, sosial-etik münasibətlər sistemindən, geosiyasi mühitin xarakteristikasından və s. funksional asılıqdadır. Eyni zamanda, o da aydındır ki, qeyd edilən çoxluğun olduğu kimi tədqiqat prosesinə cəlb edilməsi, ifrat konkretləşdirmə mövqeyindən çıxış edilməsi, yəni elmi abstraksiyanın prosesdən sərf-nəzər edilməsi bugün dövriyyədə olan metodoloji arsenalın kasadlığı ucbatından mümkünsüz görünür. Buna görə də, qiymətləndirmənin ən geniş yayılmış forması proses və hadisələrin dəyər terminlərindən yararlanmaqla – pul ifadəsində həyata keçirilməsi variantıdır. Bu aspektdən qiymətləndirmənin əsas göstəriciləri kimi Qlobal Məcmu Məhsul, sənaye istehsalı, dünya ticarəti, həyat səviyyəsi göstəriciləri, eləcə də digər sosial-iqtisadi indikatorlar çıxış edirlər.

Dünya iqtisadiyyatının yeni düzənə keçidi ərəfəsindən (1997-ci il) başlayaraq 2006-ci ilə qədər olan dövrdə Qlobal Məcmu Məhsulun dinamik artımı baş vermiş və bu artımda əsas yeri əsasən inkşaf etmiş ölkələr: ABŞ, Avropa İttifaqı və Yaponiya, qismən Çin titmuşlar (cədvəl 17.1).

downloaded from KitabYurdu.org

*Cədvəl 17.1*

***Qlobal Məcmu Məhsulun artım dinamikası (əvvəlki ilə nisbətən - %-lə)***

| *İllər* | *QMM* | *ABŞ-ın ÜDM (%)* | *Avrozona-nın ÜDM (%)* | *Almaniya-nın ÜDM(%)* | *Böyük Britaniyanın ÜDM (%)* | *Yaponiyanın ÜDM (%)* | *Çinin ÜDM (%)* |
|---|---|---|---|---|---|---|---|
| 1997 | 4.2 | 4.5 | 2.3 | 1.4 | 3.3 | 0.6 | 8.1 |
| 1998 | 2.9 | 4.2 | 2.9 | 2.0 | 3.1 | -1.0 | 7.8 |
| 1999 | 3.7 | 4.4 | 2.8 | 2.0 | 2.9 | 0.9 | 7.2 |
| 2000 | 4.5 | 3.7 | 3.5 | 2.9 | 3.9 | 2.9 | 8.0 |
| 2001 | 2.2 | 0.8 | 1.6 | 0.8 | 2.3 | -1.2 | 7.3 |
| 2002 | 2.4 | 1.6 | 0.9 | 0.2 | 1.8 | 0.1 | 7.5 |
| 2003 | 2.9 | 2.5 | 0.8 | -0.1 | 2.2 | 1.8 | 7.5 |
| 2004 | 2.5 | 3.9 | 1.7 | 1.6 | 3.2 | 2.3 | 8.5 |
| 2005 | 3.2 | 3.2 | 1.5 | 0.9 | 1.8 | 2.6 | 8.0 |
| 2006 | 3.2 | 3.3 | 2.6 | 2.4 | 2.6 | 2.7 | 10.6 |

Qlobal Məcmu Məhsulda ən yüksək xüsusi çəkiyə ABŞ sahibdir – 21.69%, o cümlədən Aİ -21.4%, Çin – 12%, Yaponiya 7.0%, Hindistan – 6.0%! MDB ölkələri Baltikyanı dövlətlərlə birlikdə QMM-in 5%-nə sahibdirlər.

Dünya Bankının apardığı proqnoz hesablamalarına görə yaxın 25 il ərzində inkişaf etməkdə olan ölkələr inkişafın əsas hərəkətverici qüvvəsinə çevriləcəklər. Məhz inkişaf etməkdə olan ölkələrin sürətli inkişaf tempi 2030-cu ildə QMM-in iki dəfə artmasına səbəb olacaqdır. 2030-cu ildə QMM-in mütləq həcmi 72 trln. dollara çatacaq ki, bu artımda da inkişaf etməkdə olan ölkələrin xüsusi çəkisi 38%-dən çox olacaqdır. Eyni zamanda, QMM-də sözügedən ölkələr qrupunun xüsusi çəkisi 22%-dən 31%-ə qədər yüksələcəkdir. Həmçinin, ayrı-ayrı ölkələrin inkişaf səviyyələri arasındakı uçurum tədricən aradan qalxacaqdır. Yəni, Asiya, Şərqi Avropa ölkələri (ilk növbədə) inkişaf səviyyələrinə görə inkişaf etmiş ölkələrə yaxınlaşacaqlar. Çində, Meksikada və Türkiyədə adambaşına ÜDM istehsalı bugünkü İspaniya səviyyəsinə (15000 dol.) çatacaqdır. Dünyada yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşəcəkdir. Dünya əhalisinin sayı 6.5 mlrd nəfərdən 8 mlrd. nəfərə qədər artsa da (artımın 97%-i inkişaf etməkdə olan ölkələrin payına düşür), gündəlik gəliri bir dollardan az olan insanların sayı (1.1mlrd. nəfər) iki dəfə azalacaqdır. İnkişaf etməkdə olan ölkələrdə illik 4000-17000 dollara

downloaded from KitabYurdu.org

qədər gəliri olan insanların sayı (400 mln nəfər) 3 dəfə artaraq dünya əhalisinin 15%-ni təşkil edəcəkdir.

Dünya ticarətinin həcmi iki dəfə artaraq 27 trln. dollara çatacaq, ticarətin QMM-də xüsusi çəkisi 25%-dən 30%-ə qədər yüksələcəkdir.

Bu artımın 50%-dən çoxu inkişaf etməkdə olan ölkələrin payına düşəcəkdir. 25 il əvvəl sözügedən ölkələr qrupunun emal sənayesi məmulatlarının idxalatında xüsusi çəkisi 14% təşkil etdiyi halda, bugün həmin göstərici 40%, 2030-cu ildə isə 65%-ə çatacaqdır.

Digər proqnoz variantına görə Braziliya, Hindistan, Çin və Rusiya 2035-ci ildə 6 ən inkişaf etmiş ölkələri (ABŞ, Almaniya, Yaponiya, Fransa, Böyük Britaniya, İtaliya) ötüb keçəcəklər.

Başqa sözlə, dünyada yeni güc mərkəzi formalaşacağı gözlənilir. Son 30 il ərzində Çinin iqtisadi potensialı 15 dəfə, xarici ticarət dövriyyəsi isə 100 dəfə artmışdır. Proqnozlara görə 2020-ci ildə Çinin QMM-də xüsusi çəkisi 23%-ə çatacaq, (ABŞ-18%).

## §17.2. Dünya iqtisadiyyatı: paradiqmal yeniləşmə zəruriliyi

Adəm peyğəmbərdən tutmuş müasir dövrə qədər dünyanın rasional idarəedilməsi problemi problem olaraq qalmaqdadır.

Bütövlükdə qlobal səviyyəni əhatə edə biləcək universumun yoxluğu (oxu: mümkünsüzlüyü) hadisə və proseslərin interpretasiyasında ifrat müxtəliflik doğurmaqla, onsuz da kifayət qədər problematik olan qlobal situasiyanı daha da mürəkkəbləşdirir. Sanki, dünya keçmişini unudub və gələcəyinin necə olacağını bilmir yaxud qlobal səviyyədə klassik xaos situasiyası formalaşmışdır.

İqtisadi proseslərdə və ümumiyyətlə, inkişafın dayanıqlılığı aspektində mühüm rol oynayan ətalətlilik – miqyas genişlənməsi və ümumdünya səviyyəsinə çıxışla daha da çox "ətalətlilik" doğurur ki, bu da bəzi tədqiqatçıların optimizmini əsaslandıran başlıca amil kimi çıxış edir. Ətalətlilik – "fəlakətin" sovuşması deyil, əksinə onun daha da dərin qatlara işləməsi üçün müəyyən zaman sırası ortalığa çıxaran bir konseptdir. Ətalətlilik – dayanıqlılığın əlverişli fonu rolunda o vaxt çıxış edə bilər ki, qlobal inkişaf paradiqması yanılmalardan "təmizlənsin", real gerçəkliklə gələcəkdə əsaslandırılmış arzuedilən arasında optimal uyğunluğa söykənsin...

İndustrial cəmiyyətin formalaşmağa başladığı və real bazar münasibətlərinin qərarlaşdığı son 150 il ərzində dünyada 20-ə yaxın

downloaded from KitabYurdu.org

iqtisadi böhran baş vermişdi. Bu və ya digər dərəcədə planetar xarakter daşıyan böhranların sırasında aşağıdakılar dağıdıcı təsir gücünə görə fərqlənmişlər:

1. 1857-ci il böhranı: ABŞ-ın fond bazarında başlamış və çox tezliklə bütün Avropaya yayılmışdır.
2. 1873-cü il beynəlxalq maliyyə böhranı: Avstriya və Almaniyadan başlamış (daşınmaz əmlak bazarındakı möhtəkir əməliyyatlarının artması ilə) ABŞ və Latın Amerikası ölkələrini də əhatə etməklə böyük itkilərə səbəb olmuşdu:
3. 1914-cü il Beynəlxalq maliyyə böhranı: I Dünya müharibəsi ilə bağlı ABŞ, Böyük Britaniya, Fransa və Almaniya hərbi xərcləri maliyyələşdirmək məqsədi ilə qiymətli kağızların (xarici emitentlərə) kütləvi satışını həyata keçirməyə başlamışlar ki, bu da bütün bazarların (əmtəə və pul) fiaskosu ilə nəticələnmişdir.
4. 1929-33-cü illərin Böyük depressiyası; Nyu-York fond birjasından başlayan böhranın bütövlükdə dünya iqtisadiyyatına vurduğu zərərin həcminə görə bəşər tarixində analoqu yoxdur.
5. 1957-ci il iqtisadi böhranı: ABŞ. Böyük Britaniya, Kanada, Belçika, Hollandiya və bir sıra digər inkişaf etmiş ölkələri əhatə edirdi.
6. 1973-cü il iqtisadi böhranı: ABŞ-dan başlamaqla dağıdıcı təsirinə görə 1957-il böhranını xeyli geridə qoymuşdu.
7. 1987-ci il böhranı – "Qara birinci gün": ABŞ başda olmaqla əsasən inkişaf etmiş ölkələri əhatə etmişdir.
8. 1994-95-ci illər Meksika böhranı: kapitalın ölkədən "qaçışı" ilə başlamış, yekunda bank sisteminin böhranı xarakterini almışdı.
9. 1997-ci il Asiya böhranı: Fond bazarının süqutu nəticəsində başlamış. QMM-un 2 trln. dollar azalmasına səbəb olmuşdu.
10. 1998-ci il Rusiya böhranı: Rusiya iqtisadiyyatına və bir sıra region ölkələrinə böyük zərər vurmuşdu.

Məhz bu böhrandan sonra mütəxəssislər növbəti qlobal böhranın 2007-2008-ci illərdə baş verəcəyini proqnozlaşdırırdılar. Elə də oldu....

Əslində, bu gün dünya seçim qarşısındadır. Sadə şəkildə ifadə etsək, söhbət "ya-ya" tipli seçimdən gedir. Ya anqlosakson modellə mahiyyət uyğunluğu çərçivəsində "fəlakətlə" mübarizə aparılmalıdır, ya

downloaded from KitabYurdu.org

da dünyanın yeni iqtisadi düzənə keçməsinə imkan verə biləcək fərqli inkişaf paradiqması formalaşdırılmalıdır.

### § 17.2.1. Böhran niyə baş verdi?

Beləliklə, qlobal maliyyə böhranı niyə baş verdi? Yaxud gözlənilən idimi? suallarına cavab verməzdən əvvəl çox maraqlı bir tarixi analogiya aparmaq məqsədəuyğun olardı.

Belə ki, 1929-cu ildə ABŞ-dan başlayan qlobal iqtisadi böhranla müasir maliyyə böhranı arasında çox qəribə bir oxşarlıq mövcuddur. Məlumdur ki, real məzmunlu bazarın formalaşdığı dövrdən XX əsrin 30-cu illərinə qədər planetar səviyyəli iqtisadi proseslər "piramida" quruculuğu formasında getmişdir. Yəni real sektorun, əsas kapitalın təmərgüzləşməsi və mərkəzləşməsi prosesi formasında o dövr üçün yeganə düzgün gediş hesab edilə biləcək bir iqtisadi məcmuluq şəklində ortaya çıxmışdır. Söhbət "sənaye inqilabı dövrü" adlandırdığımız tarixi inkişaf mərhələsində formalaşmış iqtisadi sistemin əsas dəyişənlərindən gedir. Həmin dövrdə problemin (İnkişaf probleminin) konseptual qoyuluşu aşağıdakı məntiqi yanaşmaları özündə ehtiva edirdi:

- Əsas olan standartlaşdırılmış kütləvi istehsaldır.
- Məhsulun realizasiyası problem deyil. Təklif spontan şəkildə tələb doğurur. Yəni, marketoloqların ifadə etdiyi kimi, "satıcı bazarı" hökmrandır.
- Maliyyə - real sektorun xidmətçisidir və bundan kənarda "fəaliyyət" göstərə bilməz.

Aydındır ki, qeyd etdiyimiz yanaşma geniş təkrar istehsal prosesinin tamlığını, bütövlüyünü pozmaqla inkişafın sistemli xarakterinə ciddi zərbə vurur və kəskin fəsadların meydana çıxmasına yol açırdı. Məhz buna görə də 1929-1933-cü illər ərzində "piramida" quruculuğu prosesi özünün fiziki sərhədlərinə çatmaqla ömrünü başa vurdu. Məhz o böhrandan sonra dünya yalnış yolda olduğunu, yalnız real sektora "güvənməklə" və əsas diqqəti onun üzərində cəmləməklə inkişafın nizamlı gedişinə nail ola bilməyəcəyini başa düşdü və yenidən sistemlilik problemi ön plana çıxarıldı. Lakin ifrat kənar elmi mövqelərin mübarizəsi kimi yadda qalan bu tarixi inkişaf mərhələsində də qlobal miqyası əhatə edə biləcək, bir növ "ümumi resept" məzmunlu yanaşma tərzi ortalığa qoyulmamışdır. 1980-ci illərdən etibarən dünyanı yeni düzənə "sürükləyən" son dərəcə təhlükəli meyil və təmayüllər meydana çıxmağa başladı. Bütövlükdə

downloaded from KitabYurdu.org

bəşəri təhlükə doğuran meyillər sırasında geniş təkrar istehsal prosesinin sistemliliyi və tamlılığının yenidən pozulması əlahiddə yer tutur. Bu mənada, müasir dünya 1929-1933-cü illərin "piramidasının" astar üzü ilə qarşılaşmışdır.

Maliyyə sferasının əlahiddələşməsi, "özündə şeyə" çevrilməsi, real sektorla birbaşa bağlılığı olmayan güclü pul axınlarının meydana çıxması, törəmə maliyyə bazarlarının görünməmiş yüksəlişi neoliberal modellə qloballaşmaya doğru gedən dünya iqtisadiyyatında tamamilə yeni, əvvəlki dövrlərdən mahiyyətcə fərqlənən "oyun qaydalarının" formalaşmasına gətirib çıxardı. Artıq 2001-ci ildən dünya yeni düzənə qədəm qoydu. Başqa sözlə, son 20 illik (1980-2001) dövr geniş təkrar istehsal prosesinin kəskin disproporsiyalarının, kəskin fəsadların meydana çıxdığı dövr kimi səciyyələndirilə bilər.

Əslində, problemin qoyuluşu çox sadədir. "İqtisadi proses" dediyimiz şey (maliyyə də iqtisadi prosesdir) fasiləsizdir. İqtisadi proses heç vaxt, nə əvvəlki dövrlərdə, nə də indi ayrı-ayrı indilərdən, ayrı-ayrı keçmişlərdən və ayrı-ayrı gələcəklərdən ibarət olmayıb. Keçmiş, indi və gələcək həm funksional, həm determinoloji baxımdan vəhdətdə olub. Elə buradaca qeyd etmək lazımdır ki, iqtisadi zaman fiziki zamanla heç vaxt üst-üstə düşməyib. İqtisadi prosesin tsiklik xarakteri var. Bu gün başlanan prosesin hansı effekt verəcəyini bir ildən sonra qiymətləndirəcəyik deyimi abstraksiyadan başqa bir şey deyildir. Yalnız tsikl başa çatdıqdan sonra məlum olacaq ki, başlanan prosesin real effekti hansı həcmdə olub. Tsikl başa çatmamış bu fikri yürütmək mümkün deyildir.

Bəri başdan qeyd edək ki, iqtisad elmi öz mahiyyətinə adekvat olan reaksiya sərgiləməkdə, yəni hadisələrin arxasınca "sürünməkdə" davam etməkdədir. Bununla belə, yenə də, yəni artıq tarixə çevrilmiş hadisənin (baxmayaraq ki, hələ də davam edir) səbəbiyyət probleminə yanaşmada vahid mövqe müşahidə olunmur.

Müxtəlif tədqiqatçılar müxtəlif səbəblərdən danışırlar:

1. Böhran "təbii" prosesdir.
2. Əsas problem maliyyə sferasında yeni arxitekturanın qurulması ilə bağlıdır.
3. Problemə sistemli yanaşılmalı, nəinki iqtisadiyyatın sahə və sferaları, eləcə də bütövlükdə ictimai həyatın əksər "dəyişənləri" nəzərə alınmalıdır:

downloaded from KitabYurdu.org

4. Böhranın ümumdünya səviyyəsi almasının əsas “günahkarı” qloballaşma prosesidir.
5. Subyekt aspektinin (məs: ABŞ) həlledici rola malikliyi və s.

AFR-in dövlət kansleri A.Merkel əsas səbəbin Qərb ölkələrinin “yorğana” görə ayaqlarını uzatmamasında, qazandıqlarından çox xərcləmələrində görür.

Ədalət naminə qeyd edək ki, sadalanan yanaşmalar içərisində həqiqət payı olanlar az deyildir. Eyni zamanda, səbəbiyyət açıqlanmasının yalnız empirik səviyyədə əldə edilən faktlara əsaslanmaqla həyata keçirilməsi, eyni zamanda hissəvi yanaşmaların üstünlük təşkil etməsi qəbuledilməzdir.

Böhranın səbəbləri ilə bağlı yanaşma tərzlərini konseptual aspektdə qiymətləndirmək fikrindən uzağıq. Sadəcə olaraq, bəzi məqamlara diqqət çəkməyi məqsədəuyğun hesab edirik. Beləliklə, beynəlxalaq hesablaşmalar Bankının (Bazel) qiymətləndirməsinə görə derivativlərdən ( törəmə maliyyə instrumentləri) formalaşan spekulyativ maliyyə “köpüyü”nün nominal dəyəri 600 trln. dollar (Qlobal məcmu məhsul – 60 trln.dol), ortaillik artım tempi isə 25% təşkil etmişdir.

Bu gün isə qlobal iqtisadi fikir “köpüyün” tsikllərindən, onun işgüzar tsikllərlə müqayisəsindən bəhs edir. Bu aspektdən yanaşmalar da müxtəlifdir:

- Tələbin dəstəklənməsi və artıma dönüş həyati əhəmiyyət kəsb edir. Yeni bir kredit “köpüyü” şişirtməyə ehtiyac yoxdur;
- Əgər elə indicə partlayan “köpük” fayda vermədisə, onda daha birini yaratmaq lazımdır və s.

Tədqiqatçıların müəyyən bir qrupu əmindir ki, problem birmənalı olaraq ABŞ-dan qaynaqlanır: ABŞ iqtisadiyyatı yeni maliyyə “köpükləri”olmasa dağılar. Qeyd edilən baxışlarda maraqlı məqamlardan biri qloballaşma ilə bağlı olan və onu da böhran kimi “təbii” proses adlandıranların yanaşma tərzidir.

Belə ki, qloballaşmanı ümumbəşəri tarixi prosesin məntiqi nəticəsi kimi qəbul edir, qaçılmazlıq, labüdlük terminləri ilə şərh etməyə çalışırlar. Tarixi proses öz-özlüyündə məna yükü daşımır. Bu “yük” kənardan, yəni prosesin daxili təbiətindən deyil, sosiallaşan, siyasiləşən və iqtisadiləşən zəmanənin prosesə daxil etdiyi anlamdır. Yəni, “yabanci” təbiətlidir – tarixi prosesin özünə münasibətdə.

Qeyd edilən anlamda prosesin subyektiv mahiyyətli ilkin başlanğıca istinad etdiyi şübhəsizdir. Digər tərəfdən, prosesə yanaşmada

downloaded from KitabYurdu.org

fərqli çıxış nöqtələrinin olduğunu görməmək mümkünsüzdür: Dünya qloballaşır, yoxsa qloballaşdırılır? Yaxud, Afrikanın, ələlxüsus Saxaradan cənubda yerləşən ölkələrin neçəsi bu prosesin sərhədləri daxilindədir? Bu mənada, qloballaşma – assimmetrikdir. O, dayana və qəfil sürətlənə bilər. Həmçinin, ümumiyyətlə hansısa bir ölkəyə münasibətdə "kənardan" keçmə imkanları da mövcuddur.

Deməli, qloballaşma – terminin etimologiyası baxımından ikili təzahürə malikdir: 1. Dünya ölkələrinin əksəriyyətini əhatə etmir. Bu anlamda, ümumdünya səciyyəsi daşıması şübhəli məsələdir. 2. Əsasən iqtisadi dövriyyənin həcmindən çıxış edir. Yəni, 50-60[209] ölkənin Qlobal Məcmu Məhsulun 95%-dən çoxuna sahib olması və məhz bu aspektdən qloballaşmanın gerçəkliyi haqqında birmənalı fikirlərin ortalığa qoyulmasını şərtləndirir.

Qlobal böhranın məhz göstərilən sayda ölkələrə sürətli yayılışının əsas səbəbi isə qloballaşmanın "sıfır" zaman sürəti doğurması ilə bağlıdır.

Əvvəlki araşdırmalarımıza istinadla biz belə bir qənaətdəyik ki, qlobal səviyyədə vahid məqsəd, yaxud məqsəd birliyi yoxdur (iqtisadi inkişafa münasibətdə) və ola da bilməz! Məqsəd birliyi yoxdursa, deməli seçilən hədəflər də müxtəlif məzmunlu olacaqdır. Hər bir ölkənin inkişaf səviyyəsi və mental xüsusiyyətləri ilə determinə olunmuş inkişaf yolu mövcuddur. Vahid reseptdən danışmaq mümkünsüzdür.

Beləliklə, neoliberal modelə söykənən qloballaşma prosesi, daha çox qloballaşdırma keyfiyyəti əxz etməklə müasir gerçəkliyin ən mürəkkəb paradoksunu doğurur:

**"İqtisadi prosesin homogenliyi → məqsəd müxtəlifliyi" paradoksu**

Bir az qabağa qaçaraq qeyd edək ki, təkçə bu paradoksun mövcudluğu anqlosakson modelli, yəni bugünkü qloballaşmaya "biət" edilməsinin labüd olmadığını, onun kardinal şəkildə məzmun dəyişikliyinə məruz qalmasının zəruriliyini ortalığa qoyur. Başqa sözlə, müxtəlifliyə, diversifikasiyaya istiqamətlənmiş, müxtəlifliklərin kontiniumu kimi çıxış etmə qabiliyyətinə malik olan qloballaşmaya ehtiyac vardır!

[209] G-20 ölkələr qrupu (19 ölkə+Aİ-27ölkə) ümumdünya ticarətinin 90%-ni, dünya əhalisinin 2/3 hissəsini əhatə edir.

downloaded from KitabYurdu.org

Beləliklə, qlobal maliyyə böhranının başvermə səbəblərini aşağıdakı kimi müəyyənləşdirmək mümkündür.

1. Geniş təkrar istehsal prosesinin həm qlobal, həm də ayrı-ayrı "həlledici səsə malik" ölkə və regionlarda sistemliliyi, tamlığı və bütövlüyünün pozulması (Maliyyənin əlahiddələşməsi nəticəsində).
2. Törəmə maliyyə bazarlarının sürətli yüksəlişi ; real olmayan pulun qlobal dövriyyəsinin ifrat dərəcədə artımı.
3. İqtisadi sistemin neoliberal model çərçivəsində fəaliyyəti. Bu amilin həm mahiyyətə, həm də böhranın sürətlə yayılmasına birbaşa aidiyyəti vardır.

Belə ki, əvvəldə də qeyd etdiyimiz kimi, neoliberal bazar modeli, əvvəla, seçim və manevr imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır ki, bu da yekun etibarilə ölkə hökumətinin real xarici təhlükə qarşısında tam gücü ilə fəaliyyət göstərməyə imkan vermir. Başqa sözlə, milli iqtisadi sərhədlərin və daxili münasibətlər kompleksinin məhdudiyyətsizlik, tam şəffaflıq və açıqlıq keyfiyyətinə sahiblənməsi, qlobal səviyyədə qeyd edilən proseslərin vahidlik mövqeyindən unifikasiyası hökumətin fəaliyyət sferasını (tənzimləmə nöqteyi-nəzərindən) çox dar çərçivəyə salır.

İkincisi, alternativsizlik aspektinin ifrat qabarması yekun olaraq siyasi pessimizmə gətirib çıxarır. Başqa sözlə, təhlükəsizlik problemi ilə bağlı olan məsələlərin ayrıca götürülmüş bir ölkə miqyasında həllinin real bazası (qlobal səviyyədə unifikasiya olduğuna görə )olmur və s.

Məlumdur ki, neoliberalizmin əsas inkişaf etdiyi, dərin kök atdığı məkan ABŞ-dır. Bu gün dünyada baş verən proseslərin incələnməsi də açıq-aydın şəkildə göstərir ki, ABŞ iqtisadiyyatı bir sıra sırf siyasi liberalizm səciyyəsi daşıyan elementlər və komponentlərlə çulğalanmışdır. Başqa deyimlə ifadə etsək, bu o deməkdir ki, iqtisadi sistemə yabancı elementlər daxil edilmişdir. Neoliberal yanaşmanın planetar səviyyədə geniş yayılması (yaxud, məqsədli şəkildə yayılması) elə bir münasibətlər sistemini sərgiləyib ki, artıq ABŞ iqtisadiyyatı dünya iqtisadiyyatının ağırlıq mərkəzinə, qlobal dəyişikliklərin real bazasına çevrilmişdir. Məhz buna görə də, ABŞ iqtisadiyyatında baş verən proseslərin bütövlükdə planetar səviyyədə yayılması qaçılmazdır və sözün mütləq mənasında onun qarşısının alınması mümkün deyildir.

Beləliklə, qlobal maliyyə böhranının sürətlə yayılmasının kökündə dayanan əsas səbəblərdən biri ABŞ-ın (eləcə də, digər inkişaf etmiş ölkələrin) geniş təkrar istehsal prosesinin milli bütövlüyünün

downloaded from KitabYurdu.org

pozulmasıdır. Milli iqtisadi təhlükəsizlik nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edən “milli bütövlük” konseptinin inkarı, zənnimizcə, ABŞ-ın dövlət siyasətinin əsas elementlərindən biri olmaqla, ABŞ-ın əgər belə demək caizdirsə, “qloballaşmasına”, planetdə baş verən hər şeyin ona aidiyyəti olmasına və s. xidmət edir. Başqa sözlə, ABŞ-ın geniş təkrar istehsal prosesi tamlıq, bütövlük halında mövcud deyildir və bu gün müşahidə etdiyimiz və “qlobal bütövləşmə” adlandırdığımız proses sistemlilik prizmasından elmi abstraksiya çərçivəsindən kənara çıxmır. “Qlobal bütövləşmə” dediyimiz şey yalnız maliyyə sferasını (gerçək funksional mahiyyət daşıma nöqteyi-nəzərindən) əhatə edir. Məlumdur ki, digər sistemyaradan istiqamət yaxud sfera – xarici ticarət dünya səviyyəsində böhran yaradan səbəblər sırasında çox nadir hallarda çıxış edə bilər. **Maliyyə sferasından inteqrasiya olunaraq qlobal bütövləşmə yaradan dünya anklav xarakterli inteqrasiya birliyinə doğru gedir.** Bu – anklav xarakterli bütövlükdür.

Yəni, dünya ölkələrinin nə iqtisadi sistemləri, iqtisadiyyatları, nə də geniş təkrar istehsal prosesinin əksər fazaları deyil, yalnız maliyyə sferası birləşmə əzmindədir və birləşir.

Beləliklə, əslində nə baş verir:

1. Bu gün inkişaf etmiş ölkələr artıq “klassik ölkə” anlamında mövcud deyillər. Ölkə → “ölkə sistem” yaranışına transfer olunmuşdur.
2. Geniş təkrar istehsal prosesinin milli tamlığı, milli bütövlüyü qəti olaraq pozulmuş, prosesin transmilliləşməsi geniş vüsət almış, iqtisadi təhlükəsizliyin görünən və görünməyən bütün sərhədlərini aşıb-keçmişdir.
3. Ucuz kredit və maliyyə “köpüyünə” əsaslanan sərvətyaratma modeli iflasa uğramışdır.
4. Neoliberal paradiqmanın struktur prinsipləri (maksimum mənfəət, maksimum hakimiyyət) yararsız hala gəlmişdir.
5. Dünya müxtəlif iqtisadi, sosial-siyasi və mədəni modellər bazasında parçalanma istiqamətinə qədəm qoymuşdur.
6. Postindustrial iqtisadiyyatın formalaşması və inkişafının ilkin – mahiyyət qanunauyğunluqları milli dövlətlər çərçivəsində deyil, qlobal səviyyədə təzahür etməkdədir. Ölkələrarası əlaqələr (inkişaf səviyyəsindən asılı olmayaraq) artıq törəmə xarakteri kəsb etməyə başlayır. Qanunauyğunluq dediyimiz şey qlobal səviyyədə

downloaded from KitabYurdu.org

formalaşır, yaxud qlobal qanunauyğunluq dominant səviyyəyə yüksəlir və s.

Bu sıranı xeyli uzatmaq da olar. Lakin, təfərrüata varmadan da belə bir qənaətə gəlmək mümkündür ki, artıq köhnəlmiş iqtisadi, sosial-siyasi və mədəni ehkamlardan uzaqlaşmasaq dünya öz tarixinin növbəti “qaranlıq” dövrlərindən birinə qədəm qoyacaqdır.

### §17.2.2. İqtisad elmi böhran müstəvisində

Etiraf etmək lazımdır ki, qlobal böhran iqtisad elminə, onun bugünü və sabahına iflicedici təsir göstərdi. Mövcud metodoloji arsenalın ümidsiz şəkildə köhnəldiyini, yeni dövrün tələblərinə adekvat olmadığını, kardinal dəyişikliklərin zəruriliyini ortalığa qoydu.

Bu gün iqtisad elminin istinad etdiyi situasion məkan – az və ya çox dərəcədə təzahür edən təmayüllər və refleksiyalar “yığımından” ibarətdir. Reallıqla adekvat ola biləcək sistemli yekun (Niyə? Nə üçün? və Sonra nə? suallarının cavabı nəzərdə tutulur) əldə etmək mövcud nəzəriyyələr çərçivəsində mümkünsüzdür.

Belə ki, bugünə qədər dominant mövqeyini qoruyub saxlaya bilmiş effektiv bazar nəzəriyyəsinin və bütövlükdə neoliberal paradiqmanın özünün böhranı ilə üz-üzəyik. Beləliklə:

1.Bu günkü iqtisad elmi “sabahı” görmək qabiliyyətində deyildir:

- Texnogen müdaxilənin hüdudsuzluğu elmi aparatı eroziyaya uğradıbdır;
- Ümumiləşdirici sintez öz yerini “təkcə”nin fasiləsiz parçalanmasına veribdir.
- Artıq iqtisadi anlamda tam və hissələrin dialektikası nonsensə çevrilmişdir. Belə ki, iqtisadi tam artıq hissələrdən nə çox , nə az, nə də onların cəminə bərabər deyil. O, sadəcə olaraq, başqa bir şeydir.

2. İqtisad elmi bütövlükdə “özündə şeyə” çevrilibdir. Çılpaq praqmatizmin hüdudsuz tətbiqi, fəlsəfədən, ələlxüsus elm fəlsəfəsindən uzaqlaşma (zatən, yaxınlıq heç olmamışdır) iqtisadiyyatı istehsal xatirinə istehsal tipli primitiv hesabçılıq sxemində ortalığa qoyur ki, bu da, son nəticədə (digər təsirlərlə yanaşı) iqtisadi artımın sosial əsaslarını dağıdır.

3.Reallıqla bağlı olmayan “nəzəri müddəalar” irəli sürülür və qəbul etdirilir.Yanaşmanın yalnışlığı, əldə edilən nəticələrin

downloaded from KitabYurdu.org

gerçəkliyə adekvat olmaması digər səbəblərlə yanaşı, həm də ekstrapolyasiyaya istinaddan qaynaqlanır. Köhnə biliyin yeni predmet sahəsinə yaxud, gələcəyə ekstrapolyasiyası həqiqəti aşkarlamağa imkan verirmi? Əsla! Belə olan tərzdə çat vermiş məlum paradiqmanı proses və hadisələrin geniş sferasına tətbiq (yenidən) etməyə ehtiyac varmı?Yaxud, bunun üçün ən azı kafi şərt kimi qəbul edilən məsələ - paradiqmanın tətbiqinin ziddiyyətsizlik sərhədləri müəyyən olunubmu? Göründüyü kimi, əldə edilən nəticələrin həqiqəti əks etdirməməsinin çox dərin kökləri vardır və bunlara biganə münasibət elmi tədqiqatların "çıxılmaza" düşməsinin başlıca səbəblərindən biri kimi çıxış edir.

4.Həm klassik, neoklassik və həm də sistemli paradiqmaların (postneoklassik) eyni vaxtda istifadəsi yaxud mövcudluğu yeni yaranan xassələr, imkanlar və qarşılıqlı əlaqələrin rəngarəngliyini və mürəkkəbliyini yüksəldir. İmkanların artımına paralel olaraq risklər də artır. Burada ən təhlükəli risk sistemli paradiqmanın maliyyə oliqarxıyasının, elitasının mənafelərinə xidmətə keçməsidir ki, yekunda da xətti güc siyasəti vüsət alır.

Bu qəbildən olan və elm (iqtisad) niyə acizdir? sualının cavabını çoxlu sayda arqumentlərlə əsaslandırmaq mümkündür.

Fikrimizcə, qlobal iqtisadi gerçəkliyin adekvat dərki və gələcəyi ilə bağlı iqtisad elmi sırf metodoloji anlamda ən azı iki problemli situasiya ilə üz-üzədir:

1. İqtisadi sistemin transformasiyası prosesində qloballaşmanın yeri və rolunun, eləcə də milli iqtisadiyyatın inkişaf strategiyasının seçilməsində mümkün təsiri imkanlarının adekvat qiymətləndirilməsi problemi;
2. İnkişaf dinamikasının ağlabatan tərzdə interpretasiyası və gələcəyin proqnozlaşdırılması problemi:

Sübut etməyə ehtiyac yoxdur ki, keçmişdən gələcəyə doğru istiqamətlənmiş ənənəvi yanaşma problemin öhdəsindən gəlməkdə acizdir. Ən azı ona görə ki, qeyd edilən baxış proqnozlaşdırmanın özünün mahiyyətindən çıxış etmir. Bu aspektdə metatarixilik (metaistorizm) nəzəriyyəsindən çıxış etmək, başqa sözlə, gələcəyi gələcəkdə araşdırmaq yaxud gələcəkdən → gələcəyə yönümlü yanaşmadan istifadənin mümkünlüyü hələ ki, aprobasiyadan keçməmişdir. Digər tərəfdən, nəzərə alınmalıdır ki, qlobal iqtisadi

downloaded from KitabYurdu.org

gerçəkliyin səviyyə müxtəlifliyi mövcuddur. Onu yalnız empirik səviyyədə təzahür edən və əsasən nəticə keyfiyyətində çıxış edən təmayüllərə əsaslanmaqla düzgün dərketmə ifrat dərəcədə problematikdir. Belə ki, gerçəklik əslində 4 səviyyənin dialektik bütövlüyündən "qurulan" situasiyon reallıqdır:




***Şəkil 17.1. Gerçəkliyin ierarxik səviyyə müxtəlifliyi***

Empirik səviyyə - "aysberq"in görünən, konkret kəmiyyətlərlə ifadə oluna və hesablana bilən informasiya məcmusudur. Ondan aşağıda – aktual səviyyədə - hadisə və proseslərin özü, daha dərin qatlarda isə səbəbiyyət və onu doğuran mexanizmlər, nəhayət səbəbiyyəti formalaşdıranlar, yəni ilkin başlanğıc gəlir!

## § 17.3. Yeni qlobal inkişaf paradiqması

### § 17.3.1. Problemin qoyuluşu

Anqlo-sakson modelli qloballaşma - əslində, modernizm epoxasının yaxud tsiklinin başa çatması, postmodernizmin "bütün cəbhə boyu" hücumu deməkdir.

Bu gün dövriyyədə olan neoliberal paradiqma 5 böyük (qlobal) prosesin ifrat intensivliklə gedişinin təminatçısı rolunda çıxış edir:

downloaded from KitabYurdu.org

1. Fərdiləşmə: Ümumiliyin, vahidliyin əksinə olan proses; Fərdiyyətçiliyin görünməmiş sürətdə genişlənməsi, “dərinləşməsi”;
2. Kütlələşmə: Həyat tərzinin standartlaşdırılması; Diferensiyasiya olunmuş müxtəlif məzmunlu (modelli) həyat tərzləri arasında fərqlərin silinməsi;
3. Dünyanın elmi interpretasiyasının dominant mövqelərə çıxması; Metafizik zəkanın inkarı;
4. İnstrumental zəkanın dominantlığı; Həyat tərzlərinin rasionallaşdırılması;
5. Universallaşma: Eyni təfəkkür və dəyərlər sisteminin ümumplanetar səviyyədə genişlənməsi, yaxud milli “kimlik” nöqteyi-nəzərindən simasızlaşma, abstrakt sosiumun (qlobal səviyyədə) yaranması;

Neoliberalizm bazara çox geniş anlamda yanaşır və onu bütün sosial nəticələrin paradiqması kimi qəbul edir. Həqiqətən də, XX əsr ərzində bazarın substansional mahiyyəti kardinal hesab edilə biləcək dəyişikliklərə məruz qalmışdır.

Məlumdur ki, ilkin olaraq effektiv bazar hipotezi (A.Kouls, L.Başenye və s.) (XX əsrin əvvəlləri) formalaşdırılmışdır (Pareto optimumu əsas kimi götürülərək).

1953-cü ildə Kendall fond bazarlarında işgüzar aktivliyi “təsadüfi gəzinmələr” kimi xarakterizə edən model təklif etdi. Başqa sözlə, statistik substansiya virtual tipdə nəzərdən keçirilirdi. Məhz stoxastik, “təsadüfi gəzinmələrdə” (XX əsrin ortalarında) bazarın effektivliyini görürdülər. Məhz buradan da bazarın qeyri-müəyyənliyi (gələcək baxımından) və dövlət müdaxiləsinin olmamasının zəruriliyi irəli sürülürdü.

1970-ci illərdə real gerçəkliyin tədqiqi belə bir nəticəni ortalığa qoydu ki, bazarlardaki statistik asılılıq Qaussun normal bölgü qanununa uyğun deyil və ənənəvi metodlarla modelləşdirilə bilməz.

1991-ci ildə koqerent bazar hipotezi ortalığa çıxdı. (Emergentlik prinsipi, obyektin sistem xassələrinin təzahürü, tam və hissələrin antinomiyasının ifadəsi kimi).

Sonrakı dövrdə mürəkkəb qeyri-xətti nataraz proseslərin təsviri üçün B.Mandelbrotun fraktallar nəzəriyyəsindən istifadə edilməyə başlandı. “Bazar” tipli sistemlərdə “varislik”, “uzun yaddaş”, “mutasiya”, “fraktallıq” və s.kimi hadisələrin müşahidə edildiyini (həm faza, həm də struktur səviyyələrində) əsas götürməklə fraktal bazar hipotezi ortalığa

downloaded from KitabYurdu.org

qoyuldu. Bu – effektiv bazar hipotezinin inkarı demək idi. İndi, bazarın sinergetik hipotezi yaranıb (Priqojin, Xaken).

Bazar "möhtəşəmliyinin" absolyuta yüksəldilməsinin məntiqi nəticəsi kimi "iqtisadi insan"ın mütləqliyi ön plana çıxarıldı. Bu mənada, qloballaşma – "iqtisadi insanın" hökmranlığına keçid deməkdir (qlobal səviyyədə). Unutqanlıq çayına axıdılanların fonunda bazar "möhtəşəmliyinin" hüdudsuzluğunun təsbiti problemli situasiyaların meydana çıxmasında həlledici rol oynayırdı. Belə ki, qəbul edib-etməməyimizdən asılı olmayaraq bazar hüdudsuz deyil, onun konkret sərhədləri mövcuddur:

1. Milli-mənəvi dəyərlər və ümumiyyətlə cəmiyyət bir sistem kimi nəzərə alınmır; Bazar – "öz" dəyərlər sistemini yaradır və milli dəyərlər sistemini ictimai şüurun periferiyasına sıxışdırır.
2. Bazar – antidemokratik qurumdur. "Özbaşına" buraxıldığı təqdirdə böyük fəsadlar doğurur.
3. Qeyri-kommersiya xarakterli fəaliyyət sferası və fərdi keyfiyyətlər bazarın sərhədləri xaricindədir.
4. Ölkələrarası inkişafın qeyri-bərabərliyini nəinki aradan qaldırmır, onun əsas qaynağı kimi çıxış edir.
5. Ekoloji təmizlikdə maraqlı deyildir və s.

Bir sözlə, neoliberal bazar hesablana bilməyən, rentabellik terminləri ilə ifadə olunmayan hər şeyi – mövcud olmayan şey hesab edir.

Paradiqmal yeniləşmə zəruriliyi dünya iqtisadiyyatının inkişaf prosesində qabarıq şəkildə təzahür edir.Gerçəkliyin ifrat tezliklə dəyişməsi və ölkələr bölümündə məqsəd müxtəlifliyinin dərinləşməsi universal xarakterli nəzəri konstruksiyaların əhəmiyyətsizləşdiyini ortalığa qoyur.

Eyni zamanda, formalaşdırılması qaçılmaz olan yeni elmi paradiqma müasir dövrün gerçəkliklərindən çıxış etməklə konkret tələblər çərçivəsində adekvatlığını təmin etməlidir. Belə ki, yeni paradiqma ən azı aşağıdakıları nəzərə almaq məcburiyyətindədir:

1. Konkret situasiyadan çıxış etməli;
2. Konkret vəzifələri həyata keçirməli;
3. Ən "kiçik" amilin belə dəyişmə variasiyasını nəzərə almalı;
4. Mürəkkəb və gerçəkliyə adekvat olan davranış modellərini qurmağa imkan verməlidir.

downloaded from KitabYurdu.org

## § 17.3.2. Nəzəri problemlər

Bəri başdan qeyd edək ki, qlobal iqtisadi inkişafın yeni (yaxud, yeniləşdirilməsi istənilən) paradiqmasının konseptual məzmunu vahidlikdən uzaqdır. O mənada ki, paradiqmal konstruksiya hər hansı bir konkret konseptual model üzərində qurula bilməz. Hal-hazırda istinad edilən baza konsepsiyası – neoliberalizm təndiqçilərin kütləvi hücumuna məruz qalmışdır (Q.Mürdal, R.Prebiş, S.Furtado, F.Perru, Q.Zinger və s.). Onların əksəriyyəti sübut edirlər ki, bazarın (xarici kəsimə münasibətdə) “özbaşına” buraxılması qlobal sistemdə dominant olan güc mərkəzinin öz liderliyini qorumağa xidmət edir. Həqiqətən də, neoliberal dəyərlərin hüdudsuzluğu assimmetrik asılılıq yaradır və yekun olaraq qütbləşmə doğurmaqla inkişafı deformasiyaya uğradır.Bu, heç də ona dəlalət etmir ki, asılılıq şəraitində inkişaf mümkünsüzdür. Sadəcə olaraq, mahiyyət etibarilə sistemli keyfiyyət daşıyan inkişaf “anklav” xarakteri alır. Və, nəticədə meydana çıxan “müasir yaxud modernləşmiş adalar” birmənalı olaraq qlobal səviyyədə hegemon mövqe tutan ölkənin mənafeyinə xidmət edir.

Digər tərəfdən, A.Smit dövrünün “iqtisadi insanı” hal-haırda “rasional düşüncəli informasiyalı eqoistə” çevrilmişdir. Neoliberalizmin ortalığa qoyduğu bu yekunla “rifah dövlətinin” bərpası mümükünüsüzdür, yaxud bu bərpanın “irticaçı” sosializm libasına bürünmə kimi səciyyələndirildiyi halda “sosial dövlət”ə keçidin konseptual məzmunu metodoloji nöqteyi-nəzərdən qaranlıq qalır.

Amma, istisnalar da olmamış deyildir. Məsələn, Skandinaviya ölkələri nə bazar islahatlarını, nə də sosial xərclərin mexaniki artımını öz-özlüyündə məqsəd kimi götürməmiş, təhsil və elm sferasında effektiv islahatları prioritet mövqeyə çıxarmışlar. Nəticədə, ortodoksal neoliberalizmə alternativ olan postindustrial inkişaf modeli qurulmuşdur.

Ümumiyyətlə, aparılan araşdırmalar neoliberalizmin artıq qəbul edilmədiyini, bazar fundamentalizmin problemlər doğuran yaranış olduğunu təsbit etməkdədir.

Bir sözlə, neoliberal bazarda aparılan modernləşmənin axırı yoxdur!

Digər konseptual yanaşma – neokonservatizm mövcud qaydaların təkmilləşdirilməsi üzərində qurulmaqla, islahatların yalnız zərurət yarananda aparılmasını məqsədəuyğun hesab edir. Başqa sözlə, fasiləsiz olaraq yeniləşmənin zəruriliyi inkar edilir. Bu konsepsiya əsasən Cənub-Şərqi Asiya ölkələrində geniş yayılmışdır.Məhz elə həmin regionda baş

downloaded from KitabYurdu.org

verən 1997-1998-ci il böhranı neokonservatizmin hec də “təhlükəsiz” olmadığını üzə çıxardı.

Nəhayət, dövlətin mütləq prioritetliyinə istinad edən etatizm konsepsiyasına qayıdışın da yalnış olacağını tarixi inkişaf təcrübəsindən əxz etmək mümkünüdür.

Göründüyü kimi, inkişafın paradiqmal konstruksiyası konseptual sintezin formalaşmasını qaçılmazlıq keyfiyyətində ortalığa qoyur. Mövcud konsepsiyalardan heç birinin “xalis” şəkildə tətbiqi mümkün deyildir.

Bir sıra elmi istiqamətlərdə qlobal inkişaf paradiqmasının neoliberal modeli ilə dirijizm arasında hansısa bir tənasüblük formalaşdırılmağa cəhd göstərilir.

Bu aspektdən vətəndaş cəmiyyətinin önəmli rol oynamaq iqtidarında olduğu xüsusi vurğu ilə ifadə olunur. “... Başar → dövlət dixotomiyası ifrat sadələşmədir. Bazarın çərçivəsindən kənara çıxmaq zərurəti var... azad bazar ideologları qeyri-dövlət formaları, kooperativ fəaliyyəti layiq olduğu səviyyədə qiymətləndirmirlər”[210] deyən Stiqlist dövlət → bazar dixotomiyasında vətəndaş cəmiyyətinin müstəsna rol oynadığını qabaratmağa cəhd etmişdir. Digər tədqiqatçılar isə bir az da uzağa gedərək, qeyd edirlər ki, vətəndaş cəmiyyəti müasir qloballaşma şəraitində dövlətlə sıx əməkdaşlıq etməklə nə neoliberalizm, nə də dirijizmlə bağlı olmayan inkişafın “üçüncü yolunu” müəyyənləşdirmək iqtidarında olan gücdür.[211] Əsaslandırmanın təxmini məntiqi bundan çıxış edir ki, oliqopoliya şəraitində hökmran mövqedə olan TMK-ın bürokratik aparatla (idarəetmə) qovuşması və dövlət siyasətini öz nəzarəti altına alması təhlükəsi kifayət qədər realdır. Bu təhlükəni yalnız güclü vətəndaş cəmiyyəti aradan qaldıra bilər. Sırf formal məntiqin prizmasından çıxış etsək, onda belə alınır ki, dövlətin vətəndaş cəmiyyəti ilə sıx əməkdaşlığı sinergetik effekt doğurmaqla ictimai sistemi daha yüksək səviyyəyə qaldıra və qloballaşmanın ortalığa çıxardığı problemlərə adekvat reaksiya sərgiləyə bilər.

Fikrimizcə, yeni qlobal inkişaf paradiqmasının neoliberalizm və etatizmin müəyyən prinsipləri, eləcə də sosial-institusionalizm və dirijizmin milli mənafelərin təminatı müstəvisində kəsişməsindən doğan sinkretik bütövlüyünə əsaslanması məqsədəuyğun olardı.

---

[210] Стиглиц Д. Ревущие девяностые. М., 2005.- С. 359

[211] A.Giddens A Third Way and its Critics/L-2000.

downloaded from KitabYurdu.org

Sadə şəkildə ifadə etsək, bu o deməkdir ki, seçilən konseptual prinsiplər milli mənafelərin tam və dolğun şəkildə ödənilməsinin təminatına xidmət etməlidir.

### § 17.3.3. Yeni paradiqma: keçid situasiyasının konseptual sərhədləri

Dünya iqtisadiyyatı qlobal sistem olmaq etibarilə parçalanmaqdadır. Prosesə "dur" deyə biləcək gücün yoxluğu bütün çılpaqlığı ilə ortalıqdadır. Əslində, böhranlı prosesi dayandıra biləcək hansısa subyektin yoxluğu başa düşüləndir və bu, heç mümkün də deyildir. Mövcud qlobal iqtisadi sistemin söykəndiyi baza prinsiplərinin kardinal dəyişikliyinə getməkdən özgə bir çıxış yolu qalmır.

Ümumplanetar səviyyədə iqtisadi inkişafın dayanıqlılığı və normal templərlə gedişinin təminatına nail olmaq probleminin həlli, keçilməsi labüd olan yeni inkişaf paradiqmasının konseptual sərhədlərinin düzgün müəyyənləşdirilməsindən birbaşa asılılıqdadır:

1. Yeni paradiqmaya keçiddə dövlətin yeri və rolu adekvat formada nəzərə alınmalıdır. Transformasiyaya məruz qalan yalnız dövlətin funksiyaları (iqtisadiyyatla bağlı) ola bilər. Dövlət – müqəddəsdir. Dövlət müstəqilliyi heç bir halda məhdudlaşdırıla bilməz.
2. Paradiqmanın təməl prinsiplərinin qlobal səviyyədə milli mənafelərin tarazlığı üzərindən formalaşdırılması; Yəni əsas prioritetlər kimi ön planda tutulan mənfəət və hökmranlıq hədəflərinin daha humanist məzmun kəsb edən prinsiplərlə əvəzlənməsi.Ümumbəşəri rifahın yüksəlməsini əsas götürməklə real məzmunlu əməkdaşlıq və sosial ədalət prinsiplərinin yeni inkişaf paradiqmasının prioritetləri kimi təsbiti.
3. Milli → regional → qlobal mənafelərin optimal mütənasibliyinin gözlənilməsi. "Qonşunu soymaq" siyasətindən əl götürülməsi
4. Prioritet dəyişkənliyi bazasında fərdlərarası münasibətlərdən tutmuş dövlətlərarası münasibətlərə qədər açıq-aydın şəkildə müşahidə edilən sosial identiklik böhranının aradan qaldırılması.
5. Qlobal səviyyədə, eləcə də ayrı-ayrı regional güc mərkəzlərində geniş təkrar istehsal prosesinin tamlığı və bütövlüyünü qorumaq, bu mənada "nəyinsə" əlahiddələşməsinə, "özündə şeyə" çevrilməsinə yol verməmək.

downloaded from KitabYurdu.org

6. Neoliberal maksimalizmdən uzaqlaşma: Maksimum mənfəət, maksimum fayda , tam hökmranlıq istəyinin heçliyə apardığının və müəyyən tarixi dönəmlərdə özünün əksinə çevrildiyinin gerçək xarakter daşıdığını qəbul etmək; Plüralist rasionalizmin inkarının arzuedilməz nəticələrlə sonuclandığının təsbiti.
7. Dövlət→ bazar dixotomiyasının effektiv həlli prizmasından vətəndaş cəmiyyətinin rolu və təsirinin gücləndirilməsi.
8. Bazara → həzmedə biləcəyi qədər sərbəstliyin verilməsi;
9. İqtisadi azadlığın sərhədlərinin sosial ədalət və ümumbəşəri rifahın təhlükəsizlik xətti ilə məhdudlaşdırılması: Ələlxüsus Trans-Milli Korporasiyaların fəaliyyətinə münasibətdə bu aspekt müstəsna əhəmiyyət kəsb edir.
10. Qlobal inkişafın imperiya variantından imtina edilməsi, inkişaf səviyyəsindən asılı olmayaraq qlobal "oyun qaydalarının" formalaşmasında əksər milli dövlətlərin bərabər hüquqlu aktor kimi iştirakını təmin edəcək effektiv fəaliyyət mexanizminin hazırlanması və tətbiqi;
11. Dünya sistem nəzəriyyələrinin konseptual tutumunda kardinal dəyişikliklər etmək; Dünya iqtisadiyyatının tənzimlənməsi mexanizmini işlək hala gətirmək məqsədi ilə məhz tənzimləmə sferasında reqional aspekti ön plana çıxarmaq (söhbət iri reqionlardan, məsələn Avrasiya, Cənub-Şərqi Asiya, Amerika və.s gedir), inteqrasiya bloklarının qapalılığını aradan qaldırmaq;
12. Nəhayət qlobal inkişafın sistemliliyi, kompleksliliyi dayanıqlılığının təminatı baxımından mədəniyyətlər, dinlər və ümumiyyətlə, sivilizasiyalar arası dıaloqu inkişaf etdirmək, sözün həqiqi mənasında qlobal bütövlüyə nail olmaq;

Sübut etməyə ehtiyac yoxdur ki, sadalananların nəzərə alınması və tətbiqi tamamilə yeni, keyfiyyətcə kifayətqədər yüksək səviyyədə dayana biləcək dünya nizamını reallığa cevirə bilərdı. Amma, deyilənlərin reallığa transferi baş tutacaqmı? Sualın cavabına akademik R.Mehdiyevin məlum məqaləsində rast gəldik: "... Yeni dünya nizamının qurulması şəraitində biz özümüzü aldatmamalı, başa düşməliyik ki, bəzi aparıcı ölkələrin hakim elitaları millətlərin müstəqillik hüququ və onun tarixi-mədəni xüsusiyyətlərinin qorunub saxlanması barədə yalnız mücərrəd təsəvvürləri rəhbər tuturlar. ... Başa düşmək çətin deyil ki,

downloaded from KitabYurdu.org

onlar yalnız öz xüsusi maraqlarını reallaşdırmaq üçün əlverişli xarici mühit yaratmağa çalışırlar."[212] Necə deyərlər, şərhə ehtiyac yoxdur.

---

[212] R.Mehdiyev. Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq // Azərbaycan.- 2008.-30 dekabr.

downloaded from KitabYurdu.org

## Ədəbiyyat siyahısı

### Azərbaycan dilində

R.Mehdiyev. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı, 2008
R.Mehdiyev. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı, 2008
R.Mehdiyev. Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq // Azərbaycan.2008.- 30 dekabr
Ə.Abbasov. Heydər Əliyevin texnoloji inkişaf strategiyası// "Dayanıqlı inkişafın Heydər Əliyev modeli" məcmuəsi, Bakı, 2009
Ş.Hacıyev, Ə.Bayramov və b. İqtisadiyyat fəlsəfəsi. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2008
İ.Feyzullabəyli, Ə.Bayramov. İslam (sosial-iqtisadi problemlər) Bakı, 2000
Ə.İ.Bayramov. İnhisarizm. Bakı, 2002
Ə.İ.Bayramov. İqtisadi inkişaf tarixi müstəvidə: metodoloji yanaşmanın konseptual problemləri. Beynəlxalq konfransın materialları. Bakı, 2009
Ə.İ.Bayramov .Virtuallaşan iqtisadiyyatın fəsadları// İqtisadiyyat və audit, 2009.
Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat – 1998. BMT. İnkişaf Proqramı. Bakı, 1998.
Ə.İ.Bayramov. Qlobal inkişaf paradiqmasının konseptual problemləri // "İqtisad elmləri: nəzəriyyə və praktika", 2008.-N 1-2.
Ə.İ.Bayramov. Qlobal maliyyə böhranı: Neoliberal inkişaf paradiqmasının süqutu// Respublika, 2009.
E.Bağırzadə. Türkiyə təsbitləri //Ekspert. 2008, 7(55) və 8-9(56-57)
N.Süleymanov. Azərbaycanın iqtisadi tarixi. Bakı, 2001
Rafiq Özdək. Türkün qızıl kitabı. Bakı, 1992.- S.28
Muxtarova Əsməd. Türk xalqlarının dövlətçilik tarixi. Bakı, 2002
Musayev M.Ə. XX əsrin əvvəllərində Bakı şəhərinin ticarəti. Bakı: Azərnəşr, 1975
Tevfik Çavdar, Türkiye Ekonomisinin Tarihi (1900-1960), Ankara: İmge kitabevi, I. Baskı, Eylül 2003.
Hüseyin Şahin, Türkiye Ekonomisi: Tarihsel Gelişimi – Bugünkü Durumu, Bursa: Ezgi Kitabevi, IX. Baskı, Ekim 2007.
Nadir Eroğlu, Türkiye'de iktisat politikalarının gelişimi (1923-2003), Marmara Üniversitesi Atatürk İlkeleri ve İnkişap Tarihi Araştırma ve

downloaded from KitabYurdu.org

Uygulama Merkezi, 80. Yılında Türkiye Cumhuriyeti Sempozyumu, 29-31 Ekim 2003, İstanbul.

Oğuzhan Altay, Türkiye'de İktisadi Dönüşümlerin Sosyo-ekonomik Sonuçları Üzerine Bir Deneme, D.E.Ü.İ.İ.B.F. Dergisi, Cilt: 15, Sayı: 2, Yıl: 2000

Mahfi Eğilmez, Küresel Finans Krizi: Piyasa Sisteminin Eleştirisi, İstanbul: Remzi Kitabevi, V. Basım, Mart 2009.

Mahfi Eğilmez, Makroekonomi : Türkiyeden örneklerle, İstanbul: Remzi Kitabevi, I. Basım, Kasım 2009.

Конрад Н.И. Запад и Восток. М., 1972.

Досон К. Христианский взгляд на историю// Философия истории. Антология; М; 1995

Барг М.А. Понятие всемирно-исторического как познавательный принцип исторической науки. М; 1973

Карр Э. История и факты// Современные тенденции в буржуазной философии и методологии истории. Ч. 1 и 2.. М; 1969.

Ясперс К. Истоки истории и ее цель. Вып.2. М; 1994

Поппер К.Р. Нищета историцизма// Вопросы философии.-1992.- N4

Левит К. О смысле истории // Философия истории. Анталогия.М; 1995,

Ивин А.А. Основания логики оценок. М., 1970

Маркс К. Энгельс Ф. Соч. Т.33.

Гринин Л.Е.Глобализация и национальный суверенитет. История и современность.(1).М;2005

Репина Л.П. «Новая историческая школа» и социальная история. М; 1998

Гуревич А.Я. О кризисе современной исторической науки// Вопросы истории, 1991

Бродель Ф. Материальная цивилизация, экономика, капитализм.XV-XVII вв. Т.2., Игры обмена.-М.:1986

А.А.Вигасин, М.А. Дандамаев; М.В. Крюков и др. История древнего востока. М: Высшая школа, 2003.

Антипов Н.П. Экономическая интеграция в мировой экономике и транснациональные корпорации// Междунар. публичное и частное право. 2001

Паньков В.С. Мировая экономика на пути к 2015 году// Экономика XXI века. 2002.-N8,

Антонова К.А. История Индии (краткий очерк). М.: Мысль, 1973

downloaded from KitabYurdu.org

Экономическая энциклопедия/ Гл.ред. Л.И. Абалкин- М: ОАО «Экономика», 1999
Отчет компании Metrcinet.com “The Global New Economy İndex: a Cyber-Atlas”, 2-nd edition, 2000.
Arrighi G. The long Twentieth Century: Money, Power, and the Origins of Our Times London; Verso, 1994.
Joffrin L. La gauche retrouvce. Paris, 1994.
Furet F. Latelier de İhistoire. Paris, 1982.
Aron R. Dimensions de la conscience historique. Paris, 1961.
Gardiner P. The nature of Historical Explanation. London., 1965.,
Toynbe A.J. A.Study of History. L., 1936.
David P.A. Clio and the Economics of QWERTY// The American Review. VOL/75, N2,
Arthur W.B. İncreasing Returns and Path Dependence in the Economy. Ann Arbor: The University of Michiqan Press., 1994.
Liebowitz S.J. Marqolis S.E. Path Dependence,Lock-in, and History/ Journal of Law, Economics and Organization VOL II N1. 1995
Вундт В. Социальные законы// Философия истории. Антология, М; 1995,
Брейзиг К. Законы мировой истории// Философия истории. Антология. М, 1995
Поппер К. Открытое общество и его враги. Т.II, М.1993
Социальная философия. М; 1996,
Франкс С.Л. Крушение кумиров/. Сочинения. М., 1990
Бохеньский Ю. Сто суеверий. М., 1993
Мюллер М. Смысловые толкования истории, М., 1994
Хабермас Ю. О субъекте истории. М., 1996
Семенов Ю.И. Производство и общество // Социальная философия. Учебник., М., 2003
Мизес Л. Человеческая деятельность. М., 1992
Mises l. Planning form Freedom. South Holland, III., 1952
Карр Э. История и факты // Современные тенденции в буржуазной философии и методологии истории. Ч.1 и 2., М., 1969
Кареев Н. Теория исторического знания. СПБ, 1913
Виппер Р. Кризис исторической науки. Казань, 1921
Красавин Л.П. Введение в истории. Пг. 1920
Сеньобос Ш. Исторический метод в применении к социальным наукам. М., 1902.,
Veyne P. Comment on ecrit histoire. Paris., 1971

downloaded from KitabYurdu.org

Gardiner P. The Nature of Historical Explanation. London., 1952
Эмар М. Образование и научная работа в профессии историка: Современные подходы //Исторические записки. Вып. 1. (119). М., 1995
Ананьин О.И. Одинцова М.И. Методология экономической науки: современные тенденции и проблемы// Истоки. Вып. 4.М., 2000
Hansman D.M. The inexact and separate science of economics. Cambridge University Press., 1992.
Mirovski P. More heat than light. Cambridge University Press., 1989.
Elchner A.W hy economics is not yet a science// New York., M.E. Sharpe, Armank, 1983
Sapir J. les economists contre la democrate. Paris, 2002
Stiqlitz J.E. İnformation and the change in the paradigm in economics// American Economic Review. Vol.92, 2002, N3.
Harriet Gillam. The Dialektics of Realizm and idealism in Modern Historiographic Theory// "H.T." Vol.XV, N3, 1976.
Маршалл А. Принципы политической экономии. Т.1, М.,1983
J.R.Hiks Some Questions of time in Economics/ London, Lexington Books, 1976
Полещук В.И. Время в экономических системах // Сб. научн. трудов /Под ред. В.С.Чуркова. М.: ЮРГУЭС, 2005
Ковальченко И.Д. Методы исторического исследования. М., 1987
Медушевская О.М. Профессионализм гуманитарного образования в условиях междисциплинарности // Проблемы источниковедения и исторографии. М.,2000
Гринченко С.Н. Системная память живого (как основа его мегаэволюции и периодической структуры).М.: ИПИРАН., Мир, 2004
Клима В. Период человека разумного современного вида до начала производства пищи (производящего хозяйства: общий обзор. История человечества. М., ЮНЕСКО, 2003.
Аристотель. Соч. Т.3 Антология мировой философии, М; 1969, Т.1 ч.2
И.Г.Фихте Основные черты современной эпохи // Мир философии: Книга для чтения. Ч.2. М.1991
Ю.М.Бородай, В.Ж.Келле , Е.Г.Плимак Наследие К.Маркса и некоторые методологические проблемы исследования докапиталистических обществ и генезиса капитализма. М.: Мысль, 1972
Ю.И.Семенов. Философия истории. М: Старый сад, 1999

downloaded from KitabYurdu.org

Ю.М.Кобищанов. Теория большой феодальной формации // Вопросы истории.- 1992.- № 4 – 5
В.П.Илющечкин. Теория стадийного развития общества (История и проблемы). М.:Восточная литература, 1996
Л.С.Васильев. Генеральное очертание исторического процесса //Философия и общество. 1997-1998
Бородай Ю.М., Келле В.Ж., Плимак Е.Г. Наследие К.Маркса и проблемы теории общественно – экономической формации, М.: Мысль, 1975
Павленко Ю.В. История мировой цивилизации. Философский анализ. Киев: Феникс, 2002
Дьяконов И.М. Пути истории : от древнейшего человека до наших дней. М.: Восточная литература, 1994
Чешков М. Понимание целостности мира: в поисках неформационной парадигмы //Мировая экономика и международные отношения.- 1990.- № 5
Мартынов А.И. Модель цивилизационного развития в степной Евразии. Кемерово: КемГУ, 2003
Философский энциклопедический словарь.М., 1989
Ле Гофф Ж. Цивилизация средневекового Запада. М., 1992
Тоюби А. Постижение истории. Сборник. М., 1996
Экономическая энциклопедия. М.: Экономика , 1999
Р.Уэскотт. Исчисление цивилизаций. М.: Время мира 2.- 2001
İ.Wallerstein The politic of the World – System. Paris. Maison d science d I'Homme., 1984
Хорд Д. Условия исторического сравнения эпох и регионов. М.: Время мира 2, 2001.
Ито Ш. Схема для сравнительного исследования цивилизаций М.: Время мира 2
Ковалев А. Еще раз о формационном и цивилизационном подходе// Общественные науки и современность, 1996
Вебер М. Избранные сочинения. М.: Прогресс, 1990
Гринин Л.Е. Периодизация истории: Теоретико – математический анализ, М.: Комкнига //URSS.,2006
Гринин Л.Е. Философия, социология и теория истории. Изд. 3-е, Волгоград.
Неформальная экономика. Россия и мир./ под.ред.Т.Шанина – М.: Логос, 1999

downloaded from KitabYurdu.org

Wallerstein I. Unthinking Social Science. The Limits of Nineteenth-Century Paradigms. Cambridge: Polity Press, 1991
Бродель Ф. Материальная цивилизация, экономика, капитализм.XV-XVII вв. Т3.М.: Прогресс, 1992
Wallerstein I. The West, Capitalizm, and the Modern World-System, Review, Vol. XV, N4. (Fall 1992)
Wallerstein I "Capitalist Civilization", Chinese University Bulletin? Supplement 23; 1992
Wallerstein I. The Essential Wallerstein. N.Y. The New Press, 2000
Абу Лохуд Дж. Переструктурируя миросистему, предшествующую Новому времени. М.: Время мира 2. 2001
Gills B., Frank A.G. Üorld System Cycles, Crises and Hegemonal Shifts. 1700 BC to Ad 1700. Review 15/14; 1992
Чейз-Данн К., Холл Т. Два, три, много миросистем. М.: Время мира 2., 2001
Коротаев А.В., Малков А.С., Халтурина Д.А. Законы истории: Математическое моделирование развития Мир-системы. Демография, Экономика, Культура. М.: Комкнтга / URSS., 2007
Carneiro R. Chiefdom-Level Warfare as Exemplified in Fiji and the Causa vallery, Cambridge, UK; 1990,
Сакинз М. Экономика каменного века. М.: ОГИ, 1999.
Earle T. Chiefdams in Archaelogical and Ethnohistorical Perspective. Annual Review of Anthropology, 1987.
Классен Х.Й.М. Проблемы, парадоксы и перспективы эволюционизма. Альтернативные пути к цивилизации. М.: Логос, 2000
Adams R. Energy and Structure. A Theory of Social Poüer. Austin, TX; University of texas press; 1975
Павленко Ю.В. Альтернативные подходы к осмыслению истории и проблема их синтеза. Философия и общество 3; Киев, 1997.
Текен Ф.К теории общественных формаций. М.: Прогресс, 1975.
Фурсов А.И. Восток, Запад, капитализм. Капитализм на Востоке во второй половине XX века. М.: Восточная литература
Godelier M. La notion de "production asiatique" et les schemas Marxistes devolution des societes. Paris; 1969
Melotti K.D. Mark and the Third World. London; Macmillan., 1977
Bondarenko D.M. Homoarchy: A principle of Cultures Organizatiom. The 13-th – 19-th Centuries benin Kingdom as a Nonstate Supercamplex Society M., KomKniqa/ URSS., 2006.

downloaded from KitabYurdu.org

Frank A.G. Sosiology of Development and Underdevelopment of Sosiology// N.Y.1969
Wallerstein I. The Present State of the Debate on World İntequality // Montreal, 1975,
Gourvitch G. Determinismes sociauxet liberte humanaivie. Paris, 1963
Бродель Ф. Материальная цивилизация, экономика и капитализм. XV-XVIII вв. 1986, Т.1. структуры повседневности: возможное и невозможное.
Дьяконов И.М. Пути истории. От древнейшего человека до наших дней. М.: Восточная литература, 1994
Шнирельман В.А. Возникновение производящего хозяйства. М., Наука, 1989
Shanks M.,C.Tilley., Sosial Theory and Archeology Cambridge. Polite Press, 1987
Carneiro R.L. A false Dichotomy in Tracing the Rise of the state. Process vs. Strages. Vladivostok. FEBRAS, 2000
Ясперс К. Смысл и назначение истории. М.: Республика, 1994.
Goudsblom J.Human History and Long-Term Social Processes. Toward a Synthesis of Chronbology and Phaseology. New York., N4; Sharpe. 1996
Bentley J.H. Cross- Cultural Interaction and Periodization in World History .American Historical Review (June) 1996.
Сорокин П.А. Так называемых факторах социальной эволюции. М.: Политиздат., 1992.
История Древнего мира. Расцвет древних обществ// под ред. И.М. Дьяконова, М., 1989.
Антонов Н.К. Лексика по тюркологии. Якутск, 1984.
Pandey R. Sosiology of Development. Delhi, 1985
Гудыменок А.В., Старостин Б.С. Социокультурный облик развивающихся обществ. Социальные процессы: соотношение современного и традиционного//Развивающиеся страны: экономический рост и социальный прогресс. М., 1983.
В.К.Ломакин. Мировая экономика. М., Финансы, 1998
Завъялов П.С. Формула успеха: Маркетинг. М.: «МО»., 1991
Котлер Ф. Основы маркетинга. М.: Прогресс, 1992
Ф.фон Хайек. Пагубная самонадеянность. Ошибки социализма. М., 1991,
Leakey R.E. The Making of Mankind. New York: Dutton, 1981
Herskovits M.J. Economic Anthropology, a Study in Comparative Economics. New York: ( Alfred Knopf, inc).1960

downloaded from KitabYurdu.org

Childe V.Cordon Man Makes Himself, introduction by Sally Green. Bradford – on-Avon, Wiltshire: Moonraker 1981.

Ф.Бастиа. Экономические софизмы. СПб; Промышленность, 1862

Б.Гильдербранд-Политическая экономия настоящего и будущего СПб, 1860

Г.Шмоллер. Народное хозяйство, наука о народном хозяйстве и ее методы. М; 2007

К.Бюхер. Возникновение народного хозяйства. Директмедиа Паблишинг; 1907.

В.Зомбарт. Буржуа: этюды по истории духовного развития современного экономического человека. М.: Наука, 1999.

А.Смит. Исследование о природе и причине богатства народов. Т1., М: ГСЭИ, 1935

Политическая экономия (учебник). М: Политическая литература» 1980.

К.Маркс, Ф.Энгельс. Соч. Т. 4

В.И.Ленин Полн. собр. соч. Т.27

Eucken W.Drundsatse der Wirtchaftspolitik, Bern, Franke Verlag, Tubingen. Mohr Verlad. 1952

Э.Чемберлин. Теория монополитической конкуренции. Реориентация теории стоимости. М: Экономика, 1996

В.Богачев. Монополия в советской экономике //Экономические науки, 1990.-№ 9,

Stark D. Recombinat Property in East European Capitalism-American Journal of Sociolopy, 1996. Vol. 101 N4.

М.И.Кныш. Конкурентные стратегии. Санкт-Петербург, 2000

Э.Дж.Долан, Д.Е.Линдсей. Рынок: микроэкономическая модель. Санкт-Петербург. 1992

А.Пигу. Экономическая теория благосостояния. Т.1, М., 1985

Ван Дер Вее. История мировой экономики. М.: Наука, 1995

Розенберг Н., Бридцелл. Л.Э. Как Запад стал богатым – Новосибирск: Экар, 1995

К.Р.Маккопелл, С.Л.Брю. Экономикс: Принципы, проблемы и политика. В 2 т. Т 1. М., 1992

Э. Денисон. Исследовение различий в темпах экономического роста – М.: Прогресс, 1971.

Зубарева Т.С. История экономики: Учеб. пособие, Ч III. Новосибирск: НГТУ,

downloaded from KitabYurdu.org

Антипов Н.П. Экономическая интеграция в мировой экономике и транснациональные корпорации// Междунар. публичное и частное право.- 2001.- № 2.

Паньков В.С. Мировая экономика на пути к 2015 году// Экономика XXI века. 2002.-N8,

Экономическая энциклопедия/ Гл.ред. Л.И.Абалкин. М.: ОАО «Экономика», 1999

Ведин Н.В. Постиндустриальное общество: становление новой системы присвоения// Проблемы современной экономики.- 2002.- № 1.

Отчет компании Metrcinet.com "The Global New Economy İndex: a Cyber-Atlas", 2-nd edition, 2000.

Отчет компании McCounell İnternational "Risk E-Business: Seizing the Opportunity of Global E-Readiness, август, 2000г" http://www.mcconellinternational.com /ereadiness/ Ereadiness Report. htm

Севальников А.Ю. Виртульная реальность и проблемы ее описания // Смирновские чтения – М., 1999

Погорлецкий А.И. Экономика зарубежных стран. СПБ, 2000

Минс Г. Шнайдер Д. Метакапитализм и революция в электронном бизнесе: какими будут компании и рынки в XXI веке/ Пер. с англ. М., 2001

Стиглиц Д. Ревущие девяностые. М.,2005

A.Giddens A Third Way and its Critics/L-2000.

Листопад М.Е. Экономическая глобализация и проблемы национальной и международной безопасности// Проблемы современной экономики, 2009.-N4 (28),.

Малейченко В.Н. Глобализация как выражение системного кризиса капитализма// Глобализация и проблемы экономического развития России – М, 2002.

Скрипнюк Д.Ф.Социальный аспект глобализации// Проблемы современной экономики 2007.- N3

Freedman M. Free to Choice. N.Y., 1980.

Scholte J.A. Globalization: A critical introduction – L; Macmillan, 2000.

Unctad. World İnvesment Report, 2005. N4. and Geneva.

Кризисология и экономическая наука в начале XXI века: деловые циклы и циклы пузырей, 31.07.2009. (http:// www.polit.nnov.ru 2009.07.14 gristcrisisology 51)

downloaded from KitabYurdu.org

Кузнецов Б.Л. Гипотеза синергетического рынка в свете феноменологической теории фазовых переходов.Л.Ландау// Вопросы философии.- 2005.- N8.

Mondelbrot B. The Fraktal Geometry of Nature, New York, W.H. Frecman, 1982

Г.Хакен Синергетика. М.: Мир, 1980.

Интегральная эпистемология. СПб, 2003.

Хайдеггер М. Время и бытие: Статьи и выступления. М.: Республика, 1993.

М.З.Бор. История мировой экономики. М., 1998

Ф.Хайек. Контрреволюция науки (этюды о злоупотреблениях разумом). М., 1999

downloaded from KitabYurdu.org

# *Əlavə 1. POSTSOSİALİST ÖLKƏLƏRİ KEÇİD DÖVRÜNDƏ. MDB ÖLKƏLƏRİNDƏ MAKROSTRUKTURUN BEYNƏLXALQ MÜQAYİSƏLİLİYİ (ÜDM-Ə NİSBƏTƏN %-LƏ) ƏLAVƏ 1.1*

| *ÖLKƏLƏR* | *ÜDM (mlrd. dol.) $* | *Kənd təsərrüfatı istehsalı ÜDM-ə nisbətən (%)* | *Sənaye ÜDM-ə nisbətən (%)* | *Xidmət ÜDM-ə nisbətən (%)* | *İstehlak* | | *Məcmu daxili investisiyalar* | *Məcmu Daxili yığım* | *Vergi daxil olmalar* | *Xərclər* | *Dövlət büdcəsinin defisiti* |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | *Şəxsi* | *Dövlət* | | | | | |
| 1. Azərbaycan | *3.9* | *20.3* | *38.7* | *41.0* | *84.2* | *11.0* | *39.2* | *4.8* | *18.2* | *25.1* | *-3.9* |
| 2. Rusiya | *276.6* | *7.3* | *35.3* | *57.4* | *64.9* | *13.8* | *16.3* | *21.2* | *18.4* | *25.4* | *-4.7* |
| 3. Ermənistan | *1.9* | *32.9* | *31.8* | *35.3* | - | *11.2* | *19.0* | *-14.2* | - | - | - |
| 4. Gürcüstan | *5.1* | *26.0* | *15.8* | *58.2* | *97.2* | *8.9* | *7.8* | *-6.1* | *4.6* | *8.6* | *-2.5* |
| 5. Qırğızıstan | *1.7* | *46.0* | *23.6* | *30.4* | *82.1* | *15.7* | *18.3* | *2.2* | - | - | - |
| 6.Türkmənistan | *2.4* | *24.6* | *41.8* | *33.6* | - | - | - | - | - | - | - |
| 7.Ukrayna | *43.6* | *14.4* | *34.4* | *51.2* | *56.2* | *26.1* | *20.7* | *17.7* | - | - | - |
| 8.Qazaxıstan | *22.0* | *9.2* | *31.2* | *59.6* | *76.3* | *10.9* | *17.3* | *12.8* | - | - | - |
| 9. Belarus | *22.6* | *13.4* | *46.1* | *40.5* | *60.4* | *19.5* | *26.1* | *20.1* | *28.7* | *32.2* | *-0.9* |
| 10.Özbəkistan | *20.4* | *31.2* | *27.0* | *41.9* | *59.4* | *21.6* | *19.2* | *19.0* | - | - | - |
| 11. Tacikistan | *2.2* | *5.7* | *29.7* | *64.6* | *75.7* | *9.1* | *14.7* | *15.2* | - | - | - |
| 12.Moldova | *1.6* | *28.9* | *31.3* | *39.8* | *84.4* | *18.4* | *26.0* | *-2.8* | - | - | - |
| *Bütövlükdə inkişaf etmiş ölkələr* | *554.5* | *13.5* | *34.1* | *52.5* | *61.2* | *13.1* | *25.0* | *25.6* | *68.7* | - | - |
| *Şərqi Avropa və MDB* | *806.6* | *9.9* | *35.0* | *55.2* | *63.2* | *16.5* | *22.1* | *20.2* | *69.8* | - | - |
| *Bütün dünya* | *28228.1* | *4.8* | *30.6* | *62.1* | *62.6* | *15.3* | *21.5* | *22.1* | *75.8* | - | - |
| *İnkişaf etməkdə olan ölkələr* | *22938.8* | *2.2* | *29.6* | *64.6* | *62.9* | *15.5* | *20.7* | *21.5* | *77.5* | *29.8* | *-0.6* |

***Mənbə:*** Доклад о развитии человека за 2000 год. Нью-Йорк, Университет Оксфорд, пресс, 2000

downloaded from KitabYurdu.org

## *MDB ÖLKƏLƏRİNİN XARİCİ DÖVLƏT BORCU VƏ XARİCİ YARDIMIN BEYNƏLXALQ MÜQAYİSƏLİLİYİ ƏLAVƏ 1.2*

| ÖLKƏLƏR | XARİCİ YARDIM | | | | | | XARİCİ BORC | | | | XARİCİ BORCA XİDMƏT | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi (mln.dol) | | ÜDM-ə nisbətən (%) | | Adambaşına (dol) | | Cəmi (mln.dol) | | ÜDM-a nisbətən (%) | | İxracın həcmindən (%) | |
| | 1992 | 1998 | 1992 | 1998 | 1992 | 1998 | 1985 | 1998 | 1985 | 1998 | 1985 | 1998 |
| 1.Belarus | *273.1* | *28.3* | *0.9* | *0.1* | *26.8* | *2.8* | - | *1120* | - | *5.0* | - | *2.0* |
| 2.Rusiya | *1935* | *1017.2* | *0.4* | *0.3* | *13.1* | *6.9* | *28.3* | *183.6* | - | *69.4* | - | *12.1* |
| 3.Gürcüstan | *5.3* | *162.4* | *0.2* | *3.2* | *1.0* | *29.9* | - | *1674* | - | *31.9* | - | *7.6* |
| 4.Qazaxıstan | *9.5* | *207.1* | - | *1.0* | *0.6* | *13.2* | - | *5714* | - | *26.4* | - | *13.0* |
| 5.Ukrayna | *557.6* | *380.4* | *0.5* | *0.9* | *10.8* | *7.6* | - | *12718* | - | *29.8* | - | *11.4* |
| 6.Azərbaycan | *5.6* | *88.7* | *0.1* | *2.2* | *0.8* | *11.2* | - | *693* | - | *17.7* | - | *23* |
| 7.Ermənistan | *22.5* | *138.5* | *0.9* | *7.6* | *6.1* | *36.4* | - | *800* | - | *42.0* | - | *8.9* |
| 8.Qırğızıstan | *3.5* | *216.1* | *0.1* | *13.1* | *0.8* | *46.0* | - | *1148* | - | *69.4* | - | *9.4* |
| 9.Türkmənistan | *5.4* | *16.6* | *0.1* | *0.6* | *1.4* | *3.5* | | *226* | - | *87.7* | - | *42.0* |
| 10.Özbəkistan | *1.4* | *144.3* | - | *1.0* | *0.1* | *6.0* | - | *3162* | - | *15.6* | - | *13.2* |
| 11.Tacikistan | *11.7* | *105.1* | *0.4* | *4.9* | *2.1* | *17.2* | - | *1070* | - | *49.4* | - | *13.7* |
| 12.Moldova | *9.7* | *33.3* | *0.3* | *1.9* | *2.2* | *7.8* | - | *1035* | - | *62.5* | - | *18.5* |
| ***Şərqi Avropa və MDB*** | *5768* | *5565* | *0.6* | *0.7* | *14.8* | *14.0* | - | *360.8* | - | *48.8* | - | *13.5* |
| ***İnkişaf etməkdə olan ölkələr*** | *45205* | *34449* | *1.9* | *3.2* | *11.1* | *7.5* | *857.562* | *2.051.435* | *41.3* | *42.8* | *28.3* | *20.1* |
| ***Bütün dünya*** | *53044* | *41102* | *1.7* | *2.9* | *11.8* | *8.3* | - | *2.412.334* | - | *43.6* | - | *18.9* |

***Mənbə:*** Доклад о развитии человека за 2000 год. Нью-Йорк, Университет Оксфорд, пресс,2000.

downloaded from KitabYurdu.org

## *ƏSAS İQTİSADİ GÖSTƏRİCİLƏR ÜZRƏ AZƏRBAYCAN-MDB MÜQAYİSƏSİ (1995=100%) ƏLAVƏ 1.3*

| | ÜDM | Sənaye istehsalı | Sənaye istehsalçılarının qiymət indeksi | Kənd təsərrüfatı istehsalı | Yükdaşımaları | Yayaşayış binalarının istifadəyə verilməsi | Əsas kapitala investisiya qoyuluşu | İstehlak qiymətləri indeksi | Pərakəndə mal dövriyyəsi | İxrac | İdxal |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **MDB üzrə orta göstəricilər** | | | | | | | | | | | |
| *1996* | *96.8* | *96* | *152* | *95* | *81* | *88* | *83* | *152* | *102* | *110* | *108* |
| *1998* | *94.2* | *97* | *210* | *86* | *70* | *85* | *76* | *224* | *106* | *95* | *103* |
| *2000* | *105* | *114* | *543* | *92* | *77* | *83* | *91* | *514* | *108* | *102* | *105* |
| **Azərbaycan** | | | | | | | | | | | |
| *1996* | *101.3* | *93* | *198* | *103* | *94* | *89* | *210* | *120* | *114* | *99.1* | *144* |
| *1998* | *117.9* | *96* | *195* | *103* | *119* | *89* | *305* | *123* | *145* | *95* | *161* |
| *2000* | *141.1* | *106* | *221* | *123* | *192* | *74* | *313* | *115* | *180* | *273.8* | *175.5* |

downloaded from KitabYurdu.org

## *AZƏRBAYCAN RESPUBLİKASININ 10 ƏSAS TİCARƏT PARTNYORU ƏLAVƏ 1.4*

| *ÖLKƏLƏR* | İDXAL (XÜSUSİ ÇƏKİSİ, %) | | | | *ÖLKƏLƏR* | İXRAC (XÜSUSİ ÇƏKİSİ, %) | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1996 | 1998 | 2000 | 2000-ci il 1996-cı ilə nisbətən | | 1996 | 1998 | 2000 | 2000-ci il 1996-cı ilə nisbətən |
| 1.Rusiya | ***16.5*** | ***18.0*** | ***21.3*** | ***+4.8*** | 1. İtaliya | ***1.6*** | ***7.4*** | ***43.7*** | ***+42.1*** |
| 2.Türkiyə | ***22.5*** | ***20.4*** | ***11.0*** | ***-11.5*** | 2.Fransa | ***0.1*** | ***1.9*** | ***11.8*** | ***+11.7*** |
| 3.ABŞ | ***1.8*** | ***3.7*** | ***8.9*** | ***+7.1*** | 3.İsrail | ***0.0*** | ***0.1*** | ***7.7*** | ***+7.7*** |
| 4.İngiltərə | ***1.5*** | ***6.4*** | ***5.0*** | ***+3.5*** | 4. Türkiyə | ***6.2*** | ***22.4*** | ***6.0*** | ***-0.2*** |
| 5.Almaniya | ***8.0*** | ***4.3*** | ***5.8*** | ***-2.2*** | 5. Rusiya | ***17.6*** | ***17.5*** | ***5.6*** | ***-12*** |
| 6.İran | ***6.9*** | ***4.0*** | ***4.8*** | ***-2.1*** | 6.Gürcüstan | ***14.5*** | ***12.7*** | ***4.3*** | ***-10.2*** |
| 7.Qazaxıstan | ***2.0*** | ***4.1*** | ***4.9*** | ***+2.9*** | 7. İsveçrə | ***0.3*** | ***2.8*** | ***2.6*** | ***+2.3*** |
| 8.İsveçrə | ***1.6*** | ***1.2*** | ***4.8*** | ***+3.2*** | 8. Ukrayna | ***3.5*** | ***2.0*** | ***1.4*** | ***-2.1*** |
| 9.Ukrayna | ***9.8*** | ***8.6*** | ***3.1*** | ***-6.7*** | 9. İngiltərə | ***2.1*** | ***6.7*** | ***1.1*** | ***-1*** |
| 10.İtaliya | ***0.3*** | ***0.8*** | ***2.4*** | ***+2.1*** | 10.Almaniya | ***0.5*** | ***0.9*** | ***0.5*** | ***0*** |

downloaded from KitabYurdu.org

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏSAS İNTEQRASİYA BLOKLARI VƏ AYRI-AYRI ÖLKƏ QRUPLARI İLƏ XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN DİNAMİKASI (mln.ABŞ.dol.)

**ƏLAVƏ 1.5**

| QRUPLAŞMALAR | 1996 | 1998 | 2000 | 2000-ci il 1996-cı ilə nisbətən | |
|---|---|---|---|---|---|
| | | | | +; - | % |
| I. MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ | | | | | |
| CƏMİ.... | 640.9 | 636.7 | 610.7 | -30.2 | -4.8% |
| O CÜMLƏDƏN: a) İdxal | 350.8 | 404.6 | 375.5 | +24.7 | +7.0% |
| b) İxrac | 290.1 | 232.1 | 235.2 | -54.9 | -19.0% |
| II. AVROPA İTTİFAQI (Aİ) | | | | | |
| CƏMİ.... | 194.6 | 355.2 | 1280.8 | +1086.2 | +6.6 dəfə |
| O CÜMLƏDƏN: a) İdxal | 135.9 | 223.7 | 227.2 | +91.3 | +67.2% |
| b) İxrac | 58.7 | 131.5 | 1053.6 | +994.9 | +17.9 dəfə |
| III. İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI (İƏT) | | | | | |
| CƏMİ.... | 651.8 | 551.7 | 409.3 | -242.5 | -37.3% |
| O CÜMLƏDƏN: a) İdxal | 328.4 | 337.7 | 258.2 | -70.2 | -21.4% |
| b) İxrac | 323.4 | 214.0 | 151.1 | -172.3 | -53.3% |
| IV. GUÖAM (Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan və Moldova) | | | | | |
| CƏMİ.... | 261.3 | 215.2 | 585.6 | +324.3 | +2.2dəfə |
| O CÜMLƏDƏN: a) İdxal | 138.5 | 123.7 | 486.3 | +347.8 | +3.5dəfə |
| b) İxrac | 122.8 | 91.5 | 99.3 | -23.5 | -19.2% |
| V. QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI (QDİƏT) | | | | | |
| CƏMİ.... | 789.3 | 895.8 | 779.6 | -9.7 | -1.3 |
| O CÜMLƏDƏN: a) İdxal | 511.4 | 541.1 | 443.4 | -68.0 | 13.3% |
| b) İxrac | 277.9 | 354.7 | 336.2 | +58.3 | +20.9% |
| | | | | | |
| | | | | | |
| | | | | | |

| VI. NEFT İXRAC EDƏN ÖLKƏLƏR TƏŞKİLATI (OPEK) |
|---|

downloaded from KitabYurdu.org

| | | | |
|---|---|---|---|
| *CƏMİ....* | ***246.6*** | ***136.7*** | |
| *O CÜMLƏDƏN: a) İdxal* | ***17.4*** | ***88.6*** | |
| *b) İxrac* | ***229.2*** | ***48.1*** | |
| VII.İSLAM KONFRANSI TƏŞKİLATI (İKT) | | | |
| *CƏMİ....* | ***765.2*** | ***610.6*** | |
| *O CÜMLƏDƏN: a) İdxal* | ***438.6*** | ***391.3*** | |
| *b) İxrac* | ***326.6*** | ***219.3*** | |
| VIII.ASİYA-SAKİT OKEAN HÖVZƏSİNİN İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI (ASİƏT) | | | |
| *CƏMİ....* | ***322.1*** | ***378.2*** | |
| *O CÜMLƏDƏN: A) İdxal* | ***207.7*** | ***255.6*** | |
| *B) İxrac* | ***114.4*** | ***122.6*** | |
| IX. AVROPA AZAD TİCARƏT ASSOSİYASİYASI (AATA) | | | |
| *CƏMİ....* | ***17.2*** | ***33.7*** | |
| *O CÜMLƏDƏN: a) İdxal* | ***15.3*** | ***16.5*** | |
| *b) İxrac* | ***1.9*** | ***17.2*** | |
| X. CƏNUB-ŞƏRQİ ASİYA DÖVLƏTLƏRİNİN ASSOSİYASİYASI (ASEAN) | | | |
| *CƏMİ....* | ***0.54*** | ***6.16*** | |
| *O CÜMLƏDƏN: a) İdxal* | ***0.50*** | ***5.5*** | |
| *b) İxrac* | ***0.04*** | ***0.66*** | |
| XI. İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATI (İƏİT) | | | |
| *CƏMİ....* | ***521.5*** | ***829.5*** | |
| *O CÜMLƏDƏN: a) İdxal* | ***417.7*** | ***526.9*** | |
| *b) İxrac* | ***103.8*** | ***302.6*** | |

downloaded from KitabYurdu.org

*ƏLAVƏ 1.5-in ardı*

**AZƏRBAYCANIN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN İNKİŞAFI (ƏVVƏLKİ İLƏ NİSBƏTƏN, FAZİLƏ) ƏLAVƏ 1.6**

| İLLƏR | DÖVRİYYƏ | İDXAL | İXRAC |
|---|---|---|---|
| 1992 | 60.6 | 50.0 | 70.0 |
| 1993 | 55.8 | 66.9 | 48.8 |
| 1994 | 105.7 | 123.7 | 90.1 |
| 1995 | 91.2 | 85.8 | 97.6 |
| 1996 | 122.0 | 143.9 | 99.1 |
| 1997 | 99.0 | 82.7 | 123.8 |
| 1998 | 106.8 | 135.5 | 77.6 |
| 1999 | 116.8 | 96.2 | 153.3 |
| 2000 | 148.5 | 113.1 | 187.8 |

downloaded from KitabYurdu.org

## AZƏRBAYCAN RESPUBLİKASININ TƏDİYYƏ BALANSININ STRUKTURU VƏ DİNAMİKASI ƏLAVƏ 1.7

**(mln.ABŞ dol.)**

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2001-ci il 2000-ci ilə nisbətən %-lə |
|---|---|---|---|---|---|---|---|---|
| CARİ HESAB | | | | | | | | |
| İXRAC (FOB) | 612 | 644 | 808 | 678 | 1025 | 1858 | 2079 | 12% |
| O CÜMLƏDƏN: NEFT SEKTORU | 257 | 407 | 388 | 133 | 383 | 1015 | 1109 | 9% |
| İDXAL (FOB) | -985 | -1338 | -1375 | -1724 | -1433 | -1539 | -1465 | -5% |
| O CÜMLƏDƏN: NEFT SEKTORU | -30 | -213 | -132 | -356 | -195 | -147 | -138 | -6% |
| TİCARƏT BALANSI | -373 | -694 | -567 | -1046 | -407 | 319 | 614 | 92% |
| O CÜMLƏDƏN: NEFT SEKTORU | 227 | -194 | 256 | -223 | 188 | 869 | 971 | 12% |
| XİDMƏTLƏRİN KREDİTİ | 180 | 149 | 342 | 332 | 256 | 260 | 290 | 12% |
| XİDMƏTLƏRİN DEBETİ | -312 | -441 | -726 | -701 | -485 | -485 | -665 | 37% |
| XİDMƏTLƏR BALANSI | -132 | -292 | -384 | -369 | -229 | -225 | -375 | 67% |
| O CÜMLƏDƏN: NEFT SEKTORU | -167 | -166 | -310 | -286 | -189 | -150 | -327 | 118% |
| DİGƏR SEKTORLAR | 35 | -125 | -74 | -83 | -40 | -75 | -48 | -35% |
| TİCARƏTİN VƏ XİDMƏTLƏRİN BALANSI | -505 | -986 | -951 | -1415 | -636 | 94 | 239 | 154% |
| FAKTOR GƏLİRLƏRİ | -6 | -12 | -10 | -13 | -45 | -335 | -367 | 9% |
| NEFT SEKTORU | ... | -14 | -19 | -27 | -51 | -361 | -371 | 3% |
| DİGƏR SEKTORLAR | ... | 2 | 10 | 13 | 6 | 26 | 4 | -85% |
| CARİ TRANSFERLƏR | 111 | 67 | 45 | 64 | 82 | 73 | 77 | 6% |
| DİGƏR CARİ ƏMƏLİYYATLAR | 105 | 54 | 36 | 51 | 37 | -262 | -291 | 11% |
| CARİ ƏMƏLİYYATLAR HESABI | -400 | -931 | -915 | -1364 | -600 | -168 | -52 | 69% |
| KAPİTAL HESABI | | | | | | | | |
| DAXİLOLMALAR | 74 | 45 | 81 | 83 | 225 | 268 | 182 | -32% |
| LAYİHƏLƏR ÜZRƏ DAXİL OLMALAR | 74 | 45 | 46 | 83 | 183 | 268 | 182 | -32% |
| PROQRAMLAR ÜZRƏ DAXİL OLMALAR | 0 | 0 | 35 | 0 | 42 | 0 | 0 | 0% |
| O CÜMLƏDƏN: BYİB | 0 | 0 | 35 | 0 | 42 | 0 | 0 | 0% |
| ÖDƏNİŞLƏR | 0 | 0 | -55 | -10 | -17 | -17 | -45 | 164% |
| BVF-NUN KREDİTLƏRİ ÜZRƏ DAXİLOLMALAR | 102 | 107 | 78 | 40 | 112 | 0 | 10 | 2400% |
| BVF-NUN KREDİTLƏRİ ÜZRƏ ÖDƏNİŞLƏR | 0 | 0 | 0 | 0 | -16 | -53 | -40 | -25% |

downloaded from KitabYurdu.org

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| *XALİS RƏSMİ BORCLAR* | ***176*** | ***152*** | ***104*** | ***113*** | ***303*** | ***198*** | ***106*** | ***-46%*** |
| *NEFT SEKTORU* | ***155*** | ***416*** | ***780*** | ***889*** | ***527*** | ***453*** | ***712*** | ***57%*** |
| *İNVESTİSİYALARIN REPARTİASİYASI* | ***0*** | ***0*** | ***0*** | ***-133*** | ***-333*** | ***-558*** | ***-593*** | ***6%*** |
| *DİGƏR SEKTORLAR (XALİS)* | ***10*** | ***174*** | ***288*** | ***192*** | ***161*** | ***135*** | ***101*** | ***-25%*** |
| *XALİS BİRBAŞA VƏ PORTFEL İNVESTİSİYALAR* | ***165*** | ***591*** | ***1068*** | ***949*** | ***355*** | ***29*** | ***220*** | ***649%*** |
| *NEFT BONUSU* | ***175*** | ***37*** | ***64*** | ***75*** | ***155*** | ***100*** | ***6*** | ***-94%*** |
| *DİGƏR İNVESTİSİYALAR (XALİS)* | ***11*** | ***122*** | ***-285*** | ***246*** | ***15*** | ***114*** | ***-16*** | ***-114%*** |
| *KAPİTALIN VƏ MALİYYƏNİN HƏRƏKƏTİ HESABI* | ***527*** | ***901*** | ***951*** | ***1383*** | ***828*** | ***442*** | ***317*** | ***-28%*** |
| *O CÜMLƏDƏN: NEFT SEKTORU* | ***330*** | ***453*** | ***844*** | ***964*** | ***682*** | ***553*** | ***125*** | ***-77%*** |
| *XALİS SƏFLƏR* | ***...*** | ***...*** | ***49*** | ***23*** | ***0*** | ***0*** | | ***0%*** |
| *BEYNƏLXALQ EHTİYATLARIN DƏYİŞİLMƏSİ* | ***...*** | ***95*** | ***-254*** | ***19*** | ***-228*** | ***-21*** | ***-266*** | ***1165%*** |
| *ÜMUMİ BALANS* | ***127*** | ***-30*** | ***36*** | ***19*** | ***229*** | ***274*** | ***265*** | ***-3%*** |
| *MALİYYƏLƏŞDİRMƏ* | | | | | | | | |
| *O CÜMLƏDƏN: NEFT SEKTORU* | | | | | | ***1212*** | ***1332*** | ***10%*** |
| *MİLLİ BANKIN AKTİVLƏRİ* | | | ***-244*** | ***-19*** | ***-229*** | ***-21*** | ***-266*** | ***1190%*** |

***Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı***

downloaded from KitabYurdu.org

## *NEFT KONTRAKTLARININ ƏSAS GÖSTƏRİCİLƏRİ*

***ƏLAVƏ 1.8***

| № | *NEFT KONTRAKTLARI* | *İSTEH-SALIN HƏCMİ (mln. ton)* | *İMZALANMA TARİXİ* | *XARİCİ İŞTİRAKÇILARIN SAYI* | *İNVESTİSİYA (mlrd.dol)* | *AZƏRBAYCANIN PAYI (%)* |
|---|---|---|---|---|---|---|
| 1 | "AZƏRİ","ÇİRAQ", "GÜNƏŞLİ" | ***630.0*** | 20.09.1994 | *11* | ***12.0-14.0*** | ***10.0*** |
| 2 | "QARABAĞ" | ***80-150*** | 10.09.1995 | *4* | ***1.7-2.0*** | ***7.5*** |
| 3 | "ŞAHDƏNİZ" | ***100.0*** | 04.06.1996 | *6* | ***4.0*** | ***10.0*** |
| 4 | "ƏŞRAFİ", "DAN ULDUZU" | ***100-150*** | 14.12.1996 | *4* | ***1.5-2.0*** | ***20.0*** |
| 5 | "LƏNKƏRAN", "TALIŞ DƏNİZ" | ***100.0*** | 13.01.1997 | *5* | ***1.5-2.0*** | ***25.0*** |
| 6 | "YALAMA" | ***100.0*** | 03.07.1997 | *2* | ***1.5-2.0*** | ***40.0*** |
| 7 | "NAXÇIVAN" | ***75-100*** | 01.08.1997 | *1* | ***5.0*** | ***50.0*** |
| 8 | "ABŞERON" | ***150-300*** | 01.08.1997 | *3* | ***3-3.5*** | ***50.0*** |
| 9 | "OĞUZ" | ***75.5*** | 01.08.1997 | *1* | ***2.0*** | ***50.0*** |
| 10 | "KÜRDAŞI" | ***90-120*** | 02.07.1998 | *4* | ***2.0*** | ***50.0*** |
| 11 | "CƏNUB-QƏRBİ QOBUSTAN" | ***30-60*** | 02.07.1998 | *2* | ***0.3-0.5*** | ***20.0*** |
| 12 | "İNAM" | ***150-250*** | 21.08.1998 | *3* | ***3.0-4.0*** | ***50.0*** |
| 13 | "MURADXANLI" | ***50-80*** | 21.08.1998 | *1* | ***1.0-1.5*** | ***50.0*** |
| 14 | "ARAZ", "ALOV", "ŞƏRQ" | ***150-300*** | 21.07.1998 | *5* | ***9.0*** | ***40.0*** |
| 15 | "KÜRSƏNGİ", "QARABAĞLI" | ***60-90*** | 15.07.1998 | *2* | ***0.5-0.8*** | ***50.0*** |
| 16 | "ATƏŞGAH", "YANAN TAVA", "MUĞAN DƏNİZ" | ***100.0*** | 25.07.1998 | *4* | ***2.0*** | ***50.0*** |
| 17 | "ZƏFƏR", "MƏŞƏL" | ***120-150*** | 27.04.1999 | *2* | ***2.0*** | ***50.0*** |
| 18 | "LERİK DƏNİZ", "SAVALAN" | ***100-120*** | 27.04.1999 | *2* | ***2.0*** | ***50.0*** |
| 19 | "PADAR" | ***50-100*** | 27.04.1999 | *2* | ***08.-1.0*** | ***20.0*** |

downloaded from KitabYurdu.org

## *AZƏRBAYCANDA ÜMUMİ DAXİLİ MƏHSULUN HƏCMİNİN DİNAMİKASI (faizlə)* *ƏLAVƏ 1.9*

| | 1995 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1995** | 100 | | | | | | | | | | | | | |
| **1996** | 101.3 | | | | | | | | | | | | | |
| **1997** | 107.2 | 100 | | | | | | | | | | | | |
| **1998** | 117.9 | 110 | 100 | | | | | | | | | | | |
| **1999** | 126.6 | 118.1 | 107.4 | 100 | | | | | | | | | | |
| **2000** | 140.7 | 131.3 | 119.3 | 111.1 | 100 | | | | | | | | | |
| **2001** | 154.5 | 144.2 | 131.1 | 122.1 | 109.9 | 100 | | | | | | | | |
| **2002** | 170.9 | 159.5 | 145 | 135 | 121.5 | 110.6 | 100 | | | | | | | |
| **2003** | 190.1 | 177.4 | 161.3 | 150.2 | 135.2 | 123 | 111.2 | 100 | | | | | | |
| **2004** | 209.5 | 195.5 | 177.8 | 165.5 | 149 | 135.5 | 122.5 | 110.2 | 100 | | | | | |
| **2005** | 264.8 | 247.1 | 224.7 | 209.2 | 188.3 | 171.3 | 154.8 | 139.3 | 126.4 | 100 | | | | |
| **2006** | 356.1 | 332.3 | 302.2 | 281.4 | 253.3 | 230.4 | 208.2 | 187.3 | 170 | 134.5 | 100 | | | |
| **2007** | 445.2 | 415.4 | 377.8 | 351.8 | 316.6 | 288 | 260.3 | 234.1 | 212.5 | 168.1 | 125 | 100 | | |
| **2008** | 493.3 | 460.3 | 418.6 | 389.8 | 350.8 | 319.1 | 288.4 | 259.4 | 235.5 | 186.3 | 138.5 | 110.8 | 100 | |
| **2009** | 539.2 | 503.1 | 457.5 | 426.1 | 383.4 | 348.8 | 315.2 | 283.5 | 257.4 | 203.6 | 151.4 | 121.1 | 109.3 | 100 |

downloaded from KitabYurdu.org

## *Sahələr üzrə əlavə dəyərin ÜDM-ə görə xüsusi çəkisi,(faizlə) (Azərbaycan) Əlavə 1.10*

| Göstəricilər | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | *25.3* | *24.9* | *20.0* | *18.0* | *18.2* | *15.9* | *14.7* | *13.8* | *12.3* | *10.8* | *8.6* | *6.7* | *6.4* | *5.3* | *6.4* |
| Balıqçılıq, balıqyetişdirmə | *10.2* | *12.4* | *14.8* | *10.7* | *18.5* | *0.2* | *0.2* | *0.2* | *0.2* | *0.2* | *0.6* | *0.4* | *0.1* | *0.3* | *0.3* |
| Mədənçıxarma sənayesi | *11.5* | *10.4* | *8.4* | *8.3* | *6.0* | *27.7* | *29.6* | *28.9* | *27.5* | *29.0* | *42.2* | *50.9* | *53.7* | *52.7* | *44.8* |
| Emal sənayesi | *5.5* | *3.0* | *2.1* | *2.9* | *3.7* | *5.3* | *6.2* | *7.4* | *8.6* | *8.3* | *6.5* | *5.8* | *5.0* | *4.7* | *4.1* |
| Elektrik enerjisi,qaz və suyun istehsalı və bölüşdürülməsi | *0.0* | *0.0* | *0.1* | *0.2* | *0.2* | *3.1* | *1.8* | *1.1* | *1.1* | *1.0* | *0.7* | *0.6* | *0.8* | *1.1* | *1.1* |
| Tikinti | *3.7* | *9.3* | *11.7* | *13.0* | *10.9* | *6.5* | *5.8* | *8.7* | *11.2* | *12.5* | *9.4* | *7.7* | *6.7* | *7.0* | *7.4* |
| Topdan və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri | *5.3* | *5.3* | *6.1* | *5.6* | *6.5* | *6.3* | *7.4* | *7.5* | *7.1* | *7.1* | *6.1* | *5.4* | *5.0* | *5.5* | *7.0* |
| Mehmanxana və restoranlara xidmətin göstərilməsi | *0.7* | *0.5* | *0.4* | *0.6* | *0.6* | *0.4* | *0.4* | *0.4* | *0.5* | *0.6* | *0.5* | *0.5* | *0.6* | *0.8* | *1.0* |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | *17.4* | *10.2* | *10.5* | *12.0* | *10.7* | *12.0* | *10.1* | *9.8* | *10.0* | *9.5* | *7.4* | *6.6* | *7.3* | *6.7* | *8.5* |
| Maliyyə fəaliyyəti | *2.6* | *0.9* | *0.8* | *1.0* | *0.7* | *0.9* | *1.2* | *1.0* | *1.2* | *1.4* | *1.4* | *1.3* | *1.5* | *1.8* | *2.2* |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmət göstərilməsi | *1.0* | *2.5* | *5.8* | *5.8* | *3.5* | *2.7* | *3.2* | *2.3* | *3.0* | *2.9* | *1.4* | *1.8* | *1.4* | *1.6* | *2.1* |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminatın vəzifələri | *2.5* | *2.1* | *1.7* | *1.7* | *2.0* | *2.0* | *2.7* | *3.3* | *3.7* | *3.9* | *3.0* | *2.6* | *1.3* | *1.5* | *2.0* |
| Təhsil | *2.7* | *3.3* | *3.5* | *6.9* | *6.0* | *4.9* | *4.6* | *4.1* | *3.3* | *3.5* | *2.5* | *2.3* | *2.6* | *2.8* | *3.6* |
| Səhiyyə və sosial xidmətlərin göstərilməsi | *0.8* | *1.2* | *1.2* | *2.0* | *2.2* | *1.9* | *1.7* | *1.4* | *1.6* | *1.5* | *1.4* | *1.4* | *0.9* | *1.4* | *1.7* |
| Digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi | *5.1* | *4.9* | *5.8* | *7.8* | *6.8* | *4.6* | *3.2* | *2.7* | *1.7* | *1.4* | *1.3* | *1.5* | *1.1* | *1.6* | *2.0* |
| Maliyyə vasitəçilərinin | *-2.0* | *-1.0* | *-0.3* | *-0.6* | *-0.5* | *-0.6* | *-0.6* | *-0.6* | *-0.6* | *-0.8* | *-0.6* | *-1.0* | *-1.0* | *-1.5* | *-1.8* |

downloaded from KitabYurdu.org

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| şərti hesablanmış xidmət haqqları (MVŞHXH) | | | | | | | | | | | | | | | |
| Fəaliyyət növləri üzrə cəmi | *92.3* | *89.9* | *92.6* | *95.9* | *96.0* | *93.8* | *92.2* | *92.0* | *92.4* | *92.8* | *92.4* | *94.5* | *93.4* | *93.3* | *92.4* |
| Məhsullarla və idxala vergilər (+) | *9.8* | *11.8* | *10.2* | *6.8* | *7.1* | *6.4* | *8.1* | *8.3* | *8.1* | *7.5* | *7.8* | *5.7* | *6.8* | *7.2* | *7.6* |
| Məhsullara subsidiyalar (-) | *2.1* | *1.7* | *2.8* | *2.7* | *3.1* | *0.2* | *0.3* | *0.3* | *0.5* | *0.3* | *0.2* | *0.2* | *0.2* | *0.5* | *0.0* |
| Ümumi daxili məhsul (bazar qiymətlərində) | *100* | *100* | *100* | *100* | *100* | *100* | *100* | *100* | *100* | *100* | *100* | *100* | *100* | *100* | *100* |

downloaded from KitabYurdu.org

## *Əsas makroiqtisadi göstəricilərin indeksi ( əvvəlki ilə nisbətən, faizlə ) (Azərbaycan)* *Əlavə 1.11*

| Göstəricilər | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əhalinin sayı, (ilin sonuna) | 101.1 | 101.1 | 101.1 | 101.1 | 100.8 | 100.8 | 100.8 | 100.8 | 100.8 | 101.1 | 101.1 | 101.1 | 101.1 | 101.2 | 101.1 |
| İqtisadi fəal əhalinin sayı | 99.6 | 102.1 | 100.4 | 100.3 | 100.1 | 100.0 | 100.4 | 100.4 | 100.8 | 100.2 | 100.2 | 102.3 | 100.7 | 100.5 | 100.3 |
| Məşğulluq xidmətlərində qeydiyyatdan keçmiş işsizlərin sayı (ilin sonuna) | 120.0 | 112.8 | 119.9 | 110.5 | 106.8 | 96.7 | 110.8 | 105.2 | 106.7 | 102.9 | 100.7 | 95.6 | 94.0 | 87.8 | 92.4 |
| Ümumi daxili məhsul | 88.2 | 101.3 | 105.8 | 110.0 | 107.4 | 111.1 | 109.9 | 110.6 | 111.2 | 110.2 | 126.4 | 134.5 | 125.0 | 110.8 | 109.3 |
| Ümumi daxili məhsul (1995=100) | 100.0 | 101.3 | 107.2 | 117.9 | 126.6 | 140.7 | 154.6 | 171.0 | 190.1 | 209.5 | 264.8 | 356.2 | 445.3 | 493.4 | 539.2 |
| Ümumi daxili məhsul (2003=100) | | | | | | | | | 100.0 | 110.2 | 139.3 | 187.3 | 234.2 | 259.5 | 283.6 |
| Sənaye məhsulu | 78.6 | 93.3 | 100.3 | 102.2 | 103.6 | 106.9 | 105.1 | 103.6 | 106.1 | 105.7 | 133.5 | 136.6 | 124.0 | 106.0 | 108.6 |
| Sənaye məhsulu (1995=100) | 100.0 | 93.3 | 93.6 | 95.6 | 99.1 | 105.9 | 111.3 | 115.3 | 122.4 | 129.3 | 172.7 | 235.9 | 292.5 | 310.0 | 336.7 |
| Sənaye məhsulu (2003=100) | | | | | | | | | 100.0 | 105.7 | 141.1 | 192.8 | 239.0 | 253.4 | 275.1 |
| Kənd təsərrüfatı məhsulları | 93.0 | 103.0 | 93.9 | 106.2 | 107.1 | 112.1 | 111.1 | 106.4 | 105.6 | 104.6 | 107.5 | 100.9 | 104.0 | 106.1 | |
| ( 1995 = 100 ) | 100.0 | 103.0 | 96.7 | 102.7 | 110.0 | 123.3 | 137.0 | 145.8 | 153.9 | 161.0 | 173.1 | 174.7 | 181.6 | 192.7 | |
| ( 2003 = 100 ) | | | | | | | | | 100.0 | 104.6 | 112.4 | 113.5 | 118.0 | 125.2 | |
| Kapital qoyuluşu | 82.0 | 210.0 | 139.0 | 123.0 | 98.0 | 103.0 | 121.0 | 184.2 | 173.8 | 135.4 | 116.6 | 115.2 | 123.8 | 131.8 | 81.3 |
| Kapital qoyuluşu (1995=100) | 100.0 | 210.0 | 291.9 | 359.0 | 351.9 | 362.4 | 438.5 | 807.8 | 1403.9 | 1900.8 | 2216.4 | 2553.3 | 3160.9 | 4166.1 | 3387.1 |
| Kapital qoyuluşu (2003=100) | | | | | | | | | 100.0 | 135.4 | 157.9 | 181.9 | 225.2 | 296.8 | 241.3 |
| Nəqliyyat sektorunda yük dövriyyəsi | 85.1 | 100.6 | 127.5 | 113.2 | 122.5 | 107.7 | 115.7 | 109.9 | 109.9 | 104.5 | 114.0 | 163.2 | 180.2 | 113.6 | 110 |
| (1995 = 100 ) | 100.0 | 100.6 | 128.3 | 145.2 | 177.9 | 191.6 | 221.6 | 243.6 | 267.7 | 279.7 | 318.9 | 520.4 | 937.8 | 1065.4 | 1175.1 |
| (2003 = 100 ) | | | | | | | | | 100.0 | 104.5 | 119.1 | 194.4 | 350.3 | 398.0 | 439.0 |
| Nəqliyyat sektorunda sərnişin daşinması | 98.5 | 107.4 | 108.2 | 108.9 | 100.5 | 102.0 | 102.6 | 99.9 | 103.1 | 103.6 | 104.8 | 106.3 | 108.0 | 108.2 | |
| (1995 = 100 ) | 100.0 | 107.4 | 116.2 | 126.5 | 127.2 | 129.7 | 133.1 | 133.0 | 137.1 | 142.0 | 148.8 | 158.2 | 170.9 | 184.9 | |
| (2003 = 100 ) | | | | | | | | | 100.0 | 103.6 | 108.6 | 115.4 | 124.6 | 134.9 | |
| Satışın bütün kanallarında pərakəndə əmtəə dövriyyəsi, cəmi | 102.3 | 114.1 | 114.9 | 110.3 | 113.3 | 109.8 | 109.9 | 109.6 | 110.9 | 113.0 | 113.2 | 113.5 | 115.3 | 116.1 | 109 |
| (1995 = 100 ) | 100.0 | 114.1 | 131.1 | 144.6 | 163.8 | 179.9 | 197.7 | 216.7 | 240.3 | 271.5 | 307.4 | 348.9 | 402.3 | 467.0 | 508.6 |
| (2003 = 100 ) | | | | | | | | | 100.0 | 113.0 | 127.9 | 145.2 | 167.4 | 194.3 | 211.6 |
| Xidmətin bütün kanalları üzrə əhaliyə göstərilən pullu xidmətlər | 75.6 | 115.7 | 111.1 | 114.0 | 105.4 | 105.8 | 105.6 | 107.1 | 111.7 | 116.4 | 126.1 | 142.1 | 133.8 | 129.7 | 113 |
| (1995 = 100 ) | 100.0 | 115.7 | 128.5 | 146.5 | 154.5 | 163.4 | 172.6 | 184.8 | 206.4 | 240.3 | 303.0 | 430.6 | 576.1 | 747.2 | 840.6 |
| (2003 = 100 ) | | | | | | | | | 100.0 | 116.4 | 146.8 | 208.6 | 279.1 | 362.0 | 407.2 |
| Orta aylıq nominal əmək haqqı | 407.6 | 143.1 | 158.5 | 118.9 | 109.5 | 120.2 | 117.3 | 121.3 | 122.7 | 128.5 | 124.3 | 120.6 | 144.8 | 127.2 | 109 |
| (1995 = 100 ) | 100.0 | 143.1 | 226.8 | 269.7 | 295.3 | 355.0 | 416.4 | 505.0 | 619.7 | 796.3 | 989.8 | 1193.7 | 1728.5 | 2198.6 | 2387.7 |
| (2003 = 100 ) | | | | | | | | | 100.0 | 128.5 | 159.7 | 192.6 | 278.9 | 354.8 | 385.3 |

downloaded from KitabYurdu.org

## *Əsas makroiqtisadi göstəricilərin dinamikası*

### *Əlavə 1.12*

| Göstəricilər | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əhalinin sayı (ilin sonuna). min nəfər | 7726.2 | 7799.8 | 7876.7 | 7953.4 | 8016.2 | 8138.8 | 8233.5 | 8328.2 | 8422.9 | 8517.7 | 8612.5 | 8707.3 | 8802.1 | 8896.9 |
| O cümlədən: | | | | | | | | | | | | | | |
| Əmək qabiliyyətli yaşdan cavan | | | | | | | | | | | | | | |
| Cəmi | 2635.3 | 2636.1 | 2646.1 | 2694.6 | 2642.7 | 2407.4 | 2329.5 | 2254.6 | 2178.8 | 2121 | 2066.8 | 2030.9 | 1999.9 | 1977.6 |
| kişilər | 1357.2 | 1358.3 | 1363.3 | 1388.1 | 1364.1 | 1246.4 | 1209.4 | 1174.2 | 1138.6 | 1111.9 | 1087.4 | 1072.9 | 1060.7 | 1052.7 |
| qadınlar | 1278.1 | 1277.8 | 1282.8 | 1306.5 | 1278.6 | 1161 | 1210.1 | 1080.4 | 1040.2 | 1009.1 | 979.4 | 958 | 939.2 | 924.9 |
| Əmək qabiliyyətli yaşda | | | | | | | | | | | | | | |
| Cəmi | 4243.5 | 4296.9 | 4355 | 4515.4 | 4614.5 | 4907.5 | 5041.4 | 5170.6 | 5305.5 | 5439.5 | 5579.4 | 5709.9 | 5828.1 | 5938.1 |
| kişilər | 2167.8 | 2197.5 | 2227.4 | 2243.5 | 2289.3 | 2430.4 | 2492.3 | 252.3 | 2620.4 | 2692.5 | 2771.7 | 2844.6 | 2914.4 | 2977.9 |
| qadınlar | 2075.7 | 2099.4 | 2127.6 | 2271.9 | 2325.2 | 2477.1 | 2549.1 | 2549.1 | 2685.1 | 2747 | 2807.7 | 2865.3 | 2913.7 | 2960.2 |
| Əmək qabiliyyətli yaşdan yuxarı | | | | | | | | | | | | | | |
| Cəmi | 847.4 | 866.8 | 875.6 | 743.4 | 759 | 766.1 | 770.5 | 777.3 | 781.4 | 786.8 | 790.2 | 791.9 | 801.9 | 814.6 |
| kişilər | 277.7 | 289.5 | 292.5 | 251.5 | 264.9 | 287.1 | 287.1 | 296.5 | 299.5 | 299.3 | 293.1 | 287.5 | 283 | 282.4 |
| qadınlar | 569.7 | 577.3 | 583.1 | 491.9 | 494.1 | 483.4 | 483.4 | 480.8 | 481.9 | 487.5 | 497.1 | 504.4 | 518.9 | 532.2 |
| Əhalinin təbii artımı: | | | | | | | | | | | | | | |
| nəfər | 92487 | 81005 | 85090 | 77697 | 71244 | 70293 | 65072 | 64193 | 64466 | 82041 | 89939 | 96698 | 98308 | 99376 |
| əhalinin hər 1000 nəfərinə | 12.2 | 10.6 | 11 | 10 | 9 | 8.9 | 8.1 | 8 | 8 | 10 | 10.9 | 11.6 | 11.7 | 11.6 |
| İqtisadiyyatda məşğul olanların orta illik sayı, min nıfər | 3613 | 3686.7 | 3694.1 | 3701.5 | 3702.8 | 3704.5 | 3715 | 3726.5 | 3747 | 3809.1 | 3850.2 | 3973 | 4014.1 | 4056 |
| O cümlədən | | | | | | | | | | | | | | |
| Qeyri-dövlət müəssisələrində | 1585.8 | 1806.8 | 1976.4 | 1991.3 | 2360.8 | 2426.3 | 2475 | 2534.5 | 2567 | 2599.8 | 2620.4 | 2701.1 | 2779.5 | 2811.6 |
| İşsizlər, cəmi nəfər | | | | | | | | | 400.9 | 348.7 | 317.8 | 291.2 | 281.1 | 262.2 |
| Rəsmi qeydiyyatdan keçmiş işsizlərin ümumi sayı, nəfər | 28314 | 31935 | 38306 | 42329 | 45211 | 43739 | 48446 | 50963 | 54365 | 55945 | 56343 | 53862 | 50651 | 44481 |
| Əhalinin pul gəlirləri, mln.manat | 1340.5 | 1905.1 | 2473.4 | 2884.8 | 3226.9 | 3511.4 | 3876.4 | 4244.1 | 5738.1 | 6595.1 | 8063.6 | 10198.5 | 14558.2 | 20058.2 |
| Adambaşına düşən pul gəlirləri, min manat | 177.2 | 249.26 | 320.46 | 370.18 | 410.4 | 510.5 | 538.3 | 623.3 | 707.2 | 805.6 | 974.9 | 1219.2 | 1720.6 | 2343.2 |
| Əhalinin pul | 1275.8 | 1853 | 2411.3 | 2932 | 3184.5 | 3272.2 | 3498.4 | 4171.2 | 4793.8 | 5549.9 | 6508.7 | 8208.1 | 11249.4 | 15309.8 |

downloaded from KitabYurdu.org

| | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| xərcləri, mln.manat | | | | .5 | | | | | | | | | | |
| İqtisadiyyatda məşğul olan işçilərin orta aylıq əməkhaqqı, manat | 12.5 | 17.9 | 28.3 | 33.7 | 36.9 | 44.3 | 52 | 63.1 | 77.4 | 99.4 | 123.6 | 149 | 215.8 | 277.4 |
| Balans dəyəri ilə iqtisadiy-yatda əsas fondlar (ilin sonuna), mln.manat | 1219.5 | 15533.6 | 15637.3 | 1634.1 | 16974.1 | 18139.7 | 20959.7 | 22314.5 | 25412.4 | 29045.7 | 33939.3 | 40641.2 | 50183 | 58177.5 |
| Ümumi daxili məhsul: | | | | | | | | | | | | | | |
| Cəmi, mln.manat | 2133.8 | 2732.6 | 3158.3 | 3440.6 | 3775.1 | 4718.1 | 5315.6 | 6062.5 | 7146.5 | 8530.2 | 12522.5 | 18746.2 | 28360.5 | 38005.7 |
| Adambaşına, manat | 282.1 | 357.5 | 409.2 | 441.5 | 480.1 | 595.1 | 665.2 | 752.9 | 880.8 | 1042 | 1513.9 | 2241.1 | 3351.8 | 4439.9 |
| Son milli istehlak, mln.manat | 2072.7 | 2724.4 | 2750.2 | 3274.08 | 3450.04 | 3753.76 | 3994.2 | 4565.3 | 5170.9 | 5861.3 | 6579.7 | 8556.3 | 12212.5 | 16667.9 |
| Ümumi yığım, mln.manat | 507.3 | 792.4 | 1081.2 | 1148.1 | 1000.2 | 975.4 | 1099.1 | 2096.2 | 3799.8 | 4946.7 | 5201.2 | 5597.5 | 6104.6 | 7680.9 |
| Sənaye məhsulları², mln. manat | 1771.2 | 2392.8 | 2513.7 | 2323.9 | 2589 | 3339.5 | 3769 | 4019.5 | 4982.1 | 5961.4 | 9290.5 | 15509.4 | 22441.4 | 29697.6 |
| Kənd təsərrüfatı məhsulları, mln.manat | 713.4 | 903.7 | 824.5 | 884.3 | 946.2 | 1060.7 | 1178.7 | 1270.5 | 166.5 | 1476.6 | 1732.1 | 1969.7 | 2765 | 3308.4 |
| O cümlədən: | | | | | | | | | | | | | | |
| Bitkiçilik məhsulları | 418.1 | 529.6 | 486.4 | 538.6 | 541.7 | 617.7 | 717.4 | 774.1 | 807 | 874.8 | 988.2 | 1124.3 | 1726.4 | 2085 |
| Heyvandarlıq məhsulları | 295.3 | 374 | 338 | 345.7 | 404.5 | 443 | 4613 | 496.4 | 559.5 | 601.8 | 743.9 | 845.4 | 1038.6 | 1223.4 |
| Əsas fondların istifadəyə verilməsi, mln.manat | 75.6 | 282.9 | 317.1 | 355.8 | 530.2 | 666.9 | 647.6 | 1162.6 | 2183.1 | 3415.7 | 4780.7 | 5402.5 | 6035.2 | 8342.4 |
| Əsas kapitala qoyulan investisiyalar. mln.manat | 228 | 644.5 | 910.2 | 1102.4 | 928.5 | 967.8 | 1170.8 | 2107 | 3786.4 | 4922.8 | 5769.9 | 6234.5 | 7471.2 | 9944.2 |
| Yaşayış evlərinin istifadəyə verilmiş ümumi sahəsi, min kvadrat metr | 601 | 536 | 519 | 533 | 416 | 487 | 560 | 803 | 1339 | 1359 | 1593 | 1583 | 1616 | 1845 |
| Nəqliyyat sektorunda yük dövriyyəsi, mln, ton-km | 8331 | 8378 | 10678 | 12084 | 14805 | 15948 | 18447 | 20277 | 22291 | 23283 | 26534 | 43294 | 78007 | 88607 |
| Satışın bütün kanalları üzrə əhaliyə göstərilən pullu | 1058.7 | 1467.8 | 1697.1 | 1847.8 | 1889.6 | 2119.9 | 2375.5 | 2688.5 | 3062 | 3729.9 | 4622.2 | 5760.3 | 7591.4 | 10876 |

downloaded from KitabYurdu.org

| | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| xidmətlər, mln.manat | | | | | | | | | | | | | | |
| Xidmətin bütün kanalları üzrə əhaliyə göstərilən pullu xidmətlər, mln.manat | 167.5 | 278 | 352.8 | 420.5 | 453.5 | 477.2 | 497.7 | 531.8 | 592.2 | 694.6 | 960.7 | 1400.7 | 2348.3 | 3393 |
| Dövlət büdcəsinin gəlirləri: | | | | | | | | | | | | | | |
| mln. manat | 316.9 | 402.6 | 513 | 465.5 | 559.5 | 714.6 | 784.8 | 910.2 | 1220.9 | 1509.5 | 2055.2 | 3868.8 | 6006.6 | 10762.7 |
| Ümumi daxili məhsuldan faizlə | 14.9 | 14.7 | 16.2 | 13.5 | 14.8 | 15.1 | 14.7 | 15 | 17.1 | 17.7 | 16.4 | 20.6 | 21.2 | 28.3 |
| Dövlət büdcəsinin xərcləri | | | | | | | | | | | | | | |
| mln.manat | 428.4 | 481.9 | 588.7 | 528.3 | 651.4 | 764 | 8075 | 931.8 | 1234.5 | 1502.1 | 2140.7 | 3790.1 | 6086.2 | 10680.9 |
| Ümumi daxili məhsuldan faizlə | 20.1 | 17.6 | 18.6 | 15.3 | 17.9 | 16.2 | 15.2 | 15.4 | 17.3 | 17.6 | 17.1 | 20.2 | 21.5 | 28.1 |
| Dövlət büdcəsinin kəsiri: 3) | | | | | | | | | | | | | | |
| mln.manat | -111.44 | -79.34 | -75.66 | -62.88 | -9.19 | -49.32 | -22.68 | -21.5 | -13.6 | 7.3 | -85.5 | 78.6 | -79.6 | 81.8 |
| Ümumi daxili məhsuldan faizlə | 5.2 | 2.9 | 2.4 | 1.8 | 2.4 | 1 | 0.4 | 0.4 | 0.2 | 0.1 | 0.7 | 0.4 | 0.3 | 0.2 |
| İqtisadiyyatda mənfəət. mln. manat | 510.4 | 501.68 | 281.92 | 345.84 | 223.5 | 539.9 | 626.8 | 916.2 | 1141.9 | 1776.0 | 2133.1 | 2741.3 | 12276.3 | 11302.8 |
| Məcmu pul kütləsi (M2)(ilin sonuna). mln.manat | 191.5 | 240.8 | 311.3 | 243.7 | 280.9 | 325.8 | 351.1 | 405.2 | 518.4 | 683.6 | 796.7 | 2137.7 | 4401.6 | 6081 |
| Dövriyyədə nağd pul (M0) | 120.5 | 173.1 | 234.1 | 185.2 | 227.2 | 270 | 293.8 | 333.7 | 408.2 | 477.8 | 547.4 | 1311.3 | 2713.5 | 4145.7 |
| Təyin olunmuş aylıq pensiyaların orta məbləği, manat | 3.5 | 5.1 | 8.3 | 10.5 | 13 | 14.4 | 14.7 | 17.7 | 23.8 | 24 | 28.5 | 41.4 | 62.9 | 95.85 |

downloaded from KitabYurdu.org

| | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kredit qoyuluşları (ilin sonuna), mln.manat | 289.8 | 363.9 | 408.4 | 426.7 | 443.1 | 464.4 | 486.6 | 520.2 | 670.3 | 989.6 | 1440.9 | 2362.7 | 4681.8 | 7163.2 |
| O cümlədən: | | | | | | | | | | | | | | |
| Qısamüddətli | 253 | 335.2 | 380.2 | 417.5 | 432.1 | 336.4 | 353.9 | 374.2 | 487.1 | 700.9 | 913.2 | 1142 | 1649.5 | 2295.9 |
| Uzunmüddətli | 36.8 | 28.8 | 28.2 | 9.2 | 11 | 130 | 132.3 | 146 | 183.2 | 288.7 | 527.7 | 1220.7 | 3032.3 | 4867.3 |
| Xarici ticarət dövriyyəsi. mln. ABŞ dolları | 1304.8 | 1591.9 | 1575.6 | 1682.7 | 1965.6 | 2917.3 | 3745.2 | 3832.9 | 5216.6 | 7131.4 | 8558.4 | 11638.9 | 1177.7 | 54922.8 |
| O cümlədən | | | | | | | | | | | | | | |
| Ixrac | 637.2 | 631.3 | 781.3 | 606.2 | 929.7 | 1745.2 | 2314.3 | 2167.4 | 2590.4 | 3615.4 | 4347.2 | 6372.2 | 6058.2 | 47756.2 |
| İdxal | 667.6 | 960.6 | 794.3 | 1076.5 | 1035.9 | 1172.1 | 1430.9 | 1665.5 | 2626.2 | 3516 | 4211.2 | 5266.7 | 5713.5 | 7166.6 |
| Malların və xidmətlərin istehlak qiymətlərinin toplu indeksi (əvvəlki ilə nisbətən faizlə) | 511.8 | 119.9 | 103.7 | 99.2 | 91.5 | 101.8 | 101.5 | 102.8 | 102.2 | 106.7 | 109.6 | 108.3 | 116.7 | 120.8 |
| Sənaye məhsulunun topdansatış qiymət indeksi (orta hesabla ildə, əvvəlki ilə nisbətən, faizlə) | 560.7 | 200 | 130 | 88 | 94 | 127.4 | 101.8 | 97.7 | 116.1 | 112.9 | 118.9 | 117.7 | 108 | 111.2 |

1)Dəyər ifadəsində olan məlumatlar fəaliyyətdə olan faktiki qiymətlərlə verilmişdir.

2)Məlumatlar müvafiq illərin struktur və metodologiyası əsasında verilmişdir. 1992-2001-ci illər üçün məlumatlarda kiçik müştərək və qeyri-sənaye müəssisə və təşkilatlarının sənaye istehsalı alınmışdır.

3) (+) işarəsi gəlirlərin xərclərdən çox olmasını (profisit) göstərir.

downloaded from KitabYurdu.org

## Əlavə 2. Dünya iqtisadiyyatı yeni inkişaf mərhələsində: "Xidmət" iqtisadiyyatından "İnformasiya" iqtisadiyyatına keçid.

***Dünya ticarətinin strukturunda texnologiya tutumlu məhsulların xüsusi çəkisinin dinamikası (%)*** ***Əlavə 2.1***

| **Göstəricilər** | **1980** | **1999** | **1999/1980-ci illə müqayisədə (+,-)** |
|---|---|---|---|
| **I. Texnoloji tutumun səviyyələri:** | X | X | X |
| 1. Yüksək | 22 | 32 | +10% |
| 2. Orta | 11 | 22 | +11% |
| 3. Aşağı | 21 | 18 | -3% |
| **II. Qarışıq mallar** | 11 | 11 | X |
| **III.Resurslar** | 34 | 13 | -21% |
| **IV.Digər ilkin məhsullar** | 1.0 | 4.0 | +3% |

***Mənbə: World Development indicators – 1999. W.B.***

downloaded from KitabYurdu.org

***İnkişaf etmiş ölkələrdə istehsal olunmuş əlavə dəyərdə və ixracda yüksək texnologiyalı malların payı (%-lə)   Əlavə 2.2***

| *N* | *Ölkələr* | *Əlavə dəyər* | | *İxrac* | |
|---|---|---|---|---|---|
| | | 1970 | 1994 | 1970 | 1993 |
| 1 | ABŞ | 18.2 | 24.2 | 25.9 | 37.3 |
| 2 | Avstraliya | 8.9 | 12.2 | 2.8 | 10.3 |
| 3 | Avstriya | - | - | 11.4 | 18.4 |
| 4 | Almaniya | 15.3 | 20.1 | 15.8 | 21.4 |
| 5 | Belçika | - | - | 7.2 | 10.9 |
| 6 | Böyük Britaniya | 16.6 | 22.2 | 17.1 | 32.9 |
| 7 | Danimarka | 9.3 | 13.4 | 11.9 | 18.1 |
| 8 | İrlandiya | - | - | 11.7 | 43.6 |
| 9 | İsveç | 12.8 | 17.7 | 12.0 | 21.9 |
| 10 | İspaniya | - | 13.7 | 6.1 | 14.3 |
| 11 | İtaliya | 13.3 | 12.9 | 12.7 | 15.3 |
| 12 | Yaponiya | 16.4 | 22.2 | 20.2 | 36.7 |
| 13 | Yeni Zelandiya | - | 5.4 | 0.7 | 4.6 |
| 14 | Yunanıstan | - | - | 2.4 | 5.6 |
| 15 | Kanada | 10.2 | 12.6 | 9.0 | 13.4 |
| 16 | Niderland | 15.1 | 16.8 | 16.0 | 22.9 |
| 17 | Norveç | 6.6 | 9.4 | 4.7 | 10.7 |
| 18 | Finlandiya | 5.9 | 14.3 | 3.2 | 16.4 |
| 19 | Fransa | 12.8 | 18.7 | | 24.2 |

***Mənbə: World Development REPORT: knowledge for Development 1998/ 1999, W.B***

downloaded from KitabYurdu.org

***1999-cu ildə royalti və lisenziya qonararları üzrə:***
***Əlavə 2.3***

***Ən çox gəlir əldə edən 10 ölkə***

| N | Ölkə | Gəlirlər (mln.dolar) | Dünya gəlirlərindən payı (%-lə) |
|---|---|---|---|
| 1 | ABŞ | 29973 | 55.91 |
| 2 | Yaponiya | 6683 | 12.47 |
| 3 | Böyük Britaniya | 4725 | 8.81 |
| 4 | Almaniya | 3320 | 6.19 |
| 5 | Niderland | 2361 | 4.41 |
| 6 | Fransa | 1860 | 3.47 |
| 7 | İsveç | 997 | 1.86 |
| 8 | Norveç | 729 | 1.36 |
| 9 | Belçika | 683 | 1.27 |
| 10 | İtaliya | 381 | 0.71 |
| | **Yekun** | **51712** | **96.45** |
| | **Dünya** | **53612** | **100.00** |

downloaded from KitabYurdu.org

***Ən çox ödəmələr edən 10 ölkə***

| N | Ölkə | Ödəmələr (mln.dolar) | Dünya üzrə ödəmələrdə payı (%-lə) |
|---|---|---|---|
| 1 | ABŞ | 9834 | 19.82 |
| 2 | Yaponiya | 7322 | 14.75 |
| 3 | Böyük Britaniya | 5866 | 11.82 |
| 4 | Almaniya | 3625 | 7.30 |
| 5 | Niderland | 3434 | 6.92 |
| 6 | Fransa | 2852 | 5.75 |
| 7 | İsveç | 2627 | 5.29 |
| 8 | Norveç | 2431 | 4.90 |
| 9 | Belçika | 1424 | 2.87 |
| 10 | İtaliya | 1197 | 2.41 |
| | **Yekun** | **40612** | **81.83** |
| | **Dünya** | **49627** | **100.00** |

***Mənbə: World Development Indicators, 1999, W.B.***

downloaded from KitabYurdu.org

***Dünya üzrə birbaşa xarici investisiyaların həcmi: ölkələr və regionlar üzrə dinamikası (mlrd.dollar) Əlavə 2.4***

| ***Dünya ölkələri və regionlar*** | ***1980*** | ***1985*** | ***1990*** | ***1995*** |
|---|---|---|---|---|
| Bütövlükdə dünya üzrə xüsusi çəki (%) | 506.6 | 782.3 | 1768.5 | 2789.6 |
| | 100 | 100 | 100 | 100 |
| İnkişaf etmiş ölkələr üzrə xüsusi çəki (%) | 373.7 | 545.1 | 1394.9 | 1982.3 |
| | 73.7 | 69.7 | 78.8 | 71.0 |
| O cümlədən: 1.Böyük Britaniya | 63.0 | 64.0 | 218.7 | 213.9 |
| 2. Almaniya | 36.6 | 36.9 | 111.2 | 165.9 |
| 3.Fransa | 22.9 | 33.6 | 86.5 | 143.7 |
| 4. Hollandiya | 19.2 | 25.1 | 73.6 | 123.6 |
| 5. Belçika və Lüksemburq | 7.3 | 18.4 | 58.4 | 116.7 |
| 6. İspaniya | 5.1 | 8.9 | 65.9 | 112.1 |
| 7. İtaliya | 8.9 | 19.0 | 58.0 | 63.5 |
| 8. Avstraliya | 13.2 | 25.0 | 73.6 | 100.4 |
| 9.İsveçrə | 8.5 | 10.1 | 33.7 | 57.1 |
| 10. Yaponiya | 3.3 | 4.7 | 9.9 | 33.5 |
| - Şimali Amerika | 137.2 | 249.2 | 507.8 | 658.9 |
| Xüsusi çəkisi % | 27.0 | 31.8 | 28.7 | 23.6 |
| O cümlədən: 1. Kanada | 54.2 | 64.6 | 112.9 | 123.3 |
| 2. ABŞ | 83.0 | 184.6 | 394.6 | 535.6 |
| Latın Amerikası | 47.7 | 76.8 | 114.1 | 255.0 |
| Xüsusi çəki, % | 0.9 | 0.9 | 0.6 | 0.9 |
| O cümlədən: 1.Braziliya | 17.5 | 25.7 | 37.1 | 98.8 |
| 2. Meksika | 8.1 | 18.8 | 22.4 | 41.1 |
| 3. Argentina | 5.3 | 6.6 | 7.4 | 27.7 |
| 4. Çili | 0.9 | 2.3 | 10.1 | 15.5 |

downloaded from KitabYurdu.org

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| - Şərqi Avropa | 0 | 0 | 3.0 | 38.0 | 68.6 | 83.3 |
| Xüsusi çəki | X | X | X | 0.10 | 0.10 | 0.20 |
| O cümlədən: 1. Polşa | 0 | 0 | 0.1 | 7.8 | 16.6 | 21.7 |
| 2. Macarıstan | 0 | 0 | 0.6 | 11.9 | 15.9 | 18.3 |
| 3. Çexiya | 0 | 0 | 1.4 | 7.4 | 9.2 | 13.5 |
| 4. Rusiya | 0 | 0 | 0 | 5.5 | 14.4 | 13.4 |
| 5. Rumıniya | 0 | 0 | 0.8 | 1.2 | 3.6 | 4.3 |
| 6. Ukrayna | 0 | 0 | 0 | 0.9 | 2.1 | 2.8 |
| - Afrika | 13.8 | 23.4 | 37.6 | 57.9 | 67.7 | 75.3 |
| Xüsusi çəki % | 0.2 | 0.3 | 0.2 | 0.2 | 0.2 | 0.1 |

***Mənbə**: YUNTAD. 1999.*

downloaded from KitabYurdu.org

***Ölkə iqtisadiyyatlarının kapitallaşma səviyyəsi (mlrd. dollar)***

***Əlavə 2.5***

| *Ölkələr* | *1990* | *1999* | *1999/ 1990-cı ilə nisbətən (%)* | *1998-ci ilin ÜDM-də xüsusi çəkisi* | *Səhmləri fond bazarında kotirovka olunan şirkətlərin sayı* |
|---|---|---|---|---|---|
| 1. ABŞ | 3059.4 | 13451.4 | +4.4 dəfə | 163.4 | 8450 |
| 2. Yaponiya | 2917.7 | 2495.8 | -15.0% | 66.1 | 2416 |
| 3.Böyük Britaniya | 848.9 | 2374.3 | +2.8 dəfə | 174.9 | 2399 |
| 4.Almaniya | 355.1 | 1094 | +3.0 dəfə | 51.3 | 741 |
| 5. Fransa | 314.4 | 991.5 | +3.1 dəfə | 69.5 | 711 |
| 6. Avstraliya | 107.6 | 874.3 | +8.1 dəfə | 241.7 | 1162 |
| 7. İsveçrə | 160 | 689.2 | +4.3 dəfə | 261.4 | 232 |
| 8. Hollandiya | 119.8 | 603.2 | +5.0 dəfə | 158.0 | 212 |
| 9. İtaliya | 148.8 | 569.7 | +3.8 dəfə | 48.6 | 320 |
| 10. İspaniya | 111.4 | 402.3 | +3.6 dəfə | 72.7 | 484 |
| 11. Honqonq | 83.4 | 343.4 | +4.1 dəfə | 206.3 | 658 |
| 12. Çin | 2.0 | 330.7 | +165.3 dəfə | 24.1 | 950 |
| 13. Cənubi Koreya | 110.6 | 308.5 | +2.7 dəfə | 35.7 | 725 |
| 14. İsveç | 97.6 | 278.7 | +2.8 dəfə | 123.1 | 258 |
| 15. Cənubi Afrika Respublikası | 137.5 | 262.5 | +90% | 127.6 | 668 |
| 16. Braziliya | 16.4 | 228.0 | +13.9 dəfə | 20.7 | 478 |
| 17. Yunanıstan | 15.2 | 204.2 | +13.4 dəfə | 66.3 | 281 |
| 18. Hindistan | 38.6 | 184.6 | +4.7 dəfə | 24.5 | 5863 |
| 19. Meksika | 32.7 | 154.0 | +4.7 dəfə | 23.3 | 188 |
| 20. Malayziya | 48.6 | 145.4 | +2.9 dəfə | 136.0 | 757 |
| 21. Türkiyə | 19.1 | 112.7 | +5.9 dəfə | 16.9 | 285 |
| 22. Danimarka | 39.1 | 98.9 | +2.5 dəfə | 56.5 | 242 |
| 23. Sinqapur | 34.3 | 94.5 | +2.7 dəfə | 112.0 | 321 |
| 24. Argentina | 3.3 | 83.9 | +25.4 dəfə | 15.2 | 129 |
| 25. Rusiya | 0.2 | 72.2 | +361 dəfə | 7.4 | 207 |
| 26.Çili | 13.3 | 68.2 | +5.0 dəfə | 65.9 | 285 |
| 27. İndoneziya | 8.1 | 64.1 | +7.9 dəfə | 23.5 | 277 |
| 28. Portuqaliya | 9.2 | 63.0 | +6.8 dəfə | 59.0 | 135 |
| 29. Səudiyyə Ərəbistanı | 48.2 | 60.4 | +25.3 dəfə | 33.0 | 73 |
| 30. Tailand | 23.9 | 58.4 | +2.4 dəfə | 31.4 | 392 |
| 31. Polşa | 0.1 | 29.6 | +296 dəfə | 12.9 | 221 |

***Mənbə: World Development Indicators, W.B., 2000.***

downloaded from KitabYurdu.org

### *Əlavə 3. Qlobal Məcmu Məhsulun dinamikası: ölkələr və sivilizasiyalar bölümündə (mlrd.dollar)*

| *İslam ölkələri* | *Ölkələr* | *2000* | *2005* | *2008* | *2009* |
|---|---|---|---|---|---|
| 1 | Əfqanıstan | - | 6.489 | 11.709 | 13.318 |
| 2 | Albaniya | 3.640 | 8.188 | 12.964 | 11.726 |
| 3 | Əlcəzair | 54.749 | 102.721 | 159.669 | 134.797 |
| 4 | Azərbaycan | 5.273 | 13.245 | 46.378 | 42.505 |
| 5 | Bəhreyn | 7.966 | 13.456 | 21.236 | 19.361 |
| 6 | Banqladeş | 47.048 | 61.127 | 84.196 | 92.121 |
| 7 | Bosniya və Hersoqovina | 11.418 | 14.202 | 17.110 | 16.599 |
| 8 | Bruney Darussalam | 6.001 | 9.531 | 14.553 | 14.695 |
| 9 | Çad | 1.389 | 5.884 | 8.400 | 6.974 |
| 10 | Misir | 99.155 | 89.794 | 162.617 | 187.956 |
| 11 | Eriterya | 6.799 | 7.715 | 7.816 | 7.840 |
| 12 | Efiopiya | 7.900 | 12.307 | 26.393 | 33.920 |
| 13 | Qambiya | 0.423 | 0.462 | 0.810 | 0.726 |
| 14 | Qvineya | 3.112 | 2.937 | 4.517 | 4.436 |
| 15 | İndoneziya | 165.521 | 285.856 | 511.765 | 514.931 |
| 16 | İran | 96.440 | 188.046 | 335.233 | 331.757 |
| 17 | İraq | - | 31.383 | 91.453 | 70.104 |
| 18 | İordaniya | 8.461 | 12.629 | 21.225 | 22.556 |
| 19 | Qazaxıstan | 18.275 | 57.124 | 135.601 | 107.038 |
| 20 | Küveyt | 37.721 | 80.800 | 158.089 | 114.878 |
| 21 | Qırğızıstan | 1.368 | 2.460 | 5.050 | 4.681 |
| 22 | Liviya | 38.228 | 44.031 | 89.916 | 60.609 |
| 23 | Malaziya | 93.790 | 138.022 | 221.606 | 207.350 |
| 24 | Maldiv | 0.624 | 0.750 | 1.054 | 1.343 |
| 25 | Mali | 2.674 | 5.496 | 8.774 | 8.757 |
| 26 | Mavritaniya | 1.081 | 1.857 | 3.161 | 3.241 |
| 27 | Nigeriya | 46.138 | 112.248 | 207.116 | 165.437 |
| 28 | Oman | 19.450 | 30.905 | 59.946 | 52.335 |
| 29 | Pakistan | 74.080 | 109.595 | 164.557 | 166.513 |
| 30 | Qətər | 17.760 | 42.463 | 102.302 | 92.541 |
| 31 | Səudiyyə Ərəbistanı | 188.693 | 315.758 | 469.426 | 379.500 |
| 32 | Seneqal | 4.693 | 8.723 | 13.350 | 12.610 |
| 33 | Sudan | 12.365 | 27.386 | 58.029 | 54.294 |
| 34 | Suriya | 19.832 | 28.577 | 55.024 | 54.352 |
| 35 | Tacikistan | 0.991 | 2.311 | 5.135 | 4.557 |
| 36 | Tanzaniya | 10.186 | 14.165 | 20.668 | 22.159 |

downloaded from KitabYurdu.org

| | | | | | |
|---|---|---|---|---|---|
| 37 | Timor Lest | 0.233 | 0.332 | 0.499 | 0.599 |
| 38 | Tunis | 19.469 | 29.109 | 40.843 | 39.573 |
| 39 | Türkiyə | 266.439 | 482.685 | 729.983 | 593.533 |
| 40 | Türkmənistan | 5.022 | 17.175 | 25.000 | 26.000 |
| 41 | Özbəkistan | 13.717 | 14.310 | 27.918 | 30.321 |
| 42 | Yəmən | 9.679 | 16.732 | 26.909 | 26.236 |
| 43 | BƏB | 70.221 | 135.198 | 262.150 | 228.578 |
| 44 | Livan | 16.822 | 21.465 | 29.350 | 32.660 |
| 45 | Mərakeş | 37.022 | 59.524 | 88.879 | 90.775 |
| 46 | Niger | 1.672 | 3.375 | 5.382 | 5.323 |
| 47 | Komor adaları | 0.202 | 0.363 | 0.532 | 0.525 |
| | **Cəmi:** | **1.036.908** | **2.668.911** | **4.554.293** | **4.112.64** |

| ***Pravosl av*** | ***Ölkələr*** | ***2000*** | ***2005*** | ***2008*** | ***2009*** |
|---|---|---|---|---|---|
| 1 | Belarus | 10.418 | 30.210 | 60.302 | 49.043 |
| 2 | Bolqarıstan | 12.600 | 27.188 | 49.904 | 44.777 |
| 3 | Gürcüstan | 3.042 | 6.411 | 12.864 | 10.981 |
| 4 | Yunanıstan | 127.604 | 246.217 | 357.548 | 338.250 |
| 5 | Moldova | 1.289 | 2.988 | 6.047 | 5.328 |
| 6 | Rumıniya | 37.305 | 99.173 | 200.074 | 160.674 |
| 7 | Rusiya | 259.702 | 764.256 | 1.676.586 | 1.254.65 1 |
| 8 | Serbiya | 8.661 | 25.300 | 50.061 | 42.385 |
| 9 | Ukrayna | 31.262 | 86.137 | 179.604 | 115.706 |
| 10 | Kipr | 9.317 | 16.996 | 24.922 | 23.221 |
| 11 | Çexiya | 56.717 | 124.549 | 216.354 | 189.669 |
| 12 | Slovakiya | 20.471 | 47.978 | 95.404 | 88.296 |
| 13 | Sloveniya | 19.990 | 35.750 | 54.639 | 49.551 |
| | **Cəmi** | **598.378** | **1.513.153** | **2.984.309** | **2.372.53 2** |

| ***Hinduizm*** | ***Ölkələr*** | ***2000*** | ***2005*** | ***2008*** | ***2009*** |
|---|---|---|---|---|---|
| 1 | Hindistan | 461.913 | 784.254 | 1.206.684 | 1.242.641 |
| 2 | Surinam | 0.946 | 1.785 | 2.933 | 3.147 |
| | **Cəmi** | **462.859** | **786.039** | **1.209.617** | **1.245.788** |

| ***Sintoizm*** | ***Ölkələr*** | ***2000*** | ***2005*** | ***2008*** | ***2009*** |
|---|---|---|---|---|---|
| 1 | Yaponiya | 4.667.448 | 4.452.192 | 4.910.692 | 5.048.634 |
| | **Cəmi** | **4.667.448** | **4.452.192** | **4.910.692** | **5.048.634** |

downloaded from KitabYurdu.org

| ***Konfusiçilik*** | ***Ölkələr*** | ***2000*** | ***2005*** | ***2008*** | ***2009*** |
|---|---|---|---|---|---|
| 1 | Çin | 1.198.478 | 2.235.750 | 4.327.448 | 4.757.743 |
| 2 | Tayvan | 321.187 | 355.975 | 391.351 | 357.344 |
| 3 | KR | 533.385 | 844.866 | 929.124 | 800.294 |
| | **Cəmi** | **2.053.050** | **3.436.591** | **5.647.923** | **5.915.381** |

| ***Budizm*** | ***Ölkələr*** | ***2000*** | ***2005*** | ***2008*** | ***2009*** |
|---|---|---|---|---|---|
| 1 | Monqolustan | 1.089 | 2.307 | 5.243 | 4.212 |
| 2 | Nepal | 5.893 | 8.165 | 12.283 | 13.140 |
| 3 | Şrilanka | 16.891 | 24.406 | 39.604 | 41.323 |
| 4 | Butan | 0.447 | 0.816 | 1.389 | 1.473 |
| 5 | Myanma | 8.905 | 11.987 | 26.205 | 26.523 |
| 6 | Tailand | 122.725 | 176.352 | 273.313 | 266.434 |
| 7 | Vyetnam | 31.176 | 52.931 | 89.829 | 91.764 |
| 8 | Komboca | 3.653 | 6.286 | 11.250 | 10.901 |
| 9 | Sinqapur | 92.717 | 120.953 | 181.939 | 163.132 |
| 10 | Qana | 4.980 | 10.726 | 16.654 | 14.761 |
| 11 | Benin | 2.383 | 4.396 | 6.712 | 6.401 |
| 12 | Liberiya | 0.529 | 0.528 | 0.850 | 0.868 |
| 13 | Toqo | 1.295 | 2.111 | 2.890 | 2.771 |
| 14 | Siyerra-Leone | 0.636 | 1.239 | 1.953 | 2.064 |
| 15 | Qvineya-Bisau | 0.230 | 0.302 | 0.461 | 0.438 |
| 16 | Konqo | 7.538 | 13.347 | 22.403 | 18.736 |
| 17 | Zambiya | 3.238 | 7.271 | 14.654 | 12.293 |
| 18 | Mozambik | 4.183 | 6.579 | 9.897 | 9.654 |
| 19 | Madaqaskar | 3.878 | 5.039 | 9.463 | 8.974 |
| 20 | Zimbabve | 6.065 | 3.870 | 3.145 | 3.556 |
| | **Cəmi** | **318.451** | **459.611** | **730.137** | **699.418** |

| **Qərb sivilizasiyası** | **Ölkələr** | **2000** | **2005** | **2008** | **2009** |
|---|---|---|---|---|---|
| 1 | ABŞ | 9.951.475 | 12.638.375 | 14.441.425 | 14.266.201 |
| 2 | Almaniya | 1.905.795 | 2.793.232 | 3.673.105 | 3.235.463 |
| 3 | Böyük Britaniya | 1.480.527 | 2.282.888 | 2.680.000 | 2.198.163 |
| 4 | İsveç | 245.572 | 366.009 | 478.961 | 397.730 |
| 5 | Norveç | 168.288 | 302.013 | 451.830 | 368.962 |

downloaded from KitabYurdu.org

| | | | | | |
|---|---|---|---|---|---|
| 6 | Danimarka | 160.082 | 257.676 | 340.029 | 308.323 |
| 7 | Finlandiya | 122.154 | 195.671 | 271.867 | 242.328 |
| 8 | İslandiya | 8.697 | 16.302 | 16.788 | 11.781 |
| 9 | Avstraliya | 389.956 | 713.205 | 1.013.461 | 920.010 |
| 10 | Yeni Zelandiya | 52.369 | 109.493 | 128.409 | 109.563 |
| 11 | Papua-Yeni Qvineya | 3.521 | 4.898 | 8.092 | 8.200 |
| 12 | Avstriya | 191.761 | 303.447 | 414.828 | 374.417 |
| 13 | Belçika | 232.626 | 376.990 | 506.183 | 461.489 |
| 14 | Kanada | 724.914 | 1.133.757 | 1.499.551 | 1.319.137 |
| 15 | Xorvatiya | 21.351 | 44.440 | 69.357 | 61.724 |
| 16 | Estoniya | 5.680 | 13.903 | 23.545 | 18.045 |
| 17 | Fransa | 1.333.377 | 2.147.755 | 2.866.951 | 2.634.817 |
| 18 | Macarıstan | 47.885 | 110.195 | 155.930 | 124.241 |
| 19 | Irlandiya | 96.865 | 201.926 | 267.579 | 226.771 |
| 20 | Italiya | 1.100.563 | 1.780.781 | 2.313.893 | 2.089.555 |
| 21 | Latviya | 7.833 | 16.042 | 33.981 | 24.198 |
| 22 | Litviya | 11.434 | 25.977 | 47.304 | 35.964 |
| 23 | Luksemburq | 20.329 | 37.668 | 54.973 | 46.513 |
| 24 | Malta | 3.898 | 5.945 | 8.370 | 7.714 |
| 25 | Filippin | 75.912 | 98.829 | 166.909 | 158.702 |
| 26 | Polşa | 171.263 | 303.976 | 527.866 | 422.965 |
| 27 | Portuqaliya | 112.980 | 185.771 | 244.640 | 219.844 |
| 28 | Spaniya | 582.377 | 1.132.132 | 1.601.964 | 1.438.356 |
| 29 | Isveçrə | 249.912 | 372.477 | 500.260 | 484.132 |
| | **Cəmi** | **19.497.396** | **27.971.113** | **34.808.051** | **32.215.308** |

downloaded from KitabYurdu.org

| *Latın Amerikası* | *Ölkələr* | *2000* | *2005* | *2008* | *2009* |
|---|---|---|---|---|---|
| 1 | Argentina | 284.204 | 181.549 | 324.767 | 301.331 |
| 2 | Anqola | 9.135 | 30.632 | 84.945 | 69.708 |
| 3 | Meksika | 628.854 | 849.030 | 1.088.128 | 866.336 |
| 4 | Nikaraqua | 3.939 | 4.871 | 6.365 | 6.298 |
| 5 | Honduras | 7.104 | 9.672 | 14.001 | 14.581 |
| 6 | Qvatemala | 17.187 | 27.218 | 38.983 | 36.471 |
| 7 | Panama | 11.621 | 15.465 | 23.088 | 24.754 |
| 8 | Kosta-Rika | 15.947 | 19.967 | 29.664 | 29.291 |
| 9 | Beliz | 0.832 | 1.115 | 1.359 | 1.407 |
| 10 | Salvador | 13.134 | 17.070 | 22.115 | 22.166 |
| 11 | Kuba | | | | |
| 12 | Dominikan Respublikası | 23.999 | 29.215 | 44.439 | 44.716 |
| 13 | Hayiti | 3.954 | 4.311 | 6.943 | 6.908 |
| 14 | Trinidad və Tobaqo | 8.157 | 15.982 | 25.925 | 23.002 |
| 15 | Dominika | 0.271 | 0.299 | 0.364 | 0.376 |
| 16 | Sent-Luisiya | 0.708 | 0.879 | 0.987 | 0.991 |
| 17 | Qrenada | 0.430 | 0.554 | 0.678 | 0.683 |
| 18 | Braziliya | 644.283 | 881.753 | 1.572.839 | 1.481.547 |
| 19 | Qayana | 4.980 | 10.726 | 16.654 | 14.761 |
| 20 | Paraqvay | 7.087 | 7.494 | 16.006 | 13.611 |
| 21 | Uruqvay | 22.823 | 17.478 | 32.187 | 31.606 |
| 22 | Peru | 53.323 | 79.408 | 127.462 | 127.368 |
| 23 | Kolumbiya | 94.075 | 144.539 | 240.832 | 288.614 |
| 24 | Boliviya | 8.412 | 9.574 | 16.602 | 17.549 |
| 25 | Venesuela | 117.153 | 144.128 | 319.443 | 353.469 |
| 26 | Çili | 75.200 | 118.250 | 169.458 | 150.361 |
| 27 | Ekvador | 15.934 | 37.187 | 54.686 | 55.613 |
| 28 | Qabon | 5.096 | 8.666 | 14.535 | 10936 |
| 29 | Burundi | 0.709 | 0.801 | 1.097 | 1.410 |
| 30 | Ruanda | 1.718 | 2.398 | 4.459 | 5.011 |
| 31 | Kamerun | 10.46 | 16.593 | 23.732 | 21.820 |
| 32 | MAR | 0.917 | 1.352 | 1.997 | 1.983 |
| 33 | Keniya | 12.316 | 18.769 | 29.564 | 30.212 |
| 34 | Uqanda | 6.196 | 9.223 | 14.565 | 15.658 |
| 35 | CAR | 132.964 | 242.676 | 276.764 | 277.379 |
| 36 | Namibiya | 3.911 | 7.258 | 8.835 | 9.039 |
| 37 | Botusvana | 5.648 | 10.363 | 13.461 | 10.808 |
| 38 | Lesoto | 0.783 | 1.376 | 1.618 | 1.624 |
| 39 | Svazilend | 1.545 | 2.572 | 2.840 | 2.929 |
| 40 | Baham adaları | 5.650 | 6.797 | 7.564 | 7.403 |

downloaded from KitabYurdu.org

| | | | | | |
|---|---|---|---|---|---|
| 41 | Yamayka | 9.018 | 11.154 | 14.029 | 11.923 |
| 42 | Barbodos | 2.559 | 3.005 | 3.670 | 3.595 |
| 43 | Antiqua və Barbuda | 0.678 | 0.873 | 1.224 | 1.180 |
| 44 | Sent-Vinsent və Qrenadini | 0.335 | 0.445 | 0.601 | 0.625 |
| 45 | Sent-Kits və Nevis | 0.329 | 0.439 | 0.546 | 0.547 |
| 46 | Fici | 1.684 | 2.963 | 3.589 | 3.048 |
| 47 | Solomon ada | 0.412 | 0.414 | 0.642 | 0.668 |
| 48 | Vanuatu | 0.245 | 0.370 | 0.573 | 0.554 |
| 49 | Qərbi Samoa | 0.220 | 0.407 | 0.500 | 0.567 |
| 50 | Kiribati | 0.066 | 0.106 | 0.137 | 0.114 |
| 51 | Tonqa | 0.158 | 0.219 | 0.258 | 0.259 |
| 52 | Ekvatoriyal-Qvineya | 1.243 | 8.217 | 18.525 | 11.175 |
| 53 | San-Tome və Prinsipi | 0.077 | 0.115 | 0.175 | 0.189 |
| 54 | Seyşel adaları | 0.738 | 0.884 | 0.822 | 0.656 |
| | **Cəmi:** | **1.277.050** | **1.860.232** | **3.091.827** | **3.042.487** |
| | **Dünya üzrə cəmi:** | **42.094.169** | **56.452.937** | **69.488.851** | **69.743.258** |

downloaded from KitabYurdu.org

***Əsas sivilizasiyalar üzrə QMM-nin dinamikası (mlrd.dollar)***
***Əlavə 3.1***

| **Sivilizasiyalar** | **2000** | **2005** | **2008** | **2009** |
|---|---|---|---|---|
| 1 Qərb | 19.497.396 | 27.971.773 | 34.808.051 | 32.215.308 |
| 2 Latın Amerikası | 1.277.050 | 1.860.232 | 3.091.827 | 3.042.487 |
| 3 İslam | 1.036.908 | 2.668.911 | 4.554.293 | 4.112.645 |
| 4 Çin | 2.053.050 | 3.436.591 | 5.647.923 | 5.915.381 |
| 5 İndus | 462.859 | 786.039 | 1.209.617 | 1.245.788 |
| 6 Pravoslav | 598.378 | 1.513.153 | 2.984.309 | 2.372.532 |
| 7 Budist | 318.451 | 459.611 | 730.137 | 699.418 |
| 8 Yapon | 4.667.448 | 4.452.192 | 4.910.692 | 5.048.634 |

downloaded from KitabYurdu.org

***Əsas sivilizasiyalarının QMM-də xüsusi çəkisinin dinamikası (mlrd.dollar)*** ***Əlavə 3.2***

| **Sivilizasiyalar** | **2000** | **2005** | **2008** | **2009** |
|---|---|---|---|---|
| 1 Qərb | 46.3 | 49.5 | 50.1 | 46.2 |
| 2 Latın Amerikası | 3.0 | 3.3 | 4.4 | 4.4 |
| 3 İslam | 2.5 | 4.7 | 6.6 | 5.9 |
| 4 Çin | 4.9 | 6.1 | 8.1 | 8.5 |
| 5 İndus | 1.1 | 1.4 | 1.7 | 1.8 |
| 6 Pravoslav | 1.4 | 2.7 | 4.3 | 3.4 |
| 7 Budist | 0.8 | 0.8 | 1.1 | 1.0 |
| 8 Yapon | 11.1 | 7.9 | 7.1 | 7.2 |

downloaded from KitabYurdu.org

**Mündəricat**

**Giriş**........................................................................................

**I BÖLMƏ. GİRİŞƏ SÖZ ARDI**

**I fəsil. Tarix fəlsəfəsi : problemlər, mülahizələr**.....................
§1.1. Tarixin mənası varmı?......................................................
§1.2. Tarixi tərəqqi və tarixi qanunlar. ........................................
§1.3. Tarixi inkişaf problemi......................................................
§1.4. Dünya tarixinin və bəşəriyyətin vahidliyi problemi............
§1.5. Tarixi proses: yanaşma tərzi və subyekt müəyyənliyi problemi..........................................................................................

**II BÖLMƏ. DÜNYA İQTİSADİYYATININ TARİXİ ELM KİMİ**

**II fəsil. Tarix və iqtisad elmi: sintezin gerçək mahiyyəti**.........
§2.1. Təkamül və müasirlik........................................................
§2.2. Sintezin "qırılma" nöqtələri...............................................
§2.3. Metodoloji dilemmalar......................................................
§2.4. İqtisadi fikirdə zaman problemi..........................................
§2.5. İqtisadi zamanın spesifikası: konseptual ümumiləşdirmə....

**III fəsil. "Dünya iqtisadiyyatının tarixi" fənn kimi**................
§3.1. Təkamül və müasirlik........................................................
§3.2. Fənnin məzmunu. .............................................................
§3.2.1. Predmet..........................................................................
§3.2.2. Vəzifələr.........................................................................
§3.2.3. Funksiyalar.....................................................................
§3.2.4. Metodiki aparat...............................................................

**IV fəsil. Ümumdünya tarixi – iqtisadi prosesin dövrlənməsi: nəzəri baxışların panaraması**....................................................
§4.1. Tarixi dövrlənmənin əsas paradiqmaları............................
§4.2. Tarixəqədərki tarix: dövrlənmə problemi..........................
§4.3. Tarixi dövrlənmə problemi fəlsəfi müstəvidə....................
§4.4. Tarixi dövrlənmənin marksist nəzəriyyəsi.........................
§4.5. Tarixi dövrlənmə: sivilizasiya nəzəriyyəsi.........................
§4.6. Tarixi dövrlənmə: modernizm nəzəriyyəsi........................

downloaded from KitabYurdu.org

§4.7. Tarixi dövrlənmə: dünya – sistem yanaşması....................
§4.8. Tarixi dövrlənmə: neoevolyusionizm (Yeni təkamül nəzəriyyəsi)......................................................................
§4.9. Tarixi dövrlənmə: çoxxətli nəzəriyyələr............................
§4.10. Tarixi dövrlənmə: müxtəlif konsepsiyaların xülasəsi........
§4.11. Tarixi dövrlənmə: texnoloji – amil nəzəriyyələri..............
§4.12. Tarixi dövrlənmənin futuroloji interpretasiyası................
§4.13. Tarixi dövrlənmənin riyazi modelləri.............................
§4.14. Tarixi dövrlənmə: nəzəri ümumiləşdirmə və problemlər...

## III BÖLMƏ. DÜNYA İQTİSADİYYATININ GENEZİSİNƏ QƏDƏRKİ DÖVR

**V fəsil. Ən qədim və qədim dünyanın tarixi iqtisadiyyatı......**
§5.1. Tarixiqədərki və cəmiyyətəqədərki dövr ( 1.6 – 0.04 mln.il əvvəl)..........................................................................
§5.2. Ən qədim dövr – “mənimsəmə”iqtisadiyyatı.....................
§5.3. İbtidai cəmiyyət epoxası ( 40 – 6 min il əvvəl)..................
§5.4. Qədim dövr: ilk sivilizasiyaların yaranması. Asiya və antik təsərrüfatçılıq modelləri....................................................
§5.5. “Qədim dövr” anlayışı və sizilizasiya.................................
§5.6. Qədim Şərqin tarixi iqtisadiyyatı.......................................
§5.6.1. Mesopotamiya dövlətlərinin iqtisadiyyatı........................
§5.6.2. Qədim Misirin iqtisadiyyatı...........................................
§5.6.3. Qədim Çinin iqtisadiyyatı.............................................
§5.6.4. Qədim Hindistanın iqtisadiyyatı.....................................
§5.7. Antik epoxa ( b.e.ə. VIII əsr – b.e.ə. V əsr ): Qədim Yunanıstan və Qədim Roma.......................................................
§5.7.1. Qədim Romanın iqtisadiyyatı.........................................
§5.7.2. Qədim Yunanıstanın iqtisadiyyatı..................................
§5.8. Asiya (Qədim Şərq ) və antik təsərrüfatçılıq modellərinin müqayisəsi...................................................................

**VI fəsil. Türklər qədim dövrdə...............................................**
§6.1. Qədim türkün iqtisadi sistemi............................................
§6.2. Ən qədim və qədim dövr Azərbaycanı..............................

**VII fəsil. “İstehsal” iqtisadiyyatı: meyllər və təmayüllər. Erkən və klassik orta əsrlər.....................................................**

downloaded from KitabYurdu.org

§7.1. Orta əsrlərin xronologiyasına müasir baxış........................
§7.2. Erkən və klassik orta əsrlərin "istehsal iqtisadiyyatı"..........
§7.3. Səlib yürüşləri: sosial – iqtisadi nəticələr. .........................

**IV BÖLMƏ. DÜNYA İQTİSADİYYATININ GENEZİSİ DÖVRÜ**

**VIII fəsil. "İstehsal iqtisadiyyatı" – son orta əsrlər ( XVI – XVIII əsrlər).....................................................................**
§8.1. Son orta əsrlərin ümumiqtisadi xarakteristikası.................
§8.2. Qərbi Avropada bazar iqtisadiyyatının genezisi.................
§8.2.1. Böyük coğrafi kəşflərin sosial – iqtisadi nəticələri...........
§8.2.2. Müstəmləkə sisteminin formalaşması.............................
§8.2.3. İlkin kapital yiğımı.........................................................
§8.2.4. Bazar iqtisadiyyatına keçid: sistem dəyişikliyininin institutsional məzmunu...............................................................
§8.2.5.Sənaye inqilabı : mahiyyəti və əhəmiyyəti.......................

**IX fəsil. Təsərrüfatçılıq formaları və iqtisadiyyatın struktur təkamülü xüsusiyyətləri: Şərq və Qərb...................................**
§9.1. Şərq və Qərb təsərrüfatçılıq modelləri................................
§9.2. Şərq – Qərb fərqliliyin anatomiyası....................................
§9.3. Qərbin dünya liderliyinə keçidi..........................................
§9.4. Şərq və Qərb ölkələri orta əsrlərdə: "istehsal iqtisadiyyatının" inkişaf xüsusiyyətləri......................................
§9.4.1. Fransanın iqtisadiyyatı.....................................................
§9.4.2. İngiltərənin iqtisadiyyatı..................................................
§9.4.3. Almaniyanın iqtisadiyyatı...............................................
§9.4.4. Niderlandın iqtisadiyyatı.................................................
§9.4.5. Yaponiyanın iqtisadiyyatı...............................................
§9.4.6. Çinin iqtisadiyyatı...........................................................

**X fəsil. Türklər orta əsrlərdə....................................................**
§10.1. Türk dövlətlərinin iqtisadi sistemi...................................
§10.1.1. Böyük Osmanlı imperiyası............................................
§10.1.2. Orta əsrlər Azərbaycan iqtisadiyyatı..............................

**V BÖLMƏ. DÜNYA İQTİSADİYYATININ QƏRARLAŞMASI DÖVRÜ**

downloaded from KitabYurdu.org

**XI fəsil. Dünya iqtisadiyyatının genezisi prosesi: konseptual ümumiləşdirmə.............................................................................**
§11.1. Dünya bazarının təşəkkülü................................................
§11.2. Dünya iqtisadiyyatında sistemyaradan element: ticarət tarixi müstəvidə................................................................
§11.3. Dünya iqtisadiyyatının genezisi : inhisar fenomeni...........
§11.4. İnhisarçı yaranış bazar prosesinin məntiqi nəticəsidir.......

**XII fəsil. Dünya iqtisadiyyatının inkişaf mərhələləri..............**
§12.1. Qərb ölkələrində industrial sistemə keçid.........................
§12.1.1. Fransanın iqtisadiyyatı..................................................
§12.1.2. İngiltərənin iqtisadiyyatı...............................................
§12.1.3. ABŞ-ın iqtisadiyyatı.....................................................
§12.1.4. Almaniyanın iqtisadiyyatı............................................
§12.2 Yaponiyanın iqtisadiyyatı..................................................
§12.3. Hindistanın iqtisadiyyatı..................................................
§12.4. Azərbaycan iqtisadiyyatı: XIX əsrin sonu – XX əsrin əvvəlləri........................................................................................

## VI BÖLMƏ. DÜNYA İQTİSADİYYATININ İNKİŞAFI DÖVRÜ

**XIII fəsil. Dünya iqtisadiyyatının inkişafı: III mərhələ (1913-1970-ci illər).....................................................................**
§ 13.1. Qlobal inkişafın III mərhələsi haqqında bəzi mülahizələr...................................................................................
§ 13.2. I Dünya müharibəsi: səbəbləri və iqtisadi nəticələri........
§ 13.3. Böyük depressiya (1929-1933). .....................................
§ 13.4. Qərb ölkələri müharibələr (I və II Dünya müharibələri) arası dövrdə.........................................................................
§ 13.4.1. ABŞ iqtisadiyyatı........................................................
§ 13.4.2. Almaniya iqtisadiyyatı................................................
§ 13.4.3. İngiltərə iqtisadiyyatı..................................................
§ 13.4.4. Fransa iqtisadiyyatı.
§ 13.5. Yaponiya iqtisadiyyatı....................................................
§ 13.6. Azərbaycan iqtisadiyyatı................................................

**XIV fəsil. II Dünya müharibəsi (1939-1945): sosial-iqtisadi**

downloaded from KitabYurdu.org

**nəticələr ..........................................................................................**
§ 14.1. II Dünya müharibəsindən sonrakı dövr (1945-1983): ölkələr bölümündə inkişafın qısa xülasəsi.............................
§ 14.2. ABŞ-ın iqtisadiyyatı.......................................................
§ 14.3. Qərbi Avropa ölkələrinin iqtisadi inkişaf prosesi (1945-1983) .............................................................
§ 14.3.1. Böyük Britaniyanın iqtisadiyyatı.................................
§ 14.3.2. Fransanın iqtisadiyyatı...............................................
§ 14.3.3. Almaniyanın (AFR) iqtisadiyyatı................................
§ 14.4. Qərb ölkələrində iqtisadi artım siyasəti (1945-1983).......
§ 14.5. Yaponiyanın iqtisadiyyatı...............................................
§ 14.6. Çinin iqtisadiyyatı. ........................................................
§ 14.7. Türkiyə Respublikasının iqtisadiyyatı.............................
§ 14.8. Azərbaycan: II Respublika inkişaf prosesində.................
§ 14.9. - SSRİ-nin yaranması və inkişafı................................
§ 14.10. Dünya sosializm sisteminin yaranması......................

**XV fəsil. Dünya iqtisadiyyatının inkişaf dövrü: IV mərhələ (1970-2000) "xidmət" iqtisadiyyatı...........................................**
§15.1. Dünya iqtisadiyyatı: Elmi-texniki inqilablar seriyası........
§15.2. "İstehsal" iqtisadiyyatından "xidmət" iqtisadiyyatına keçid.........................................................................................
§15.3. Dünya iqtisadiyyatı: inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr: iki əsrlik (XIX-XX) inkişaf dinamikası..................
§15.4. Türkiyə iqtisadiyyatı qloballaşma dövründə.....................
§15.5. Dünya sosializm sisteminin süqutu: keçid iqtisadiyyatlı ölkələr qrupu.........................................................................
§15.5.1. Keçid dövrünün konseptual məzmunu. .........................
§ 15.5.2. Keçid dövrü: Şərqi Avropa və sabiq SSRİ respublikaları.......................................................................
§ 15.5.3 Azərbaycan: III Respublika iqtisadi inkişaf prosesində..
§ 15.6 Qloballaşma prosesi: mahiyyəti, təsir dairəsi, perspektivləri. ..................................................................
§ 15.6.1. Qlobal ədalət müstəvisində "qloballaşma" kabusu.......

**XVI fəsil. Dünya iqtisadiyyatının inkişafında V mərhələ: "informasiya iqtisadiyyatı".....................................................**
§16.1. İnformasiya iqtisadiyyatı: mahiyyəti və xüsusiyyətləri....

downloaded from KitabYurdu.org

§16.2. Qlobal informasiya iqtisadiyyatı indeksi: ölkələr bölümündə qiymətləndirmə........................................................
§16.3. İnformasiya iqtisadiyyatı: virtuallaşmanın fəsadları.........

## VII BÖLMƏ. SON SÖZ ƏVƏZİ

**XVII fəsil. Dünya iqtisadiyyatı perspektiv planda.................**
§17.1. Dünya iqtisadiyyatının inkişaf proqnozu..........................
§17.2. Dünya iqtisadiyyatı: paradiqmal yeniləşmə zəruriliyi.......
§ 17.2.1. Böhran niyə baş verdi? ...............................................
§ 17.2.2. İqtisad elmi böhran müstəvisində................................
§ 17.3. Yeni qlobal inkişaf paradiqması....................................
§ 17.3.1. Problemin qoyuluşu....................................................
§ 17.3.2. Nəzəri problemlər.......................................................
§ 17.3.3. Yeni paradiqma: keçid situasiyasının konseptual sərhədləri.........................................................................

**Ədəbiyyat siyahısı......................................................................**
**Əlavələr.........................................................................................**

downloaded from KitabYurdu.org

**Əlavələr**

downloaded from KitabYurdu.org

***Tarixi prosein dövrlənməsi***

downloaded from KitabYurdu.org